11. Qafqazın dumanlı Albionu, ermənilərin azərbaycanlılardan 5 əsr sonra gəldiyi Şuşa. URL: https://report.az/qarabag/qafqazin-dumanli-albionu-ermenilerin-azerbaycanlilar dan-5-esr-sonra-geldiyi-susa/

12. Никитин, К.А. Очерк города Шуши и Шушинского уезда. URL: catalog.nplg.gov.ge/ search~S1*geo

13. Очерк города Шуши и Шушинского уезда. URL: web2.anl.az:81/read/ page.php?bibid= vtls000406944

ABŞ, RUSİYA VƏ FRANSANIN 44 GÜNLÜK VƏTƏN MÜHARİBƏSİNDƏ VƏ MÜHARİBƏDƏN SONRA MÖVQELƏRİ

POSITIONS OF THE UNITED STATES, RUSSIA AND FRANCE IN THE 44 DAYS OF PATRIOTIC WAR AND AFTER THE WAR

Ramilə Bəhlul qızı Dadaşova

Siyasi elmlər doktoru, dosent

AMEA-nın Qafqazşünaslıq İnstitutunun icraçı direktoru

https://orcid.org/0000-0002-2376-5941

As a result of the political and moral support of the Republic of Turkey and the refutation of the false information of Armenia by the President of the Republic of Azerbaijan Ilham Aliyev, Russia, the United States and France - the co-chairs of the Minsk Group on Nagorno-Karabakh could not openly interfere in the 44-day war.

In the 44-day Patriotic War of 2020, the United States did not interfere in the internal affairs of Azerbaijan. The main reason for this is that the war coincided with the date of the US presidential election.

The tense situation between Turkey and the United States after Joe Biden was elected President on January 20, 2021, also affected Azerbaijan's relations with the United States. The United States, which did not intervene during the war, defended Armenia after the victory. The main reasons for this are the warm relations between Turkey and Azerbaijan, opening of Zangazur corridor which will serve as a trade gateway for Turkey to Central Asia and allow it to strengthen economic ties with the Turkic world and the placement of Russian peacekeepers in the Lachin corridor. The United States views both countries - Turkey and Russia - as rivals.

Russian President Vladimir Putin said that "Russia will remain neutral in resolving the conflict, maintain a balanced position and does not intend to openly interfere in the process", "military operations are not carried out on the territory of Armenia". So he stressed that Nagorno-Karabakh is the territory of Azerbaijan. Russia preferred cooperation with Azerbaijan and Turkey, not with Armenia managed by Pashinyan, who came to power with the support of Soros. Russia also forced Armenia to sign a trilateral statement on November 10, 2020, and the statement was signed in the presence of the Russian President. Russian peacekeepers were temporarily stationed in the Lachin corridor.

France unjustly defended Armenia's aggressive position during and after the 44-day Patriotic War. President of France Emmanuel Macron is patronizing Armenia to win the sympathy of Armenian voters and stay in power. As co-chair of the Minsk Group, France did not try to establish peace, on the contrary, it inflamed the conflict by supporting Armenia. The main reason for France's support for Armenia was Turkey's support for Azerbaijan's just struggle until the end.

Keywords: the 44-day Patriotic War, the USA, Russia, France.

Türkiyə Respublikasının siyasi və mənəvi dəstəyinin, Azərbaycan Respublikasının Prezidenti İlham Əliyevin Ermənistanın yalan informasiyalarını faktlarla təkzib etməsinin nəticəsində keçmiş Dağlıq Qarabağ üzrə Minsk qrupunun həmsədr dövlətləri Rusiya, ABŞ, Fransa 44 günlük Vətən müharibəsində açıq formada müdaxilə etmədilər.

2020-ci il 44 günlük Vətən müharibəsində ABŞ Azərbaycanın daxili işinə müdaxilə etmədi. Bunun əsas səbəbi müharibənin tarixinin ABŞ-da Prezident seçkiləri tarixinə təsadüf etməsi ilə bağlıdır. Co Bayden 2021-ci il yanvarın 20-dən Prezident seçildikdən sonra Türkiyə ilə ABŞ arasında gərgin vəziyyət Azərbaycanın da ABŞ ilə münasibətlərinə təsir etdi. Vətən müharibəsi zamanı heç bir müdaxilə etməyən

ABŞ qələbədən sonra Ermənistanı müdafiə etdi. Bunun əsas səbəbi Azərbaycanla Türkiyənin isti münasibətləri, Türkiyə üçün Mərkəzi Asiyaya bir ticarət qapısı rolunu oynayacaq və bu ölkənin türk dünyası ilə iqtisadi əlaqələrini gücləndirməsinə imkan verəcək Zəngəzur dəhlizinin açılması və Rusiya sülməramlılarının Laçın dəhlizində yerləşdirilməsidir. Hər iki dövlətə – Türkiyəyə və Rusiyaya ABŞ rəqibi kimi baxır.

Rusiya Prezidenti Vladimir Putin çıxışında "Rusiyanın münaqişənin həllində əvvəlki kimi bitərəfliliyini, balanslı mövqeyini qoruyub saxlayacağını, prosesə aşkar müdaxilə etmək niyyətində olmadığını", "hərbi əməliyyatların Ermənistan ərazisində aparılmadığını" deməklə Dağlıq Qarabağın Azərbaycan ərazisi olduğunu vurğuladı. Sorosun dəstəyi ilə hakimiyyətə gələn Paşinyanın rəhbərlik etdiyi Ermənistanla deyil, Azərbaycan və Türkiyə ilə əməkdaşlığa üstünlük verdi. 2020-ci il noyabrın 10-da üçtərəfli bəyanatı imzalamaq üçün Ermənistanı Rusiya da məcbur etdi və bəyanat Rusiya Prezidentinin iştirakı ilə imzalandı. Rusiya sülhməramlıları müvəqqəti olaraq Laçın koridorunda yerləşdirildi.

Fransa 44 günlük Vətən müharibəsində və ondan sonra Ermənistanın təcavüzkar mövqeyini ədalətsiz şəkildə müdafiə etdi. Fransa Prezidenti Emmanuel Makron erməni seçicilərin rəğbətini qazanmaq və hakimiyyətdə qalmaq üçün Ermənistana himayədarlıq edir. Fransa Minsk Qrupunun həmsədri kimi sülhün bərqərar olmasına çalışmaq əvəzinə Ermənistanı dəstəkləməklə münaqişəni qızışdırdı. Fransanın Ermənistanı dəstəkləməsinin əsas səbəbi Türkiyənin Azərbaycanın haqlı mübarizəsini dəstəkləməsi ilə bağlı idi.

Açar sözlər: 44 günlük Vətən müharibəsi, Rusiya, ABŞ, Fransa.

Azərbaycan və ABŞ arasında diplomatik əlaqələr 1992-ci il martın 17-də quruldu. ABŞ Dövlət Departamenti 1992-ci il mayın 21-də bəyanat verərək bildirdi ki, ABŞ "hərbi əməliyyatlar, yaxud qüvvə tətbiqi nəticəsində Dağlıq Qarabağın, Naxçıvanın, yaxud digər ərazinin statusunda birtərəfli qaydada dəyişikliyi tanımayacaqdır"[1]. Rusiyaya nisbətən ABŞ bir qədər ciddi mövqe tutdu, Ermənistan Prezidentinə etiraz məktubu göndərdi. ABŞ jurnalisti Deyvid Bayndrın "Birləşmiş Ştatlar Ermənistanı Qafqazda yeni hücumlara bəhanəsinə görə məzəmmət edir" adlı məqaləsində ABŞ-ın Qafqazda vəziyyətə münasibəti belə şərh edilir: "Dövlət katibi Uorren Kristofer ABŞ hökumətini İrəvan hökumətindən təcili ordusunu çıxarmağı tələb etməyə çağırdı… Ermənistan Prezidenti Levon Ter-Petrosyana etiraz məktubu göndərildi. Bu etiraz sübut edir ki, ABŞ iki Qafqaz respublikası arasında münaqişədə birinci dəfə olaraq bir tərəfi açıq tənqid etmişdir"[2].

1994-cü il sentyabrın 20-də "Əsrin Müqaviləsi"nin imzalanması tərəflər üçün qarşılıqlı surətdə faydalı olmaqla yanaşı, Azərbaycanın təhlükəsizliyinin qorunub saxlanmasına da kömək edən amillərdən biri idi və Azərbaycan Respublikasının ABŞ ilə münasibətlərinin inkişafına müsbət təsir göstərən bir amil oldu. ABŞ-da 2001-ci il 11 sentyabr terror aktlarından sonra Azərbaycanın beynəlxalq terrorizmə qarşı mübarizədə ABŞ ilə əməkdaşlıq etməsi münasibətlərə müsbət istiqamətdə təsir edən digər amildir. Belə ki, 2002-ci ildən etibarən iki ölkə arasında hərbi-texniki və təhlükəsizlik məsələləri geniş müzakirə edildi.

Bununla belə, ABŞ-da böyük erməni lobbisinin fəaliyyət göstərməsi ikitərəfli münasibətlərin inkişafına təsir edir. Birləşmiş Ştatlarda yaşayan ermənilər Rusiyada yaşayan ermənilərdən sonra Ermənistandan kənarda yaşayan ikinci ən böyük erməni lobbisi hesab edilir. ABŞ-da erməni diasporu və erməni təşkilatları siyasi lobbiləşdirmə ilə məşğul olurlar. Erməni lobbisinin təsirilə 1992-ci il oktyabrın 24-də ABŞ konqresi "Azadlığı müdafiə aktı"na "907-ci əlavə"ni qəbul etdi. "907-ci əlavə"də yazılırdı ki, Azərbaycan hökuməti Ermənistan və Dağlıq Qarabağa qarşı zor gücündən istifadəni dayandırdıqdan sonra ABŞ Azərbaycana yardım edəcəkdir. Konqresin bu cür qərar qəbul etməsi üçün formal əsas bu olmuşdur ki, guya Azərbaycan Ermənistan Respublikasını blokadada saxlayır. "Azadlığı müdafiə aktı"

[1] Сборник документов ООН по армяно-азербайджанскому нагорно-карабахскому конфликту, Баку, Министерство Иностранных Дел, 2009, s.28.
[2] Письмо представителя Азербайджана от 8 апреля 1993 года на имя Председателя Совета Безопасности, Документ S/25573 Совет Безопасности. Официальнее отчеты сорок восьмой год дополнение за апрель, май, июнь 1993 года, Организация Объединенных Наций, Нью-Йорк, 1996 год, s.51-52.

və ona "907-ci əlavə"nin dəstəklənməsi, hər il Ermənistana göstərilən humanitar yardımın çoxaldılması və uydurma "erməni soyqırımı"nın beynəlxalq səviyyədə zorla tanıdılması istiqamətlərində fəaliyyət ABŞ-da yaşayan ermənilərin əsas fəaliyyət istiqamətləridir.

Ümummilli lider Heydər Əliyev ABŞ konqresi tərəfindən qəbul olunmuş "Azadlığı müdafiə aktı" və ona "907-ci əlavə" ilə əlaqədar çox gərgin diplomatik mübarizə aparmışdır. 1993-cü il sentyabrın 2-də ABŞ-ın Prezidenti Bill Klintona, vitse prezidenti Albert Qora, Konqresin spikeri Tomas Foliyə müraciət etdi: "...Azərbaycan xalqı, habelə erməni-azərbaycanlı münaqişəsi haqqında həqiqəti bilənlərin hamısı bunu çox böyük ədalətsizlik və ya yolverilməz anlaşılmazlıq kimi qarşılamışlar. Mənə məlum olduğuna görə, Azərbaycan barəsində bu ayrı-seçkilik tədbiri Azərbaycan tərəfindən Ermənistanın uydurma "blokadası" ilə əlaqədar nəzərdə tutulmuşdur. Həmin tədbir Qərbin kütləvi informasiya vasitələrində Ermənistan tərəfindən aparılan yaxşı təşkil olunmuş təbliğat kampaniyasının bəhrəsidir və onun gerçəkliklə heç bir əlaqəsi yoxdur. Əvvəla, Ermənistan Respublikasının digər dövlətlər (Türkiyə, İran, Gürcüstan) ilə sərhədləri var və bu sərhədləri Azərbaycan blokadaya almaq iqtidarında deyildir. İkincisi, söhbət Azərbaycan ilə Ermənistan arasında nəqliyyat kommunikasiyalarından gedir ki, onlar da beş ildən çoxdur Ermənistanın Azərbaycana qarşı apardığı müharibə nəticəsində dağılmışdır. Bundan nəinki Ermənistan, həm də Naxçıvan Muxtar Respublikasında yaşayan azərbaycanlılar böyük əziyyət çəkirlər. Biz bu kommunikasiyaların bərpası üçün öz tərəfimizdən hər şeyi etməyə hazırıq. Lakin bundan ötrü atəşi dayandırmaq və sülh danışıqlarına başlamaq lazımdır..."[3].

Heydər Əliyev 1994-cü il sentyabrın 28-də BMT Baş Məclisinin 49-cu sessiyasında iştirak etmək üçün ABŞ-da olarkən ABŞ-ın konqresmenləri ilə görüşündə "Azərbaycanın narazılığını bildirirəm. Bildirmək istəyirəm ki, biz bu cür əlavə ilə heç vaxt razı ola bilmərik. O, Azərbaycanın zərərinə olan bir əlavədir və müəyyən qədər, Azərbaycanın ərazi bütövlüyünün şübhə altına alınmasını əks etdirir"[4] – dedi.

Azərbaycan rəhbərliyinin müraciətlərinə baxmayaraq ABŞ nəinki 907-ci əlavəni ləğv etmədi, həmçinin 1997-ci ildə Konqres başqa bir əlavə qəbul etmək istədi. Demokrat Partiyasından olan senator Con Porterin təklifi ilə hazırlandığına görə "Porter əlavəsi" adlandırılan həmin qanun layihəsində 1997-ci il üçün Azərbaycana yardım nəzərdə tutulsa da, bu əlavədə Dağlıq Qarabağ ayrıca, müstəqil tərəf kimi qeyd olunurdu. ABŞ Konqresində konqresmen Porterin təklifi ilə qəbul edilmiş "Porter əlavəsi"nin müzakirəsi ilə əlaqədar bəyanatında 1996-cı il iyunun 13-də Heydər Əliyev vurğuladı: **"...**Xüsusən 1992-ci ildən, qərar qəbul olunandan sonra keçən vaxt və bu dövrdə gedən proseslər də onu göstərir ki, Azərbaycan özü böyük bir təcavüz altındadır. Bilirsiniz ki, Azərbaycan özü blokadadadır – şimal tərəfdə dəmir yollarımız və dəniz yolumuz Rusiya tərəfindən kəsilibdir. Ona görə də biz dəfələrlə Amerika Birləşmiş Ştatlarının dövlət orqanları qarşısında məsələ qaldırmışıq ki, Azərbaycana qarşı olan bu ədalətsiz qərar ləğv edilsin"[5].

Heydər Əliyev "Porter əlavəsi"nin Konqresin nümayəndələr palatasında qəbul edilməsinin Azərbaycan-Amerika əlaqələrinə zərbə vuracağını və onun qəbul edilməsinin qarşısının alınması vacibliyini vurğuladı: "...Biz bilirik ki, Amerika Birləşmiş Ştatlarında parlament, Konqres prezidentdən və ya hökumətdən asılı deyil, onların buna təsir etmək gücü o qədər böyük deyildir, Konqres bəzən belə qərarlar qəbul edir. Amma mən sizə açıq deyirəm, bizim ictimaiyyət Amerika Birləşmiş Ştatlarını böyük bir dövlət kimi qəbul edir. Adamlara izah etmək mümkün deyil ki, prezident istəmir, amma kimsə qəbul edir. Ancaq qəbul edilən qərar Azərbaycana zərbə vurur, Azərbaycan-Amerika əlaqələrinə zərbə vurur... Yenə də qeyd edirəm, əgər qəbul olunan hər bir qərar, yaxud da ki, tədbir, – kim tərəfindən qəbul edilməsindən asılı olmayaraq, – ədalətli olsa, ona etiraz etmək mümkün deyildir. Ancaq ədalətsiz qərarla barışmaq olmaz". Heydər Əliyevin ABŞ Prezidenti Bill Klintona və digər rəsmilərə müraciətindən sonra "Porter əlavəsi"nin qəbul edilməsinin qarşısı alındı. Nəticədə, "Porter əlavəsinə" dəyişiklik edilərək, Dağlıq Qarabağı Azərbaycandan ayrı, müstəqil tərəf kimi göstərən ifadə dəyişdirildi. O, "Dağlıq Qarabağ da daxil olmaqla Azərbaycana yardım" formasına salındı[6].

[3] Əliyev H.Ə. Müstəqilliyimiz əbədidir: 46 kitabda, 1-ci kitab, Bakı: Azərnəşr, 1997, s.125-126.
[4] Əliyev H.Ə. Müstəqilliyimiz əbədidir: 46 kitabda, 6-cı kitab, Bakı: Azərnəşr, 1998, s.441-442.
[5] Yenə orada, s.439-440.
[6] İşğalçıya yardım göstərən dövlətin obyektivliyi hər zaman sual altında olacaq. 13.04.2010. http://www.yeniazerbaycan.az/Musahibe_e5632_az.html

BMT Təhlükəsizlik Şurasının veto hüquqlu daimi üzvü kimi dünyada gedən proseslərə təsir edən bir ölkə və münaqişənin həllində vasitəçi rolunu oynamaq səlahiyyətinə malik olan Minsk qrupunun həmsədri kimi ABŞ-ın rolunu qiymətləndirən Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev Amerika Birləşmiş Ştatlarının Prezidenti Corc Buşun dəvəti ilə 2006-cı il aprelin 25-28-də Vaşinqtonda rəsmi səfərdə olarkən Ermənistan-Azərbaycan münaqişəsinin həll edilməsi üçün Azərbaycanın mövqeyini bir daha ifadə etdi: "Azərbaycanın ərazi bütövlüyü danışıqlar mövzusu deyil və olmayacaqdır. Ermənistanın işğalçı qüvvələri Azərbaycanın zəbt edilmiş torpaqlarından çıxmalıdır. Dağlıq Qarabağda yaşayan ermənilərin və oraya qayıdacaq azərbaycanlıların təhlükəsizliyinə zəmanət də verilməlidir. Eyni zamanda, oraya sülhməramlı qüvvələrin gətirilməsi məsələsi də müzakirə oluna bilər"[7]. Amerika Prezidenti bildirdi ki, Amerika çalışır Dağlıq Qarabağ münaqişəsi sülh yolu ilə həll olunsun və tərəflər razılığa gəlsinlər[8].

Aprelin 28-də İlham Əliyev ABŞ-ın müdafiə naziri Donald Ramsfeld ilə görüşdü. Donald Ramsfeld ölkələrimiz arasında əlaqələrin inkişafından, o cümlədən hərbi sahədə əməkdaşlıqdan məmnunluğunu bildirdi, Azərbaycanın antiterror koalisiyasında fəaliyyətini yüksək dəyərləndirdi[9].

2016-cı il martın 30-da Vaşinqtonda keçirilən Nüvə Təhlükəsizliyi Sammitində iştirak etmək üçün Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev növbəti dəfə Amerika Birləşmiş Ştatlarında rəsmi səfərdə oldu. Prezident həmsədr ölkə kimi, ABŞ Prezidenti Barak Obamanın mövcud status-kvonun yolverilməzliyi ilə bağlı mövqeyinin mühüm əhəmiyyət daşıdığını diqqətə çatdırdı[10]. Aprelin 1-də İlham Əliyev çıxışında Azərbaycan Respublikasının nüvə materiallarının yayılmamasına böyük əhəmiyyət verdiyini, nüvə materiallarının yayılması ilə bağlı meydana çıxan təhdidləri və ölkəmizin yerləşdiyi coğrafi mövqeyi nəzərə alaraq, nüvə materiallarının qanunsuz trafiki üçün Azərbaycan ərazisindən mümkün istifadənin qarşısının alınmasına böyük əhəmiyyət verildiyini bildirərək, vurğuladı ki, beynəlxalq səviyyədə tanınan sərhədlərimizin bir hissəsinin işğal altında olması və ərazilərimizin 100 faizinə nəzarət etmək imkanı olmadığı üçün proqramları tam şəkildə icra etmək olmur[11]. Prezident həmçinin Ermənistanın 1976-cı ildə inşa edilmiş, köhnəlmiş atom elektrik stansiyasının istismarına diqqəti cəlb etdi, bunun region üçün təhlükə yaratdığını, elektrik stansiyasının fəaliyyətinin dayandırılması və beynəlxalq ictimaiyyətin gözlədiyi qayda və prosedurlara əməl edilməsi üçün Ermənistana təzyiq göstərilməsini tövsiyə etdi[12].

Yuxarıda yazılanlardan da aydın olur ki, ABŞ Ermənistan-Azərbaycan münaqişəsinə münasibətdə təzadlı mövqe tuturdu. Erməni diasporasının təsiri ilə ABŞ Konqresinin erməni məsələləri üzrə işçi qrupuna daxil olan bir sıra üzvləri işğal nəticəsində yaradılmış qondarma qurumun tanınmasını, Dağlıq Qarabağ əhalisinin öz müqəddəratını təyinetmə hüququnu dəstəkləsə də və "Dağlıq Qarabağ respublikası"na yardımın artırılmasını xahiş etsə də, 2005-ci ilin fevralında "ABŞ və Dağlıq Qarabağ" başlığı altında faktlar siyahısında ABŞ-ın Dağlıq Qarabağı müstəqil dövlət kimi tanımadığı, Azərbaycanın ərazi bütövlüyünü dəstəklədiyi, Dağlıq Qarabağın statusunun isə tərəflər arasında danışıqlar nəticəsində müəyyənləşdirilməsi zəruriliyi göstərilmişdi[13]. Bununla belə, 2008-ci il mart ayında BMT Baş Məclisinin Azərbaycanın ərazi bütövlüyünün tanınması barədə qətnaməsinin əleyhinə səs verən dövlətlərdən biri də ABŞ oldu[14].

2020-ci il 44 günlük Vətən müharibəsində ABŞ Azərbaycanın daxili işinə müdaxilə etmədi. ABŞ-ın "Fox News" televiziya kanalına müsahibəsində jurnalistin "Siz Prezident Trampın və onun administrasiyasının münaqişə ilə bağlı söylədiklərindən məmnunsunuzmu?" sualına Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev belə cavab verdi: "Düşünürəm ki, Prezident Trampın münaqişənin həlli ilə bağlı gördüyü işlər beynəlxalq münasibətlərə tam uyğundur. Biz bununla bağlı

[7] Əliyev İ.H. İnkişaf – məqsədimizdir: 108 kitabda, 16-cı kitab, Bakı: Azərnəşr, 2014, s.298.
[8] Yenə orada, s.298.
[9] Yenə orada, s.300.
[10] Əliyev İ.H. İnkişaf – məqsədimizdir: 108 kitabda, 73-cü kitab, Bakı: Azərnəşr, 2018, s.153-163.
[11] Yenə orada, s.170.
[12] Yenə orada, s.170.
[13] Ermənistan-Azərbaycan münaqişəsi sənədlər bölməsi // Diplomatiya Aləmi Jurnalı, 2005, № 13, s.70.
[14] Сборник документов ООН по армяно-азербайджанскому нагорно-карабахскому конфликту, Баку, Министерство Иностранных Дел, 2009, s.71-72.

onun mövqeyini, şəxsi fikirlərini tam dəstəkləyirik. Biz görürük ki, ABŞ-ın mövqeyi balanslaşdırılmışdır və bu, belə də olmalıdır. Çünki ABŞ vasitəçidir... ABŞ tərəf tutmur. Eləcə də digər həmsədrlər tərəf tutmamalıdırlar. Biz çox böyük erməni icmasının təkcə Amerikada deyil, həmçinin Fransa və Rusiyada daxili siyasətə təsirinin olduğunu, çoxlu lobbiçilik fəaliyyəti ilə məşğul olduğunu, indi Azərbaycan əleyhinə var gücü ilə fəaliyyət göstərdiyini və onların göstərə biləcəyi təzyiqin səviyyəsini başa düşürük. Lakin, eyni zamanda, Prezident Trampın açıq siyasəti burada – Azərbaycanda təkcə mənim tərəfimdən deyil, xalqımız tərəfindən də dəstəklənir"[15].

Co Bayden 2021-ci il yanvarın 20-dən prezident seçildikdən sonra Türkiyə ilə ABŞ arasında gərgin vəziyyət Azərbaycanın da ABŞ ilə münasibətlərinə təsir etdi. ABŞ Prezidenti Co Baydenin Ağ Evin rəsmi saytında verilən açıqlamada 1915-ci il hadisələrini "soyqırımı" kimi tanıması Vətən müharibəsində Türkiyənin Azərbaycanın yanında olması və ABŞ-ın Azərbaycanın qələbələrinə qısqanclıqla yanaşması, regionda daimi öz təsirini saxlamaq cəhdi ilə izah etmək olar. Türkiyə Prezident Administrasiyasının Kommunikasiyalar İdarəsinin rəhbəri Fahrettin Altun 1915-ci il hadisələrinin "soyqırımı" kimi tanınmasını "həqiqətlərlə heç bir əlaqəsi olmayan və yalnız siyasi hesablamalara söykənən böhtan" kimi səciyyələndirdi[16]. Vətən müharibəsi zamanı heç bir müdaxilə etməyən ABŞ Qələbədən sonra Ermənistanı müdafiə etdi. Bunun əsas səbəbi Türkiyənin Cənubi Qafqazın iqtisadi cəhətdən inkişaf etmiş ölkəsi olan Azərbaycanla qardaşlıq münasibətləri, Türkiyə üçün Mərkəzi Asiyaya bir ticarət qapısı rolunu oynayacaq və bu ölkənin türk dünyası ilə iqtisadi əlaqələrini gücləndirməsinə imkan verəcək Zəngəzur dəhlizinin açılması və müvəqqəti olaraq Rusiya sülhməramlılarının Laçın dəhlizində yerləşdirilməsidir. Hər iki dövlətə – Türkiyəyə və Rusiyaya ABŞ rəqibi kimi baxır. Minsk qrupunun həmsədr dövlətlərindən olan ABŞ və Fransa Cənubi Qafqazda olan proseslərdən kənarda qalmaq istəmirlər.

Azərbaycan Respublikası BMT Təhlükəsizlik Şurasının veto hüquqlu 5 daimi üzvündən biri və keçmiş Dağlıq Qarabağ üzrə Minsk qrupunun həmsədr dövləti kimi Rusiya ilə münasibətlərin inkişaf etdirilməsinə üstünlük vermişdir. Rusiya Prezidenti Vladimir Putin "Rusiya-Azərbaycan münasibətlərinin əhəmiyyətini dərindən bildiyinə görə böyük siyasi xadim Heydər Əliyevin siyasətinin, hətta Azərbaycan üçün ən ağır illərdə və Rusiya–Azərbaycan münasibətlərinin çox mürəkkəb dövründə belə, normal dövlətlərarası münasibətlərə qayıtmaq imkanı verdiyini" bildirmişdir[17].

Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev də Rusiya ilə münasibətlərin inkişaf etdirilməsinə çalışmışdır. 2020-ci il iyulun 12-də Ermənistan silahlı qüvvələri Azərbaycan-Ermənistan dövlət sərhədində yerləşən Tovuz rayonu istiqamətində Azərbaycan ərazilərini atəşə tutsa da, Azərbaycan Ordusunun şücaəti nəticəsində düşmən layiqli zərbə alaraq geri oturduldu. İyulun 12-16-da Prezident Ilham Əliyev Vladimir Putinlə telefon vasitəsilə danışıqlar apararaq Ermənistan-Azərbaycan sərhədinin Tovuz rayonu istiqamətində Ermənistanın törətdiyi təxribat və itkilər haqqında məlumat verdi, Ermənistanın əsas məqsədinin üçüncü tərəfi münaqişəyə cəlb etmək olduğunu vurğuladı. Ermənistan-Azərbaycan sərhədində başvermiş toqquşmalar başa çatdıqdan sonra iyulun 17-dən bu günə kimi Rusiyadan Ermənistana hərbi təyinatlı yüklərin daşınmasının intensiv xarakter almasının Azərbaycan ictimaiyyətində narahatlıq və ciddi suallar doğurduğunu V.Putinin diqqətinə çatdırdı. Qazaxıstan, Türkmənistan və İran İslam Respublikasının hava məkanından istifadə edərək, bu günə qədər Rusiyadan Ermənistana daşınan hərbi təyinatlı yüklərin həcminin 400 tondan artıq olduğunu və bu məsələyə aydınlıq gətirilməsinin vacibliyini Rusiya Prezidentinə bildirdi[18].

Ermənistan silahlı qüvvələrinin 2020-ci il sentyabrın 27-də atəşkəsi yenidən pozaraq Tovuz rayonu istiqamətində Azərbaycanın sərhəd rayonlarını artilleriya atəşinə tutması onu göstərdi ki, işğalçı dövlət ərazilərini genişləndirməyə can atır. Vətən müharibəsi zamanı Ermənistanın üçüncü dövləti münaqişəyə cəlb etmək planının məhv edilməsi üçün Prezident İlham Əliyevin xarici kütləvi informasiya vasitələrinə müsahibələr verməsinin çox böyük əhəmiyyəti oldu. 2020-ci il sentyabrın 29-da "Rossiya-

[15] Əliyev İ.H. İnkişaf – məqsədimizdir: 108 kitabda, 107-ci kitab, Bakı: Azərnəşr, 2021, s.177-178.
[16] 24 aprel açıqlaması: Biden üçün "soyqırım" ifadəsini istifadə etmək nəyə görə vacibdir? 24.04.2021. https://www.bbc.com/azeri/region-56871463
[17] Əliyev İ.H. İnkişaf – məqsədimizdir: 108 kitabda, 15-ci kitab, Bakı: Azərnəşr, 2014, s.161-162
[18] Əliyev İ.H. İnkişaf – məqsədimizdir: 108 kitabda, 105-ci kitab, Bakı: Azərnəşr, 2020, s.143-144

1"telekanalında yayımlanan "60 dəqiqə" proqramında Prezident İlham Əliyev Ermənistanın İkinci Qarabağ müharibəsində Türkiyənin münaqişə tərəfi kimi iştirak etməsi ittihamlarını rədd etdi[19].

İlham Əliyev oktyabrın 10-da Rusiyanın RBK televiziya kanalına müsahibəsində bildirdi ki, Rusiya mediasında informasiya hücumu Rusiya ilə münasibətlərə böyük zərər vurub. Bu münasibətləri qaydaya salmaq üçün vaxt və hər iki tərəfin rəhbərliyinin səyləri lazımdır[20]. Beləliklə, Azərbaycan Prezidenti münasibətlərə zərər vurmamaq üçün Rusiya Prezidentinə səsləndi.

Oktyabrın 15-də Rusiyanın "RİA Novosti" agentliyi üçün «Rossiya Seqodnya» Beynəlxalq İnformasiya Agentliyi media qrupunun baş direktoru Dmitri Kiselyova müsahibə verən Prezident İlham Əliyev ermənilərin bölgəyə kütləvi köçürülməsinin 1813 və 1828-ci illərdə başladığını, XIX əsrin əvvəlində Qarabağ və Şuşa xanı İbrahimxəlil xan və Çar Rusiyası arasında Qarabağ xanlığının Rusiyanın tərkibinə daxil olması barədə Kürəkçay müqaviləsinin bağlandığını və bu müqavilədə Qarabağ xanlığının erməni əhalisi barədə bircə kəlmə də deyilmədiyini bildirdi[21]. Regionun tarixini təfsilatı ilə danışan Prezident vurğuladı ki, "Rusiya imperiyası dağılandan sonra, 1918-ci ildə Azərbaycan Xalq Cümhuriyyəti və müstəqil erməni dövləti yaradıldı. Azərbaycan Xalq Cümhuriyyəti bütün bu ərazilər çərçivəsində yaradılmışdı. Üstəlik, Azərbaycan Xalq Cümhuriyyəti onun yaradılmasının elan edilməsinin ertəsi günü İrəvan şəhərinin paytaxt kimi Ermənistana verilməsi barədə qərar qəbul etdi. Bu da tarixi faktdır. 1921-ci ildə Qafqaz Bürosu Dağlıq Qarabağın, bəzi yalançı tarixçilərin dedikləri kimi, Azərbaycana verilməsi haqqında deyil, onun Azərbaycanın tərkibində saxlanılması haqqında qərar qəbul etdi"[22].

Oktyabrın 19-da Rusiyanın TASS informasiya agentliyinə müsahibəsində İlham Əliyev qarşıdurmanın aktiv fazasında Rusiya şəhərlərindən Ermənistan ərazisinə külli miqdarda qanunsuz silah keçirildiyini, uçuşların xəritələri, silahların tipləri haqqında da informasiya olduğunu və bütün bunlar barədə Rusiya tərəfinə məlumat verildiyini bildirdi. Prezident onu da əlavə etdi ki, bu məsələdə erməni mənşəli rusiyalı iri sahibkarların, beynəlxalq sanksiyalar tətbiq edilmiş məşhur silah alverçilərinin əli var. Bu məsələnin araşdırılması üçün Rusiyaya müraciət edilmişdir[23]. İlham Əliyev vurğuladı ki, Ermənistan hakimiyyətində təmsil olunan insanlar vaxtilə Rusiya səfirliyinə yumurta atır, "Rusiyalı işğalçılar, rədd olun" şüarları ilə çıxış edirdilər. Buna görə də Rusiyanın siyasi istəblişmentinin müəyyən hissəsinin bu cinayətkar terrorçu rejimi dəstəkləməsi təəccüblüdür: "Paşinyan Sorosun əlaltısıdır. Bu insan əvvəllər həmişə Ermənistanın Rusiya ilə əməkdaşlığının əleyhinə çıxış edirdi. Onun partiyası "Çıxış" adlanır, Kollektiv Təhlükəsizlik Müqaviləsi Təşkilatından çıxış, Avrasiya İqtisadi Birliyindən çıxış. Paşinyanın bütün komandası praktik olaraq Qərbin, Soros Fondunun, "Amnesty International", "Transparency", "Human Rights Watch", "Freedom House"un maliyyələşdirdiyi qeyri-hökumət təşkilatlarının nümayəndələrindən ibarətdir"[24].

Prezident İlham Əliyevin Ermənistanın yalan informasiyalarını faktlarla təkzib etməsi dünya dövlətlərinin münaqişəyə mövqeyini dəyişdirdi. Vladimir Putin çıxışında "Rusiyanın münaqişənin həllində əvvəlki kimi bitərəfliliyini, balanslı mövqeyini qoruyub saxlayacağını, hərbi əməliyyatların dayandırılmasının zəruriliyini, prosesə aşkar müdaxilə etmək niyyətində olmadığını" bildirdi. Putin, həmçinin "Rusiya Kollektiv Təhlükəsizlik Müqaviləsi Təşkilatı çərçivəsində öhdəliklərini yerinə yetirməyə hazırdır, amma hərbi əməliyyatlar Ermənistan ərazisində aparılmır" deməklə Dağlıq Qarabağın Azərbaycan ərazisi olduğunu vurğuladı[25]. Putin Azərbaycanın müstəqil dövlət olduğunu, hətta Ermənistanın belə, Qarabağın müstəqilliyini tanımadığını bildirdi[26], Sorosun dəstəyi ilə hakimiyyətə gələn Paşinyanın rəhbərlik etdiyi Ermənistana görə Azərbaycan və Türkiyə ilə əməkdaşlığa zərər vermədi. 2020-ci il dekabrın 10-da keçirilən Zəfər paradından sonra Azərbaycan Respublikasının

[19] Yenə orada, s.83.
[20] Yenə orada, s.275-276.
[21] Əliyev İ.H. İnkişaf – məqsədimizdir: 106 kitabda, 107-ci kitab, Bakı: Azərnəşr, 2021, s.33
[22]Yenə orada, s.34
[23] Prezident İlham Əliyevin Rusiyanın TASS informasiya agentliyinə müsahibəsi. 23.10.2020. http://www.saatli-ih.gov.az/news/315.html
[24] Yenə orada.
[25] Putinin Ermənistanla öhdəliklər barədə çıxışı. 07.10.2020. https://www.youtube.com/watch?v=fzlFqmRm60M
[26]Rusya lideri Putin: Azerbaycan kendi topraklarını kurtardı. 17.11.2020 - 18.11.2020. https://haberglobal.com.tr/dunya/rusya-lideri-putin-azerbaycan-kendi-topraklarini-kurtardi-78973

Prezidenti İlham Əliyev və Türkiyə Respublikasının Prezidenti Rəcəb Tayyib Ərdoğan mətbuata bəyanatlarla çıxış edərkən, Türkiyənin Prezidenti Rəcəb Tayyib Ərdoğan bəyanatında Qarabağ münaqişəsində Rusiyanın mövqeyini belə qiymətləndirdi: "Xüsusilə mən burada cənab Putinin yanaşmalarını kənara qoya bilmərəm. Onun müsbət yanaşmaları da bu prosesi müsbət istiqamətdə aparmağa kömək etdi və iş bu səviyyəyə qədər gəlib çıxdı"[27].

Rusiya Prezidentinin çıxışındakı digər maraqlı məqam isə səsləndirdiyi "5+2 formatı" ilə bağlı idi. Əvvəllər Rusiyanın xarici işlər naziri Sergey Lavrovun tərəflərə təqdim etdiyi planda həmin formul öz əksini tapmışdı. Lakin Azərbaycan bu planın böyük bir qismini özü yerinə yetirdiyi üçün, yəni dörd rayonun, Cəbrayıl, Füzuli, Zəngilan, Qubadlı rayonlarının mərkəzləri də daxil olmaqla, böyük hissəsi və keçmiş Dağlıq Qarabağ Muxtar Vilayətinə daxil olan Hadrut qəsəbəsi artıq işğaldan azad olunduğu üçün "5+2 formulu"nun kompromis variant kimi təklif olunması mənasını itirmişdi.

2020-ci il noyabrın 10-da üçtərəfli bəyanatı imzalamaq üçün Ermənistanı Rusiya da məcbur etdi[28]. Prezident İlham Əliyev ATƏT-in Minsk qrupunun həmsədrləri ilə görüşündə bu məsələni vurğuladı: "...Onlar bunu heç vaxt könüllü imzalamazdılar. Biz onları məcbur etdik, Minsk qrupu yox! Biz və Prezident Putin. Bu reallıqdır. Prezident Putinin müdaxiləsi və səyləri olmasaydı, bu gün, ehtimal ki, vəziyyət başqa cür olardı"[29].

Noyabrın 10-da Azərbaycan xalqı üçün tarixi bir gün oldu, Ermənistan-Azərbaycan, Dağlıq Qarabağ münaqişəsinə son qoyuldu. Azərbaycan Respublikasının Prezidenti, Rusiya Prezidenti və Ermənistanın Baş naziri müharibənin dayandırılması haqqında üçtərəfli bəyanat imzaladılar. Bəyanata əsasən 2020-ci il 10 noyabr tarixində Moskva vaxtı ilə saat 00.00-dan etibarən Dağlıq Qarabağ münaqişəsi zonasında atəşin və bütün hərbi əməliyyatların tam dayandırılması elan olundu[30]. İşğal altında olan digər rayonlar – Ağdam, Kəlbəcər, Laçın rayonları qan tökülmədən, siyasi yolla qaytarıldı. 2020-ci il 15 noyabr tarixinədək Kəlbəcər rayonu, 20 noyabr tarixinədək Ağdam rayonu, 1 dekabr tarixinədək isə Laçın rayonu Azərbaycan Respublikasına qaytarılmalı idi. Ağdam rayonu noyabrın 20-də azad edildi. Kəlbəcərin azad edilməsi isə Rusiyanın xahişi ilə 10 gün uzadıldı, noyabrın 25-də baş tutdu. Bəyanatda göstərilən tarixə qədər, yəni 1 dekabr tarixinədək Laçın rayonu qaytarıldı.

Bəyanatın 3-cü bəndinə əsasən Dağlıq Qarabağda təmas xətti və Laçın dəhlizi boyu Rusiya Federasiyasının 1960 sayda odlu silahlı hərbi qulluqçusundan, 90 hərbi zirehli texnika, 380 ədəd avtomobil və xüsusi texnikadan ibarət sülhməramlı kontingenti yerləşdirilməli idi. Bu bəndə də əməl olundu. 4-cü bənddə isə göstərilir ki, Rusiya Federasiyasının sülhməramlı kontingenti erməni silahlı qüvvələrinin çıxarılması ilə paralel şəkildə yerləşdirilməlidir. Bu bəndin şərtlərinə hələ də əməl edilməmişdir. Erməni silahlı qüvvələri sülhməramlı kontingentin yerləşdiyi ərazidən hələ də çıxmamışdır. Halbuki Rusiyanın sülhməramlı kontingentinin yerləşdirilməsi erməni silahlı qüvvələrinin çıxarılması ilə paralel həyata keçirilməli idi. Eyni zamanda Rusiya Ermənistanı silahlandırmada davam edir, Ermənistanın həmin bölgəyə hərbi texnika gətirməsinə göz yumur. Azərbaycan ərazisinə erməni terrorçuları buraxılır. 4-cü bənddə həmçinin göstərilir ki, "Rusiya sülhməramlı kontingentinin qalma müddəti 5 ildir və müddətin bitməsinə 6 ay qalmış hazırki müddəanın tətbiqinə xitam verilməsi niyyəti ilə bağlı tərəflərdən hər hansı biri çıxış etməzsə, müddət avtomatik olaraq növbəti 5 ilə uzadılır". Beləliklə, tərəflərdən biri narazılıq edərsə, Rusiya sülhməramlıları kontingentinin fəaliyyətinə xitam veriləcək. Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev 2021-ci il 14 avqust tarixində Türkiyənin CNN Türk televiziya kanalına müsahibəsi zamanı müxbirin "Ermənistan xarici işlər naziri Laçın dəhlizindəki əsgərləri Qarabağa göndərir. Bu iddia doğrudurmu" sualına Prezident bildirdi ki, "Təəssüf ki, bu, belədir. Bizim müdafiə naziri bir neçə gün bundan əvvəl rəsmi açıqlama verdi ki, buna son qoyulsun və Rusiya sülhməramlılarının nəzarəti altında olan bölgələrə Ermənistandan silahlar və hərbiçilər göndərilə bilməz. Bu, 10 noyabr üçtərəfli bəyanatına ziddir. Təəssüf ki, bu, davam edir. Biz bir neçə dəfə şifahi qaydada öz iradlarımızı bildirmişdik, amma bunun nəticəsi olmadı, ona görə rəsmi qaydada biz bunu bildirdik". Müxbirin "Qarabağla bağlı Rusiyadan gözlədiklərniz nədir" sualına Prezident bildirdi ki, "Rusiyadan gözlədiyimiz odur ki, üçtərəfli bəyanatın bütün müddəaları yerinə yetirilsin. Çünki bu

[27] Əliyev İ.H. İnkişaf – məqsədimizdir: 108 kitabda, 108-ci kitab, Bakı: Azərnəşr, 2021, s.274.
[28] Yenə orada, s.58-61.
[29] Yenə orada, s.293.
[30] İlham Əliyev xalqa müraciət edib. 10.11.2020. https://president.az/articles/45924

üçtərəfli bəyanatı Azərbaycan, Rusiya və Ermənistan rəhbərləri imzalamışlar. Onların böyük qismi həyata keçirilib. Amma bəzi məsələlər var ki, hələ açıqdır. Rusiya Azərbaycanın qonşusu, Ermənistanın yaxın müttəfiqi kimi bu bölgədə xüsusi rol oynayır. Bu, təbiidir. Ümid edirik ki, Rusiya bölgədə möhkəm sülh üçün addımlar atsın. Uzunmüddətli sülhü təmin etmək üçün addımlar atsın. Rusiya Ermənistanı silahlandırmasın... Erməni xalqı da barışıb bu vəziyyətlə. Ermənistan rəhbərliyi də məğlubiyyəti ilə razılaşıb... Belə bir halda Ermənistanı silahlandırmaq heç bir məntiqə sığmır. Biz hələ ki, bunu müşahidə etmirik, amma bəzi açıqlamalar oldu. Bir neçə gün bundan əvvəl Rusiyanın müdafiə naziri Ermənistanın müdafiə naziri ilə görüşü zamanı söyləmişdir ki, Ermənistana Rusiya silahlarının göndərilməsi prosesi başlamışdır. Bu, çox narahatedici bir məsələdir. Bir də Ermənistanın yeni müdafiə naziri çox məsuliyyətsiz açıqlamalar verdi ki, əgər Azərbaycan tərəfi bir santimetr Ermənistan sərhədinə keçsə, o zaman onlar atəş açacaqlar. İkinci Qarabağ müharibəsi deyəsən hər kəs üçün dərs olmadı. Əgər belədirsə, biz dərsi yenidən verməyə hazırıq. Ona görə biz ümid edirik ki, Rusiya Ermənistanı silahlandırmayacaq. Çünki buna ehtiyac yoxdur... Nə qədər silah verilsə də, güclər nisbəti dəyişməyəcək"[31].

6-cı bənddə göstərilir ki, Dağlıq Qarabağla Ermənistan arasında əlaqəni təmin edəcək və bununla belə Şuşa şəhərinə toxunmayacaq Laçın dəhlizi (5 kilometr enliyində) Rusiya sülhməramlı kontingentinin nəzarəti altında qalır. Tərəflərin razılığı əsasında növbəti üç il ərzində Dağlıq Qarabağla Ermənistan arasında əlaqəni təmin edən Laçın dəhlizi üzrə yeni hərəkət marşrutunun inşası planı müəyyən ediləcək və bununla da həmin marşrutun mühafizəsi üçün Rusiya sülhməramlı kontingentinin gələcək yerdəyişməsi nəzərdə tutulur. Yeni dəhlizin parametrləri müəyyən olunduqdan sonra Laçın şəhərinin içindən keçən Laçın dəhlizi də Azərbaycana qaytarılacaq. Prezident İlham Əliyev xalqa müraciətində üçtərəfli bəyanatın 6-cı bəndini şərh edərkən bildirdi ki, "mən hesab edirəm ki, biz bunu daha tez müddətdə edə bilərik"[32]. Azərbaycan Respublikası Laçın dəhlizi üzrə hər iki istiqamətdə vətəndaşların, nəqliyyat vasitələrinin və yüklərin hərəkətinə təhlükəsizlik zəmanəti verir.

Bölgədəki bütün iqtisadi və nəqliyyat əlaqələrinin bərpa edilməsinə yönəldilən digər bənd 9-cu bənddir. 9-cu bəndə görə tərəflərin razılığı əsasında Naxçıvan Muxtar Respublikası ilə Azərbaycanın qərb rayonlarını birləşdirən yeni nəqliyyat kommunikasiyalarının inşası təmin ediləcək. Bununla Naxçıvan Muxtar Respublikasını Azərbaycanın əsas hissəsi ilə quru yollarla birləşdirmə istiqamətində tarixi addım atıldı. Ermənistan Respublikası vətəndaşların, nəqliyyat vasitələrinin və yüklərin hər iki istiqamətdə maneəsiz hərəkətinin təşkili məqsədilə Azərbaycan Respublikasının qərb rayonları və Naxçıvan Muxtar Respublikası arasında nəqliyyat əlaqəsinin təhlükəsizliyinə zəmanət verir. Nəqliyyat əlaqəsi üzrə nəzarəti Rusiyanın Federal Təhlükəsizlik Xidmətinin sərhəd xidmətinin orqanları həyata keçirir. Tərəflərin razılığı əsasında Naxçıvan Muxtar Respublikası ilə Azərbaycanın qərb rayonlarını birləşdirən yeni nəqliyyat kommunikasiyalarının inşası təmin ediləcək. Zəngəzur dəhlizi layihəsi təkcə Naxçıvanla Azərbaycanın digər bölgələri arasında nəqliyyat imkanlarının açılmasına deyil, bütövlükdə Xəzər və Aralıq dənizi hövzələrinin, daha geniş mənada isə Cənub-Şərqi və Mərkəzi Asiya ilə Avropanın əlaqələndirilməsinə xidmət göstərəcək. Türkiyə və Azərbaycan arasında quru yolla əlaqə Naxçıvan vasitəsilə birbaşa olacaq. Rusiya ilə Ermənistan, İran, Türkiyə arasında dəmiryolu ilə əlaqə olacaq. İlham Əliyev ATƏT-in Minsk qrupunun həmsədrləri ilə görüşündə "bu bəndin qəbul edilməsinin regionun gələcəkdəki fəaliyyəti ilə bağlı müzakirələr üçün yeni imkanlar yaratdığını" bildirdi[33] . Bu bəndin yerinə yetirilməsində bəzi irəliləyişlər var. 2021-ci il 11 yanvar tarixində Moskvada Azərbaycan, Rusiya və Ermənistan arasında imzalanan bəyanatda regionda bütün iqtisadi və nəqliyyat əlaqələrinin bərpasının reallaşdırılması üçün işçi qrupu yaradıldı[34].

[31] Prezident İlham Əliyevin "CNN Türk"ə müsahibəsi. 14.08.2021. https://www.youtube.com/watch?v=5qRl-4Xxk7k

[32] Prezident İlham Əliyev Laçın dəhlizi üzrə yeni hərəkət marşrutunun inşası planı müəyyən ediləcək. 01.12.2020. https://azertag.az

[33] Əliyev İ.H. İnkişaf – məqsədimizdir: 108 kitabda, 108-ci kitab, Bakı: Azərnəşr, 2021, s.289.

[34] Azərbaycan Respublikasının Prezidentinin, Ermənistan Respublikasının Baş nazirinin və Rusiya Federasiyasının Prezidentinin Bəyanatı. 11.01.2021. https://president.az/az/articles/view/50070

Bəyanata əsasən yeni nəzarət mexanizmi də tətbiq edilir. Bəyanatın 5-ci bəndində yazılıb: "Münaqişə tərəflərinin razılaşmalara əməl etməsinə nəzarətin səmərəliliyinin artırılması məqsədilə atəşkəsə nəzarət üzrə sülhməramlı mərkəz yaradılır". Mərkəzdə Rusiya və Türkiyə hərbçiləri fəaliyyət göstərəcək. Bu da Türkiyənin rəsmi qaydada bu münaqişənin gələcək həlli və atəşkəsə nəzarət etmək işində rol oynaması, Türkiyə və Rusiya arasında çox məqbul əməkdaşlığın olması baxımından əhəmiyyətlidir[35].

Bəyanatın 4-cü bəndi isə heç yerinə yetirilməmişdir. Rusiya sülhməramlılarının yerləşdiyi bölgədən erməni silahlıları çıxmamış və bölgədə olan terrorçular Azərbaycan Ordusuna qarşı fəaliyyətlərini həyata keçirməyə çalışırlar. Hətta bəzi hallarda Ermənistan ərazisindən də terrorçular bölgəyə gəlməyə cəhd etmişlər. Azərbaycan Ordusu dəfələrlə erməni terrorçularını zərərləşdirmişdir. 2022-ci il martın 26-sında Azərbaycan Ordusu məntəqələrdə mövqelərin və dislokasiya yerlərinin dəqiqləşdirilməsini apararkən səhər saatlarında havanın dumanlı olmasından istifadə edən erməni silahlı dəstələrinin üzvləri təxribat törətməyə cəhd göstərdikdə onlara qarşı tədbirlər görüldü və qeyri-qanuni erməni silahlı dəstələrinin üzvləri geri çəkilməyə məcbur edildi.

Rusiya rəsmiləri də bəzən ABŞ və Fransa kimi "Dağlıq Qarabağ" ifadəsini işlədirlər. Azərbaycan Respublikasının Müdafiə Nazirliyi Rusiya Müdafiə Nazirliyinin 2022-ci il 26 və 27 mart tarixli açıqlamalarında "Dağlıq Qarabağ" ifadəsinin işlədilməsinə, Fərrux kəndinin adının "Furux" adlandırılmasına etirazını, üçtərəfli bəyanatın müddəalarına uyğun olaraq Ermənistan ordusunun qalıqlarının və qeyri-qanuni erməni silahlı dəstələrinin Azərbaycanın beynəlxalq birlik tərəfindən tanınmış ərazilərindən tam olaraq çıxarılmasının təmin edilməsinin vacibliyini bildirdi[36].

Bildiyimiz kimi 2022-ci il 22 fevral tarixində Azərbaycan Respublikası ilə Rusiya Federasiyası arasında müttəfiqlik qarşılıqlı fəaliyyəti haqqında Bəyannamə imzalanmışdır. Bəyannamənin birinci bəndində qeyd olunur ki, Rusiya Federasiyası və Azərbaycan Respublikası öz münasibətlərini müttəfiqlik qarşılıqlı fəaliyyəti, iki ölkənin müstəqilliyinə, dövlət suverenliyinə, ərazi bütövlüyünə və dövlət sərhədlərinin toxunulmazlığına qarşılıqlı hörmət, eləcə də bir-birinin daxili işlərinə qarışmamaq, hüquq bərabərliyi və qarşılıqlı fayda, mübahisələrin dinc yolla həlli və güc tətbiq etməmək və ya güclə hədələməmək prinsiplərinə sadiqlik əsasında qururlar[37]. Bəyannamənin 8-ci bəndində Azərbaycan tərəfi 2020-ci ilin noyabr ayında regionda atəşin və bütün hərbi əməliyyatların tam dayandırılmasında Rusiya Federasiyasının vasitəçilik rolunu yüksək qiymətləndirir. 18-ci bəndinə əsasən, Rusiya Federasiyası və Azərbaycan Respublikası beynəlxalq terrorçuluq, ekstremizm və separatçılıq təhdidlərinə qarşı mübarizədə və onların neytrallaşdırılmasında səylərini birləşdirirlər. Azərbaycan Respublikasının öz ərazisində anti-terror əməliyyat aparması qanunauyğundur. 2021-ci il 26 noyabr tarixində Soçidə Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev, Ermənistan Respublikasının Baş naziri Nikol Paşinyan və Rusiya Federasiyasının Prezidenti Vladimir Putinin imzaladıqları bəyanatda[38] da Azərbaycan Respublikası ilə Ermənistan Respublikası arasında dövlət sərhədinin delimitasiyası, sonradan tərəflərin sorğusu əsasında Rusiya Federasiyasının məsləhət yardımı ilə sərhədin demarkasiyası üzrə ikitərəfli komissiya yaradılması barədə razılaşdırılmışdır. Lakin 2020-ci il 10 noyabr tarixli Üçtərəfli Bəyanatın 4-cü bəndinə müvafiq olaraq erməni silahlıları Rusiya sülhməramlılarının yerləşdiyi bölgədən çıxmırlar və terror fəaliyyətlərini davam etdirirlər. Azərbaycan Ordusu qanunauyğun olaraq Azərbaycan Respublikası ilə Ermənistan Respublikası arasında dövlət sərhədinin delimitasiyası, demarkasiyasına mane olan terrorçuları zərərsizləşdirsə də, erməni terrorçuları Azərbaycan ərazisindən birdəfəlik qovulmalıdır.

Fransa BMT-nin Təhlükəsizlik Şurasının veto hüquqlu 5 daimi üzvlərindən biridir. Həmkarları kimi Fransa da öz səlahiyyətindən istifadə edərək hər hansı bir məsələnin öz geopolitik maraqları çərçivəsində həll etməyə cəhd edir. BMT Təhlükəsizlik Şurasının daimi üzvü, eləcə də Minsk qrupunun

[35]Əliyev İ.H. İnkişaf – məqsədimizdir: 108 kitabda, 108-ci kitab, Bakı: Azərnəşr, 2021, s.294.
[36]Azərbaycanın Müdafiə Nazirliyi açıqlama yayıb. 28.03.2022. https://azertag.az/xeber/Azerbaycanin_Mudafie_Nazirliyi_achiqlama_yayib-2066084

[37] Azərbaycan Respublikası ilə Rusiya Federasiyası arasında müttəfiqlik qarşılıqlı fəaliyyəti haqqında Bəyannamə. 22.02.2022. https://president.az/az/articles/view/55498
[38] Azərbaycan Respublikasının Prezidentinin, Ermənistan Respublikasının baş nazirinin və Rusiya Federasiyasının Prezidentinin Bəyanatı. 26.11.2021.https://president.az/az/articles/view/54426

həmsədr dövlətlərindən biri olan Fransa ilə münasibətlərin inkişaf etməsinə önəm verən Azərbaycan müstəqillik əldə edən kimi, 1992-ci il fevralın 21-də Fransa ilə diplomatik əlaqələr yaratdı. Lakin Fransada Azərbaycan haqqında məlumatın çox az olması və erməni lobbisinin təsiri səbəbindən əlaqələr son dərəcə zəif olmuşdur. Fransada Azərbaycan haqqında qeyri-obyektiv mövqe formalaşmışdı. Bunun da səbəbi o idi ki, Fransada azərbaycanlılar olduqca az idi və onlar Fransanın ictimai-siyasi həyatında böyük təsir göstərmirdilər, ermənilər isə əsasən biznesdə, dövlət orqanlarında, kütləvi informasiya vasitələrində özlərinə vəzifələr tutmuşdular.

Fransoa Mitterrand, Jak Şirac, Fransoa Holland ve Nicolas Sarkozi dövründə münasibətlər inkişaf etsə də, 2017-ci il 14 may tarixindən Fransanın Prezidenti olan Emmanuel Makron ermənilərin rəğbətini qazanmaq üçün ədalətsiz bir mövqe tutdu. Emmanuel Makrona qədər Fransa Azərbaycanın ərazi bütövlüyünü dəstəklədiyini bildirirdi. 2008-ci ilin aprelində Fransanın xarici işlər naziri Bernar Kuşner Azərbaycanın xarici işlər nazirinə göndərdiyi məktubunda yazırdı: "Fransa Azərbaycanın ərazi bütövlüyünü həmişə dəstəkləmişdir, dəstəkləyir və dəstəkləyəcəkdir. Bununla əlaqədar Fransa heç vaxt Dağlıq Qarabağı müstəqil dövlət kimi tanımamışdır. Bu mövqe dəyişməz olaraq qalır. Bundan sonra da digər münaqişələrin nizama salınmasının nəticələrinə baxmayaraq, Fransa Dağlıq Qarabağın müstəqilliyini tanımayacaqdır"[39].

Vətən müharibəsi başlayanda, 2020-ci il sentyabrın 27-də Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev Fransa Respublikasının Prezidenti Emmanuel Makrona telefonla zəng etdi. Emmanuel Makron Ermənistan-Azərbaycan təmas xəttində silahlı qarşıdurmanın baş verməsindən ölkəsinin narahatlıq hissi keçirdiyini qeyd etdi və münaqişənin danışıqlar yolu ilə həll olunmasının vacibliyini vurğuladı. İlham Əliyev Ermənistan rəhbərliyinin danışıqlar prosesini pozduğunu, "Dağlıq Qarabağ Ermənistandır", "Azərbaycan Dağlıq Qarabağla danışıqlar aparmalıdır" bəyanatlarının danışıqlara ciddi zərbə vurduğunu bildirdi. Prezident həmçinin Ermənistanın növbəti təcavüzü nəticəsində mülki şəxslərin və hərbiçilərin həlak olduqlarını və Azərbaycan Silahlı Qüvvələrinin buna cavab olaraq, əks-hücum əməliyyatlarını həyata keçirdiyini, məsuliyyətin Ermənistanın siyasi və hərbi rəhbərliyinin üzərinə düşdüyünü qeyd etdi[40].

Fransa Minsk qrupunun həmsədri olduğuna görə 44 günlük Vətən müharibəsində neytral olmalı idi. Lakin Fransa işğalçı, terrorçu Ermənistana ən çox dəstək göstərən ölkə oldu. 2020-ci il dekabrın 10-da keçirilən Zəfər paradından sonra Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev və Türkiyə Respublikasının Prezidenti Rəcəb Tayyib Ərdoğan mətbuata bəyanatlarla çıxış edərkən Rəcəb Tayyib Ərdoğan bəyanatında Qarabağ münaqişəsində ATƏT-in Minsk qrupunun mövqeyindən bəhs edərkən, xüsusilə də Fransanın münaqişəni həll etmək niyyətinin olmadığını vurğuladı: "...Nə üçün 30 il Qarabağda bu zülm çəkdirildi? Minsk qrupu deyilən bu üçlüyün işi nə idi? Onlar dünyanın ən güclü ölkələri idi – Amerika, Rusiya, Fransa. Nə üçün vaxt bu qədər uzadıldı, niyə nəticə hasil olmadı? Məgər bunu həll edə bilməzdilərmi? Edə bilərdilər. Onda niyə vaxtı uzatdılar? Ancaq sonra xeyli müsbət mesajlar gəlməyə başladı. Bunların başında da Fransa. Daim qardaşıma (Prezident İlham Əliyevə – R.D.) zəng edirdi, ondan nəticələr əldə etməyə çalışırdı. Təbii, bəzən bizimlə də əlaqə qurmaq istədi, amma doğrusu, biz də cavab vermədik. Çünki bilirdik ki, dərdləri başqadır"[41].

Fransada təxminən 500 min erməni yaşayır. Fransanın Prezidenti Emmanuel Makron erməni seçicilərinin rəğbətini qazanmaq, hakimiyyətdə qalması üçün Ermənistana havadarlıq edir. Fransa Ermənistan-Azərbaycan, Dağlıq Qarabağ münaqişəsinin sülh yolu ilə həll edilməsinə çalışmaq əvəzinə, Ermənistana dəstək verməklə münaqişəni qızışdırırdı. Fransa Xarici İşlər Nazirliyinin Dağlıq Qarabağla bağlı verdiyi son bəyanatında Azərbaycanın qədim şəhəri olan Şuşanı ermənilər kimi "Şuşi" adlandırması beynəlxalq hüquq normalarını pozur. Fransa Prezidentinin Azərbaycana qarşı ədalətsiz mövqedə dayanması Fransanı demokratik respublika kimi qələmə vermək cəhdinə ziddir. Qondarma Dağlıq Qarabağ respublikasının olmasını dəstəkləyən Fransa Prezidenti Makron Korsikaya və digər etnik qrupların yaşadıqları ərazilərə müstəqillik verərmi? Əlbəttə, buna yol verməz. Özünü demokratik respublika kimi qələmə verən Fransa yalnız Avropa İttifaqında deyil, həm də Aralıq dənizi ölkələrində, Şimali Afrikada

[39] Сборник документов ООН по армяно-азербайджанскому нагорно-карабахскому конфликту, Баку, Министерство Иностранных Дел, 2009, s.37.
[40] Əliyev İ.H. İnkişaf – məqsədimizdir: 108 kitabda, 106-cı kitab, Bakı: Azərnəşr, 2021, s.61-62.
[41] Əliyev İ.H. İnkişaf – məqsədimizdir: 108 kitabda,108-ci kitab, Bakı: Azərnəşr, 2021, s.273-274.

– Mərakeşdə, Tunisdə, Əlcəzairdə öz müstəmləkəçilik siyasətini möhkəmləndirməyə cəhd edir. 100 il əvvəl Fransa Suriya və Livanı işğal altında saxlamışdır. Türkiyənin beynəlxalq iqtisadi zonasına daxil olan bu ərazilərdə Fransa həmin mövqelərini bərpa etmək məqsədilə Türkiyəyə qarşı təhdidlər, şantajlar etməyə cəhd edir. Türkiyənin sona qədər Azərbaycanın haqq mübarizəsinin yanında olduğunu bəyan etməsi və işğalçı, terrorçu Ermənistana qarşı sərt mövqedə olması Fransanın Ermənistanı dəstəkləməsinin digər səbəbidir. Dəfələrlə Türkiyəni 1915-ci ildə "erməni soyqırımı" törətməkdə günahlandıran Fransa, müstəmləkəsi olan Əlcəzairin 1954-cü ildən 1962-ci ilə qədərki dövrdə müstəqillik uğrunda mübarizəsində 1 milyon əlcəzairlini qətlə yetirmişdir. Fransanın Liviyada həyata keçirdiyi siyasət, Liviyanın bölünməsinə verdiyi dəstək, 1976-cı ildə Qəmər adalarının süverenliyinin tanınması haqqında qətnaməyə veto qoyması insanlıq ölçülərindən kənar siyasətdir. Son zamanlarda Fransada Prezident Emmanuel Makron hakimiyyətinin təqaüdlə bağlı islahatlarına etiraz edən on minlərlə insan və polis əməkdaşları arasında iğtişaş yaranmış, tətil edən "sarı jiletlilər" atla, itlə döydürülmüşlər, onlarla insan öldürülmüşdür. Bütün bunlar demokratiyadan ağızdolusu danışan Fransanın demokratik dövlət olmadığını göstərir.

Vətən müharibəsi zamanı Makron bəyan edirdi ki, "Azərbaycan Türkiyə ilə birlikdə bölgəyə terrorçuları gətirib", "Azərbaycan Dağlıq Qarabağı fəth etmək istəyir və biz buna icazə vermirik". Prezident İlham Əliyev "TRT Haber" televiziya kanalına müsahibəsində Makronun bu açıqlamalarına cavab olaraq bildirdi ki, "Dağlıq Qarabağ bizim torpağımızdır. Bir dövlət öz torpaqlarını fəth edə bilərmi? Yəni həmsədr bilmirmi ki, bu torpaqlarda qanunsuz olaraq ermənilər oturub, bizim bütün tarixi abidələrimizi, məscidlərimizi, qəbirlərimizi, evlərimizi yerlə yeksan ediblər?!... "[42] .

2020-ci il oktyabrın 6-da Rusiyanın "Perviy kanal" televiziya kanalına[43], oktyabrın 7-də "CNN Türk" televiziya kanalına müsahibə verən İlham Əliyev Fransa Prezidentinin Azərbaycana qarşı ədalətsiz mövqe tutduğunu, onun irəli sürdüyü ittihamlar haqqında sübut etməyi, əgər sübutu yoxdursa, Azərbaycan xalqından üzr istəməsini xahiş etdiyini bildirdi. İlham Əliyev Fransanın Azərbaycanın muzdlulardan istifadə etməsi haqqında ittihamına belə cavab verdi: "Bizim muzdlulara ehtiyacımız yoxdur. Bu gün Azərbaycan Ordusu güclü ordudur. Bütün beynəlxalq reytinqlərə görə o, dünyanın ən güclü 50 ordusunun siyahısına daxildir..."[44].

Fransa Respublikası Senatının 2020-ci il noyabrın 25-də qəbul etdiyi "Dağlıq Qarabağ respublikası"nın tanınmasına dair qətnamə layihəsi haqlı olaraq Azərbaycanın və qardaş Türkiyənin etirazına səbəb olmuşdur. Türkiyənin Prezidenti Rəcəb Tayyib Ərdoğan bəyanatında Qarabağ azad edildikdən sonra Fransanın parlamentdə "Qarabağ dövləti" qərarının qəbul etdirməsinə belə cavab verdi: "...Sən durub Qarabağı öz parlamentində qəbul etdirdiyin bir qərarla "Bura artıq bir dövlətdir və biz buranı bu şəkildə tanıdıq" – demək haqqına sahib deyilsən. Bunu Paşinyan belə, qəbul etmir. Amma Makron olaraq, sən durub belə, bir məsələni gətirib parlamentindən keçirməyə çalışırsan. Deməli, hələ siyasəti öyrənə bilməmiş, dövlət idarəçiliyini anlamamış, öyrənməmişdir, harada, nə, necə olur, bunu da bilmir. Sabah təbii ki, mənə hirslənəcək, bəlkə də bu axşam hirslənəcək, bu, ayrı bir məsələdir. Amma necə olursa olsun biz haqqı deməliyik. Bunu deməsək, vəzifəmizi yerinə yetirmiş olmarıq. Amma bunlara nail olacağıq"[45].

2020-ci il 8 noyabrda münaqişə Azərbaycanın Zəfəri ilə bitsə də, ABŞ kimi Fransa da məsələni Minsk qrupuna verməyə çalışırdılar. Prezident İlham Əliyev 44 günlük Vətən müharibəsində qazanılan zəfərin ardından, yəni dekabrın 12-də Minsk qrupunun Fransadan həmsədri Stafan Viskontini, ABŞ-dan olan həmsədr Endrü Şoferi, Rusiyanın Azərbaycanda Fövqəladə və səlahiyyətli səfiri Mixail Boçarnikovu və ATƏT-in təmsilçisi Anji Kasprşiki qəbul etdi. İlham Əliyev bölgədəki durumun dəyişdiyini və Qarabağ probleminin həll edildiyini bildirdi: "Hazırda regionda tamamilə yeni vəziyyət mövcuddur. Azərbaycan 30 ilə yaxın davam edən münaqişəni həll etdi, buna güc yolu və siyasi vasitələrlə nail oldu. Mən həmsədr dövlətlərin başçılarından olan Prezident Putinin dedikləri ilə razılaşıram ki, Dağlıq Qarabağ münaqişəsi

[42] Əliyev İ.H. İnkişaf – məqsədimizdir: 108 kitabda, 106-cı kitab, Bakı: Azərnəşr, 2021, s.165-166.
[43]Yenə orada, s.187-197.
[44] Yenə orada, s.192.
[45] Əliyev İ.H. İnkişaf – məqsədimizdir: 108 kitabda,108-ci kitab, Bakı: Azərnəşr, 2021, s.275-276.

artıq tarixə qovuşub. Mən də həmin fikirdəyəm. Təəssüflər olsun ki, Minsk qrupu münaqişənin həllində heç bir rol oynamadı. Halbuki bunu etmək üçün Minsk qrupu 28 il ərzində müvafiq mandata sahib idi"[46].

İSTİFADƏ EDİLMİŞ ƏDƏBİYYAT

24 aprel açıqlaması: Biden üçün "soyqırım" ifadəsini istifadə etmək nəyə görə vacibdir? 24.04.2021. https://www.bbc.com/azeri/region-56871463

Azərbaycan Respublikası ilə Rusiya Federasiyası arasında müttəfiqlik qarşılıqlı fəaliyyəti haqqında Bəyannamə. 22.02.2022. https://president.az/az/articles/view/55498

Azərbaycan Respublikasının Prezidentinin, Ermənistan Respublikasının Baş nazirinin və Rusiya Federasiyasının Prezidentinin Bəyanatı. 11.01.2021. https://president.az/az/articles/view/50070

Azərbaycan Respublikasının Prezidentinin, Ermənistan Respublikasının baş nazirinin və Rusiya Federasiyasının Prezidentinin Bəyanatı. 26.11.2021.https://president.az/az/articles/view/54426

Azərbaycanın Müdafiə Nazirliyi açıqlama yayıb. 28.03.2022. https://azertag.az/xeber/Azerbaycanin_Mudafie_Nazirliyi_achiqlama_yayib-2066084

Ermənistan-Azərbaycan münaqişəsi sənədlər bölməsi // Diplomatiya Aləmi Jurnalı, 2005, № 13, s.63-70.

Əliyev H.Ə. Müstəqilliyimiz əbədidir: 46 kitabda, 1-ci kitab, Bakı: Azərnəşr, 1997, 612 s.

Əliyev H.Ə. Müstəqilliyimiz əbədidir: 46 kitabda, 6-cı kitab, Bakı: Azərnəşr, 1998, 512 s.

Əliyev İ.H. İnkişaf – məqsədimizdir: 108 kitabda, 15-ci kitab, Bakı: Azərnəşr, 2014, 384 s.

Əliyev İ.H. İnkişaf – məqsədimizdir: 108 kitabda, 16-cı kitab, Bakı: Azərnəşr, 2014, 376 s.

Əliyev İ.H. İnkişaf – məqsədimizdir: 108 kitabda, 73-cü kitab, Bakı: Azərnəşr, 2018, 400 .

Əliyev İ.H. İnkişaf – məqsədimizdir: 108 kitabda, 105-ci kitab, Bakı: Azərnəşr, 2020, 392 s.

Əliyev İ.H. İnkişaf – məqsədimizdir: 108 kitabda, 106-cı kitab, Bakı: Azərnəşr, 2021, 392 s.

Əliyev İ.H. İnkişaf – məqsədimizdir: 108 kitabda, 107-ci kitab, Bakı: Azərnəşr, 2021, 392 s.

Əliyev İ.H. İnkişaf – məqsədimizdir: 108 kitabda, 108-ci kitab, Bakı: Azərnəşr, 2021, 392 s.

İlham Əliyev xalqa müraciət edib. 10.11.2020. https://president.az/articles/45924

İşğalçıya yardım göstərən dövlətin obyektivliyi hər zaman sual altında olacaq. 13.04.2010. http://www.yeniazerbaycan.az/Musahibe_e5632_az.html

Prezident İlham Əliyev Laçın dəhlizi üzrə yeni hərəkət marşrutunun inşası planı müəyyən ediləcək. 01.12.2020. https://azertag.az

Prezident İlham Əliyevin "CNN Türk"ə müsahibəsi. 14.08.2021. https://www.youtube.com/watch?v=5qRl-4Xxk7k

Prezident İlham Əliyevin Rusiyanın TASS informasiya agentliyinə müsahibəsi. 23.10.2020. http://www.saatli-ih.gov.az/news/315.html

Putinin Ermənistanla öhdəliklər barədə çıxışı. 07.10.2020. https://www.youtube-.com/watch?v=fzlFqmRm60M

Rusya lideri Putin: Azerbaycan kendi topraklarını kurtardı. 17.11.2020 - 18.11.2020. https://haberglobal.com.tr/dunya/rusya-lideri-putin-azerbaycan-kendi-topraklarini-kurtardi-78973

Письмо представителя Азербайджана от 8 апреля 1993 года на имя Председателя Совета Безопасности, Документ S/25573 Совет Безопасности. Официальнее отчеты сорок восьмой год дополнение за апрель, май, июнь 1993 года, Организация Объединенных Наций, Нью-Йорк, 1996

[46] Əliyev İ.H. İnkişaf – məqsədimizdir: 108 kitabda, 108-ci kitab, Bakı: Azərnəşr, 2021, s.284.

год, 455 с.

Сборник документов ООН по армяно-азербайджанскому нагорно-карабахскому конфликту, Баку, Министерство Иностранных Дел, 2009, 368 s.

LƏNKƏRAN BÖLGƏSİNİN İQLİM XÜSUSİYYƏTLƏRİNİN KƏND TƏSƏRRÜFATI MƏHSULLARININ YETİŞDİRİLMƏSİNƏ TƏSİRİ

THE EFFECT OF CLIMATE CHARACTERISTICS OF THE LANKARAN REGION ON THE GROWTH OF AGRICULTURAL PRODUCTS

Turan Məhərrəmbəy ƏHMƏDLİ[1]

Milli Aerokosmik Agentliyinin Xüsusi Konstruktor Texnoloji Bürosu

Elmira RƏHMƏTZADƏ[2]

Milli Aerokosmik Agentliyinin Xüsusi Konstruktor Texnoloji Bürosu

Gülər ƏLİYEVA[3]

Milli Aerokosmik Agentliyinin Xüsusi Konstruktor Texnoloji Bürosu

XÜLASƏ

Lənkəran rayonu Azərbaycanın cənub-şərqində rütubətli subtropik zonada yerləşir. Rayon şərqdən Xəzər dənizi ilə , qərbdən və cənubdan İranla həmsərhəddir. Bölgə 6139 km^2 sahəsi ilə ölkə ərazisinin 7,1%-nə sahibdir. Rayonun iqtisadiyyatı kənd təsərrüfatı və kənd təsərrüfatına əsaslanan sənayedən ibarətdir. Kənd təsərrüfatımı inkişaf etdirmək üçün burada çox əlverişli təbii-iqtisadi imkanlar var. Mülayim-isti iqlim, münbit torpaqlar, su və insan faktorları potensial kənd təsərrüfatı həyatı üçün böyük imkanlar yaradır. Lənkəran rayonunun relyef, əkinçilik, heyvandarlıq, turizm və iqlim xüsusiyyətləri baxımından çox zəngin potensiala malik olması rayonun əhəmiyyətini artırır.Lənkəran bölgəsindəki iqlim müxtəlifliyi torpaq tiplərinə də təsir göstərmişdir. Çox müxtəlif torpaqların göründüyü bölgədə torpaq əmələ gəlmə prosesi çox sürətlidir. Lənkəran rayonunun meşəliklərində qəhvəyi meşə torpaqlarına və sarı torpaqlara rast gəlinir. Rütubətli subtropik iqlim şəraitində əmələ gələn bu torpaqlar 700 m-hündürlüyündəki dağ yamaclarında rast gəlinir.Kənd təsərrüfatı həyatının strukturunda tərəvəz, çay, üzüm, taxıl və sitrus məhsulları istehsalı mühüm yer tutur. Heyvandarlıq dağlıq ərazilərdə inkişaf etmişdir.Azərbaycanda istehsal olunan çay və sitrus meyvələrinin hamısı, tərəvəz məhsullarının böyük hissəsi və üzümün beşdə biri Lənkəran rayonunun payına düşür. Sovet İttifaqının dağılması ilə Azərbaycan müstəqil dövlət kimi digər sahələrdə olduğu kimi kənd təsərrüfatı sahəsində də bir çox dəyişikliklər etdi. Bu dəyişikliklər Lənkəran rayonunda da aydın görünür. Bu çalışmada Lənkəran bölgəsini iqliminin kənd təsərrüfatı məhsullarının yetişdirilməsinə təsiri öyrənilmişdir.

Açar sözlər: Lənkəran,iqlim,kənd təsərrüfatı,məhsul,cənub bölgəsi.

ABSTRACT

Lankaran region is located in the humid subtropical zone in the south-east of Azerbaijan. The region is bordered by the Caspian Sea to the east, Iran to the west and south. The region covers an area of 6139 km^2 and covers 7.1% of the country's territory. The region's economy consists of agriculture and agricultural-based industries. There are very favorable natural and economic opportunities here to develop my agriculture. Mild-warm climate, fertile soils, water and human factors create great opportunities for potential agricultural life. The importance of the region is increased by the fact that Lankaran region has a very rich potential in terms of relief, agriculture, livestock, tourism and climate. Climate diversity in the Lankaran region has also affected soil types. The process of soil formation is very fast in an area where many different soils are visible. Brown forest soils and yellow soils are found in the forests of Lankaran region. These soils, which are formed in humid subtropical climates, are found on mountain slopes at an altitude of 700 m. The production of vegetables, tea, grapes, grains and citrus products plays an important role in the structure of agricultural life. Livestock has developed in mountainous areas. All tea and citrus fruits produced in Azerbaijan, most of the vegetable products and one-fifth of grapes fall to the Lankaran region. With the collapse of the Soviet Union, Azerbaijan, as an

independent state, made many changes in the field of agriculture, as well as in other areas. These changes are also evident in the Lankaran region. In this study, the impact of the climate of Lankaran region on the cultivation of agricultural products was studied.

Keywords: Lankaran, climate, agriculture, products, southern region.

GİRİŞ

Bir çox ölkələr kimi Azərbaycanın da ÜDM-də Kənd Təsərrüfatı məhsullarının payı aşağıdır. Buna baxmaraq bu qeyri-neft sektoru ərzaq təhlükəsiziyinin təmin olunması və ölkədə artan tələbatın qarşılanması üçün daim diqqət mərkəzində saxlanılmalıdır. Əhalinin artan tələbatı barəsində son dövrlərdə tam təbii məhsullarla əhalinin istehlakını qarşılamaq elə də asan və mümkün deyil. Respublikanın mövcud iqlim tiplərindən doqquzuna sahib olması əkinçilik üçün lazımı şəraitin mövcudluğundan xəbər verir. Ölkənin düzənlik ərazilərində suvarılma , dağlıq və nisbətən dağətəyi yerlərində isə dəmyə əkinçiliyi üstünlük təşkil edir. Heyvandarlıq sahəsinin isə daha çox maddiyat tələb etməsi bizi bir çox inkşafda olan ölkələr kimi əkinçiliyə doğru meyillənməyə sövq edir .Ölkədə hər iqtisadi rayonun özünə uyğun ixtisaslaşmış əkinçilik sahəsi mövcuddur.

Əsas hissə. Lənkəran rayonu Azərbaycanın digər rayonlarından fərqli olaraq rütubətli subtropik iqlim xüsusiyyətlərinə malikdir. Bu ərazidə müşahidə olunan iqlimin formalaşmasına təsir edən əsas amillər relyef formaları və Xəzər dənizindən gələn rütubətli hava kütlələridir. Eyni zamanda, iqlim relyef formalarına görə qısa məsafələrdə fərqlilik göstərməkdədir. Lənkəran bölgəsində müşahidə olunan iqlim tipləri bəzi mənbələrdə 6 başlıq altında tədqiq edilsə də, Köppenin iqlim təsnifatına əsasən tədqiqat sahəsi aşağıda 4 fərqli iqlim qurşağına bölünür:

1.Quru yay, isti çöl iqlimi (Bsa) aşağı rütubət, mülayim qış, çox isti yay və quru-isti hava ilə xarakterizə olunur. Yay aylarında temperaturun 36-40 ºC yüksəldiyi ərazidə nisbi rütubət 15-50% arasında olur. İllik yağıntı 200-300 mm-dir və illik orta temperatur +10 ºC-dir. Bu iqlim hündürlüyü 400 metrdən çox olmayan Qızılağaç körfəzində və Cəlilabad rayonunun şimalında müşahidə olunur.

2.Lənkəran rayonunun dağlıq hissəsində yayı isti və quraq, qışı soyuq keçən çöl iqlimi (BSC) kimi özünü göstərir. Bu tip iqlimin müşahidə olunduğu Yardımlı və Lerik rayonlarında qış soyuq və qarlı keçir.

3.İsti və quru Aralıq dənizi iqlimi (Csa) Lənkəran rayonu ilə eyniləşdirilir.Yayda yağıntıların miqdarı çox az olsa da, havada rütubətin miqdarı çox yüksəkdir. Mülayim qış, isti yay və yağışlı payız fəsilləri ilə rütubətli subtropik iqlim tipi xüsusiyyətlərinə malikdir. Lənkəran və Astara sahillərində bu tip iqlim hökm sürür.

4.Bütün fəsillərdə yağıntılı mülayim iqlim (Cf) tipi Lənkəran rayonunun dağətəyi rayonlarında müşahidə olunur. Burada nisbi rütubət 75-100% arasında dəyişir. Orta dağlıq hissənin yamaclarında müşahidə olunan bu iqlim bütün fəsillərdə yağışlıdır.

Lənkəran rayonu iqlim və torpaq xüsusiyyətləri ilə ölkənin ən böyük kənd təsərrüfatı potensialına malik rayonlarından biridir. Torpaq xarakterindən və yerin oxşarlığından asılı olaraq, aparıcı hava şəraitinin iqlim dəyişkənliyinin dəyişməsi, eləcə də məhsulun sayı və xüsusiyyətləri təbii mühitin idarə olunmayan məqamlarından asılıdır. Bu məlumatlarla əlaqədar olaraq, coğrafi və bio-kommunikasiya qabiliyyətinin torpaq sahəsinin bu və ya digər növ kənd təsərrüfatı məhsulunun zəmanətli və təhlükəli nüansı, yem bazasının əsasını optimallaşdırması, habelə buzovun növü və cins tərkibi ilə daha effektiv şəkildə tətbiq edilməsi lazımdır. Bu sahədə baş verən iqlim dəyişikliyi əhalinin ərzaq təhlükəsizliyinin təmin edilməsində aktuallığı artırır.

Bu gün meyvə-tərəvəz istehsalına görə ölkədə üçüncü yeri tutur. Xüsusilə meyvəçilik rayonun ən mühüm dolanışıq sahələrindən biridir. Dadı və görünüşü ilə fərqlənən sitrus meyvələri Azərbaycanda yalnız Lənkəran rayonunda istehsal olunur. Bu meyvələr rayonun simvoluna çevrilib.Bağlarda kənd təsərrüfatı sahələrindən başqa yerli əhalinin öz istehlakı üçün çoxlu meyvə ağacları var. Feyxoa, üzüm, sitrus meyvələri, alma, armud, nar, albalı, gavalı, heyva, fındıq, qoz və s. kimi meyvələr.Meyvəçilik çoxillik kənd təsərrüfatı sahəsi olduğundan, son illərdə baş verən iqlim dəyişiklikləri böyük təsir

göstərir. Rayonda meyvəçilikdə ən mühüm amillərdən biri çiçəkləmə dövründə qışın mülayim keçməsidir. Lakin qlobal istiləşmə ilə əlaqədar havanın temperaturunun artması meyvə istehsalına ciddi təsir göstərir. Rayonda meyvəçilik əhəmiyyətli kənd təsərrüfatı potensialına malikdir. O, həm ölkənin, həm də regionun qida sənayesinin inkişafına xammal kimi böyük töhfə verir.Lənkəran rayonunun dağətəyi ərazilərində sitrus meyvələrinin istehsalı üçün təbii iqlim şəraiti mövcuddur. 2000-ci ildən sitrus meyvələri istehsalında artan tələb və gəlirəkin sahələrinin genişlənməsinə səbəb olur.Son illərdə əlverişsiz iqlim şəraiti sitrus meyvələrinin istehsalına 40% ziyan vurub. Hazırkı vəziyyətdə istehsalçının məhsul yığımından sonrakı zərəri tədarükçülərə də təsir edir. Dolu, tufan və sel kimi iqlim hadisələrinin kənd təsərrüfatına və meyvə üzümlərinə vurduğu ziyan meyvə istehsalının azalmasına səbəb olur.

Cədvəl 1.Cənub bölgəsində illər üzrə sitrus meyvələrinin istehsalı (ton)

Sitrus meyvələri	2016	2017	2018	2019	2020	2021
Limon	4515	4523	4555	4761	4880	5275
Portağal	3003	3017	3090	3477	3926	4517
Naringi	39152	35221	37016	38537	39923	45767
Cəmi	**46670**	**42761**	**44661**	**46775**	**48729**	**55559**

Tərəvəz İstehsalının iqlim xüsusiyyətləri ilə əlaqəsi-Lənkəran Azərbaycanın tərəvəz istehsalına görə üçüncü ən böyük rayonudur. Bunun mühüm səbəblərindən biri bölgənin təbii quruluşudur.Tərəvəz istehsalının sürətlə genişlənməsi və böyüməsi ərazinin coğrafi quruluşundan asılıdır.İqlim şəraiti, bol yağış və temperatur tarazlığı kənd təsərrüfatı torpaqlarının məhsuldarlığının ən mühüm səbəbidir. Bölgənin iqlimini təyin edən enliyin təsirini nəzərə alsaq, günəşli günlərin sayından asılı olaraq istixana fəaliyyətinin çox da inkişaf etmədiyi görülür. Tərəvəz istehsalının 65%-ni pomidor təşkil edir. Qalan tərəvəz növləri 15% kələm, 15% xiyar, 5% badımcan və bibərdir.2021 ci ilin 30 noyabrın-da Avropa İttifaqı, Birləşmiş Millətlər Təşkilatının İnkişaf Proqramı (BMTİP) və Azərbaycan Respublikasının Kənd Təsərrüfatı Nazirliyi müasir və rəqabətə davamlı meyvə və tərəvəz sektorunun inkişafı məqsədilə 5 milyon avro dəyərində yeni layihənin icrasına başlayıb. Sözügedən layihə "Avropa İttifaqı Lənkəran üçün" proqramı çərçivəsində reallaşdırılır. Lənkəran yüksək qiymətli bağçılıq məhsullarının istehsalı sahəsində danılmaz potensiala malikdir. Avropa İttifaqının bu proqramı regionun meyvə-tərəvəz sektorunda rəqabət qabiliyyətinin və nəticədə, yaranan əlavə dəyərin dayanıqlı şəkildə artırılmasına diqqət yetirəcək və bu minvalla, bir çox fermer və istehsalçıya fayda gətirməyə davam edəcək.2024 cu ildə bu lahiyənin yekunlaşacağı gözlənilir.

Taxılçılığın iqlim xüsusiyyətləri ilə əlaqəsi-Lənkəran rayonunda taxılçılıq böyük əhəmiyyət kəsb edir. Xüsusilə Cəlilabad rayonunda taxılçılıq geniş vüsət almışdır. Rayonun taxıl istehsalında 65 faizi çəltik, 25 faizi buğda, 10 faizi arpadır. Çox az miqdarda çovdar və paxlalılar istehsal olunur. Kənd təsərrüfatı məhsullarının böyük hissəsi, xüsusilə buğda bütün regionda Cəlilabad və Masallı rayonlarında istehsal olunur. Cəlilabad və Masallı rayonlarında müşahidə olunan yay quraq çöl iqlimi buğda istehsalı üçün əlverişli olmuşdur.2005-ci ildən arpa və çəltik əkini sahələri daralmış, buğda əkini sahələri genişlənərək 67255 hektara çatdırılmışdır.

	2021-ci il			2020-ci il		
	Yığılmışsahə, hektar	Yığılmışməhsul, ton	Məhsuldarlıqsent/ha	Yığılmışsahə, hektar	Yığılmışməhsul, ton	Məhsuldarlıqsent/ha
Payızlıqvəyazlıqdənlivədənli (paxlalı) bitkilərincəmi	4844,3	8135,1	16,8	2454,2	5919,0	24,1
Ondan; buğda	718,1	1774,0	24,7	849,3	1881,1	22,1
çəltik	830,8	2668,1	32,1	730,5	2558,6	35,0
Kartof	430,0	3857,8	89,7	466	4150,6	89,1
Tərəvəz	4109,5	84761,2	206,3	3982,7	81024,6	203,4
Ərzaqlıqbostan bitkiləri	47,0	389,3	82,8	82,5	591,4	71,7
Meyvəvəgiləmeyvə	1772,3	20795,5	117,3	1723,6	20122,7	116,7

Yaşılçayyarpağı	355,8	317,2	8,9	377,8	232,0	6,1

Ən qədim kənd təsərrüfatı sahələrindən biri olan çəltikçilik rayonda yüksək məhsuldarlıq və gəlir gətirən taxıl məhsuludur. Lənkəran rayonunun iqliminə uyğun olan çəltik becərilməsi əsasən Lənkəran və Astara rayonlarında alçaq və sulu ərazilərdə aparılır. Lənkəranda Ənbərbu, Sədri, Çiləmberi növləri əkilir, əkin sahələrinin genişləndirilməsi məqsədilə rayondakı çəltik stansiyalarında elmi işlər aparılır. Çəltikçiliyin ən intensiv olduğu yerlər Lənkəran və Astara şəhərləridir. Xüsusilə Astara şəhəri iqlim xüsusiyyətləri ilə yanaşı su ehtiyatları ilə də zəngin olduğu üçün ən çox çəltik istehsal olunan rayondur.Çəltikçiliyin inkişafına dair 2018-2025-ci illər üçün Dövlət Proqramı" təsdiq edilib. 2019-cu ildə 4038 hektarda çəltik əkilib, istehsal 12152 ton, orta məhsuldarlıq isə 30,1 s/ha olub.Dövlət Proqramında qarşıya qoyulmuş hədəflərin həyata keçirilməsi üçün əkin sahələrinin genişləndirilməsi, yeni məhsuldar çəltik sortlarının yaradılması və toxumçuluğunun təşkili, innovativ becərmə texnologiyalarının tətbiqi qarşıda duran vəzifələrdəndir.

İqlim şəraitinin çay əkinçiliyinə təsiri -Çoxlu təbii çay növləri var ki, onlar kifayət qədər çox istehsal olunur və istehlak olunur.Lənkəran rayonunda istehsal olunan qara və yaşıl çay növləri var. Bol suya ehtiyacı olan çay bitkisi Lənkəran rayonunun iqlim şəraitinə uyğundur.Çay istehsalı və ixracına görə Lənkəran rayonu Qafqazda Gürcüstandan sonra ikinci yeri tutur. Azərbaycanın çayçılıq sahəsində gec irəliləməsinin ən böyük səbəblərindən biri də Rusiya Sovetindən sonra burada baxımsız qalan çay sahələrinin yararsız hala düşməsidir. Yenidən çay istehsalına başlamaq üçün Yaponiyadan, xüsusilə Astara vilayətinə çay toxumları və dərman preparatları gətirilib.Çay bitkisinin tərkibindəki olatanin maddəsi digər çaylarda 12-18-dir.mm/qr olsa da, Lənkəran çayında 24 mm/qr-dır. Bu, çayı daha təravətli və şəffaf edir. Eyni zamanda çayın dad və qoxusunun fərqliliyi diqqət çəkir. Nəzərə alsaq ki , çay əkimlərinin çox böyük payı Lənkəran-Astara iqtisadi-coğrafi rayonuna düşür və respublikada burdan başqa yalnız Şəki-Zaqatala iqtisadi-coğrafi rayonunda çay əkinləri vardır .Çayçılığın iqlimlə daha çox bağlı olması da bunun respublikanın digər ərazilərində becərilməsi üçün şərait yaratmır. Belə ki, 2005-ci ildən başlayaraq həm yığımların , həm də əkin sahələrinin 2009-a kimi azalması müşahidə olunsa da , bundan sonrakı dövrdə əkin sahələrinin artması və nisbətən stabil qalması səbəbilə məhsuldarlıq da artım göstərmişdir.

Çay əkmələrinin sahəsi, ha

	2017	2018	2019	2020	2021
AzərbaycanRespublikası	**1114.3**	**1136.5**	**1082.0**	**1067.2**	**996.2**
Lənkəran rayonu	604.3	628.5	640.5	604.3	571.8

O cümlədən bar verən yaşda olan əkmələr - çay, ha

	2017	2018	2019	2020	2021
AzərbaycanRespublikası	**641.7**	**663.0**	**631.0**	**619.8**	**696.3**
Lənkəran rayonu	389.7	413.0	414.0	377.8	355.8

2017-2026-cı illərdə çayçılığın inkişafına dair Dövlət Proqramı"nın layihəsi işlənib hazırlanır. Proqramın həyata keçirilməsi nəticəsində çayçılığın inkişaf etdirilməsi ilə bağlı görülən işlər sürətlənəcək, çay plantasiyalarının əkin sahəsi xeyli artacaq. Təkcə ötən il ölkə üzrə min ton çay istehsal edilib, 12 hektar ərazidə yeni çay plantasiyaları salınıb. Bundan başqa, çayçılığın inkişafı ilə bağlı sahibkarlara dövlət tərəfindən güzəştli kreditlər də verilir. Belə ki, bu sahədə çalışan sahibkarlara ümumilikdə 10,7 milyon manat güzəştli kredit verilib.Yaxşı olar ki, Lənkəran-Astara bölgəsindəki potensialın böyük hissəsi elə çay və digər subtropik bitkilərin yetişdirilməsi üçün ayrılsın. Çünki digər bölgələrimizdə başqa meyvə-tərəvəzlərin yetişdirilməsi üçün geniş imkanlar var, amma, məsələn, Kür-Araz iqtisadi rayonunda çayın yetişdirilməsi mümkün deyil. Ona görə də hələlik Lənkəran-Astara iqtisadi rayonu ərazisində çay plantasiyalarının genişləndirilməsi, xarici təcrübənin öyrənilməsi, yeni çay sortlarının yetişdirilməsinə çalışmaq kimi addımlar bizə ancaq qazanc gətirə bilər.

NƏTİCƏ

Respublikamızda kənd təsərrüfatında məhsulların istehsal sahəsi qənaətbəxş sayılsa da emal sahəsi bundan çox geri qalır. Bu da ixrac əhəmiyyətli məhsulların daha çox xammal formasında xarici ölkələrə satılmasını əlçatan edir. Halbuki , bu məhsullar emal olunaraq , dünya brendləri ilə rəqabətqabiliyyətli olmasa da müəyyən ixrac potensialına sahib ola bilər. Kənd təsərrüfatı nə qədər də bir çox ölkələrin ümumi daxili məhsulunda az paya sahib olsa da ahalinin ərzaq təhlükəsizliyi və artan tələbatının qarşılamaqda çox önəmli rol oynayır .Regionda iqtisadi problemlər hələdə özünü göstərməkdədir var. Günümüzdə bölgədə bu gündə yararsız kənd təsərrüfatı alətlərindən istifadə edilir. Meyvə və tərəvəz həm kənd təsərrüfatı istehsalında, həm də marketinqdə mühüm problemlərdən biridir. Şirə, konservləşdirilmiş məhsul,istixana təsərrüfatına sərmayə qoyulsa, Lənkəran rayonu Azərbaycanın meyvə-tərəvəz istehsalı mərkəzinə çevrilə bilər. Kifayət qədər günəş işığı olan bölgədə istixana becərilməsi kommersiya xarakterli olmalıdır. Çay təsərrüfatını dəstəkləmək, çay ixracını genişləndirmək lazımdır. Eyni zamanda, Astarada çəltik istehsalının dəstəklənməsi və istehsalın artırılması kənd təsərrüfatı istehsalının genişlənməsinə töhfə verəcək.

ƏDƏBİYYAT

1.Şahan,L.,"Lənkəran Bölgəsinin Coğrefi Etüdu",Magistr Dissertasiyası, Marmara Üniversiteti,Türkiyat Araşdırmalar Enstitüsu,İstanbul,2010

2.Əliyev, R. (2005). Subtropikal Bitkiçiliyin Ərazi Təşkilinin İktisadi-Coğrafi ve Ekoloji Problemləri.Bakı: Araz Neşriyat,s45

3.Əflatoun, R., Lənkəran rayonunda kənd təsərrüfatı həyatı, magistr dissertasiyası,İstanbul Universiteti, İstanbul, 2002

4.Həsənov S. Azərbaycanın Lənkəran vilayəti torpaqlarının ekoloji qiymətləndirilməsi və monitorinqi. Dis-ya. AMEA akad. H.Ə. Əliyev ad. Coğ. ins-tu. 2005, 346 s

5.Azərbaycan Respublikası Milli İqlim Proqramı.Azərbaycan Respublikasının Ekologiya və Təbii Sərvətlər Nazirliyi. Bakı, 2002

6.Məmmədov Ə.S Azərbaycanda müasir iqlim dəyişmələri və onun proqnozlaşdırılması. Bakı,"MBM", 2015, 328 s.

7.http://lenkeran-ih.gov.az/

AQRAR SAHƏDƏ İNNOVASİYALI İNKİŞAFIN SÜRƏTLƏNDİRİLMƏSİ YOLLARI

WAYS TO ACCELERATE INNOVATIVE DEVELOPMENT IN AGRICULTURE

Köçərli Hicran Rafiq qızı

Sumqayıt Dövlət Universiteti

Maliyyə və mühasibat uçotu kafedrasının baş müəllimi

ORCID ID: 0000-0002-3641-8930

XÜLASƏ

İnnovasiyaların yayılması və mənimsənilməsinin sürəti milli iqtisadiyyat, sahə və müəssisə səviyyəsində inkişafın tempi və proporsiyalarını şərtləndirən mühüm amildir. Aqrar sahədə innovasiyalı inkişafın sürəti çoxsaylı amillərin təsiri altında formalaşan mühitdə müəyyən olunur. İnnovasiya fəaliyyətinin sürətləndirilməsi üçün daha əlverişli mühitin yaradılması üçün müvafiq iqtisadi mexanizmin formalaşması prioritetləri əsaslandırılmalıdır. Nəzərə almaq lazımdır ki, kənd təsərrüfatının özünəməxsusluğu məhsul və proses innovasiyalarının yayılma və mənimsənilmə sürətində özünü göstərir. Bioloji proseslərin baş vermə sürətinin təbii amillərlə məhdudlaşması sahədə innovasiyalı inkişafın tempinə təsirsiz qalmır. Qeyd olunan və digər məsələlər aqrar sahədə innovasiya fəaliyyətinin sürətləndirilməsi iqtisadi mexanizmin formalaşması prioritetlərinə yeni yanaşmaları tələb edir.

Aqrar sahədə innovasiyalı inkişafın sürətini şərtləndirən amillər arasında iqtisadi amillər mühüm mövqeyə malik olmaqla sahənin rəqabət qabiliyyətinin təminatında həlledici rol oynayır. İqtisadi mühitin innovasiyalı inkişafı sürətləndirmək baxımından imkanlarını səfərbər etmək üçün, mövcud təcrübədən məlum olduğu kimi aqrar fəaliyyətin səmərəliliyinə təsir edən mövcud və yeni yaradılan üsul və vasitələrdən istifadə edilməlidir. Sivil bazar münasibətləri şəraitində aqrar sahənin idarə edilməsində iqtisadi üsullardan istifadəyə üstünlük verilməsi, demək olar ki, müzakirə obyekti deyildir. Bu prosesdə dövlət və bazar strukturları tərəfindən müəssisələrə, əmək kollektivlərinə və ayrı-ayrı işçilərə təsir göstərməklə istehsalı artıran və onun səmərəliliyini yüksəldən iqtisadi üsul, qayda və vasitələr məcmusu kimi iqtisadi mexanizm həlledici rola malikdir.

İnnovasiya fəaliyyətinin sürətləndirilməsi üçün iqtisadi mexanizmin formalaşması prioritetlərinin əsaslandırılması aqrar istehsalın innovasiyalı inkişafının optimal temp və proporsiyalarının əldə edilməsi və istehsal edilən məhsulun rəqabət qabiliyyətinin yüksəldilməsi baxımından aktual məsələlərdəndir. Təqdim olunan məqalədə aqrar sahədə innovasiya fəaliyyətinin sürətləndirilməsi üçün adekvat iqtisadi mexanizmin təşəkkülü prosesində, o cümlədən maliyyə və vergi sistemində, amortizasiya siyasətində, rəqabət və elmi ideyaların kommersiyalaşdırılması sistemində tələb olunan zəruri dəyişikliklər müəyyən edilmişdir. Sahədə innovasiya fəaliyyətinin sürətini şərtləndirən amillər xarakterizə edilmiş, onların təsir dairəsinə münasibət bildirilmişdir. Daha sonra aqrar sahədə innovasiya fəaliyyətinin sürətləndirilməsi üçün iqtisadi mexanizmin formalaşması imkanları qiymətləndirilmiş, prioritetləri müəyyən olunmuşdur.

Açar sözlər: innovasiya fəaliyyəti, sürət, iqtisadi mexanizm, aqrar sahə, stimullaşdırma

ABSTRACT

The speed of dissemination and implementation of innovations is an important factor determining the pace and proportions of development at the level of the national economy, industry and enterprise. The pace of innovative development of the agricultural sector is determined by the environment, which is formed under the influence of many factors. It is necessary to justify the priorities for the formation of an appropriate economic mechanism in order to create a more favorable environment for accelerating innovation. It should be borne in mind that the specifics of agriculture are reflected in the speed of distribution and implementation of product and technological innovations. Limiting the rate of

biological processes due to natural factors affects the pace of innovative development of the industry. These and other issues require new approaches to the priorities of the formation of an economic mechanism for accelerating innovation in the agricultural sector.

Among the factors that determine the pace of innovative development of the agricultural sector, economic factors play an important role in ensuring the competitiveness of the industry. To mobilize the resources of the economic environment in terms of accelerating innovative development, existing and newly created methods and tools that affect the efficiency of agricultural activity should be used from existing experience. In the conditions of civil market relations, the preference for the use of economic methods in the management of the agricultural sector is practically not a subject of discussion. In this process, the economic mechanism plays a decisive role as a set of economic methods, rules and instruments that increase production and increase its efficiency through the impact on enterprises, labor collectives and individual workers from state and market structures.

Justification of the priorities for the formation of an economic mechanism for accelerating innovation is one of the topical issues in terms of achieving optimal rates and proportions of innovative development of agricultural production and increasing the competitiveness of manufactured products. The article identifies the necessary changes in the process of forming an adequate economic mechanism to accelerate innovation in the agricultural sector, including the financial and tax system, depreciation policy, competition and the system of commercialization of scientific ideas. The factors that determine the speed of innovation in this area are characterized, and the attitude to the sphere of their influence is expressed. Then, the possibilities of forming an economic mechanism to accelerate innovation in the agricultural sector were assessed and priorities were identified.

Keywords: innovation activity, speed, economic mechanism, agrarian sector, stimulation

Aqrar sahədə innovasiya fəaliyyətinin sürətləndirilməsi üçün iqtisadi mexanizmdə rəqabət mübarizəsində qalib gəlmək baxımından zəruri meyarlar üzrə təshihlərin edilməsi məsələsi günümüzdə xüsusi aktuallıq kəsb edir. Haqqında danışılan təshihlər (edilən dəyişikliklər) sahədə istehsalın inkişafının iqtisadi mexanizminin strukturuna, o cümlədən fəaliyyəti idarə edən mərkəzi qurumun xarakteristikalarına, mexanizmin fəaliyyət subyektlərinə, fəaliyyətin mövcud və gözlənilən şəraitinə və alqoritminə təsirsiz qalmır.

İnnovasiya fəaliyyətinin sürəti, digər sahələrdə olduğu kimi kənd təsərrüfatında da elmi ideyaların istehsala tətbiqi və bunun nəticəsi olaraq rəqabət qabiliyyətli yeni məhsula çevrilməsi proseslərinin davamiyyəti ilə bağlıdır. Həmin müddətlərin qısaldılması, başqa sözlə vaxta qənaət zamanı yeni məhsulun (xidmətin) rəqabət qabiliyyəti pisləşməməlidir. Həmin davamiyyətdə yeniliklərlə, başqa sözlə onları yaradanlarla onların istifadəçiləri arasında əlaqələrdə vasitəçilərin rolu minimuma endirilməlidir. Bunun üçün ilk növbədə, elmi qurumlarda texnoloji sahibkarlıq təcrübəsi artırılmaldır. Əks halda elmi ideyaları maddiləşdirən və kommersiyalaşdıran subyektlər bazar konyunkturuna adekvat reaksiya verə bilməzlər. Eyni zamanda, unutmaq olmaz ki, innovasiya təklif edənlər və ona ödəniş qabiliyyətli tələblə bazarın müvafiq seqmentinə çıxanlar arasında ixtisaslaşmış vasitəçilərin öz yeri və rolu vardır. Başqa sözlə, heç də bütün hallarda həmin vasitəçilərin aradan çıxması innovasiyaların yayılma və mənimsənilmə sürətinə, ümumiyyətlə isə innovasiyalı inkişafın proporsiyalarına və tempinə müsbət təsir etmir.

Aqrar sahədə elmi ideyaların rəqabət qabiliyyətli yeni məhsula çevrilməsi müddətini artıran amilləri təsir gücünə görə, birmənalı ranqlaşdırmaq demək olar ki, mümkün deyildir. Bununla belə, həmin amillər qismində aşağıdakı amillər, yüksək ehtimalla mühüm əhəmiyyətli hesab edilməlidir: yeni məhsulun təklifi motivlərinin zəifliyi; əqli mülkiyyətin qorunması sistemində indiyə qədər mövcud olan boşluqlar; innovasiya infarstrukturunun inkişaf etməməsi. Bu və digər səbəblərdən elmi-tədqiqat fəaliyyətinin əhəmiyyətli hissəsi "təcrübədə tətbiq edilməmiş qalır, təcrübi istifadə potensialına malik layihə və işləmələrin kommersiyalaşmasına gətirib çıxara bilən təşkilati və iqtisadi mexanizmlərin olmaması səbəbindən təsərrüfata və büdcəyə gəlir gətirmir. Bu fakt, şübhəsiz tədqiqatlara sərf olunmuş büdcə vəsaitlərindən istifadə səmərəliliyini aşağı salır, ərazinin real iqtisadiyyatının innovasiya seqmentinin inkişafını əhəmiyyətli dərəcədə ləngidir" [3, s.220].

Aqrar sahədə innovasiya fəaliyyətinin sürətləndirilməsi üçün iqtisadi mexanizmin formalaşması prosesində, o cümlədən amortizasiya siyasətində, maliyyə və vergi sistemində, rəqabət və elmi ideyaların bazara çıxışı mühitində zəruri dəyişikliklər edilməlidir. Əlbəttə, artıq qeyd edildiyi kimi elmi ideyaların maddiləşməsi və tədqiqatların nəticələrinin kommersiyalaşdırılması sistemində də innovasiyalı inkişaf tələbləri nəzərə alınmalıdır. Aqrar sahədə innovasiyaların, xüsusilə elmi innovasiyaların kommersiyalaşdırılması prosesi aqrobiznes tələblərinə uyğunlaşma ilə müşayiət olunur.

Aqrar sahədə fəaliyyət göstərən subyektlərin aktivlərin amortizasiya olunmuş dəyərinin (istismara yararlı olduğu müddət ərzində) əvvəlcədən müəyyən edilmiş hissələrlə sistemli əsasda bölüşdürülməsi prosesini xarakterizə edən **amortizasiyanın innovasiyalı inkişafa xidmət baxımından rolu mühümdür. Məsələ ondadır ki, məhz bu xarakteristikalarına görə amortizasiya siyasəti aqrar sahədə texniki-texnoloji inkişafın hərəkətverici qüvvələrindən biri olmaq iqtidarındadır.** İnnovasiyalı inkişafın sürətləndirilməsi meyarlarının önə çəkilməsi halında aqrar sahədə amortizasiya ayırmalarından toplanan vəsaitlərin əsas fondların mənəvi yenilənməsinə üstünlük verilməlidir.

İnkişafın yeni keyfiyyət səviyyəsinin, o cümlədən aqrar sahədə innovasiyalı inkişafın zəruri temp və proporsiyalarının təmin edilməsində amortizasiya siyasəti, demək olar ki, bütün hallarda aparıcı rola malikdir. Amortizasiya siyasəti "yüksək texnologiyalar, informatika, bio və nanotexnologiyalar sahələrində əhəmiyyətli nəticələrin əldə olunmasında mühüm rol oynamışdır. Müasir dövrdə əsas vəsaitlərin amortizasiyası onların fiziki aşınmasını xarakterizə edən göstərici olmaqla bərabər, iqtisadi artımın əsas mənbələrindən biri və genişləndirilmiş təkrar istehsalın tənzimlənməsi mexanizmi kimi qəbul olunur" [1, s.55].

İnnovasiya fəaliyyətinin sürətləndirilməsi üçün maddi-texniki bazanın yenilənməsinin optimal tempi və miqyası təmin edilməlidir. Odur ki, innovasiya fəaliyyətinin sürətləndirilməsi üçün innovasiyalı inkişaf tələblərinə cavab verən amortizasiya siyasəti formalaşdırılmalıdır. Bu məqsədlə, amortizasiya siyasətini, ümumilikdə uçot siyasətini şərtləndirən başlıca amillər müəyyən edilməlidir. Həmin amillərin çoxsaylı və müxtəlif xarakterli olması, onların təsnifatında kifayət qədər fərqli yanaşmaların meydana çıxmasına səbəb olmuşdur. Həmin təsnifatları müqayisəli təhlil etmədən, tədqiqatımızın predmeti baxımından aşağıdakı yanaşmanı məqsədəuyğun hesab edirik. "Müəssisənin uçot siyasətinə təsir edə bilən əsas iqtisadi amillər aşağıdakı kimi təsnifləşdirilir: "rəqabət mühiti", informasiyanın açıqlanmasından planlaşdırılan gəlirlə şərtlənən motivləşdirmə, şirkətin ölçüsü" [4, s. 51-68]. Doğrudan da, kənd təsərrüfatında istehsal fəaliyyəti ilə məşğul olan subyektlərin amortizasiya siyasətində rəqabət mühitinin tələblərinin nəzərə alınmaması, əslində hazırki dövrdə innovasiya amilinə etinasızlıqdan başqa bir şey deyildir. Bu isə nəinki haqqında danışılan istehsal subyektinin inkişafını, hətta onun mövcudluğunu təhlükə altına alır. Haqqında danışılan istehsal subyektinin (şirkətin) ölçüsünün amortizasiya siyasətinə təsirindən danışarkən, ölçülər dəyişdikcə nəinki uçotun təşkili məsələlərinin, habelə miqyas effektinin gerçəkləşdirilməsi məsələsinin aktuallaşdığını qeyd etməliyik.

İnnovasiyalı aqrar fəaliyət amortizasiya siyasətinin liberallaşdırılmasını tələb edir. Məsələ ondadır ki, innovasiyalı inkişaf tələblərinə uyğun olaraq aqrar və aqrar-sənaye fəaliyyəti subyektlərində amortizasiya siyasətində amortizasiya ayırmalarının tezləşdirilməsinin və ilkin amortizasiyanın güzəşti parametrləri nəzərə alınmaqla dəyişikliklər edilməlidir. Belə ki, tezləşdirilmiş amortizasiya ayırmaların normasını artırmaqla, aqrar istehsal subyekti öz texniki bazasının yenilənməsini sürətləndirir. Doğrudur, bu halda vergiyə cəlb edilən mənfəətin məbləği azalır, lakin bu azalmanın qısa müddət ərzində innovasiyalı inkişaf sayəsində kompensasiya edilməsi ehtimalı yüksəkdir. İnnovasiyalı inkişaf tələbləri nəzərə alınmaqla amortizasiya ayırmalarının azalan qalıq və ya maşın saatı üsulları üzrə (Azərbaycan Respublikasının Vergi Məcəlləsinin 114-cü maddəsinə əsasən) hesablanması məqsədəuyğundur.

Aqrar sahədə innovasiya fəallığına mənfi təsir edən aşağıdakı özünəməxsus cəhətlər vardır: sahibkarlığın rastlaşdığı maneələrin çoxluğu; kənd ərazilərində şəbəkə əmələ gətirən innovasiya infrastrukturunun olmaması; fəaliyyətin məkan baxımından pərakəndəliyi; antiböhran tədbirlərinin reallaşdırılması çətinlikləri; rəqəmsal mühitin ləng formalaşması; maliyyə vasitəçiliyində kənd yerlərində problemlərin çoxluğu; informasiyanın assimmetriya və natamamlıq dərəcəsinin daha yüksək olması; vergi tətilləri və güzəştləri sisteminin çevikliyi səbəbindən vergi mexanizmində yüksək dəyişmə tezliyi; innovasiyalı və şaxələndirilmiş fəaliyyət şəraitində yeni aqrar məhsulun sertifikatlaşdırma və lisenziyalaşdırma əməliyyatlarının yüksək əmək tutumluluğu.

Azərbaycanda milli innovasiya sisteminin formalaşmasında innovasiyalı fəaliyyət üzrə ixtisaslaşdırılmış subyektlərin sistem əmələ gətirən şəbəkəsinin formalaşdırılması mühüm addımlardan biridir. Dövlət innovasiyalı fəaliyyət üzrə ixtisaslaşdırılmış subyektlərin yaradılması proseslərinin maliyyələşdirilməsini təmin edir. Məqsəd əlverişli innovasiya mühiti yaratmaqla özəl bölmənin bu istiqamətdə fəallığını təşviq etməkdir. Ölkədə aqroparkların yaradılmasında məqsəd məhdud ərazidə kənd təsərrüfatı məhsulunun istehsalı, emalı, qablaşdırılması, bir sözlə son istehlaka hazır məhsulun əldə edilməsinin bütün mərhələlərinin təşkilidir. Aqroparklar kənd təsərrüfatında istehsal – kommersiya fəaliyyətinin məhdud ərazidə həyata keçirilməsi və yerdəyişmələrin minimuma endirilməsi hesabına nəinki vəsaitlərə qənaət etməyə, habelə məhsulun kəmiyyət və keyfiyyət itkilərini azaltmağa imkan verir.

Ölkəmizidə qarışıq tipli aqroparklar, yəni **bitkiçilik və heyvandarlıq məhsulları üzrə bazar araşdırmaları, məhsul istehsalı, emalı, habelə xidmətlərin göstərilməsi** təcübəsi daha geniş istifadə olunur. İxtisaslaşdırılmış aqroparklarla müqayisədə Azərbaycanda qarışıq (çoxməhsullu) aqroparklara üstünlük verilməsi aqrar sahənin inkişafının strateji prioritetləri ilə bağlıdır.

Aqrar sahədə innovasiya proseslərinin stimullaşdırılması sisteminin səmərəliliyi normativ-hüquqi bazanın, innovasiyalı fəaliyyətin maliyyələşdirilməsi mexanizminin mükəmməlliyindən asılıdır; dövlətin dəstəyi ilə yaradılan ixtisaslaşdırılmış innovasiya subyektlərinin səmərəli fəaliyyəti müvafiq stimullaşdırma sisteminin cəlbediciliyini artıra bilir; sahədə istehsal və kommersiya fəaliyyətinin ahəngdarlığını artırmaq üçün ixtisaslaşdırılmış innovasiya subyektlərinin fəal iştirakı ilə rəqəmsal alətlərin və texnologiyaların geniş tətbiq edildiyi innovasiya infrastrukturu formalaşdırılmalıdır; əmtəəlik kənd təsərrüfatı məhsulu istehsalçılarına selektiv kompensasiya və dotasiyaların verilməsi və dövlət investisiyalarının rəqabətsiz bölgüsü istisna edilməlidir. Azərbaycanda innovasiyalı aqrar inkişafın sürətləndirilməsi üçün beynəlxalq qiymətləndirmə alətləri tətbiq edilməklə monitorinqlər aparılmalı, normativ-hüquqi baza təkmilləşdirilməli, dəyər zəncirini qapayan müəssisələrin investisiya fəallığı təşviq edilməli, innovasiya fəaliyyətini stimullaşdıran alətlər təkmilləşdirilməli, aqrar sahə məhsullarına alıcılıq qabiliyyətli tələb dəstəklənməli, sahədə istehsal fəaliyyətinin şaxələndirilməsi üçün motivlər gücləndirilməli, aqrar-sənaye inteqrasiyası proseslərində resursqoruyuculuq və artım meyarları birgə tətbiq edilməlidir.

Bir məsələni də xüsusi olaraq qeyd etməyi vacib hesab edirik. Amortizasiyanın tezləşdirilməsi innovasiyalı inkişafın tələbi olsa da, məhsulun maya dəyərini artırır. Odur ki, aşağı rentabelli müəssisədə sürətli amortizasiya siyasəti yeritmək problemlidir. Bu səbəbdən, aqrar sahədə innovasiyalı fəaliyyətə üstünlük verən istehsal subyektləri üçün güzəştlər sistemi tətbiq edilməlidir. Əks halda, bir qayda olaraq iqtisadiyyatın digər sahələrinə nisbətən az rentabelli aqrar sahədə innovasiyaların sürətləndirilməsi perspektivləri xüsusi nikbinliyə əsas vermir.

Digər və təxirə salınmadan həll edilməli olan bir problemi də qeyd etməliyik. Aqrar təsərrüfatçılıq təcrübəsində amortizasiya fondlarının vəsaitlərinin təyinatı üzrə xərclənməməsi nadir hal deyildir. Belə olduqda həmin vəsaitlərin innovasiyalı inkişafda rolundan danışmaq olmaz. Odur ki, sahədə innovasiyaların sürətləndirilməsi üçün istehsal subyektlərində, birmənalı olaraq həmin fondların yaradılması və onların vəsaitlərinin istisnasız olaraq təyinatı üzrə istifadəsi təmin olunmalıdır.

ƏDƏBİYYAT

1. Seyfullayev İ.Z. İnnovasiya yönümlü amortizasiya siyasətinin vergitutma cəhətləri// Azərbaycanın Vergi Xəbərləri. 12/2011. s. 49-68

2. Musayev A.F. İnnovasiya iqtisadiyyatı və vergi stimullaşdırması. Bakı. "Azərbaycan Universiteti" nəşriyyatı, 2014. 184 s.,s.101-102

3.Владыкин А.А. Коммерциализация научных разработок как результат инновационной деятельности и способ дополнительного финансирования высшего учебного заведения// Теория и практика общественного развития, 2013, №4, с.219-223

4. Nichols N., Street D. The relationship between competition and business segment reporting decisions under the management approach of IAS 14 Revised // Journal of International Accounting, Auditing and Taxation. 2007. Vol. 16. Iss. 1. P. 51-68

AZƏRBAYCAN- TÜRKİYƏ STRATEJİ ƏMƏKDAŞLIQ VƏ TƏRƏFDAŞLIĞI

AZERBAIJAN-TURKEY STRATEGIC COOPERATION AND PARTNERSHIP

Namiq Məmmədov

Azərbaycan Milli Elmlər Akademiyasıl

Bakı, Azərbaycan

ORCID ID: 0000-0003-4356-6111

TEZİS

Azərbaycan Respublikası öz müstəqilliyini bərpa etdikdən sonra xarici siyasətinin əsas istiqamətlərindən biri türk dövlətləri, xüsusən də Türkiyə Cümhuriyyəti ilə çoxcəhətli sıx əlaqələrin qurulması olmuşdur. Azərbaycanın Türkiyə ilə qarşılıqlı əlaqələr, strateji əməkdaşlıq və tərəfdaşlığını şərtləndirən bir sıra mühüm faktorlar vardır. Bunların içərisində dil, din, etnik bağlılıqla yanaşı coğrafi mövqelər və siyasi münasibətlər, qarşılıqlı iqtisadi maraqlar, dövlət başçıları səviyyəsində dostluq və qardaşlıq münasibətləri, ortaq problemlərin birgə həlli istiqamətində atılan addımlar və s. əhəmiyyətli rola malikdir.

Bu gün dünyanın siyasi xəritəsində mühüm mövqeyə, gücə malik Türkiyə XXI əsrin əvvəllərindən regionda və dünyada əsas söz sahiblərindən birinə çevrilib. İllərdir ki, Azərbaycan–Türkiyə əməkdaşlığı uğurla inkişaf edir. Azərbaycan–Türkiyə dostluq və qardaşlıq münasibətləri regionda əmin-amanlığın və sabitliyin qorunmasına mühüm töhfədir. Qarşılıqlı faydalı əməkdaşlıq, həyata keçirilən birgə layihələr strateji tərəfdaşlığın daha da möhkəmlənməsini şərtləndirir.

Rəsmi Bakı və Ankara beynəlxalq təşkilatlar çərçivəsində də həmrəylik nümayiş etdirirlər. Azərbaycanla bağlı istənilən sənədin BMT, Avropa Şurası, ATƏT və digər nüfuzlu təşkilatlar çərçivəsində müzakirəsi zamanı ölkəmiz birinci olaraq Türkiyənin dəstəyini hiss edib. Prezident İlham Əliyev 2003-cü ildən bəri daim türk dünyasının birliyinin daha da möhkəmləndirilməsinin, eləcə də Türkiyə ilə münasibətlərin ən yüksək səviyyəyə çatmasının təşəbbüskarı kimi çıxış etmiş, bu istiqamətdə müsbət nəticələri olan bir sıra konkret addımlar atmışdır.15 iyun 2021-ci il tarixində dövlət başçıları tərəfindən "Azərbaycan Respublikası ilə Türkiyə Respublikası arasında müttəfiqlik münasibətləri haqqında Şuşa Bəyannaməsi"nin imzalanması əməkdaşlığımızın genişləndirilməsi üçün yeni imkanlar açır. Bəyannamə münasibətlərin müttəfiqlik səviyyəsinə yüksəldiyini birmənalı şəkildə ifadə etmişdir.

Bütün digər sahələrdə olduğu kimi, hərbi əməkdaşlıq sahəsində də Azərbaycan və Türkiyə reespublikaları arasında dərin əməkdaşlıq və tərəfdaşlıq münasibətləri vardır və bu münasibətlər mütttəfiqlik səviyyəsinə qədər də yüksəlmişdir. Azərbaycanın regional təhlükəsizlik ehtiyaclarını nəzərə alan qardaş respublika bunu həm də Türkiyənin də regionda güc və söz sahibi olması kimi dəyərləndirərək dövlətimizin hərbi cəhətdən güclənməsinə çalışmış və mümkün bütün vasitələrlə dəstəyini göstərmişdir. Türkiyə Silahlı Qüvvələrinin təhsil müəssisələrində minlərlə azərbaycanlı zabit hazırlanmışdır. Türkiyə, həmçinin Azərbaycan hərbi məktəblərində zabit hazırlığı məsələsində də öz köməkliyini göstərmişdir. İndiyə qədər müdafiə nazirlikləri arasında təmənnasız hərbi yardım, maliyyə yardımı, müdafiə sənayesi, təlim-tədris və maddi-texniki təminat sahələrində əməkdaşlıq haqqında və digər çoxsaylı saziş və müqavilələr imzalanmışdır. İmzalanan həmin müqavilələr Azərbaycan və Türkiyə Respublikaları arasında hərbi əməkdaşlığın inkişaf etdirilməsi üçün hüquqi baza rolunu oynamışdır. Bunların nəticəsində Azərbaycan Qafqaz regionunun ən güclü ordusuna sahib olmaqla işğal olunmuş torpaqlarını silah gücünə geri qaytarmaq qüdrətini qazandı. İkinci Qarabağ müharibəsində Müzəffər Ali Baş Komandan İlham Əliyevin rəhbərliyilə 44 gün ərzində tarixi qələbənin qazanılması da bunun əyani sübutudur. Vətən müharibəsində tarixi zəfərin əldə edilməsi Azərbaycanla Türkiyə arasında hərbi əməkdaşlığın yeni mərhələsinin bünövrəsini qoydu. Münasibətləri müttəfiqlik səviyyəsinə yüksəldən Şuşa bəyannaməsi qeyd edilənlərin əyani sübutu kimi çıxış etməkdədir.

ABSTRACT

After the restoration of the independence of the Republic of Azerbaijan, one of the main directions of its foreign policy was to establish close multifaceted relations with the Turkic states, especially the Republic of Turkey. There are a number of important factors that determine Azerbaijan's mutual relations, strategic cooperation and partnership with Turkey. Among them, along with language, religion, ethnicity, geographical positions and political relations, mutual economic interests, friendly and fraternal relations at the level of heads of states, steps taken to jointly solve common problems, etc. has an important role.

Today, Turkey, which has an important position and power on the world political map, has become one of the key players in the region and the world since the beginning of the 21st century. Azerbaijani-Turkish cooperation has been developing successfully for many years. Azerbaijan-Turkey friendly and fraternal relations are an important contribution to maintaining peace and stability in the region. Mutually beneficial cooperation and joint projects contribute to the further strengthening of the strategic partnership. Official Baku and Ankara also show solidarity within international organizations. During the discussion of any document on Azerbaijan within the UN, the Council of Europe, the OSCE and other influential organizations, our country was the first to feel the support of Turkey.

Since 2003, President Ilham Aliyev has always been the initiator of further strengthening the unity of the Turkic world, as well as reaching the highest level of relations with Turkey, and has taken a number of concrete steps in this direction with positive results. The signing of the Shusha Declaration on Allied Relations between the Republic of Azerbaijan and the Republic of Turkey by the leaders of the two countries opens new opportunities for expanding our cooperation. The declaration unequivocally stated that relations had risen to the level of an alliance.

In the field of military cooperation, as in all other areas, there are deep relations of cooperation and partnership between the Republics of Azerbaijan and Turkey, and these relations have risen to the level of alliance. Taking into account the regional security needs of Azerbaijan, the brotherly republic also assessed this as Turkey's power and influence in the region, tried to strengthen our state militarily and supported it by all possible means. Thousands of Azerbaijani officers have been trained in the educational institutions of the Turkish Armed Forces. Turkey has also assisted in the training of officers in Azerbaijani military schools. So far, the defense ministries have signed a number of agreements and contracts on free military assistance, financial assistance, cooperation in the defense industry, training and logistics, and more. These agreements played a legal basis for the development of military cooperation between Azerbaijan and Turkey. As a result, Azerbaijan, having the strongest army in the Caucasus region, gained the power to return the occupied territories by force of arms. The historic victory in the Second Karabakh War under the leadership of Supreme Commander-in-Chief Ilham Aliyev for 44 days is a clear proof of this. The historic victory in the Great Patriotic War laid the foundation for a new stage of military cooperation between Azerbaijan and Turkey. The Shusha Declaration, which raised relations to the level of an alliance, is a clear proof of this.

GİRİŞ

Soykökü, dil, mədəniyyət və digər bu kimi ortaq mənəvi dəyərlərlə bir-birinə bağlı olan Azərbaycan və Türkiyə respublikaları arasındakı münasibətlər bu gün də öz axarı ilə inkişaf etməkdədir. Hər iki dövlətin başçıları təkcə mehriban qonşuluq siyasətini deyil, ölkələrimizin daha da yaxınlaşmasını şərtləndirən mənəvi prinsipləri əsas götürərək tarixən mövcud olmuş əlaqələrin daha yüksək səviyyəyə çatdırılması üçün bütün zəruri addımları atırlar. Təməlində qırılmaz dostluq və qardaşlıq telləri dayanan Azərbaycan-Türkiyə əlaqələri bütün istiqamətlərdə strateji önəm daşıyır.

Azərbaycan Respublikası öz müstəqilliyini bərpa etdikdən sonra xarici siyasətinin əsas istiqamətlərindən biri türk dövlətləri, xüsusən də Türkiyə Cümhuriyyəti ilə çoxcəhətli sıx əlaqələrin qurulması olmuşdur. Ümumiyyətlə, Türkiyə rəsmi və işgüzar dairələrində Azərbaycana münasibətdə həmişə xüsusi yanaşma mövcud olmuş, dövlət və hökumət, həmçinin digər müxtəlif səviyyəli görüşlərdə bu münasibət dəfələrlə vurğulanmışdır.

Müstəqilliyini bərpa etdikdən sonra Azərbaycanı tanıyan ilk dövlət Türkiyə olub. Müstəqilliyin ilk illərindən etibarən qardaş ölkə Azərbaycanın dövlət quruculuğu yolunda atdığı addımları daim dəstəkləyib, böyük dövlətlərin iştirak etdiyi tədbirlərdə Azərbaycan naminə haqq səsini ucaldıb. İkitərəfli münasibətlər müttəfiqlik səviyyəsinə qədər yüksəlib. Ölkəmizin ən ağrılı problemi olan Qarabağ münaqişəsinin həllində Türkiyənin həmişə Azərbaycan xalqının yanında olması böyük dostluğumuzun, qardaşlığımızın ifadəsi və həmrəyliyimizin rəmzi kimi diqqət çəkib. 2021-ci ildə imzalanan Şuşa bəyənnaməsi də bunun bariz nümunəsi kimi göstərilə bilər.

Azərbaycan- Türkiyə strateji əməkdaşlıq və tərəfdaşlığını şərtləndirən əsas faktorlar

Azərbaycan Respublikası öz müstəqilliyini bərpa etdikdən sonra xarici siyasətinin əsas istiqamətlərindən biri türk dövlətləri, xüsusən də Türkiyə Cümhuriyyəti ilə çoxcəhətli sıx əlaqələrin qurulması olmuşdur. Azərbaycanın Türkiyə ilə qarşılıqlı əlaqələr, strateji əməkdaşlıq və tərəfdaşlığını şərtləndirən bir sıra mühüm faktorlar vardır. Bunların içərisində dil, din, etnik bağlılıqla yanaşı coğrafi mövqelər və siyasi münasibətlər, qarşılıqlı iqtisadi maraqlar, dövlət başçıları səviyyəsində dostluq və qardaşlıq münasibətləri, ortaq problemlərin birgə həlli istiqamətində atılan addımlar və s. əhəmiyyətli rola malikdir.

Məlum olduğu kimi, Azərbaycan Cənubi Qafqazda, Türkiyə isə Yaxın Şərqdə əlverişli coğrafi-strateji mövqedə yerləşmiş qonşu türk dövlətləridir. Azərbaycanın mövqeyi onun Mərkəzi Asiyanın türk respublikaları və onlar vasitəsilə də dünyanın iqtisadi mərkəzlərindən olan Çin və uzaq Şərq ölkələri ilə əlaqələrini təmin edir. Bundan əlavə şimaldan Rusiya Federasiyası, Cənubdan isə İranla həmsərhəd olması şimal-cənub dəhlizinin aparıcı hissəsini təşkil etməsinə şərait yaratmışdır. Türkiyə Respublikası da Avropa və Asiyanı, həmçinin Qara dənizlə Aralıq dənizini birləşdirən mühüm coğrafi mövqeyə malik olması onun "Qızıl körpü" rolunu şərtləndirir. Bu mənada Türkiyə Azərbaycanın Avropa ilə, Azərbaycan isə Türkiyənin Mərkəzi Asiya, Uzaq Şərq ölkələri və Rusiya ilə əlaqələrində vacib rol oynayır. Hər iki dövlətin ortaq dəyərlərə, adət-ənənə, din, dil və etnik mənşəyə malik olması isə qarşılıqlı əlaqələrin formalaşması və inkişaf etdirilməsində böyük əhəmiyyət kəsb etmişdir. Ortaq problemlərimizdən olan erməni təcavüzü və Ermənistanın ərazi iddiaları məsələsi də siyasi əlaqələrimiz və hərbi potensialımızın gücləndirilməsi, beynəlxalq arena və təşilatlarda vahid mövqe nümayiş etdirmək, həmçinin diaspor təşkilatlarımızın fəaliyyətinin artırılması məsələsinin vacibliyini də şərtləndirməkdədir. Dövlətlərimizin başçılarının şəxsi dostluq əlaqələrinin olması da Azərbaycan ilə Türkiyə arasında münasibətlərin möhkəmlənməsi, ikitərəfli əlaqələrimizin bütün sahələrdə daha da genişlənməsində öz müstəsna töhfəsini verən mühüm faktorlardan biridir. Dövlətimizin başçısı İlham Əliyev və Türkiyə Respublikasının Prezidenti Rəcəb Tayyib Ərdoğan arasında mövcud olan dostluq və qardaşlıq münasibətləri və təşkil edilən qarşılıqlı səfərlər bu münasibətlərin möhkəmlənməsində xüsusi əhəmiyyət kəsb edir. Prezident ilham Əliyevin sözləri ilə ifadə etsək, "Dostluq və qardaşlıq üzərində qurulmuş Azərbaycan–Türkiyə əlaqələrinin bu gün dünyada bənzəri yoxdur. Bu əlaqələr tarixən qırılmaz tellərlə bir-birinə bağlı olan xalqlarımızın iradəsindən qaynaqlanır. Çoxşaxəli ikitərəfli əlaqələrimiz, qarşılıqlı maraq doğuran sıx əməkdaşlığımız, irimiqyaslı birgə layihələrimiz strateji müttəfiqliyimizi səciyyələndirən cəhətlərdir. Azərbaycan-Türkiyə tərəfdaşlığı nəinki yerləşdiyimiz regionda əmin-amanlığın və sabitliyin bərqərar olmasına xidmət edir, həm də daha geniş coğrafiyada əməkdaşlığa töhfə verir. Əminəm ki, Türkiyə–Azərbaycan həmrəyliyi və strateji müttəfiqliyi birgə səylərimizlə bundan sonra da xalqlarımızın mənafelərinə uyğun olaraq daha da möhkəmlənəcək və genişlənəcəkdir" [Modern.az, 21.05.2017, https://modern.az/az/news/133411].

Siyasi münasibətlər

Azərbaycan Respublikası öz müstəqilliyini bərpa etdikdən sonra xarici siyasətinin əsas istiqamətlərindən biri türk dövlətləri, xüsusən də Türkiyə Cümhuriyyəti ilə çoxcəhətli sıx əlaqələrin qurulması olmuşdur. Qeyd edək ki, keçmiş Sovetlər Birliyi məkanında müstəqillik qazanmış beş türk dövlətindən coğrafi cəhətdən Türkiyəyə ən yaxın və xarici siyasət fəaliyyətində ona daha çox önəm verəni də məhz Azərbaycan olmuşdur. Bu gün dünyanın siyasi xəritəsində mühüm mövqeyə, gücə malik Türkiyə XXI əsrin əvvəllərindən regionda və dünyada əsas söz sahiblərindən birinə çevrilib. Təsadüfi deyil ki, Türkiyə "Böyük İyirmilik" ölkələri içərisində ən sürətlə inkişaf edən iqtisadiyyata malik ölkələrdən biri kimi böyük nüfuz qazanıb. İllərdir ki, Azərbaycan–Türkiyə əməkdaşlığı uğurla inkişaf edir. Ortaq maraqların və dəyərlərin birləşdirdiyi bu iki ölkə dünya miqyasında ən yaxın strateji

müttəfiqlər kimi daim bir-birinin yanındadır. Azərbaycan–Türkiyə dostluq və qardaşlıq münasibətləri regionda əmin-amanlığın və sabitliyin qorunmasına mühüm töhfədir. Qarşılıqlı faydalı əməkdaşlıq, həyata keçirilən birgə layihələr strateji tərəfdaşlığın daha da möhkəmlənməsini şərtləndirir. İki qardaş və dost ölkənin münasibətləri milli, mənəvi və mədəni dəyərləri ilə bir-birinə eyni köklərlə bağlı olan xalqlarımızın iradəsindən qaynaqlanır. Hazırda dünyada bir-birinə bu qədər yaxın, dogma olan ikinci bir nümunə göstərmək mümkün deyil. Bu mənada türk dünyasının böyük oğlu Mustafa Kamal Atatürkün "Azərbaycanın sevinci bizim sevincimiz, kədəri bizim kədərimizdir", ümummilli lider Heydər Əliyevin "Bir millət, iki dövlət" ifadələri bu münasibətlərin, bu əməkdaşlığın əsl mahiyyətini əks etdirir.

Müstəqilliyini bərpa etdikdən sonra Azərbaycanı tanıyan ilk dövlət Türkiyə olub. Müstəqilliyin ilk illərindən etibarən qardaş ölkə Azərbaycanın dövlət quruculuğu yolunda atdığı addımları daim dəstəkləyib, böyük dövlətlərin iştirak etdiyi tədbirlərdə Azərbaycan naminə haqq səsini ucaldıb. Ölkəmizin ən ağrılı problemi olan Qarabağ münaqişəsinin həllində Türkiyənin həmişə Azərbaycan xalqının yanında olması böyük dostluğumuzun, qardaşlığımızın ifadəsi və həmrəyliyimizin rəmzi kimi diqqət çəkib.

Rəsmi Bakı və Ankara beynəlxalq təşkilatlar çərçivəsində də həmrəylik nümayiş etdirirlər. Azərbaycanla bağlı istənilən sənədin BMT, Avropa Şurası, ATƏT və digər nüfuzlu təşkilatlar çərçivəsində müzakirəsi zamanı ölkəmiz birinci olaraq Türkiyənin dəstəyini hiss edib. Eyni zamanda, rəsmi Bakı da Ankaraya daim birmənalı dəstək nümayiş etdirib.

Prezident İlham Əliyev 2003-cü ildən bəri daim türk dünyasının birliyinin daha da möhkəmləndirilməsinin, eləcə də Türkiyə ilə münasibətlərin ən yüksək səviyyəyə çatmasının təşəbbüskarı kimi çıxış etmiş, bu istiqamətdə müsbət nəticələri olan bir sıra konkret addımlar atmışdır. Məhz Prezident İlham Əliyevin təşəbbüsü ilə Bakıda keçirilən Azərbaycan və Türk diaspor təşkilatlarının Bakı Forumu ümumtürk birliyinin daha da möhkəmlənməsinə mühüm təkan vermişdir. Bu gün hər iki ölkə rəhbərliyinin qarşılıqlı münasibətlərin prinsiplərini uğurla müəyyənləşdirmələri dövlətlərimizin və ümumən türk dünyasının birliyinin, həmrəyliyinin qırılmazlığını şərtləndirmişdir.

15 iyun 2021-ci il tarixində dövlət başçıları tərəfindən "Azərbaycan Respublikası ilə Türkiyə Respublikası arasında müttəfiqlik münasibətləri haqqında Şuşa Bəyannaməsi"nin imzalanması əməkdaşlığımızın genişləndirilməsi üçün yeni imkanlar açır. Bəyannamə münasibətlərin müttəfiqlik səviyyəsinə yüksəldiyini birmənalı şəkildə ifadə etmişdir. Eyni zamanda, Azərbaycan Ermənistanın 30 illik təcavüzünə son qoyulmasında, işğal olunmuş torpaqların azad olunmasında, Azərbaycanın ərazi bütövlüyünün bərpa edilməsində Türkiyə Respublikasının mənəvi-siyasi dəstəyini yüksək qiymətləndirmişdir. Həmçinin qeyd edilmişdir ki, tərəflər Qafqaz regionunda sabitliyin və təhlükəsizliyin möhkəmləndirilməsi, bütün iqtisadi və nəqliyyat əlaqələrinin bərpası, eləcə də region dövlətləri arasında münasibətlərin normallaşdırılması və uzunmüddətli sülhün təmin edilməsi istiqamətində səylərini davam etdirəcəklər. Bu kontekstdə Azərbaycan Respublikasının Naxçıvan Muxtar Respublikasının xüsusi coğrafi vəziyyəti nəzərə alınacaqdır. Tərəflər Türkiyənin Azərbaycanın işğaldan azad edilmiş ərazilərində Türkiyə-Rusiya Birgə Mərkəzinin fəaliyyətinə verdiyi töhfənin regiondakı sülhün, sabitliyin və rifahın təmin edilməsində mühüm rol oynadığını vurğulayırlar **[Şuşa bəyannaməsi].**

Müttəfiqlik münasibətlərini təmin edən digər bir məsələ də qarşılıqlı müdafiə məsələsidir ki, bununla əlaqədar da bəyannamədə xüsusi qeydlər edilmişdir: "Tərəflərdən hər hansı birinin fikrincə, onun müstəqilliyinə, suverenliyinə, ərazi bütövlüyünə, beynəlxalq səviyyədə tanınmış sərhədlərinin toxunulmazlığına və ya təhlükəsizliyinə qarşı üçüncü dövlət və ya dövlətlər tərəfindən təhdid və ya təcavüz edildiyi təqdirdə, Tərəflər birgə məsləhətləşmələr aparacaq və bu təhdid və ya təcavüzün aradan qaldırılması məqsədilə BMT Nizamnaməsinin məqsəd və prinsiplərinə müvafiq təşəbbüs həyata keçirəcək, bir-birinə BMT Nizamnaməsinə uyğun zəruri yardım göstərəcəklər. Bu yardımın həcmi və forması təxirə salınmadan keçirilən müzakirələr yolu ilə müəyyən edilərək birgə tədbirlər görülməsi üçün müdafiə ehtiyaclarının ödənilməsinə qərar veriləcək və Silahlı Qüvvələrin güc və idarəetmə strukturlarının əlaqələndirilmiş fəaliyyəti təşkil olunacaqdır" **[Şuşa bəyannaməsi]**. Bəyannamənin qeyd ediləsi ən mühüm məqamlarından biri də onun hər hansı digər dövlətə qarşı çevrilmədiyinin ifadəsidir. Ümumiyyətlə, bəyannamə

Azərbaycan ilə Türkiyə Respublikaları arasında formalaşmış münasibətlərinin ifadəsidir, hər iki tərəfin maraqlarına cavab verməklə yanaşı, regionda sülh və təhlükəsizliyin təminatçısı kimi çıxış edir.

Ermənistan - Azərbaycan Dağlıq Qarabağ probleminin həlli istiqamətində tərəfdaşlıq və hərbi əməkdaşlıq

Bütün digər sahələrdə olduğu kimi, hərbi əməkdaşlıq sahəsində də Azərbaycan və Türkiyə reespublikaları arasında dərin əməkdaşlıq və tərəfdaşlıq münasibətləri vardır və bu münasibətlər mütttəfiqlik səviyyəsinə qədər də yüksəlmişdir. Məlumdur ki, hələ ötən əsrin 80-ci illərinin sonlarından Ermənistanın əsassız ərazi iddiaları və etnik təmizləmə siyasəti nəticəsində dərinləşən Ermənistan-Azərbaycan Dağlıq Qarabağ münaqişəsi müharibəyə çevrilmiş, 1994-cü ilə qədər davam edən birinci müharibə zamanı Azərbaycanın 20 faizədək ərazisi işğal edilmiş, 1 milyondan artıq soydaşımız öz ata-baba torpaqlarından didərgin salınaraq qaçqın və məcburi köçkünə çevrilmişdi. Sovet İttifaqının dağılması və Azərbaycanın müstəqillik qazanması ilə Türkiyə ilə Azərbaycan arasındakı hərbi əməkdaşlıq yeni müstəvidə formalaşmağa başlamışdır. Azərbaycanın regional təhlükəsizlik ehtiyaclarını nəzərə alan qardaş respublika bunu həm də Türkiyənin də regionda güc və söz sahibi olması kimi dəyərləndirərək dövlətimizin hərbi cəhətdən güclənməsinə çalışmış və mümkün bütün vasitələrlə dəstəyini göstərmişdir.2018-ci il sentyabrında Bakıya səfəri zamanı çıxışında Azərbaycanın ən böyük problemi olan Dağlıq Qarabağ məsələsinin Türkiyə üçün də eyni dərəcədə ağrılı problem olduğunu bildirən Rəcəb Tayyib Ərdoğan Azərbaycanın sevinci, bizim sevincimizdir, qüruru bizim qürurumuzdur, dərdi, ağrısı, problemi də bizim problemimizdir, Azərbaycan kədərlənərsə, biz də kədərlənərik, Azərbaycan sevinərsə, biz də sevinərik sözlərini diqqətə çatdıraraq bildirmişdir: "Türkiyə olaraq problemin həlli üçün Azərbaycanın göstərdiyi səyləri sonadək dəstəkləməyə davam edəcəyik. İllərdir Vətən həsrəti ilə ömür sürən bir milyondan çox qardaşımızın intizarına artıq son qoymaq vaxtıdır. Qardaş Azərbaycanın ərazilərinin 20 faizini işğal altında saxlayanların, bir milyondan çox qardaşımızın öz vətəninə qayıtmasına mane olanların bizdən sərhədlərimizi açmağımızı gözləmələri əbəsdir. Türkiyənin bu məsələdə mövqeyi məlumdur, aydındır, dəqiqdir. Əvvəla, bu məsələdə addım atmalı olan tərəf işğalçılardır, bir milyon qardaşımızın qəlbini doğma vətən həsrəti ilə yandıranlardır. Əlbəttə, biz bütün qonşularımızla yaxşı əlaqələr qurmağı və davam etdirməyi arzu edirik. Amma Dağlıq Qarabağ probleminin həlli Ermənistanla əlaqələrimizin bərpasının ən vacib şərtidir. Bunu hamı bilməlidir"[https://president.az/az/articles/view/29993]. Müxtəlif vaxtlarda iki ölkənin hərbi strukturlarının nümayəndələri qarşılıqlı səfərlərdə olmuş, iki ölkə arasında hərbi müqavilə, hərbi əməkdaşlıq haqqında sazişlər və protokollar imzalanmışdır. Ötən əsrin 90-cı illərindən başlayaraq Türkiyə hərbçiləri Azərbaycan Silahlı Qüvvələrinin təlim-təhsil işində yaxından iştirak etməyə başlamış, sonralar hərbi əlaqələr bir çox sahələri əhatə etmişdir. İki qardaş ölkə ordularının əməkdaşlığı yönündə ilk hüquqi addım 11 avqust 1992-ci ildə imzalanan hərbi təhsil sahəsində əməkdaşlıq haqqında müqavilənin bağlanmasıyla atılmışdır. 1996-cı il iyunun 10-da imzalanmış "Hərbi sahədə təhsil, texniki və elmi əməkdaşlıq razılaşması" çərçivəsində Türkiyə ilə Azərbaycan hərbi təhsil sahəsində əməkdaşlıq edir. Türkiyə Silahlı Qüvvələrinin təhsil müəssisələrində minlərlə azərbaycanlı zabit hazırlanmışdır. Bu günə qədər Türkiyə Silahlı Qüvvələrinin təhsil müəssisələrində 5000-ə yaxın azərbaycanlı hərbçi təhsil alıb. [*Karakoyunlu A., Türkiyə və Azərbaycanın müdafiə sənayesi sahəsində əməkdaşlığı genişlənir, Xalq Qəzeti,* 14 Noyabr 2021 - https://xalqqazeti.com/az/news/89621] Türkiyə həmçinin Azərbaycan hərbi məktəblərində zabit hazırlığı məsələsində də öz köməkliyini göstərmişdir. Belə ki, Azərbaycan Ordusunun zabit ehtiyacını qarşılayan ən əsas təhsil müəsəsələrindən biri olan Bakı Ali Hərbi məktəbi də Türkiyənin aktiv iştirakı və köməyilə NATO standartlarında təhsil verən tədris mərkəzi halına gətirilmişdir. İndiyə qədər müdafiə nazirlikləri arasında təmənnasız hərbi yardım, maliyyə yardımı, müdafiə sənayesi, təlim-tədris və maddi-texniki təminat sahələrində əməkdaşlıq haqqında, Kosovo Türk Taburu tərkibində Kosovoya gedəcək Azərbaycan tağımının fəaliyyətinə dair saziş, Daxili Qoşunların şəxsi heyətinə Türkiyənin Quru Qoşunlarının Ali Hərbi Məktəbində təlim-tədris verilməsi haqqında protokol və digər çoxsaylı saziş və müqavilələr imzalanmışdır. İmzalanan həmin müqavilələr Azərbaycan və Türkiyə Respublikaları arasında hərbi əməkdaşlığın inkişaf etdirilməsi üçün hüququ baza rolunu oynamışdır. **2010-cu il sentyabrın 15-də imzalanmış "Azərbaycan və Türkiyənin Yüksək Səviyyəli Strateji Əməkdaşlıq Şurasının yaradılması" haqqında Birgə Bəyannamə əlaqələrin inkişafında yeni mərhələnin əsasını qoydu.**

Bəyannamənin ən mühüm hissəsindən birini də hərbi sahədə əməkdaşlıq məsələləri təşkil etmişdir və bununla əlaqədar qeyd edilmişdir ki, "hərbi və təhlükəsizlik məsələlərində əlaqədar təşkilatlar arasındakı əməkdaşlıq və qarşılıqlı fəaliyyət gücləndirilərək davam etdiriləcəkdir. Şuraya hərbi və təhlükəsizlik sahəsində əməkdaşlığa dair məlumat və təkliflər müvafiq nazirlər tərəfindən təqdim olunacaqdır" [Azərbaycan Respublikası və Türkiyə Respublikası arasında Yüksək Səviyyəli Strateji Əməkdaşlıq Şurasının yaradılması haqqında Birgə Bəyannamə, https://e-qanun.az/framework/21161]. Bunlardan başqa 2010-cu ilin avqustunda iki ölkə arasında 23 maddədən ibarət Strateji Əməkdaşlıq Sazişi də imzalanmışdır. [Azərbaycan Respublikası və Türkiyə Respublikası arasında strateji tərəfdaşlıq və qarşılıqlı yardım haqqında Müqavilə,

https://e-qanun.az/framework/21158]

Göründüyü kimi, burada hərbi əməkdaşlığa dair demək olar ki, bütün məsələlər əhatə edilmişdir. Qeyd edilən sahələrdə əməkdaşlıq hansı səviyyədə həyata keçirildi və bunun nəticələri nələrdən ibarətdir? Sualına cavab vermək üçün aşağıdakı faktları sadalamaq olar. Əvvəla, Azərbaycan öz təhlükəsizliyini təmin etmək və ordunun müdafiə qüdrətini artırmaq üçün texnologiyanın yeni nailiyyətləri olan hərbi texnikalarla yüksək səviyyədə təmin olundu. Bunların içərisində Türkiyə istehsalı olan pilotsuz uçuş aparatlarının (PUA) əhəmiyyətini xüsusi qeyd etmək lazımdır. PUA-ları həm 2016-cı ilin aprel zəfəri, həm də 44 günlük Vətən müharibəsi zamanı qələbənin əldə edilməsində, müharibənin az itki və qısa zamanda yekunlaşdırılmasında müstəsna əhəmiyyət kəsb etdi. Digər bir tərəfdən isə, 2016-cı ilin iyulunda Azərbaycan prezidenti İ. Əliyevin imzaladığı fərmanla "Qızıl Şərq" hərbi şəhərciyində yerləşən bina və tikililər, Hacı Zeynalabdin qəsəbəsindəki aerodromda yerləşən bir terminal binası Türkiyə Silahlı Qüvvələri şəxsi heyətinin istifadəsi üçün ayrılmışdır. Üçüncüsü, iki ölkə ordularının müştərək fəaliyyətlərinin planlaşdırılması, əməliyyatların keçirilməsi üzrə qarşılıqlı fəaliyyət və döyüş uzlaşması imkanlarının öyrənilməsi, o cümlədən yerdən və havadan zərbələr endirməklə düşmən hədəflərinin məhv edilməsi tapşırıqlarının yerinə yetirirlməsilə bağlı, zirehli texnika, artilerya qurğuları, hərbi aviasiya və hava hücümündan müdafiə qüvvələrinin də cəlb edilməsilə həyata keçirilən çoxsaylı birgə təlimlər də birlik və əməkdaşlığın önəmli istiqamətlərdən birini təşkil etməkdədir. Yalnız 2020-ci ildə Azərbaycanla Türkiyə ordusu arasında 20-yə yaxın birgə təlim həyata keçirilməsini qeyd etmək hərbi əməkdaşlığın hansı səviyyədə inkişafının bariz nümunəsi kimi göstərilə bilər. Qeyd edilən müqavilə əsasında müəyyən edilmiş müddəaların yerinə yetirilməsi hərbi əməkdaşlığın yüksələn xətt üzrə inkişafını təmin etdi. Bunun nəticəsində Azərbaycan Qafqaz regionunun ən güclü ordusuna sahib olmaqla işğal olunmuş torpaqlarını silah gücünə geri qaytarmaq qüdrətini qazandı. İkinci Qarabağ müharibəsində Müzəffər Ali Baş Komandan İlham Əliyevin rəhbərliyilə 44 gün ərzində tarixi qələbənin qazanılması da bunun əyani sübutudur.

Vətən müharibəsində tarixi zəfərin əldə edilməsi Azərbaycanla Türkiyə arasında hərbi əməkdaşlığın yeni mərhələsinin bünövrəsini qoydu.

NƏTİCƏ

Azərbaycan və Türkiyə respublikalarının qarşılıqlı əlaqələr, strateji əməkdaşlıq və tərəfdaşlığını şərtləndirən bir sıra mühüm faktorlar vardır və bu faktorlar ikitərəfli münasibətlərin formalaşması və inkişafında mühüm əhəmiyyət kəsb etmişdir. Bunların içərisində dil, din, etnik bağlılıqla yanaşı coğrafi mövqelər və siyasi münasibətlər, qarşılıqlı iqtisadi maraqlar, dövlət başçıları səviyyəsində dostluq və qardaşlıq münasibətləri, ortaq problemlərin birgə həlli istiqamətində atılan addımlar və s. xüsusi qeyd etmək lazımdır.

Azərbaycan-Türkiyə tərəfdaşlığı nəinki yerləşdiyimiz regionda əmin-amanlığın və sabitliyin bərqərar olmasına xidmət edir, həm də daha geniş coğrafiyada əməkdaşlığa töhfə verir. Zəfərlə yekunlaşmış 44 günlük Vətən müharibəsi və ondan sonra münasibətləri müttəfiqlik səviyyəsinə yüksəldən Şuşa bəyannaməsi qeyd edilənlərin əyani sübutu kimi çıxış etməkdədir.

Azərbaycan və Türkiyə respublikaları arasındakı münasibətlər bu gün də öz axarı ilə inkişaf etməkdədir. Hər iki dövlətin başçıları təkcə mehriban qonşuluq siyasətini deyil, ölkələrimizin daha da yaxınlaşmasını şərtləndirən mənəvi prinsipləri əsas götürərək tarixən mövcud olmuş əlaqələrin daha yüksək səviyyəyə

çatdırılması üçün bütün zəruri addımları atırlar. Təməlində qırılmaz dostluq və qardaşlıq telləri dayanan Azərbaycan-Türkiyə əlaqələri bütün istiqamətlərdə strateji önəm daşıyır.

İSTİFADƏ EDİLMİŞ ƏDƏBİYYAT

1. Azərbaycan Respublikası və Türkiyə Respublikası arasında Yüksək Səviyyəli Strateji Əməkdaşlıq Şurasının yaradılması haqqında Birgə Bəyannamə, https://e-qanun.az/framework/21161

2. Azərbaycan Respublikası və Türkiyə Respublikası arasında strateji tərəfdaşlıq və qarşılıqlı yardım haqqında Müqavilə,

https://e-qanun.az/framework/21158

3. **Azərbaycan Respublikası ilə Türkiyə Respublikası arasında müttəfiqlik münasibətləri haqqında Şuşa Bəyannaməsi**

// https://report.az/xarici-siyaset/susa-beyannamesinin-tam-metni/

4. *Karakoyunlu A., Türkiyə və Azərbaycanın müdafiə sənayesi sahəsində əməkdaşlığı genişlənir*, *Xalq Qəzeti*, 14 Noyabr 2021 - https://xalqqazeti.com/az/news/89621

5. https://president.az/az/articles/view/29993

6. https://modern.az/az/news/133411

CABİR NOVRUZ YARADICILIĞINDA MİLLİ DƏYƏRLƏRİN TƏRƏNNÜMÜ

PRAISE OF NATIONAL VALUES IN THE WORKS OF JABIR NOVRUZ

Günəş XUDAYAROVA

Bakı Avrasiya Universitetinin doktorantı

Azərbaycan Dövlət Pedaqoji Universitetinin Quba filialının müəllimi

ORCID ID: https://orcid.org/0000-0001-8382-6999

ÖZET

Cabir Novruz poeziyasını XX əsr Azərbaycan ədəbiyyatının parlaq səhifələrindən biri hesab etmək olar. Onun əsərlərinin əsasını milli irsimizin zəngin ənənələri və müasir ədəbi cərəyanların bir-biri ilə üzvi şəkildə birləşməsi təşkil edir. Cabir Novruz poeziyası yüksək milli mənəviyyata səsləyən vətəndaş ruhunun hakim kəsildiyi zəngin ədəbi xüsusiyyətlərə malikdir. Məhz bu xüsusiyyətlər tədqiqatımızın əsasını təşkil edir. Onun yaradıcılığı vətənpərvərlik, mübarizlik, milli ruhun aşılanması istiqamətində mühüm xidmətləri ilə seçilir. Cabir Novruz poeziyasının başlıca mövzusunu azərbaycançılıq ideyaları təşkil edir. Şair vətən taleyi, onun tərəqqisi yolunu poetik dillə yaradıcılığı boyu tərənnüm edir. Şair yaşadığı dövrlə tarixdən süzülüb gələn milli-mənəvi dəyərlərin bədii söz vasitəsi ilə əbədi heykəllərini qoyan böyük şəxsiyyətlərdən biridir. Əsərlərinin başlıca istiqamətini milli-mənəvi dəyərlər, xalq taleyi və tarixi hadisələr təşkil edir. Şairin yaradıcılığı milli dəyərləri əsaslı şəkildə təbliğ edir. Görkəmli sənətkar Azərbaycan xalqının ictimai həyatında mövcud mühüm problemlərə laqeyid olmamışdır. Cabir Novruz xalqı düşündürən hadisələri şeirlərində bədii boyalarla tərənnüm etmişdir. Cabir Novruzun "Azərbaycanı sevin, sevin Azərbycanı", "Azərbaycan dərdi", "Vətən qorudun sənindir" və s. kimi şeirləri qeyd olunan fikirlərin bədii təsdiqidir. Məqalədə bu və digər şeirlər əsasında fikrimizi konkret nümunələr əsasında şərh edəcək, təhlillər aparacağıq.

Cabir Novruz yaradıcılığının ruhu milli-estetik istiqaməti ilə seçilir. Əsərlərinin mövzusu yalnız bir şair olaraq onu narahat edən mövzular deyil, eyni zamanda xalqın arzu və istəklərini, onları düşündürən hadisələrə həsr olunmuşdur. Cabir Novruz bir şair olaraq xalq qarşısında məsuliyyətini dərk edən və bu öhdəliyini layiqincə yerinə yetirdiyini yaradıcılığı boyu təsdiq etmişdir. Mənsub olduğu millətin milli dəyərlərini yazdığı hər misrasında xalqın keçmişi, bu günü və gələcəyi ilə tarixi körpü yaradan şair kimi yaddaşlarda izi qoymuşdur. Onun şeirlərində milli-mənəvi və tarixi dəyərlərə əsaslanan yaddaşı görürük və bu yaddaş şairin təfəkküründən süzülüb gələn hər bir misrasında öz inikasını tapmışdır.

Açar sözlər: vətən, milli dəyər, tərənnüm, poeziya, şair

ABSTRACT

Jabir Novruz's poetry can be considered one of the bright pages of XX century Azerbaijani literature. The basis of his works is the rich traditions of our national heritage and the organic combination of modern literary trends. Jabir Novruz's poetry has rich literary features, dominated by the spirit of citizenship, which calls for high national morality. These features are the basis of our research. His work is distinguished by his important services in the field of patriotism, struggle and inculcation of national spirit. The main theme of Jabir Novruz's poetry is the ideas of Azerbaijanism. The poet sings the fate of the homeland, the path of its progress in poetic language throughout his work. The poet is one of the great personalities who erected eternal statues of national and spiritual values that have been filtered from history through his words. The main direction of his works are national-moral values, people's destiny and historical events. The poet's work thoroughly promotes national values. The prominent artist was not indifferent to the important problems in the public life of the Azerbaijani people. Jabir Novruz sang the events that made the people think in his poems. Jabir Novruz's "Love Azerbaijan, love Azerbaijan", "Azerbaijan's pain", "Protect the homeland is yours" and others. is an

artistic confirmation of the ideas mentioned in his poems. In the article, we will comment on our opinion on the basis of these and other poems on the basis of concrete examples, and conduct analysis.

The spirit of Jabir Novruz's creativity is distinguished by its national-aesthetic direction. The subject of his works is not only the topics that concern him as a poet, but also the wishes and desires of the people, the events that make them think. Jabir Novruz, as a poet, realized his responsibility to the people and proved throughout his career that he fulfilled this obligation worthily. In every verse he wrote about the national values of the nation to which he belonged, he left his mark on the people's memory as a poet who created a historical bridge with the past, present and future. We see in his poems a memory based on national-spiritual and historical values, and this memory finds its expression in every verse that flows through the poet's mind.

Keywords: homeland, national value, hymn, poetry, poet

GİRİŞ

XX əsr Azərbaycan ədəbiyyatının milli və bəşəri dəyərlər əsasında formalaşmasında Cabir Novruz poeziyasının xüsusi xidmətləri olmuşdur. Onun əsərlərinin əsasını milli irsimizin zəngin ənənələri və müasir ədəbi cərəyanların bir-biri ilə üzvi şəkildə birləşməsi təşkil edir. Cabir Novruz yaradıcılığı vətənpərvərlik, mübarizlik, milli ruhun aşılanması istiqamətində əhəmiyyətli mövqeyə malikdir. O, Poeziyasının başlıca mövzusu kimi azərbaycançılıq ideyaları, vətən taleyi, onun bütövlüyünü əsas götürmüş və bunu poetik dillə yaradıcılığı boyu ifadə etmişdir. Şairin ictimai-siyasi fəaliyyəti də zəngin olmuş, Azərbaycan xalqının həyatında baş verən taleyüklü hadisələrə əsl vətəndaş şair olaraq düzgün qiymət vermiş, onları poetik dillə ifadə etmişdir. Cabir Novruz bir şair olaraq qəlbi, idrakı, mənəvi qüvvəsi və poetik təfəkkürü ilə xalqı narahat edən mövzulara müraciət etmişdir. Müstəqilliyimizi əldə etdikdən sonra Cabir Novruz çağdaş milli poetik prosesdə iştirak edərək, onun inkişafına öz töhfələrini vermişdir. Professor Yusif Seyidov şair haqqında haqlı olaraq qeyd edir ki, Cabir Novruz təkcə bir sənətkar, bir şair kimi xatırlanmır. O həm də yüksək insani xüsusiyyətlərə malik olan, mənəvi saflığı ilə seçilən, bütün varlığı ilə vətəninə, xalqına, el-obasına bağlı bir vətəndaş kimi yaddaşlarda qalmışdır. Qeyd edək ki, bu fikir bütövlükdə, şairin yaradıcılığında milli düşüncənin poetik dillə ifadə formasında da öz təsdiqini tapmışdır. Cabir Novruzun "Azərbaycanı sevin, sevin Azərbycanı", "Azərbaycan dərdi", "Vətən qorudun sənindir" və s. kimi şeirləri qeyd olunan fikirlərin bədii təsdiqi, bariz nümunəsidir. Həmçinin o, milli irsimizin ənənələrini müasir ədəbi cərəyanların tələbi ilə yeni formada oxucuya təqdim etdi. Cabir Novruz lirikasının əsas leytmotivini milli dəyərlər, milli ruh təşkil edir. Xalq şairi Cabir Novruz yaradıcılığının ilk illərindən yüksək bəşəri-mənəvi ideya, milli dəyərləri tərənnüm edən şeirləri ilə diqqət çəkmişdir. Onun qələminin məhsulu olan belə dəyərlərin tərənnümü ədibə qısa zamanda geniş oxucu məhəbbəti qazandırmışdır.

1. Cabir Novruzun "Sevin Azərbycanı" çağırışı

Cabir Novruz şeirlərində zəngin lirik duyğuların ifadəsi, onların insana təsir gücü və düşündürücü məzmunu ilə poeziyamıza yeni nəfəs gətirmiş, bu xüsusiyyətlərinə görə oxucuları öz arxasınca aparmışdır. Vaqif Yusifli Stendalın bir fikrinə istinad edərək, şairin yaradıcılığını belə şərh etmişdir: "Əgər mən təkəmsə, bir heçəm, əgər mənim arxamca heç kəs gəlmirsə, mən bir heçəm. Əgər oxucu desə ki, bu adam fikir aləmini irəli aparmışdır, onda mən hər şeyəm". Cabir Novruz da müasir səviyyəli, onu sevən, duyan həqiqi oxucuların əhatəsində idi. O, gəncliyin məhəbbət duyğularını, analara, atalara sonsuz ehtiramı, vətənpərvərlik eşqini böyük bir ilhamla qələmə alırdı" [3, s. 3]. Cabir Novruz poeziyasına ünvanlaya biləcəyimiz bu fikri onun yaradıcılığına bələd olan hər kəs təsdiq edər ki, şair bədii fikir aləmini irəli aparmış, qələmə aldığı hər bir əsəri ilə oxucuları düşündürmüş, milli ruhu yüksəltmək yolunda bədii nümunələrlə ədəbiyyatımızı zənginləşdirmişdir. Cabir Novruz 50 illik yaradıcılığı dövründə hansı mövzuya müraciət etdisə, həmin istiqamətdə ədəbiyyatımıza yeni nəfəs, yeni ruh gətirdi. Şair yaradıcılığının özünəməxsusluğu ondan ibarət idi ki, o, zamanın, dövrün aktual mövzularına müraciət etmişdir. Müstəqilliyimizin ilk illərində əsarətdən xilas olmuş xalqın milli-mənəvi dəyərlərini, tarixi yaddaşını, ədəbiyyatını təbliğ və tərənnüm etməyi özünə ən ali məqsəd hesab edən Cabir Novruz poeziyası məhz bu xüsusiyyətlərinə görə ədəbiyyat tariximizin əhəmiyyətli hissəsini təşkil edir.

"Yüksək mənəvi duyğular, ictimai-əməli iddialarla yaşamış bu ziyalı şair yaradıcılığı ilə xalqın vətənpərvərlik, mübarizlik, milli-mental ruhunun yüksəlməsinə mühüm poetik nümunəvilik töhfələri verib. Millətimizə Vətən taleyi üçün "daimi müqəddəs narahatlıq hissləri", böyük azərbaycançılıq ideyaları aşılayıb" [2, s. 3].

Cabir Novruz "Azərbaycanı sevin, sevin Azərbycanı" adlı şeirində xalqı vətəni sevməyə, onu qorumağa çağırır. Şairə görə vətəni sevmək milli dəyərlərimizi, tarixi keçmişimizi qorumaq və onları gələcək nəsillərə aşılamaqdan ibarətdir. Şeirdə Azərbaycanı "odum", "ocağım", "evim" adlandıran şairin xalqı ruhu ilə, qanı, canı ilə vətəni qorumağa çağırışını görürük:

Bu millətin qeyrətli oğulları, qızları,

Sevgimiz xilas edər bu gün Azərbaycanı,

Azərbaycanı sevin, sevin Azərbaycanı...

Adını uca tutun hər arzudan, diləkdən,

Doymayın, usanmayın ona ana deməkdən... [1, s. 36]

Cabir Novruz poeziyasında mənəvi duyğuların inikası, ictimai-tarixi yaddaş, vətənpərvərlik və mübarizlik ruhu qabarıq görünür. Şair xalqa poetik dillə xitab edərək, vətən, onun tarixi taleyinin parlaqlığı istiqamətində ruhlandırıcı bədii nümunələr yaratmışdır. Cabir Novruz lirikasının əsasını milli dəyər və milli qürurun təşkil etdiyini hər misrasında görmək mümkündür:

O bizim hamımızın həyəcanı, harayı,

Bir də, axı, kim yanar ona bizdən savayı?..

O bizim ruhumuzda, o bizim qanımızda,

Yalnız biz keçməliyik uğrunda canımızdan. [1, s. 36]

Cabir Novruz əsrlərin odlu-alovlu sınaqlarından çıxmış Azərbaycanı can istəsə can, qan istəsə qan verərək qorumağa çağırmışdır. Şair gələcək nəsillərə "Köküm, soyum, soyadım, adım Azərbaycan"ı qorumağa, sevməyə səsləyir. Şeirin sonunda isə bütövlükdə xalqa belə bir müraciət edilir:

Bu ulu məhəbbətə çağırıram hər kəsi,

Divin canı şüşədə, onun bizdədir canı...

Məndən çox sevirsiniz bu torpağı bəlkə siz,

Amma təkrar deyirəm; sevin Azərbaycanı,

sevin Azərbaycanı. [1, s. 37]

2. Milli dəyərlərə yiyələnmə Vətəni qorumağın ilk mərhələsi kimi

Cabir Novruz Azərbaycan poeziyasında özünün orjinal üslubu ilə seçilən milli və vətənpərvər sənətkar kimi ədəbiyyatımıza yeni fikir, yeni yanaşmalar gətirmişdir. "Vətən dərdi qabağında qalan dərdlər yalan dərddir" deməklə Cabir Novruz bədii fikir tariximizdə yeni bir düşüncə formalaşdırmışdır. "Azərbaycan dərdi" adlı şeirində ifadə olunan bu fikir yazıldığı dövrün aydın təsvirini verir. Cabir Novruz XX əsrin 90-cı illərində yazdığı əsərlərində vətənin bütövlüyünü qorumaq və xalqı mübariz olmağa səsləyirdi. Şairin bu müstəvidə yazılmış bütün əsərlərini gələcək nəsillər üçün yaddaş hesab etmək olar.

Cabir Novruza görə, xalqa, millətə, onun milli-mənəvi dəyərlərinə sahib çıxmanın, keçmişlə gələcək arasında körpü yaratmağın əsasında vətəni qoruma dayanır. Vətəni qorudunsa, əlində tutduğun bayraq sənin qalandır, qorumadınsa, göz dağındır deyərək, ədəbiyyatın təsir gücündən ustalıqla yararlanmaqla xalqa müraciət edir. Bu müraciət şairin "Vətən qorudun, sənindir" adlı şeirində öz bədii əksini tapmışdır. Cabir Novruz burada xalqa vətəni qorumağı bədii dillə vəsiyyət edir desək, yanılmarıq:

Vətən qorudun, sənindir,

O, bayraq tutan əlinindir,

Basılmaz qalan, dağındır,

Qorumadın, göz dağındır... [1, s. 98]

Cabir Novruzun bu şeirdə ifadə olunmuş fikri Bəxtiyar Vahabzadənin: "Bizi məhv eyləyər arxayınçılıq, əgər qorumasaq istiqlalımızı" - fikrinin bədii, məntiqi davamı kimi səciyyələndirə bilərik. Cabir Novruz şeirin sonunda: "Vətəni qorudun, sənindir, qorumadın, kəfənindir",- deməklə bütövlükdə xalqın milli-mənəvi dəyərlərini, tarixini, ədəbiyyatı və mədəniyyətini qorumağın, o yolda mübarizə aparmağın ən ali məqam olduğunu ifadə etmişdir. Onun poeziyası sadəlik və emosionallığın, təbiiliyin vəhdəti ilə yoğrulmuşdur.

Xalq şairi 90-cı illərdə yazdığı əsərlərində Qarabağ mövzusuna xüsusi diqqət yetirmiş və poeziyasında xalqı birliyə səsləyən ədəbi nümunələrə geniş yer vermişdir. Cabir Novruz üçün vətənin bütövlüyü, onun tərəqqisi yaradıclığının zirvəsi idi. Xalqın dərdinə həmin zirvədən baxaraq, poeziyanın dil ilə xalqı vətəni qorumağa, vətən dərdlərinə məlhəm olmağa səsləyirdi:

Bu gün bircə dərdimiz var - Vətən dərdi..

Hamımızı oda yaxar - Vətən dərdi...

Vətən dərdi qabağında

Əfsanədir çörək dərdi, yemək dərdi, gödən dərdi...[1, s. 144]

Cabir Novruz Vətənə, Qarabağa, Şuşaya maddi mədəniyyət abidəsi kimi baxır və bu milli-mənəvi dəyərlərimizlə fəxr edirdi. Tanınmış tənqidçi Vaqif Yusiflinin qeyd etdiyi kimi, "Şuşanı çox sevirdi Cabir Novruz və bu maddi mədəniyyət abidəsi ilə fəxr edirdi. Onun ömrünün son illərində bitirdiyi "Şuşa yolu" poeması da bu məhəbbətin ifadəsiydi" [4, s. 13].

Xalq şairi Şuşanı çox sevdiyini ömrünün son illərində bitirdiyi "Şuşa yolu" poeması ilə də bir daha təsdiq etdi. Poemada: "Şuşa dərdi öldürəcək axır məni" deyən şair poemanın yazıldığı ildən bir il sonra 2002-ci ilin dekabr ayında ağır xəstəlikdən vəfat edir. Cabir Novruzun ən böyük arzusu Şuşanı azad görmək idi. Vətən, yurd sevgisi ilə yazıb-yaradan bir şairin poeziyası məhz bu amalın ədəbi təsdiqidir. Azərbaycan xalqının milli-mənəvi dəyərlərinə, hər bir qarış torpağına bağlılığı ilə seçilən və buna görə də ədəbiyyat tariximizdə xüsusi bir yeri olan Cabir Novruzun bu gün ruhu şaddır ki, Qarabağımız, Şuşamız qəhrəman oğullarımız şücaəti nəticəsində azaddır.

Cabir Novruz ictimai və ədəbi fəaliyyəti yüksək qiymətləndirilən şairlərimizdəndir. O, ictimai-siyasi hadisələrin fəal iştirakçısı olmaqla yanaşı, eyni zamanda xalqın həyatında baş verən taleyüklü hadisələrə əsl vətəndaşlıq mövqeyi ilə münasibət bildirmiş və bu münasibəti onun poeziyasında da öz əksini tapmışdır. "Əməkdar incəsənət xadimi", "Xalq şairi" fəxri adları almış, Dövlət mükafatına, orden və medallara layiq görülmüşdür. Cabir Novruz ədəbiyyat və ictimai fikir tariximizdə əvəzsiz rolu olan, azərbaycançılıq ənənələrinə sadiq vətənpərvər şair olaraq söz dünyası ilə yaddaşlarda əbədi iz qoymuşdur.

NƏTİCƏ

Cabir Novruz XX əsr Azərbaycan ədəbiyyatının milli dəyərlər əsasında formalaşması istiqamətlərində xüsusi xidmətləri olan sənətkarlardan biridir. O, milli ədəbi irsimizin parlaq ənənələrini davam etdirən, milli dəyərləri bədii dil əsasında gələcəyə aparan bir şair olmuş, keçmişlə bu günü ədəbi və tarixi bağlarla bir-birinə cilallayaraq, çağdaş poeziyanı formalaşdırmaq yolunda fəaliyyət göstərmişdir. Xalq şairi Cabir Novruzun ədəbi irsini bu kontekstdə tədqiq edəndə aydın olur ki, yaradıcılığı boyu fikir və düşüncələrini sadə, təsirli, emosional üslubda ifadə edərək, vətən, xalq, milli ruh və milli dəyərləri tərənnüm etmişdir.

ƏDƏBİYYAT

1. Cabir Novruz. Seçilmiş əsərləri. Bakı, "Lider" nəşriyyatı, 2004, 288 səh.

2. Tahir Abbaslı. Cabir Novruz. “Mədəniyyət” qəzeti, 9 dekabr, 2016, s. 3.
3. Vaqif Yusifli. Unudulmayan Cabir Novruz. “Ədəbiyyat” qəzeti, 8 mart, 2013, s. 3.
4. Vaqif Yusifli. Şeirimizdə Qarabağ. “Ədalət” qəzeti, 6 iyun, 2013, s. 13.

MURAT KÖMÜR'ÜN FIRTINA SAVAŞÇILARI 2 - CANAVAR FANTASTİK ROMANI ÜZERİNE İNCELEME

***Ulduza ADIGOZALOVA*[1]**

[1]*Muğla Sıtkı Koçman Üniversitesi, Sosyal Bilimler Enstitüsü, Türk Dili ve Edebiyatı Bölümü, Muğla, Türkiye*

ORCID ID: 0000-0003-3479-2352

ÖZET

Murat Kömür'ün fantastik romanlarından biri 2020 yılında yayımladığı Fırtına Savaşçıları 2 – Canavar'dır.

Yazar, Fantezi türünün bütün özelliklerini kullanarak tarihsel fantezi türünde yazılan eseriyle okuru mitolojinin gizemli evrenine sürüklemeyi amaçlamaktadır. Kökeni eskilere dayanan fantastik türe destanlar, masallar, fabllar, mitolojik anlatılar dâhildir. Yazar, bu romanla Eski Türklerin tarihine inerek onların kullandıkları ritüelleri günümüz dünyasıyla paralel şekilde işlemiştir.

Bu çalışmada ilk olarak Türk ve dünya edebiyatındaki Fantastik türün gelişimine dikkat çekilmiştir. Buna istinaden 1980-1990 yıllarında Türk edebiyatında bazı gelişmeler sonucunda fantezi türünün benimsenmeye başladığı, ancak 2000'li yıllarda fantastik roman ve filmlerin ortaya çıkmasıyla bu türe iyiden iyiye ilginin arttığı görülmektedir.

Daha sonra fantastik romanın nasıl üretildiğine değinilmiştir. Fantastik romanın iki şekilde üretildiği bilinmektedir. İlk olarak yazar, fantastik romanda bilinen zaman ve mekânın sınırları boyunca gerçek dünyaya fantastik unsurlar ekleyerek yazar. Buradaki gerçek dünya birincil dünyadır. Zaman ve mekânın tamamen kurmacadan oluştuğu ikincil dünyada ise gerçek hayatta olmayan olaylar ve yaratıklara rastlanılır.

İncelenen romanda Osmanlı savaşçıları, hem kendilerindeki dönüşümü anlamak hem de kudretli canavara karşı savaşmak için kutsal ineği kurban ederek savaş aletlerini kayın ağacının ateşinde bilerler. Bu sayede denizin derinliklerinde yaşayan aynı zamanda karadaki varlıklara da tesir edebilen kudretli canavardan korunmak için bilekleri bükülmez, yaraları onulmaz olacaktır. Roman boyunca Osmanlı savaşçıları ve canavarın farklı zaman dilimlerindeki mücadelesine şahit olmaktayız.

Anahtar Kelimeler: Edebiyat, roman, fantastik roman, tarihsel fantezi, birincil ve ikincil dünya

ABSTRACT

One of Murat Kömür's fantasy novels is Storm Warriors 2 -Monster, which he published in 2020.

The author to immerse the reader in the mysterious universe of mythology with his work written in the genre of historical fantasy, using all the features of the fantasy genre. Epics, fairy tales, fables, mythological narratives are included in the fantastic genre, the origin of which dates back to the ancients. The author has delved into the history of the Ancient Turks with this novel and processed the rituals used by them in parallel with the modern world.

In this study, the development of the fantastic genre in Turkish and world literature was firt highlighted. Accordingly, as a result of some developments in Turkish literature in the years 1980-1990,the fantasy genre began to be adopted, but with the advent of fantasy novels and films in the 2000s, interest in this genre has increased thoroughly.

Later it was mentioned how the fantastic novel was produced. It is known that the fantasy novel is produced in two ways. Firts, the author writes along hte boundaries of time and space, known in the

fantasy novel ,adding fantastic elements to the real world. The real world here is the primary world. In the secondary world, where time and space are completely made up of fiction, events and creatures that are not real life are encountered.

In the novel under consideration, the Ottoman warrior sharpen their war tools at the fire of the beech tree by sacrificing yhe sacred cow to both understand their transformation and to fight against the mighty beast. In this way, his wrists will not be bent and his wounds will not be touched to protect himself from the mighty beast that lives in the depts of the sea and can also affect beings on land. Throughout the novel, we witness the struggle of Ottoman warriors and the beast in different time periods.

Keywords: Literature, novel, fantasy, fantasy novel, primary and secondary world

GİRİŞ

Fantastik türün kökeni eskilere dayanmaktadır. Fantastik romanlar bilinen dünyanın ötesinde gerçekleşen hayal gücüne dayalı olayları içerir. Olağanüstü dediğimiz olaylarda yaratıklar, canavarlar, cinler, periler, vampirler gibi insan dışı varlıkların yanı sıra olağanüstü olayları görmek mümkündür. Büyü, tılsım ön plandadır, buradaki büyü kültürel değildir.

V. Uğur'a göre modernizm öncesi fantastik edebiyatın üretim ve tüketimi günlük hayatla bağlantılıdır. Modernizm sonrasında fantastik edebiyat, modern bireyin, günlük hayattan kovulan olağanüstüye dair merakına seslenir. Fantastiğin gelişememesindeki nedenler biri Batılı "birey" in Türkiye'de çevre oluşturamamasıdır. Bu sayede gelişim aşaması kaydetmeyen bireyin bireysel arayışları ve zevkleri, belli sınırlardan öteye geçememiştir. 1980'li yıllarda Türk edebiyatında Batılı yazarlardan birçok fantastik roman çevrilmeye başladığı gibi bu durum değişmeye başlar. 1990 senesinde bilgisayar ortamında yeni nesillerin fantastik oyunlarla tanışması, daha sonra fantastik roman ve sinema filmlerinin piyasaya sürülmesiyle Türk okuyucusu artık 2000'li yıllarda fantezi türünü benimseye başlar. (Uğur, s.137)

Uğur'a göre fantastik edebiyat temelde iki yoldan üretilir. Birincisi, fantastiğin yaşayan dünyada, bilinen gerçekliğin içine bilinmeyenin girmesiyle meydana gelmesi; ikincisi bilinen insan, mekân, zaman modelli evrenden farklı evrenlerin anlatılması. Bilinen, birincil dünyayı anlatan eserler bilinen dünyanın sınırları içinde gerçekleşen fantastik olayları konu almaktadır. İkincil dünyayı anlatan fantastik eserler ise yaşadığımız dünyadan tamamen farklı kurgulanmış zaman ve mekânda geçer. İkincil dünya fantezilerinde insanların yanı sıra gerçek dünyada var olmayan çok sayıda canlıya yer verilir. (Uğur, s.138)

Fantezi türünde geniş çalışmalar yapan Todorov, fantastiği tür olarak çeşitli alt başlıklara ayırır. Ayrıca herhangi bir fantastik metnin fantastik olabilmesi için de farklı özellikler taşıdığını vurgular. Ona göre fantastik metnin öncelikle okurda kararsızlık duygusu oluşturması gerekir. Böylece okur fantastik bir metni okuduğu zaman onun gerçek veya gerçek dışı olup olmadığına karar verdiği zaman yaşadığı kararsızlık duygusuyla fantastik tür oluşur. Kararsızlık duygusuyla beraber tekinsiz ve olağanüstü türlerin fantastik arasındaki farklara açıklık getirir. Ona göre tekinsiz olaylar ilk önce doğaüstü gibi görünse de mutlaka sonda mantıklı bir açıklaması vardır. Bu tür, gerçeklik yasalarına dayanır. Fantastik ise okuyucu tarafından karmaşıklığa neden olduğu için ondan farklıdır. Fantastik olağanüstü ise fantastik gibi görünen ve doğaüstünün kabullenmesiyle son bulan türdür.(Todorov 2004,s. 47-57)

Peki, tarihi fantezi nedir ?

Tarihi romanın geçmişine bakıldığı zaman tarihi belgelerle sınırlı kalmayıp fantastik unsurları da kendinde barındıran bir türe evrildiği görülmektedir. Son dönemlerde ise fanteziyle tarihin birleşiminden fantastiğin alt türü tarihi fantezi ortaya çıkmıştır. Bu türde yazılan eserler genelde tarihi kendine özgü fantastik unsurlarla yeniden işler. Zamanda yolculukla tarihe inerek olay örgüsü ve roman kişilerinin bir kısmı veya tamamı o dönemden seçilir. Kurgulanmış tarihsellik içinde gerçek olan olayların, nesnelerin olağanüstü bir hal almasıyla fantastik dünyalar kurulur.

Yukarıda bahsedildiği üzere eski tarihe inerek kurgusunu ve kişilerinin tamamını veya bir kısmını o dönemden alan romanlar tarihi fantezi türde yazılanlardır. Yani tarihin olanak sağladığı her şey; efsaneler, masallar, destanlar vb. temel kaynaklar arasındadır. Sadece kurgunun arkasındaki olayların

tarihsel olması tek farktır. Tarihi fantezi türünde yazılan romanların en önemli özelliklerinden biri Türklerin tarih boyunca yaşadığı coğrafyalar, tarihi kişilikler romana eşlik eder. Bu romanlar tek kahramanla sınırlı kalmayıp, çok sayıda roman kişisinden oluşur.

OLAY ÖRGÜSÜ

Romanda olaylar birincil dünyanın merkezindeki İtalya, Otranto, Sicilya Adası, Batı Afrika ve ikincil dünya olan ruhlar ülkesinde geçmektedir. Buradaki birincil dünyadaki olayların ikincil dünyayla paralel şekilde verildiği görülmektedir. Zamanda yolculuk sayesinde Osmanlı ve İtalya tarihindeki savaşlardan verilen kesitler, tarihsel fantezinin arka planını oluşturur. Bilinen tarihe alternatif olarak fantastik öğeler ile süslenmiş tarihsel fantezide, bilinen dünyanın farklı zamanlarında ve farklı coğrafyalarında geçen olaylar işlenir. Alternatif tarihsel fantezide coğrafya ve tarihler bazen çarpıtılıp değişiklik gösterebilir. Burada tarihin imkân sağladığı mitler, efsaneler, masallar önemli rol oynar. İncelenen romanda tarihsel olaylara fantastik süslemeler yapılarak bazılarında ise coğrafyalar çarpıtılarak türün önemli örneği ortaya çıkmıştır.

Roman özel güçlere sahip Gökbörü, Molla Gürani, Geyikli Baba, Garip Orhan, Tuna Ağa, Burak Reis ve Cumali Gazi'nin kötülere karşı mücadelesiyle başlar. Çıktıkları bu yolun başında Mola Gürani ve Geyikli babayı kaybederler. Garip Orhan ise kötülüğün temsilcisi olarak gördüğümüz Albastı tarafından esir alınarak köle adasında tutulur. Romanın olay örgüsü Gökbörü, Tuna ağa ve Burak Reis'in Garip Orhan'ı kurtarmak için Otranto'dan Sicilya adasına gitmek üzere kendilerini Albastı'nın devasa Canavar ve ekibinden korumak için savaş aletlerini kutsamakla başlar. Dağın başında öküz ve ayının iç organlarıyla kayın ağacı közünde bilenen silahları tılsımlı sözlerle büyülenerek güçlenir. Tarihle fantezinin iç içe olduğu romanda eski Türklerin dini inançları göz önüne serilmiştir.

RÜYALAR

Fantastik romanlarda ilk olarak karşılaştığımız rüyalar gerçeğin yansıması olarak görülür. Bu rüyalar roman kahramanlarının hareketlerini de şekillendirir. Tarihi fantezi türünde yazılan romanlarda da görülen bu durum sayesinde iyilerle kötülerin rüyalardaki verilen mesajlardan hareketle davrandıklarını görmekteyiz. Böylece rüyalar olayların gelişmesine olanak tanır. Düşler sayesinde romanın hangi yönde ilerleyeceği veya olaylar hakkında ipuçları verilir. Bu rüyalardan dan biri de Gökbörü'nün rüyasında Geyikli babayı görmesidir. Rüyayla verilen mesaj üzerine arkadaşlarını kurtarmak için yola çıkan Osmanlı savaşçılarının başına gelecekler tamamen rüyanın etkisindendir. Rüyada Geyikli babanın kutsanmış savaş aletlerini kuyuya atmasıyla aralarında tartışma çıkmasının nedeni, bu kutsanmış savaş aletleri olmadan gerçek hayatta canavar ve onun savaşçılarına karşı savaşamaz olmalarıdır.

İYİLİĞİN VE KÖTÜLÜĞÜN TEMSİLCİLERİ

Uzun yıllardan beri anlatılarda devam eden iyinin ve kötünün karşı kutupları oluşturması popüler romanlarda da kendini gösterir. İyi kötünün mücadelesi okura iyi şekilde anlatılır. Buradaki iyi ve kötü mücadelesi herhangi bir ulusa yönelik değildir. Okurlar genelde iyiliği temsil eden karakterlerin tarafında olmayı seçerler, çünkü romanlarda iyiliğin temsilcileri derin duygularını okura hissettirebilir ve böylelikle okurun kahramana karşı sempati duygusu oluşur. Romanda iyilik taraftarları olan Osmanlı savaşçıları roman sonuna kadar iyiliğin kazanacağına inanırlar.

Kötüler hain planlar yaparak aniden iyilere saldırarak birtakım galibiyetler kazanırlar. Ancak başlarda iyilerin aleyhine olan durum daha sonra onların leyine olarak değişir. Çünkü ilk mağlubiyetten sonra toparlanmaya çalışan iyiler karşı saldırıya geçer. Buradaki iyi kötü mücadelesi ulusa yönelik değildir. Osmanlı savaşçıları inancını kaybetmeden iyiliğin kazanacağına her daim inanırlar.

Hubilgan; doğaüstü özelliklere sahip olan Hubilgan roman boyunca belirgin şekilde bu özelliklerini kullanarak hem bozkurda hem de Osmanlı savaşçısı Gökbörü'ye dönüşür. Hubilgan, altın gagalı, gök yeleli bir bozkurttur. **Gökbörü;** Hubilgan kılığından asasıyla Gökbörü'ye dönüşen şamanlık güçleri bulunan Osmanlı savaşçısı, **Burak Reis**; Osmanlı savaşçılarından bir diğeridir. Savaş zamanı gözlerini

kaybetse de savaş sonuna kadar onu görmekteyiz. Gözlerini kaybetmeden önce muzip bir savaşçıyken gözleri taşa dönüştükten sonra tılsımlı bir hekim, gizemli bir simyacıdır (15).

İyiliğin temsilcilerinden Tuna Ağa, Cumali Gazi, Ayşe, Molla Gürani ve Geyikli Baba romanda az görünmektedirler.

Kötülüğün taraftarları yaratıkların ürpertici tasviri okurda hoş karşılanmayabilir. Kötü kahramanların tasvirleriyle yaptıkları, bir biriyle örtüşür. İyiliğin temsilcileri sevimli haliyle okurda yer edinirken, kötülüğün temsilcileri ise ürpertici görünümüyle dehşet hissi uyandırır.

Canavar; kötülüğün temsilcilerinin başında gelen Albastı tarafından Osmanlı savaşçılarına musallat edilen kurt, kollarının yanında ve sırtında geniş yüzgeçleri sayesinde kutsanmış silah aletlerine karşı dayanıklılık gösterir. **Françeska,** Türklere nefret eden, ilk başlarda savaşçılara belli etmeyerek onları kandıran şuh ve cilveli İtalyan kadınıdır. Türk ve Altay mitolojilerinden bilinen kötü ruh **Albastı,** tüm kötülükleri yayan ve idare eden edendir. **Cüce,** Mongolian kralı ve Albastı'nın sağ koludur.

FANTASTİK OLAYLAR

Adı geçen romanda çok fazla olağanüstü olaylara rastlarız. Okuru hayrete düşüren olayların gerçek veya düş olduğuna dair bir takım düşünceler ortaya çıkar. Örneğin romanın bir bölümünde savaş sırasında canavarın kopan uzuvlarının içinden sızan tenyalar, suyun yüzeyindeki canavara kopan uzuvlarını götürür. Canavar, kopan uzuvları alıp yerlerine yapıştırır. Böylece iyileşen uzuvlar sayesinde canavar eski haline döner.

Daha sonra savaşçıların fare saldırısına uğramaları hiç sıradan bir olay değildir. Vahşi fareler savaşçıların bedeninden parçalar halimde etlerini koparır. İnsan eti yiyen farelerle savaşçılar bir gece boyunca beraber kaldıktan sonra savaşçıların parmakları, vücutları hep yara bere içinde pıhtılaşmış kanla dolar. Bu kadar yaraya rağmen bir iki gün sonra yaraları yokmuş gibi savaşlarına devam ederler.

Büyülü Nesneler

Fantastik türün unsurlarından biri romanlarda kullanılan olağanüstü özelliklerle donatılmış eşyalardır. Bu eşyalar genellikle günlük hayatta kullanılan eşyalardan seçilir. Böyle yaparak yazar okurun algısını değiştirmeye çalışır. Adı geçen eserde yazarın ok, kılıç, asa vb. gibi nesnelere gerçeküstü özellikler yüklemekle olay örgüsünü yönlendirdiğini görmekteyiz. Örneğin Hubilgan'dan asasıyla Gökbörü'ye dönüşen Osmanlı savaşçısı, hep ön plandadır. O, ihtiyaç anında elindeki asaya tılsımlı sözler söyleyerek iyi ruhlardan yardım ister. Örneğin tekne vasıtasıyla Sicilya Adasına yola çıkan savaşçılara erken varmaları rüzgâr gerekir. Gökbörü, tılsımlı sözlerini söyledikten sonra hafif esen rüzgar hızlanır. Rüzgar etkisiyle tekne o kadar hızlanmaya başlar ki bu hızla yunuslarla bile yarışabilir hale gelir.

Kullandıkları büyülü nesnelerden bir diğeri ise kılıçtır. Binlerce yıl boyunca tüm dünyadaki savaşlarda vazgeçilmez savaş aracı olan kılıç, romanda kutsanmıştır. Kayın ağacı közünde kutsanan kılıç sayesinde savaşçılar, devasa canavara karşı kendilerini korumaya çalışırlar. Aşağıdaki pasajda bunu açıkça görmekteyiz.

"Kurbanımız kabul edildi! Kendimi hem ayı hem de bir boğa kadar dinç, çevik ve güçlü hissediyorum. Kılıçlarımız da eskisi gibi sıradan kılıç değil. Demirlerimiz çelikleşirken her zerresine kutsal kan doldu. Bu kılıçlar Tanrı'nın kırbacı kadar tesirli." dedi. (s.23)

Bir diğer bölümde ise savaşçılardan Cumali Gazi bir gün kuşağından bir pala çıkarır. Tuna Ağa palaya kutsanmış kılıcını çalar ve çelikten dövülen pala kolayca parça parça olur. Gözlerine inanamayan Cumali Gazi hayretler içinde palanın hiçbir kılıç tarafından bölünemediğini söyleyerek bu işte bir büyünün olduğunu tahmin eder. Aynı zamanda ok, kılıç gibi savaş aletleri romanın seyrini Osmanlı savaşçılarının düşmanlara karşı galibiyeti yönünde değiştirir.

TÜRK MİTOLOJİSİYLE BAĞLANTILARI

Fantastik, bilinmezler dünyasıyla bağ kurarak ilk insanların yaşama biçimini, inanma serüvenini, doğayı tanımlayışını, kutsalını ortaya koyar. Mitoloji ise, bu şifreleri çözmede fantastiğe yardımcı olur. Yazarların son devrin romanlarında mitolojik unsurlara yer vermesi aslında eski Türklerin, inanç dünyasını yeniden değerlendirmeyi amaçlamaktadır. Eski Türkler denildiğinde ise Şamanların kullandıkları dini inançlar romanlarda ön plandadır.

Fırtına Savaşçıları 2- Canavar romanında çokça mitolojik unsurlara rastlamaktayız. Türklerin tarihine inersek Orta Asya'da Türklerin farklı dini inanışlarına rastlarız. Bu dinler, farklı arayışlar için kullanılır. Bu arayış İslam dini ortaya çıkana dek devam eder. İslam dininin Doğu coğrafyasında ortaya çıkmasıyla, mitolojiye dini terminoloji dâhil edilir. Diğer dinlerden farklı olarak İslamiyet döneminde tek bir Tanrı kavramı bilinmesine rağmen, yeni fethedilen topraklarda bile insan topluluklarının yaşamlarının parçası haline gelen ritüel ve inanışlarının bazıları İslamileştirilerek kullanılmaya devam etmiştir.

Yukarıda değindiğimiz gibi incelenen romanda Osmanlı savaşçıların kullandıkları bazı ritüeller karşımızda çıkmaktadır.

İnsanoğlunun yaşam-ölüm aralığında bir türlü terk etmek istemediği dünya ve nesneler, gerçeklik kavramı etrafında çeşitli şekil ve renklere bürünür. Bazen bu çok keyifli bir dünya algısına bizi götürür. Bu dünya fizik kurallarıyla dalga geçilen, en acımasız kimya formüllerinin üretildiği, insanüstü olayların insanların olağan davranışı haline geldiği fantezi dünyasıdır. Hayal edebilme gücü, sözlü anlatı dönemindeki zengin miras, edebiyatın dil ve anlatım gücü ile birleşince ortaya muazzam fantastik eserler çıkmıştır. Yonar'a göre mitolojinin derinlerine inildiğinde ortaya çıkan olgularda olağandışı olarak algıladığımız pek çok unsurun, duygu kökenli bir olağanlık içinde yaşamın bir parçası olduğu görülür. Bu anlayışı besleyen dini duygu, büyü, kurban, ruhsal etkiler gibi mitik deneyime yol açar. (Yonar 2011, s.73)

Romanda rastladığımız bazı figürlerle donanmış olağanüstü inanış biçimleri kendine özgü simgeler taşır. Romanda rastladığımız bu nesnelerden bazılarına değineceğiz.

Dağ

Şamanlarda yer gökle daima bir bağ içindedir. Genelde evlere, çadırlara direk dikilerek gökle iletişim kurmak niyeti taşırlar. Şamanlarda yerle göğün iletişimi "göğe yükselme" ritüeli olarak bilinir. Yerle gök arasındaki bağı simgeleyen araçların en başında dağ unsuru gelir. Yüksek dağlar merkez simgeciliğinde önemli rol oynar (Yonar 2011, s.111)

İnanışlara göre dağ, yüceliği, gücü, yenilmezliği ifade eder. Dağların başında yaşayan ruhlar yemin törenleri bile bu dağlarda gerçekleştirilir. Hatta dağların arkasında yaşadığına inanılan Yecüc ve Mecüc, Hz. Ali'nin Kef dağında kötü yaratıklarla savaştığı rivayetleri bilinmektedir. Romanda kullanılan dağ unsuru birkaç farklı isimle karşımıza çıkmaktadır. Savaşçıların genelde dağda kendilerini korumaya aldıkları ve ayinlerini de bu dağda yaptıkları görülür. Karnül Bakar dağı ve Daryal geçidi Yecüc Mecüclerin ve kötü ruhların hapsolduğu dağ olarak gösterilirken, Karakurum dağı ise kutsal bir dağ olarak anılır. Çünkü burada Türk mitolojisinin tanrıçası sayılan Umay ana, Er Sogothon ve Kara Han oturur. Ruhlara şamanlık güçleri burada verilir.

Romanda dikkat çeken özelliklerden kurt ve onun yaratıklarının Osmanlı savaşçılarına karşı savaşları deniz ve ormanlık alanlarda gerçekleşir. Çünkü yaratıklar bu gibi mekânlarda yaşar ve bu mekânlar onların kendi güçlerini ortaya koyabilmek için elverişli imkânlar sunar.

Ağaç

Ağaç Tanrıdan ayrılan bir parça olarak farklı inanışlarda ve milletlerde birer küt haline gelmiştir. Bu ağaçlardan en kutsal sayılanı ise kayın ağacıdır. Kayın ağacı kuvvet kazanmanın, bereketin, yüceliğin sembolü olarak bilinir. Ayrıca kötü ruhları defetmek maksadıyla kayın ağacından tütsü yakmak inancı günümüze kadar aynısı veya biçim değiştirerek yaşamaktadır. Osmanlı savaşçıları canavardan korunmak ve savaşa galip gelmek için kendilerini ve silahlarını kutsamak isterler. Bu ayini gerçekleştirmek için kayın ağacı dallarına ihtiyaç duyarlar. Kayın ağacı ateşinde tılsımlı sözler

söyleyerek iyi ruhları çağırırlar. İyi ruhların geldiğine inanan savaşçılar daha sonra silahlarını bu ağacın ateşinde bilerler.

Ölen bir savaşçının ruhunu geri getirmek niyetiyle tekrar kayın ağacına ihtiyaç duyarlar. Dağın tepesine çıkan ve ruhların yaşadığı geçide girdikleri zaman kayın ağacına rastlarlar. İnanışa göre ölenin ruhunun Hayat ağacının memesinden süt içmesi sayesinde şamanlık ruhu bedenine yerleşip güçlenecektir. Böylece ölenin ruhu Şamanlık güçleriyle donatılarak dünyaya gönderilecektir.

Hayvan

Kurt, kadim Türk geleneklerinde önemli bir hayvan figürüdür. Kurt genelde yol gösterici ve kurtarıcı görevi üstlenmektedir. Türklerin tarihine indiğimizde Tanrıyı aramada toplulukların itibar ettiği tek hayvan kurttur. Hatta Tanrının kuyruksuz mavi bir kurdu olduğuna ait efsaneler rastlarız. İncelediğimiz romanın isminin Korkak Savaşçılar2 - Canavar adı taşıması da tesadüfi değildir. Kurt figürü romanda hem kutsal hayvan görevinde, canavar ise savaşçılara karşı savaşan büyülenmiş korkunç yaratık görevindedir. Romanda Şamanlık güçleri verilen Gökbörü de Hubilgan'a (kurda) dönüşerek savaş sırasında olağanüstü yetenekler gösterir.

YAPILAN RİTÜELLER

Eski Türklerin tarihine baktığımızda demirin kutsal olduğunu görürüz. Kutsal saydıkları demirden korunmak amacıyla silahlar yaparlar. Bu silahların en önemlisi kılıçtır. Eski Türk kültüründe yemin törenlerinde, dualarda, ayinlerde daha çok kılıç üzerine yemin edilmektedir. Divan ü Lüğati't-Türk eserinde bulunan kılıç üzerine edilen yeminlerde kullanılan ifadelerin birkaç tanesi bu romanda da görülmektedir. Bunlardan biri atasözlerinde de geçen **Kök temür kerü turmas'**tır.

Kök temür kerü turmas; "mavi demir iş yapmadan durmaz" anlamına gelir. Divan ü Lüğati't-Türk'ten itibaren gördüğümüz mavi demir, demir burada kılıç anlamına gelir, kök (>gök) mavi anlamında kullanılır. Gök tanrı denildiği zaman "gök" Tanrının rengini belirtir. Oğuz Kağan destanında gök tüylü kurt kelimesindeki kurda gök sıfatının verilmesi onun kutsallığı ve tanrı ile ilgisine işarettir. (Bakırcı 2017, s. 65-66)

"Gökbörü, kor halindeki savaş aletlerini, ayı ve boğanın iç organlarıyla döverken "**Kök temür kerü turmas,** yıgaç uzun kes; umur kısga kes. **Bu kök kirsün, kızıl çıksun**."diye ilahiye benzer sözler mırıldanıyordu" (25)

Diğer bir kalıplaşmış ifade ise **Bu kök kirsün, kızıl çıksun'dur.** "Eğer sen sözünde durmazsan, bu gök renkteki kılıç, senin kanına bulanarak kızıl çıksın be senden öcünü alsın" anlamına gelip kılıç üzerine yemin ettikleri zaman kullandıkları ifadelerdir.

Orta Asya Türklerinin yaptıkları ritüellerde demircilerin ve demirin ön planda olduğuna yukarıda değindik. Altay kavimlerine göre; ateşin babası demir, annesi ise taştır. Yakutlara göre şaman ve demirci aynı koldandır. Altay kavimlerine göre; ateşin babası demir, annesi ise taştır. Yakutlara göre şaman ve demirci aynı yuvadandır. Gök demir olarak adlandırılan demir onlar için büyük önem taşımaktadır. Yakut demircileri, demircilerin koruyucu ruhu olan Kıtay Baksı Toyon şerefine inek keser, ineğin kanını çekiç, kerpeten gibi çeşitli demirci aletleri üzerine sürer, ineğin ciğeri ve yüreğini demir ocaklarında kızarttıktan sonra geri kalan ciğeri yok oluncaya kadar çekiçle döverler. Bu törenle Kıtay Baksı Toyon'a saygı göstereceğine ait yemin ederler. (Gülyüz 2019, s. 212)

Ateş yakan savaşçılar kor halindeki demirin üzerine kestikleri ayının ve boğanın iç organlarından koyarak savaş aletlerini iç organlarıyla döverek **"Kıtay Baksı Toyon'a** saygı göstereceğim! Ulusumuza kudretli demirciler göndererek şanımızı yüce, çeliğimizi bükülmez; demirimizin değdiği yeri de onulmaz kılsın. Oklarımız girdiği yeri odlasın, ağulasın. Yaraları iğlesin. Eğer demirci hastalanırsa ona kızıl bir boğayı kurban edip, onurlu bir adağı saçı kılacağım" (25) kelimelerini söyleyerek iyi ruhlara kurban adarlar.

SONUÇ

Murat Kömür, Fantezi türün bütün özelliklerini kullanarak tarihsel fantezi türünde yazılan eseriyle okuru mitolojinin gizemli evrenine sürüklemeyi amaçlar. O, Eski Türklerin tarihine inerek onların kullandıkları ritüelleri günümüz dünyasıyla paralel şekilde işlemiştir. Bu sayede Şamanlık dini inançlarını yeniden değerlendirmiş olur. Roman, Osmanlı tarihi ve Eski Türklerin tarihini hatırlatmada iyi bir kaynaktır.

KAYNAKÇA

EVİS, A. (2014). Hüseyin Nihal Atsız'ın Romanlarında Fantastiğin İzleri. Mustafa Kemal Üniversitesi Sosyal Bilimler Dergisi.

GÜLYÜZ, B. (2019). İslam Öncesi Türk Kültüründe Ateş Ve Ateşe Hükmedenler. Trakya Üniversitesi Edebiyat Fakültesi Dergisi.

KÖMÜR, M. (2020). Fırtına Savaşçıları 2- Canavar. İstanbul: Anatolia Kültür Yayınları

BAKIRCI, F. (2017) .Uygur Türklerinde Bazı Maddi Kültür Olguları Ve Bunların Dini Siyasi Sosyo - Kültürel İşlevleri. İstanbul: Mimar Sinan Üniversitesi.

TODOROV, T. (20014). Fantastik Edebi Türe Yapısal Bir Yaklaşım. İstanbul: Metis Eleştiri.

UĞUR, V. (tarih yok). Türk Edebiyatında Fantastik Roman. İstanbul: Koç Üniversitesi Yayınları.

YONAR, G. (2011). Türk Edebiyatında Fantastiğin Kökenleri. İstanbul: Ötüken Neşriyat.

ŞAGİRD ŞƏXSİYYƏTİNİN FORMALAŞMASINDA RİYAZİYYATIN ROLU

THE ROLE OF MATHEMATICS IN THE FORMATION OF STUDENT IDENTITY

Dos. Dr. Məlahət Abdullayeva

Azərbaycan Dövlət Pedaqoji Universiteti, Riyaziyyat fakültəsi,

Riyaziyyat və onun tədrisi texnologiyası kafedrası, Bakı, Azərbaycan

ORCID NO: 0000-0002-2228-1224

Xədicə Mehdizadə

Azərbaycan Dövlət Pedaqoji Universiteti, SABAH qrupları fakültəsi,

İbtidai sinif müəllimliyi tələbəsi, Bakı, Azərbaycan

ÖZET

Riyaziyyat elə bir elmdir ki, onun əlaqədə olmadığı, daim izləmədiyi və inteqrasiya olmadğı bir sahə olmasın. Şagirdlərin yaradıcılıq qabiliyyətlərini, hərtərəfli inkişafını, ədalət, mədəniyyət, vicdan, vətənpərvərlik, humanizm və s. kimi mənəvi keyfiyyətlərinin formalaşmasında, müxtəlif elmi biliklərin möhkəmlənməsində, yeni və fərqli düşüncə, təfəkkür və tənqidi baxışın yaranmasında riyaziyyatın rolu danılmazdır.

Riyaziyyat elminin məqsədi riyazi bilik, bacarıq və vədişlərin ötürülməsindən əlavə şəxsiyyyətin formalaşması amilidir ki, təlim prosesində də məhz hərtərəfli inkişaf etmiş şəxsiyyət yetişdirmək durur. Şəxsiyyəti formalaşdırmaq üçün elə ilk addım vətən sevgisi ilə qoyulur. Bu gün böyüməkdə olan nəslin vətənpərvərlik tərbiyəsi dövrümüzün aktual problemlərindən biridir. Riyaziyyat təliminin tarixi göstərir ki, onun tədrisi düzgün təşkil olunarsa şagirdlərdə düzgünlük, doğruçuluq, dözümlülük, vətənpərvərlik və digər mənəvi keyfiyyətlər formalaşar.

Ümumtəhsil məktəblərində vətənpərvərlik tərbiyəsi işinin həyata keçirilməsi üçün geniş imkanlar var. İbtidai siniflərdən başlayaraq riyaziyyatın təlimi prosesində şagirdlərə vətəni sevmək, onun hər qarış torpağını qorumaq, vətətənpərvər ruhda böyümək və böyütmək kimi mənəvi duygular aşılanır. Qarabağın hər qarış torpağını tanıtmaq və sevdirmək elə riyaziyyat təliminin əsas məqsədlərindən biri kimi özünü göstərir. İbtidai sinif riyaziyyat dərsliklərinə nəzər saldıqda onların bilik, bacarıq və vərdişlərini təkminləşdirən, hərtərəfəli inkişafına səbəb olan, öyrəndiklərini praktikaya tətbiq etmələrinə imkan verən çalışma, misal və məsələlərin kifayət qədər olduğunu görə bilərik. Nümunələrə baxaq:

Məsələ 1. Xankəndində keçirilən gimnastika üzrə beynəlxalq turnirdə 24 gimnast medalla təltif olundu. Onlardan 8-i qızıl, 8-i gümüş, qalanı isə bürünc medal qazandı. Neçə gimnast bürünc medal qazandı?

Məsələ 2. Samir və Səbinə Ağdamda yeni tikilən məktəbdə oxuyurlar. Onlar məktəb yollarının uzunluğunu müəyyən etmək istəyirlər. Kimin məktəbə getdiyi yol daha qısadır? Neçə metr qısadır?

Məsələlərin mətnindən aydın görünür ki, riyaziyyatın təlimi prosesində Qarabağ məsələsini daim diqqətdə saxlamaqla inkişafetdirici, qeyri standart, məntiqi və praktiki çalışmaların köməyi ilə vətənpərvər nəslin yetişməsinə nail olmaq mümkündür.

Açar sözlər: riyaziyyat, vətənpərvərlik, Qarabağ, şəxsiyyətin formalaşması

ABSTRACT

Mathematics is a science in which there is no field that is not connected, integrated and constantly followed.Students' creative abilities, comprehensive development, justice, culture, conscience, patriotism, humanism, etc.

The role of mathematics in the formation of such moral qualities, in the strengthening of various scientific knowledge, in the emergence of new and different thinking, thinking and critical thinking is undeniable. The purpose of mathematical science, in addition to the transfer of mathematical knowledge, skills and habits, is a factor in the formation of personality, which in the learning process is to cultivate a comprehensively developed personality. The first step in shaping one's personality is patriotism. Today, the patriotic upbringing of the younger generation is one of the urgent problems of our time. The history of mathematics teaching shows that if its teaching is organized correctly, students will develop honesty, truthfulness, tolerance, patriotism and other moral qualities.

There are ample opportunities for patriotic education in secondary schools. In the process of teaching mathematics, starting from primary school, students are instilled with such spiritual feelings as love for the motherland, protection of every inch of its land, growing up and growing up in a patriotic spirit. Promoting and loving every inch of Karabakh is one of the main goals of mathematics education. When we look at elementary mathematics textbooks, we can see that there are enough studies, examples, and problems that improve their knowledge, skills, and habits, lead to their comprehensive development, and allow them to apply what they have learned in practice. Let's look at examples.

Issue 1. 24 gymnasts were awarded medals at the international gymnastics tournament held in Khankendi. 8 of them won gold, 8 silver and the rest bronze medals. How many gymnasts won bronze medals?

Issue 2. Samir and Sabina study at a newly built school in Agdam. They want to determine the length of school roads. Who has the shortest way to school? How many meters short?
It is clear from the text of the issues that it is possible to achieve the upbringing of a patriotic generation with the help of developmental, non-standard, logical and practical work by constantly paying attention to the Karabakh issue in the process of teaching mathematics.

Keywords: mathematics, patriotism, Karabakh, personality formation

GİRİŞ

Hər bir elmin öz əhatə dairəsi, inkişaf zonası, keyfiyyətli nəticələr əldə etmək üçün müəyyən bir istiqaməti, məqsədi olur. Dünyada nə qədər elm varsa, bir o qədər metod, üsul, vasitə, istiqamət və nəhayət məqsəd var. Bəs bu elmlərin ortaq məqsədi necə, varmı?

Təcrübələr göstərir ki, müasir dövrün, savadlı, bacarıqlı, hazırlıqlı vətəndaşlara ehtiyacı olduğu qədər müxtəlif üstün xarakteri, mənəviyyatı, mənəvi dəyərləri, vətəndaş adını daşıya biləcəyi şəxsiyyəti olmalıdır. Elə məhz buna görə də dövrün tələblərinə uyğun olaraq demək olar ki, bütün fənlərin tədrisində təlim məqsədlərini reallaşdırmaq üçün ilk amil şəxsiyyətin formalaşdırılmasıdır. Riyaziyyat təlimində də bu amil özünü yetərincə doğruldur. Riyaziyyat təlimi elə bir prosesdir ki, onun əlaqədə olmadığı, daim izləmədiyi və inteqrasiya olmadığı bir sahə olmasın. Şagirldərin yaradıcılıq qabiliyyətlərini, hərtərəfli inkişafnı, ədalət, mədəniyyət, vicdan, vətənpərvərlik, humanizm və s. kimi mənəvi keyfiyyətlərin formalaşmasında, müxtəlif biliklərin möhkəmləndirilməsində, yeni və fərqli düşüncə, təfəkkür və tənqidi baxışın yaranmasında riyaziyyatın rolu danılmazdır. Riyaziyyat təlimi müəyyən biliyi verməkdən əlavə şəxsiyyət formalaşdırma amili istiqamətini müəyyənləşdirir və beləliklə, verilən praktiki biliklər, müəyyən şəxsi keyfiyyətlərlə birlikdə bacarığa çevrilir və riyaziyyat bu inkişafı daim nəzarətdə saxlayarq bacarığı vərdişə çevirir, bu da öz növbəsində yüksək təlim keyfiyyətinə gətirib çıxarır.

Riyaziyyat yalnız tətbiqi məsələləri həll etmək üçün güclü bir vasitə və universal bir elm dili deyil, eyni zamanda, ümumi mədəniyyətin bir elementidir. Elmin müasir inkişafı hər cür mürəkkəb prosesləri və hadisələri - fiziki, kimyəvi, bioloji, iqtisadi, sosial və digərlərini öyrənmə ehtiyacı ilə xarakterizə olunur. Riyaziyyatın gündəlik həyatda getdikcə artan tətbiqi riyaziyyatçıların fəaliyyət sahəsini də genişləndirmişdir.

Riyaziyyat fundamental bir elmdir, onun metodları fizika, kimya, biologiya, geologiya, mühəndislik, astronomiya, logistika, təhlükəsizlik, informasiya texnikası və s. kimi bir çox təbiət elmlərində geniş istifadə olunur[1]. Bundan əlavə, riyaziyyat tədrisdə zehni inkişafın əvəzedilməz bir vasitəsi hesab

olunur. Şagirdlərin riyazi hazırlığının təkmilləşdirilməsi ilə təfəkküründün inkişaf etdirilməsi də riyaziyyat fənn kurikulumunun əsas vəzifələrindən biri sayılır və onun pedaqoji prinsipləri öz əksini fənnin məzmununda tapır. O da həqiqətdir ki, müasir insanda təfəkkürün tam inkişafı, mühakimələrin gedişi və təfəkkür nümunələri ilə tanışlıq məntiqi mədəniyyəti formalaşdırmadan mümkün deyildir. Bir neçə avropalı alim və metodistin apardığı təcrübələrdə qeyd edilir: riyaziyyat tədrisinin daha ədalətli modeli - dərsin planlaşdırılması mərhələsində şagird şəxsiyyətinin ciddi şəkildə nəzərə alınması ilə başlanması, şagirdlərin riyaziyyatla bağlı gözləntilərinə, onların riyazi idrak səviyyələrinə əsaslanaraq hazırlanmasıdır [15].

Bilik, bacarıq və vərdişləri formalaşdıran və inkişaf etdirən riyaziyyat dərslərinin qarşısında eyni zamanda hərtərəfli inkişaf etmiş insan faktoru durur, bu isə elə şəxsiyyətin formlaşdırılması deməkdir.

ARAŞDIRMA

Şəxsiyyəti formalaşdırmaq üçün elə ilk addım vətən sevgisi ilə qoyulur. Dərsliklərdə hələ cəmiyyətə ilk addımlarını atan azyaşlıları bir vətəndaş kimi formalaşdırmaq üçün müxtəlif məzmunlu, yaradıcı, onlarda bütün idraki bacarıqları inkişaf etdirən, gələcəyə hazırlayan, milli- mənəvi dəyərlər ilə onları silahlandıran çalışma və tapşırıqlar diqqət cəlb edir. Bu inkişafı istər pilləli bir piramidaya, pilləkənə, hündürmərtəbəli binaya, Qarabağın dağlarına bənzədə bilərik. Bənzətmənin mahiyyətini bu təlim prosesində yaxından iştirak edən, şagird şəxsiyyətinin formalaşdırılması ilə bilavasitə məşğul olanlar fərqli anlayar. Hər pillədə yeni bir uğur, yeni bir nailiyyət, bacarıq, müsbət xarakter və s. aşılanır. Pilləkən kimi düşünsək müəllim pillə yox, dəstəkləyən bir əl, piramida kimi düşünsək bünövrəni saxlayan maddə, Qarabağın dağları kimi düşünsək dağın ən hündür zirvəsinə qalxmaq üçün qayadır. Şagird sadəcə bu təməldən güc alaraq öz ayaqları ilə bu pillələri bir-bir addımlayır, piramidanın hər daşını tək-tək yerləşdirir, dağın başına isə öz əlləri və ayaqlarının gücü ilə çıxır.





Gəlin düşünək, fundamenti zəif olan bir piramida necə ayaqda dura bilər? Hər adi zərbə bu piramidanı dağıdar, yerlə yeksan edər. Məhz buna görə də güclü zəmin, savadlı kadr, bacarıqlı insan və ən əsası şəxsiyyət yetişdirmək üçün vətən sevgisi ilə şagirdləri inkişaf etdirmək lazımdır.

Elə məhz buna görə də bu gün böyüməkdə olan nəslin vətənpərvərlik tərbiyəsi dövrümüzün aktual vəzifələrindən biridir. Riyaziyyat təlimi ilə bağlı

araşdırmalar göstərir ki, onun tədrisi düzgün təşkil olunarsa şagirdlərdə düzgünlük, doğruçuluq, dözümlülük, vətənpərvərlik və digər mənəvi keyfiyyətlərin formalaşmasında mühüm rol oynayır [17].

Riyaziyyat təliminin müvəffəqiyyəti şagirdlərdə riyaziyyatı öyrənməyə dayanıqlı marağın tərbiyəsindən əhəmiyyətli dərəcədə asılıdır. Belə ki, şagirdlərin vətənpərvərlik ruhunda böyüməsi işinin istiqamətlərindən birini məktəbəqədər və ümumi təhsil müəssisələrindəki təlim-tərbiyə işləri təşkil edir. Ümumtəhsil məktəblərində vətənpərvərlik tərbiyəsi işinin həyata keçirilməsi üçün geniş imkanlar var [13]. İbtidai siniflərdən başlayaraq riyaziyyatın təlimi prosesində şagirdlərə vətəni sevmək, onun hər qarış torpağını sevərək qorumaq, vətətənpərvər ruhda böyümək və böyütmək kimi mənəvi duygular aşılanır. Vətənin hər qarış torpağını sevdirmək elə riyaziyyat təliminin əsas məqsədlərindən biri kimi özünü göstərir. İbtidai sinif dərsliklərinə nəzər saldıqda onların bilik, bacarıq və vərdişlərini təkminləşdirən, hərtərəfli inkişaflarına səbəb olan, öyrəndiklərini praktikaya tətbiq etmələrinə imkan verən çalışma və tapşırıqların kifayət qədər olduğunu görə bilərik. Nümunələrə diqqət yetirək:



Üçüncü sinif şagirdləri üçün nəzərdə tutulmuş bu çalışma onlarda müxtəlif bilik, bacarıq, vərdişlərin formalaşması, motorika bacarıqlarının formalaşması, dünyagörüş, fənlərarası inteqrasiiya və vətən sevgisinin yaranmasına xidmət edir.[9]

Məsələ 1: Xankəndində keçirilən gimnastika üzrə beynəlxalq turnirdə 24 gimnast medalla təltif olundu. Onlardan 8-i qızıl, 8-i gümüş, qalanı isə bürünc medal qazandı. Neçə gimnast bürünc medal qazandı? [8].

Məsələnin həllinə uyğun ifadələri seçin:

$24-8+8$ $24+(8-8)$ $24-8-8$ $24-(8+8)$



Həlli:

Məsələnin şərtini qısa şəkildə yazaq:



Medal qazandı:
Cəmi – 24 gimnast
Qızıl medal – 8 gimnast
Gümüş medal – 8 gimnast
Bürünc medal – ? gimnast

I üsul:

• Qızıl və gümüş medal qazanan gimnastların sayları cəmi tapılır: 8 + 8 = 16
• Bürünc medal qazanan gimnastların sayı çıxma ilə tapılır: 24 – 16 = 8
Bu həlli mötərizəli ifadə kimi belə yazmaq olar: 24 – (8 + 8) = 8.

II üsul:
• Əvvəlcə qızıl medal qazanan gimnastların sayını çıxmaqla gümüş və bürünc medal qazanan gimnastların sayı tapılır: 24 – 8 = 16 (gimnast)
• Gümüş medal qazanan gimnastların sayını çıxmaqla bürünc medal qazanan gimnastların sayı tapılır: 16 – 8 = 8 (gimnast)
Bu həlli bir ifadə şəklində belə yazmaq olar: 24 – 8 – 8 = 8 (gimnast)
Cavab: 8 gimnast bürünc medal qazandı.

Məsələ 2: Zəngilanda təşkil olunan məktəblərarası yemək yarışında 3^{a} sinfi iki cür salat düzəltdi. Onlar, bir salata 14, digərinə isə bundan 8 ədəd az xiyar doğradı. 3^{a} sinfi iki salat üçün cəmi neçə xiyar istifadə etdi? [8]

Həlli:



1) 3^{a} sinfi 2-ci salata neçə xiyar işlətdi?
14 – 8 = 6 (xiyar)

2) 3^{a} sinfi iki salata cəmi neçə xiyar işlətdi?
14 + 6 = 20 (xiyar)

Cavab: 3^{a} sinfi iki salata cəmi 20 xiyar istifadə etdi.

Məsələ 3: Samir və Səbinə Ağdamda yeni tikilən məktəbdə oxuyurlar. Onlar məktəbə qədər hansı yolun daha qısa olduğunu müəyyən etmək istəyirlər. Kimin məktəbə getdiyi yol daha qısadır,Samirin yoxsa Səbinənin? Neçə metr qısadır? [4]

Həlli:



1) Samirin məktəbə qədər yolunun uzunluğu tapılır:
48 *m* + 18 *m* + 13 *m* = 79 *m*.
2) Səbinənin məktəbə qədər yolunun uzunluğu tapılır:
38 *m* + 19 *m* + 23 *m* = 80 *m*.
3) Müqayisə edilir: 79 *m* < 80 *m*.
4) Fərq tapılır: 80 *m* – 79 *m* = 1 *m*.
Cavab: Samirin yolu Səbinənin yolundan 1 *m* qısadır.

Məsələ 4. Cəbrayılda şirniyyat hazırlayan bir fabrik həftə ərzində 64 *l*, digəri isə bundan 29 *l* az yağ işlədir. İki fabrik bir həftədə cəmi neçə litr yağ işlədir? [8].



Həlli:



İşlədir:
I fabrik – 64 *l*
II fabrik – ? I fabrikdən 29 *l* az
Cəmi – ? *l*

1) Bir fabrikdə neçə litr yağ işlənir?

64 *l* – 29 *l* = 35 *l*

2) İki fabrikdə bir həftədə neçə litr yağ işlənir?

64 *l* + 35 *l* = 99 *l*

Cavab: İki fabrik bir həftə ərzində 99 litr yağ işlədir.

Məsələ 5: Laçında yerləşən mağazaya səhər 90 litr süd gətirdilər. Günortaya qədər 47 litr, günortadan sonra isə 35 litr süd satıldı. Mağazada nə qədər süd qaldı? [10]

Həlli: Məsələnin şərtindən süd məhsulları satan mağazaya səhər 90 *l* süd gətirildiyi məlumdur. Günortaya qədər 47 *l*, günortadan sonra isə 35 *l* süd satıldığını bilərək nə qədər süd qaldığını tapmaq tələb olunur.
Məsələni mötərizəli ifadə yazmaqla da həll etmək olar:

90 – (47 + 35) = 90 – 82 = 8 (litr)

Cavab: Mağazada 8 *l* süd qaldı.

Məsələ 6:

Misalları həll edib nümunəyə əsasən Azərbaycan xəritəsini rəngləyin.





Dördüncü sinif şagirdləri üçün nəzərdə tutulmuş bu çalışma (Məsələ 6) şagirdlərin hərtərəfli inkişafı yeni mövzunu mənimsəmə, fəal inteqrasiya, əlaqələndirmə, dünyagörüş, yurdunu, vətənini tanımaq, sevmək kimi bilik, bacarıqlar formalaşdırır.

Dərsin yaradıcı tətbiqetmə mərhələsində şagirdlərə aşağıdakı kimi tapşırıqların verilməsi də məqsədəuyğundur.

1. Saat 12:00-da iki avtomobildən biri Yevlax avtovağzalından Şuşaya, digəri isə Ağsuya yola düşdü. Saatda 90 *km* sürətlə hərəkət edən avtomobil Şuşaya saat 14:00-da, saatda 85 *km* sürətlə hərəkət edən avtomobil isə Ağsuya saat 13:00-da çatdı. Yevlaxdan keçməklə Şuşa və Ağsu şəhərləri arasındakı yol neçə kilometrdir? [10]

2. İki avtomobil eyni vaxtda Kəlbəcərdə *A* nöqtəsindən əks istiqamətlərə yola düşdü. 3 saatdan sonra bu avtomobillər arasındakı məsafə 411 *km* oldu. Avtomobillərdən birinin sürəti saatda 85 *km* olarsa, digər avtomobilin sürəti nə qədərdir? [10]

NƏTİCƏ

Dərsliklərdə şagirdlərin idraki bacarıqlarını inkişaf etdirən, yaradıcı, milli-mənəvi dəyərləri özündə ehtiva edən məsələ və tapşırıqların olması çox əhəmiyyətlidir.

Riyaziyyaın təlimi prosesində həll edilən məsələlər şagirdləri yeni biliklərlə, anlayışlarla tanış edir, onların əvvəlki biliklərini möhkəmləndirir, eyni zamanda dünyagörüşlərini formalaşdırır.

Beləliklə, riyaziyyat dərslərində mətnli məsələlərin, qeyri standart, məntiqi və praktiki çalışmaların köməyi ilə şagird şəxsiyyətinin formalaşmasına nail olmaq olar.

ƏDƏBİYYAT

1. Azərbaycan Respublikasının ümumtəhsil məktəbləri üçün riyaziyyat fənni üzrə təhsil proqramı (kurikulumu). Bakı, 2013.

2. Ümumtəhsil məktəblərinin I – IV sinifləri üçün fənn kurrikulumları. Bakı: Təhsil, 2008.

3. Adıgözəlov A.S. Məktəbdə riyaziyyat təliminin nəzəri əsasları. Bakı, «ADPU», 2018.

4. Abdullayeva M. Riyaziyyatın tədrisi metodikası-1. Bakı, «Elm və təhsil», 2020.

5. Həmidov S.S. Məktəbin ibtidai siniflərində riyaziyyatın tədrisi metodikası. Dərs vəsaiti. Bakı, ADPU, 2016.

6. *Həmidov S.S.* Məktəbin ibtidai siniflərində məsələ həllinin təlimi metodikası. Bakı, 2003.

7. *Mənsur Məhərrəmov və b.* Ümumtəhsil məktəblərin 1-ci sinifləri üçün Riyaziyyat dərsliyi. Bakı, 2020.

8. *Zaur İsayev və b.* Ümumtəhsil müəssisələrinin 2-ci sinifləri üçün Riyaziyyat fənni üzrə dərslik. Bakı, 2021.

9. *Qəhrəmanova N. və b.* Riyaziyyat-3. İbtidai siniflərin 3-cü sinfi üçün dərslik komplekti. Bakı, 2018.

10. *Qəhrəmanova N. və b.* Riyaziyyat-4. İbtidai siniflərin 4-cü sinfi üçün dərslik komplekti. Bakı, 2017.

11. www.e-derslik.edu.az

12. https://www.researchgate.net/profile/Imcra-Journals-Imcra/publication/338482919_The_ways_of_forming_student%27s_personality_in_teaching/links/5e171c364585159aa4c07778/The-ways-of-forming-students-personality-in-teaching.pdf

13. https://www.google.com/url?sa=t&rct=j&q=&esrc=s&source=web&cd=&cad=rja&uact=8&ved=2ahUKEwjFg4u86aX4AhUdS_EDHRGxDa0QFnoECAIQAQ&url=http%3A%2F%2Fanl.az%2Fel%2Fq%2Fqe_rtu.pdf&usg=AOvVaw2GqNdFK_TTxpm2X82seWzV

14. https://www.google.com/url?sa=t&rct=j&q=&esrc=s&source=web&cd=&cad=rja&uact=8&ved=2ahUKEwjFg4u86aX4AhUdS_EDHRGxDa0QFnoECAoQAQ&url=https%3A%2F%2Fwww.arti.edu.az%2Fnoduploads%2Fbook%2Felmi-eserler-2018-8.pdf&usg=AOvVaw3suRcmIAnqesfaC0iav03K

15. https://study.com/academy/lesson/how-math-skills-impact-student-development.html

16. https://www.edutopia.org/article/4-ways-build-student-centered-math-lessons

17. https://www.edutopia.org/article/5-tips-improving-students-success-math

ÖMƏR FAIQ NEMANZADƏ TƏHSİLİN MƏZMUNUN YENİLƏŞDİRİLMƏSİ HAQQINDA FİKİRLƏRİ

Kubra Quliyeva

ORCID ID: https://orcid.org/0000-0001-5341-6032

Naxçıvan Dövlət Universiteti, Pedaqoji fakultə, Pedaqogika və psixologiya kafedrası. Naxçıvan.Azərbaycan

XÜLASƏ

Məqalədə dövrün təhsil sistemin məzmunundan, görkəmli pedaqoq Ömər Faiq Nemanzadənin təhsilin məzmunun yeniləşdirilməsi və müəllim kadrlarının hazırlığından, yeni təlim üsullarından istifadə olunmasından, dünya təcrübəsinə əsaslanan təhsilin məzmunun yeniləşdirilməsindən bəhs olunmuşdur. Ana dili, milli şüur, milli özündərk uğrunda aparılan, görülən işlərlə yanaşı milli və müstəqil əsasda nizamnaməsi yeniləşdirilən məktəblər, həmçinin təhsilin məzmunun yeniləşdirilməsi üçün bir çox dahi şəxsiyyətlər, mütəfəkkirlər və pedaqoqlarımız canla, başla çalışmışlar. Bu istiqamətdə Seyid Əzim Şirvanin yeni üsullu məktəbi, Hacı Zeynalabdin Tağıyevin qızlar üçün təşkil etdiyi məktəb, Ömər Faiq Nemanzadənin Şəki və Şamaxıda olduğu müddətdə təşkil etdiyi məktəblər öz quruluş, forma və üsullarına görə xüsusilə fərqlənirdi. Dünya təhsil sistemlərinin mahiyyəti, məzmun və əks olunma quruluşuna olan münasibət məqalədə öz əksini tapmışdır. Bu quruluşun əsasını ilk məktəblərin yaranması, inkişaf tarixi, dövrə əsaslanan elm, təhsil sahəsində əldə olunan nailiyyətlər və ölkə ictimaiyyətinin bu prosesdəki rolu təşkil edir. Ömər Faiq Nemanzadə dünya xalqlarının təhsil sistemini, bu quruluşu mənimsəyərək öz təfəkkürümüzə, dünyagörüşümüzə təsir edə biləcək şəkildə uyğunlaşdırmağı məsləhət görürdü. Dəyişən dövr, dünya üşün dəyişikliklərə getmək və gələcək nəsilləri bacarıqlı, səriştəli, istedadlı şəxsiyyət və ölkə üçün faydalı şəxsə çevirmək üçün çalışılmalıdır. Ömər Faiq Nemanzadə də məhz dövr və gələcək üçün təhsilin məzmunun yeniləşdirilməsi üçün şərtlər qoymuş, plan cızmışdır. Məqalədə həmçinin dünya təcrübəsində təhsil səviyyələri və yeniliklər, məktəb və təhsil sisteminin 5 əsas strateji istiqamətindən bəhs edilmişdir. Yeniləşdirilmiş təhsil sistemində Ömər Faiq Nemanzadə müəllimin qarşısına dərsi sadə dillə danışmasını, şagirdlərin yaş mərhələlərinə uyğun mövzuların tədqiq edilib işlənməsini, onların biliklərinin qiymətləndirilməsi və inam yaradılması kimi bir vəzifə kimi qoymuşdur. Görkəmli pedaqoq bununla bağlı Firudin bəy Köçərlinin fikrinə də öz münasibətini bildirmişdir.

Açar sözlər: təhsil, məktəb, təlim üsulu, dünya təhsil sistemi, pedaqoq

ABSTRACT

The article discusses the content of the education system of the time, the renewal of the content of education and training of teachers by prominent pedagogue Omar Faig Nemanzadeh, the use of new teaching methods, the renewal of the content of education based on world experience. In addition to the work done for the mother tongue, national consciousness, national self-awareness, schools whose charters have been renewed on a national and independent basis, as well as many geniuses, thinkers and educators have worked hard to update the content of education. In this regard, the new methodical school of Seyid Azim Shirvan, the school organized by Haji Zeynalabdin Tagiyev for girls, the schools organized by Omar Faig Nemanzadeh during his stay in Sheki and Shamakhi differed in their structure, form and methods. The attitude to the essence, content and reflection structure of the world education systems is reflected in the article. The basis of this structure is the establishment of the first schools, the history of development, period-based science, achievements in the field of education and the role of the country's society in this process. Omar Faig Nemanzadeh advised to adapt the education system of the peoples of the world by adopting this structure in a way that could affect our thinking and worldview. In a changing era, efforts must be made to make changes for the world and to turn future generations into capable, competent, talented individuals and useful to the country. Omar Faig Nemanzadeh also set

conditions and drew a plan for the renewal of the content of education for the period and the future. The article also discusses the levels of education and innovations in world practice, 5 main strategic directions of the school and education system. In the updated education system, Omar Faig Nemanzadeh set the teacher the task of speaking the language in simple language, researching and developing topics appropriate to the age of the students, assessing their knowledge and building trust. The prominent pedagogue also commented on Firudin bey Kocharli's opinion in this regard.

Keywords: education, school, teaching method, world education system, pedagogue

GİRİŞ

XIX-XX əsrlər xalqın maariflənməsi, cəhalətdən xilasa doğru səslənməsi, dərslik və dərs vəsaitlərində dəyişikliklərin edilməsi, təlim və tərbiyənin, eləcə də təhsilin məzmununda yeniliklərin həyata keçirilməsi və bu yolda aparılan kəskin mübarizələr dövr üçün inqilabi bir mahiyyət daşıyırdı. Və bu uğurda ana dili, milli şüur, milli özündərk uğrunda aparılan, görülən işlərlə yanaşı milli, müstəqil nizmanaməsi yeniləşdirilən məktəblər, həmçinin dünyəvi məktəblər üçün bir çox dahi şəxsiyyətlərin, mütəfəkkirlərin və pedaqoqlarımız canla, başla çalışmışlar. Dünyəvi, yeni üsulla məktəblər uğrunda cəhdlərin göstərilməsi onu açılması üçün proqramların, dərsliklərin hazırlanması və hətta qızların təhsilə cəlb edilməsi özü-özlüyündə inkişafa doğru aparan yol idi. Bu yolda S.Şirvaninin yeni üsullu məktəbi, H.Tağıyevin qızlar üçün təşkil etdiyi məktəb, Ömər Faiq Nemanzadənin Şəki və Şamaxıda olduğu müddətdə təşkil etdiyi məktəblər öz quruluş, forma və üsullarına görə xüsusilə fərqlənirdi. Açılan, fəaliyyət göstərən və yeniləşən məktəblərin xalqın işıqlığa doğru aparan yoldakı əhəmiyyətinə diqqət yetirmək xüsusi əhəmiyyət kəsb edir. Maarifpərvərlərimiz, ziyalılarımız yeni məktəb layihəsini hazırlayarkən məhz dünya təcrübəsinə də əsaslanmış, qonşu dövlətlərdən yeni təhsil məzmununu mənimsəyib, xalqımızın ideyasına uyğunlaşdırmağa çalışmışlar. Bu istiqamət əsasında maarifpərvərlərimizn attıqları addımlar əvəzedilməz və danılmaz bir faktdır.

XVIII-XIX əsrlər digər dövrlərlə müqayisədə gənc nəslin biliklərə silahlandırılması, təhsil və tərbiyəsi üstün mövqeydə dayanırdı. Dünya təhsil sistemlərinin mahiyyətini, məzmun və əks olunma münasibətlərini bir quruluş əsasında təsvir edirlər. Bu quruluşun əsasını ilk məktəblərin yaranması, inkişaf tarixi, dövrə əsaslanan elm, təhsil sahəsində əldə olunan nailiyyətlər və ölkə ictimaiyyətinin bu prosesdəki rolu təşkil edir. Ömər Faiq Nemanzadə dünya xalqlarının təhsil sistemini, bu quruluşu mənimsəmək və öz təfəkkürümüzə, dünyagörüşümüzə təsir edə biləcək şəkildə uyğunlaşdırmağı məsləhət görürdü.

ARAŞDIRMALAR

Müasir dövr üçün məktəb təhsil sisteminin strukturu və yeniləşdirilməsi prosesi də aktual məsələlərdən biridir. Dəyişən dövr, dünya üşün dəyişikliklərə getmək və gələcək nəsilləri bacarıqlı, səriştəli, istedadlı şəxsiyyət və ölkə üçün faydalı şəxsə çevirmək üçün çalışılmalıdır. Ömər Faiq Nemanzadə dövr və gələcək üçün təhsilin məzmunun yeniləşdirilməsi üçün şərtlər qoymuş, plan cızmışdır. Dünya təcrübəsində təhsil səviyyələri və yeniliklər məktəb və təhsil sistemi 5 əsas strateji istiqamətinə görə fərqləndirilir. Birinci istiqamətə şəxsiyyətyönümlü, təhsil-məktəb sisteminin yeni məzmunun yaradılması idi. Və bu istiqamət orta və ali təhsil olmaqla bütün pillələr üzrə inkişaf və formalaşmağı əhatə edir. İkinci istiqamət insan resurslarını istiqamətləndirilmişdir. Burada əsas məqsəd bacarıqlı təhsil verən, pedaqoji heyətin formalaşdırılmasına əsaslanır. Əsas məsələ təhsil verənlərin peşəkarlıq səriştəliliyinin artırılması və nailiyyətlərin düzgün qiymətləndirilməsi idi. Hətta bu istiqamətdə xüsusi qayğıya ehtiyacı olanlardakı yeni biliklərin, təlim metodlarının öyrədilməsi nəzərdə tutulmuşdu. Üçüncü istiqamət isə şəffaf və səmərəli idarəetmə quruluşuna görə fərqlənirdi. Təhsil keyfiyyətinin təminatı və sistemin idarə olunması üzrə yeni məlumat sisteminin yaradılması əsas hədəf kimi qarşıya qoymuşdu. Bu qeyd olunan istiqamətlər içərisində 4-cü istiqamət özünəməxsusluğu ilə seçilir. Burada müəyyən məktəb-təhsil sistemiş distant təhsil, yaşlıların təhsili, müasir təminatlı peşə müəssisələri, şəhərcik-kampusların yaradılması ilə seçilir. Sonuncu istiqamət isə respublikamızda dünyanın təhsil sistemləri ilə eyni səviyyədə dayanan iqtisadi cəhətdən güclü təhsil sistemi modelinin qurulması idi. Təhsilin inkişaf fondunun yaradılması da məhz bu istiqamətdə irəli sürülmüşdü.

Beləliklə hər bir ölkənin özünəməxsus məktəb və təhsil sistemi var. Və dünya ölkələri təhsil, yeni məktəb, təlim-tərbiyə sistemini öz təcrübələrinə, xalqlarının psixoloji, eləcə də pedaqoji mədəniyyətinə uyğunlaşdırmağa çalışmışlar. Görkəmli pedaqoq Ömər Faiq Nemanzadə də dövrün digər dahi şəxsiyyətləri kimi milli məktəb, milli təhsil sistemi tərəfdarı idi. O, hətta öz təşkil etdiyi məktəbləri bu əsasda irəlilətməyə səy göstərirdi. Əlbəttə heç bir sistem özü-özlüyündə mövcud deyil, digər ölkələrin sistemindən istifadə edib yeniliklər etmək, məzmunda dəyişikliklərə getmək başlıca məsələlərdən biridir. Ömər Faiq Nemanzadə də məhz dünya xalqlarının təcrübəsinə əsaslanan milli məktəb, təhsilin məzmunun yeniləşdirilməsi yolunda addımlayırdı.

Azərbaycan, eləcə də dünya ölkələrinin təhsil sistemini, keçmişini tədqiq etmək hazır ki, sistemi və gələcəyimizi dərindən anlamağımıza şərait yaradır. Dünya ölkələrinin təcrübəsində olan məktəb təhsil sisteminin hərtərəfli inkişafı, mahiyyətinin öyrənilməsi xüsusi əhəmiyyət kəsb edir. Məhz bu əsasda dövrün görkəmli pedaqoqları, maarifpərvərləri öz maarifçilik hərəkatlarını birlikdə, tamlıqla həyata keçirməyə çalışırdılar.

Dünya təcrübəsi sosial-iqtisadi sistem daxilində təhsil sistemi və məktəb təhsil-təlimin məzmununun yeniləşdirilməsi uğrunda 3 missiyanı yerinə yetirir ki, bunlara da aşağıdakıları aid edə bilərik:

Biliklərin əldə edilməsi: Beynəlxalq aləmdə mövcud olan biliklərin dövlət ehtiyaclarına uyğun olaraq istifadə və adaptasiya edilməsi. Belə biliklər ölkəyə açıq ticarət rejimi, xarici investisiyaların cəlb edilməsi və lisenziya razılaşmalarının bağlanması vasitəsilə daxil olur. Bundan əlavə, biliklər ölkənin özündə elmi-tədqiqat və sınaq-konstruktor işlərinin aparılması yolu ilə və yerli biliklərdən istifadə etməklə də yaradıla bilər;

1. Biliklərin absorbsiyası: Hamı üçün ümumi təhsilin təmin edilməsi, ömür boyu təhsil üçün imkanların yaradılması, elm və texnologiya sahələrinə xüsusi önəm verməklə ali təhsil sisteminin inkişafı;

2. Biliklərin ötürülməsi: Rəqabət, özəl sektorun inkişafı, müvafiq hüquqi-normativ tənzimləmə və informasiya resurslarına hərtərəfli çıxışın təmin edilməsinə əsaslanmaqla, yeni informasiya və telekommunikasiya texnologiyalarından istifadə edilməsi (1).

Qeyd olunan bəndlərin hər biri bilik əldə olunması, ötürülməsi, müqayisəli təsvir və məktəb şəbəkələrinin bu quruluş əsasında formalaşması kimi məqsədləri qarşıya qoyur. Ölkəmiz demək olar ki, XIX-XX əsrlərdən etibarən yeni bir əsrə qədəm qoydu. Ana dili, yeni məzmunlu məktəb sistemi və əlifbanın yenidən təşkili uğrunda aparılan mübarizələr kəskin hal aldı. Bu mübarizələrin başında isə dövrün görkəmli pedaqoqları xalqın rifahı naminə çalışan Ömər Faiq Nemanzadə, Cəlil Məmmədquluzadə, Axundov gəlirdi. Onlar digər maarifpərvərlər üçün ilham qaynağı idilər. Ömər Faiq Nemanzadə məhz təhsilin məzmunun yeniləşdirilməsində və müəllim kadrlarının hazırlığı işində öz səyini əsirgəməmişdir. O, məktəb təhsilində pedaqoji heyətin peşəkar hazırlığını, dərsdə və heyət arasında motivasiyanın yaradılması, təşkil olunan məktəblərin yararlı hala gətirilməsi, maddi-texniki bazanın yaxşılaşdırılması, ana dilli tədris materiallarına üstünlük verilməsini, təhsil alanların bilikləri öyrənmə qabiliyyətləri, keçirilən dərslərin keyfiyyətinin artırılması, məktəbi bitirənlərdə xeyriyyəçilik, vətənpərvərlik, idarəçilik potensialını artırmağı qarşıya məqsəd qoymuşdu. O, düşünürdü ki, məktəb və təhsil sistemi bu əsasda qurulsa, məzmunda yeniliklər edilsə inkişafda bir o qədər sürətli olacaqdır.

NƏTİCƏ

Ö.F.Nemanzadənin həyatla mübarizəsinin başlıca hədəfi xalqın təhsil, mədəniyyət səviyyəsinin yüksəldilməsi və təhsilin məzmunun yeniləşdirilməsi idi. Bu hədəfini müasir təhsil sistemi təşkil edərək sistemli şəkildə gənc nəsli vətənpərvərlik ruhunda yetişdirmək, istiqamətləndirmək və mətbuat vasitəsilə ümumi xalqı bilikləndirmək yolu ilə həyata keçirməyə çalışmışdır. Şəkidə və digər şəhərlərdə də üsulu-cədid məktəblərini açmaya çalışmasının başlıca əsbəbləri bunlar idi. Yeniləşdirilmiş təhsil sistemində Ö.F.Nemanzadə müəllimin dərsi sadə dillə danışmasını, şagirdlərin yaş mərhələlərinə uyğun mövzuların tədqiq edilib işlənməsini, onların biliklərinin qiymətləndirilməsi və inam yaradılması kimi vəzifələri qarşısına qoymuşdur. O, müəllimin dərsi ana dilində tədris etməli, dünyəvi biliklərlə də şagirdləri məlumatlandırmağın zəruriliyini qeyd edirdi. Ö.F.Nemanzadə Firidun bəy Köçərlinin dediyi bu fikri

təsdiqləyir: “Müəllim ağlı, biliyi, zəhmətsevərliyi, yüksək məharəti, mədəni davranışı, işdə dəqiqliyi, sədaqəti və s. keyfiyyətləri ilə yanaşı həm də uşaqlara məhəbbət və qayğı ilə döyünən ürəyə sahib olmalıdır.” (2).

Onun təhsilin məzmunun yeniləşdirilməsindəki əsas məqsədi məhz yeni üsullu məktəb sistemi, dünya təcrübəsinə əsaslanan müəllim pedaqoji heyətin gücləndilrilməsi təlim prosesində yeni tədris vasitələrindən istifadə təşkil edirdi.

ƏDƏBİYYAT

1. WDR 1988/99. Knowledge for Development Chapter Overview .Oxford University Pres: Washington DC, 1999.
2. Ümidvar. (1906). “Ümidvarım”, İrşad qəzeti., № 102, 1 may
3. İnternet resursları
4. Müdafiə Mahmudov. Dünyada təhsil sistemləri. Bakı-2014

AZƏRBAYCAN DÖVLƏT PEDAQOJİ UNİVERSİTETİNİN ŞUŞA FİLİALI (1989-1992-ci illər)

Prof.Fərrux Abbas oğlu Rüstəmov

ADPU-nun İbtidai təhsil fakültəsinin dekanı

Açar sözlər: Pedaqoji Universitet, Qarabağ, Şuşa, filial, fakültə

Ключевые слова: Педагогический университет, Карабах, Шуша, филиал, факультет

Keywords: Pedagogical University, Karabakh, Shusha, branch, faculty

Pedaqoji İnstitutun Xankəndi filialı 1968/69-cu tədris ilində yaradılmışdı. Filialın təşkilində əsas məqsəd Azərbaycanın qədim və əzəli torpağı olan Qarabağ bölgəsindəki Azərbaycan və erməni məktəblərini yüksəkixtisaslı müəllim kadrları təmin etmək idi. İlk vaxtlar Filologiya, Tarix və Fizika-riyaziyyat fakültələrində 8 ixtisas (Azərbaycan dili və ədəbiyyatı, erməni dili və ədəbiyyatı, riyaziyyat, riyaziyyat əlavə fizika, fizika, tarix, ümumi texniki fənlər və əlavə fizika) ixtisasları üzrə kadr hazırlanırdı. İlk tədris ilində filiala 245 tələbə qəbul olundu. Təlim Azərbaycan və erməni dillərində aparılırdı. 1972-ci ildə 4 fakültədə, 30 qrupda 720 nəfər tələbə təhsil alırdı. Onların təhsil-tərbiyəsi ilə 50-yə yaxın müəllim məşğul olurdu» [1]. Pedaqoji İnstitutun professor-müəllim heyəti müntəzəm olaraq Xankəndi filialına tələbə qəbulu aparmağa, mühazirə oxumağa, dövlət imtahanlarında iştirak etməyə ezam olunurdu. Filialın müəllim və tələbələri Pedaqoji İnstitutla sıx əlaqə saxlayır, müxtəlif konfranslarda və tədbirlərdə iştirak edirdilər.

Pedaqoji İnstitutun yarıməsrlik yubileyi münasibəti ilə 5-7 aprel 1972-ci ildə institutda Xankəndi filialı günləri keçirilmişdi [4]. Tədbirdə institutun rektoru prof.Həşim Ağayev, institut partiya komitəsinin katibi İ.Süleymanov, Filologiya fakültəsinin dekanı, prof.Afad Qurbanov, institut komsomol komitəsinin katibi Rəcəb Əliyev çıxış edərək institutun 50 ildə qazandığı tədris və elmi uğurlarından bəhs etmişlər. Filialın direktoru hesabat məruzəsi ilə çıxış etmişdir.

28 noyabr 1973-cü ildə filialın bazasında müstəqil Xankəndi Pedaqoji İnstitutu təşkil edildi. İnstitutda Azərbaycan, erməni və rus məktəbləri üçün müəllim kadrları hazırlığı həyata keçirilirdi. 1973-1988-ci illərdə Xankəndi Pedaqoji İnstitutunda 3 minə yaxın müəllim hazırlanmışdır. 1974-1988 -ci illərdə prof.Nəcəf Quliyev institutun prorektoru vəzifəsində çalışmışdır. 1988-ci ildə Xankəndi Pedaqoji İnstitutunda 10 kafedrada 102 nəfər müəllim çalışırdı ki, onlardan da 4 nəfəri elmlər doktoru, professor, 36 nəfəri elmlər namizədi, dosent idi. Aspirantura hazırlığı keçən 17 nəfər gənc tədqiqatçı dissertasiya müdafiəsi ərəfəsində idi.

1988-ci ildə Qarabağda baş verən erməni qiyamının ilk zərbəsi Xankəndi Pedaqoji İnstitutunun Azərbaycan şöbəsinin pedaqoji kollektivinə dəydi. Azərbaycan torpağı olan Qarabağın dağlıq hissəsində yaşayan ermənilərin ərazi iddiaları ilə çıxış etmələri Xankəndi Pedaqoji İnstitutunda tədris prosesinin pozulması ilə nəticələndi. Xankəndi Pedaqoji İnstitutunun azərbaycanlı professor-müəllim və tələbə kollektivi erməni millətçilərinin əməllərinin, məkrli planlarının həyata keçirilməsinə maneçilik törətdiyindən onlara ciddi fiziki və mənəvi təzyiq göstərilirdi. Ölüm təhlükəsi ilə üzbəüz qalan institutun Azərbaycan şöbəsinin müəllim və tələbələri 1988-ci il mayın 16-da erməni silahlıları tərəfindən Xankəndindən qovuldu. Pedaqoji kollektiv Şuşa şəhərində müvəqqəti sığınacaq tapdı. Şuşa Mədəni Maarif Texnikumunun tədris binası və yataqxanasında yerləşdirildi. 26 iyun 1998-ci ildə texnikumun binasında Şuşa ictimaiyyəti ilə görüşən Xüsusi İdarəetmə Komissiyasının sədri A.Volski növbəti tədris ilində tələbələrin Xankəndi Pedaqoji İnstitutuna qaytarılacağı haqqında söz verdi. Erməni iddialarının getdikcə genişlənməsi problemin tezliklə həllinə şübhə yaradırdı. Azərbaycanlı tələbələrin yenidən Xankəndi Pedaqoji İnstitutuna qayıdaraq ermənilərlə birlikdə təhsil alması qeyri-mümkün idi. 14 oktyabr 1988-ci ildə SSRİ Nazirlər Sovetinin sədri N.Rıjkov Xankəndi Pedaqoji İnstitutunun fəaliyyətinin müvəqqəti dayandırılması haqqında qərar verdi. Bununla əlaqədar olaraq SSRİ Xalq Təhsili Komitəsinin sədr müavini Q.F.Qusev 17 oktyabr 1988-ci il tarixində 6 maddədən ibarət 382 saylı qərar verdi. Qərarda Azərbaycan və Ermənistan xalq təhsili nazirlərinə tapşırıldı ki, Xankəndi

Pedaqoji İnstitutunun 2 il müddətinə müvəqqəti olaraq bağlanması ilə əlaqədar olaraq institutun tələbələri həmin ilin noyabrın 1-nə kimi Azərbaycanın Gəncə, Ermənistanın Yerevan, Leninakan və Kirovakan pedaqoji institutlarına köçürülsünlər. Erməni şöbəsi qərara etinasız yanaşaraq öz fəaliyyətini Sovet Azərbaycanının 60 illiyi adına Xankəndi Pedaqoji İnstitutunda davam etdirdi. Azərbaycan Xalq təhsil naziri Müslüm Məmmədov Azərbaycan şöbəsi tələbələrinin bir hissəsinin Gəncə, digər hissəsinin isə Naxçıvan pedaqoji institutlarına köçürülməsi qərarına gəldi. İki yerə bölünmə ilə bağlı kollektivin (kollektivə müvəqqəti olaraq Raqub Kərimov rəhbərlik edirdi) ciddi etirazından sonra 100 nəfərlik professor-müəllim kollektivi və 1200 nəfər tələbə Gəncə Pedaqoji İnstitutuna köçürüldü. Müəllim və tələbələrin Gəncə Pedaqoji İnstitutuna köçürülməsi ilə bağlı Azərbaycan Xalq təhsil naziri Müslüm Məmmədov18 oktyabr 1988-ci ildə 6 maddədən ibarət 121 saylı qərar verdi və köçürülmə ilə bağlı komissiya (14 nəfərdən ibarət) yaratdı. Komissiyanın sədri nazir müavini Y.İ.Korotkov, müavin isə B.A.Xankişiyev idi.

Həmin dövrdə Gəncə Pedaqoji İnstitutuna Qurban Qurbanov rəhbərlik edirdi. O, Şuşadan gələn tələbələrin Gəncə Pedaqoji İnstitutuna yerləşdirilməsi ilə bağlı 22 oktyabr 1988-ci il tarixli 5/199 saylı əmr imzaladı. Tələbələr həmin ilin noyabrın 25-də Gəncədə tədrisə başladılar. Bir ilə yaxın Gəncədə fəaliyyət göstərən pedaqoji kollektivin təkidli tələbi ilə şöbənin Şuşaya köçürülməsi qərara alındı.1989-cu il oktyabrın 25-də pedaqoji kollektiv Şuşaya köçürüldü. Bir gün sonra dərslər başlandı. Müəllim və tələbələrin Şuşaya köçürülməsində dos.Raqub Kərimovun, dos.Ənvər Əhmədin, dos.Mayıl Alıcanovun, dos.Zəfər Hüseynovun, dos.Mirələm Vəliyevin, dos.Süleyman Zeynalovun mühüm xidmətləri oldu.

Azərbaycan SSR Xalq təhsili naziri R.Feyzullayevin 1 noyabr 1989-cu il tarixli 1160 saylı əmrinə əsasən Şuşada Azərbaycan Pedaqoji İnstitutunun **Şuşa fakültəsi** yaradıldı [2]. Fakültə Şuşa internat məktəbinin bazasında yerləşdirildi. Fakültənin normal fəaliyyət göstərməsi üçün tədris binası əsaslı təmir edildi. Bu məqsədlə Şuşa rayon Partiya Komitəsi 160 min rubl. ayırdı. Xankəndi Pedaqoji İnstitutunun ləğvindən sonra Gəncəyə və digər ali pedaqoji məktəbə gedən tələbələr öz fakültələrinə qayıtdı. 15 noyabr 1989-cu ildə ADPİ-nin rektoru, prof.S.Aslanovun əmri ilə tarix elmləri namizədi, dosent *Mail Alıcanov* fakültənin dekanı, dos.Zəfər Hüseynov dekan müavini təyin edildi. Prof.Nəcəf Quliyev, prof.Nazim Axundov, prof.Kamil Quliyev, dos.Süleyman Zeynalov, dos.Ənvər Əhməd, dos.Mirələm Vəliyev, dos.Yusif Ağayev, dos.Zabil Bayramov, dos.Şahlar Kərimov, dos.Yusif Fərzəliyev, dos.İnqilab Quliyev, dos.Kazım Mirzəyev, dos.İslam Həşimov, dos.Raqub Kərimov, dos.Nəsib Şəfiyev, dos.Məhəmməd Hüseynov və b Şuşa fakültəsində öz fəaliyyətlərini davam etdirməyə başladılar.

Xalq Təhsili Nazirliyinin icazəsi ilə fakültədə riyaziyyat, Azərbaycan dili və ədəbiyyat, tarix, ibtidai təhsilin pedaqogikası və metodikası ixtisasları üzrə pedaqoji kadr hazırlığı davam etdirildi. Nazir R.Feyzullayevin əmri ilə fakültənin strukturunun və ştat cədvəlinin müəyyənləşdirilməsi və əmrə nəzarət Plan-iqtisad idarəsinin rəisi Bəybala Xankişiyevə və Ali təhsil idarəsinin rəisi Misir Mərdanova, fakültənin Əsasnaməsinin hazırlanması ADPU-nun rektoru prof.Səlvər Aslanova həvalə edildi.

Az sonra Şuşa rayon Partiya Komitəsinin birinci katibi, SSRİ Ali Sovetinin üzvü Vaqif Cəfərov ADPU-nun Şuşa fakültəsinin filiala çevrilməsi ilə bağlı Azərbaycan SSR Nazirlər Sovetinin sədri Həsən Həsənova məktubla müraciət etdi. Məktubda Şuşa fakültəsinin təşkili üçün zəruri olan tədbirlərin həyata keçirildiyi bildirilir və Şuşa fakültəsinin APİ-nin filialına çevrilməsinə kömək göstərməsi xahiş olunurdu. Məktubda yazılırdı:"Qarabağa Xalq Yardım Komitəsinin vəsaiti ilə 7 mərtəbəli yataqxananın və əlavə tədris korpusunun tikintisi planlaşdırılır. Şuşa fakültəsində riyaziyyat, Azərbaycan dili və ədəbiyyat, tarix, ibtidai təhsilin pedaqogikası və metodikası ixtisaslarında 600 –dən artıq tələbə təhsil alır. Fakültədə bir neçə tədris laboratoriyası təşkil olunmuş və müasir avadanlıqlarla təchiz edilmişdir. Yeni fənn kabinetləri yaradılmışdır. Rektorluq fakültəyə hesablama maşınları vermişdir. 20 min nüsxədən artıq dərslik və dərs vəsaiti alınmışdır. Fakültədə 7 kafedra var. Kafedralarda 36 professor-müəllim fəaliyyət göstərir ki, onlardan da 3-ü elmlər doktoru, professor, 23-ü elmlər namizədi, dosentdir. Xalq Təhsili Nazirliyinin 26 aprel 1990-cı il tarixli 48004-1939 16 saylı əmri ilə qəbul imtahanlarının Şuşa şəhərində keçirilməsinə icazə verilmişdir. Bu məqsədlə APİ-dən fakültəyə ezam olunmuş 2 elmlər doktoru, professorun və 5 elmlər namizədi, dosentin iştirakı ilə qəbul komissiyası yaradılmışdır. 1990/91-ci tədris ilində Şuşa fakültəsinin əyani və qiyabi şöbələrinə Azərbaycan dili və ədəbiyyat, tarix əlavə sovet hüququ, riyaziyyat, informatika və hesablama texnikasının əsasları, ÜTF və

fizika, İbtidai təlim pedaqogikası və metodikası, pedaqogika və psixologiya (məktəbəqədər tərbiyə) ixtisasları üzrə 250 tələbə qəbul olunmuşdur."

Fakültənin dekanı dos.Mail Alıcanov, dekan müavini dos.Zəfər Hüseynov, partiya təşkilatının katibi dos.M.Hüseynov, həmkarlar təşkilatının sədri dos.Y.Ağayev də fakültənin filiala çevrilməsinə köməklik göstərməsi üçün Nazirlər Sovetinin sədri Həsən Həsənova məktubla müraciət etmişdilər. V.İ.Lenin adına ADPİ-nin Şuşa fakültəsinin professor-müəllim heyəti və tələbə kollektivi adından fakültənin filiala çevrilməsi ilə bağlı Azərbaycan KP MK-nın birinci katibi Ayaz Mütəllibova müraciət edilmişdi. Fakültənin kollektivi bununla bağlı mətbuatda xeyli yazılar dərc etdirmişdilər.

ADPİ-nin rektorluğunun Şuşa fakültəsinin filiala çevrilməsi ilə bağlı 13-03/265 saylı 17 mart 1990-cı il tarixli məktubuna Xalq Təhsili Nazirliyi müsbət rəy vermişdir. Nazirliyin Ali təhsil idarəsinin rəisi Misir Mərdanov 28 mart 1990-cı ildə Plan iqtisad idarəsinin rəisi Bəybala Xankişiyevə ünvanladığı məktubda yazırdı:"V.İ.Lenin adına APİ-nin Şuşa şəhərində fəaliyyət göstərən fakültəsinin maddi-texniki bazasının və professor-müəllim heyətinin bu günkü tələbə cavab verməsini nəzərə alaraq Nazirliyin Ali təhsil idarəsi Şuşa fakültəsinin V.İ.Lenin adına APİ-nin Şuşa filialına çevrilməsi məsələsinin müsbət həll olunmasını məqsədəuyğun hesab edir".

14 aylıq mübarizədən sonra Nazirlər Sovetinin sədri Həsən Həsənov Şuşa rayon Xalq Deputatları Soveti İcraiyyə Komitəsi və Xalq Təhsili Nazirliyinin təkliflərini nəzərə alaraq Şuşa fakültəsinin əsasında ADPİ-nin **Şuşa filialının** təşkili haqqında 26 yanvar 1991-ci ildə 4 maddədən ibarət 23p saylı sərəncam imzaladı. Nazirlər Sovetinin sədrinin sərəncamına uyğun olaraq 22 fevral 1991-ci ildə Xalq Təhsili Nazirliyi 22 maddədən ibarət 116 saylı əmr, 25 mart 1991-ci ildə ADPU-nun rektoru, prof.S.Aslanov 3/93 saylı əmr imzaladı. İnstitut üzrə verilən əmrə nəzarət tədris işləri üzrə prorektor prof.Eldar Abbaszadəyə, qiyabi və axşam şöbələri üzrə prorektor Məlikməmməd Cəbrayılova həvalə edildi.

Xalq təhsil naziri prof.R.Feyzullayevin imzaladığı həmin əmrlə Şuşa filialının 14 maddəlik Əsasnaməsi təsdiq olundu. Şuşa fakültəsinin dekanı dosent **Mail Alıcanov** filialın direktoru vəzifəsinə təyin edildi. ADPİ-nin rektorunun əmri ilə dosent **Zəfər Hüseynov** tədris və elmi işlər üzrə, **Səyyar Əliyev** isə inzabati-təsərrüfat işləri üzrə direktor müavinləri təyin edildilər.

1 aprel 1991-ci ildə ADPİ-nin rektoru, prof.S.Aslanovu imzaladığı 1/183 saylı əmrlə filialın strukturu aşağıdakı kimi təsdiq edildi:

Filialda 3 fakültə:1) **Tarix-filologiya** (dekan dos. Raqub Kərimov); 2) **Pedaqoji** (dekan dos.İslam Həşimov); 3) **Fizika-riyaziyyat** (dekan dos.Nəsib Şəfiyev) yaradıldı.

Filialda aşağıdakı kafedralar fəaliyyət göstərirdi:

1.Ədəbiyyat və onun tədrisi metodikası kafedrası[1] (müdir prof.Kamil Quliyev);

2.Dilçilik və onun tədrisi metodikası kafedrası (müdir dos.İlhami Cəfərsoylu);

3.Ümumi tarix kafedrası[2] (müdir dos. Kazım Mirzəyev);

4.SSRİ tarixi kafedrası (müdir dos.Yusif Fərzəliyev);

5.Ümumi riyaziyyat kafedrası[3] (müdir dos.Cəfər Zeynalov);

6.Fizika və ÜTF kafedrası[4] (müdir prof.Əbülfət Rüstəmov);

7.Sosial-siyasi elmlər kafedrası (müdir dos.Yusif Ağayev);

8.Pedaqogika və psixologiya kafedrası[5] (müdir dos.Mirələm Vəliyev);

---

[1] *Ədəbiyyat və onun tədrisi metodikası kafedrası prof.N.Axundov və prof. K.Quliyev rəhbərlik etmişdir.*
[2] *Ümumi tarix kafedrasının ilk müdiri dos.Rəftar İmanov olmuşdur.*
[3] *Ümimi riyaziyyat kafedrasının ilk müdiri N.Məmməov olmuşdur. Sonrakı illərdə kafedraya dos.Cəfər Zeynalov (1992-2000) rəhbərlik etmişdir.*
[4] *Fizika və ÜTF kafedrasına prof.Əbülfət Rüstəmovdan sonra dos.Ə.Hümbətov rəhbərlik etmişdir.*
[5] *Pedaqogika və psixologiya kafedrasının ilk müdiri dos.İslam Həşimov olmuşdur.Sonrakı illərdə kafedraya dos.Mirələm Vəliyev, dos.Süleyman Zeynalov, dos.Şərqiyyə Quliyeva, dos.Tahir Hüseynov rəhbərlik etmişdir.*

9.Bədən tərbiyəsi kafedrası (müdir b/m. İsa Qasımov).

Həmin əmrlə 44 nəfər (30 müəllim, 14 tədris-köməkçi heyət) işə qəbul edilir ki, onlardan da 21 nəfərinin elmi dərəcəsi var idi. Filialın inkişafına, tələbə və müəllimlərin sayının artmasna, maddi-texniki bazanın möhkəmlənməsinə, yeni laboratoriya və kabinetlərin yaradılmasına, onların avadanlıqlarla təchiz edilməsinə həm Xalq Təhsili Nazirliyi, həm də ADPU-nun rektorluğu qayğı ilə yanaşırdı. 1991-ci ildə ADPU-nun Şuşa filialına daxil olmaq üçün ərizə verənlərin sayı çox olduğundan 30 nəfər müvəffəq qiymət alsalar da müsabiqədən keçə bilməmişdi. 12 avqust 1991-ci il tarixində Azərbaycan KP Şuşa Rayon Komitəsinin birinci katibi, SSRİ Ali Sovetinin üzvü V.Cəfərov Xalq təhsili naziri, Sov.İKP Nəzarət-təftiş komissiyasının üzvü, prof.R.Feyzullayevə məktubla müraciət edərək müsabiqədən keçməyən həmin tələbələrin tələbə heyətinə daxil edilməsi üçün sərəncam verməyi xahiş etdi. Nazirlik bütün imtahanlardan müvəffəq qiymət alaraq müsabiqədən keçməyən 30 nəfərin ("Pedaqogika və psixologiya"- 6 nəfər, "İbtidai təlim pedaqogikası və metodikası"- 14 nəfər, "Tarix, əlavə sovet hüququ"-8, "Azərbaycan dili və ədəbiyyatı"-1, "ÜTF, əlavə fizika"-1) tələbələr sırasına daxil edilməsinə icazə verdi.

Tez-tez filialın fəaliyyətini təşkil etmək məqsədilə institutun əməkdaşları Şuşa filialına ezam olunur. Həmin dövrdə Pedaqoji Universitetin tədris işləri üzrə prorektoru vəzifəsində çalışan prof.Məlikməmməd Cəbrayılov o günləri belə xatırlayır:"Qarabağ hadisələri başlananda erməni millətçiləri Xankəndi Pedaqoji İnstitutunu hədəfə almışdılar. Bu institutun Qarabağ bölgəsində təhsilin, maarifçiliyin inkişafında müstəsna xidmətləri olmuşdu. Azərbaycanlı müəllim və tələbələr Xankəndindən qovulanda onlar Şuşada yerləşdilər. Xankəndi Pedaqoji İnstitutunun Azərbaycan şöbəsi ADPU-nun filialı kimi yenidən təşkil olunanda rektor Səlvər Aslanov, mən və Qulu müəllim Şuşaya getməli olduq. Vəziyyət həddən artıq təhlükəli idi. Mən onda gördüm ki, Səlvər müəllim çox cəsarətli, vətənpərvər və qorxmaz adamdır. Biz Ağdama getdik, oradan da Xankəndindən keçməklə Şuşaya qalxdıq. Bizi az sonra müdafiə naziri olan general Dadaş Rzayev müşayiət edirdi. Səlvər Aslanov o dövrdə Azərbaycan Ali Sovetinin deputatı idi. Şuşada filial üçün yaxşı bir bina ayrılmışdı. Filiala rəhbərlik dos.Mail Alıcanova həvalə olunmuşdu. Filialın müəllimləri, tələbələri ilə maraqlı və yadda qalan görüşlərimiz oldu. Tədrisin təşkili ilə bağlı xeyli təklif və tövsiyələrimiz oldu. Bütün çətinliklərə baxmayaraq filialın professor-müəllimləri əzmlə çalışırdılar. Kollektivdə nikbin əhval-ruhiyyə hökm sürürdü. Tələbələrin hamısı Şuşaya qayıtmışdı. Axşama yaxın Ağdama qayıtmalı idik. Xəbər gəldi ki, ermənilər daha da azğınlaşıb, azərbaycanlıların maşınlarını güllələbaran edir, insanları girov götürürlər. Biz vertolyotla Ağdama, oradan da maşınla Bakıya gəldik. Səhərisi gün Səlvər müəllim rektoryanı müşavirə çağırdı. Şuşa filialı ilə bağlı prorektorlara və struktur rəhbərlərinə konkret tapşırıqlar verdi" [3].

Çətin dövrlər olmasına baxmayaraq kollektiv tədrisin keyfiyyətinin aşağı düşməməsinə çalışırdı. Ermənilərin tez-tez yolu bağlaması, avtobusların düşmən hücumlarına məruz qalması professor-müəllim və tələbə kollektivini ruhdan salmırdı. Əsas çətinlik ondan ibarət idi ki, Bakıdan filial üçün ayrılan avadanlıqlar maşınla Ağdama aparılır, oradan Şuşaya vertolyotla daşınırdı. Müəllimlərin əksəriyyəti günlərlə Ağdam aeroportunda qalmalı olurdu. Erməni təxribatı, demək olar ki, hər gün genişlənirdi. Erməni qəsbkarlarının acdığı atəş nəticəsində filialın iki müəllimi Böyük Vətən Müharibəsi veteranı Mürşüd Dünyamalıyev və gənc alman dili müəllimi Sara Əliyeva, filialın iki tələbəsi Elsevər və İldırım şəhid oldular. Xeyli tələbə müxtəlif dərəcəli xəsarət almışdı. Xocalı faciəsi ermənilərı daha da azğınlaşdırmışdı. Növbəti hədəf Qarabağın tacı Şuşa idi. Şuşa şəhəri topxana tərəfdən "Alazan" tipli raketlərlə atəşə tutulurdu. Filialın yerləşdiyi bina düşmənin əsas hədəflərindən biri idi.

Azərbaycan Respublikası Nazirlər Kabinetinin 1 iyul 1991-ci il 200 saylı əmri ilə Şamaxıda N.Tusi adına ADPU-nun filialı açıldı. Həmin ilin avqust ayında dos. Mail Alıcanov yeni yaranan filiala direktor vəzifəsinə köçürüldü.

ADPU-nun Şuşa filialında kadr dəyişikliyi baş verdi. Belə ki, *dos.Zəfər Hüseynov* filiala direktor, dos.Ənvər Əhməd direktor müavini təyin edildi. İnzibati-təsərrüfat işləri baş müəllim Ənvər Quliyevə həvalə olundu.

ADPU-nun Şuşa filialının fəaliyyəti uzun sürmədi. O dövrdə erməni silahlıları azərbaycanlılar yaşaya kəndlərə tez-tez hücum edirdilər. Bir neçə Azərbaycan kəndi ermənilər tərəfindən işğal olunmuşdu. Tələbələrin və müəllimlərin həyatı üçün ciddi təhlükə yaranmışdı. Bütün bunlara baxmayaraq ADPU-

nun Şuşa filialı öz fəaliyyətini davam etdirirdi. Filialın fəaliyyətini genişləndirmək, əlavə olaraq, Şuşada Azərbaycan Neft-Kimya İnstitutunun və Azərbaycan Tibb Universitetinin filiallarını açmaq nəzərdə tutulsa da bunları reallaşdırmaq mümkün olmadı. ADPU-nun Şuşa filialının təhlükəsiz yerə köçürülməsi qərara alındı.1992-ci ilin mart ayının 25-də filialın kollektivi Ağcabədi şəhərinə 1 saylı məktəbin binasına köçürüldü, daha sonra 114 saylı Texniki Peşə Məktəbinin binasında yerləşdirildi. Respublikada tələbə qəbulunun test üsulu ilə aparılması Şuşa filialının tələbə kontingentinin ildən-ilə azalmasına səbəb oldu.

1994-cü ilin iyun ayının 28-də Şuşa filialının rəhbərliyində kadr dəyişikliyi aparıldı. *Dos.Ənvər Əhməd* filialın direktoru təyin edildi. Filialda üç fakültədə 6 ixtisas üzrə pedaqoji kadr hazırlığı aparılırdı. Tarix-filologiya fakültəsinə dos.Raqub Kərimov, Pedaqoji fakültəyə dos. İslam Həşimov, Riyaziyyat fakültəsinə 1996-cı ildən baş müəllim Ənvər Quliyev rəhbərlik edirdi. Filialda tədris işləri ilə yanaşı elmi-tədqiqat işlərinə də ciddi fikir verilirdi. Əvvəlki strukturdan fərqli olaraq burada Xarici dillər kafedrası təşkil edilmişdi. Kafedraya dos.Ə.Səfərova rəhbərlik edirdi. ADPU-nun rektoru, prof.Bəhlul Ağayevin təşəbbüsü ilə ildə iki dəfə ADPU-nun Elmi Əsərlərinə əlavə olaraq filialın əməkdaşlarının əsərlərindən ibarət məqalələr məcmuəsinin nəşri qərara alınmışdı.

Filialda tədris və elmi işlərin yüksək səviyyədə aparılmasına həm Pedaqoji Universitetin (prof.Həsən Mirzəyev, dos.Bəşir Fərəcov və b.), həm də digər ali təhsil və elmi-tədqiqat institutlarının əməkdaşları (prof.Bala İsgəndərov, dos. Atəş Abdullayev, dos.Mirələm Vəliyev, prof.C.Vəliyev, prof.Ə.Vəliyev və b.) yaxından kömək etmişdir.

Azərbaycan Respublikasının Prezidenti H.Əliyevin 2000-ci il 13 iyun tarixli 349 saylı Fərmanı ilə Filial Azərbaycan Müəllimlər İnstitutunun tərkibinə daxil edildi. ADPU-nun Ağcabədidə tədris məntəqəsi yaradıldı.

ƏDƏBİYYAT

1.Mərdanov M.Azərbaycan təhsil tarixi.II cild.Bakı:Təhsil,2011

2.Rüstəmov F.A. Azərbaycan Dövlət Pedaqoji Universitetinin tarixi (1921-2021).Bakı:ADPU,1921

3.Rüstəmov F.A. Azərbaycan Dövlət Pedaqoji Universitetinin rektorları.Bakı:ADPU,2021

4.İnstitutda Xankəndi filialı günləri.”Gənc müəllim” qəzeti, 12 aprel 1972

AZƏRBAYCAN MUĞAMIN BÖLMƏLƏRİ "XOSROV VƏ ŞİRİN" POEMASININDA

SECTIONS OF AZERBAIJANI MUGHAM IN THE POEM "KHOSROV AND SHIRIN"

Məsmə Mahmudova

AMEA Məhəmməd Füzuli adına

Əlyazmalar İnstitutu, elmi işçi

Nəzrin Mahmudova

Prominent figures of Azerbaijani poetry and prose G.Tabrizi, Mahsati, Khagani, Nasimi, Fuzuli, later M.P.Vagif, G.Zakir, S.A.Shirvani, M.M.Navvab, A.Hagverdiyev, J.Mammadguluzade, M.Jalal, S.Vurgun , B.Vahabzadeh and others in their works skillfully glorified the influence of our musical folklore. From this point of view, our genius poet Nizami Ganjavi has exceptional services in our literary history.

Key words: Musical, folklore, literary

XÜLASƏ

XII yüzillikdə Yaxın və Orta Şərqin poeziya göylərində bir ulduz kimi parlayan Azərbaycanın dahi oğlu Nizami Gəncəvi ilk poemasını 30 yaşından sonra yazmışdı.Dünya ədəbiyyatı xəzinəsinə bəxş etdiyi beş poeması – "Sirlər xəzinəsi" (1175), "Xosrov və Şirin" (1180), "Leyli və Məcnun" (1188), "Yeddi gözəl" (1197) və "İskəndərnamə" (1203) ilə adını əbədilik sənət göylərinə yazaraq,özündən sonra indiyə qədər davam edib gələn möhtəşəm Nizami ədəbi məktəbinin möhkəm özülünü qoymuşdur.

Açar sözlər: Musiqi, folklor, ədəbiyyat

Nizami Gəncəvinin əlyazmaları bütün dünyada yayılıb.Hətta ABŞ və İngiltərə kimi dünyanın inkişaf etmiş ölkələrində şəxsi kolleksiyalarda belə Nizaminin əlyazmaları var.Azərbaycanda AMEA Məhəmməd Füzuli adına Əlyazmalar İnstitutunda Nizami əsərlərinin otuzdan çox nadir əlyazma nüsxəsi qorunur ki, onlar nizamişünaslığın mühim qaynaqlarıdır.Həmin yazılı abidələr təkcə ədəbiyyatşünaslıq və mətinşünaslıq baxımından deyil,eyni zamanda sənətşünaslıq nöqteyi – nəzərdən də çox əhəmiyyətlidir. Bu baxımdan dahi şairimiz Nizami Gəncəvinin ədəbiyyat tariximizdə müstəsna xidmətləri vardır .

Azərbaycan poeziyasının və nəsrinin görkəmli simaları Q.Təbrizi, Məhsəti, Xaqani, Nəsimi, Füzuli, sonralar M.P.Vaqif, Q.Zakir, S.Ə.Şirvani, M.M.Nəvvab, Ə.Haqverdiyev, C.Məmmədquluzadə, M.Cəlal, S.Vurğun, B.Vahabzadə və başqaları öz əsərlərində musiqi folklorumuzun təsir gücünü ustalıqla tərənnüm etmişlər. Bu baxımdan dahi şairimiz Nizami Gəncəvinin ədəbiyyat tariximizdə müstəsna xidmətləri vardır (1,79).

Nizami Gəncəvinin əsərlərində muğamla bağlı misralar böyük əhəmiyyət daşıyır. Nizami Gəncəvi əsərlərində muğamın insanlara ruhi təsirindən və musiqinin şəfaverici xüsusiyyətlərindən danışır. Xüsusilə "Xosrov və Şirin" poemasında 8 muğamın adını qeyd olunur. Bu muğamlar "Rast", "Üşşaq", "Hesari", "İraqi", "Novruzi", "İsfahan", "Rəhəvi" və "Zirəfkəndi"dir (2,154).Poemada bu muğamlar o dövrün iki məşhur ifaçısı – Barbədlə Nəkisaninin ifasında səsləndiriir:

Nəkisa oxudu cadugar kimi

"Rəhavi" üstündə köklədi simi

Dahi şairin dövründə də indi olduğu kimi muğamlar dəsgah şəklində ifa olunmuş, sözlər üçün müxtəlif mövzuda qəzəllər seçilmişdir.

Nizami Gəncəvinin "Xosrov və Şirin" poemasında əsər qəhrəmanlarının dilindən Nəkisa və Barbədin növbə ilə müxtəlif pərdələr əsasında qəzəl oxuması, "Xəmsə"yə daxil olan poemalar əsasında ən maraqlı səhnələrdən biridir. Bu "deyişmə" vaxtı əvvəlcə "Nəkisa o sənəmin istədiyi tərzdə cəngin müşayiətilə bu qəzəli "Rast" pərdəsində oxuyur və Şirinin dilindən Xosrova xitabən söylədiyi qəzəldə onu düzgünlüyə, həqiqətə çağırır". Burada musiqi ilə poeziyanın vəhdəti ən yüksək səviyyəyə çatır. Musiqi poeziya kimi pafosla oxunur, poeziya isə musiqi kimi həzin səslənir. Nəkisa çəng ilə qəzəl deyəndən sonra, Barbədin setarı saz ilə qoşalaşır. Bu pərdədə oxuduğu qəzəldə Barbəd Xosrovun eşqindən, Şirinə vurğunluğundan danışır. O, rudda nəğməni tamamladıqdn sonra "Nəkisa tez öz çəngini çalır, "Hesari" adlanan o pərdədə növbəti qəzəlini oxuyur".

"Xosrov və Şirin" poemasının "Çalğıçı Barbədin tərifi" bölməsində isə şair Azərbaycan xalqının tarixən böyük istedad sahibi olduğunu Barbədin timsalında zəngin poetik dillə təsvir etmişdir. Barbəd bildiyi yüz nəğmədən seçdiyi otuz nəğməni (2.167) öz sevimli barbətində (simli musiqi aləti) həm gözəl çalır, həm də gözəl oxuyur:

O, çala bildiyi yüz xoş *nəğmədən*
Seçdi otuzunu –özü bəyənən.
Bu otuz *nəğmə* ki, *Barbəd* çalırdı,
Gah ürək verirdi, gah can alırdı (2.257).

Böyük sənətkar bunu Xosrovun mahir ud ifaçısı Barbədin çalğısından bəhs edərkən belə qələmə alıb:

Dünyanı bürüyüb asiman kimi,
Barbəd gətirmişdi təvana simi.
Nəğməylə dostlara səfa verirdi,
Xəstə ürəklərə şəfa verirdi.
Qalxıb ucaldıqca udunun səsi,
Hər teli çalırdı Davud nəğməsi.
Zəngulə xoş səslə axıb gedirdi,
Nəfəsi İsa tək can bəxş edirdi (2.470).

Barbəd Xosrovun hüzurunda qurulmuş bu gözəl məclisi "Gənci-badavərd"lə açır. "Gənci-badavərd" sözünün lüğəti mənası "yellə gələn xəzinə" deməkdir. Ehtimal etmək olar ki, Nizami bu ifadədən təşbeh kimi istifadə etmişdir. Çünki şair əsərin əvvəlki fəsillərində də "Gənci-badavərd" ifadəsini işlədir:

*"Gənci-badavərd"*lə məclisi açdı,
Ağzı hər nəfəsdə xəzinə saçdı.
"Gənci-gav" başladı, coşdu üfüqlər,
Yer öküzün verdi, nisar etdi zər.
O *"Gənci-suxtə"*ni oxuyan zaman
Min xəzinə yandı onun ahından.
"Şadırvan mirvarid" oxuyan zaman
Mirvari saçırdı dodaqlarından.
*"Təxti-Taqidis"*ə gələndə növbət
Göydə qapısını açardı cənnət (2.257).

Nizami Gəncəvinin əsərlərində muğamla bağlı misralar böyük əhəmiyyət daşıyır. Nizami Gəncəvi "Xosrov və Şirin" poemasında Barbədlə Nikisanın deyişməsi fonunda muğamlar və onların ifasında mühüm tərkib hissə hesab edilən rəng, təsnif, dəraməd və müqəddimələrin ifasında zəruri hesab edilən musiqi alətlərindən (təbil, şeypur, fəğanə-çoğanə, ud, setar, saz, rübab, barbəd, cəng, ərqənun – kanon, rud və s.) ifa imkanlarından məharətlə söhbət açır. Ümumiyyətlə böyük sənətkar bu əsərdə 30-dan çox musiqi alətinin adını çəkməklə yanaşı, onların ifa imkanlarından da söz açmışdır:

Ərğənun naləsi, *cəngin* naləsi
Zöhrə mənzilinə yetirmiş səsi.
Çalğıçı *mizrabı (zəhmə)* telə vurardı,

İpək köynəklilər köynək cırırdı.
Müğənni düzəldib *saz (rud) pərdəsini,*
Hər dəfə qaldırır bir *nəğməsini.*
Müxtəlif *nəğmələr*, müxtəlif *pərdə*
Birləşsə xoş *ahəng* çıxar bir yerdə.
Dəstə-dəstə durmuş türfə gözəllər,
Dillərdə Nizami yazan qəzəllər.
Bir şirin *avazla* hey oxuyurlar,
Çəngi yarasına məlhəm qoyurlar (2.479)

Buradan belə nəticəyə gəlmək olar ki, musiqi əsərinin bədii qiymətini daha dəyərli etmək üçün hələ Nizamiyə qədər onu "yellə gələn xəzinə"yə bənzətmişlər. Maraqlıdır ki, bu həzin və lirik muğam dəraməd xalqın mənəvi yaddaşında uzun müddət yaşamış və dövrümüzə qədər gəlib çatmışdır (3.36-37). Demək olar ki, bu avazat bugünkü "Şur" muğamının mühüm tərkib hissələrindəndir. Çünki Barbədin "Gənci-badavərd"dən sonra ifa etdiyi "Gənci-gav", "Gənci-süxtə", "Naqusi", "Övrəng" də "Şur" muğamının şöbə və guşələrinə daha **çox uyğun gəlir**.

"Naqusi" və "Övrəng" çalınan zaman,

Zəng səsi çıxardı övrəng taxtından.

- beytindəki "Naqusi" və "Övrəng"in bir yerdə təsvir edilməsi (2,167), güman ki, "Şur"un tərkibindəki "Simayi-şəms" ritmik muğamını xatırladan muğam parçaları, yaxud şöbə və guşələrdir. Çünki "Simayi-şəms" özü də iki hissədən – "Nəva" və "Sarənk" guşələrindən ibarətdir (4,35).

Onlardan "Rast" – "Novruz rəvəndə", "Rast", "Üşşaq", "Hüseyni", "Vilayəti", "Xocəstə", "Xavəran", "Əraq", "Pəncgah", "Rak", "Əmiri" və "Məsihi" şöbə və guşələrindən ibarət olan dəsgahdır.

"Üşşaq" – "Rast" dəsgahının "Mayə"sində ifa olunan guşələrdən biridir. "Orta Mahur" və "Mahur Hindi" dəsgahlarında şöbə kimi ifa edilir.

"Hasar" kimi tələffüz olunan "Hesari", "Zabul Segah"ın "Əraq" və "Aşiq-guş" şöbələri arasında "Yədi-hasar" adıyla və ya "Mübərriğə" və "Manəndi-Müxalif" arasında, "Bərdaşt" şöbəsindən sonra "Manəndi-hasar" guşə kimi ifa edilir (5,191-193).

"Əraq" – "Rast" , "Mahur Hindi" və "Rahab" dəsgahlarının kulminasiya nöqtəsini özündə əks etdirən və əzəmətli səslənən şöbədir.

Nizami yaradıcılığında öz əksini tapan muğam dəstgahlarının şöbə və guşələrinin, rənglərin, dəramədlərin, təsniflərin adları müəyyən assimilyasiyaya uğramışsa da, onların bir qismi Nizami dövründə olduğu kimi, bu gün də öz adları ilə yaşayır. Məsələn, Nizami yaradıcılığında bədii mədəniyyətimizin ən əvəzsiz incilərindən hesab olunan, qiymətləndirilən, təhlil edilən "Rast", "Hisar", "İraq", "Mahur", "Nəva", "Rəhavi" ("Rəhab"), "Səbz dər-səbz", "Sazi-Novruz" kimi muğam nümunələri indi el sənətkarlarımız tərəfindən eyni adla ifa edilir.

Nizami Gəncəvinin adını çəkdiyi məqamlar sırasında "Rast" öz mayə ucalığını zəmanəmizə qədər mühafizə edə bilmişdir. Əbəs yerə orta əsr musiqişünasları onu "Muğamların anası" adlandırmayıblar. Digərləri isə zaman keçdikcə şöbə və ya avaz səviyyəsinə enmişlər.

Üzeyir Hacıbəylinin "Zabul Segah" muğamına əsaslanaraq Nizaminin sözlərinə yazdığı "Sənsiz" romansı və "Segah" muğamı motivləri əsasında bəstələdiyi "Sevgili canan" romansları dünyanın ən möhtəşəm konsert salonlarında səslənmiş və böyük rəğbətlə qarşılanmışdır (6,11).

Ü.Hacıbəyli ənənələrini davam etdirən Azərbaycan bəstəkarları öz yaradıcılıqlarında müxtəlif muğamlardan yararlanaraq, dahi Nizaminin şeirlərinə çoxlu sayda gözəl əsərlər bəstələmişlər. Buna ilk misal olaraq, Əfrasiyab Bədəlbəylinin "Nizami" operasını göstərmək olar. Qeyd edim ki, Nizami obrazı ilk dəfə bu operada yaradılmışdır. Zülfüqar Hacıbəylinin "Nüşabə", Soltan Hacıbəyovun "İsgəndər və Çoban", Fikrət Əmirovun "Nizami" simfoniyası, maestro Niyazinin "Xosrov və Şirin" lirik romantik operası, Ramiz Mustafayevin "Şirin" diplom işi, Rəşid Şəfəqin "Bayquşların söhbəti" üç hissəli nağıl-operası, Eldar Mansurovun "Yeddi gözəl" rok operası, Qara Qarayevin "Yeddi gözəl" adlı 4 pərdə və 10 şəkilli baleti, Tofiq Bakxanovun "Xeyir və Şər" baleti də bu baxımdan parlaq əsərlərdir. Bundan

əlavə, Nizami Gəncəvinin əsərlərinə "A capella" xoru üçün əsərlər, vokal poemalar, instrumental əsərlər, vokal silsilə, elegiya, musiqili qəzəllər, mahnı və romanslar yazılmışdır ki, onların da arasında Ərtoğrul Cavidin məşhur "Yar gəlmiş idi" əsəri də yer almaqdadır.

YENLİKLƏR

Böyük Azərbaycan şairi Nizami Çəncəvinin ABŞ və İngiltərə kimi dünyanın inkişaf etmiş ölkələrində, həmçinin Azərbaycanda AMEA Məhəmməd Füzuli adına Əlyazmalar İnstitutunda Nizami əsərlərinin otuzdan çox nadir əlyazma nüsxəsi haqqında ilkin olaraq məlumat vermişik.

NƏTİCƏ

Buradan belə nəticəyə gəlmək olar ki, muğamlarımızı dərindən öyrənmək üçün dahi Nizaminin əsərinin geniş araşdırmaq lazımdır.

ƏDƏBİYYAT

1. Əhmədağa Əhmədov. Nizami elmşünas. (Üçüncü nəşri). Bakı, 2011.

2.Nizami Gəncəvi. Xosrov və Şirin. "Yazıçı" nəşriyyatı, 1982.

3. Kərimli T. Nizami və tarix. Bakı – Elm, 2021.

4.Zamanov N. Nizami poeziyasındı və təsviri sənət. "Elm" nəşriyyatı, Bakı -1981.

5.Abdullayeva S. Nizamidə musiqi, musiqidə Nizami. Bakı: Nurlan, 2018.

6.Nizami Gəncəvi -880.Nizami əlyazmalarının Bakı nüsxələri.Tərtibçi və ön sözün müəllifi:T.Kərimli.Bakı-2021.

İDARƏETMƏDƏ ŞƏXSİYYƏTİN İNTELLEKTUAL İNKİŞAFINDAnSOSİAL QAVRAYIŞIN ROLUNUN SOSİAL-PSİXOLOJİ TƏHLİLİ

THE SOCIO-PSYCHOLOGICAL ANALYSIS OF ROLE OF SOCIAL PERCEPTION IN INTELLECTUAL DEVELOPMENT OF PERSONALITY IN MANAGEMENT

Zeynəb Həcəmova

AMEA Rəyasət Heyəti aparatı,

AMEA Fəlsəfə və Sosiologiya İnstitutunun dissertantı

https://orcid.org/0000-0001-5886-0984

ABSTRACT

The study of the process of intellectual development in relation to social perception reveals the fact that a person refers to relevant stereotypes in predicting a number of mental and systematic relationships. The study of cognitive and systematic classifications, on the other hand, guarantees a number of useful predictions about a person's interests and social behavior.

One of the main features of social perception in the intellectual development of the individual is due to the adaptation of people to a social group. In intellectual development, social perception manifests itself reflexively and ensures that the individual belongs to a certain social category, understands objects and events, and perceives existing information and relationships. Social perception determines a person's connection with the social environment allows to predict the characteristics of the perceived event and object, and allows the person to regulate their behavior.

Intellectual development is the most important stage of social development and ensures the individualization of the individual. The interaction of social perception with intellectual development shapes a person's personal values by reflecting on his or her social behavior and practical abilities.

Key words: personality; development; intellect; social perception; social status

XÜLASƏ

İntellektual inkişaf prosesinin sosial qavrayışla əlaqəli şəkildə tədqiqi nəticəsində insanın bir sıra zehni və sistematik əlaqələri proqnozlaşdırmasında müvafiq stereotiplərə istinad etməsi faktı aşkar olunmuşdur. Koqnitiv (zehni) və sistematik təsnifatların tədqiqi isə insanın maraqları və sosial davranışları haqqında bir sıra faydalı proqnozların əldə edilməsinə zəmanət verir.

Şəxsiyyətin intellektual inkişafında sosial qavrayışın əsas xüsusiyyətlərindən biri insanların sosial qrupa adaptasiya olması ilə şərtlənir. İntellektual inkişafda sosial qavrayış özünü refleksiv şəkildə biruzə verir və fərdin müəyyən sosial kateqoriyaya mənsub olmasını, cism və hadisələri dərk etməsini, mövcud olan informasiyanı və münasibətləri qavramasını təmin edir. Sosial qavrayış insanın sosial mühit ilə bağlılığını müəyyənləşdirir, qavranılan hadisənin və obyektin xüsusiyyətlərini öncədən müəyyənləşdirmək üçün imkan yaradır və şəxsin öz davranışlarını tənzimləməsini təmin edir.

İntellektual inkişaf sosial inkişafın ən əsas mərhələsi hesab olunur və şəxsiyyətin fərdiləşməsini təmin edir. Sosial qavrayışın intellektual inkişafla qarşılıqlı əlaqəsi insanın sosial davranış və təcrübi imkanlarında inikas edərək onun şəxsi dəyərlərini formalaşdırır.

Açar sözlər: şəxsiyyət; inkişaf; intellekt; sosial qavrayış; sosial status

Giriş. Şəxsiyyətin intellektual inkişafında sosial qavrayış digər insanları anlamaq, onlara təsir göstərmək, onlarla səmərəli ünsiyyət qurmaq və rəhbərlik etmək, kollektivdə əlverişli mikroiqlim

formalaşdırmaq, əmək fəaliyyətinin və yaradıcı fəaliyyətin müsbət motivasiyasını inkişaf etdirmək kimi mühüm vəzifələrin reallaşdırılmasını təmin edir. Şəxsiyyətlərarası münasibətlərdə uzun müddət davam edən daxili və xarici proseslərin qavranılması məhz sosial qavrayışın koqnitiv və affektiv qanunauyğunluqları əsasında reallaşır. İntellektual inkişaf səviyyəsinin fenomenal xüsusiyyəti də infomasiyanın insan beynində kodlaşdırılması sayəsində mümkün olur. İnsanın davranışı, nitqi və idarəetmə mədəniyyəti onun intellektual səviyyəsinin daxili komponenti kimi qəbul edilir. İnsanın intellektual inkişaf səviyyəsi onun işgüzar fəaliyyətinin daxili amillərindən asılıdır.

Şəxsiyyətin intellektual inkişafında sosial qavrayışın təzahür xüsusiyyətləri aşağıdakı elementləri əhatə edir:

- idarəetmədə işgüzar münasibətlərin diaqnostikası və proqnozlaşdırılması;
- problemli və böhranlı vəziyyətlərin aradan qaldırılmasına yönəlmiş fəaliyyət proqramının yaradılması;
- qəbul edilən qərarların icrasından irəli gələn məsələlərin həlli.

İnsanın intellektual inkişafının formalaşmasında zəruri xarakterə malik olan 3 əsas qaynaq vardır ki (Veber, 1921-ci il), onları aşağıdakı şəkildə qruplaşdırmaq mümkündür:

- İntellektual inkişaf insanın mövcud qayda və normalara rasional münasibət göstərməsini təmin etməlidir.
- İntellektual inkişaf insanın mənsub olduğu xalqın adət-ənənələrinə və davamlı meyarlarına inamlı münasibət göstərməsini təmin etməlidir.
- İntellektual inkişaf insanın fərdi-psixoloji xüsusiyyətlərinin formalaşmasına şərait yaradan dayanıqlı münasibət yaratmalıdır.

Beləliklə də, rasional, inamlı və dayanıqlı təsnifatda qruplaşan intellektual inkişaf insanın düşüncə tərzini müəyyənləşdirir və onun gələcək fəaliyyətinin memarı kimi çıxış edir [5., səh. 91].

Tədqiqatın məqsədi. Tədqiqatın əsas məqsədi idarəetmədə şəxsiyyətin intellektual inkişafında sosial qavrayışın rolunun öyrənilməsindən ibarətdir. Bu baxımdan ilk öncə intellektual inkişafı insanın öz varlığını izah etməsi üçün mövcud olan təcrübi vasitə kimi qəbul etmək zəruri hal alır. Belə ki, intellektual inkişaf insanın müəyyən səviyyəli anlayışları və ya xüsusi nailiyyətləri əldə etməsinə yönəlmiş idrak prosesidir.

İntellektual inkişaf dedikdə, insanın təcrübə nəticəsində düşünmə, mühakimə etmə, münasibət bildirmə, konseptuallaşdırma və s. qabiliyyətlərində baş verən proqressiv dəyişikliklər nəzərdə tutulur. İnsanın davranışlarını və bacarıqlarını ilkin olaraq standart və obyektiv üsullarla müəyyənləşdirmək üçün onun intellektual inkişaf səviyyəsi ən optimal üstünlük kimi nəzərə alınır. Elmdə intellektual inkişafın öyrənilməsinə dair müxtəlif yanaşmalar mövcuddur. Elmi intellektual inkişafın təkamül sahələrinin tarixində olduğu kimi intellektual inkişaf sahəsində də ilkin tədqiqatlar müşahidə və təsvir etmək üsulu ilə aparılmışdır. Uzun illər ərzində insanların təfəkkür, düşüncə və digər intellektual qabiliyyətlərinin formalaşması, o cümlədən onların sosial və emosional inkişafının reallaşması məsələsi tədqiq edilmişdir.

İnsanın intellektual inkişafının ilkin aspektləri onun emosional vəziyyətində inikas edir. Şəxsiyyətin intellektual inkişafında sosial qavrayışın strukturları, manipulyasiyaları və şüuraltına yeridilmiş informasiya mühüm meyarlardan biridir. İntellektual fəaliyyətlə məşğul olan insan müəyyən bir inkişaf xətti ilə uğur əldə etməyə davam edir. İntellektual düşüncənin əsas prinsipləri də məhz müəyyən bir sahədə liderlik etdiyi institutu (ailə, təhsil, əmək fəaliyyəti və s.) yenilməz müstəvidə təqdim etməyə qadir olan güclü bir rəhbər insanın formalaşdırılmasına xidmət edir. İdarəetmədə fəaliyyət göstərən rəhbər şəxs tabeliyində olan işçilərə təsir etmək üçün mükəmməl idarəçilik keyfiyyətlərinə malik olmalı və təşkilatın fəaliyyətini səmərəli təşkil etməlidir. Bu zaman isə liderin psixoloji hazırlığı onun başlıca üstünlüyünə çevrilir. Rəhbər şəxs özünün və digər insanların psixikasına bələd olmalı, insanın psixoloji

keyfiyyətlərinin, vəziyyətinin, şəxsiyyətlərarası münasibətlərinin müəyyənləşdirilməsi və qiymətləndirilməsi sahəsində koqnitiv, emosional və iradi hazırlığa malik olmalıdır.

İntellektual inkişafın sosial qavrayışın qanunauyğunluqları ilə qarşılıqlı əlaqəsi daha çox idarəetmə sistemində inikas edir. İdarəetmə elə bir sistemdir ki, şəxsiyyətlərarası münasibətləri sosial hədəflərə əsasən tənzimləyir. İntellektual və sosial adekvatlıq xüsusiyyətləri insanın şəxsi inkişafını kompleks səviyyədə təşkil edir. Sosial qavrayış intellektual inkişafı sosial dəyərlər çərçivəsində reallaşdırır və təzahür edən təcrübə konkret mexanizm olaraq inkişaf prosesini idarə edir. Sosial təsirlərin düzgün qavranılması şəxsiyyətlərarası və işgüzar münasibətlərdə öz aydın təzahürünü tapır. İşgüzar münasibətlər isə insanın əmək fəaliyyətinə dair sosial stereotiplərini, fikirlərini və təsəvvürlərini əhatə edir. Sosial qavrayışın intellekt ilə qarşılıqlı əlaqəsi insanın konkret sosial inkişaf səviyyəsini tamamlayır və onu sosial həyata hazırlayır. Şəxsiyyətin idarəetmə bacarığı da onun intellektual inkişaf xüsusiyyətlərindən asılı olaraq reallaşır.

Sosial qavrayış idarəetməni ümumi bir sistem olaraq fərdi idarəetmə konsepsiyasına çevirir. Belə ki, şəxsin qarşısına qoyduğu məqsəd, qarşılaşdığı problemlərin məzmunu, onun idarəetmə konsepsiyasının daxili prinsipləri və qaydaları sosial qavrayışın qanunauyğunluqlarından və psixoloji xüsusiyyətlərindən asılı olaraq həyata keçir. Şəxsiyyətin idarəetmə bacarığının intellektual inkişafdan asılılığı və bu sahədə sosial qavrayışın təzahür xüsusiyyətlərinin təhlili məsələsi həm idarəetmə, həm də sosial psixologiyanın əsas mövzularından biri hesab edilir. İlk öncə qeyd edə bilərik ki, şəxsiyyətin intellektual göstəricilərinin yüksək olması idarəetmə fəaliyyətinin psixoloji xüsusiyyətlərini və sosial qavrayışı idarəetmə sisteminin daxili prosesi olaraq daha effektiv və keyfiyyətli edir. Ümumilikdə isə, idarəetmədə şəxsiyyətin intellektual inkişafında sosial qavrayışın rolu aşağıdakı üç mühüm vəzifənin icrasına xidmət edir:

1) Müxtəlif sosio-psixoloji funksiyaların yerinə yetirilməsi və analitik təhlillərin aparılması – insanın davranışlarının idarə olunması və analiz edilməsi, gələcəkdə qəbul ediləcək qərarların təhlili, kollektivin fəaliyyətinə psixoloji baxış və korreksiya kimi zəruri proseslərin həyata keçirilməsi, şəxsiyyətlərarası münasibətlərin mexanizmlərinin öyrənilməsi, işgüzar fəaliyyətdə normal və ekstremal halların bütün mexanizmlərinin təhlili, kollektivin həm normal, həm də ekstremal iş şəraitində düzgün qərar qəbul etməsi üçün metodik dəstəyin göstərilməsi və liderliyin psixi xüsusiyyətlərinin və şəxsin fərdi liderlik qabiliyyətinin inkişaf mexanizmlərinin tədqiqi.

2) Şəxsiyyətlərarası münasibətlərin və idarəetmənin stimullaşdırma yolu ilə təşkili – rəhbər-icraçı arasında formalaşan şəxsiyyətlərarası və işgüzar münasibətlərin fəaliyyətinin psixoloji tətbiqi, kollektivin zərurət yarandıqda mükafatlandırma metodu ilə idarə edilməsi, iş fəaliyyətinin müvəffəqiyyətlə yerinə yetirilməsi və idarəçiliyin düzgün təşkili.

3) İnsanların psixikasına empatiya ilə təsir etmək – kollektivin öz fəaliyyətinin təşkilinə nəzarətin təşkili, iş prosesinin idarə edilməsində fərdi üslubun nümayiş etdirilməsi, şəxsiyyətlərarası münasibətlərdə və idarəetmədə psixoloji fəndlərin praktik və tətbiqi təşkili, münaqişələrin həlli və psixoloji təsirin göstərilməsi, təşkilatdaxili mikroiqlimin tənzimlənməsi və psixoloji sabitliyin formalaşdırılması, kollektivin işgüzar fəaliyyətinə və davranış tərzinə şəxsi nümunə ilə örnək olmaq və insanlara inam hissinin nümayiş etdirilməsi.

Yuxarıda qeyd edilən funksiyalar insanların əmək fəaliyyətində şəxsiyyətlərarası münasibətlərin ən mühüm göstəricisi kimi çıxış edə bilir və insanlarda psixoloji olaraq məmnunluq hissi formalaşdırır. Bundan başqa, qrupda qarşılıqlı fəaliyyət proseslərinin inkişafına, təzahür edən fikir ayrılıqlarının və nəticədən baş qaldıra biləcək ağır nəticələrlə müşayiət olunan münaqişələrin aradan qaldırılmasına xidmət edir. Şəxsiyyətin intellektual inkişafında sosial qavrayışın xüsusiyyətləri idarəetmədə qarşıya qoyulan ümumi məqsədlərin, maraqların, fikirlərin və ideyaların tətbiqini şərtləndirir, işçinin işgüzar mövqeyini müdafiə edir və kollektivin fəaliyyətinə səmərəli nəzarətin təşkilini təmin edir.

İdarəetmədə şəxsiyyətin inkişafında sosial qavrayış idarəetmənin müvafiq norma və göstərişlərinə əsasən mütəşəkkil qaydada fəaliyyət və qarşılıqlı təsir prosesi kimi nəzərdə tutulur. İdarəetmədə şəxsiyyət rəhbərlik sahəsində təcrübə qazanmaq və inkişaf etməklə bərabər digər sferalarda da yeni bacarıqlara yiyələnir.

Şəxsiyyətin intellektual inkişafında sosial qavrayışın spesifik forması bir fərdin digərlərini anlaması, qavraması və psixoloji olaraq şəxsiyyətlərarası və işgüzar müqaviməti dəf etmək bacarığı ilə

səciyyələnir. Sosial qavrayış şəxsiyyətin inkişafına intellektual fərqlənmə əsasında liderlik xüsusiyyətləri aşılayır. Başqa sözlə desək, sosial qavrayışa intellektual inkişafın differensiallaşması kimi də yanaşmaq olar. Bu cür differensiallaşmanın əsasını isə qarşılıqlı əlaqə və qarşılıqlı təsir prosesi təşkil edir. İdarəetmədə şəxsiyyətin intellektual inkişafında sosial qavrayışın rolu bir fərdin başqalarına təsir etməsi və bu təsirə qarşı tərəfin reaksiya göstərməsi prosesində reallaşır. İdarəetmədə intellektual inkişaf rəhbər şəxsin qismində təzahür edir və prosesin strukturunun qurulması sosial qavrayışın statusunu qanuniləşdirir. Qeyd edilən proseslər xüsusi xarakter daşıyır və sabit olmayan kollektivlərdə əhəmiyyətli dərəcədə fərqlənir.

İnsan sosial varlıq olduğu üçün ona aid olan istənilən fəaliyyət sosial xarakterə malik olur və inkişafla bərabər davranışın proqnozlaşdırılması da şəxsin sosial statusuna təsir göstərir. Sosial qavrayış intellektual inkişafda birləşdirici element kimi çıxış edir və şəxsin davranışını müəyyən norma daxilində tənzimləyir. Qeyd edilən normalara ilk öncə idarəçilik qabiliyyəti, sərişte, məsuliyyət, ideyaların dəstəklənməsi, qrup naminə fəaliyyətin tənzimlənməsi, düzgün ünsiyyət formalarının tətbiqi və s. xüsusiyyətlər aiddir. Rəhbər şəxsin tabeliyində olan işçilərin sosial və psixoloji vəziyyətinin tənzimlənməsi fərdi idarəetmə üslubundan asılı olsa da, idarəetmənin inkişafı problemlərini əhatə edir. Rəhbər şəxsin idarəçilik xüsusiyyətlərinin real imkanları kəmiyyətcə onun sosial statusunun mütəşəkkiliyindən asılıdır. Rəhbər şəxsin sosial statusu idarəetməni istiqamət baxımından qarşılıqlı olaraq əlaqələndirir. Sosial status rəhbər-icraçı münasibətlərində qarşılıqlı əlaqəni stimullaşdırır, şəxsi inkişafın nəticəsi olaraq idarəetmənin məqsədli şəkildə təşkilini təmin edir, intellektual inkişafın düşünülmüş nəzarətə inteqrasiyasını həyata keçirir və sosial-psixoloji baxımdan bir sıra zəruri gözləntiləri subyektiv şəkildə qarşılayır. Rəhbər şəxsin sosial statusu idarəetmədə sosial nəzarətin vasitəçisi kimi çıxış edir və onun inkişafını qarşılıqlı təsir prosesində əlaqələndirir.

Nəticə. İdarəetmədə şəxsiyyətin intellektual inkişafında sosial qavrayışın təzahür xüsusiyyətləri rəhbər şəxsin davranışında, idarəçilik metodlarını seçməsində və tabeliyində olan insanlara münasibətində inikas edir. Nəticə olaraq isə qeyd edə bilərik ki, idarəetmədə şəxsiyyətin intellektual inkişafında sosial qavrayış istiqamət olaraq aşağıdakı xarakterik xüsusiyyətlərdən asılı olaraq tənzimlənir:

- Şəxsiyyətin inkişafı idarəetmə prosesinin mənəvi-emosional mərkəzində durur və şəxs işgüzar fəaliyyətdə prioritet qüvvə kimi nəzərdə tutulur.
- Şəxsiyyətin inkişafı qrupun strukturuna, atmosferinə və ideologiyasının düzgün müəyyənləşdirilməsinə və onun maraqlarının qarşılanmasına təşviq olunur.
- Şəxsiyyətin inkişafı şəxsi keyfiyyətlərin təzahür etdirilməsi və qrup anlayışlarına müvəffəqiyyətlə yiyələnmək yolu ilə təmin olunur.
- Şəxsiyyətin inkişafı idarəetmənin spesifik xüsusiyyətlərinin müəyyən optimal mövqeyinə əsasən müəyyənləşir.
- Şəxsiyyətin inkişafı idarəetmədə konsensus əldə etmək və tabe işçilərin adından çıxış edərək münaqişələri həll edilməsi səviyyəsində cərəyan edir.
- Şəxsiyyətin inkişafı əməkdaşlıq imkanlarının çoxaldılmasına yönəlir.
- Şəxsiyyətin inkişafında fəaliyyət və davranış nümunə olaraq əsas götürülür.
- Qrupun işinin əlaqələndirilməsi (vəzifə bölgüsü, təşviq və tənqid) və daha yaxşı nəticələrin əldə olunması üçün qrupa motivasiya verilməsi halları təmin olunur.
- Məqsədə və ya arzu olunan nəticəyə çatmaq və iş prosesinin effektivliyinin artırılması üçün qrupun ehtiyacları ödənir.
- Uğurlu rəhbərliyin təşkili və qarşılıqlı təsirin reallaşması üçün zəruri şərtlər ödənir.
- Şəxsiyyətlərarası münasibətlərdə hadisələrin düzgün qavranılması dəstəklənir.
- İdarəetmədə inandırma bacarığının tətbiqi, idarəetmədə məcbur etmə və güc tətbiq etmə hallarına yol verilmir və əməkdaşların həvəsləndirilməsi təmin edilir.

İSTİFADƏ EDİLƏN ƏDƏBİYYAT

1. Andreeva Q.M. Sosial psixologiya. Dərslik, Bakı – 2003
2. Бодалев А.А. Столин В.В. Аванесов В.С., Общая психодиагностика. 2006
3. Canetti E. Kitle ve iktidar (ingilizceden çeviren Aygen G.) Ayrıntı – 2020
4. Mayer D.G., Sosial psixologiya. 7-ci nəşr. 2002
5. Hayes N., Sosyal psikolojinin temelleri. Atıf yayınları. Ankara – 2016
6. https://kayzen.az/blog/psixologiya/1774/%C3%BCnsiyy%C9%99t.html
7. İsgəndərov İ.Ə. Heyətin idarə olunması. Dərslik, Bakı – 2003
8. Quliyeva Ş.T.. İdarəetmə psixologiyası və sosiologiyası. Bakı – 2018
9. Lieberman M.D., Pfeifer J.H., The self and social perception: Three kinds of questions in social cognitive neuroscience.
10. Perception. Recognizing patterns and objects.
11. Səfərova V.T., İdarəetmə nəzəriyyəsi. İdarəetmə fənni üzrə proqram, Bakı – 2016

ŞAGIRD TƏFƏKKÜRÜNÜN FORMALAŞMASINDA TƏLIM METODLARININ ROLU

Pəri Paşayeva

dosent

Sevda Abbasova

dosent

Aəzrbaycan Dövlət Pedaqoji Universiteti

Azərbaycan təhsil sistemində aparılan köklü dəyişikliklər təhsilimizin dünya təhsilinə inteqrasiya edilməsinə yol açmışdır. Uzun illər təhsilimizdə hökm sürən inzibati-amirlik qaydaları aradan qaldırılmış, şagirdyönümlü təhsil sisteminə nail olmaq üçün mühüm işlər görülmüşdür. Hazırda müasir təlim texnologiyaları Azərbaycan təhsil sistemində yaradıcılıqla istifadə olunur.

Son təhsil islahatları özünün ən bariz nümunəsini kurikulum modelində tapmışdır. Komputer texnologiyası və interaktiv təlim metodları kimi kurikulum anlayışı da Azərbaycan təhsili üçün yenidir. Kurikulum təhsil prosesi ilə bağlı müəllimlə şagird fəaliyyətinin səmərəli təşkilinə, məqsədyönümlü və ardıcıl həyata keçirilməsinə imkan yaradan konseptual sənəddir.

Müasir dövrdə yeni texnologiyaların, yeni təlim metodlarının tətbiqi müəllimin iş üsulunu şagirdlərin bilik almaq üçün müstəqil axtarışlar aparmalarına, yaradıcı fəaliyyətlərinə, təfəkkürə istinad etmələrinə, öyrənmə maraqlarına uyğun müəyyənləşdirməyi tələb edir.

Təhsilin indiki mərhələsində əsas diqqət uşağın şəxsiyyətinin inkişafına verilir. Bu özünü nədə göstərir? Təhsilin ibtidai mərhələsindən başlayaraq şəxsiyyətin inkişafını təmin etməkdə, oxumaq, yazmaq bacarığı və vərdişlərini əldə etməkdə, təfəkkürə, nitq inkişafına, sağlam həyat tərzi elementlərinə yiyələnməkdə göstərir.

Tədris prosesində müxtəlif iş formalarından, yeni interaktiv təlim üsullarından istifadə olunması müasir tələblərdən irəli gəlir. Müəllim nəzərə almalıdır ki, hər bir mövzunun qavranılması, yüksək təlim nəticələrinin əldə edilməsi, ilk növbədə dərsdə öyrədici mühitin formalaşması ilə sıx bağlıdır. Öyrədici mühit elə təşkil edilməlidir ki, şagird müstəqil şəkildə fərziyyələr irəli sürə bilsin, əldə etdiyi biliyi real həyatla əlaqələndirməyi bacarsın. Bu mühit elə təşkil edilməlidir ki, bütün şagirdlərin əməkdaşlığına, yeni biliklərin mənimsədilməsi və tətbiq edilməsinə şərait yaradılsın. Tədris prosesində şagird bilik əldə etmək, ünsiyyət qurmaq, əməkdaşlıq etmək üçün çətinlik çəkməməli, təlim metodlarından düzgün istifadə edərək gələcək inkişafı üçün maksimum imkanlar əldə etməlidir.

Tədris prosesində fəal təlim metodlarından istifadə olunması şagirdlərin hər şeyi öyrənmək həvəsini gücləndirir, onların öyrənmə fəallığını, təfəkkürünü inkişaf etdirir və təlimin səmərəliliyini artırır. Dərs zamanı şagird tədqiqatçı mövqeyində çıxış edir, müstəqil araşdırma aparır. Bu heç də müəllimin rolunu azaltmır. Müəllim burada yol göstərən, istiqamət verən, əlavə sualların köməyi ilə şagirdləri istiqamətləndirən və fəallaşdiran, onların biliklərə yiyələnmələrinin iştirakçısı rolunu oynayır.

Təlim zamanı müəllim öyrətmə anlarını düzgün planlaşdırmalı, şagirdlərə biliyi hazır verməməli, onlarda bilik əldə etməyə həvəs yaratmalı və öyrənənlərin fəal düşünmələrini təmin etməlidir. İnteraktivlik şagirdlərin müəllimin rəhbərliyi altında müxtəlif informasiya mərhələlərindən məlumat alma bacarığını inkişaf etdirir. İnteraktiv metodlar eyni zamanda şagirdlərdə yeni keyfiyyətlər formalaşdırır. Onlar müsahibini dinləməyi, söylənilən fikirlərə hörmət etmiyi, müstəqil tənqidi və yaradıcı düşünməyi, sərbəst fikir söyləməyi, məntiqi təfəkkürünü inkişaf etdirməyi, kollektiv üzvləri ilə əməkdaşlıq etməyi, başqasının fikrinə ədalətlə yanaşmağı bacarmalıdırlar.

Bu gün şagirdlərin yaradıcı düşünməsinə, biliklərə sərbəst yiyələnmə qabiliyyətlərinin inkişaf etdirilməsinə xidmət göstərən texnologiyalardan istifadə etmək tələb olunur. Təlim metodlarının əsas funksiyaları təlimedici, tərbiyəedici və inkişafetdirici funksiyalardır. Şagirdlərin təlimin məzmununu müvəffəqiyyətlə mənimsəmələri üçün onlardan yüksək idrakı fəallıqla yeni metodlardan səmərəli

istifadə etmək bacarığı tələb olunur. Təlimin inkişafetdiriciliyi dedikdə şagirdin inkişafını təmin edən xüsusi metodların axtarılması başa düşülür, halbuki bütün metodların inkişafetdiricilik vəzufəsinin yerini yetirilməsinə nail olmaq lazımdır. Seçilən metod şagirdlərin fikirlərinin, yaradıcı təxəyyülünün zənginləşməsinə və ümumi inkişafına kömək etməlidir. Metodların seçilməsi zamanı bir sıra şərtlər nəzərə alınmalıdır. Metod eyni zamanda şagirdlərin təfəkkürünün inkişaf etdirilməsinə və onlarda formalaşdırılacaq vərdişlərə uyğun olmalıdır. Bu zaman şagirdlərin müstəqilliyinin təmin olunması və materialın problemlilik dərəcəsi diqqət mərkəzində saxlanmalıdır.

İnteraktiv təlim üsulları o zaman müsbət nəticə verə bilər ki, şagirdlər üçün müasir tələblərə cavab verən öyrədici mühit yaradılsın. Öyrədici mühit üç komponentdən ibarətdir: 1. Sosıal-psixoloji; 2. Informasiya mehiti; 3. Əşyavi mühit.

Sosial-psixoloji mühit şagirdin digər insanlara və öz daxili aləmi ilə qarşılıqlı münasibətdir. Əməkdaşlıq, bir-birini başa düşmə və köməklk mühiti təlimin effektliyini artırır, təlim prosesinə emosionallıq verir.

İnformasiya mühitinin tərkibinə mənbələrin bütün kompleksləri daxildir. Adətən məlumat mənbələrindəən çox az istifadə edilir. Məlumat mənbələrindən yetərincə istifadə edilməməsi (bədii, ensklopedik, elmi-populyar ədəbiyyat, müşahidə, televiziya, radio, kino, mətbuat və s.) təlim prosesini kasıblaşdırır.

Əşyavi mühitin tərkibinə maddi-texniki resurslsrın tam kompleksi daxildir. Bunlar aşağıdakılardır: məktəb əşyavi mühiti: didaktik vəsaitlər, texniki avadanlıq və s.

- təbii mühit : canlı və cansız təbiət;

- yaşayış mühiti: ev, məişət, maddi mədəniyyət və s.

Məktəb əşyavi mühitindən daha geniş istifadə olunur. Məktəb binasının divarlarında uşaqların öyrənmə motivasiyasını stimullaşdıran stendlər uşaq əl işlərinin sərgisi, qəzetlər və s. asılır.

İnteraktiv təlim metod və texnikaları mahiyyətinə görə bir neçə cür qruplaşdırıla bilər. Bu qrupları aşağıdakı kimi təsnif etmək olar:

1. ″Beyin həmləsi" metodları: əqli hücum, BİBÖ, klaster, suallar, anlayışın çıxarılması, söz assosiasiyaları, insert.

2. Müzakirə metodları: çarpaz müzakirə, diskusiya, debatlar, müzakirə xəritələri, Sokrat üsulu, akvarium, dairəvi müzakirə.

3. Rollu oyunlar: rollu oyun, modelləşdirmə, səhnələşdirmə, işgüzar oyunlar.

4. Prezentasiya metodları: təqdimatlar, esse, ekspert qrupu.

5. Tədqiqatın aparılması metodları: problemin həlli, kublaşdırma, konkret hadisənin apaşdırılması,Venn diaqramı, lahiyələrin hazırlanması, sorğu vərəqləri və müsahibələr, qərarlar ağacı, ideyalar xalısı, refleksiya.

6. Təşkilati metodlar: ziqzaq, karusel.

Tədris zamanı ən çox istifadə olunan təlim üsulları bunlardır: BİBÖ, əqli hücum, şaxələndirmə, Venn diaqramı, diskusisiya, rollu oyun, müzakirə, debat, ziqzaq, karusel və s.

Bu üsulları nəzərdən keçirək:

Beyin həmləsi. Bu üsul əqli hücum da adlandırılır. Şagirdlərdə yeni mövzuya maraq oyatmaq, habelə onların nəyi yaxşı və pis bildiklərini aydınlaşdırmaq məqsədilə istifadə olunur. Hazırlanmış sual lövhədə yazılır, yaxud şifahi şəkildə şagirdlərin diqqətinə çatdırılır. Şagirdlər suallara əsasən fikirlərini bildirirlər. Aparıcı ideyalar yekunlaşdırılır, şagirdlər söylənmiş fikirləri təhlil edir, qiymətləndiririlir.

BİBÖ. Bilirəm, İstəyirəm bilim, Öyrəndim. BİBÖ aşağıdakı mərhələlər üzrə aparılır. Problem müəllim tərəfindən elan edilir. Müəllim lövhədə 3 sütundan ibarət cədvəl qurur və aşağıdakı bölmələri qeyd edir.

Şagirdlər problemlə bağlı bildiklərini söyləyir və cavablar birinci sütunda qeyd olunur. Həmin məsələ ilə bağlı bilmək istədikləri isə ikinci sütuna yazılır. Dərsin sonunda bir daha hımin cıdvələ diqqət yetirilir və mövzu ilə bağlı öyrəndikləri üçüncü sütünda qeyd edilir.

Auksion. Müəllim öyrənilən məsələni müəyyən edərək şagirdləri auksionun keçirilmə qaydaları haqqında təlimatlandırır. Öyrənilən əşya və ya hadisənin xüsusiyyətləri ardıcıl şəkildə adlandlrılır.

Hamı növbə ilə əşya və ya hadisə haqqında fikir söyləyir. Həb bir fikirdən sonra müəllim sayır.Bu zaman başqa şagird tez yeni bir filir söyləyə bilər. Oyunda axırıncı mümkün cavabı verən şagird "Auksion"u qzanır.

Klaster (şaxələndirmə) Müəllim tərəfindən lövhədə və ya iş vərəqlərində dairə çəkilir və onun mərkəzində yazılmış anlayışla bağlı söz ya ifadlər yazmaq tapşırılır. Mərkəzdə yazılmış anlayışdan başlayaraq hər növbəti söz onunla əlaqəli sözlə xətlərlə birləşdirilir. Vaxt bitənə qədər çox fikir yazmaq və onları əlaqələndirmək tövsiyə olunur. Vaxt bitəndən sonra alınan klaster müzakirə edilir və ümumiləşdirmə aparılır.

Suallar. Suallar dərs prosesində tədqiqatların səmərəli qurulmasını stimullaşdırır, şagirdlərin odrak fəallığının artırılmasında böyük rol oynayır. Sualların qoyuluşu tənqidi təffəkkürün inkişafına doğru yönəldilməli, məntiqi apdıcıllıq gözlənilməliŞ məzmun və mövzu ilə bilavasitə əlaqəli olmalıdır.

Mühazirə. Mühazirə məlumatın müəllimdən şagirdə ötürülmə üsuludur. Bu üsuldan mövzu ilə bağlı məzmunun zənginləşdirilməsi, tamamlanması məqsədilə istifadə etmək məqsədəuyğundur. Müəllim mühazirə prosesini verbal (suallar vermək) və ya vizual (şagirdlərin sifətlərinin ifadəsini və jestlərini müşahidə etmək) tənzimlənməlidir.

Anlayışın çıxarılması. Bu üsul oyun-tapmaca formasında keçirilir və şagirdlərdə yüksək fəallıq yaradır. Müəllim lövhədə kart asır, onun arxasında şagirdlərin tapacağı anlayışı yazır. Kartın yazı olmayan tərəfini şagirdlərə göstərir və gizlədilmiş anlayışın xüsusiyyətlərinə aid 2 və ya yönəldici söz sadalayır və ya yazır. Şagirdlər həmin xüsusiyyətlərə uyğun olaraq gizlədilmiş anlayışı taplrlar. Söz assosiasiyaları: Bu üsuldan istifadə edilərkən öyrəniləcək mövzuya aid əsas söz (soz birləşməsi) lövhəyə yazılır. Şagirdlər həmin sözlə bağlı ilk xatırladıqları fikirləri sözlədikcə müəllim lövhədə qeyd edir. Mövzu ilə bağlı olan sözlər deyilən fikirlərin arasından seçilir və əlaqələndirilir, onlardan anlayış və yaxud ideya çıxarılır.. ənilməsinə başlanır. Bu anlayış əsasında yeni materialın öyrənilməsinə başlanır. Bu üsul şifahi formada tətbiq edilə bilər.

Müzakirə. Müzakirə mövzu ətrafında ideya, məlumat, təəssürat, təhlil və təkliflərin qapşılıqlı mübadiləsidir. Onun əsas vəzifəsi problemi təhlil edərək həlli yolunu tapmaq, düzgün qərar qəbul etməkermək üçün imkan yaratmaqdır. Müzakirə dinləmək, təqdim etmək, sual vermək mədəniyyətini formalaşdırır, şagirdlərin məntiqi və tənqidi təfəkkürünü, şifahi nitqini inkişaf etdirir.

Müzakirə apararkən əvvəlcədən şagirdlərə müzakirə qaydaları xatırladılır. Mövzu aydın şəkildə ifadə olunur. Müzakirə prosesini inkişaf etdirən suallar vermək və şagirdlərin cavablarını nəzərdən keçirməklə müəllim müzakirəni tənzimləyir. Bu zaman cavabı "Bəli" və ya "xeyr"olan qapalı suallar vermək məqsədəuyğun hesab edilmir.

Müzakirədə mövzuya aid "Nə baş verdi? Nə üçün baş verdi? Başqa cür ola bilərdimi və necə? Siz bu vəziyyətdə nə edərdiniz? Sizin fikrinizcə həmin obraz nə hiss etdi? Siz bu şəraitdə nə hiss edərdiniz? Bu düz idimi? Nə üçün?" kimi suallardan istifadə olunur.

VENN diaqramı: Əşya və hadisələri müqayisə etmək, onların oxşar və fərqli cəhətlərini müəyyənləşdirmək üçün bu üsuldan istifadə olunur.

VENN dioqramından istifadə prosesi aşağıdakı mərhələlər üzrə aparılır.

1.Kəsişən iki dairədən ibarət sxem çəkilir. Müqayisə olunacaq əya və hadisələr müəyyənləşdirilir. Fərqli cəhətlər sağ və sol tərəfdə, oxşar cəhətlər kəsişmə dairəsində qeyd olunur.

2. Müqayisə nəticəsində fikirlər ümumiləşdirilir.

Karusel. Dərsdən əvvəl iri ağ kağızlarda mövzuya aid suallar yazılır. Müəllim qruplara müxtəlif sual yazılmış bir kağız verir.. Qrup üzvləri sualı oxuyur və bir cavab yazır. Kağızlar saat istiqamətində

qruplara ötürülür. “Karusel” kimi kağızlar bütün digər qruplardan keçərək axırda öz qrupuna qayıdır. Müəllim bu kağızları yazı lövhəsinə yapışdırır və bütün sinif cavabları müzakirə edir.

Dərs prosesində bu üsulların bir neçəsindən istifadə etmək olar.

Təlim prosesində bu qədər rəngarəng təlim metodlarının olması dərsi maraqlı etməklə yanaşı, eyni zamanda müxtəlif problemlərin yaranmasına səbəb olur. Bəs bu qədər metodların içindən dərsin məqsədinə üyğun metodları necə seçmək olar?

Metodlar hansı meyarlar əsasında seçilir? Bunun üçün müəllim hər bir metodun fərqli xüsusiyyətini, onun alqoritmini bilməlidir. O, əvvəlcədən şagirdlərdə hansı kompetensiyaları; bilik, bacarıq və vərdişləri inkişaf etdirmək istədiyini müəyyənləşdirməli və həmin məqsədlərə uyğun texnikaları seçməlidir. Yadda saxlamaq lazımdır ki, hər bir texnika müxtəlif məqsədlərə istiqamətləndirilə bilər.

Təlim texnikalarının tipindən və təlim metodlarından asılı olaraq dərs zamanı müıllim bir və ya bir nüçə texnikadan istifadə edə bilər. Təlim üsullarının seçilməsi zamanı digər meyarlar da nəzərə alınmalıdır. Bunlar aşağıdakılardlr:

1.Texnikanın həyata krçirilməsi üçün lazım olan vaxt;

2. Dərsin mövzusunun əhəmiyyətlilik dərəcəsi;

3.Dərsin mərhələləri (Dərsin hansı mərhələsində istifadə olunması)

Göstərilən təlim üsullarından başqa dərs prosesində müxtəlif iş formalarından da istifadə olunur. İş forması da fəal təlimin tərkibinə daxildir. Fəal təlim metodunun mahiyyəti hər hansı bir problemin tədqiq edilməsidir və bu zaman müxtəlif iş formalarından istifadə oluna bilər. Fəal dərsin təşkili zamanı dörd iş formasından istifadə olunur. İş formaları bunlardır:böyük qrupla iş, kiçik qrupla iş, cütlərlə iş və fərdi iş.

Qrup işi şagirdlərdə ünsiyyət qabiliyyətinin, sosial keyfiyyətlərinin kollektivdə işləmək bacarığı, bir-birinin fikrinə və mövqeyinə hörmət, bir-birini fəal dinləmə bacarığı), əməkdaşlıq vərdişlərinin, vaxtdan səmərəli istifadə bacarığının formalaşmasına kömək etməklə yanaşı onlarda fərdi xüsusiyyətlər, bacarıqlar, özünüidarə qabiliyyətini formalaşdırır.

Göründüyü kimi, metodika şagirdlərin təlim materiallarının mənimsəmə şəraitini təhlil edərək daha əlverişli sistem qurmaqda müəllimə kömək edir və müəllimin işinin səmərəli formalaşmasına təsir edir. Seçilən metod şagirdlərdə problem məsələləri həll etməyə tələbat oyatmalı, onlara fikirləşməyi öyrətməlidir. Bu zaman müəllimin şagirdlərin yaşını, bilik səviyyəsini, qavramasını, məktəbin maddi bazasını və özünün şəxsi hazırlığını da nəzərə almalıdır.

BLESSED IS YOUR FREEDOM, MY KHARIBULBUL ...

AZADLIĞIN MÜBARƏK, XARI BÜLBÜLÜM...

Bayramova Nubar Ismayil

dissertation

Guba branch of ADPU, Deputy Dean of the Pedagogical Faculty

https://orcid.org/0000-0001-6298-9617

ABSTRACT

Kharibulbul, which was a saga and legend in languages and historically considered an ornament of Shusha, has become a symbol of our victory in the 44-day glorious Motherland War and the spirit of our martyrs. From the beginning of the Karabakh war, Kharibulbul was a symbol of the struggle of our people, but after the occupation, it seemed to carry sorrow, grief and longing. Regardless of where it was developed, whether in the field of literature, culture or art, when we said Kharibulbul, it was clear that the conversation was about Karabakh. However, this memory brought with it a shirt and pain. The Kharibulbul, which has reminded us of sorrow and grief for the last thirty years, now gives us great joy as well as great pride. When we carry his image on our chests, we not only remember the martyrs who sacrificed their lives on this sacred path, but also carry the responsibility of these glorious days on our shoulders. Today, it is the sacred duty of every Azerbaijani to study, preserve, introduce to the whole world and leave a legacy to future generations.

Key words: Kharibulbul, flower, legend, Karabakh, martyr, festival, people.

XÜLASƏ

Dillərdə dastan, əfsanə olub, tarixən Şuşanın bəzəyi sayılan Xarıbülbül bu gün artıq 44 günlük şanlı Vətən müharibəmizdə qələbəmizin və şəhidlərimizin ruhunun simvoluna çevrilmişdir. Qarabağ müharibəsi başlandığı gündən Xarıbülbül xalqımızın mübarizə rəmzi idi, lakin işğaldan sonra özü ilə sanki kədəri, nisgili, həsrəti daşıyırdı. Harada işlənməyindən asılı olmayaraq, istər ədəbiyyat, istər mədəniyyət, istərsə də incəsənət sahəsində Xarıbülbül dedikdə söhbətin Qarabağdan getdiyi anlaşılırdı. Lakin bu xatırlama özü ilə sanki bir göynək, ağrı da gətirirdi. Son otuz il ərzində bizə kədər və nisgili xatırladan Xarı bülbül indi bizi sevinclə yanaşı böyük fəxarət hissi də bəxş edir. Onun şəklini sinəmizdə gəzdirən zaman təkcə bu müqəddəs yolda canlarını qurban verən şəhidləri xatırlamır, həm də bu şanlı günlərin məsuliyyətini də çiyinlərimizdə daşımış oluruq. Bu gün Xarı bülbülü, onun tarixini, Azərbaycan xalqı üçün mənəvi əhəmiyyətini araşdırmaq, qoruyub saxlamaq, bütün dünyaya tanıtmaq və gələcək nəsillərə miras qoymaq hər bir azərbaycanlının vətənə olan müqəddəs borcudur.

Açar sözlər: Xarıbülbül, çiçək, əfsanə, Qarabağ, şəhid, festival, xalq.

Bəs görəsən Xarı bülbül niyə xalqımız üçün bu qədər qiymətli və mənəvi əhəmiyyətlidir?

Çox təəsüflər olsun ki, bu simvolun elmi etimologiyası hələ yazılmamış, onun mənasını araşdırmaq üçün hələdə xalq etimologiyasına istinad edilir: "xarı" sözü -tikan, xar etmək kimi mənalarla eyniləşdirilir və müxtəlif hekayə və əfsanələrlə əlaqələndirilir. [https://axar.az/news/kult/636975.html]

Xarıbülbül gülünün təşkil etdiyi rənglər belə (qırmızı, sarı, yaşıl) unikallıq təşkil edir, sanki bir-birinə qarışır, eyni bir ləçəyin bir hissəsində olan ağ rəng digər bir hissəsində çəhrayıya çevrilir. Hətda günün işıqlılıq dərəcəsindən və saatından asılı olaraq göy qurşağı kimi al-əlvan rənglərə çalır. Bülbülü xatırladan hissənin sinəsində olan naxışar bu rəngarəngliyi daha da artırır. Sanki xalq arasında ta qədimdən istifadə olunan, toxunuşu müxtəlif bucaqlar arasında olduğundan işıq altında bərq vuran xara

parçasını xatırladır. Bəzən bədii əsərlərdə belə xara parçasının "*xarı bülbül parçası*" adlanması da bu oxşarlıqla əlaqələndirilir.

Xarıbülbülün biologiyasına nəzər yetirsək deməliyik ki o, quruluşuna görə qeyri-adidir. Azərbaycanda qədimdən Xarıbülbül adlanan bu bitki latınca ***ophrys caucasica*** və ya ***ophrys mammosa*** adlanır. Xarıbülbülə daha çox Cıdır düzündə, Topxana, Çaxmaq meşəsində, Üçmıx zirvəsində, dağ yamaclarında və çay kənarlarında rast gəlinir. Xarı bülbül çoxillik bitkidir, aprel, may, iyun aylarında çiçək açır, qoxusu yoxdur. Kökü kartof bitkisinin kökünü xatırladır. Çiçəklərinin açılması da özü kimi çox qəribədir. Hər gün aşağıdan yuxarı ta sonuncuya qədər bir çiçəyi açılır. Hamısı açılandan sonra yenə də aşağıdan yuxarıya sarı gündə biri solmağa başlayır.

Əslində çiçəyi unikal edən onun quruluşudur. Çiçəyin bülbül başını xatırladan hissəsində alt tərəfdən bir erkəkciyin iki tozcuğu yerləşir ki, səhləblərin başqa növlərində olduğu kimi bir dişicik və bir erkəkcik kip şəkildə birləşərək xüsusi quruluşlu sütun yaradır. Xarı bülbülün çiçəyində dişiciyin ağızcığı sanki tırtılın ağzına bənzəyir və çiçəkyanlığı dişi və erkəkcik sütunun üstündə yerləşir ki, nəticədə sütun altda qalır. Çiçək yanlığı sadə olub, ləçək şəklindədir və ikidodaqlı quruluşa vardır. Alt dodağı iridir və tırtılın bədəninə oxşayır. Üst dodaq isə "bülbülün" bədənindən və qanadlarından ibarətdir. "*Bülbülün*" bədəni sarımtıl olub qanadları sıx tük qatı ilə örtülmüşdür, açıq çəhrayı rəngə çalır. Çiçəyin ləçəklərdəki rənglərin bir-biri ilə olduqca ahəngdar olması isə çiçəyin gözəlliyini daha da artırır.

Çiçək çarpaz tozlanmaya uyğunlaşmışdır. Arı bu çiçəyə qonarkən öz bığcıqları ilə bülbülün başı altında bir cüt tozcuğa toxunur və ikinci çiçəyinə qonduqda o toz kütlələrini çiçəyin ağızcığı üzərinə buraxır. Çiçək qrupları adətən 5-6 çiçəkdən ibarət olur. Gövdəsi təxminən 20-40 sx olub, soğanaqları sapvari və xırda ellipsvaridir. Bitkinin yarpaqları gövdənin qaidəsində yerləşmiş, uzunluğu 5-10, eni 2-3 sm olun formaca uzunsov lansetvari və uzunsov ellipsvari formadadır. [Azərbaycan Respublikasının Qırmızı Kitabı. Nadir və nəsli kəsilməkdə olan bitki və göbələk növləri, II nəşr, Bakı-2013]

Xarıbülbüldən ürək-damar xəstəliklərinin müalicəsində, həmçinin dəmləmə hazırlanmasında dərman kimi istifadə olunur. [https://slowfood-covcheg.az/ru]

Çiçəyin yalnız Şuşada bitməsi faktı belə ona olan maraq və ehtiramı artırır. Dəfələrlə xarıbülbülü öz doğma vətənindən, torpağından kənarda əkməyə cəhd edilmişdir. Onun kökü ilə çıxarıb başqa yerdə əkmək üçün aparsalar da, heç bir nəticə əldə etməyiblər. Bəzi hallarda bitsə belə, çiçək açarkən üçüncü ləçəyin olmaması onun əvvəlki gözəlliyinin verməməsinə səbəb olmuşdur. Xarı bülbül öz gözəlliyi ilə ayağını Qarabağ torpağına basan hər kəsi məftun etdiyi kimi, onun Qarabağ torpağına belə vəfalı olması daha da onu çox sevdirmişdir.

Xarı bülbül təbiətin bir möcüzəsidir, sanki özündə bir sirr gizlətmişdir. Onu hərdən "tikanlı bülbül", ya da bəzən digər adı ilə Qafqaz Qaş Səhləbi də adlandırırlar. Ona bəzən məhəbbət çiçəyi də deyirlər. Öz gözəlliyi insanları hər zaman heyran edən xarıbülbül haqqında şifahi xalq ədəbiyyatlarında şoxlu rəvayətlər mövcuddur. Onların hər biri fərqli, hər biri özünəməxsus unikaldır.

Xarıbülbül haqqında əfsanələr qədim türk əsatirlərində də geniş yer ayrılmışdır. Xarıbülbül qədim türk əsatirlərində döyüşdə ağır yaralanmış bir əsgərin son ümidi olaraq sayılırmış.

Digər qədim bir türk əfsanəsində Oğuz xanın şəhid olan döyüşçünün son nəfəsində sinəsində gəzdirdiyi bülbülün ayağına qanlı köynəyindən cırıb sevgilisi Aybükə xanıma göndərdiyi namə ilə məşhurlaşan üzüntülü nakam sevgi hekayəsi kimi xatırlanır.[Azərbaycan qadın şairləri antologiyası", Bakı: "Avrasiya press", 2005. səh.28-29]

Yaxud, Qırğız yazıçısı Erlan Jurabekovun ***"Jarxı Bulbul"*** hekayəsində Xarıbülbül döyüşçülər və sərkərdələrin istifadə etdikləri əhliləşdirilmiş ev quşu kimi göstərilir.

Bir başqa rəvayətdə isə xarı bülbül çiçəyinin tarixi bülbüllə gözəl arasında sevgi hekayəsi ilə əlaqələndirilir. Əfsanəyə görə, bir vaxtlar quşlar, bitkilər və yer üzündəki bütün canlılar insanlar kimi hisslər və səmimi sevgi yaşaya bilərlərmiş. Bu əfsanədə bütün gecəni yabanı gülə öz hisslərini nəğmələr oxuyaraq keçirən bülbüldən danışılır. Bülbüllə qızılgülün sevgisi haqqında söz-söhbət o qədər böyüyür ki, yüz minlərlə başqa güllər onları heyranına çevrilir. Ancaq hər hansı digər nağıllarda olduğu kimi, bu hekayədə də bir mənfi qəhrəmanı olur. Onun adı isə Xar idi. Xoşbəxt sevgililəri görən Harı paxıllıq və nifrət o qədər bürüyür ki, onları ayırmağa qərar verir. Beləliklə, Xar gülə sevgi şeirlərini oxumağa

başlayır, lakin ondan rədd cavabı alanda qəzəblənərək gözəl çiçəyə hücum edir, onun ləşəklərini yeməyə başlıyır. Bülbül sevgilisini xilas etmək üçün qəmli nəğmələr oxuyur, bütün çiçəkləri köməyə çağırır. Rəvayətə görə, möcüzə yaradan güllərin duası onların hər üçünü - qızılgül, bülbül və Xarı gözəl bir çiçəyə çevririr və beləcə Xaribülbül yaranır.

Xarıbülbül haqqında dillərdə dolaşan rəvayətlərdən biri Qarabağın xanlıqlar dönəminə təsadüf edir. Rəvayətə görə Şuşa xanı Pənahəli xanın şeirə, musiqiyə böyük marağı olmuşdur. Bu səbəbdən də öz övladlarının təhsillinə, savadlı yetişməsinə xüsusi diqqət ayırmışdır. Təbii ki onun bu xüsusiyyəti sülaləsində də nəsildən-nəslə keçərək parlaq simaların yetişməsinə səbəb olmuşdur. Tarixdə iz qoymuş bu simalardan biri də Pənahəli xanın nəvəsi, İbrahim xanın qızı və Xurşidbanu Natəvanın bibisidir sayılan Ağabəyimdir. Ağabəyimin 1780-cı ildə Pənahabad şəhərində (Şuşanın qədim adı) anadan olması və gənc yaşlarından sözə, sənətə böyük həvəsi olduğu söylənilir. Bu qabiliyyət ona həm şeir yazmasına, ara-sıra züm-zümə etməsinə səbəb olarmuşdur.
İranın Qarabağ xanlığına hücumu zamanı çox itki hesabına olsa da, Ağa Məhəmməd şah Qacar Şuşanı alır. Bu məkanın istər ab-havası, istərsə də füsunkar gözəlliyi onu məftun edir. 1797-ci ildə Ağa Məhəmməd şah Qacar sui-qəsdlə öldürülməsi Qarabağ xanlığı ilə İran arasında ixtilafı daha da dərinləşdirir. Bundan sonra Ağa Məhəmməd şah Qacarın iki bacısı hakimiyyət başına gələn Fətəli şahdan qardaşının intiqamını almağı tələb etməyə başlayır və İbrahim xan yenidən qanlı müharibənin başlanmasının qarşısını almağa, məsələni sülh yolu ilə həll etməyə çalışır. Nəticədə o, Qarabağ xanlığı ilə İran arasında münasibətləri düzəltmək üçün qızı Ağabəyimi Fətəli şah ərə getməyə razı salır. Ağabəyim ömrünün sonuna kimi Vətən həsrəti çəkərək Tehranda yaşamağa məhkum olur. Lakin vətəni çöx sevən bir azərbaycanlı qızının Vətən həsrətinə qatlaşması minlərlə vətəndaş qanının tökülməsinin qarşısını alır. Ədəbiyyatlarda Ağabəyimin vətən nisgilinə həsr olunmuş çoxlu bayatılar da vardır:

Mən aşiqəm, qara bağ,

Qara salxım, qara bağ.

Tehran cənnətə dönsə,

Yaddan çıxmaz Qarabağ

Deyirlənə görə Qarabağdan Tehranda şaha zövcə olmuş Ağabəyimin gözü yaşlı olması Fətəli şahı çox narahat edərmiş və həyat yoldaşına Qarabağı xatırladan bir bağ salmaq qərarına gəlir. Bağbanlara elə bir bağ salmağı tapşırır ki, Şuşada bitən hər bir ota, ağaca, gülə o bağda rast gəlinə bilsin. Lakin Qarabağda bitən hər bir bitki "Xan bağı"nda bitsə də Xarı bülbül bitmir. Ağabəyimin ən çox sevdiyi gülün "Xarı bülbül"ün bitməməsi onun əksinə nisgilini daha da artırır və bu həsrətdən bu günə qədər məşhur, dillər əzbəri olan "Xarıbülül" mahnısını yaradır:

"Vətən bağı" al-əlvandır,
Yox içində xarı bülbül.
Nədən hər yerin əlvandır,
Köksün altı, sarı bülbül?!
Səhərin gülşən çağında,
Nə gəzirsən bağı, bülbül?!
Oxudun, ağlım apardın,
Oldun mənə yağı, bülbül!
Bülbül, sən nala çəkərsən,
Göz yaşın gilə tökərsən,
On bir ay cəfa çəkərsən,
Bir ayı da zarı, bülbül!
Bülbül, geyibsən al yaşıl,
Qolların boynumdan aşır.
Ağlamaq mənə yaraşır,
Qoy ağlayım, barı, bülbül!
Bülbül səni kim uçurtdu,
Kim daldan dala qaçırtdı,

Kim sənə badə içirtdi,
Kimlər oldu sarı, bülbül? [https://az.wikisource.org/w html]

Tarix boyu Qarabağa qonaq gələnlər hər zaman Xarı bülbülün seyrə çıxmışlar. Qarabağda bu gülün şöhrəti o qədər səs salmışdır ki, beynəlxalq səviyyədə onun şəninə konsertlər verilmiş, festivallar təşkil edilmişdir. 2020-ci ildə Prezident, Ali Baş Komandan İlham Əliyevin rəhbərliyi altında Azərbaycan Silahlı Qüvvələri qısa müddət torpaqları azad etdikdən sonra möhtərəm prezidentimiz "Xarıbülbül" Beynəlxalq Festivalını yenidən bərpa etdi. Məşhur xanəndə Seyid Şuşinskinin 100 illik yubileyi ilə əlaqədar 1989-cu ildən keçirilməyə başlanan bu festival Azərbaycan Prezidenti İlham Əliyevin 2021-ci il 7 may tarixli Sərəncamı ilə Şuşa şəhərini ölkənin Mədəniyyət paytaxtı elan edildikdən sonra yenidən keçirilməyə başladı. Və nəhayət, festival uzun fasilədən sonra 2021-ci il 12-13 mayında Cıdır düzündə baş tutdu Festivalda çıxış edən Cənab Prezident İlham Əliyev çıxışında qeyd etmişdi: "*Uzun fasilədən sonra Cıdır düzündə - hər birimiz üçün müqəddəs olan Şuşada "Xarıbülbül" festivalı keçirilir. Uzun fasilədən sonra bu il birinci dəfə keçirilən "Xarıbülbül" musiqi festivalı şəhidlərimizin əziz xatirəsinə həsr olunub. Şuşa Azərbaycan xalqının milli sərvətidir. Bu gün Ramazan bayramı ərəfəsində Şuşada yeni möhtəşəm məscidin təməli qoyuldu. Ermənilər tərəfindən qurudulmuş "Xan qızı Natəvan" bulağından bu gün su gəldi. Bütün bunlar böyük rəmzi məna daşıyır. Bax, bizim qayıdışımız budur. Biz Şuşanı quracağıq, bərpa edəcəyik, mənfur düşmən isə Şuşanı dağıdırdı. Amma yenə də deyirəm, biz Şuşamızı, Ağdamımızı, Cəbrayılımızı, Füzulimizi, Zəngilanımızı, Qubadlımızı, Laçınımızı, Kəlbəcərimizi qəlbimizdə yaşatmışdıq. Dağıdılmış məscidləri biz bərpa edəcəyik, amma o məscidlər işğal dövründə bizim qəlbimizdə ucaldılmışdı. İndi isə biz burada, Cıdır düzündə - hər bir azərbaycanlı üçün müqəddəs olan yerdə yığışmışıq və bu musiqi bayramını, bu birlik bayramını, bu qayıdış bayramını, bu ləyaqət bayramını qeyd edirik. Yaşasın Şuşa! Yaşasın Qarabağ! Yaşasın Azərbaycan!"*

Möhtəşəm qələbəmizdən sonra keçirilən ilk festivalda Azərbaycan torpaqlarında yaşayan bütün etniklərin və milli azlıqların nümayəndələri çıxış etmiş, Bülbül, Seyid Şuşinski, Xan Şuşinski, Rəşid Behbudov, Şövkət Ələkbərovanın ifaları ilə videolar nümayiş olunmuşdu. [Фестиваль "Харыбюльбюль" завершился выступлением всемирно известных азербайджанцев". Sputnik Азербайджан 2021] 2022-ci ildə keçirilən ikinci (*tarixi sayla isə beçinci*) Azərbaycanla dost olan əksər ölkələrin nümayəndələri yer aldılar. İstər 2021-ci ilin, istərsə də 2022-ci ilin mayında Heydər Əliyev Fondunun təşkilatçılığı ilə baş tutan bu festival bizdə böyük iftixar hissi yaradır. "Xarıbülbül" festivalının mədəni əhəmiyyəti ilə yanaşı, həm də böyük siyasi əhəmiyyətə də malikdir. Bu festival Azərbaycanın multikultural ölkə olduğunu bir daha bütün dünyaya sübut etdi.

Deyilənləri ümumiləşdirərək, deyə bilərik ki, 30 il əvvəl Vətən sevgisinə möhtac qalan xarıbülbül Şuşada olsa da Cıdır düzünə həsrət qaldı, yamaclarda gizləndi, vətəninə qovuşacağı günə inandı, heç zaman ümidini itirmədi, bir gün vətənin azad torpağında əsirlikdən qurtaracağı günləri saydı. Gözləri önündə öldürülən vətən övladlarının harayını dinləyərək bir gün qisas alınacağı günü, ilahi ədalətin qələbəsini ümidlə gözlədi. Onu həyatda tutan bu əbədi vətən sevgisi onu məhv olmağa, təbiətdən silinməyə qoymadı.

Düz 30 illik intizardan sonra vətəninə olan sevgisinə sadiq qalan gülün qulağına həsrətlə gözlədiyi doğma səslər, doğma nəfəslər gəlməyə başladı.

Yuxarıda deyilənlər bir əfsanə sayılsa da, əsatir olsa da Azərbaycan əsgəri öz qəhrəmanlığı ilə o əfsanəni yenidən yaratdı. Qarabağ bu savaşda gül, Azərbaycan əsgəri onun xilaskar bülbülünə çevrildi. Heç bir qüvvə Azərbaycan əsgərinin Qarabağa, Şuşaya gedən yolunu bağlaya bilmədi. Bizim həqiqətimizdə də əfsanələrdə olduğu kimi bülbüllərin qanı axdı, bülbüllərimiz şəhidlərimiz oldu. Lakin ö müqəddəs gülümüzü, Qarabağımızı, Şuşamızı bu dəfə əyilməyə qoymadı. Azərbaycan əsgəri təkcə Xarı bülbülü azad etmədi, həm də tapdaqdan baş üstünə qaldıra bildi.

Oğuz xanının Alpaqutunu öz sevgilisinə, Ağabəyim xatunu Qarabağına, bizi isə Şuşamıza qovuşdurdu və nəhayət, Xarı Bülbülün əzəməti, məğrurluğu, haqsızlığa qarşı əyilməz duruşu onu əfsanədən qələbə simvoluna çevirə bildi. Xarı bülbülün Şuşaya sədaqəti, başqa yerlərdə bitməməsi onu qayıdışın, sədaqətin, qovuşmağın rəmzinə çeviridi.

İndi daha əminliklə deyirik, dur ayağa xarı bülbül, biz səni görməyə, ətrini duymağa, sarılmağa gəlmişik. Şanlı Azərbaycan əsgəri sənə mərdliyini, mənliyini, azadlığını, sevgini qaytardı, ***Azadlığın mübarək, Xarı bülbülüm...***

İSTİFADƏ OLUNMUŞ ƏDƏBİYYAT

1.https://axar.az/news/kult/636975.html.

2. Azərbaycan Respublikasının Qırmızı Kitabı. Nadir və nəsli kəsilməkdə olan bitki və göbələk növləri, II nəşr, Bakı-2013.

3. https://slowfood-covcheg.az/ru.

3. Azərbaycan qadın şairləri antologiyası", Bakı: "Avrasiya press", 2005. səh.28-29.

4. https://az.wikisource.org/w html.

5. Фестиваль "Хары-бюльбюль" завершился выступлением всемирно известных азербайджанцев". Sputnik Азербайджан 2021.

ƏRƏB DİLÇİLİYİNDƏ ƏRƏBLƏRLƏ YANAŞI QEYRİ-ƏRƏBLƏRİN ROLU

THE ROLE OF NON-ARABICS ALONG WITH THE ARABICS IN ARABIC LANGUAGE

Zaur Hacıyev

AMEA Məhəmməd Füzuli adına Əlyazmalar İnstitutu, böyük elmi işçi

XÜLASƏ

Məlum olduğu kimi, ərəb dilinin ilk tədqiqatçıları ərəblərin özləri və orta əsr Müsəlman Şərqi ölkələrinin nümayəndələri olmuşlar. Artıq VII əsrdə Bəsrə, Kufə, daha sonralar isə Əndəlis, Bağdad və Misir qrammatika məktəblərinin ətrafında toplanmış dilçilər ərəb dilini böyük səylə öyrənir, müxtəlif məsələlər barəsində ciddi elmi mübahisələr edirdilər.

Ərəb qrammatika elminin yaranmasında, formalaşmasında və inkişafında ərəblərlə yanaşı, qeyri-ərəblərin də rolu danılmazdır. Ərəb olmayan dilçi alimlər ərəb dilçiliyinə dair çoxsaylı əsərlərin müəllifidirlər. Məşhur dilçi alimlərin adları ilə ətraflı tanış olduqda aydın olur ki, ərəb dilinin elmi qrammatikası-sərf, nəhvə dair əsərlərin müəllifi olmuş bir çox alimlər əsl ərəblər deyil, qeyri-ərəblər, məsələn. farslar, türklər və başqaları olmuşlar. Hətta ərəb alimlərinin hamısı yekdilliklə fars əsilli olan Sibaveyhini ərəb qrammatikasının əsasını qoyanlardan biri kimi qəbul edirlər.

Ərəb dilçiliyi Çin, hind və yunan dilçiliyindən sonra yaranmasına baxmayaraq, onlara nisbətən sürətlə və qüvvətlə inkişaf etdi.

Ərəb dilçiliyinin formalaşmasında qeyri-ərəblərin rolu məsələsini akademik V.Məmmədəliyev də inkar etmir. Prof. Ə.Rəcəbova gəlincə, ərəb dilçiliyinin yunan və hind qrammatika məktəblərindən qismən faydalanmasını inkar etmir. Ərəb dilçiliyi hind və yunan dilçiliyindən sonra yarandığına görə, onun sırf bu elmlərin təsiri nəticəsində yaranması fikrini də qəbul edə bilmərik. Zənnimizcə, ərəb alimləri özlərindən əvvəl yaranmış dünya dilçilik məktəblərinin imkanlarından səmərəli istifadə etmiş, metodik cəhətdən onlara əsaslanmışlar, desək daha məntiqli və doğru yanaşma olardı.

Açar sözlər: dilçilik, ərəb dili, qrammatika, sərf, nəhv

ABSTRACT

As it is known, the first researchers of the Arabic language were the Arabs themselves and the representatives of the medieval Muslim Eastern countries. As early as the 7th century, linguists concentrated around the grammar schools of Basra, Kufa and later Andalusia, Baghdad and Egypt, studied Arabic with great diligence and engaged in serious scientific debates on various issues.

The role of non-Arabs as well as Arabs in the creation, formation and development of Arabic grammar is undeniable. Non-Arabic linguists are the authors of numerous works on Arabic linguistics. A closer look at the names of famous linguists reveals that many of the scholars who authored works on the scientific grammar of the Arabic language – sarf,nahv - were not real Arabs, but non-Arabs, such as Persians, Turks, and others. Even all Arabic scholars unanimously accept Sibaveihi, who was of Persian descent, as one of the founders of Arabic grammar.

Although Arabic linguistics originated after Chinese, Indian and Greek linguistics, it developed relatively rapidly and vigorously.

Academician V. Mammadaliyev does not deny the role of non-Arabs in the formation of Arabic linguistics. As for prof. A. Rajabov, he does not deny that Arabic linguistics partially benefits from Greek and Indian grammar schools. Since Arabic linguistics originated after Indian and Greek linguistics, we cannot accept the idea that it came into being only as a result of the influence of these sciences. In our opinion, it would be a more logical and correct approach to say that Arab scholars

have effectively used the opportunities of the world linguistic schools that preceded them and are methodologically based on them.

Keywords: linguistics, Arabic, grammar, sarf, nahv

GİRİŞ

Ərəb dili leksik fond, qrammatika və ədəbiyyat etibarilə dünya dilləri içərisində ən zəngin dillərdən hesab olunur. Ərəb dilçiliyinin formalaşmasında ərəblərlə yanaşı, ərəb olmayan xalqların nümayəndələrinin də rolunu danmaq olmaz. Onların ərəb dilçiliyinə dair yazdığı əsərlər bu gün də öz aktuallığını qoruyub saxlayır. Akademik V.Məmmədəliyev yazır: "Məlum olduğu kimi, ərəb dilinin ilk tədqiqatçıları ərəblərin özləri və orta əsr müsəlman Şərqi ölkələrinin nümayəndələri olmuşlar". Eyni fikri başqa ərəbşünas alimlər də söyləyərək bildirmişlər ki, islam dünyasının bütün guşələrindən olan alimlərin apardıqları tədqiqatlar sayəsində ərəb dilçiliyi öz dövrünə görə yüksək səviyyəyə qalxmışdır.

Dilçilik böyük tarixi olan elmlərdən biri kimi, ən qədim zamanlardan başlayaraq dövrümüzə qədər uzunmüddətli inkişaf yolu keçmişdir. Humanitar elmlər içərisində, görünür, bu sahənin yaşıdı yoxdur. Dilçilik elminin tarixini, adətən, qədim hindlilərdən başlayırlar. Bunun səbəbi əsas etibarilə ondan ibarətdir ki, dilin spesifikasının mahiyyətini təşkil edən qrammatik quruluşu ilk dəfə hindlilər tədqiq etmişlər (2, s.7).

Ərəb dili leksik fond, qrammatika və ədəbiyyat etibarilə dünyanın diri dilləri içərisində ən zəngin dillərdən biridir. Dünya dilçiliyinin ayrılmaz hissəsi olan ərəb dilçiliyi öz inkişafında uzunmüddətli, daha doğrusu, 1400 illik tarixi bir yol keçmişdir. Olduqca qədim tarixi olan ərəb dili İslam dövrünə qədər yazılı qrammatikaya malik olmamışdır. Qrammatiklərin fikrincə, orada öz gözəlliyi, zənginliyi, məntiqliyi, yığcamlığı və digər dillərlə müqayisədə öz üstünlüyü ilə fərqlənən yeganə ərəb dili (كلام العرب) – bədəvilərin dili (*langue de Bedouins*) mövcud olmuşdur. Cahiliyyə dönəmində bədəvi qəbilələri bu dildən gündəlik kommunikasiya vasitəsi kimi, həmçinin poeziyada və qəbilələrarası münasibətlərdə istifadə etmişdilər. Köçəri ərəblərin dilində Hz. Peyğəmbərə vəhy olunan ilahi risalə ərəb kəlamında öz dürüst ifadəsini tapmışdır (1, s.9).

Ərəbistan yarımadasında İslam dini baş verdikdən sonra İslam adı altında bütün ərəb qəbilələrini birləşdirən islam hökuməti qeyri-ərəb qonşu xalqıları da özünə tabe edərək, onları islam dinini qəbul etməyə məcbur etmişdir. İslam hökuməti ərəb olmayan qeyri-ərəb xalqlarını da ərəb hakimiyyəti altına gətirməklə bərabər onlardan ərəb dilini öyrənməyə, o dildə danışıb, yazmağı da tələb etmişdir. Ərəb qəbilələri arasında müxtəlif ləhcələrin mövcudluğu, müsəlman ordusunun tərkibində bir çox qəbilələrin nümayəndələri iştirak etdiyindən işğal olunmuş ərazilərdə müxtəlif ləhcələrin yayılması, yerli xalq-qeyri-ərəblər tərəfindən bu ləhcələrə yeni çalarların vurulması, ən başlıcası isə Quranın dili ilə danışıq dili olan ləhcələr arasında ciddi fərqlərin mövcudluğu ərəb qrammatikasının sistemləşdirilməsini, ərəb nəhvinin sərhədlərinin (qayda-qanunlarının) müəyyənləşdirilməsini tələb edirdi. Elə buna görə də işğal olunmuş ərazilərdə məktəb və mədrəsələrin açılması, ərəb dilinin tədrisi geniş vüsət alır, məscidlərdə keçirilən məşğələlərdə Quranın qiraəti, ərəb dilinin qayda-qanunları öyrədilirdi **(**4, s.105).

İslam hökumətinə tabe olan böyük sahəli ölkələrdə ərəblərin "əcəm" adlandırdıqları qeyri-ərəb xalqları üçün şübhəsiz ki, düzgün ərəb dilində danışıb oxumaq çətin olmuş, onlar dildə yazıb danışmaqda bir çox səhvlərə yol vermişlər. Ancaq bu vəziyyəti təkcə əcəmlərə aid etmək olmaz. Nəinki əcəmlər, hətta ticarət və həyatın digər sahələrində əcəmlərlə əlaqədə olan və yaxud qohumluq münasibətləri nəticəsində əcəmlərlə qaynayıb-qarışmış ərəblər belə ərəb dili danışıq normalarını pozmağa başlamışlar. Bu isə, dillərinin təmizliyində təəssüblü olan ərəblər üçün dözülməz idi. Bundan əlavə müsəlmanların müqəddəs kitabı Quranı oxumaqda səhvə yol vermək bağışlanmaz günah hesab edilir. Məhz buna görə də ərəb dilinin təmizliyini qorumaq və Quranı oxumaqda ərəb dili normalarını pozmanın qabağını almaq məqsədilə dil qaydalarının yazılı şəkildə qeyd edilməsi zəruriyyəti irəli gəlmiş, bununla ərəb dilçiliyinin ilk təməl daşı qoyulmuşdur. Ərəb dilçiliyi qısa zaman kəsiyində geniş inkişaf edərək bir çox qollara bölünmüş və ərəb dilçiliyinin müxtəlif sahələri meydana çıxmışdır.

Ənənəvi dilçiliyin tarixi çox qədim dövrlərə gedib çıxır. Ənənəvi qrammatikanın formalaşmasında yunan dilçiliyinin də böyük rolu olmuşdur. İlk dəfə olaraq Aristotel sözlərin düzgün izahını vermiş,

onları siniflərə ayırmışdı. Aristotel sözlərin üç sinfini ayırırdı: adlar, fellər və bağlayıcılar. Bağlayıcılara ədatlar, nidalar, önlüklər və əvəzliklər, hallanma qrammatik anlayışına hallanma, təsriflənmə, xüsusən zamana görə təsriflənmə daxil edilirdi. Aristotel sözləri cinslərə görə fərqləndirirdi: kişi cinsi, qadın cinsi və onların arasında mövcud olan cins.

Ərəb dilçiliyi Çin, hind və yunan dilçiliyindən sonra yaranmasına baxmayaraq, onlara nisbətən sürətlə və qüvvətlə inkişaf etdi. Ərəb dilçiliyinin inkişafına bir neçə faktor kömək edirdi. Onlardan:

1) İslam dinin meydana gəlməsi. İslam ehkamına görə həm bu, həm də axirət dünyası üçün yeganə qabil dil ərəb dilidir. Ona görə də hamı ərəbcə öyrənib danışmalıdır.

2) Ərəb alimləri özlərindən əvvəl yaranmış dünya dilçilik məktəbləri ilə tanış idilər. Buna görədə həm onlar səmərəli cəhətlərdən istifadə edir, həm də metodik cəhətdən onlara əsaslanırdılar.

3) İslam dini ərəb aləminə yeni mədəniyyət gətirdiyi kimi, elmin bütün sahələrinin inkişafı üçün şərait yaratmışdı. Buna görə də ərəb alimləri Aristotelin "Poetika"sını və hindlilərin "Kəlilə və Dimnə" əsərini ərəbcəyə çevirib Şərqdə tərcümənin əsasını qoydular.

4) Ərəb dilçiliyi əvvəllər iki məktəbdən (Kufə və Bəsrə) ibarət idi. Bu məktəblər sonralar birləşərək vahid Bağdad dilçilik məktəbini yaratdı ki, bu da ərəb dilçiliyinin inkişafına öz təsirini göstərməyə bilməzdi.

5) Ərəb olmayan alimlərin də öz tədqiqatını ərəbcə aparması ərəb dilçiliyinin inkişafında böyük rol oynayırdı. Bu problem, müəyyən mənada təəssübkeşlik duyğuları da doğurmuşdu.

Ərəb qrammatika elminin yaranmasında, formalaşmasında və inkişafında ərəblərlə yanaşı, qeyri-ərəblərin də rolu danılmazdır. Ərəb olmayan dilçi alimlər ərəb dilçiliyinə dair çoxsaylı əsərlərin müəllifidirlər. Məşhur dilçi alimlərin adları ilə ətraflı tanış olduqda aydın olur ki, ərəb dilinin elmi qrammatikası-sərf, nəhvə dair əsərlərin müəllifi olmuş bir çox alimlər əsl ərəblər deyil, qeyri-ərəblər, məsələn. farslar, türklər və başqaları olmuşlar. Hətta ərəb alimlərinin hamısı yekdilliklə fars əsilli olan Sibaveyhini ərəb qrammatikasının əsasını qoyanlardan biri kimi qəbul edirlər.

Ərəb dilçiliyi həm hind, həm də yunan dilçiliyindən faydalanmışdır. Hind təsiri İran, yunan təsiri isə Suriya vasitəsilə gəlirdi. Buna görə də bəzi tədqiqatçılar bəzən ərəb dilçiliyinin orijinal mahiyyətini inkar edirlər. Dilçi alim professor Ə.Rəcəbovun fikrincə, bu fikir doğru deyildir. Ərəblər özlərini ən yaxşı istedadlı şagird kimi göstərmişlər. Onlar həm hind, həm də yunan dilçiliyinin rasional toxumlarını mənimsəmiş və özünəməxsus spesifik xüsusiyyətləri olan dilçilik məktəbi yaratmışlar (5, s.34).

Yunan dilçiliyinə iki əsas məktəb daxil idi. Yunan dilçiliyi və İsgəndəriyyə qrammatikası. Yunan dilçilyi Yunanıstanın özündə yaranmışdır. Bu məktəblərin tədqiqat üsulları arasında fərqlər var idi. Yunan dilçilik məktəbində dilçiliyin nəzəri məsələləri, həmçinin ritorika və üslubiyyat kimi sahələr öyrənilirdi. Bu məktəbin nümayəndələri Demokrit, Platon, Aristotel kimi böyük filosoflar olmuşlar. İsgəndəriyyə qrammatikası məktəbində isə dilçiliyin praktik məsələlərinin öyrənilməsi üstünlük təşkil edirdi. Normativ qrammatikanın tədqiqinə və təhlilinə üstünlük verilirdi. Bu məktəbin nümayəndələri filosoflar deyil, dilçilər olmuşlar.

"Qədim hind qrammatikasından bir neçə əsr sonra təşəkkül tapan qədim yunan qrammatikasının öz "sələf"indən xəbərinin olub-olmaması mübahisəlidir. Lakin o, mübahisəsizdir ki, yunan-Roma qrammatikaçıları XVIII əsrin sonlarında ondan xəbər tutduqda o qədər təsirlənmişlər ki, ənənəvi qrammatikanın "arxetip"i hesab etməkdən çəkinməmişlər. Və odur ki, XIX əsrin əvvəllərindən etibarən "ənənəvi qrammatika" dedikdə, Orta əsrlər boyu qəbul edildiyindən fərqli olaraq, yunan-Roma ilə yanaşı, hind ənənəsi də nəzərdə tutulur.

Həqiqətən də, VII-X əsrlər arasında "ərəb mədəniyyəti" adı altında yaranan böyük bir mədəniyyətin başında ilk növbədə, demək olar ki, bütün dünya elmindən, xüsusilə də yunan elmindən ərəb dilinə edilən tərcümələr dururdu. Bu faktı ərəb mədəniyyəti tarixi ilə məşğul olan, demək olar ki, bütün böyük şərqşünaslar, o cümlədən akademik Vasim Məmmədəliyevə qədər hamı qeyd etmişdir. Bu mənada, biz təkcə akademik Vasim Məmmədəliyevin fikirlərinə söykənməklə bu faktı bir daha xatırlatmaq istəyirik. "Xilafətdə yunan və hind elmi ədəbiyyatının ərəb dilinə tərcüməsinə böyük fikir verilirdi. Əsası islamiyyətdən əvvəl Suriyadakı monastırlarda xristianlığın təbliğini daha da genişləndirmək məqsədilə

qoyulan bu tərcümə işi ərəb zəminində daha güclənmişdi. Suriya dilinin ərəb dili ilə qohumluğu elmi tərcümə prosesini sürətləndirir, ellin mədəniyyətinin Suriya dilinə hələ IV-V əsrlərdə tərcümə edilmiş nümunələrini qısa bir müddət ərzində ərəblərə öz ana dilində çatdırmağa imkan yaradırdı...

Akademik V.Məmmədəliyev yazır: "Məlum olduğu kimi, ərəb dilinin ilk tədqiqatçıları ərəblərin özləri və orta əsr müsəlman Şərqi ölkələrinin nümayəndələri olmuşlar". Eyni fikri başqa ərəbşünas alimlər də söyləyərək bildirmişlər ki, islam dünyasının bütün guşələrindən olan alimlərin apardıqları tədqiqatlar sayəsində ərəb dilçiliyi öz dövrünə görə yüksək səviyyəyə qalxmışdır.

Ərəb dili söz ehtiyatının genişliyi cəhətdən dünyanın zəngin dillərindən hesab edilir. Burada sinonim sözlər çox geniş təmsil olunduğundan eyni məfhum çox vaxt ən azı bir neçə söz, bəzən isə onlarla, hətta yüzlərlə sözlə ifadə edilə bilər. Bununla belə, ərəb dilində bəzən bir-birindən ciddi şəkildə fərqlənən mənaları olan polisemantik (çoxmənalı) sözlər də az deyildir. Hətta tərkibində zidd mənalar olan sözlərə də çox təsadüf edilir. Sözlərin böyük əksəriyyəti əsl ərəb mənşəli olduğu halda, alınma sözlər cüzi bir miqdar təşkil edir. Ümumiyyətlə, ərəb dilçiliyinin təşəkkülü barəsində elm tarixində aşağıdakı üç əsas fikir mövcuddur:

1. Ərəb dilçiliyi xaricdən təsir görməmiş, yerli zəmin əsasında yetişib inkişaf etmiş müstəqil bir dildir,

2. Ərəb qrammatikası qədim yunan elminin, xüsusilə Aristotel məntiqinin təsiri altında yaranıb inkişaf etmişdir,

3. Ərəb dilçiliyi qədim hind qrammatika elminin təsiri nəticəsində təşəkkül tapıb formalaşmışdır (7, s.413)

Qurani-Kərim istər ərəblər**,** istərsə də ərəb olmayan xalqlar tərəfindən öyrənilərkən müəyyən çətinliklər ortaya çıxmışdır. Dövrün müsəlman alimləri bədəvi qəbilələrin içinə gedərək, onlarla uzunmüddətli ünsiyyət yaradır və müxtəlif dövrlərin ədəbi nümunələrini bədəvi ərəblərdən toplamaqla ayrı-ayrı sözlərin arxaik forma və mənasını öz dövrlərinin ədəbi dilinə gətirməyə çalışır, Qurani-Kərimin təfsirində bundan geniş istifadə edirdilər.

Məlum olduğu kimi, ərəb dilinin ilk tədqiqatçıları ərəblərin özləri və orta əsr müsəlman şərqi ölkələrinin nümayəndələri olmuşlar. Artıq VII əsrdə Bəsrə, Kufə, daha sonralar isə Əndəlis, Bağdad və Misir qrammatika məktəblərinin ətrafına toplanmış dilçilər ərəb dilini böyük bir səylə öyrənir, müxtəlif məsələlər barəsində ciddi elmi mübahisələr edirdilər. Orta əsr qrammatiklərindən İsa bin Ömər, Xəlil ibn Əhməd, Sibəveyhi, əl-Kisai, əl-Əsməi, əl-Mübərrəd, İbn-Sikkit, əz-Zəccaci, əl-Farisi, Əbu-Həyyan, ibn-Cinni, əl-Cürcani, əl-Ənbari, əz-Zəməxşəri, ibn-Malik, ibn-Hişam, əs-Suyuti və başqalarının ərəb dilinin tədqiqində rolu böyük olmuşdur" (3, s.7). Gördüyümüz kimi, həqiqətən də istər ilkin dövrlərdə və istərsə də sonrakı əsrlərdə ərəb dilinin öyrənilməsində, ərəb dilçiliyinin inkişafında ərəblərin özləri ilə yanaşı, fars, yunan, ispan, türk xalqlarına mənsub olan alimlər də yaxından iştirak etmiş, ümumiyyətlə, mədəniyyətin ayrılmaz tərkib hissələrindən biri olan dilçiliyin, xüsusilə də ərəb mədəniyyətinin, müsəlman mədəniyyətinin ayrılmaz tərkib hissələrindən sayılan ərəb dilçiliyinin inkişafında yaxından iştirak etmişlər.

Ərəb olmayan alimlər içərisində ərəb və qeyri-ərəblərin müəllimi ləqəbini almış Zəməxşəri dilçilik fəaliyyəti ilə orta əsr alimlərini geridə qoymuş və ərəb dilçiliyinə yeni bir sistem gətirmişdir. O, ərəb dilinin qrammatikasının, lüğətçiliyinin, üslubunun, ritorikasının və poeziyanın müəllifi hesab olunur. Zəməxşərinin "Əl-ənmuzəc" və "Əl-mufəssəl" adlı əsərləri ərəb dilinin qrammatikasına həsr olunmuşdur..

Ərəb dilçilik elminə və poeziyasına böyük töhfə vermiş azərbaycanlı alim Xətib Təbrizini (1030-1109) xüsusi qeyd etmək lazımdır. Xətib Təbrizinin "Əllamə fin-nəhv" (Qrammatikanın qısa icmalı), "Əl-müqəddəmə fin-nəhv" (Qrammatikaya giriş), "Təhzib islah əl-məntiq" ("İslah əl-məntiq"in düzəlişi) kimi əsərləri dilçilik nəzəriyyəsinə həsr olunmuş əhəmiyyətli əsərlərdəndir.

Qeyd etmək lazımdır ki, nəhv elminin yaranması və təşəkkülündə İran alimlərinin rolu danılmazdır. İbn Xəldunun dedikləri bunu bir daha sübut edir. O yazır: "İslam maarifinin ən görkəmli nümayəndələri və İslam dünyasının ən məşhur alimlərinin əksər hissəsi qeyri-ərəblər, xüsusilə iranlılar olmuşlar" (8, s..105).

İranlı alimlər hər üç məktəbin – Bəsrə, Kufə və Bağdad məktəblərinin öndər və qabaqcılları sırasında yer alırdılar. Bəsrə məktəbinə Sibəveyhi rəhbərlik edirdi. Ustadı Xəlil ibn Əhməd kimi görkəmli şəxslərin ondan öncə nəhv elmi sahəsində fəaliyyət göstərməsinə baxmayaraq, nəhv elmini sistemli şəkildə təsnif edərək, müəyyən və müstəqil fəsillər əsasında tərtib edib, xüsusi bir kitab halına salan ilk alim də Sibəveyhi olmuşdur.

Qrammatistlər ərəb ənənəvi qrammatikalarında nitq hissələrinin təsnifində çox vaxt Aristotelin bölgüsünü əsas götürmüş və sözləri üç nitq hissəsinə ayırmışlar: 1. İsim; 2. Feil; 3. Köməkçi sözlər (6, s.48). İsim dedikdə, təkcə isim deyil, feildən başqa digər nitq hissələri-ad qruplu sözlər nəzərdə tutulur. Köməkçi sözlərdə isə huruf, bəzən də ədat adı altında köməkçi nitq hissələri öyrənilir.

NƏTİCƏ

Beləliklə cəsarətlə deyə bilərik ki, ərəb olmayan xalqların nümayəndələrinin də ərəb dilçiliyinin yaranmasında rolu heç də ərəblərin özlərindən az olmamışdır. Ərəb dilçiliyinin inkişafında əslən fars, türk və digər xalqlara mənsub olan alimlər də yaxından iştirak etmiş, ümumiyyətlə, mədəniyyətin ayrılmaz tərkib hissələrindən biri olan dilçiliyin, xüsusilə də ərəb mədəniyyətinin, müsəlman mədəniyyətinin ayrılmaz tərkib hissələrindən sayılan ərəb dilçiliyinin inkişafında yaxından iştirak etmişlər. İstər nəhv, istər sərf, istərsə də ədəbiyyata dair yazılan əsərlər ərəb dilçiliyində və ərəb ədəbiyyatında öz çəkisini saxlamaqdadır. Ərəb qrammatika məktəblərində təmsil olunan bu görkəmli dilçilər ərəblərlə yanaşı ərəb dilçiliyinin inkişafına birgə xidmət etmişlər. Bəsrə, Kufə, Bağdad və digər qrammatika məktəblərinin öndər və qabaqcılları sırasında yer alırdılar.

ƏDƏBİYYAT

1. Abbasov İ.Ə. Ərəb dilində sintaktik kateqoriyalar və bəlağət. Bakı, "Bakı Çap Evi", 2011, 440 s.

2. Axundov A. Ümumi dilçilik. Dilçiliyin tarixi, nəzəriyyəsi və metodları. Bakı, "Şərq-Qərb", 2006, 280 səh.

3. Məmmədəliyev V.M. Ərəb dilçiliyi. Bakı, Maarif, 1985. 287 səh.

4. Mirzəyeva S. Ərəb dilçilik tarixinin öyrənilməsində mövcud olan müxtəlif istiqamətlər. Bakı Dövlət Universiteti İlahiyyat Fakültəsinin Elmi Məcmuəsi, №13, 2010, s.105-113, 463 səh.

5. Rəcəbov Ə.Ə. Dilçilik tarixi. Bakı, Maarif, 1987, 538 səh.

6. Sadıqova C., Ələsgərova T. Fars dilini tədqiq edə Azərbaycan alimləri. Bakı, Elm, 1990, 225 s.

7. Tanrıverdiyeva Ş. Ərəb dilində sözlər və mənaları arasında əlaqə. Azərbaycan xalqının Ümummilli Lideri Heydər Əliyevin anadan olmasının 91-ci ildönümünə həsr olunmuş Gənc Tədqiqatçıların II Belnəlxalq Elmi Konfransının materialları. səh.413, Qafqaz Universiteti nəşriyyatı, 2014. 700 s.

8. Teymuri M.H. Nəhv-qrammatika elminin tarixi. Filologiya məsələləri. səh.1001-107. Bakı, "Nurlan", 2009, №6.

QARABAĞIN BÜLBÜLÜ –MURTUZA MƏŞƏDİ RZA oğlu MƏMMƏDOV (BÜLBÜL)

Arzu Məmmədxanlı

filologiya üzrə fəlsəfə doktoru

AMEA Rəyasət Heyəti

XÜLASƏ

Azərbaycan musiqi mədəniyyətinin görkəmli nümayəndəsi, SSRİ Xalq artisti Murtuza Məşədi Rza oğlu Məmmədov (Bülbül) xalq xanəndəliyindən opera müğənniliyinə kimi geniş yaradıcılıq yolu keçmiş, dünya vokal sənətinin əvəzolunmaz fenomeninə çevrilmiş nadir simalardan biridir. Nəhəng diapazonlu səsə, nadir istedada malik əvəzsiz ifaçı milli musiqi incəsənətimizdəki bütün mütərəqqi yeniliklərin ilk təşəbbüsçüsü və yorulmaz təbliğatçısı olmuşdur. O, Azərbaycan milli muğam oxuma sənətinin ən yaxşı üsullarını rus və Avropa vokal məktəbi ilə birləşdirərək Azərbaycanda yeni oxuma məktəbi yaratmışdır. Bu məktəb nəinki Azərbaycanda, keçmiş SSRİ məkanında, həmçinin Yaxın və Orta Şərq ölkələrində də vokal sənəti sahəsində öz mühüm təsirini göstərmişdir.

Tanınmış müğənninin əsas üstünlüyü onun sənətinin milliliyindədir. Milli ruh, yurda, vətənə, milli folklor və musiqi ənənələrinə bağlılıq Bülbülün çoxşaxəli yaradıcılığının təməlini təşkil etmişdir. O, Azərbaycan dilindən düzgün istifadə olunmasına mühüm əhəmiyyət verərək xarici ölkə bəstəkarlarının ariyaları və romanslarını, Azərbaycan bəstəkarlarının vokal əsərlərini, muğamları, xalq mahnıları və təsnifləri özünəməxsus üslubda, aydın tələffüzlə ifa etmişdir.

Bülbülün musiqi folklorumuzun toplanması, sistemləşdirilməsi, nota köçürülməsi və nəşri sahəsində müstəsna xidmətləri olmuşdur. Onun rəhbərliyi ilə Azərbaycan Dövlət Konservatoriyasının nəzdində yaradılmış Elmi Tədqiqat Musiqi Kabinetinin təşkili və burada Azərbaycan xalq musiqi incilərinin məşhur xalq sənətkarlarının ifasından nota köçürülməsi musiqi tariximizin mühüm hadisələrindən biridir. Dövrün tanınmış bəstkarlarını öz ətrafında birləşdirən bu məbədin Azərbaycan musiqi irsinin öyrənilməsi və yayılmasında böyük rolu olmuşdur.

Açar sözlər: Bülbül, xanəndə, opera müğənnisi, milli ruh, Azərbaycan folkloru, yaradıcılıq məktəbi

ABSTRACT

An outstanding representative of Azerbaijan's musical culture, People's Artist of the USSR Murtuza Mashadi Rza oglu Mammadov (Bulbul) is one of the rare figures who has passed a wide creative path from folk singing to opera singing and has become an invaluable phenomenon of world vocal art. An invaluable performer with a huge range of voices and unique talent, he was the first initiator and tireless propagandist of all progressive innovations in our national music art. He created a new singing school in Azerbaijan, combining the best methods of Azerbaijani national mugam singing with the Russian and European vocal schools. This school has had a significant impact in the field of vocal art not only in Azerbaijan, the former USSR, but also in the Middle East.

The main advantage of the famous singer is the nationality of his art. The connection with the national spirit, the country, the homeland, national folklore and musical traditions formed the basis of Bulbul's multifaceted creativity. He sang arias and romances of foreign composers, vocal works of Azerbaijani composers, mugams, folk songs and classifications in a unique style and with clear pronunciation, attaching great importance to the correct use of the Azerbaijani language.

Bulbul had exceptional services in collecting, systematizing, transcribing and publishing our musical folklore. One of the important events in the history of our music is the organization of the Scientific Research Music Cabinet established under his leadership at the Azerbaijan State Conservatory and the transfer of pearls of Azerbaijani folk music from the performances of famous folk artists. This temple,

which unites famous composers of the time, played an important role in the study and dissemination of Azerbaijan's musical heritage.

Keywords: Bulbul, folk singer, opera singing singer, national spirit, Azerbaijani folklore, creative school

Sənə ellər verib Bülbül adını,
Əbədi qalacaq vurduğun cəh-cəh!
Çox bülbül görübdür qoca dünyamız,
Səndən nə gəlməyib, nə gəlməyəcək!
Bəxtiyar Vahabzadə (4)

Əsrlər boyu insanları öz cəh-cəhilə valeh edən, heyran qoyan bülbül Şərq ədəbiyyatında ən çox müraciət olunan obrazlardan biridir. Eşqin, sədaqətin rəmzi sayılan bülbül musiqi ifaçılığı ilə bağlı əhvalatların, rəvayətlərin də baş qəhrəmanlarındandır. Xalq arasında bülbülün mahir musiqiçilərin ifasından vəcdə gələrək cəh-cəh vurmağa başladığı, uçub ustad sənətkarların çiyninə, musiqi alətlərinin ustünə qonduğu haqqında maraqlı söhbətlər danışılır.

Bir də vətənə bağlılığın, saf məhəbbətin rəmzi kimi yaddaşımıza əsrlərdir yazılan Xarıbülbül əfsanəsini xatırlayaq. Deyilənə görə, Qarabağ xanı öz qızını İran şahına ərə verir. Xan qızı İranda darıxır, sıxılır və şah onun şərəfinə sarayın bağçasında "Vətən bağı"nın salınmasını əmr edir. Bağ salınır və Qarabağda yetişən bütün güllər, bitkilər bu bağda əkilir. Onlardan hər biri yad torpaqda qol-budaq açır, yalnız Xarıbülbül özünə məskən sala bilməyərək solur, quruyub yox olmağı seçir.

1897-ci ilin iyun günlərindən birində, Şuşaya gedən yolda dünyaya bir körpə göz açır. Günəşin ayı əvəz etdiyi aydın bir səhərdə doğulduğundan anası uşağı Aydınlıq deyə çağırır, atası isə Murtuz adlandırır. Amma bütün bunlardan daha yüksək bir adı ona hələ çox gənc yaşlarında, yeniyetməlik çağında xalq özü verərək Bülbül çağırmağa başlayır və o, bütün Azərbaycanın Bülbülünə çevrilir.

Bülbülün yolda dünyaya gəlişi taleyin bir qisməti olduğu qədər rəmzi məna da daşıyır. Xalq yazıçısı Elçinin qeyd etdiyi kimi, "Bülbül yolda anadan oldu və bütün ömrü boyu da yolda oldu – həm həqiqi, həm də məcazi mənada: dünyanın müxtəlif ölkələrində, müxtəlif şəhərlərində oldu, onun səsi müxtəlif konsert salonlarından gəldi və eyni zamanda, bir sənətkar kimi, həmişə yolda oldu, - sənətin yüksək bədii-estetik zirvələrinə aparan yolda".

Tanınmış sənətkarın məhz Şuşada, Azərbaycanın mədəni mərkəzlərindən biri olan bir şəhərdə dünyaya gəlməsi onun musiqiyə, şeirə meylinin yaranmasında mühüm rol oynamışdır. Şuşanı "Şərqin konservatoriyası", "Qafqazın sənət məbədi", "Azərbaycan musiqisinin beşiyi", "Azərbaycanın musiqi qalası" adlandırırlar və bu, əlbəttə, təsadüfi deyil. Cabbar Qaryağdıoğlu, Qurban Pirimov, Bülbül, Seyid Şuşinski, Xan Şuşinski, Rəşid Behbudov, Üzeyir Hacıbəyli, Niyazi, Fikrət Əmirov, Süleyman Ələsgərov kimi sənətkarların, Firidun bəy Köçərli, Əbdürrəhim bəy Haqverdiyev, Nəcəf bəy Vəzirov, Xurşudbanu Natəvan, Qasım bəy Zakir və onlarca ədiblərimiz öz yaradıcılıq qayəsini Şuşa təbiətindən, Şuşa ab-havasından almışlar. Məhz bu şəhərin muğamatın tədris olunduğu məktəblərində özünəməxsus avazı və oxu tərzi olan müğənnilər yetişərək Şərq aləmindən bütün dünyaya səs salmışlar. Şuşanın gözəl təbiəti, təmiz havası, saf bulaqları bu istedadların yetişməsində canlı varlıq kimi iştirak etmişdir. Mənbələrdə qeyd olunduğuna görə məktəb-mədrəsə təhsili aldığı kiçik yaşlarında Bülbül xalq sənətkarı Xan Şuşinski ilə Cıdır düzünə çıxar, orada hərəsi bir tərəfə çəkilərək bayatı deyərdi: bir bayatını Bülbül, bir bayatını Xan (3, s. 12). Zənnimizcə, illərlə davam edən bu bəhs, bu yarış Bülbülün xalq sənətçisi kimi yemişməsində müstəsna rol oynamışdır.

Nə idi Bülbülü bu qədər sevdirən? İlk başda qeyd etmək lazımdır ki, onun oxuduğu şeirin mənası və məzmunu ilə musiqi arasında sıx vəhdət, həmahəng səslənmə və həmavazlılıq açıqca duyulur. Onun oxuduğu bütün əsərlərdə olduqca aydın tələffüz, gözəl diksiyaya malik ifaçılıq qabiliyyəti özünü

göstərir. Müğənni belə hesab edirdi ki, "öz dilində elə oxumalı ki, o dili başa düşməyənlər belə ləzzət alsınlar, sənin dilində oxumağı arzulasınlar".

Bülbül Şərq poeziyasını dərindən dərk edən, ona ürəkdən bağlı olan sənətkardır. Nizami, Xaqani, Füzulinin əsərləri həmişə onun ürəyində, dodaqlarında dolaşıb, Vaqifin, Ələsgərin yaradıcılığı dilinin əzbəri olubdur. Həyat yoldaşı Adilə xanım öz xatirələrində qeyd edir ki, "Bülbül şeir xəzinəsindən incilər seçməyi bacarır, söz üzərində yorulmadan işləyir, tələffüzünə xüsusi diqqət yetirirdi". Doğrudan da, onun mahnılarında sözlər musiqiyə çevrilir, musiqi isə insanın danışıq dilin kimi səslənirdi.

Bülbülün yaxın dostu, Azərbaycan xalqının dahi sənətkarı Üzeyir Hacıbəyli Nizaminin anadan olmasının 800 illik yubileyi münasibətilə şairin bir sıra qəzəllərinə musiqi bəstələyərkən bunlardan Bülbülə böyük pay nəsib olmuşdur. "Sevgili canan", "Sənsiz"lə konsert salonlarını inlədən Bülbül bu əsərləri ömrünün sonuna qədər həvəslə oxumuşdur.

Bülbülün ifasında əfsanəvi xalq qəhrəmanı Koroğlu obrazı bütün qüdrəti, incə və şairanə qəlbi, təmiz, sadiq məhəbbəti ilə gözlər önündə canlanır. Müğənni bu obrazın öhdəsindən səsinin gurluğu, axıcılığı, səsin-nəfəsin gözəlliyi, məlahəti ilə gələ bilib. Sənətkar bu rolda özünü aşıq, döyüşçü, sərkərdə kimi sınaqdan keçirmişdir.

Bülbülün yaradıcılığının bir zirvəsini Koroğlu, Aşıq Qərib, Kərəm obrazları, Üzeyir Hacıbəylinin "Sənsiz", "Sevgili canan", Asəf Zeynallının "Ölkəm", Fikrət Əmirovun, Səid Rüstəmovun, Cahangir Cahangirovun, Tofiq Quliyevin, Süleyman Ələsgərovun, Ağabacı Rzayevanın romans və nəğmələri, digər hissəsini xalq mahnıları və təsniflər – "Küçələrə su səpmişəm", "Qara tellər", "Girdim yarın bağçasına", "Qaçaq Nəbi", "Çəkərəm nazını yarim, nə qədər naz eləsən də" və s. təşkil edir.

Dahi bəstəkar Qara Qarayev "millidən kənarda musiqi sənəti ola bilməz, yaradıcılığı bütün xalqların, bütün dünya mədəniyyətinin sərvətinə çevrilmiş musiqi dahiləri dərin köklərdə öz vətəninə, öz xalqına, onun mədəniyyətinə, tarixinə, doğma torpaqlarının təbiətinə və nəhayət doğma xalqlarının musiqi dilinə bağlıdırlar" demişdir. Bülbül xalq musiqisinə böyük qiymət verərək "tarixi özündə qoruyub saxlayan xəzinə" adlandırırdı. Böyük müğənni xalq musiqisinin – mahnı və təsniflərin, şifahi ənənəli professional musiqi janrlarının – aşıq musiqisi, muğam dəstgahları, zərbi muğamlar, təsnif və rənglərin mahir bilicisi idi. Məsələn, "muğam" sözünün etimologiyası haqqında demişdir: "Ərəb sözü olan məqam və fars sözü olan muğamat adamların toplaşdığı yer, sonra söhbətin özü, nəhayət hekayə, novella deməkdir. Bu, muğam sözünün birinci mənasıdır. Muğam sözünün ikinci mənası ilə "melodiya"dır. "Rast" muğamını oxu, və yaxud "Segah muğamını oxu" və s. Böyük müğənninin muğamın yüksək inkişaf etmiş forması olan dəstgah haqqında fikirləri də diqqətəlayiqdir. O, belə bir mülahizə irəli sürürdü ki, "Dəstgahlar" bir-birinə üzvi surətdə bağlı və məntiqi olaraq bir-birinə keçən muğamlardan ibarətdir. Dahi bəstəkar muğam şöbələrini də ayrıca muğam hesab edirdi.

Bülbülün muğamların nota yazılması və öyrənilməsində xüsusi xidmətləri vardır. O, belə hesab edirdi ki, muğamların, çoxdan unudulmuş təsnif və rənglərin nota yazılması qocaman xanəndə və çalğıçıların ən yaxşı ənənələrini bərpa etməkdir. Bülbül not yazılarının tarixi əhəmiyyətini yüksək dəyərləndirir və deyirdi ki, "bir zaman gələr biz tarzən Mənsurovun filan havanı necə çaldığını bu yazı vasitəsilə görə bilərik".

Yalnız muğamatın, xalq mahnılarının, el havalarının yox, aşıq sənətinin öyrənilməsi və inkişafında da Bülbülün həm elmi-nəzəri, həm də sırf təşkilati baxımından böyük rolu olmuşdur. Zəngin xalq yaradıcılığına bağlılıq, bu yaradıcılığı öyrənmək və öyrətmək, onu təbliğ etmək, sevdirmək ömrünün sonuna qədər Bülbülün fəaliyyətinin tərkib hissəsi olmuşdur. "Aşıq el anasıdır", "aşıq gördüyünü çağırar", "bir aşıq haqq aşığıdır" sözləri ilə aşıq sənətini mədh edən sənətkar belə hesab edirki ki, "Aşıq hər şeydən əvvəl, şairdir, ifa etdiyi mahnıların yaradıcısıdır. Aşıq müğənnidir. O, öz nağılının xeyli hissəsini mahnı şəklində ifa edir. Aşıq çalğıçıdırr. Ö, öz hekayətini və mahnısını saz ilə müşayiət edir. Aşıq artistdir. O, öz çıxışını xarakterik mimika ilə müşayiət edir, gəzişir, rəqs edir, çox vaxt hekayə qəhrəmanının hərəkətini təsvir edir. Aşıq reçitativ ifaçılığın ustasıdır" (1, s. 33). Məhz musiqi folklorunu dərindən bilməsi, aşıq dünyasına, müğənni xanəndələrin məişətinə, onların ənənəsinə yaxşı bələd olması Kərəm obrazının ərsəyə gəlməsinə və sevilməsinə səbəb olmuş, tamaşaçılarda Kərəmin – Bülbülün əzablarına, ülvi məhəbbətinə, sədaqətinə dərin inam yaratmışdır.

Bülbül yaradıcılığının digər bir hissəsini də onun sənətə gətirdiyi yenilik təşkil edir. Xəlqilik - ən yaxşı klassik ənənələrə sədaqət, novatorluğa meyl Bülbül yaradıcılığının başlıca xüsusiyyətlərindəndir. O, tarixə Azərbaycan professional vokal məktəbinin banisi kimi daxil olmuşdur. Xalq yazıçısı Süleyman Rəhimov dahi sənətkarın yaradıcılığının bu xüsusiyyəti haqqında demişdir: "Üzeyir bəy musiqi aləmində hansı yeri tutursa, Səməd Vurğun müasir şeirdə hansı mövqedə dayanırsa, Bülbül də vokal-səhnə aləmində belə bir yeri tutur, belə bir mövqedə dayanır" (1, s. 33).

Dahi sənətkar dörd il İtaliyada təhsil almaqla Avropa vokal məktəbini, İtaliya tədris metodikasını dərindən öyrənmiş, Azərbaycan musiqi məktəbini Ümumavropa məktəbi ilə sintezləşdirərək özünün yeni üslubunu yaratmışdır. Qeyd edək ki, Bülbülün novatorluq fəaliyyəti Avropanın opera sənəti ustalarının tarixi rolundan əsaslı surətdə fərqlənirdi. Çünki onun klassik opera ənənələri əsasında yetişmiş sələfləri yox idi. Məhz buna görə də Bülbülün novatorluğu tam yenidir və tarixilik baxımından böyük əhəmiyyətə malikdir. Spesifik Şərq məktəbindən Avropa vokal məktəbinə keçmiş ilk vokalçı, Azərbaycan milli muğam oxuma sənətinin ən yacşı üsullarını rus və Avropa vokal məktəbi ilə birləşdirərək Azərbaycandas yeni oxuma məktəbi yaratmış, Zaqafqaziya, Orta Asiya, Yaxın və Orta Şərq ölkələri xalqlarının oxuma sənətinə səmərəli təsir göstərmişdir (2).

Xalq yazıçısı Anarın sözləri ilə desək, "Bülbül yalnız minillik muğam xanəndəlik ənənələrinin layiqli varisi yox, eyni zamanda İtalyan Belkanto vokal məktəbini keçmiş nadir bir istedad idi – ilk baxışdan bir-birinə uzaq olan iki musiqi dünyasını – Şərq və Qərb musiqisini öz parlaq sənətiylə yaxınlaşdırır, birləşdirir, təbii, üzvi vəhdətdə yüksək sənət örnəkləri yaradırdı. Yalnız Azərbaycanda deyil, bəlkə bütün islam şərqində yeni vokal üslubun təməlini qoymuşdu. Bu üslub Kavaradossinin ariyasından "Çahargah təsnifinə", "Müxalif təsnifi"nə qədər uzanana ucsuz-bucaqsız musiqi dünyasını ehtiva edirdi. Bülbülün ecazkar səsində iki musiqi aləmi – Avropa və Şərq – bir-birinə qovuşurdu".

Doğrudan da, min illər bundan əvvəl yaranmış xalq mahnıları Bülbülün misilsiz təqdimatında müasirlik çalarları, yeni intonasiyalar kəsb etmiş, verilən estetik zövq insanların bugünkü mənəvi tələbatına cavab verən mahnıların gözəl ifasına görə dinləyicilərdə dərin minnətdarlıq hissi yaratmışdır. Bülbülün Azərbaycan vokal mədəniyyətinə gətirdiyi yeniliklər opera və ifaçılıq sənətinin gələcək inkişafına da misilsiz töhfə olmuşdur.

Bülbül 64 illik həyatında öz missiyasını tam şəkildə yerinə yetirməyi bacarmışdır. Elə buna görə də həyatının son dəqiqələrində ona tələş içində yaxınlaşan həyat yoldaşına "Qorxma, qorxma, bu adicə ölümdür!" deyərək ölümü belə adiləşdirmiş, yaşamı əbədiləşdirmişdir (3, s. 17).

NƏTİCƏ

Ümummilli liderimizin dediyi kimi, Şuşasız Qarabağ, Qarabağsız bütün Azərbaycan ola bilməz. Artıq Bülbülün 30 ilə yaxın düşmən işqalı altında olan vətəni azad olmuşdur. Bu gün Bülbülün ruhu şad, qəbri nura qərq olmuşdur. Bu gün Şuşada əsir altında qalmış bir cüt bülbül - öz sədaqəti ilə adını əfsanələrə yazdıran Xarıbülbül boynunu qürurla dikəltmiş, bülbül nəfəsli Murtuza Məmmədovun xoş avazı Şuşanın dağlarına yayılmışdır. Bu gün Şuşada Üzeyirin, Bülbülün 30 ilə yaxın sənsiz – vətənsiz qalmış "Sənsiz"i azadlığa qovuşmuşdur.

Akademik Mustafa Topçubaşov Bülbülün anadan olmaşısın 60 illiyi münasibətilə yazmışdır: "Bülbülün bayramı yaz açılanda, ağaclar çiçəklənəndə olur. Qoy bizim Bülbülümüzün qışı olmasın" (3, s. 143).

Nə qədər ki, musiqi var, şeir var, söz var, Bülbülün özünü də ifa etdiyi xalq mahnılarından birində deyildiyi kimi, "özü bülbül, sözü bülbül, səsi bülbül" olan sənətkar qəlblərdə daim yaşayacaq, qışı olmayacaqdır.

Bülbül! Oxu ki, quşlar dilə gəlsin, xoş avazın elə gəlsin!

ƏDƏBİYYAT SİYAHISI

1. Bülbül (Murtuza Rza oğlu Məmmədov) : Biblioqrafiya /tərtib edənlər: M.Vəliyeva, M.İbrahimova, G.Misirova; elmi redaktor K.Tahirov, redaktor G.Səfərəliyeva. Bakı: 2017, 344 s.

2. İbrahimov M. Bülbül sözün əsl mənasında dahi və ölməzdir. Onun sonsuz obrazını qranit monument kimi xalq öz ürəyində böyük məhəbbətlə qoruyur www.byulbyul.az/az/aboutbb

3. Məmmədova A. Bülbül. Bakı: 1967, 185 s.

4. Vahabzadə B. http://anl.az/el/emb/Bulbul/haqqinda.htm

5. https://az.wikipedia.org/wiki/Bülbül_(müğənni)

ŞUŞA PEDAQOJİ SEMİNARİYASININ İLK DİREKTORU

FIRST DIRECTOR OF SHUSHA PEDAGOGICAL SEMINAR

Müseyib İlyasov

Pedaqogika üzrə elmlər doktoru, professor

Azərbaycan Dövlət Pedaqoji Universitetinin kafedra müdiri

XÜLASƏ

1912-ci ildə məşhur Zaqafqaziya (Qori) Müəllimlər Seminariyasını bitirmiş, Azərbaycanda xalq maarifinin yayılmasında və inkişafında müstəsna xidmətlər göstərmiş Müseyib İbrahim oğlu İlyasov 1920-ci ildə Şuşa şəhərində açılan Kişi Müəllimlər Seminariyasının yaradıcılarından biri və ilk direktoru olmuşdur. Müseyib İlyasov hazır bir məktəbə müdirlik etməmişdir, o, bu seminariyanı təşkil etmiş, onun qısa bir zamanda müəllim kadrları hazırlayan təhsil ocağı kimi fəaliyyət göstərməsinə nail olmuşdur. Əsl təşkilatçı-pedaqoq və maarif fədaisi kimi seminariyaya rəhbərlik etmiş, xalqın böyük hörmət və məhəbbətini qazanmışdır.

Görkəmli maarifpərvər kimi tanınmış Müseyib İlyasov 1925-ci ilə qədər Şuşa kişi müəllimlər seminariyasının müdiri vəzifəsində çalışmış və onun müəllim kadrların hazırlanmasında böyük xidmətləri olmuşdur. O heç bir çətinliyə baxmayaraq, seminariyanın zəruri avadanlıqlarla, tədris vəsaitlərilə təhciz olunmasında, tələbələrin paltarlarla və müxtəlif geyimlərlə təmin olunmasında, seminariyanın müəllim kadrlarının formalaşdırılmasında bir maarif fədaisi kimi mübarizə aparmış və fəaliyyət göstərmişdir. M. İlyasov həmçinin Şuşada Qadın Müəllimlər Seminariyasının açılmasına da böyük təşəbbüs göstərmiş, nəticədə Şuşa Kişi Müəllimlər seminariyasında qadınlar üçün şöbənin açılması üçün bütün göstəricilərin olduğunu əsaslandıraraq 1921-ci ildə belə bir şöbənin açılmasına nail olmuşdur.

Müseyib İlyasov təşkilatçı-pedaqoq kimi Qarabağda təhsilin, maarifin inkişafında, məktəblərin müəllim kadrları ilə təmin olunmasında çox böyük əmək sərf etmiş və bütün həyatını təhsilə, maarifə və mədəniyyətin inkişafına həsr etmişdir. Seminariyaya rəhbərlik etdiyi müddətdə respublikamız üçün xeyli müəllim kadrları hazırlamışdır. Bir sıra tanınmış şəxslər, o cümlədən Azərbaycan Xalq Yazıçıları Süleyman Rəhimov və Əli Vəliyev də onun müdir olduğu dövrdə bu seminariyada pedaqoji təhsil almış və sonradan burada müəllim kimi fəaliyyət göstərmişlər.

Görkəmli maarifpərvər olan Müseyib İlyasov Şuşa Müəllimlər Seminariyasına rəhbərlik etdiyi müddət ərzində özünü təşkilatçı-pedaqoq, təhsil işini dərindən bilən bacarıqlı rəhbər və qayğıkeş müəllim kimi göstərmişdir. Azərbaycanda savadsızlığın ləğvi, məktəblərdə müəllim çatışmazlıqlarının aradan qaldırılması üçün hər il seminariyanın nəzdində qısamüddətli yay kursları açmış və Azərbaycan məktəblərinin müəllim kadrları ilə təmin olunmasında bu kursların da fəaliyyət göstərməsinə nail olmuşdur.

Açar sözlər: *direktor; seminariya; müəllim; təşkilatçı-pedaqoq; rəhbər.*

ABSTRACT

Museyib Ibrahim oglu Ilyasov, who graduated from the famous Transcaucasian (Qori) Teachers 'Seminary in 1912 and rendered exceptional services in the spread and development of public education in Azerbaijan, was one of the founders and first director of the Male Teachers' Seminary opened in 1920 in Shusha. Museyib Ilyasov did not manage a ready-made school, he organized this seminary, and in a short time managed to operate it as an educational institution that trained teachers. He led the seminary as a real organizer-pedagogue and educator, and won the great respect and love of the people.

Known as an outstanding educator, Museyib Ilyasov worked as the head of the Shusha Men's Teachers' Seminary until 1925 and had a great contribution to the training of teachers. Despite many difficulties, he struggled and acted as an educator in providing the seminary with the necessary equipment, teaching aids, providing students with clothes and various clothing, and forming the seminary's teaching staff. M. Ilyasov also took a great initiative to open a Women's Teachers' Seminary in Shusha.

As an organizer-pedagogue, Museyib Ilyasov worked hard in the development of education in Karabakh, providing schools with teaching staff and devoted his entire life to the development of education, enlightenment and culture. During his leadership of the seminary, he trained many teachers for our country. A number of celebrities, including Azerbaijani People's Writers Suleyman Rahimov and Ali Valiyev, received pedagogical training at the seminary during his tenure and later worked as teachers here.

Museyib Ilyasov, a prominent educator, proved to be an organizer-pedagogue, a skilled leader with a deep knowledge of education and a caring teacher during his tenure at the Shusha Teachers' Seminary. In order to eliminate illiteracy in Azerbaijan and eliminate the shortage of teachers in schools, he opened short-term summer courses at the seminary every year and managed to provide these schools with teaching staff in Azerbaijan.

Key words: director, seminar, teacher, organizer-pedagog, leader

GİRİŞ

Hər bir xalq özünün qabaqcıl ziyalıları ilə taqnınmış və bunların fədakarlığı nəticəsində təhsilə, maarifə və mədəniyyətə qovuşmuşdur. Azərbaycan tarixində belə ziyalılar, maarifpərvər, həyatını xalqın maariflənməsinə həsr edən, onların təhsilli, savadlı olması üçün çalışan, sözün həqiqi mənasında çarpışan ziyalıları heç də az olmamışdır. XIX əsrin sonu, XX əsrin əvvəllərində maarifçilik hərəkatının önündə gedən belə ziyalılardan biri də Azərbaycan xalqının maariflənməsində və milli mədəniyyətin formalaşmasında xüsusi bir mərhələ olan məşhur Qori müəllimlər seminariyasının 255 nəfər məzunlarından biri, 1912-ci ildə Seminariyanı bitirib, 1941-ci ilədək – represiya olunanadək xalqın maariflənməsi və müəllim kadrlarının hazırlanması sahəsində xüsusi xidmətləri olan Müseyib İbrahim oğlu İlyasov olmuşdur.

Əsas hissə

Müseyib İbrahim oğlu İlyasov 1893-cü ildə Yelizavetpol (Gəncə) quberniyasının Zəngəzur mahalının Qaraçanlı tayfasından olan Oğuldərə kəndində (İndiki Laçın rayonunun Oğuldərə kəndində) anadan olmuşdur. Müseyib İlyasova verilmiş Zaqafqaziya Şiə Ruhani İdarəsi (Tiflis ş.) tərfindən 4 mart 1904-cü il tarixli, 703 saylı doğum haqqında şəhadətnamədə yazılır: "Müseyib molla İbrahim oğlu İlyasov 1893-cü ildə Yelizavetpol Quberniyasının Zəngəzur Uyezdinin Qaraçanlı kəndində atasının qanuni arvadı Pərixan Şahrux qızından 1893-cü ildə anadan olmuşdur".

Müseyib İlyasovun təhsili

Kərbəlayı İbrahim 1890-cı illərdə Oğuldərədə öz hesabına ibtidai məktəb açmışdır. Bir evini məktəb etmiş və İranlı (Cənubu Azərbaycanlı) savadlı din xadimi Molla Həsəni ora müəllim kimi dəvət etmişdir. Ona əməkhaqqı verərək oğlanları Əli, Zülfüqar və Müseyibə ilk ibtidai təhsil verdirmişdir. Kəndin mütərəqqi dünyagörüşlü bir qism adamları da sonradan öz üşaqlarını bu məktəbə gətirmiş və övladları burada oxumuşlar. Bu məktəb 1920-ci illərə qədər xüsusi məktəb kimi fəaliyyət göstərmişdir. Xüsusi və valideynlərin hesabına fəaliyyət göstərən məktəb olmasına baxmayaraq, Oğuldərədə ilk məktəbin açılması, uşaqlara ilk dini və dünyəvi təhsil verilməsi, uşaqların təhsilə cəlb edilməsi Kərbəlayı İbrahimin adı ilə bağlıdır. İlyaslı nəslinin sonrakı taleyində, təhsil və mədəni inkişafında Kərbəlayı İbrahimin təhsil almış bu üç övladının, xüsusən Müseyib İlyasovun böyük rolu və xidmətləri olmuşdur. Müseyib İlyasov ilk təhsilinin atasının Oğuldərədə açdığı xüsusi məktəbdə almışdır. Sonralar ataları Əlini və Müseyibi rayonun Minkənd kəndində olan Rus-Azərbaycan (tatar) məktəbinə aparmış və onlar təhsillərini burada davam etdirmişlər. Hər ikisi bu məktəbi bitirmişlər.

Müseyib Kərbəlayı İbrahim oğlu İlyasov Minkənd Rus-Azərbaycan (tatar) məktəbini bitirdikdən sonra 1906-1907-illərdə Şuşada Həşim bəy Vəzirovun müdir olduğu Qəza məktəbində oxumuşdur. Yaxşı oxuması və çalışqanlığı ilə diqqəti cəlb etmiş və başqa bir neçə gənclə birlikdə görkəmli pedaqoq Firidun bəy Köçərli onun da təhsilini Zaqafqaziya (Qori) Müəllimlər Seminariyasında davam etdirməsini məsləhət bilmişdir. M.İlyasov 1908-ci ildə Zaqafqaziya (Qori) Müəllimlər Seminariyasına daxil olmuş və 1912-ci ildə Seminariyanı bitirmişdir (Şəhadətnamə № 613/542).

1876-cı ildə Gürcüstanın Qori şəhərində açılan Zaqafqaziya (Qori) Müəllimlər Seminariyasının Azərbaycan şöbəsi bundan 3 il sonra 1879-cu ildə açılmış və özünün 1918-ci ilədək fəaliyyət göstərdiyi 40 il ərzində Azərbaycan məktəbləri üçün rus dilli 250 nəfərdən artıq əsl xalq müəllimləri hazırlamışdır. Akademik Hüseyn Əhmədovun təbirincə desək, bu müəllimlər "Azərbaycan xalq pedaqogikasının qiymətli incilərindən qidalanan, mütərəqqi rus və dünya pedaqogikasının görkəmli nümayəndələrinin pedaqoji ideyalarından və qabaqcıl məktəb təcrübəsindən faydalanan ilk xalq müəllimləri! Elm və maarif məşəlini Zaqafqaziyanın uzaq kəndlərinə aparan, dünyəvi təhsildən kənarda qalmış gənclərin gözünü təhsil nuru ilə işıqlandıran, elm, maarif və incəsənət carçıları! Tarixə xalq müəlliminin nümunəsi kimi daxil olmuş, müəllimlik sənətinin, öz peşəsinin vurğunu olmuş, xalqa bilik verməyi qarşılarına məqsəd qoymuş, özlərini xalq yolunda şam kimi əridən, hər biri bir tarixi şəxsiyyət, hər biri bir sənətkar, hər biri bir ustad!" olmuşlar. Müseyib İlyasov belə müəllimlərdən biri olmuşdur.

Seminariyada da fəal tələbə kimi tanınmış və müəllim və tələbələrin böyük hörmətini qazanmışdır. Seminariyanın müəllimlərindən olan İvan Trofimoviç Zubkov 1912-ci ildə öz şəklini tələbəsi M.İlyasova hədiyyə etmişdir. Zubkov şəklin arxasında yazmışdı: "Na dobruyu pamyat dorqomu vospitanniku İlyasovu ot lyubyaşeqo nastavnika İvanaTrofimoviça Zubkova. 1912 qoda 3 iyulya" (Əziz şagirdim İlyasova sevimli müəllimi İvan Trofimoviç Zubkovdan əziz yadigar. 1912-ci il, 3 iyul).

Müseyib İlyasovun pedaqoji fəaliyyəti

Müseyib İlyasov seminariyanı bitirdikdən sonra 13 sentyabr 1912-ci ildən - 13 sentyabr 1915-ci ilədək Bakı şəhər ikinci rus-tatar məktəbində müəllim işləmişdir.

Azərbaycan Respublikasının Dövlət Tarix Arxivinin "Xalq məktəblərinin Bakı-Dağıstan Direksiyası" adlı fondunda digər sənədlərlə yanaşı Zaqafqaziya Müəllimlər Seminariyasının direktoru F.A.Smirnovun 1912-ci il iyulun 30-da "Xalq məktəbləri Bakı-Dağıstan Direksiyası"nın direktoru A.S. Txorjevskiyə ünvanladığı məktubda F. A. Smirnov bildirirdi ki, Seminariyanın kurslarını cari ildə bitirmiş və Xalq məktəblərinin Bakı-Dağıstan Direksiyasında xidmət etmək istəyən M.İlyasovun aşağıda qeyd olunan sənədlərini: 1) Seminariyanın kurslarını bitirdiyi haqqında 613/542 saylı şəhadətnaməni; 2) 703 saylı doğum haqqında şəhadətnaməsini Direksiyanın ünvanına göndərir və xahiş edir ki, M.İlyasov hər hansı xalq müəllimi vəzifəsinə təyin edilsin" (1).

Bakı şəhər Duması nəzdindəki məktəb komissiyasının sədrinin Bakı quberniyası və Dağıstan vilayətinin xalq məktəbləri direktoruna göndərdiyi 4 yanvar 1913-cü il tarixli məktubda bildirilirdi ki, komissiyanın 19 dekabr 1912-ci il tarixli iclasında Müseyib İlyasovun ikinci şəhər rus-tatar məktəbinə müvəqqəti olaraq boş qalan müəllim vəzifəsinə seçilməsi haqqında qərar qəbul edilmişdir (2). Həmin məktubda məktəb komissiyasının Müseyib İlyasov haqqında həmçinin aşağıdakı məlumatlara da malik olduğu qeyd edilirdi: " ... milliyyətcə tatar (Azərbaycanlı), şiə məzhəbli müsəlmandır, 20 yaşı var, subaydır. 1912-ci ildə Qori şəhərində Müəllimlər Seminariyasının tam kursunu bitirmiş, həmin ilin noyabrında isə Azərbaycan dili üzrə biliyi yoxlanılaraq qənaətbəxş hesab edilmişdir, ikinci şəhər rus-tatar məktəbində yaşayır" (3).

Müseyib İlyasov Bakı şəhər ikinci rus-tatar məktəbində ayda 900 manat məvaciblə (4) 13 sentyabr 1912-ci ildən - 13 sentyabr 1915-ci ilədək işləmişdir (5).

Məktəb direktorunun yaratdığı haqsız münaqişə zəminində M.İlyasov öz ərizəsi ilə tutduğu vəzifədən azad edilmişdir.

Arxiv sənədlərində göstərilir ki, 1915-ci il sentyabın 12-də Bakı şəhər ikinci rus-tatar məktəbinin müəllimi Müseyib İlyasov Bakı-Dağıstan Direksiyasının 2-ci rayonun müfəttişi S.M.Qəniyevə ərizə ilə müraciət edərək ailə vəziyyəti ilə əlaqədar olaraq, onun xidməti tərk etməli olduğunu bildirmiş, onun istefasını qəbul etməyi xahiş etmişdir (6). Bakı şəhər və Bakı qradonaçalnikliyinin xalq

məktəbləri müfəttişliyinin verildiyi vəsiqədə Müseyib İlyasovun xidmət etdiyi dövrdə öz müəllimlik vəzifəsinə cidd-cəhdlə və vicdanla yanaşdığı və türk ədəbiyyatı ilə kifayət qədər tanış olduğu qeyd edilirdi (7).

Bakı quberniyası və Dağıstan vilayəti Xalq məktəblərinin direktorunun sərəncamı ilə Müseyib İlyasov 1915-ci il sentyabrın 13-dən etibarən tutduğu vəzifəsindən azad edilmişdir (8). Bəzi mənbələrdə olan məlumatlara görə M.İlyasov Bakı şəhər ikinci rus-tatar məktəbini tərk etdikdən sonra Bakıda və Qubada müxtəlif məktəblərdə və gimnaziyalarda müəllim vəzifəsində fəaliyyətini davam etdirmişdir (9) .

Azərbaycan Respublikasının Dövlət Tarix Arxivində saxlanılan "Bakı şəhəri III Aleksandr adına I kişi gimnaziyası" fondunda xalq məktəb müəllimi Müseyib İlyasovun Bakı I kişi gimnaziyasının milli əlifba sinifinə müəllim təyin edilməsi haqqında Azərbaycan Xalq Cümhuriyyətinin xalq maarif naziri R.B.Kaplanovun 1919-cu ilin avqustun 12-də imzaladığı əmr qorunub saxlanılır (10). M. İlyasov Bakı I kişi gimnaziyasında xeyli müddət işlədikdən sonra qısa müddətli məzuniyyətə çıxmışdır. 1920-ci il fevralın 3-də Bakı I kişi gimnaziyasının direktorunun verdiyi vəsiqədə qeyd edilirdi ki, M.İlyasov ailə işləri ilə əlaqədar 1920-ci il fevralın 6-dan 9-dək qısa müddətli məzuniyyətə buraxılır (11).

Bu illərdə Bakıda maarifçi pedaqoq, şair Seyid Əzim Şirvaninin oğlu (bəlkə də nəvəsi) Mir Fazilin müdir olduğu məktəbdə müəllim işləmişdir. Təssüf ki, həmin məktəbin hansı məktəb olması haqqında əlimizdə elə bir fakt yoxdur. Çox güman ki, bu elə Bakı I kişi gimnaziyası olmuşdur.

1915-1916-cı illərdə Xosrov bəy Sultanovla birllikdə onun rəhbərlik etdiyi xeyriyyə cəmiyyətinin xətti ilə Türkiyəyə getmiş və əhalinin yoxsul təbəqələrinə yardım etmişlər. Atam deyirdi ki, buradan qızıl pul aparıblar. Orada daha çox taxıl alıb paylayırlarmış. Azərbaycanda hakimiyyətin dəyişməsi ilə əlaqədar olaraq geri qayıdarkən xərclənməmiş 20 kq qızılı gətirb Bakıda banka təhvil verib. Deyir soruşduq ki, onu tələb edirdilər, yoxsa özünüz verdiniz. Dedi ki, heç kim tələb etmirdı. Özüm aparıb verdim. Dedik ki, verməyə bilərdin? Onda cavabı sərt oldu: - Elə şey olardı? Mənə etibar etmişdilər, o xalqın pulu idi, xalqa da verilməliydi.

M.İlyasov 1920-ci ildə Şuşa şəhərində açılan Müəllimlər Seminariyasının – darülmüəllimin ilk yaradıcısı və təşkilatçılarından biri olmuş, 1925-ci ilə kimi seminariyanın ilk direktoru olmuşdur.

Tarixi sənədlərə əsaslanmayan bəzi yazılarda Seminariyanın 1922 - ci ildə açıldığı qeyd olunur. Bunda Azərbaycan Xalq Maarif Komissarlığı Kollegiyası içlasının 29 avqust 1922-ci il tarixli 33 nömrəli protokoluna əsaslanan müəlliflər səhvə yol verərək Ağdam 2-ci dərəcəli məktəbin Şuşa müəllimlər seminariyası ilə birləşdirilməsi haqqında qərarını əsas götürmüşlər. Halbu ki, qərarda Ağdam məktəbinin Seminariya ilə birləşdirilməsi aydın şəkildə yazılmışdı. Qərarda deyilir: Ağdam 2-ci dərəcəli məktəbi Suşa Müəllimlər Seminariyası ilə birləşdirilsin. Ağdam məktəbi nəzdində layihələşdirilənинternat üçün hazırlanmış materiallar və şagirdlər (20-dən artıq olmamaq şərtilə, əsasən də kəndli övladları) seminariyaya verilsin. Seminariyayanın direktoruna müəllim heyətinin formalaşdırılması tapşırılsın".

Sual yaranır: Əgər 1922-ci ildə seminariya yeni yanırdısa onda Ağdam məktəbi ona necə birləşdirilə bilərdi? Başqa sənədlər də bu fikri təkzib edir.

Əslində seminariya 1920-ci ildə açılmış və həmin ildən fəaliyyətə başlamışdır. İlk açılan gündən də M.İlyasov olna direktor təyin edilmişdir. Bəzi sənədlər bu fikri aydın təsdiq edir.

Müseyib İlyasov 1920-ci ildə Şuşa şəhərində kişi müəllimlər seminariyasının təşkilində yaxından iştirak etmişdir. O, həmin seminariyanın ilk yaradıcı və təşkilatçılarından biri olmuşdur. 1920-ci il noyabrın 29-da Xalq Maarif Komissarlığı Yevlax İnqilab komitəsinə 13373 saylı məktubla müraciət edərək xahiş edirdi ki, Şuşa Müəllimlər Seminariyası üçün ayrılmış kitabların, dərs vəsaitlərinin, manufaktura və mebellərin çatdırılması üçün yoldaş İlyasova yaxından köməklik göstərilsin və o, növbədənkənar olaraq lazımi sayda hərəkətə gətirilən vəsaitlərlə təmin edilsin" (12).

Görkəmli maarifpərvər kimi tanınmış Müseyib İlyasov 1925-ci ilə qədər Şuşa kişi müəllimlər seminariyasının müdiri vəzifəsində çalışmış və onun müəllim kadrların hazırlanmasında böyük xidmətləri olmuşdur (13). Şuşa Müəllimlər Seminariyasının müdiri M.İlyasov 1921-ci il mayın 31-də

262 saylı məktubla xalq naarif komissarı D.Bünyadzadəyə müraciət edərək qeyd edirdi:" Mayın 22-də 229,230,233,235,243 və 257 saylı müraciətlərlə mən Şuşa kişi və qadın seminariyalarının pansionu üçün manufaktura və digər təchizat predmetlərinin verilməsini xahiş etmişdim. Manufaktura və digər predmetlər pansionların payıza qədər tərlik, yataq kətanları, yorğan, döşək, ayaqqabı, şalvar, kofta, papaq, baş örtükləri və s. tələbatların ödənilməsi üçün istənilirdi. Xalq maarif komissarının icazəsinə baxmayaraq, Təchizat şöbəsinin müdiri tərəfindən bu günədək hər hansı bir predmet verilməmişdir və hər gün eyni sözlər deyilir:" Bu gün verə bilmərəm, nə vaxt verəcəyim bilinmir, gecikmə ona görədir ki, xahiş olunanların hamısını hazırlayım və sonra verim." Bəyan edirəm ki, xidməti məsələlərim mənim Bakıda çox qalmağıma imkan vermir, ona görə də xahiş edirəm ki, iyunun 2-dən gec olmayaraq xahiş etdiyim predmetlər mənə verilsin, mən gedəndən sonra onları Şuşaya gətirən olmayacaqdır. Ürək ağrısı ilə əlavə edirəm ki, xahiş etdiyim predmetlər indi mənə verilməsə, həmin seminariyalar mövcud ola bilməyəcəklər və buna görə də məsuliyyəti öz üzərimdən götürürəm" (14).

Şuşa kişi müəllimlər seminariyasının müdiri M. İlyasovun Xalq Maarif Komissarlığının Sosial tərbiyə Baş İdarəsinə 1921-ci il sentyabrın 12-də ünvanladığı məruzəsində qeyd edilirdi:" 5 sentyabr 1921-ci ildə yoldaş Şahsuvarovun sədrliyi ilə Müəllim Seminariyaları müdirlərinin qurultayının keçirilmiş iclasında mənim Şuşa Qadın Müəllimlər Seminariyası haqqında ətraflı məruzəm dinlənildikdən sonra qurultay aşağıdakı qərarı qəbul etdi:" Şuşada Qadın Müəllimlər Seminariyası yoxdur. Orada yalnız 1-ci dərəcəli məktəbin 4-cü qrupu mövcuddur. Əgər mümkündürsə, Şuşada Qadın Müəllimlər Seminariyası açılsın. Əlavə edirəm ki, qeyd olunan seminariyanın açılması Bakı şəhərindən oraya iki müəllimənin təyin edilməsindən asılıdır. Əgər Şuşaya iki müəllimənin təyin edilməsinə imkanınız olsa, orada gələcək qadın müəllimlər seminariyasının yalnız kiçik hazırlıq sinifi fəaliyyət göstərəcək, əgər bu təyinat mümkün olmasa, qurultayın qərarına əməl olunmalıdır. Həmin qrupun qızlarını Şuşa şəhərindəki 1-ci dərəcəli məktəblərə bölüşdürmək lazımdır. Sosial tərbiyə Baş İdarəsindən xahiş edirəm ki, qeyd olunan məktəbin fəaliyyət göstərə bilməsi üçün Şuşaya bir müdir və müəllim təyin etsin, əgər mümkün deyilsə, göstərilən seminariyanın mülkiyyəti və Şuşa xəzinədarlığında olan vəsaiti Şuşa Kişi Müəllimlər Seminariyasının sərəncamına verilsin (15).

Görkəmli pedaqoq və kütləvi mədəni iş rəhbərlərinin, o cümlədən M.Qiyasbəyov, S.M.Qəniyev, F.Rzabəyov, Hüseyn Cavid, R.Əfəndiyev, Q.Bağırov, M.İlyasov, N.Qiyasbəyov, A.Qasımov, S.Acalovun iştirakı ilə keçirilmiş müəllim seminariyaları müdirlərinin qurultayının 1921-ci il 12 sentyabr tarixli iclasında müəllim seminariyalarının gündəlik zəruri tələbat malları ilə təmin olunması məsələsinə baxılmışdır. Məsələ hərtərəfli müzakirə edildikdən sonra qərara alınmışdır ki, yerli ərzaq şöbələri seminariya pansionlarının mövcud olması üçün onları gündəlik və yaxud aylıq zəruri tələbat malları ilə təmin etmək iqtidarında deyildir. "Yerli ərzaq şöbələrinin verməyə hər hansı bir ərzağı olmadığı üçün hərdənbir, xüsusilə də çörək verirlər ki, həmin çörəklər də uşaqların qidalandırılmasına yararsız halda olur. Bunlara ümid edərək pansion açmaq mümkün deyildir. Bütün müəllim seminariyalarının təcrübəsi göstərir ki, ərzaq şöbələri həmişə də olmasa, bir az çörək, düyü, qənd, çaydan başqa heç nə verə bilmirlər. Verilənlərə əlavə olaraq digər gündəlik və ya aylıq ərzaq malları seminariya tələbələri tərəfindən alınırdı, tələb olunan ərzaqlar bazarlarda da olmadığı üçün uşaqlar günlərlə ac qalmalı olurlar. Gəncə, Qazax, Nuxa və Şuşanın yerli şəraiti elədir ki, buradakı bazarlarda ilkin zəruri tələbat mallarını, xüsusilə çörək, odun, ağ neft, ət, yağ və tərəvəzi həmişə tapmaq mümkün olmur. Yuxarıda qeyd olunanları nəzərə alaq qurultay yekdilliklə qərara alır: bu tədris ilin əvvəllərində hər bir seminariya zəruri tələbat mallarının: odun, ağ neft, sabun, buğda, yağ, çay, qənd, tərəvəz, müxtəlif yarmaların tədarükünü etsin və bu məqsədlə hər bir seminariyanın müdirinə birdəfəlik nəğd pulla 3 min. manat verilsin. Ehtiyatların tədarükü seminariyanın təsərrüfat qulluqçusu və rayon icraiyyə komitəsinin nümayəndəsi ilə birgə aparılacaqdır".

1921-ci il oktyabrın 9-da Vəlibəyov, İşkov, Məmmədov, Maqomayev, Şahsuvarov və Timoşevskinin iştirakı ilə Xalq Maarif Komissarlığının kollegiyasının keçirilmiş iclasında Azərbaycanın müəllim seminariyaları haqqında məsələlərə baxılmışdır. Müəllim seminariyaları haqqında əsasnamə, müəllim seminariyalarının tədris proqramı və dərslərin planı, müəllim seminariyaları qulluqçularının ştatı, seminariyanın oğlan və qız tələbələrinin geyim və digər əşyalarla təmin edilməsinin normaları təsdiq edilmişdir. Şuşa və Nuxa qadın seminariyaları haqqında məsələ ilə bağlı Şahsuvarovun məruzəsindən aydın olmuşdur ki, hər iki seminariya öz təyinatına qətiyyən cavab vermir. Şuşa

qadın gimnaziyası tərkibi şəhər məktəblilərindən ibarət III qrupun 1-ci dərəcəli məktəblərinin sadəcə olaraq adlarının dəyişdirilməsi ilə yaradılmışdır. Nuxa qadın seminariyası isə inkişaf səviyyəsi və Müəllim Seminariyası kursunun mənimsənilməsi üzrə şagirdlərin hazırlıq dərəcəsinə görə daha da aşağı səviyyədədir, çünki, seminariya savad öyrənməyə yenicə başlamış kənd uşaqları ilə komplektləşdirmişdir. Yoldaş Şahsuvarovun və qurultay iştirakçılarının əksəriyyətinin rəyi ilə hər iki qadın seminariyası ləğv edilməli, həmin seminariyaların bütün əmlakı Şuşa və Nuxa kişi müəllimlər seminariyalarına verilməlidir. Qurultayda həmçinin qeyd olundu ki, seminariyaların təşkili üçün iki əsas amil olmalıdır- I dərəcəli məktəb səviyyəsində şagirdlərin bilik səviyyəsi və tam hazırlıqlı qulluqçu heyəti. Pedaqoji məktəblərin xüsusiyyətləri təlim-tərbiyə heyətində sıravi deyil, kifayət qədər ixtisaslı pedaqoqların olmasını tələb edir. Məsələ ilə bağlı həmin seminariyaların müdirləri özlərinin xüsusi fikirlərini bildirərək qeyd etdilər ki, onların fikrincə Nuxada və Şuşada bütün göstəricilər vardır ki, bu seminariyalar mövcud olsunlar. Şuşa Seminariyasının inkişafı Bakının seminariyanı kifayət qədər pedaqoji kadrlarla təmin etməsindən asılıdır. Nuxa seminariyasının müdiri isə seminariyanın saxlanmasını onunla əsaslandırırdı ki, seminariyanın bağlanılması xalq tərəfindən məzəmmət ediləcək və hüququ əsaslarla qurultayın qərarı fəaliyyət göstərən seminariyalara deyil, yeni yarananlara aid edilə bilər (16). Atam İbrahim İlyasov da bu seminariyanın 1924-1925-ci illərdə qurtaran ilk məzunlarından olmuşdur.

Müseyib İlyasov ixtisaslı pedaqoq olaraq 1925-ci ilə qədər Şuşa kişi müəllimlər seminariyasına rəhbərlik etmişdir. Bu müddətdə respublikamız üçün xeyli müəllim kadrları hazırlanmışdır. Görkəmli maarifpərvər olan M.İlyasov Şuşa Müəllimlər Seminariyasına rəhbərlik etdiyi müddət ərzində özünü təşkilatçı-pedaqoq, maarif işini dərindən bilən bacarıqlı rəhbər və qayğıkeş müəllim kimi göstərmiş, Azərbaycanda müəllim kadrlarının hazırlanmasında mühüm xidmətlər göstərmiş, xalq arasında böyük hörmət və nüfuz qazanmışdır. Onun rəhbərliyi altında bir sıra tanınmış şəxslər, o cümlədən Azərbaycan Xalq yazıçıları Süleyman Rəhimov və Əli Vəliyev seminariyada pedaqoji təhsil almış və sonralar bir müddət orada müəllim işləmişlər. S. Rəhimov Azərbaycan Dövlət Pedaqoji İnstitutunu bitirdikdən sonra, 1932-ci ildə seminariyaya müdir təyin edilmişdir (17).

Mərkəzi Laçın şəhəri olmaqla 1924-cü ildə Laçın, Qubadlı və Kəlbəcər rayonlarını əhatə edən Kürdüstan qəzası təşkil edildikdən sonra M.İlyasov Qəza Maarif Şöbəsinin müdiri təyin edilmiş və 1925-ci ildən 1931-ci ilədək bu ərazidə xalq maarifinin təşəkkülü və inkişafında böyük fədakarlıqlar və misilsiz xidmətlər göstərmişdir.

Müseyib İlyasova SSRİ Mərkəzi İcrayə Komitəsi və Xalq Komissarlar Sovetinin müəllimlərə şərti ad vermə haqqında 1936-cı il tarixli qərarına əsasən Azərbaycan SSR Xalq Maarif Komissarlığı tərəfindən 20 yanvar 1939-cu ildə orta məktəb müəllimi adı verilmişdir (Attestat № 9342).

M.İlyasov 1931-ci ildən sonra Bakıya gəlmiş və 1939-cu ilə kimi Azərbaycan Xalq Maarif komissarlığında bir çox məsul vəzifələrdə - kadrlar şöbəsində pedaqoji kadrlar üzrə məsul icraçı, metodist və inspektor, Azərbaycan Dövlət Pedaqoji İnstitutunun rus dili kafedrasında müəllim vəzifələrində çalışmışdır. O, Şuşada pedaqoji seminariyasının direktoru vəzifəsində çalışarkən də, Qəza Xalq Maarif Şöbəsinə başçılıq edəndə də, Respublika Maarif komissarlığında işləyəndə də müəllim kadrlarının yetişdirilməsinə mənəvi ata qayğısı ilə yanaşmış və böyük əmək sərf etmişdir.

M.İlyasov ölkəmizin ictimai həyatında bilavasitə fəal iştirak edirdi. 1923-cü ildə o ictimai əsaslarla Moskvada Azərbaycan pavlionunda təşkil edilən kənd təsərrüfatı sərgisinin direktoru olmuşdur. 1930-cu illərdə Laçında milislərlə birlikdə banditlərə qarşı mübarizədə iştirak etmişdir.Vətənin çağırışı və öz vicdanının səsiilə öz üzərinə düşən missiyanı şərəflə yerinə yetirmişdir. 1936-cı ildə Bukşpanın rəhbərliyi ilə Laçın rayonunda əhalinin etnik tərkibin öyrənilməsi məqsədilə təşkil edilən xüsusi ekspedisyada fəal iştirak etmişdir.

Müseyib İlyasov 1926-cı ilin fevralın 26-dan martın 6-a qədər olan müddətdə Bakı şəhərində hazırda Azərbaycan Milli Elmlər Akademiyası Rəyasət Heyətinin yerləşdiyi binanın üçüncü mərtəbəsində yerləşən böyük akt zalında keçirilmiş I Türkoloji Qurultayın iştirakçlsı olmuşdur. Qeyd edirik ki, I Türkoloji Qurultay bir ictimai hadisə kimi türk xalqlarının elmi-mədəni birliyinin möhkəmləndirilməsinə və ortaq milli-mənəvi dəyərlərinin inkişafına təsir göstərmişdir. Həmin qurultayda XX əsrin əvvəllərinin türkoloji elmi-mədəni mühitinin ən aktual məsələlərinə, o cümlədən dilçilik, latın əlifbası, orfoqrafiya, tarix, ədəbiyyat, folklor, incəsənət, etnoqrafiya, terminologiya və

digər sahələrə dair müzakirə edilərək müvafiq qərarlar qəbul edilmişdir. Birinci Türkoloji Qurultayda dinlənilən məruzələr və qəbul edilmiş qərarlar türk dünyasının çoxəsrlik tarixinin elmi cəhətdən tədqiq edilib öyrənilməsinin möhtəşəm proqramı kimi tarixə daxil olmuşdur. Bakıda keçirilmiş Birinci Türkoloji Qurultayda dünyanın müxtəlif ölkələrindən, o cümlədən Türkiyə, İran, Rusiya, Macarıstan, Almaniya, Tatarıstan, Qazaxstan, Türkmənistan, Özbəkistan, Qırğızıstan, Gürcüstan, Ermənistan, keçmiş Sovetlər birliyində yaşayan digər türkdilli xalqların nümayəndələri iştirak etmişdilər. Birinci Türkoloji Qurultayda rəsmi olaraq Azərbaycan hökuməti tərəfindən dəvət olunmuş aşağıdakı ziyalılar Azərbaycanı təmsil etmişdilər: Səmədağa Ağamalıoğlu, Fərhad Ağazadə, Ruhulla Axundov, Hənəfi Zeynallı, Həbib Cəbiyev, Mustafa Quliyev, Nikolay Aşmarin, Əziz Qubaydullin, Xalid Səid Xocayev, Bəkir Çobanzadə, Cabbar Məmmədzadə, Artur Rudolfoviç, Zifeldt-Simumyaqi, Pənah Qasımov, Müseyib İlyasov, Cəlil Məmmədzadə, Ayna Sultanova, Fərid Xurşid, Həmid Sultanov, Mirzə Davud Hüseynov, Hüseyn Musayev, Əhməd Pepinov, İbrahim Rza Şəbüstəri, Həsən Musayev.

Birinci Türkoloji Qurultayda adları rəsmi siyahıya daxil edilməyən, müəyyən təkliflər əsasında dəvət olunan tanınmış ziyalılar, elm adamları və yazıçılar da iştirak etmişlər. Cəlil Məmmədquluzadə, Hüseyn Cavid, Abdulla Şaiq, Vəli Xuluflu, Salman Mümtaz, İsmayıl Hikmət, Əli Nazim, Əmin Abid, Cəfər Cabbarlı, Əziz Şərif və başqaları da Birinci Türkoloji Qurultayda təmsil olunmuşlar. Lakin təssüflər olsun ki, sonrakı dövrlərdə Birinci Türkoloji Qurultayının demək olar ki, bütün iştirakçıları, o cümlədən Müseyib İlyasov repressiya qurbanı olmuşdular (18).

NƏTİCƏ

Görkəmli maarifpərvər M.İlyasovun xaıq qarşısında xidmətləri o zamankı sovet rəhbərliyi tərəfindən qiymətləndirilməsə də, dövrün mütərəqqi fikirli ziyalıları, onun fəaliyyətinin bilavasitə şahidi olan vətənpərvər ziyalaılarımız tətrəfindən qələmə alınmış və o həm bir şəxsiyyət kimi, həm də görkəmli maarif xadimi kimi xarakterizə edilmişdir. Xalq yazıçıları Süleyman Rəhimov, Əli Vəliyev, görkəmli ədəbiyyatşünaslar Əli Səbri, Əli Fəhmi, professor Məmmədəli Məhərrəmov, professor Hüseyn Əhmədov, professor Fikrət Seyidov, dosent Salman Salahov və b. onun haqqında bu gün də təhsil işçiləri üçün örnək ola biləcək xatirəıər və məqalələr yazmışlar.

1974-cü ildə Şuşa şəhərində Seminariyanın ilk buraxılışının 50 illiyi təntənəli surətdə qeyd edilmişdir. Müseyib İlyasovun qızı, o zaman Təhsil Nazirliyində metodist vəzifəsində işləyən bibim Firuzə İlyasova da həmin yığıncağa dəvət edilmiş və orada iştirak etmişdir.

MƏNBƏ

1. ARDTA,f.309,siy.4.iş.440,v.2-2(arxa üzü)
2. ARDTA,f.309,siy.4.iş.440,v.3
3. ARDTA,f.309,siy.4.iş.440,v.3(arxa üzü)
4. ARDTA,f.309,siy.4.iş.440,v.1a
5. ARDTA,f.309,siy.4.iş.440,v.6;13
6. ARDTA,f.309,siy.4.iş.440,v.4
7. ARDTA,f.309,siy.4.iş.440,v.13
8. ARDTA,f.309,siy.4.iş.440,v.5
9. Zaqafqaziya (Qori) Müəllimlər Seminariyası Azərbaycan şöbəsi(1879-2009).səh.50
10. ARDTA,f.391,siy.1.iş.1086,v.2
11. ARDTA,f.391,siy.1.iş.1086,v.2
12. ARDA,f.57.siy.1,iş.22,v.16
13. İlyasov M.İ. Adını və soyadını daşıdığım babam. "Xəbərlər" (Pedaqoji və psixoloji elmlər

seriyası), № 2, səh.109

14. ARDA,f.57.siy.1,iş.22,v.49
15. ARDA.f.57.siy.1.iş.175.v.152
16 . ARDA.f.57.siy.1.iş.175.v.151-151(arxa üzü)
17. ARDƏİA,f.24410,siy.2,v.3 (arxa üzü)
18. Babayev A. Türksoyun birlik səsi. Bakı: "Təhsil" nəşriyyatı, 2006.

LEKSİK TERMİNOLOJİ VAHİDLƏRİN KULTUROLOJİ İNFORMASİYASI

CULTUROLOGICAL INFORMATION OF LEXICAL TERMINOLOGICAL UNITS

Vəliyeva Samirə Yusifəli qızı

Odlar Yurdu Unversiteti

ORCID ID: 0000-0002-5568-859X

Açar sözlər: Leksik terminoloji vahidlər, kulturoloji informasiya

Məqalədə informasiyanın dil vahidləri,qrafik vahidlər, eyni zamanda kommunikativ-koqnitiv fonla ötürülməsi , məhz bu ümumi bilik fonu üzərində leksik terminoloji vahidin yaranması və onun linqvokulturoloji kodunun açılması xüsusiyyətləri şərh edilir. Bu səbəbdən leksik terminoloji vahidlər vasitəsi ilə verilən informasiyanın dərkedilməsi presuppozisiya ilə bağlı məsələdir. İnformasiyanın bir sıra növləri vardır. Onlardan ən mühümü mədəni səciyyə daşıyan informasiyadır.Mədəni informasiyanın əldə edilməsi üçün leksik-terminoloji sistemə kulturoloji baxımdan da yanaşılmalıdır. Linqvokuturologiya müasir linqvistikanın antroposentrik və inteqrasiyanın inikası kimi görünür Terminoloji informasiya dilin terminlər vasitəsi ilə verilən informasiyadır..Kulturoloji informasiyanın ötürülməsində terminoloji vahidlər prioritet rol oynayır. Termin kollektivin professional-elmi fəaliyyətin daşıyıcısıdır. İnformasiya koqnitiv prosedurda -dünyanın məlumat xəritəsidir. Kulturoloji istiqamətdə terminoloji informasiya aşağıdakı vasitələr sırasını əhatə edir: kumulyativlik, yaradıcı (qurucu), ciddi-cəhd, səpələtmə, dağıtma.

Terminlərin kulturoloji istiqamətdə struktur vasitələri, semantik informativliyi, obyektiv fəaliyyəti onların fiksasiyasını əhatə edir. Burada terminin daxili forması mühüm rol oynayır. Termin motivləşir. Köməkçi terminelementlər informasiyını daşıyır.

Fikrin "assimliyasiya" prosesi faydalı informasiyaları dil işarələrinin köməyilə ilə dəyişdirilir, əvəz edilir, bu zaman inetellektual informasiya meydana çıxır.

İnsanın nominativ fəaliyyəti dünyanın konseptual-dil fundamenti ilə təməli qoyulur, özlü atılır. Nominasiya prosesində sosial təcrübə dil daşıyıcısı olaraq əks olunur, bu, konkret xalqın mədəni-tarixi inkişafı ilə əlaqədə, bütün insan kollektivinin dərketmə təcrübəsi ilə bağlı şəkildə olur. Terminoloji nominasiyanın (adlandırmanın) spesifikası professional-elmi kommunikasiya prosesinin xüsusi növü kimidir. **Dil şüurunda ümumdil informasiyası teminoloji informasiyaya transformasiya olunur (çevrilir**). İntellektin dinamik informasiyası əlverişli biçimə düşür. Terminoloji informasiyanın praqmatik dəyəri insan əxlaqı və onun düşüncə vasitələri ilə üzə çıxır. İnformasiyanın dilə təsiri ilə insan yüksəlir.

Beləliklə, koqnitiv-kulturoloji istiqamətdə leksik-terminoloji vahidlərin informasiya strukturunun təhlili probleminin həllində aşağıdakı məsələlərə aydınlıq gətirilməlir:

-terminoloji nominasiya və predikativlik əlaqəsi problemi;

-mətndə kommunikativ effektin yaranmasında terminlərin rolu;

-teminoloji informasiyanın xüsusiyyətləri.

Beləliklə, bu hissədə informasiya sisteminin kulturoloji aspektləri öyrənilir. Həmin informasiya mədəni informasiyadır. Bu informasiya leksik-terminoloji vahidlər vasitəsilə verilir.

ABSTRACT

Key words: lexical terminological units, culturological information

The article explains the transfer of information through language units, graphic units, as well as the communicative-cognitive background, and the emergence of a lexical terminological unit on this general background of knowledge and the features of the disclosure of its linguocultural code. Therefore, the perception of information given through lexical terminological units is a matter of presupposition. There are several types of information. The most important of them is cultural information. To gain cultural information, the lexical-terminological system must be approached from a cultural point of view. Linguoculturology seems to be an anthropocentric and integrated reflection of modern linguistics.

Terminological units play a priority role in the transmission of cultural information. Terminological information in the cultural field covers the following means: cumulativity, creative, serious-effort, scattering, destruction.

Structural means, semantic informativeness of terms in the cultural direction cover their fixation. The internal form of the term plays an important role. The "assimilation" of thought is replaced by useful information through language symbols, and so intellectual information emerges.

Nominative activity of a person is based on the conceptual-language foundation of the world.. **In linguistic consciousness, general-linguistic information is transformed into teminological information**. The pragmatic value of terminological information is reflected in human morality. With the influence of language on information, humanity rises.

Thus, in solving the problem of analysis of the information structure of lexical-terminological units in the cognitive-cultural direction, the following issues should be clarified:

- the problem of the connection between terminological nomination and predicative;

- the role of terms in creating a communicative effect;

- features of teminological information.

So, in this section, the culturological aspects of the information system are studied. That information is cultural information. This information is provided through lexical-terminological units.

Дяркетмя еля фялсяфи категорийадыр ки, о бир тяряфдян, инсанын эерчяклийи мягсядйюнлц шякилдя якс етдирмясини ифадя едир, башга бир тяряфдян ися йалныз мадди варлыьы тязащцр етдирмякля мящдудлашмыр, о щям дя мяняви дяйярлярин истещсалыдыр.

Жямиййятин щяйат фяалиййяти просесиндя дяркетмянин йаранмасы иля баьлы дцшцнся вя коммуникасийанын универсал ифадя васитяси кими дил мейдана эялир вя фяалиййят эюстярир.

Тябии дил елми анлайышларын илк ифадя васитяси олмушдур. Бу бахымдан ятраф алямин сисим, предмет, щадися вя с.-нин дяркетмя фяалиййятиндя дилин ролу бюйцкдцр.

XX йцзилдя Бюйцк Британийада, АБШ-да, Канадада, бир сыра Авропа юлкяляриндя «лингвистик дюнцш» адланан щадися баш верди, дил феномениня нязяри мараьын йени дальасы галхды.

Бу о демякдир ки, информасийанын щансы васитялярля верилир-верилсин, дяхли йохдур, дцзэцн гавранылмасы йалныз дил ващидляри, график ващидляр вя дил васитяляри иля тямин олунмур, щям дя цмуми билик фону, диэяр сюзля, коммуникатив-когнитив фонла тямин олунур. Мящз бу цмуми билик фону цзяриндя лексик-терминолоъи ващидин йаранмасы вя онун лингвокултуролоъи кодунун ачылмасы реаллашыр. Бу сябябдян лексик-терминолоъи ващидляр васитясиля верилян информасийанын дяркедилмяси пресуппозисийа иля баьлы мясялядир.

Културолоэийа бир елм кими дил шяхсиййятинин дцшцнжясинин, дил категорийасы вя консептлярин сайясиндя формалашмыш вя тяшкил олунмушдур. Милли мядяни код йаранмышдыр. Шцур вя коммуникасийа бу коду «идаря етмишдир».

Дил няинки реаллыы якс етдирир, щям дя юз васитяляри иля информасийаны формалашдырыр. Щямин васитялярдян бири дя лексик-терминолоъи ващидлярдир. Лексик-терминолоъи ващидляр васитясиля мцхтялиф информасийаларын ютцрцлмяси цзяриндя тядгигатын юнжяки

щиссяляриндя бящс етмишик. Бу йазыда ися щямин ващидляр васитясиля културолоъи информасийаларын верилмясиндян данышылажаг.

Гейд едяк ки, тядгигатчылар *«дил-мядяниййят-инсан-етнос»* дюрдлцйцнц лингвистикада йени парадигма кими мцяййянляшдирмишляр. **(1, с.3 (204 с.)**

Информасийаларын бир сыра нювляри вардыр. Онлардан ян мцщцмц мядяни сяжиййя дашыйан информасийалардыр. Мядяни информасийаларын ялдя едилмяси цчцн лексик-терминолоъи системя лингвокультуролоъи бахымдан да йанашылмалыдыр. Лингвокультуролоэийа мцасир лингвистиканын антропосентрик вя интеграсийасынын иникасы кими эюрцнцр. Беля ки, дил инсанын мяняви эцжцнц вя щяртяряфли фяалиййятини лексик-терминолоъи ващидлярля дя стимуллашдырыр. **(2, с.52)**

Бу сащядя чохпланлы ясярлярин мцяллифи М.Володин рус дили терминляринин когнитив-информасийа тябиятини терминолоъи номинасийа базасы фонунда тядгиг етмишдир. Мцасир Азярбайжан терминолоэийасында илк тядгигат олдуьу цчцн биз М.Володинин терминин мязмуну вя терминолоъи номинасийа, терминин мянасынын консептуал моделляри, терминолоъи номинасийада психолингвистик, когнитив-информасийа, лингвистик вя лингво-прагматик аспектляр, терминин когнитив-културолоъи хцсусиййятляри, функсионал-коммуникатив трасформасийа исигамятляри вя с. тезисляри тядгигатымыза (щямин мцяллифя миннятдарыг щисси иля!) тятбиг етмишик.

М.Володина йазыр: «*Бу эцн терминин информасийа дашыйыжысы хцсуси, актуал анлайыш олдуьу цчцн терминщнаслыгда конкрет елми истигамят терминйарадыжы фяалиййятинин тящлилиня щяср олунмалыдыр»* **(3, с. 3)**

М.Володинанын фикринжя, «*терминин когнитив информасийа мащиййяти профессионал-елми ялагя просеси иля, терминйаратманын бцтцн истигамятляриндя номинатив фяалиййятин мянзяряси вя активлийи иля, конкрет дил мяканында информасийа ахыны иля, дяркетмянин инкишафынын айрылмаг, гырылмаз сурятдя баьлылыьы иля мцяййянляшир*» **(3 (345 с.)**

Бу мювзуйа юз мцнасибятини С.Иванова беля эюстярир: *«Дилин лексик-терминолоъи ващидляри информасийанын милли- мядяни хцсусиййятлярини, образлылыг мащиййятини цзя чыхарыр»* **(4, с.21. (116 с.)**

Йухарыда дейилдийи кими, информасийанын бир нювц дилля мядяниййятин гаршылыглы ялагясини ифадя едян лингвокультуролоэийайа аиддир. Дцнйа мянзяряси щаггында информасийанын бюйцк щиссяси инсанын лингвистик каналы иля ютцрцлцр, чцнки инсан даща чох дцнйа консептляри иля йашайыр, фяалиййят эюстярир, бу мцщиддя онун шцуру, дяркетмяси, интеллекти, мяняви-сосиал алями, предмет вя яшйалара, щадисяляр, сосиал варлыьа мцнасибяти формалашыр. Менталитетли халгын дил васитясиля щямин мясяляляря мцнасибяти ачылыр вя айдынлашдырылыр. Щямин информасийа термин характерли сюзляр вя ифадялярля дя вериля билир.

Гейд едяк ки, културолоъи информасийа мядяни информасийадыр. Бу информасийанын ясасында инсан амили дайаныр. Мядяни информасийалар юнжя инсанлары, халглары бир-бириля йахынлашдырыр, икинжиси ися онларын бир-бирини кифайят гядяр йахшы баша дцшмяляриня имкан вя шяраит йарадыр.

Щяр щансы дил щадисясиндя мцяййян мядяни информасийа мювжуддур вя щямин мядяни мялуматлар мцяййян щяйат щадисяляри нятижясиндя инсанын шцурунда топланараг консептляр бичиминдя йараныр вя йери эялдикдя дил васитясиля шярщ едилир.

Консептляр инсанларын ятраф алям, дцнйа барядяки шцур вя биликляринин компонентидир. «Щяр бир лингвомядяни жямиййятин менталитети онун цзвляринин дцнйаэюрцшц, щямчинин дцнйаны дярк етмясинин тямсил олундуьу дцнйанын мянзяряси ися фяргляшдирилир. Инсанлар тяжрцбя газанмагла ону уйьун консептляря трансформасийа едир вя консептляр юз араларында мянтиги бахымдан ялагялянмякля мцяййян консептуал системи формалашдырыр.

Ф.Вейсялли «дцнйа мянзяряси анлайышы» щаггында йазыр: «Дцнйа мянзяряси дилчилик вя културолоэийа цчцн сон заманлар бюйцк ящямиййят кясб едир. Дцнйа мянзяряси дедикдя ижтимаи шцурда (фярди вя коллектив шцурда) эерчяклик щаггында биликлярин низамлы мяжмусунун формалашмасы баша дцшцлцр. **(5).**

Дцнйа мянзярясинин ясасында инсанын ялагядя олдуьу ятраф алямин онун тясяввцрцндя формалашмыш модели дурур. Бу да елми-фялсяфи вя дилчилик ядябиййатында дцнйа мянзяряси консептиля ейниляшдирилир. Консептляр шцурда дяйишиклийя мяруз галмаг яламяти дашыйыр. Консепт образ кими ямяля эялир, лакин сонра йаваш-йаваш щисси образдан тяфяккцр образына йцксялир» **(6, с.39 (120 с.)**

Лексик-терминолоъи ващидлярдя мядяниййятля баьлы анлайышлар чохдур. Ясас мясялялярдян бири лексик-терминолоъи ващидляр васитясиля инсана айры-айры каналлар васитяси иля ахан информасийанын емал едилмясинин тядгигидир. Бу информасийа консептуал сяжиййялидир. «Консептуал информасийа мцряккяб характер дашыйыр. Бу информасийа ясярин цмуми идейасы иля билаваситя баьлы олур вя бцтцн ясяр бойу гейри-бярабяр шякилдя пайланыр. Консептуал информасийа ясяр охундугжа формалашыр, ясярин сонунда там шяклини алыр» **(7,с.6 (104 с.)**

Мядяниййят (кцлтцр), инсан жямиййятляриндя мювжуд олан сосиал давраныш вя нормалары, ейни заманда бу груплардакы шяхслярин биликлярини, инанжларыны, сянятлярини, ганунларыны, адятлярини, имканларыны вя вярдишлярини ящатя едян бир чятир терминдир.

Информасийа мядяниййяти анлайышынын културолоъи тящлили онун шяхсиййятин формалашмасы просесиндя мцщцм ролуну ортайа гойур. «Мядяниййят» вя «информасийа» категорийаларынын мцасир сосиомядяни шяртляри онлары бир арайа эятирир. Информасийалашдырманын тясири яняняви мядяниййятин адабтасийа механизмини стимуллашдырыр, йени тип мядяниййятин - информасийа мядяниййятинин формалашма просесини якс етдирир **(8, с.3)**

borcluyuq.Azərbaycan xalqına borcluyuq.Xalq birləşdi, xalq həmrəylik göstərdi ,bir yumruq kimi birləşdi və bu Qələbəni Azərbycan xalqı qazandı.Bu bizim hamımızın qələbəsidir.Biz bu gözəl ənənəni bərpa etdik və bundan sonra Xarıbülbül festivalı Şuşada hər il keçiriləcək". Bu, bütün dünyaya Şuşadan , qədim torpaqlarımızdan verilən mesaj idi.30 illik fasilədən sonra bu il birinci dəfə keçirilən "Xarıbülbül" festivalının şəhidlərimizin əziz xatirəsinə həsr olunması böyük əhəmiyyətə malikdir, 44 günlük Vətən müharibəsində qazanılmış Zəfərin mədəniyyət sahəsində davamıdır."Xarıbülbül" festivalı milli birliyimizin , qürur , zəfər , ləyaqət , qələbəmizin, ədalətin bərpasının rəmzidir. "V Xarıbülbül " festivalında Azərbaycan xalqı bir daha bütün dünyaya öz milli birliyini, multikultralizm ənənələrinə sadiqliyini nümayiş etdirdi.Tədbirin ilk günü Azərbaycanda yaşayan etnik xalqların folklor ansambllarının çıxışları oldu.Azərbaycan xanəndələrinin müxtəlif illərdə Şuşada lentə alınmış ifalarından ibarət videoçarxlar nümayiş etdirilib, klassik musiqi əsərləri təqdim olundu."VXarıbülbül" beynəlxalq festivalı tarixi əhəmiyyəti böykdür.Prezident İlham Əliyevin tapşırığına uygun olaraq Heydər Əliyev Fondunun təşkil etdiyi möhtəşəm Xarıbülbül musiqi festivalının keçirilməsi Qarabagın tarixi simasının , Şuşanın mədəniyyət mərkəzi statusunun bərpasını təcəssüm etdirir.Tarixi-mədəni əhəmiyyəti və Azərbaycan xalqı üçün müstəsna mənəvi dəyərə malik olması Şuşaya xüsusi qaygı və həssaslıqla yanaşmasını zəruri edir.Bu baxımdan Şuşada dövlət idarəetməsinin və hüquqi tənzimlənmənin daha da təkmilləşdirilməsi şəhərdə tarixi – mədəni irsin bərpasına və qorunub saxlanmasına xidmət etməklə yanaşı , onun daim inkişafına şərait yaradacaqdır.Şuşa Azərbaycan xalqının milli sərvətidir.Ermənilər nə qədər çalışsalarda , Şuşadan Azərbaycan milli ruhunu silə bilmədilər.Vətən müharibəsindəki Qələbədə Azərbaycanda yaşayan bütün icmaların payı, tövhəsi vardır.Azərbaycan Prezidenti İlham Əliyevin tövhəsi ilə bu ilki "Xarıbülbül " festivalı Azərbaycan multikultralizm ənənələrinin simvoluna şevrildi.Bu gün Azərbaycan toleriant, mehriban birgəyaşama mədəniyyəti baxımından artıq dünya üçün bir örnəkdir.Tarixən müxtəlif xalqların və dinlərin arasında qarşılıqlı hörmətə və etimada əsaslanan səmimi dostluq və əməkdaşlıq münasibətlərinin ölkəmizdə mövcudlugu yüksək toleriantlıq ənənələrinin formalaşdışı dünyəvi , çoxmillətli və çoxkonvensiyalı dövlət kimi təqdim edir.44 gün ərzində torpaqlarımızın işgaldan azad olunması üçün bütün etnik və dini icmaların nümayəndələri vahid amal , vahid bayraq altında birləşərək çiyin – çiyinə döyüşməklə birliyimizi dünyaya nümayiş etdirdi.Festivalın məhz Ramazan bayramı ərəfəsində təşkil edilməsi də böyük əhəmiyyət kəsb edir.Şuşa Pənahəli xanın dövründən dini dəyərlərə xüsusi diqqət yetirilən məkan kimi tanınıb.Azərbaycanlıların etnik təmizlənməsi həmişə tarixi-dini abidələrimizə qarşı vandalızm aktları ilə müşayət olunub.İslam dini Azərbaycan xalqının milli , mənəvi dəyərlərinin , mədəniyyətinin formalaşmasında müstəsna rolu olub.Milli mənəvi dəyərlərinə baglı xalq kimi hər birimiz üçün İslam dini və məscidlərimiz müqəddəsdir, toxunulmazdır.Prezident İlham Əliyev milli mənəvi dəyərlərimizın gələcək nəsillər üçün qorunmasını təblıg olunmasını xüsusi diqqət yetirir. Ramazan bayramı ilə baglı Şuşanın Yuxarı Gövhəraga məscidində bayram namazının qılınması , burada və digər azad edilən ərazilərimizdə azan səslərinin ucalması ölkəmizdə dini milli dəyərlərə xüsusi diqqət yetirilməsinin təcəssümüdür. " Xarıbülbül " festivalının keçirilməısi festival çərçivəsində mədəni əlaqələrin genişləndirilməsi , zəngin musiqi mədəniyyətimizin dünya içtimayyətinə çatdırılması, xalqlar arasında qarşılıqlı anlaşma və dostluq əlaqələrinin möhkəmləndirilməsində əhəmiyyətli rola malikdir.Azərbaycan musiqi mədəniyyətinin beynəlxalq içtimayətdə tanıdılması , digər xalqların musiqisi ilə qardaşlaşması və xalqımızın ənənəvi musiqi festivalının yenidən bərpa olunaraq dünya içtimayətinə təqdim olunması festivalın əhatə dairəsini genişləndirir və Azərbaycan xalqının mənəvi , tarixi , mədəni irsinin dünyada tanıdılmasına, qorunaraq gələcək nəsillərə ötürülməsinə misilsiz tövhədir.Və unutmaq lazım deyil ki, hər keçirilən festival bir musiqi bayramıdır.Mədəniyyət Bəşəriyyətin mənəviyyatının istinad etdiyi və qidalandıgı mənbədir.Bu baxımdan Şuşada keçirilmiş "V Xarıbülbül " festivalı dünya mədəni irsinə bir tövhədir.Şuşada təşkil olunan və olunacaq hər bir mədəni tədbir Prezidentimizin ,Şəhidlərimizin , Əsgərlərimizin ən əsası Xalqımızın əbədi şöhrətidir , qələbəsidir

ƏDƏBİYYAT SİYAHISI

1.Şuşa şəhərinin Azərbaycanın mədəniyyət paytaxtı elan edilməsi haqqında Azərbaycan Respublikası Prezidentinin 7 may 2021 serəncamı

2.medeniyyettv.az/az/news/1555/tarixi-xar;-bulbul-festivali

3.www.azerbaijan-news/az/az

4.az.m.wikipedia/org/wiki/xarıbulbul

DAĞLIQ QARABAĞ HADİSƏLƏRİ VƏ NAXÇIVAN

NAGORNO-KARABAKH EVENTS AND NAKHCHİVAN

Rəna QURBANOVA

"Naxçıvan" Universiteti

ORCID ID: 0000-0003-4210-7239

XÜLASƏ

İstər XX əsrin 90-cı illərində, istərsə də, son dövrlərdə Qarabağda baş verən hadisələr Naxçıvana təsirsiz ötüşmədi. Belə ki, ermənilərin torpaq iddialarına başlaması və öz planlarını zamanla həyata keçirərək öncə Zəngəzuru, sonra isə Qarabağı işğal etmələri Azərbaycanın bağrında dərin bir yara açdı. Bu işğal, deportasiya və soyqırım siyasəti Azərbaycanın digər bölgələri kimi, Naxçıvan üçün də böyük zərbə idi. Naxçıvanın blokadaya düşməsi ilə ermənilərin Naxçıvana olan ərazi iddiaları daha kəskin xarakter almağa başlamışdı. Qarabağda baş verən deportasiya nəticəsində əhalinin bir hissəsi də Naxçıvana üz tutmuşdu. Bu isə yerli əhalidə düşmənə qarşı nifrət yaratmışdı. Ermənilər Naxçıvanı hər vəchlə Azərbaycandan qoparıb işğal etmək niyyətində idilər. Blokada şəraiti əhalinin aclıq, yoxsulluq, sərt soyuqla olan imtahanına gətirib çıxarmışdı. İşıq, qaz kəsilmiş, eyni zamanda Sədərəkdə də şiddətli döyüşlər getmişdir. Ümummilli Lider Heydər Əliyevin uzaqgörən siyasəti nəticəsində Naxçıvan bütün çətinliklərdən və təhlükələrdən qurtulmuş, düşmənin işğal planı puça çıxmışdır. Azərbaycanın ən çətin dövründə müxtəlif əhəmiyyətli məsələlərin həllində qardaş Türkiyə ilə aparılan əməkdaşlıq və əlaqələrin də böyük payı var. 2020-ci ilə qədər işğal altında olan ərazilərimizin danışıqlar yolu ilə geri qaytarılması səylərinə baxmayaraq, aparılan bu danışıqlar heç bir səmərə verməmişdir. Həmçinin ermənilərin cəbhəboyu törətdikləri təxribatlar nəticəsində Azərbaycan çoxlu şəhidlər versə də, 2016-cı ilin aprel döyüşləri torpaqlarımızın işğaldan azad olunması üçün ümidlərimizi dirçəltmişdir. Azərbaycan rəhbərliyinin yeritdiyi düzgün siyasət və ordu-xalq birliyi sayəsində 2020-ci ilin sentyabrında başlayan 44 günlük müharibə qələbə ilə başa çatmış və torpaqlarımız işğaldan azad olmuşdur. Bu qələbə Zəngəzur dəhlizinin açılmasına, Naxçıvanın blokadadan çıxmasına, yenidən quru yolla Azərbaycana birləşməsinə və bir sıra mühüm məsələnin həllinə şərait yaratmışdır. Naxçıvan Azərbaycanın ayrılmaz tərkib hissəsidir, uzun illər Qarabağın işğalı yenə də Naxçıvanı Azərbaycandan ayıra bilməmiş və Azərbaycanın qazandığı qələbə ilə bu bir daha öz təsdiqini tapmışdır. Məqalədə Qarabağın işğalının Naxçıvana vurduğu zərərlərdən və işğalın başa çatmasının Naxçıvan üçün əhəmiyyətindən bəhs olunacaqdır.

Açar sözlər: Dağlıq Qarabağ, Naxçıvan, işğal, qələbə, Azərbaycan

ABSTRACT

The events in Karabakh, both in the 1990s and in recent times, did not pass unnoticed in Nakhchivan. Thus, the beginning of the Armenian land claims and the implementation of its plans over time, first the occupation of Zangazur and then Karabakh, opened a deep wound in the heart of Azerbaijan. This policy of occupation, deportation and genocide was a great blow for Nakhchivan, as well as to other regions of Azerbaijan. With the blockade of Nakhchivan, the territorial claims of the Armenians to Nakhchivan became more acute. As a result of the deportation in Karabakh, part of the population also turned to Nakhchivan. This created hatred against the enemy among the local population. The Armenians intended to take Nakhchivan from Azerbaijan by all means. The situation of blockade led to population to hunger, poverty and severe cold. Electricity and gas were cut off, and fierce fighting had happened in Sadarak. As a result of the far-sighted policy of the national leader Haydar Aliyev, Nakhchivan got rid of all difficulties and dangers, and the enemy's plan of occupation failed. Cooperation and relations with brotherly Turkey also play an important role in resolving various important issues in the most difficult period of Azerbaijan. Despite attempts to return our occupied territories through negotiations by 2020,

these talks were to no avail. Also, although Azerbaijan lost many martyrs as a result of provocations committed by Armenians on the frontline, the fighting in April 2016 revived our hopes for the liberation of our lands from occupation. Thanks to the correct policy pursued by the Azerbaijani leadership and the army-people's unity, the 44-day war, which began in September 2020, ended in victory and our lands were liberated from occupation. This victory created situation for the opening of the Zangazur corridor, the release of Nakhchivan from the blockade, the reunification of Azerbaijan by land and the solution of a number of important issues. Nakhchivan is an integral part of Azerbaijan, for many years the occupation of Karabakh still could not separate Nakhchivan from Azerbaijan, and this was confirmed by the victory of Azerbaijan. The article will discuss the damage caused by the occupation of Karabakh to Nakhchivan and the importance of the end of the occupation for Nakhchivan.

Keywords: Nagorno-Karabakh, Nakhchivan, occupation, victory, Azerbaijan

GİRİŞ

Yerləşdiyi coğrafi mövqeyə görə deyə bilərik ki, Azərbaycan tarix boyu qonşu dövlətlərin təzyiqlərinə məruz qalmışdır. Regionda güc və üstünlük əldə etmək istəyən düşmənlərimiz zaman-zaman torpaqlarımızı işğal etmək niyyətinə düşmüş, qarşıdurmalar yaradaraq, öz lobbilərini gücləndirərək və müxtəlif yollara əl ataraq müəyyən dövrlərdə bu istəklərinə nail olmuşlar. Düşmənin məkrli işğal planı nəticəsində torpaqlarımız işğal olunmuşdur. İşğaldan öncə həmin torpaqlarda yaşayan azərbaycanlılar öz torpaqlarından zorla çıxarılmış, öldürülmüş, azərbaycanlılara qarşı yönəldilmiş qətliam və soyqırım siyasəti həyata keçirilmişdir. Bu siyasətin davamı kimi XX əsrin 80-90-cı illərini qeyd etmək olar. Sovet hökuməti dağıldıqdan sonra müstəqillik əldə etmiş Azərbaycan dövləti Rusiyanın havadarlıq etdiyi Ermənistan tərəfindən təqib olunmuş, ermənilər özlərinin "Böyük Ermənistan" yaratmaq xülyalarını Azərbaycan torpaqları hesabına reallaşdırmağa cəhd göstərmişlər. Bütün bunlar ağır bir dövrün başlanğıcını qoymuş, lakin həyata keçirilmiş düzgün siyasət nəticəsində bu dövr bitmiş, uzun bir mübarizədən sonra Azərbaycan əldə etdiyi qələbə ilə yeni bir dövrə qədəm qoymuşdur.

Cənubi Qafqazda mühüm coğrafi-strateji üstünlüyə malik olan Azərbaycan Respublikasında yaşayan azərbaycanlılar ermənilər tərəfindən 4 dəfə - 1905-1907, 1918-1920, 1948-1953, 1988-1993-cü illərdə kütləvi qırğına, deportasiyaya məruz qalmışlar [8]. XX əsrin əvvəllərindən ermənilərin Azərbaycana doğru qabarmaqda olan düşmənçilik münasibətləri onların gələcək illərdə Azərbaycana ərazi iddiaları ilə çıxış etmələrini təxmin etməyə əsas verir. Bu düşmənçilik münasibətləri ermənilərı Dağlıq Qarabağın, Naxçıvanın işğalına addım-addım yaxınlaşdırırdı.

Dağlıq Qarabağ problemi Azərbaycanla Ermənistan arasındakı şiddətli çəkişmələrin ardıcıl və mərhələli şəkildə davam etməsinə səbəb olmuşdur. Qarabağla Dağlıq Qarabağı qarışdırmaq olmaz. Dağlıq Qarabağ ərazisi Qarabağın 18.000 km^2-dən 4392 km^2-lik bir hissəsini əhatə edir. Yerləşdiyi coğrafi mövqeyə görə Dağlıq Qarabağ bölgədəki bütün dövlətlərin maraq dairəsində olmuşdur. Bu maraq Azərbaycanı Ermənistanla gərgin münasibətlər zəminində baş vermiş mübarizə meydanına çevirmişdir.

Azərbaycan Xalq Cümhuriyyəti yaranana qədər və sonrakı dövrdə də Qarabağ Azərbaycanın tərkibində olmuşdur. Sovet hökumətinin zamanında da Dağlıq Qarabağ Azərbaycana məxsus bir ərazi idi. Lakin, SSRİ dağıldıqdan sonra Azərbaycan və Ermənistan eyni zamanda müstəqillik qazandıqları üçün ermənilər Dağlıq Qarabağa torpaq iddialarına başladılar. Hadisələrin eyni vaxtda cərəyan etməsi Dağlıq Qarabağın hansı dövlətə aid olması ilə bağlı problemləri məhz bu zamandan doğururdu. Ermənistan Dağlıq Qarabağın Azərbaycandan qoparılaraq onun tərkibinə qatılmasına cəhdlər etsə də, bu cəhdlər nəticəsiz qaldı. 7 iyul 1923-cü ildə Dağlıq Qarabağa Azərbaycanın tərkibində Muxtar Vilayət statusu verildi. 1980-ci illərin ortalarında ermənilərin Dağlıq Qarabağa yenidən ərazi iddiaları uğursuzluqla nəticələndi. Ermənilər Qarabağa olan iddialarından əl çəkmir və hər fürsətdə öz məkrli planlarını həyata keçirməyə cəhd edirdilər. Ermənilər daima "Böyük Ermənistan" xülyası ilə özlərini aldadır, yazıq və torpaqsız bir millət cildinə bürünərək özlərinə havadarlar axtarmağa çalışırdılar və buna nail oldular.

Hələ 1987-ci illərdə İrəvanda ermənilər mitinqlər, yürüşlər təşkil edir, Qarabağ Arsaxdır şüarı ilə çıxışlar edir, əhalini azərbaycanlılara qarşı zorakılığa səsləyirdilər. 1988-ci il 12 fevralda DQMV-də gizli fəaliyyət göstərən millətçi "Krunk"un təşkilatçılığı ilə ermənilər DQMV-nin Ermənistana birləşdirilməsi tələbi ilə Xankəndində ilk mitinq keçirdilər [3, s. 47]. Eyni zamanda ermənilər arasında

Qarabağın Ermənistana birləşdirilməsinə dəstək məqsədilə imza kampaniyaları təşkil olunur, pul toplanılırdı. Fevral ayının 19-da İrəvanda kütləvi mitinqlər başladı. "Ermənistanı türklərdən təmizləməli!", "Ermənistan yalnız ermənilər üçündür!" kimi şüarlarla çıxış edən ermənilər tərəfindən mitinqlərin üçüncü günü İrəvanda salamat qalmış yeganə məscid binası (XX əsrin əvvələrində şəhərdə 8 məscid olmuşdur) və azərbaycanlı orta məktəbi, C.Cabbarlı adına İrəvan Azərbaycan Dövlət Dram Teatrının ləvazimatı yandırıldı [2]. Fevralın 20-də DQMV xalq deputatları Sovetinin XX çağırış növbədənkənar sessiyası "DQMV-nin Azərbaycan SSR tərkibindən Ermənistan SSR tərkibinə verilməsi haqqında Azərbaycan SSR və Ermənistan SSR Ali Sovetləri qarşısında vəsadət qaldırmaq barəsində" qərar qəbul etdi [3, s. 47]. Erməni əsilli deputatlar (azərbaycanlı və digər millətlərdən olan deputatlar iclasda iştirak etməyib) Dağlıq Qarabağ Muxtar Vilayətinin Ermənistan SSR-ə birləşdirilməsi təklifinin lehinə səs vermişdilər. Ermənilər Qarabağın Ermənistan SSR-ə birləşdirilməsi haqqında qərara etiraz edən azərbaycanlıları vəhşicəsinə öldürmüşdülər. 1988-ci il fevral ayının 22-də DQMV partiya fəallarının yığıncağında ermənilərin torpaq tələbləri hər iki tərəfin mənafeyi üçün zidd hesab olunmuş, bu tələblərin hər iki tərəfə ciddi zərər verəcəyi qənaətinə gəlinmiş, lakin bu yığıncaqda deyilənlər elə kağız üzərində də qalmışdır. Azərbaycanlılar ermənilər tərəfindən öz torpaqlarından zorla köçürülür və istismara məruz qalırdılar. Artıq XX əsrin 80-ci illərinin sonlarında ermənilərin torpaq iddialarının yeni bir mərhələsi başlamışdı. Bu hərəkatın əsas aparıcı qüvvəsi olan "Krunk" təşkilatı da gizli fəaliyyət göstərirdi [3, s. 45]. Qeyd edək ki, fevral ayında İrəvanda "Qarabağ" və Xankəndində "Krunk" adı ilə fəaliyyətə başlayan təşkilatlar Dağlıq Qarabağın Ermənistana birləşdirilməsinə kömək məqsədi ilə yaradılmışdır.

Azərbaycanlılar Qarabağın Azərbaycandan qoparılaraq Ermənistana birləşdirilməsi ilə razılaşmaq istəmirdilər. 1988-ci il fevral ayının 22-23-də - "DQMV Azərbaycanın ayrılmaz tərkib hissəsidir" şüarları ilə Bakıda və Sumqayıtda ilk mitinqlər keçirildi [3, s. 48]. Bütün səylərə baxmayaraq ermənilər azərbaycanlılar yaşayan bölgələrə hücumlar edir, onların evlərini yandırır, etnik təmizləmə siyasəti həyata keçirərək azərbaycanlıların kütləvi məcburi köçünə səbəb olurdular. *1948-1953-cü illərdə 144654 nəfər, 1988-1992-ci illərdə isə 250 min soydaşımız indiki Ermənistan ərazisindən, azərbaycanlıların tarixən yaşadıqları ata-baba yurdundan zorla çıxarılmış və 229 nəfər azərbaycanlı isə vəhşicəsinə qətlə yetirilmişdir [4, s.74].*

1989-cu il noyabrın 28-də Qarabağın yenidən Azərbaycanın tərkibində saxlanılmasına qərar verilsə də, Ermənistan SSR Ali Soveti 1989-cu il dekabrın 1-də "Ermənistan SSR-in və Dağlıq Qarabağın birləşməsi haqqında" qərar qəbul etmiş və DQMV-nin sosial-iqtisadi inkişaf planını Ermənistan SSR-in 1990-cı il üçün planına daxil etmişdir. Ermənilər öz təcavüzkarlıq niyyətlərini açıq şəkildə nümayiş etdirirdilər.

Ermənistanda antitürk hərəkatı daha da genişlənirdi. Erməni şovinistlərinin azərbaycanlıları öz tarixi torpaqlarından qovması öz strateji məqsədlərinə çatmaq yolunda birinci mərhələ idi. Deportasiya olunan azərbaycanlılar Ermənistanla sərhəd rayonlara üz tutmuşdular. Lakin onların ümid yeri Naxçıvan idi. "Naxçıvan əhalisi XX əsrin əvvəllərində olduğu kimi, əsrin sonlarında da erməni millətçilərinin təqiblərindən qaçıb canını qurtarmış soydaşlarına sığınacaq vermiş, onlara pənah gətirənlərə qayğı göstərmişdir" [4, s.13]. Naxçıvana üz tutan soydaşlarımızı qarşılamaq, onları yerləşdirmək, onların tələbatlarını ödəmək məqsədilə hər bir naxçıvanlı köməyini əsirgəmədi.

Naxçıvana qovulan azərbaycanlılardan çoxu işğəncələrə məruz qalıb, onların arasında ölən və yaralılar da az deyildi. Naxçıvanda yaralılara tibbi yardım göstərilirdi. "1988-ci ilin ilk ayı ərzində Ermənistan SSR-dən Naxçıvana 9088 nəfər qaçqın (1853 ailə) gəlmişdir ki, onlardan 2493-ü (427 ailə) müvəqqəti olaraq Sədərək kəndində, yerli sakinlərin evlərində, müxtəlif ictimai binalarda, məktəblərdə yerləşdirilmişdir" [4, s.13-14]. Ümumiyyətlə Dağlıq Qarabağ hadisələrinin başlanmasından 1989-cu ilin sonunadək ermənilər 216 azərbaycanlını qətlə yetirmişdilər [9, s.23]

1988-ci ilin aprel ayında Naxçıvana Ermənistandan təxminən 8 mindən artıq qaçqın üz tutmuşdur. Muxtar Respublikada qaçqınların qəbulu və yerləşdirilməsi ilə bağlı Naxçıvan Muxtar Respublikası Nazirlər Soveti Sədrinin birinci müavinin sədrliyi ilə Xüsusi Komissiya yaradılmışdır. Bu cür komissiyalar Naxçıvanın rayonlarında da yaradılmışdır.

Naxçıvana gəlmiş hər ailə yaşayış yeri, maddi yardım və ərzaq məhsulları ilə təmin olunmuşlar. Bu işin əsas ağırlığı Şərur rayonunun üzərində idi. "1988-ci ilin sonlarında bu rayonun 60-a yaxın kəndində 800 ailəni təmsil edən 2100 nəfərlik qaçqın yerləşdirilmişdir.

Qısa müddət ərzində qaçqınların əksəriyyəti yaşayış yerləri və işlə təmin edilmiş, onlara torpaq sahələri ayrılmış və uzunmüddətli ssudalar verilmişdir. Rayonda yerləşən qaçqınlara 430 min manat pul və ərzaq yardımı da göstərilmişdir" [4, s.15].

"Babək rayonunda 2500, Ordubad rayonunda 500, Culfa rayonunda 300, Şahbuz rayonunda isə 1500 qaçqın qəbul edilmiş və yerləşdirilmişdir. Babək rayonuna gəlmiş qaçqınların 757-si rayonda qeydiyyata alınmış, 1462-si Çalxanqalada, 115-si Kültəpə, Zeynəddin və Kərimbəyli kəndlərində yerləşdirilmiş, köçkünlərə 31329 manat vəsait ödənilmişdir" [4, s.15].

Bundan başqa, Muxtar Respublikanın Böyükdüz kəndi, "Ceyran bulağı" adlanan yerdə qaçqınların yerləşdirilməsi üçün yeni yaşayış məntəqəsi salınmışdır. "Burada hər bir ailə üçün fərdi ev, klub, məktəb, mağaza və digər məişət və sosial obyektlər tikilmişdi. Hər bir ailəyə 1200 kv. m. torpaq sahəsi ayrılmışdır...Qaçqınlar üçün dövlət bankının şöbəsində açılmış xüsusi hesaba rayonun müxtəlif əmək kollektivləri, ayrı-ayrı şəxslər tərəfindən 150 min manat vəsait köçürülmüşdü. Rayonun Ağdərə kəndinin qaçqınlar tərəfindən məskunlaşdırılması qərara alınmışdır" [4, s.15].

1988-1989-cu illərdə Naxçıvan Muxtar respublikasının rəhbərliyi öz ata-baba torpaqlarından qovulmuş azərbaycanlıların vəziyyətinin yaxşılaşdırılması üçün mühüm tədbirlər həyata keçirmişlər: qaçqınlar ərzaq, pul, paltar, yanacaqla təmin olunmuş, onlara yaşayış yerləri, iş, tibbi və digər məişət xidmətləri göstərilmişdir.

1989-cu ildən başlayaraq Naxçıvanda məskunlaşmış qaçqınların əksəriyyəti Bakıya köçdülər. Naxçıvanda qalan qaçqınlar isə burada daimi məskunlaşdırıqlarına görə onlar daimi pasport qeydiyyatına alındılar. Bundan başqa, qaçqınlar ev, təsərrüfat sahəsi, daimi iş yerləri ilə təmin olundular. "Təkcə Naxçıvan şəhərində 825 qaçqın daimi qeydiyyata alındı" [4, s.17].

Ermənistandan azərbaycanlıların öz tarixi torpaqlarından qovulması Azərbaycanın hər şəhər, rayon və kəndlərində qəzəblə qarşılanmışdır. Baş verənlər Muxtar Respublikanın iqtisadi, ictimai-siyasi həyatına mənfi təsir göstərməyə bilməzdi. Qarabağ hadisələri əhalini fəal mübarizəyə qaldırmışdır: minlərlə naxçıvanlı meydanlara, küçələrə çıxdı. Onlar yaranmış vəziyyətə qarşı çıxıb etiraz yürüşləri və mitinqləri keçirirdilər. Belə ki, 1988-ci il mayın 20-si Naxçıvanın özündə ermənilərin cinayətlərinin qarşısının alınması, azərbaycanlıların hüquqlarının qorunması tələbi ilə ziyalıların mintiqi keçrilmişdir.

Yaranmış vəziyyət bütün xalqı hiddətləndirmişdir. Bakıda etiraz mitinqləri daha geniş füsət almışdır. Məsələn, paytaxtın mərkəzi meydanında baş tutan mitinqdə səslənən əsas tələblər bunlardı:

1. Ermənistan Azərbaycana qarşı təcavüzünü dayandırsın;
2. Ermənistana iqtisadi sanksiyalar tətbiq edilsin və s.

Bu mitinq istirakçılarına dəstək olaraq Naxçıvanda da 30 mindən çox insanın iştirak etdiyi mitinq keçirildi. Mitinq iştirakçıları Vilayət Partiya Komitəsinin birinci katibi N.Mustafayevi mitinqə dəvət etsələr də, gəlmək əvəzinə o, mitinqçilərin üzərinə "BTR"-lər yeritmişdir. Bunun nəticəsində mitinq iştirakçılarının arasında yaralılar olmuşdur. Mitinqdə Azərbaycan Xalq Cumhurriyetinin bayrağı dalğalanırdı.

Bunu bəhanə gətirərək, noyabr ayının 24-dən Naxçıvanda xüsusi vəziyyət və komendant saatı tətbiq edildi. Xüsusi vəziyyət və komendant saatı Bakı və Gəncə şəhərlərində də tətbiq edilmişdir. 1989-cu ilin iyulun 5-də Naxçıvan şəhəri, Culfa, Ordubad, Şərur rayonlarının sakinləri tərəfindən mitinq keçirildi. Mitinq iştirakçılarının tələbləri belə idi:

1. Ermənilərin Naxçıvanın sərhəd kəndlərinə mütəmadi silahlı hücumlarının, qatarların yolunu kəsib zərər gətirmələrin qarşısının alınmasını;
2. Respublika hökumətinin Naxçıvanın müdafiəsi üçün təxirəsalınmaz tədbirlərin həyata keçirilməsini tələb edirdilər.

Nəticədə 1989-cu ilin iyulun 18-də Naxçıvan MSSR Soveti Muxtar Respublikasının təhlükəsizliyini təmin etmək məqsədilə Müdafiə Komitəsi yaradıldı. Naxçıvan Muxtar Respublikasında ictimai-siyasi vəziyyətin gündən-günə daha da gərgin olmasına baxmayaraq, demokratik qüvvələrin hərəkatı daha da genişlənirdi.

Belə ki, artıq 1989-cu ilin I yarısında Azərbaycanın müxtəlif yerlərində Azərbaycan Xalq Cəbhəsinin dayaq dəstələri fəaliyyət göstərirdi. Naxçıvanda isə 1989-cu ilin iyulunda AXC-nin şöbəsi yaradıldı, və həmin vaxtdan etibarən Naxçıvanda xalq hərəkatına AXC-nin Naxçıvan şöbəsi rəhbərlik etməyə başladı.

Oktyabr inqilabının 72-ci ildönümü ərəfəsində AXC Naxçıvan şöbəsi üzvləri bu tədbirin keçirilməsinin qarşısını almışlar. Bundan başqa, onlar 1989-cu il oktyabrın 22-də keçirdikləri mitinqdə əhaliyə müraciət edib, sözügedən tədbiri baykot etməyə səsləmişdilər. Mitinqdə bu məsələ ilə bağlı xüsusi qətnamə qəbul edilmişdir.

"7 noyabr" tədbirinin keçirilməməsi ilə bağlı Naxçıvan MSSR Ali Soveti Rəyasət Heyətinin sədri S.Əliyeva və Naxçıvan Vilayət Partiya Komitəsinin II katibi A.Bolotinin AXC-nin fəalları ilə müzakirələri heç bir nəticə verməmədi.

Noyabr ayının 3-də Naxçıvanda keçirilmiş növbəti mitinqdə aşağıdakı tələblər irəli sürülmüşdür:

1. Moskvanın Azərbaycanda və Naxçıvanda olan nümayəndələri V.Polyaniçkonun və A.Bolotinin nəinki istefalarını, həm də respublikadan qovulmasını;
2. Naxçıvan Muxtar Respublikasında komendant saatının ləğv olunmasını;
3. əhalinin silahlanmasını tələb edirdi.

Qeyd etmək lazımdır ki, 20 Yanvar faciəsi, Xocalı soyqırımı, Qarabağda gedən döyüşlər və qırğınlar Naxçıvanda vəziyyəti gərginləşdirmiş, Naxçıvan Qarabağın işğalı ilə blokadaya düşmüşdür. 1990-cı il hadisələri zamanı ermənilər tərəfindən Qarabağın işğalı ilə yanaşı Naxçıvanın da işğal planı hazırlanmışdır. Qarabağ işğal olunsa da, silah çatışmazlığına baxmayaraq Naxçıvan mərdliklə müdafiə olunmuşdur. Əhali süngü, bıçaq, baltalarla Naxçıvanın müdafiəsinə qalxmışdır. Ümummilli lider Heydər Əliyevin bütün məsləhətlərinə əməl olunmuş, tapşırıqları qüsursuz yerinə yetirilmiş və bu sayədə Naxçıvan işğaldan və qırğından xilas ola bilmişdir. Bütün bunlara baxmayaraq Sədərəkdə güclü döyüşlər getmiş, Naxçıvanın bir qarış torpağı düşmənə verilməmişdir. Naxçıvanda Şəhidlər Xiyabanında əbədiyyətə qovuşmuş mərd oğullarımız Naxçıvan Muxtar Respublikasının sərhədlərini, ərazisini erməni təcavüzkarlarından müdafiə edərək həyatlarını qurban vermişlər [7, s. 634]. Əhalinin dahi şəxsiyyətin ətrafında sıx birləşməsi nəinki Sədərəyin, Naxçıvanın işğalının da qarşısını almışdır. Ermənilər Sədərəyi işğal etsəydilər Naxçıvanla Türkiyə arasındakı 11 km-lik sərhəd qapanardı və bu da Naxçıvanın heç bir yerdən dəstək ala bilməməsi demək idi [1, s.52]. Həmin illər Naxçıvan üçün çox ağır bir dövr idi. Lakin Ümummilli Lider Heydər Əliyevin prezidentliyi dövründə Naxçıvanın işıq və qazla, əhalinin qida təminatı ilə əlaqədar çox mühüm işlər görülmüşdür. 1992-ci il may ayının 28-də "Sədərək Dilucu", başqa sözlə desək, "Ümid" körpüsünün istifadəyə verilməsi Türkiyə və Azərbaycan arasındakı ürəkdən-ürəyə, iki qardaş xalqı qovuşdurmuş, bu əməkdaşlıq daha da möhkəmlənmiş, o zamankı imkanlar daxilində qardaş Türkiyə dövləti Azərbaycana öz dəstəyini əsirgəməmişdir. Bu körpü Naxçıvanın ən ağır və ağrılı zamanlarında yaşaması və inkişafı üçün çox mühüm bir amil idi. Buna Türk dünyası tarixində yeni bir mərhələnin başlanğıcı da demək olar. Bu il, bu əlaqənin 30-cu ildönümüdür. Bu 30 ildə Türkiyə ilə əməkdaşlıq ən yüksək səviyyəyə gəlib çatmışdır. Türkiyə müstəqil Azərbaycan dövlətini dünyada tanıyan ilk dövlətdir. Heydər Əliyevin yenidən hakimiyyətə qayıtmasından sonra 1993-cü ilin yayından başlayaraq, Azərbaycan Respublikasının xarici siyasətində Türkiyəyə münasibətdə ciddi dəyişikliklər edildi və Azərbaycan-Türkiyə münasibətlərində keyfiyyətcə yeni bir mərhələ başlandı [5, s. 327]. 2020-ci ilin sentyabr ayının 27-də başlayan və 44 gün davam edən II Qarabağ müharibəsində Türkiyə dövlətinin maddi və mənəvi dəstəyi, müharibədən sonra Türkiyə Respublikası prezidenti Rəcəb Tayyib Ərdoğanın Qarabağa və Azərbaycana təşkil olunmuş səfərləri hər iki dövlət arasında yeni bir güclü bağın yarandığını göstərir. Türkiyə Respublikası Sənaye və Texnologiya Nazirliyinin və Selçuk Bayraktarın texniki direktoru olduğu "Baykar" şirkətinin birgə təşkilatçılığı və tərəfdaşlığı ilə 2022-ci il may ayının 26-da Bakı şəhərində möhtəşəm "Texnofest" festivalının keçirilməsi, Türkiyə prezidentinin ailəsi ilə birgə iştirakı bu tədbiri daha da unudulmaz

etmişdir. 2018-ci ildən bəri keçirilən bu festival texnologiya sahəsində yeni uğurlar qazanmağa, əldə edilmiş biliklərin tətbiqinə və paylaşılmasına yönəlmişdir. Əldə etdiyimiz tarixi qələbənin nəticəsidir ki, həmin festivalda müxtəlif növ müasir döyüş avadanlıqlarının modellərinin nümayişi böyük marağa səbəb olmuşdur.

II Qarabağ müharibəsində Azərbaycanın bütün bölgələrindən olduğu kimi Naxçıvan Muxtar Respublikasından da əsgər və zabitlər, könüllülər iştirak etmiş, qəhrəmancasına vuruşaraq şəhidlik zirvəsinə ucalmış, qazi və müharibə veteranı statusu almışlar. Müasir günümüzdə Naxçıvandan formalaşmağa başlayan Milli Ordu quruculuğu prosesinin uğurlu nəticəsidir ki, ən müasir döyüş avadanlıqları ilə təchiz olunan Naxçıvan Əlahiddə Ümumqoşun Ordusu istənilən düşmən təzyiqinə cavab verəcək gücə qadirdir.

NƏTİCƏ

Qeyd etməliyik ki, I Qarabağ müharibəsindən sonra torpaqlarımızın itirilməsi ilə Naxçıvan Muxtar Respublikası Azərbaycanın böyük bir hissəsi ilə quru yolla əlaqədən məhrum olmuş və bu əlaqə sadəcə hava nəqliyyatı ilə mümkün olmuşdur. Ancaq bu gün əminliklə deyə bilərik ki, 44 günlük vətən müharibəsi zamanı qazandığımız qələbə bizə təkcə itirilmiş torpaqlarımızı geri qazandırmadı. Bu qələbə eyni zamanda uzun illər Azərbaycanın ayrılmaz tərkib hissəsi olan Naxçıvan Muxtar Respublikasının təcrid olunmasına, blokada şəraitində yaşamasına son qoydu. Naxçıvanın Azərbaycanla yenidən quru yolla əlaqəsinin bərpası üçün görülən işlərin nəticəsi olaraq, Zəngəzur dəhlizinin çəkilməsi ilə, dəmiryol xətlərinin bərpası və çəkilişi ilə yaxın gələcəkdə Naxçıvanda istənilən sahədə yüksək inkişaf özünü göstərəcəkdir. Bütün bu işlər Naxçıvanın beynəlxalq dəmiryol qovşağına çevrilməsinə şərait yaradacaq və nəticədə Naxçıvandan keçən avtomobil və dəmiryolları modernləşdiriləcəkdir. Münaqişənin Naxçıvana vurduğu zərərlər aradan qalxmaqla yanaşı, iqtisadi inkişaf baxımından böyük layihələr qəbul olunaraq həyata keçiriləcəkdir. 10 noyabr 2020-ci il tarixli müqavilənin 9-cu maddəsində Azərbaycanla Naxçıvan bölgəsi arasında əlaqə də daxil olmaqla, bölgədəki bütün kommunikasiyaların blokadadan çıxarılacağı açıq şəkildə bildirilir. 9-cu maddənin dəqiq ifadəsi belədir: "Bölgədəki bütün iqtisadi və nəqliyyat əlaqələri bərpa ediləcək. Ermənistan Respublikası hər iki istiqamətdə vətəndaşların, nəqliyyat vasitələrinin, malların maneəsiz hərəkətini təşkil etmək üçün Azərbaycan Respublikasının qərb bölgələri ilə Naxçıvan Muxtar Respublikası arasında nəqliyyat əlaqələrinin təhlükəsizliyinə zəmanət verir". Zəngəzur bölgəsinin regional əhəmiyyətini nəzərə alsaq deyə bilərik ki, Üçtərəfli Bəyanatın 9-cu maddəsinə əsasən bölgədəki bütün iqtisadi və nəqliyyat əlaqələr bərpa edilməlidir və Azərbaycanın qərb bölgələri ilə Azərbaycanın Naxçıvan Muxtar Respublikası arasında nəqliyyat əlaqələrinin təhlükəsizliyi təmin edilməlidir. Bu o deməkdir ki, Azərbaycan onilliklər ərzində bağlanmış Zəngəzur Dəhlizi vasitəsilə köhnə nəqliyyat yolunu bərpa edə biləcək və iqtisadi inteqrasiyanı ilə birgə region ölkələrinin iqtisadi inkişafını sürətləndirəcək.

ƏDƏBİYYAT

1. Allahverdiyev T. Azərbaycan və Ermənistan arasındakı Karabağ sorunu (Yüksek lisans tezi). Bursa, 2010, 155 s

2. Çingiz E. Sumqayıt hadisələrinin gizli tərəfləri // "168 saat", 27 fevral 2012-ci il

3. Əhmədov E. Ermənistanın Azərbaycana təcavüzü: Təhlili xronika (1987-2011) – Bakı: Letterpress, 2012, 910 s

4. *Hacıyev İ. Ermənilərin Azərbaycana qarşı ərazi iddiaları və qanlı cinayətlər – Naxçıvan: Əcəmi, 2012, 193 s*

5. Hüseynova İ. Müstəqil Azərbaycan dövlətinin qurucusu, Bakı, 2004, 472 s

6. İbadov R.H. Azərbaycan XVIII əsrin son rübündə Rusiya, İran və Türkiyə münasibətlərində: Tarix elmlər nam.dis.avtoref. Bakı: AzTU-nun mətbəəsi, 2005

7. Qayıdış (1990-1993). (Təkmilləşmiş və yenidən işlənmiş ikinci nəşr. Tərtib edəni Əli Həsənov). Bakı: Azərbaycan, 2008, 840 s

8. Sarıyeva İ. Azərbaycanlıların öz yurdlarından ermənilər tərəfindən zorakı deportasiya tarixləri. Bakı: Xəbər, 13 fevral 2020-ci il, № 26, 10 s

9. Yaqubov Ş. Qətiyyətin təntənəsi. Sənədli xronika. Bakı, 1995, 846 s

İDRAKDA DİL VƏ FƏALİYYƏT NİSBİLİYİ

LINGUISTIC AND ACTIVITY RELATIVITY IN COGNITION

Gamadova Aygun

Odlar Yurdu University, Department of language

Baku, Azerbaijan

ORCID ID: 0000-0001-9269-561X

XÜLASƏ

Açar sözlər: dil, koqnitiv, təhlil, natiqlər, struktur

Məqalədə dilin quruluşunun onun danışanların idrak qabiliyyətlərinə təsiri və ya linqvistik nisbilik problemi müzakirə olunur. Dil nəzəriyyəsi üçün əsas prinsiplər kimi bu günə qədər formalaşmış fəlsəfə, psixologiya, logistika, sosiallıq, linqvistik universallıq prinsipləri saymaq olar. Dil və nitq hadisələrinin tipologiyası, strukturlaşdırılması, formal modellərə çevrilməsi prinsipləri sonunculardan irəli gəlir. Əvvəlcə relativistik fikirlərin inkişafının ətraflı təhlili təqdim olunur. İşin davamında isə məkan semantikası, zamanın konseptuallaşdırılması, rəng terminləri və psixolinqvistika və koqnitiv antropologiyada neorelativist cərəyan kimi xarakterizə edilə bilən digər empirik və nəzəri məsələlər üzrə müqayisəli tədqiqatlar verilmişdir. Xüsusilə, dilin strukturu ilə idrak prosesləri arasında əlaqənin yeni modeli təqdim olunur və gələcək postrelativistik tədqiqatların proqramı da qeyd olunur. Geniş material dilin real vaxtda bir çox koqnitiv mexanizmlərin işində iştirak etdiyini nümayiş etdirir və bu, eyni zamanda natiqlərin idrak üslubu xarakterini özünü göstərir. Təhlilimizin mərkəzində dilin qrammatikası dayanır, baxmayaraq ki, hazırda leksik və qapalı leksiko-qrammatik sistemlərlə işləyərkən linqvistik nisbiliklə bağlı ən ətraflı və etibarlı nəticələr əldə edildiyini də nəzərə almalıyıq. Təbii ki, biz bütün mümkün tipoloji variasiyaları əhatə etməyə çalışmırıq. Son onilliklərdə linqvistik tipologiya o qədər fəal inkişaf edir ki, bunu kiçik bir məqalə çərçivəsində etmək mümkün deyil. Təhlilimiz seçmə olacaq, eyni zamanda ən maraqlı idrak hadisələri üzərində dayanmağa çalışacağıq.

ABSTRACT

Keywords: language, cognitive, analysis, speakers, structure

The article deals with the question of the impact of the structure of a language on the cognitive abilities of its speakers, or the problem of linguistic relativity. The main principles for the theory of language can be considered the principles of philosophicity, psychology, logistics, sociality, linguistic universality that have been formed to date. The principles of typology, structuring, translation of the phenomena of language and speech into formal models follow from the latter. At the beginning, a detailed analysis of the development of relativistic ideas is presented. The following are comparative studies on spatial semantics, the conceptualization of time, color terms, and other empirical and theoretical issues related to what can be characterized as a neorelativist trend in psycholinguistics and cognitive anthropology. In particular, a new model of the relationship between the structure of language and cognitive processes is presented, and a program of future post-relativistic research is also outlined. Extensive material demonstrates that language is involved in the work of many cognitive mechanisms in real time, and this is reflected in the nature of the cognitive style of its speakers. The grammar of the language is at the center of our analysis, although it is worth noting that at the moment the most detailed and reliable results related to linguistic relativity have been obtained when working with lexical and closed lexico-grammatical systems. Of course, we do not try to cover all possible typological variations. Linguistic typology has been developing so actively in recent decades that it is not possible to do this within the framework of an article. I think my analysis will be selective, while we will try to focus on the most interesting cognitive phenomena.

Our focus is on the idea of linguistic relativity: the idea that the structure of the native language affects thinking, perception, memory and other cognitive abilities, and this leads to complete or partial incommensurability of cognitive styles and worldviews of speakers of different languages. The principle of linguistic relativity was first formulated at the professional linguistic and anthropological level within the framework of American structuralism, which is associated with an in-depth study of the Amerindian languages, which have a number of features in comparison with the Indo-European languages. The emergence of the comparative work of Edward Sapir and Benjamin Whorf in the 1930s[1] played a key role. Since that period, the principle of linguistic relativity, or the "Sapir-Whorf hypothesis", has been actively studied by linguists and psychologists, but, I must say, with varying success. Research reaches its climax in the 1990s–2010s, when linguistic relativity, in fact, transforms into a large-scale anthropological project, which, through a comparative analysis of representatives of different cultures, is called upon to determine the true place of language in the structure of cognition. Such a transformation of the problem of linguistic relativity is associated with a number of trends in cognitive science: constructivism, overcoming the communicative view of language, recognition of the role of physicality and sociocultural experience in the formation of cognitive abilities, orientation towards cross-cultural analysis, etc. It also became possible due to the introduction of new instruments and methods for studying the relationship between language and thinking: computer analysis, eye-tracking, various motion sensors, magnetic resonance imaging (MRI), functional magnetic resonance imaging (fMRI), electroencephalography (EEG), non-invasive brain stimulation, etc. Since the 1990s. the number of analyzed linguistic communities has increased many times, but it still remains negligible in comparison with the total number of peoples existing on the planet. Given the challenge that globalization poses to small socio-cultural worlds, now we have the last chance to fix these worlds in an authentic form, so it is urgent to expand field research and involve young scientists in this project.

Understanding this thesis depends on how to interpret the terms "language", "cognitive abilities" (including "thinking") and "influence". This problem should be considered, on the one hand, in the context of more general theoretical views of this or that thinker, and on the other hand, in the context of those psycholinguistic ideas that were widespread during his lifetime. [2]Only such a contextual approach makes it possible to understand what is meant each time by the stated (or refuted) relativistic idea. It often turns out that outwardly similar statements made in fundamentally different contexts have different meanings (and vice versa). Often the problem of linguistic relativity is reduced to the influence of the vocabulary of a language on cognitive abilities. There is a general tendency among non-linguists to reduce language to vocabulary.

Meanwhile, the most interesting relativistic ideas do not concern vocabulary, but grammar, or at least closed "grammatical" classes of vocabulary. This is what attention should be paid to. When talking about the influence of language on cognition, they often have in mind the potential of the language ("what is possible in the language") and the potential of cognition ("what a native speaker can or cannot do").

It seems more correct to assess specific patterns of language use, or a conventional way of speaking (Whorf's - fashion of speaking), and specific features of cognition, demonstrated not in an experimental situation, but in natural conditions. It may turn out that a typologically rare category that is present in the language is hardly used, and trivial categories are used in such a unique way that they generate a cognitive effect.

• It must be understood that a complete theory claiming to explain relativistic effects must include a description of the psycholinguistic mechanism by which the structure of language can influence cognition. It seems that it was the absence of such a description (at least explicitly) by Sapir and Whorf that gave rise to many years of discussion around their ideas.

• The principle of linguistic relativity should not be confused with outwardly similar philosophical formulations belonging to L. Wittgenstein, M. Heidegger and other major thinkers. These formulations are made in the context of the corresponding large-scale philosophical systems, and, as a rule, they are not directly related to relativistic problems. The idea of linguistic relativity is predominantly psycholinguistic and empirical, although it rests on implicit ontological grounds that can be criticized from philosophical positions.[3]

Language is an organization of meaningful elements. Language is not an autonomous, "modular" ability, so it must be considered in relation to other cognitive systems. In the most general terms, it can be understood as the organization, or categorization, of significant elements. Since these elements are meaningful, then language should be defined as a structure that provides a categorization of conceptual representations that reflect external experience. The nature of language cannot be explained by purely formal characteristics. What is usually called the formal system, or internal form, depends on the content.

The structure of each language is unique. Any natural language is characterized by a unique distribution of significant elements. A full definition of any category of language involves referring to its other categories, and those, in turn, require referring to other categories, etc. It follows that the language in cognitive terms can be approximately represented as a system of mutual references and permanent distinctions (remember Saussure's "there is nothing in language but differences"). The boundaries within such a system are always linguistically specific. On the one hand, linguistic specificity affects how language interacts with information from external experience, how it shapes and constructs the semantic sphere, and on the other hand, it concerns formal characteristics. The latter include, for example, the concept of "word" and the very division into morphology and syntax. The basic classification by parts of speech also has linguistic specificity: the boundaries of categories, and morphological features, and criteria for selection - all this depends on the structure of a particular language. Linguistic specificity is also manifested in the field of formal grammar, lexical systems, discourse and reference. Thus, each natural language is unique in almost everything, which, however, does not prevent the existence of a typology. [3]

A conceptual system is a set of perceptual symbols. In classical cognitivism, knowledge, which constitutes the main fund of long-term memory and is the working material for higher cognitive operations, seemed to be modal, that is, independent of sensorimotor systems. In the emerging post-cognitivist paradigm, knowledge, or a set of conceptual representations, is conceived in close connection with sensorimotor information. In the most complete modern theory, the theory of “perceptual symbol systems,” representation is defined as a fixed sensorimotor state, or perceptual symbol. Such a symbol has a common neural substrate with real perception and imagination, but their activation patterns are not identical. The perceptual symbol has the features of schematicity and symbolism: it reflects only the framework of the situation and is capable of generating an infinite number of specific representations of a certain type. The multi-character organization, or simulator, has the same properties as the classical proposition. Such a system is capable of representing species and specific specimens, performing categorical inference, formulating abstract concepts, etc. The activation of a simulator, or simulation, looks at the neuronal level as the excitation of sensorimotor regions through the “convergence zones” adjacent to them. Modality is possessed not only by specific meanings, but also by abstract ones, including grammatical and metaphorical concepts. Subjectively, the simulator is presented as a mental model.

At the subjective level, a set of perceptual symbols has the form of a mental model. In the process of forming a mental model, the same mechanisms are involved as during imagination, however, it must be borne in mind that imagination is conscious and detailed, while the mental model is non-reflexive and schematic. The subjective aspect of simulation is central to the speculative and introspective research of cognitive linguists. It is also analyzed in simulation semantics. Thus, in the postcognitivist perspective, the concept is conceived as a complex phenomenon that includes imaginative, neural, motor, perceptual and affective components. [4]

Language acquisition leads to a transformation of cognition. The language is not an optional addition to the ready-made cognitive architecture, but takes part in the formation of a new type of architecture. A person has an innate set of basic knowledge, which is associated with a lower level of cognition. Lower systems provide limited abilities for categorization, abstract thinking, counting, conditional thinking, spatial orientation, etc. In the process of language acquisition, an additional level of integration of information and control is formed, which allows overcoming the limitations of lower systems. As a result, a person acquires the ability to accurately count > 3, spatial orientation based on heterogeneous features, meta-representation, understanding of someone else's consciousness, analogous thinking, etc.; this is complemented by an important process innovation - increased control and volitional activity with

the help of internalized speech. Apparently, the transformation consists not so much in the restructuring of the lower systems, but in the superstructure of an additional and permanently active cognitive level.

Language is involved in non-verbal cognition. What is considered to be "non-verbal" cognition actually contains a verbal component, but in an implicit form. In the light of new evidence, it is more correct to speak not of "verbal" and "non-verbal", but of "explicitly verbal" and "implicitly verbal". Implicit verbality, or inner speech, is formed through the internalization of explicit verbality. It has a full and reduced form. Its main global function is to implement volitional control. On the basis of local functions, inner speech is integrated into cognitive operations: it is involved in analysis, synthesis, categorization, reasoning, memorization, information extraction, utterance generation, etc. Covert articulation is often accompanied by motor speech impulsation, that is, sensorimotor activation. Formally, inner speech is an imaginative simulation of outer speech and other sign systems. She thus inherits the features of her native language, including its unique structure. Penetrating into cognition, speech specializes its work at different levels.[5]

Language specifies the operation of cognitive systems. Since, at the level of implicit verbality, language is always involved in cognition, its categorical system leaves its mark on the overall process of categorization. The main feature of intralinguistic categorization is that the language gives the concept a lexical or grammatical status. Lexical status implies the allocation of only one segment in working memory for the concept, more prototypical activation, and a number of categorical effects. The grammatical status presupposes obligatoryness, schematicity, unconsciousness, automatic introduction into mental operations, etc. The permanent involvement of the language in cognition in the form of inner speech means that its unique categorical system influences individual processes. The participation of the language in the construction of the mental model leads to the linguistic specificity of the simulation. It also specifies memory, visual perception, auditory modality, motor system, gesticulation, imagination, spatial representation, and the emotional sphere. Thus, the implicit categorization contained in the language affects many cognitive processes. The presented model of cognitive architecture, in which an important role is given to the structure of a particular language, has wide implications. It allows you to take a fresh look at the place of language in cognition, at the relationship between language and thought processes, at the relevance of the type of linguistic expression for the cultural code, etc.

The fact is that, as can be seen from the presented model, we ourselves are rooted in a certain socio-cultural situation. Our thinking and our reasoning depend on centuries of cultural baggage crystallized in the structure of language and in the conventional ways of using it. Of course, this is not an absolute dependence, since mutual understanding between representatives of different cultures is possible. Nevertheless, this is a very significant dependence, which leaves its mark on scientific and philosophical discourse. Philosophizing itself takes place in the element of language, which, unfortunately, is not so often given attention (at best, it is about vocabulary, but not about grammar). The specificity of this cognitive and existential situation requires deep reflection, which can be done only by referring to the facts of linguistic and cognitive diversity. To achieve complete freedom from language and one's own tradition is impossible, and hardly necessary. What the experience of a collision with other linguistic communities can really lead to is a better understanding of oneself, an awareness of one's own boundaries and, at the same time, the boundlessness of the very process of cognition and recognition. It was this thought that inspired us throughout the work.[6]

Attention to the native language is associated with a heightened national feeling of the Germans. It is noted already in the 17th century, when, in the context of the political decline of Germany, linguistic circles and orders were created with a bright nationalist and purist coloring. One of the ideologists of the movement of linguistic societies was J. G. Schottel (1612–1676), who is also considered to be the founder of German linguistic philosophy.[7] Schottel adhered to the view of the divine origin of language: he saw in language a gift that is sent by the Lord to every nation and which contains "the most wonderful essence of natural things" and "the great secrets of eternity." The task of a person is to correctly use this gift, which is, in fact, a symbolic map of material and spiritual reality. The archaism of the presented idea, found even among the Platonists and in Hermeticism, is diluted in Schottel with a heightened national feeling: in his opinion, every German has not only “human nature”, but also a “German linguistic nature”, which is combined with a special style of German thinking.

The first experiments in this area belong to Kant's friend, I. G. Gaman (1730–1788). Hamann can be considered the founder of the idea of linguistic relativity, since it was he who gave a speculative justification for the thesis about the influence of the internal organization of the language - both lexical and grammatical - on the process of cognition. Hamann clearly formulated his opinion on the problem of the relationship between language and thinking in a letter to Herder dated August 6, 1784: “Reason is language, logos” [Hamann 1825a: 151]. The central place of the language system in Hamann's model is explained by two circumstances: firstly, the religious views of the philosopher; secondly, a critical attitude towards rationalism, which, in his opinion, levels the wealth of phenomenal reality and tries to fetter life with chains of abstractions and scholastic formulas.[8] Haman believed that the language is of divine origin, since it was God who taught man the true language when he was still in paradise. Since then, human cognition has been closely associated with language, and ideally, the linguistic structure should act as a symbolic map for the study of celestial reality. However, after the fall, the nature of the language changed: it was influenced by "human opinions", that is, all the mental features characteristic of a particular community. By learning a language, a member of a community also learns a specific way of thinking. The process of language development takes place on the basis of already established opinions reflected in the language, and new opinions; At the same time, different languages have a common core, the presence of which is explained, on the one hand, by the unity of their divine source, and on the other hand, by the unity of human nature. Unfortunately, Gaman only declares the thesis about the different influence of languages on cognition, and he has no empirical research on this topic.

For thinking, both the lexical and grammatical dimensions of language are relevant, although Humboldt pays the main attention to vocabulary. In his opinion, the word "unites objects into its own ideal world, which replaces the real world in general in the language."

So, on the basis of existing works on typology, which consider the semantic association of vision and intellectual activity, we can draw the following conclusions:

1) this association is not universal, the connection between hearing and thinking is more common;

2) the development of seeing => understanding quite often, and it certainly has psychophysiological prerequisites associated with the dominance of vision;

3) in different language families, the connection between vision and intellectual abilities, as well as the connection between hearing and intellectual abilities, is manifested in different ways - the most studied Indo-European and Australian families in this respect provide directly opposite evidence: if in Indo-European languages verbs of visual perception tend to receive mental semantics, then in Australian languages this trend is practically absent; on the contrary, in the Australian languages there is a pronounced tendency to develop towards the mental semantics of verbs with acoustic meaning, which also takes place in the Indo-European languages, but to a much lesser extent.[9] The only possible explanation for this situation, in our opinion, is that the process of semantic derivation is greatly influenced by the sociocultural and historical context. In modern works, the mechanism of semantic transitions is rightly associated with both general psychophysiological factors and unique sociocultural conditions; while the latter is given much more.

REFERENCES

1. Koerner, E. F. Konrad (1992), "The Sapir–Whorf Hypothesis: A Preliminary History and a Bibliographical Essay", Journal of Linguistic Anthropology, 2 (2): 173–198, doi:10.1525/jlin.1992.2.2.173, JSTOR 43102168

2. Brown, R.; Lenneberg, Eric (1954), "A study in language and cognition", Journal of Abnormal and Social Psychology, 49 (3): 454–462, doi:10.1037/h0057814, PMID 13174309

3. Cook, Vivian; Bassetti, Benedetta (2010), Language and Bilingual Cognition, Hove: Psychology Press

4. Levinson, Stephen C. (2012), "Foreword", in Carroll, John B; Levinson, Stephen C; Lee, Penny (eds.), Language, Thought and Reality (2nd ed.), Cambridge, Massachusetts/London, UK: MIT Press, pp. vii–xxiii, ISBN 978-0-262-51775-1

5. Lucy, John A. (1996), "The Scope of Linguistic Relativity:An analysis of Empirical Research", in Gumperz, John; Levinson, Stephen (eds.), Rethinking Linguistic Relativity, Cambridge: Cambridge University Press, pp. 37–69

6. Everett, Caleb (2013), Linguistic Relativity: Evidence Across Languages and Cognitive Domains, Berlin: De Gruyter Mouton

7. Dünnhaupt, Gerhard (1991). "Justus Georg Schottelius (1612-1676)". Personalbibliographien zu den Drucken des Barock. Vol. 5. Stuttgart: Hiersemann. pp. 3824–3846. ISBN 3-7772-9133-1.

8. Pütz, Martin; Verspoor, Marjolyn, eds. (2000), Explorations in linguistic relativity, John Benjamins Publishing Company, ISBN 978-90-272-3706-4

9. Levinson, Stephen C. (2012), "Foreword", in Carroll, John B; Levinson, Stephen C; Lee, Penny (eds.), Language, Thought and Reality (2nd ed.), Cambridge, Massachusetts/London, UK: MIT Press, pp. vii–xxiii, ISBN 978-0-262-51775-1

"ALQORİTMLƏŞDİRMƏNİN ƏSASLARI" MÖVZUSUNUN KOLLEKTİVLƏ İŞ METODLARI İLƏ TƏDRİSİ SOSİALLAŞMA VASİTƏSİ KİMİ

TEACHING THE TOPİC "FUNDAMENTALS OF ALGORITHMIZATION" WITH COLLECTIVE WORKING METHODS AS A MEANS OF SOCIALIZATION

Səadət Mazanova

Azərbaycan Dövlət Pedaqoji Universiteti, Riyaziyyat fakültəsi, Kompüter elmləri kafedrası, Bakı, Azərbaycan

ORCID ID: https://orcid.org/0000-0003-2278-3790

Leyla Həmidova

Azərbaycan Dövlət Pedaqoji Universiteti, Riyaziyyat fakültəsi, Kompüter elmləri kafedrası, Bakı, Azərbaycan

ORCID ID: https://orcid.org/0000-0001-5408-0972

XÜLASƏ

2020-ci ilin mart ayından COVID-19 infeksiyasının yayılmasının qarşısını almaq, görülən tədbirlərin səmərəliliyini artırmaq məqsədilə ölkənin bütün təhsil müəssisələrində tədris prosesləri dayandırıldı. Dərs ilini on-line başa vuran tələbələrin yeni tədris ilində auditoriyaya qayıtmaq arzuları reallaşmadı: karantin rejimi davam edirdi.

Yeni tədris ili başlar-başlamaz, sentyabr ayında Ermənistan silahlı qüvvələrinin beynəlxalq hüquq normalarını pozaraq Azərbaycan Respublikasının yaşayış məntəqələrini və hərbi mövqelərini atəşə tutmaqla törətdikləri hərbi təxribatı, Azərbaycan Respublikasının Silahlı Qüvvələri tərəfindən əks-hücum əməliyyatlarının başladılması gündəmimizi zəbt etdi.

Ürəyimiz, gözümüz, qulağımız cəbhədən gələn xəbərlərdə idi. Qələbə xəbərləri gəldikcə sevinc, Şəhid xəbərləri gəldikcə kədər göz yaşları bir-birini əvəzləyirdi. Bir neçə hissi eyni anda yaşayırdıq. Bu hislər tələbələrimizdən də yan keçə bilməzdi. Müharibənin təsiriylə fikirləri dərsdən yayınan tələbələr internetin məhdudlaşdırılması ilə bir müddət tamamilə təhsildən uzaq düşdülər.

Ali Baş Komandanımızın rəhbərliyi ilə torpaqlarımız qəhrəman əsgərlərimizin, şəhidlərimizin qanı, canı bahasına azad edildi.

COVİD-19 bəlasını da geridə qoyduq. Karantin rejimi yumşaldıldı, ənənəvi dərslərə geri döndük.

Pandemiya dövründə evdə qalmaqla tələbələr arasındakı ünsiyyəti zəiflədi, ailə içində, komfort zonasında həyat rutinlərinə alışdılar. Kompüterə, telefona bağlandılar, həyat tərzlərinin bir hissəsi virtuallaşdı.

Psixoloqlar deyir: "tələbələrin virtualdan sosial həyata, ənənəvi təhsilə adaptasiyasında sıxıntılar, psixoloji gərginliklər müşahidə oluna bilər. Biz tətbiq üsullarından nə qədər faydalanmağa çalışsaq da, yalnız özlərinin marağı olduğu təqdirdə adaptasiya prosesi baş verəcək".

Biz müəllimlərin vəzifəsi tələbələrdə həmin marağı yaratmaq, onlara dəstək olmaqdır. Bu işdə uğur qazanmaq üçün tədris prosesində həm tələbələrin fənn kompetensiyalarının formalaşmağına, həm də onların sosiallaşmasına xidmət edəcək təlim metodlarından istifadə etmək önəmlidir. Sosiallaşma prosesinin böyük hissəsini kollektiv münasibətlər sistemi təşkil edir.

Məqalədə təlimi "kollektivlə iş" formasında təşkil edərək auksion, venn diaqramı, layihələrdirmə metodlarından yararlanmaqla "Alqoritmləşdimənin əsasları" mövzusunun tədrisi modeli verilmişdir. Mövzunun bu təlim metodları ilə tədrisinin tələbələrin mövzunu yüksək səviyyədə qavramalarıyla yanaşı, kollektivdə sosiallaşmalarına da xidmət etdiyi əsaslandırılmışdır.

Açar sözlər: COVİD-19, Vətən müharibəsi, on-line dərs, sosiallaşma, kollektivlə iş.

ABSTRACT

From March 2020, in order to prevent the spread of COVID-19 infection and increase the effectiveness of measures taken, the educational process in all educational institutions of the country was suspended. The dreams of the students who finished the school year online did not come true in the new academic year: the quarantine regime continued.

As soon as the new school year began, in September, the military provocation committed by the Armenian armed forces in violation of international law by firing on settlements and military positions of the Republic of Azerbaijan, the launch of counter-offensive operations by the Armed Forces of the Republic of Azerbaijan occupied our agenda.

Our hearts, eyes and ears were on the news from the front. When the news of victory came, the joy, and when the news of the martyr came, the tears of sorrow replaced each other. We experienced several feelings at the same time. These feelings could not pass our students. Due to the war, students who dropped out of school were completely excluded from education for some time due to the restriction of the Internet.

Under the leadership of our Supreme Commander-in-Chief, our lands were liberated at the cost of the blood and lives of our heroic soldiers and martyrs.

We have left behind the scourge of COVID-19. The quarantine regime has been eased; we have returned to traditional lessons. By staying at home during the pandemic, communication between students weakened, and they became accustomed to the routines of life in the family, in the comfort zone. They got used to computers and telephones, and some of their lifestyles became virtual.

Psychologists say: “There may be difficulties and psychological tensions in the adaptation of students from virtual to social life, to traditional education. No matter how much we try to take advantage of the methods of application, the process of adaptation will take place only if they are interested”.

The task of us teachers is to create that interest in students, to support them. In order to succeed in this work, it is important to use teaching methods in the teaching process that will serve both the formation of students' subject competencies and their socialization. A large part of the socialization process is the system of collective relations.

The article provides a model of teaching the topic "Fundamentals of Algorithmics" using the methods of auction, Venn diagram, designing, organizing the training in the form of "teamwork". It is substantiated that the teaching of the subject with these teaching methods not only helps the students to understand the subject at a high level, but also serves their socialization in the team.

Keywords: COVID-19, Patriotic War, online lesson, socialization, team work.

GİRİŞ

2020-ci ilin mart ayından COVID-19 infeksiyasının yayılmasının qarşısını almaq, bu sahədə görülən tədbirlərin səmərəliliyini artırmaq və tibbi profilaktikanı gücləndirmək məqsədi ilə ölkənin bütün təhsil müəssisələrində tədris prosesləri və digər əlaqəli fəaliyyətlər dayandırıldı. Dərs ilini online şəkildə başa vuran tələbələrin yeni tədris ilində auditoriyaya qayıtmaq arzuları reallaşmadı, çünki yoluxma sayı səngimirdi, karantin rejimi davam edirdi.

Yeni tədris ili başlar-başlamaz, yeni bir təhlükə ilə üzləşdik. 2020-ci il sentyabr ayında Ermənistan Respublikasının silahlı qüvvələri beynəlxalq hüquq normalarını yenidən kobud surətdə pozaraq, müxtəlif növ silahlardan, o cümlədən ağır artilleriyadan istifadə etməklə bir neçə istiqamətdən Azərbaycan Respublikasının yaşayış məntəqələrini və hərbi mövqelərini atəşə tutmaqla törətdikləri növbəti hərbi təxribatı, Azərbaycan Respublikasının Silahlı Qüvvələri tərəfindən əks-hücum əməliyyatlarının başladılması gündəmimizi zəbt etdi. Hamımızın ürəyi igid əsgərlərimizin yanında, gözü, qulağı cəbhədən gələn xəbərlərdə idi. Respublika ərazisində internetin məhdudlaşdırılması ilə bir müddət online dərsləri də dayandırmalı olduq. Müharibənin təsiri ilə fikirləri dərsdən yayınan tələbələr internetin olmaması ilə bir müddət tamamilə təhsildən uzaq düşdülər, nəticədə dərslərdən soyudular.

Müzəffər Ali Baş Komandanımızın rəhbərliyi ilə rəşadətli Azərbaycan əsgər və zabitləri addım-addım irəliləyərək, Ermənistanın uzun illər ərzində qurduğu mühəndis-istehkam sistemlərini yarıb keçdi, torpaqlarımız qəhrəman əsgər və zabitlərimizin, şəhidlərimizin qanı və canı bahasına azad edildi.

Ali Baş Komandan İlham Əliyev noyabrın 8-də xalqımıza Şuşanın azad edilməsi müjdəsini verdi. Şuşa zəfəri, əslində, müharibənin taleyini həll etdi. Ertəsi gün daha 70-dən çox kəndin azad olunması xəbəri gəldi və bundan bir gün sonra Ermənistan kapitulyasiya aktını imzalamağa məcbur oldu.

Müharibə bitsə də, COVİD 19 bəlası hələ də qapanmalara səbəb idi. İlk növbədə qeyd edək ki, Azərbaycan bu bioloji təhlükənin yarada biləcəyi kataklizmaları qabaqcadan hiss edən ölkələrdən biridir. Ardıcıl olaraq atılmış addımlar, verilmiş siyasi qərar və sərəncamlar, həmçinin dövlət qurumlarının mərkəzləşdirilmiş əlaqələndirmə sisteminə malik olması mövcud təhlükəni və onun fəsadlarını önləmək üçün kifayət qədər az itki ilə kritik situasiyadan çıxa biləcəyimizi ortaya qoydu.

Təhsil sferasına gəldikdə, məsələyə yeni dünya və yeni insanı formalaşdırmaq hədəfi kontekstindən yanaşanda dünya təhsil sisteminin çağırışlarına cavab vermək və yaranan problemləri önləmək üçün Azərbaycanın təhsil sistemində də bu istiqamətdə konkret addımların atılması zəruri və təqdirəlayiq idi.

Heç şübhəsiz, Təhsil Nazirliyinin atdığı bu addımlar ondan ötrü idi ki, tələbələr evdə təhsildən uzaq düşməsinlər. Təbii ki, bu tədbirlər ənənəvi dərslərlə əvəz oluna bilməz. Dünyanın hər yerində təcrübələr göstərib ki, üzbəüz təhsil hər zaman ən yaxşısı olmuşdur.

Bu həm də tələbələrin sosiallaşmasına da təsir göstərir: yaşıdları ilə ünsiyyət və münasibət qurmaq imkanı, kollektivdə olması onların şəxsiyyət kimi inkişafında olduqca mühüm rol oynayır.

Pandemiya dövründə ev şəraitində qalmaq tələbələrdə tənbəlləşməyə səbəb oldu, dərslər online olduğu üçün tələbələr arasındakı ünsiyyət zəiflədi. Onlar evdə, ailə içində, komfort zonadakı həyat rutinlərinə alışdılar. Pandemiya dövründə distant təhsildə o qədər kompüterə, telefona bağlı qaldılar ki, bununla da tələbələrin həyat tərzinin böyük bir hissəsi virtuallaşdı. Psixoloq və ekspertlər virtuallaşmadan sonra yenidən ənənəvi və ya sosial mühitə adaptasiya prosesinin çətinliklər yaradacağı haqda proqnozlar vermişdilər. Onların fikrincə, tələbələrin virtualdan qopub, sosial həyata, normal, ənənəvi təhsilə geri dönməsi üçün bir az sıxıntılar, psixoloji gərginliklər baş verə bilərdi ki, bu da pandemiya halı üçün normaldır. Psixoloqlar qeyd edirdi: "Biz tətbiq üsullarından nə qədər faydalanmağa çalışsaq da, yalnız özlərinin marağı olduğu təqdirdə bu adaptasiya prosesi baş verəcək". Yalnız fəal təlim metodlarından və İKT-dən istifadə etməklə tələbələrdə bu marağı oyatmaq olar.

Hal-hazırda biz hibrid modeli ilə dərsləri təşkil edirik. Tələbələr həftənin müəyyən günləri universitetə gəlir, offline dərslərdə iştirak edirlər. Onlar hal-hazırda ənənəvi təhsilə geri dönmək üçün adaptasiya prosesindədirlər. Biz müəllimlərin də vəzifəsi bu zaman dilimində onların yanında olmaq, onlara dəstək olmaqdır.

Həm tələbələrin bilik və bacarıqlarını formalaşmağına xidmət edəcək, həm də onların sosiallaşmasına gətirib çıxaracaq müasir təlim metodlarından istifadə etməklə bu işdə uğur qazana bilərik.

ARAŞDIRMA

Kollektivlə iş. Təlimin "kollektivlə iş" forması həm fərdi, həm cütlərlə, həm də qruplarla iş formalarının kompleks elementlərini özündə birləşdirir. Məlum olduğu kimi, insanın sosiallaşması ictimai keyfiyyətlərin qazanılması və bu keyfiyyətlərin cəmiyyətə yenidən inteqrasiyası səviyyəsində reallaşır. İnsanın sosiallaşması ilkin olaraq ailədən başlayır, sonradan qohumların, məhəllənin, dostların, tanışların və ümumiyyətlə qarşılaşdığı tərəflərin əhatəsində davam edir. Qeyd olunan digər tərəflərin əksəriyyəti fərdi münasibət əsasında qurulsa da, sosiallaşma prosesinin böyük bir hissəsini kollektiv münasibətlər sistemi təşkil edir. Bu baxımdan insan əvvəl fərdi, sonra qrup, daha sonra kollektiv münasibətlər sisteminə inteqrasiya edərək ümumi cəmiyyətdə mövcud münasibətlər sisteminə qoşulma imkanlarını qazanır.

"Kollektivlə iş" formasının əsas üstünlüklərindən biri də tələbələr arasında qarşılıqlı fəaliyyətə əsaslanan dinamik işin önə çıxarılmasından ibarətdir. Yəni kollektivin birgə fəaliyyəti dedikdə sadəcə

olaraq qarşılıqlı təsir prosesi deyil, tələbələrdə tədqiqat xarakterli xüsusi təşkil olunmuş idrak fəaliyyəti başa düşülür. Təlimin "kollektivlə iş" formasında tədrisin elə metodlarının tətbiqinə şərait yaradılır ki, həmin metodlar tələbələrin tədris materialı ilə, eləcə də ətraf aləmin reallıqları və təzahürləri ilə sərbəst iş prosesində tanışlığına və istifadəsinə şərait yaranır. Tətbiq olunan müasir təlim metodları tələbənin nailiyyət səviyyəsinin yüksəldilməsini təmin edən ən mükəmməl vasitələrdəndir. "Kollektivlə iş" forması müəllimin bilavasitə iştirakı ilə tələbələrə müxtəlif informasiya mənbələri əsasında və ya bir-biri ilə qarşılıqlı ünsiyyət prosesində yeni bilikləri və həyati bacarıqları qazandırmağa imkan verən təlim üsullarını və dərsin təşkili formalarını özündə birləşdirən, pedaqoji fəaliyyətin səmərəli tərəflərini həyata keçirən ən mükəmməl təlim formalarındandır. Fəal təlim üsullarına BİBÖ, layihələrdirmə metodu, karusel, anlayışın müəyyən edilməsi, akvarium metodu, kublaşdırma, ziqzaq, beyin həmləsi, klaster, venn diaqramı, auksion, söz assosiasiyaları, diskussiya, ideyalar xalisi, refleksiya və s. üsullar daxildir.

Mövcud dünya təcrübəsinin öyrənilməsi və təhlili əsasında informatika fənni təliminin aşağıdakı məzmun xətləri müəyyənləşdirilmişdir:

- İnformasiya və informasiya prosesləri
- Formallaşdırma, modelləşdirmə, alqoritmləşdirmə və proqramlaşdırma
- Kompüter, informasiya və kommunikasiya texnologiyaları və sistemləri
- Cəmiyyətin informasiyalaşdırılması

Formallaşdırma, modelləşdirmə, alqoritmləşdirmə və proqramlaşdırma məzmun xəttinə aid olan Alqoritm mövzusu ibtidai siniflərdə, həmçinin 5 və 6-cı siniflərdə tədris olunur. 5-ci sinifdə alqoritm anlayışı, onun təsvir üsulları verilir. Metodik vəsaitdə rollu oyunlar üsulundan istifadə tövsiyyə olunur. 6-cı sinifdə alqoritmin xassələri ön plana çıxarılır və mövzu əyləncəli məsələlərlə dəstəklənir. Yəni alqoritmin nə olduğunu tələbələr artıq orta məktəb informatika kursundan bilirlər.

Bu bir reallıqdır ki, yuxarı siniflərə keçdikcə şagirdlər ixtisas seçimi edir, buraxılış və qəbul imtahanı verəcəkləri fənlərə daha çox vaxt və enerji ayırırlar, digər fənlər isə bir növü diqqətdən kənarda qalır. Əvvəlki illərdə həmin fənlər üzrə yiyələndikləri bilik və bacarıqları isə qismən unudurlar. İnformatika da son ilə qədər həmin fənlər siyahısında idi. Sevindirici haldır ki, artıq buraxılış imtahanlarına informatika fənninin daxil edilməsi planlaşdırılır. Çünki, ixtisasının nə olmasından asılı olmayaraq, müasir dövrün insanını İKT kompetensiyaları olmadan təsəvvür etmək çətindir.

Təlimi "kollektivlə iş" formasında təşkil edərək qeyri-ixtisas fakültələrdə Təhsildə İKT fənninin proqramına daxil olan "Alqoritmləşdimənin əsasları" mövzusunun tədrisi modelini təklif edirik. Proqramda mövzunun tədrisinə 2 saat ayrılmışdır.

Alqoritmin tərifi özü-özlüyündə maraq və motivasiya yaradır. Çünki artıq qarşıya qoyulan məqsəddən və ona çatmaq üçün addımlar ardıcıllığından danışılır. Suallar verərək tərifi deduktiv yolla çıxarmağa çalışırıq: Dərsə necə gəldiniz, işıqforu necə keçdiniz, universitetə necə daxil oldunuz, mühazirə materialını necə öyrəndiniz? və s. Tələbələr bir-bir suallara cavab verərkən yerinə yetirdikləri hərəkətlər ardıcıllığını sadalayırlar. Sual: Bəs bu hərəkətlər ardıcıllığını kor-koranə yerinə yetirdiniz yoxsa qarşınızda hansısa məqsəd dururdu? Cavab: Məqsəd universitetə çatmaq idi.

Daha bir tələbə ilə bu tip sorğu keçirərək tərifi ümumiləşdirmək olar. Alqoritm - verilmiş hər hansı tip məsələnin həlli üçün yerinə yetiriləcək sonlu sayda əməliyyatlar ardıcıllığıdır (Qeyd edək ki, alqoritmin dəqiq riyazi tərifi yoxdur).

Bir başa alqoritmi blok sxemlərlə təsvir etmək tələbələrə həmişə çətin olur. Ona görə də məsləhət görürük ki, əvvəlcə hazır alqoritmlər üzərində işləyib addımların necə icra olunmasını əyani gördükdən sonra alqoritm qurmağa başlasınlar. Bu işdə beyin həmləsi metodunun üsulu olan auksion üsulundan istifadə etmək olduqca əlverişlidir. Auksion üsulundan tələbələrin kollektiv şəkildə hər hansı bir problemin həllinə cəlb olunmasında geniş istifadə edilir. Prosesdə bütün fikir və təkliflər qeyd edilir, lakin onlara ayrı-ayrılıqda münasibət bildirilmir. Əsas diqqət fikir və ideyaların toplanması və sonda onların qiymətləndirilməsinə verilir. Bu üsulun əhəmiyyəti ondan ibarətdir ki, tələbələr ideya axtarışına

yönəldilir, onlarda təklif və ideyaların ekspertizasını aparmaq bacarıqları formalaşır. Onlar kollektiv münasibətdə bir-birini dinləmə, bir-birinin fikrinə hörmət etmə kimi vərdişlərə yiyələnirlər.

Alqoritmlər nümayiş etdirilir, qapalı suallar verlir, tələbələrdən icra etmələrini xahiş edirik: Bu blok nəyi bildirir, bu hansı riyazi ifadənin alqoritmik dildə yazılışıdır və s. Tələbələr bir-bir suallara cavab verir, sonda düzgün cavab verən tələbənin cavabı əsas götürülür. Bu zaman onlar həm də blok-sxemlərin təyinatlarını, riyazi ifadələrin alqoritmik dildə təsvirini xatırlayırlar. Yəni blok sxemlərin və ifadənin alqoritmik dildə təsvirinin təkrarına ayrıca vaxt ayırmağa ehtiyac olmur.

1. Aşağıdakı alqoritm fraqmentində c-nin qiymətini təyin edin.



Şəkil 1

2. A=11 və B=6 olduqda aşağıdakı blok-sxemdə təsvir edilmiş alqoritmin yerinə yetirilməsi nəticəsində X dəyişəni hansı qiyməti alacaqdır?



Şəkil 2

3. Aşağıdakı alqoritm fraqmentində a-nın qiymətini təyin edin.



Şəkil 3

4. S dəyişəninin qiymətini müəyyən edin.



Şəkil 4

Önşərtli və sonşərtli dövri alqoritmlər isə tələbələrin qavramaqda çətinlik çəkdikləri alqoritmlərdir. Venn diaqramı üsulunu tətbiq etməklə bu işi tələbələr üçün həm asan, həm maraqlı etmək olar. Hər hansı iki mövzunun (informasiyanın, anlayışın, obyektin və s.) müqayisəli səciyyəsini əks etdirən Venn diaqramının tətbiq edilməsi tədris baxımından çox maraqlıdır. İki anlayışın oxşar və fərqli cəhətlərinin üzə çıxarılmasına həsr olunan bu metod tələbələri alternativ düşüncəyə cəlb edir, onlardan qoyulmuş məsələnin daha çox cəhətli müzakirəsini tələb edir. Bu metod dərsin dərketmə və düşünmə mərhələlərində tətbiq olunur.

Ən çox da yeni dərsin möhkəmləndirilməsi zamanı istifadə edildikdə daha yaxşı səmərə verir. Venn diaqramı çəkilir (Şəkil 5). Son işlənən nümunələri (Şəkil 3, 4) müzakirə edərək onların oxşar və fərqli cəhətlərini tələbələr diaqrama qeyd edir.



Şəkil 5

Hazır nümunələrlə işlədikdən, mövzunu möhkəmləndirdikdən sonra artıq alqotitmlərin sərbəst qurulmasına keçmək olar. Bu məqsədlə layihələrin hazırlanması üsulundan istifadəni təklif edirik. Layihələrin hazırlanması üsulu müəyyən nəticələrə əsaslanan layihənin təqdim olunması və müdafiəsi yolu ilə tələbələrin yaradıcı, məntiqi təfəkkürünün inkişafına, müstəqil düşüncə, təhliletmə və əqli nəticə çıxarma qabiliyyətlərinin təşəkkülünə zəmin yaradır.

Dərsin bu mərhələsində tələbələri qruplara ayırıb onlara tapşırıqlar vermək olar.

Məsələn:

1. İki ədədin max-nun tapılması alqoritmini qurun
2. Üçbucağın sahəsinin hesablanması alqoritmini qurun
3. n! Hesablanması alqoritmini qurun
4. 1-dən 100-ə qədər ədədlərin cəminin tapılması alqoritmini qurun və s.

Tapşırıqları ixtisasa uyğun olaraq hazırlamağı məsləhət görürük.

NƏTİCƏ

Layihənin hazırlanması zamanı tələbələr dərsin bu hissəsinə qədər əldə etdikləri bilik və bacarıqlardan istifadə edərək həm işin öhdəsindən layiqincə gələcək, həm də bir-birləri ilə fikir mübadiləsində olduqlarından, kollektiv iş vərdişlərinə yiyələnəcəklər. Bunun sayəsində də kifayət qədər sosiallaşacaqlar. Bu üsulun tətbiqi tələbələrin yalnız dərsdə deyil, dərsdən kənar asudə vaxtlarında da görüşmələrinə, toplaşıb problemi birgə həll etmələrinə zəmin yaradacaq. Belə ki, müəllim layihəni təqdim etmək üçün gələn dərsə qədər tələbələrə zaman da verə bilər. Nəticədə onlar komfort zonalarının sərhədlərini aşacaq, telefon və kompüter qarşısında sosial şəbəkələrdə boş vaxt keçirmək əvəzinə toplaşıb bərabər həm faydalı, həm maraqlı, həm də verimli zaman keçirəcəklər.

ƏDƏBİYYAT SİYAHISI

1. Azərbaycan Respublikası Təhsil Nazirliyi, Azərbaycan Respublikası Təhsil Problemləri İnstitutu. Azərbaycan Respublikasının ümumtəhsil məktəbləri üçün informatika fənni üzrə təhsil proqramı (kurikulumu) (I-XI siniflər). Bakı–2013

2. Muradova A.E., Məmmədov K.H., Kərimova P.K. İnformatika. Magistratura və dövlət qulluğuna hazırlaşanlar üçün vəsait. Kainat yayınları-2017.

3. R.Mahmudzadə, İ.Sadıqov, N.İsayeva. Ümumtəhsil məktəblərinin 5-ci sinfi üçün "İnformatika" fənni üzrə dərslik. Bakı, "Bakınəşr", 2016, 96 səh.

4. R.Mahmudzadə, İ.Sadıqov, N.İsayeva. Ümumtəhsil məktəblərinin 5-ci sinfi üçün "İnformatika" fənni üzrə dərslik. Bakı, "Bakınəşr", 2017, 96 səh.

CIDIR DÜZÜ ORTAQ TÜRK MƏDƏNİ İRSİNİN NÜMUNƏSİ KİMİ

CIDIR DUZU (JIDIR PLAIN) AS AN EXAMPLE OF A COMMON TURKISH CULTURAL HERITAGE

Şəhla Tofiq qızı NURUZADƏ

Tarix elmləri üzrə fəlsəfə doktoru, dosent

Bakı Slavyan Universiteti, Azərbaycan

ORCID ID: 0000-0002-3813-5619

XÜLASƏ

Məqalədə Şuşadakı Cıdır düzünün azərbaycanlılar üçün mənəvi əhəmiyyətini və cıdır oyunlarının (at yarışmalarının) ortaq Türk mədəni irsinin nümunəsi olduğunu göstərməkdir. Qeyd etmək lazımdır ki, Azərbaycanda keçirilən cıdır yarışmaları cüzi fərqlərlə türk xalqlarının məskun olduğu ərazilərdə də - Türkiyədə, Qazaxıstan, Türkmənistan, Qırxığıstan və Özbəkistanda və s. tarixən keçirilmişdir. Azərbaycanda, eləcə də digər Türk dövlətlərində geniş yayılmış cıdır yarışmalarında xalqın qəhrəmanlıq, igidlik, çeviklik kimi xüsusiyyətləri öz əksini tapır. Tarixi mənbələrdə çıdır yarışları haqqında geniş məlumat verilir. Kitabi-Dədə Qorqud dastanında cıdırın türk xalqalrı arasında qəhrəmanlıq, igidlik kimi yüksək qiymət verilməsinin şahidi oluruq. Mənbələrdən də aydın olur ki, cıdır yarışları tarixən türklərin ən böyük mərasim və idman oyunlarından biri olmuşdur. Bu gün yalnız Türkiyənin bəzi bölgələrdə - Qars, Ərzincan, Ərzurum, Bayburt, Sivas və s.-də cıdır oyunu canlı olaraq qorunur. Övliya Çələbi "Səyahətnamə"də cıdır oyununu igidlik, mərdlik, məharət, çeviklik oyunu kimi təsvir edir. Osmanlıda şənliklərin keçirilməsi üçün nəzərdə tutulmuş Ədirnədəki sarayın önündə qədimdən Cirit (Cıdır) adlanan meydanda cıdır keçirilirdi. Şuşadakı Cıdır düzü də qədimdən bayram və mərasimlərin keçirildiyi xüsusi meydan olub. Ümumiyyətlə, Azərbaycanda el şənliklərində, bayramlarda cıdır təşkil olunardı və bu adət indi də davam edir (əsasən, dövlət tədbirləri səviyyəsində). Bütün bunlar Şuşadakı Cıdır düzünün Azərbaycanlılar üçün mənəvi əhəmiyyətini artırır. 2021-ci il iyunun 15-də Şuşa Bəyannaməsinin imzalanması mərasimindən sonra Azərbaycan və Türkiyə prezidentləri Cıdır düzündə gəzintiyə çıxdı, burada cıdır oyunu keçirildi və Türkiyə Prezidentinə "Zəfər" adlı Qarabağ atı hədiyyə edildi. Prezident İlham Əliyevin dediyi kimi, "Şuşanı Cıdır düzüsüz təsəvvür etmək mümkün deyil, Azərbaycanı isə Şuşasız təsəvvür etmək mümkün deyil".

Açar sözlər: Cıdır Düzü, Ortaq Türk mədəniyyəti, mədəni irs, Şuşa, Qarabağ.

ABSTRACT

The article aims to show the moral significance of the Jidir Plain in Shusha and to show that horse racing is an example of a common Turkish cultural heritage for Azerbaijanis. It should be noted that the equestrian competitions held in Azerbaijan have historically been held in the territories inhabited by the Turkic peoples - Turkey, Kazakhstan, Turkmenistan, Kyrgyzstan and Uzbekistan. Equestrian competitions, widespread in Azerbaijan, as well as in other Turkic states, reflect such qualities of the people as heroism, courage and dexterity. Historical sources contain extensive information about horse racing. In the epic Kitabi-Dede Gorgud, we observe a high appreciation of the Turkic peoples as heroism and courage. It is also clear from the sources that horse racing has historically been one of the largest ceremonial and sports games of the Turks. Today, horse racing is held only in some regions of Turkey - Kars, Erzincan, Erzurum, Bayburt, Sivas and others. Evliya Chelebi in his work "Journey" describes the equestrian game as a game of courage, courage, dexterity and dexterity. In front of the palace in Edirne, which in the Ottoman Empire was intended for festivities, there were races in a square called Dzhirit (horse competitions). The Cidir plain in Shusha has also been a special square for celebrations and ceremonies since ancient times. It should be noted that historically in Azerbaijan, races were

organized on folk festivals and holidays, and this custom continues today (mainly at the level of state events). All this increases the moral significance of Jidir Plain in Shusha for Azerbaijanis. After the signing ceremony of the Shusha Declaration on June 15, 2021, the Presidents of Azerbaijan and Turkey went for a walk around the Hippodrome, where horse races took place and the Karabakh horse "Victory" was presented to the President of Turkey. As President Ilham Aliyev said, "It is impossible to imagine Shusha without Jidir Plain, and Azerbaijan is impossible to imagine without Shusha."

Key words: Cidir Duzu (Jidir plain), Common Turkish culture, cultural heritage, Shusha, Karabakh.

GİRİŞ

Milli mədəni irs Azərbaycan xalqının etnomədəniyyətinin göstəricisi olan milli-mənəvi dəyərləridir. Mədəni irs nümunələri xalqın etnopsixologiyasını, səciyyəvi xüsusiyyətlərini, həyata baxışlarını, bütün bunlardan da irəli gələrək onun həyat tərzini, etnotarixini tədqiq etmək üçün zəngin mənbədir. Biz digər mədəni irs nümunələri kimi, Cıdır düzündə (meydanlarında) keçirilən xalq oyunları – zorxanalar, güləş, at yarışları, çovqan oyunu və s. vasitəsilə xalqın asudə vaxtını keçirmək mədəniyyəti haqqında məlumat əldə etmək olur. Eyni zamanda bütün bu mədəni irs nümunələrinin ümumtürk etnocoğrafiyasında yayılmasını nəzərə alsaq Ümuntürk mədəni irsi olduğunu bir daha təsdiqləməyə imkan verir. Eyni zamanda bu mədəni irsi nümunələrinin yayıldığı ərazilərin də Ümumtürk torpaqları olduğunu sübut edir. Məsələn, Azərbaycanın Qarabağ bölgəsinin dağlıq hissələrinə erməni millətçilərinin əsassız iddialarına cavab olaraq bu araşdırma mühüm əhəmiyyət kəsb edir. Müasir dövrdə ümumtürk mədəni irsinin qonşu xalqlar (əsasən, ermənilər) tərəfindən tarixinin saxtalaşdırılması hallarının şahidi oluruq. Bütün bu kimi əsassız iddialara cavab vermək üçün tarixi araşdırma, Türk mədəni irsinin müqayisəli təhlil edilməsi vacibdir.

Cıdır düzü Azərbaycan xalqına məsxsus Ümumazərbaycan, eləcə də Ümumtürk əhəmiyyəti kəsb edən xalq oyunlarının, milli bayram və mərasimlərin icra olunduğu məkandır. Cıdır yarışlarının, covqan oyununun və s. atlı oyunlarının, eləcə də digər oyun və tamaşaların keçirildiyi məkan da sözsüz ki, bu ərazilərin azərbaycanlılara, eləcə də digər türk xalqlarına tarixən məxsus olduğunu göstərir.

Azərbaycanın mədəniyyət mərkəzi olan Şuşanın Cıdır meydanı Azərbaycan xalqının hər bir nümayəndəsinin özünün mdəəni irs nümunəsi hesab etdiyi ənənələr, özünüifadə formaları, bacarıqları, bayram və mərasim mədəniyyəti həyata keçirilən mədəniyyət məkanıdır. Şuşalıların bütün bayram və mərasimləri keçirdiyi məkan olan Çıdır düzü özündə türk mədəniyyətinin izlərini yaşadır.

Türk xalqlarının ortaq mirası olan güləş, atçapma, çilingağac və digər idman və fiziki fəaliyyətlə bağlı oyun və tamaşalar türk coğrafiyasında yayılmış ümumi mədəni irsdir.

Ata münasibət, at yarışları, atla bağlı inanclar türk xalqları mədəniyyətində xüsusi yer tutur. Bütün bunlar Türk dastanlarında, əsasən də Kitabi-Dədə Qorqud dastanlarında, nağıllarda və digər folklor nümunələrində də əks olunmuşdur.

Tarixən Cıdır yarışmalarında azərbaycanlı kişilər öz atçapma məharətlərini, cəsurluğunu, çevikliyini nümayiş etdirmişlər. Tarixi/tarixi-etnqorafik mənbələrdən də göründüyü kimi güləş, cıdır və çövkən, tarixən türklərin ən böyük mərasim və idman oyunlarından biri olmuşdur.

Qars, Bayburt, Ərzurum, Ərzincan, Sivas və Türkiyənin digər bölgələrində müasir dövrdə də Cıdır yarışlarına hələ də rast gəlinir. "Cıdır oyunu insanların döyüşdə mizraqla, Çovqan isə qılıncdan istifadə etməyə hazırlayan oyunlardır. Xəzərdə belə oyunlarla müharibəyə hazırlaşırdılar. Sonra bu oyunlat döyüş məqsədləri üçün bir təlim və taktiki bir idman növüdür" [Güven, s. 5].

Övliya Çələbinin "Səyahətnamə"sində cıdır oyununu igidliyi, mərdliyi, məharəti, çevikliyi nümayiş etdirən oyun kimi təsvir edir. O, at yarışmalarının Osmanlıda xüsusi Cırıt meydanında keçirilməsi haqqında məlumat verərək, Cırıt oyununda Osmanlının ən yaxşı atlılarının bu mərasimdə iştirak etdiyini yazır: "Bu sırada sarayın hümayun dəstəsi Ayasofya tərəfdən göründü... Oyunda cirit[1] atmaq,

[1] Nizə

qovduğunu istədiyi yerinden vurmaq, gələn çubukları vurub geri qaytarmaq[2], bir əli ilə atın yırğasını tutaraq bir əli ilə yerdən çubuğu tutmaq və belindən arxa tərəfə dönərək ona atılan nişanları tutmaq üçün o qədər məharət göstərdi ki, tamaşaçıları özünə heyran etdi" [Karabey. Evliya Çelebi Seyahetnamesinde Güy və Çevgan oyunu].

Bayram və mərasimlərdə at yarışmalarının keçirilməsi, qurban kəsilməsi türk xalqları üçün səciyyəvi idi. Məsələn, Osmanlı sarayında hər il bayramlarda hökmdarın hüzurunda cıdır oyunlarında on iki qurban kəsilmək adəti var idi [Alikılıç, s. 135]. Osmanlıda şənliklərin keçirilməsi üçün nəzərdə tutulmuş Ədirnədəki sarayın önündə qədimdən Cirit (Cıdır)[3] adlanan meydanda cıdır keçirilirdi [Alikılıç, s. 199].

Azərbaycanda da Cıdırın keçirildiyi meydan, gün və oyunun şərtləri əvvəlcədən müəyyən edilir, ona xüssusi hazırlanırdılar. Ölkənin bölgələrində atlı oyunları üçün nəzərdə tutulmuş xüsusi meydanlar olardı. Şuşada at yarışları Cıdır düzündə keçirilirdi. Cıdır üçün xüsusi diqqətlə hazırlanmış və təlim görmüş atlar seçilərdi. Cıdırda "təkcə atın gücü, qüvvəti, qaçma məharəti ilə yanaşı, at çapanın da məharəti nəzərə alınırdı. Çünki bu iki amil bir-birini tamamlamadan qələbə çalmaq mümkün deyil. Cıdır da başqa oyunlar kimi toylar və el şənlikləri ilə bağlı keçirilmişdir" [Allahmanlı, s. 91]. XX əsrin sonlarnadək Azərbaycanın bölglərində Cıdır oyununun başlanması və bitməsi zamanı qara zurnanın müşayiəti ilə cəngi ifa olunardı. Hətta dövlət tədbirlərində, mərasimlərində, məsələn, hər il payızda keçirilən Məhsul bayramında at yarışları keçirilərdi, yarışda birinci olan atçılara hədiyyələr verilərdi.

Türkmənlərin, qırğızların, qazaxların, tatarlaın etnomədəniyyətində at yarışları xüsusi yer tutur və bugünədək ənənəvi və hətta dövlət bayram və mərasimlərində təşkil olunur. Mərkəzi Asiya türk xalqlarının mədəniyəti köçəri və yarımköçəri təyat tərzinə əsaslanır. Türk xalqlarının dövlətçilik ənənələrinin inkişafı ilə at oyunları, at üzərində çevik hərəkət etmək, nizə atmaq, qılıncla döyüşmək və s. döyüş bacarığı da formalaşdı. Bütün bunlar eyni zamanda xalqın milli ruhunu, milli həmrəyliyini nümayiş etdirmişdir. Atlı oyunlarının bir çoxu keçmişdə daha çox məişət, digərləri bayramlarda sırf əyləncə xarakteri daşımışlar.

Qazaxıstanda atlı oyunları "alaman bayge", "bayge", "kokpar" (göy canavar), ""aydarıspak", "kız kuu", "kume alu", "tımak urıp jıqu", qırxızlarda "ulak tartış", "oodarış", "tıyın enmey", "kız kuumay", başqırdlarda "ılak uyını" (kük büre) adı ilə məlumdur. Bu oyunlar cüzi fərqlərlə çevikliyi, qalib olmaq istəyini, döyüş bacarığını nümayiş etdirir.

Azərbaycanda geniş yayılmış və müasir dövrədək mədəni irs kimi qorunub saxlanmış atlı oyunları olan "çövkən", "papaq oyunu", "yaylıq", "atüstü güləş", "baharbənd" və digərlərini götərmək olar. Qeyd etmək lazımdır ki, 2006-cı ildə Azərbaycanda Çovhan oyunu üzrə Prezident kuboku turniri, 2013-cü ildə Bakıda Argentina, Böyük Britaniya, Avropa İttifaqı ölkələrini və ABŞ təmsil edən atlı komandalarının iştirakı ilə at polosu üzrə dünya kuboku yarışı keçirilmişdir [Çovqan ənənəvi Qarabağ atüstü oyunu]. 2013-cü ildə isə Çovqan oyunu "Ənənəvi Qarabağ atüstü oyunu" adı ilə YUNESCO-nun qeyri-maddi mədəni irs siyahısına daxil edilmişdir. YUNESCO-nun qeyri-maddi mədəni irs siyahısında yazılır: "Çovqan köçəri mədəniyyətindən qaynaqlanan və atın məişət həyatının ayrılmaz hissəsi kimi qavranılması ilə əlaqəli şəxsiyyət hissini gücləndirir. Çovqanın xüsusi qaydaları, bacarıqları və texnikaları kollektiv öyrənmə yolu ilə təcrübəli oyunçulardan yeni başlayanlara ötürülür. Lakin urbanizasiya və miqrasiya ilə birləşən gənclər arasında maraq itkisi səbəbindən çovğanın tətbiqi və ötürülməsi zəifləyib, oyunçu, məşqçi və Qarabağ atlarının çatışmazlığına gətirib çıxarıb." [Chovqan, a traditional Karabakh horse-riding game in the Republic of Azerbaijan].

Türklərin etnotarixi, etnomədəniyyəti, dünyagörüşü haqqında zəngin və əvəzolunmaz mənbə olan Kitabi-Dədə Qorqud dastanlarında da atlı yarışlarının türk xalqlarının həyatında tutduğu yer haqqında geniş məlumat verilir. "Bayburanın oğlu Bamsı Beyrək boyu"nda deyilir: "Ol qız elə adam deyildir ki, sənə görünə – dedi. Amma mən Banıçiçəyin dadısıyam. Gəl imdi səninlə ava çıxalım. Əgər sənin atın mənim atımı keçərsə, onun atın dəxi keçərsən" [Kitabi-Dədə Qorqud, s 54-55].

Müasir dövrdə türk xalqları mədəniyyətində atlı oyunlar öz ilkin mənasını itirsə də onların mənəvi dəyərləri sistemində xalqın etnomədəni və dövlətçilik ənənələrini əks etdirən mədəni irs kimi xüsusi

[2] əlindəki nizə ilə
[3] XVI əsrdə artıq Sırık meydanı adlanırdı

yerə malikdir. Türk dövlətlərində rəsmi və milli bayram və mərasimlərdə bu oyun növlərinin keçirilməsi xüsusi bayram əhval-ruhiyyəsi yaradır və insanların öz keçmişi ilə, ata-babalarının ənənələri ilə bağlılığını göstərir.

Erməni işğalından azad edilmiş Şuşadakı Cıdır düzü Azərbaycan xalqı üçün xüsusi mənəvi əhəmiyyət kəsb edir. Şuşa erməni işğalı altında olduğu dövrdə Ermənistanın dövlət nümayəndələrinin Cıdır düzündə yallı oynaması Azərbaycan xalqı tərəfindən etirazla qarşılandı. Qarabağın Dağlıq hissəsinin erməni işğalından azad olunmasından sonra Ali Baş Komandan İlham Əliyevin Çıdır düzündəki çıxışı xalqın qələbə sevincini daha da artırdı. Eləcə də Cıdır düzündə bayram mərasimləri keçirilməsi azərbaycanlılar üçün xüsusi mənəvi əhəmiyyət kəsb edir. Prezident İlham Əliyev Şuşa şəhərinə səfərlərindən birində Cıdır düzünün Azərbaycan xalqı üçün əhəmiyyətini xüsusi vurğulaşdırmışdır: "Bura Cıdır düzüdür. Hər birimiz üçün əziz, doğma Cıdır düzü... Biz Şuşaya qayıtmışıq, Cıdır düzünə qayıtmışıq və tarixi yerdə bundan sonra muğam səsi eşidiləcək, Azərbaycan mahnıları ifa olunacaq, böyük tədbirlər keçiriləcək, toy-bayram olacaq. Bir müddət bundan əvvəl işğalçı qüvvələr bizim üçün müqəddəs olan bu yerdə heysiyyətimizə toxunmaq, Azərbaycan xalqını təhqir etmək üçün eybəcər hərəkətlər etmişlər, - bütün dünya artıq bundan xəbərdardır, - "Yallı" getmişlər. Bu torpağın sahibləri qayıdıblar, əllərində silah, əllərində bayraq, ürəklərində Vətən sevgisi" [İlham Əliyev Füzuli rayonunda Füzuli-Şuşa yolunun və hava limanının təməlini qoyub, Şuşa şəhərində səfərdə olub].

NƏTİCƏ

Müasir dövrdə Avropa mədəniyyətinə inteqrasiya və qloballaşma prosesləri, əsasən də erməni millətçilərinin Azərbyacan torpaqlarına əsassız iddiaları, Azərbaycan xalqının etnotarixinin göstərici və eyni zamanda Ümumtürk mədəni irsi olan atlı oyunlarının tartixini saxtalaşdırmaq cəhdləri Şuşadakı Cıdır düzünün Ümumrük mədəni irsinnin göstəricisi kimi araşdırılmasını aktual edir. Cıdır düzünün ortaq Türk Mədəni İrsinin Nümunəsi olduğunu bu cür meydanların tarixən digər Türk dövlətlərinin ərazilərində olması və onlarda Ümumtürk mədəniyyəti üçün səciyyəvi olan oyun (atlı oyunları, zorxanalar, güləş və s.) və tamaşaların göstərilməsi bir daha sübut edir. Nəticədə bir daha demək lazımdır ki, Cıdır düzü Ortaq Türk mədəniyyətini yaşadan mədəni məkan və mədəni irsdir.

KAYNAKÇA

1. Alikılıç, D. Osmanlı'da Devlet Protokolü ve Törenler İmparatorluk Seremonisi / D.Alikılıç - İstanbul: Tarih Düşünce Kitapları, - 2004. – 216 s.

2. Allahmanlı, M. Azərbaycanın Qərb bölgəsinin mənəvi mədəniyyətindən (tarixi-etnoqrafik tədqiqat) / M.Allahmanlı - Bakı: Nurlan, - 2011, - 176 s.

3. Chovqan, a traditional Karabakh horse-riding game in the Republic of Azerbaijan. https://ich.unesco.org/en/USL/chovqan-a-traditional-karabakh-horse-riding-game-in-the-republic-of-azerbaijan-00905

4. Çovqan ənənəvi Qarabağ atüstü oyunu. http://www.unesco.az/?options=content&id=39#

5. Güven, Özbay: " Spor Tarihinde Çöğen / Çevgân / Polo", Toplumsal Tarih, Ocak 1999sayı: 61, s. 5. http://turkishstudies.net/Makaleler/1336571463_7_karabeyturgut.pdf s/ 83

6. İlham Əliyev Füzuli rayonunda Füzuli-Şuşa yolunun və hava limanının təməlini qoyub, Şuşa şəhərində səfərdə olub. 14 yanvar 2021, 11:35. [Elektron resurs] https://president.az/az/articles/view/50184/print

7. Karabey, T. Evliya Çelebi Seyahetnamesinde Güy və Çevgan oyunu. http://turkishstudies.net/Makaleler/1336571463_7_karabeyturgut.pdf

8. Kitabi-Dədə Qorqud / tərt. ed. S.Əlizadə - Bakı: Öndər, 2004, 376 s.

KONSEPTUAL İNCƏSƏNƏTİN MÜASİR DÖVRDƏ MÖVCUDLUĞU

Yüzbaşıyeva Vəfa Rüstəm qızı

Odlar Yurdu Universitetinin "Dizayn" kafedrasının baş müəllimi

XX əsrin sonlarında Azərbaycan incəsənət tarixində Avropa və Amerika mədəni həyatında baş verən bədii proseslərlə tanışlıq işləri görülmüş, mədəni inteqrasiya, müasir incəsənət sərgiləri, konseptual incəsənət istiqamətlərinin müşahidəsi artıq yaradıcı gənclərin eksperimentlər əsasında qeyri-ənənəvi üslubunun formalaşmasına səbəb olmuşdur.İncəsənət sahələrinin və Azərbaycan rəssamlarının konseptual istiqamətlərinin müxtəlifliyini nəzərə alaraq onları monolit hərəkat kimi müzakirə etmək olar. Bildiyimiz kimi, rəssamlar əsərlərinə öz duyğularını qatır. Azərbaycan müstəqillik əldə etdikdən sonra ölkədə incəsənətin inkişafı hər şeydən çox ideya-bədii məzmun dəyişikliyi ilə müəyyənləşmişdir. Bu dəyişikliklər də, öz növbəsində, müəyyən sinfin yaxud sosial təbəqənin ictimai maraqlarının, mədəni ehtiyaclarının və tələbatlarına uyğunlaşmışdır. Azərbaycan incəsənəti öz məkanını və zamanını əks etdirsə də, dünya incsənət tarixinin bir hissəsi sayılır. Belə ki, bütün rəssamlar yerli və qlobal ideyanı əhatə edərək Azərbaycan incəsənətini daha geniş kontekstdə ortaya qoyur. Müstəqilliyin bərpasından sonra Azərbaycanda dünyanın avanqard incəsənəti ilə daha yaxından tanışlıq, dünya art məkanında baş verən proseslərə inteqrasiya davamlı xarakter almağa başlamışdır. Müasir incəsənətin avanqard sənəti ilə oxşar cəhətləri var. Beləliklə, müasir incəsənətdə rəssamların orijinallığı və subyektivliyi sənətkarların düzəltdikləri sənət nümunələrində özünü göstərir.Sənətkar sənət əsərlərində müasir dövrün mədəni, siyasi, sosial və kommunikativ xüsusiyyətləri kimi digər keyfiyyətlərdən də istifadə edir. Müasir incəsənətdə əsas diqqət çəkən xüsusiyyət onun incəsənət qalereyaları, muzeylər və sənət yarmarkaları və ya incəsənət biennaleləri kimi sənət əsərlərini təsdiq edən qurum və strukturlarla çox sıx əlaqədə olmasıdır. Bu qurumlar müxtəlif sənətkarlar tərəfindən görülən işi qanuniləşdirmək və beləliklə, onu müasir incəsənət adlandıra bilmək üçün istifadə olunur. Müasir sənəti yaratmağın bu yolu hər hansı bir obyektin sənət ola bilməsi üçün keçməli olduğu prosesdə sənət əsərləri bədii quruluşu baxımından çox mühümdür.Konseptual sənətdən olan bir sənətçinin sənət əsərini müasir sənətə gətirmək üçün yerinə yetirməli olduğu şərtlərdən biri də paradiqma dəyişikliyidir.Bu yolla bütün çağdaş rəssamların post-konseptual rəssamlar olduğu deyilir.

Qeyd etmək lazımdır ki, bütün bu bədii cərəyanlar çox ümumi olacaq elementlər toplusuna malikdir, ən çox istifadə olunan elementlərdən biri ideologiyadır. Amma üslub baxımından onlar bir-birini tamamlamır və yenilikdən söhbət gedəndə müasir incəsənətə ehtiras özünü büruzə vermir.Buna görə də təsdiq etmək lazımdır ki, müasir incəsənət səciyyələnir, çünki hər bir bədii cərəyan daxilində müasir incəsənətə qarşı bir şüur var, burada hər bir aspekt və ya bir neçə bədii cərəyan əks oluna bilər. Keçmişi inkar edə bilmək və həmişə yeni bədii model axtarışında olmaq üçün hər bir hərəkətlə müasir incəsənətdə yeni bir konsepsiya axtarmaqdan söhbət gedir. Bunun üçün müasir incəsənətin bir çox rəssamları başqa rəssamları təqlid etmək istəmədikləri üçün reallığa fərqli baxış vasitəsilə sənət əsərlərində yeni məna tapmağa çalışırlar. Buna görə də onlar həmişə rəng, kompozisiya və formalarla sınaqdan keçirdikləri yeniliklər axtarırlar.Müasir incəsənətdə rəssamların istifadə etdiyi üsullara gəlincə, onlar reallıqda baş verənləri şərh etmək, onu sənət əsərinə uyğunlaşdırmaq və ya narahatçılıq və narazılıqla öz fikirlərini ifadə etmək bacarığına sahib olacaqlar.

İnstalyasiya konseptual sənətin bir təzahürüdür. O konseptualizmin ki, postmodernizmin bir qolu kimi 1960-70-ci illərdə Avropa və Amerikada yaranıb və onda əsərin konsepsiyası onun fiziki ifadəsindən vacibdir, yəni sənətin məqsədi ideyanın ötürülməsidir. Konseptual incəsənətin banilərindən olan Jozef Koşut deyirdi: «İncəsənət materialın yox, ideyanın gücüdür. Bütün incəsənət təbiətcə konseptualdır, çünki sənət yalnız ideya şəklində mövcuddur».[4] N.Yusifova qeyd edib ki, konsepsiyada elm–incəsənət–yaradıcılıq–tədris vəhdətinə söykənən müddəalar əsasında, həm təcrübi, həm də nəzəri olaraq elmlərarası əlaqədə həndəsi-məntiqi qanunlara əsaslanan yeni bir istiqamət verilib. Bu elmi yol imkan verir ki, həyat hadisələrinin tamlığı ilə dərk olunmasında əhatəli düşüncəyə sahib olan təhsil işçilərinin hazırlığı təmin olunsun. "Fəza təfəkkürü və incəsənət" konsepsiyası təhsilin hazırkı durumu üçün çox

vacib məsələ olmaqla, insanın intellektual dünyasını zənginləşdirmək, onu daha məlumatlı, bilikli etmək və bu biliyin qüvvəyə çevrilməsi sayəsində onun imkanlarını artırmağa yönəlib [5].

"Konseptual sənət" termini Henry Flynt tərəfindən 1961-ci ildə hazırlanan bir məqalədən götürülmüşdür Bu yazıda Flynt konsepsiyanı məlumat sənəti, proqram sənəti və ya fikir sənəti də adlandırmışdır.Konseptualistlərin fikrincə rəssamın yeganə məqsədi – ideya və konsepsiyaların generasiya olunmasıdır. 1960-cı ildə yaranmış bədii hərəkat olan konseptual incəsənət ictimaiyyət üçün incəsənət haqqında yeni ideyanı əks etdirdi. Həmin konsepsiyanı başa düşmək üçün istifadə olunan bu üsul incəsənətdə xüsusi rol oynayır.Konseptual sənətin nümayəndələrindən olan **Marsel Duchamp** formalizmə haqq qazandırmaq üçün bu üsulu seçmişdir. Bu, həyatda gündəlik olan, heç bir bədii funksiyası olmayan hansısa obyekti götürməkdən ibarət olan üsuldur, rəssamın ideyasına toxunaraq onu sənət əsərinə çevirir. Rəssamın bir neçə konseptual sənət əsəri var ki, bunlar arasında "Velosipedin təkəri" əsərini xüsusi qeyd etməliyik.Rəssam burada səkidə yalnız dayanan tərs velosipedin təkərini təsvir etmişdir. Konseptual sənətin digər nümayəndəsi olan **Yves Klein qeyd etmişdir ki,** *"Heç bir şey sənət əsəri olmayacaq, çünki buna mən qərar verirəm". Bu səbəbdən* bir çox rəssamlar konseptual sənəti anti-art hesab edirlər. Yves Klein adlı konseptual rəssamın ən mühüm əsərlərindən biri də *"Aerostatik Heykəl" əsəri idi.* Min bir mavi şarla düzəldilmiş bu sənət əsəri Paris qalereyasında havaya buraxılmışdı. Rəssam Yves Klein bütün rəsmlərində monoxrom rəsmlərə diqqət yetirmək istəmiş, o, səmaya qarışan müxtəlif mavi çalarların şarları ilə inanılmaz sənət əsərləri yaratmışdı. Konseptual incəsənət kimi incəsənət sahələrində tənqidçinin vəzifələrindən biri nəzəri terminləri adi oxucunun başa düşə biləcəyi ifadələrlə əvəz etməkdir. Tənqidçilər yeni anlayışları izah edərək və bəzən də nələrin uzunömürlü olacağını proqnozlaşdıraraq incəsənətlə auditoriya arasında vasitəçi rolunu oynaya bilər. Onlar bəzən ictimai rəyə qarşı çıxış edərək standartları müəyyən edə və zövq formalaşdıra bilər. Konseptual sənət, 70-ci illərdə, "quraşdırma" konsepsiyasını yaradır - əsrin sonunda sənətin üstünlük təşkil edən dilinə çevrilmiş obyektlərin mənzərəli düzülüşü. Konseptual sənətin bir növü, təbiət formalarına müdaxilə edən İngilislər Richard Long və Robert Smithson'un quru sənətidir, məsələn meşə təmizliyində daş dairələr yerləşdirir.

Piero Manzoni İtalyan mənşəli konseptual sənətin təmsilçisi olmuş, həm də konseptual üslubda olduqca ironik olan əsərləri yaratmışdır. Bu müəllifin ən mübahisəli əsərlərdən biri olan Merda d'artista (Artist Shit) 1961-ci ildə Pescetto qalereyasında nümayiş etdirilmişdir.Bu iş, nəcisin olduğu güman edilən doxsan silindrik qutuya əsaslanırdı və qutuların etiketlərində aşağıdakı məzmun var idi: *Xalis məzmun: 30 qram. Təbii olaraq qorunub saxlanılır. 1961-ci ilin may ayında istehsal edilmiş və qablaşdırılmışdır [5].* Onlar müxtəlif dillərdə təsvir edilmiş və rəssamın imzası olmuşdur. Rəssam bununla belə bir mesajı çatdırmaq istəmişdir ki, çox məşhur bir rəssamın imzası olan keyfiyyətsiz hazırlanmış bir əsər sənət bazarını tənqid edərək əsərin dəyərini artırır. Belə ki, rəssam yaşadığımız cəmiyyətin istehlak cəmiyyəti olduğunu söyləməyə çalışmışdır.

Konseptual sənətdə digər görkəmli rəssamlar 1956-cı ildə Robert Rauschenberg və 1957-ci ildə rəssam Isidore Isou idi. Rəssam Wolf Vostell də 1960-cı ildə, rəssam Stenli 1961-ci ildə bu sənətçilərin istifadə etdiyi bütün konseptual sənət üslubları ilə seçilmişlər [5]. Onlar fərqli düşüncə tərzləri və cəmiyyətə çatdırmaq istədikləri ideya ilə sənətə gəlmişdilər.Əsərlərinin konseptual interpretasiyasına üstünlük verən rəssam Arif Əziz yaratdığı əsərlərində insan hisslərini, ictimai problemləri, Azərbaycanın ənənələrini nümayiş etdirmişdir. Rəssam Yusif Mirzənin özünəməxsus konseptual sənət yönü, üslubundakı müxtəlif fikirləri, mülahizələri vardır.Rəssam öz üslubunu Meditativ- asssosiativ konseptual avanqard kimi düşünür. Fikrimizcə bu adın özü də şərtidir, bu üslubun,yaradıcılığın geniş əhatə dairəsi vardır. «Rapsodiya» sərgisində konseptual incəsənət və modernizm üslubunda yeni obrazlar və ifadə vasitələrinin axtarışında olan Ənvər Əsgərov özünü bu yeni istiqamətə həsr etmişdir.

Rəssam, heykəltəraş, dizayner Çingiz "Divarların müəllifi bizim beynimizdir" adlı əsərində müasir konseptual incəsənətdə fəlsəfi və nəzəri araşdırmalarına əsas yer vermişdir.O, yaradıcılığında kollaj,"street art", installyasiya, performans, videoart texnikalarından geniş istifadə etmişdir. Bu əsərdə rəssam, kiçik girişi olan daş divar hörmüş, və divarın arxasında təbii ölçüdə yaradılmış özünün avtoportreti olan mum fiqurunu quraşdırmışdır. Müəllifin fikrinə görə, beyinin məhsulu olan adət-ənənə, streotip, ön mühakimələrdən yaranan ideoloji divarlar vardır [1].

"Zamanın Qanadları" assosiasiyasının görkəmli nümayəndəsi konseptual rəssam Rəşad Ələkbərovdur. Şərq dünyası konsepsiya olaraq rəssamın yaradıcılığında əsas yer tutur. Şərq dünyasına həsr olunan "Şəbəkə" Fly to Baku (2010) sərgisində nümayiş edilən kölgə instalyasiyasında rəssamın həndəsi və islimi ornamentlərə önəm verdiyini görürük. Şərq dünyasının aparıcı mədəniyyət sferası olduğunu rəssam bir daha vurğulamışdır. "Do Not Fear" əsərində qılıncların yerləşdirilməsi ilə Qərb dünyasına bir növ "Qorxma" deyən konseptual rəssam qılıncların funksional mənasını dəyişmişdir. Dünyada Şərqlə bağlı mənfi fikirlər meydana gəlsə də Rəşad art nümunələrilə 2012-ci ildə paytaxt Bakı şəhərində YARAT təşkilatçılığı ilə "I Baku Public Art" Festivalı çərçivəsində yerli konseptual rəssamların əsərlərindən ibarət sərgi təşkil edilmişdir. Sərgidə Rəşad Ələkbərovun "Femida" kölgə instalyasiya yerləşdirilmişdir. "Avtoportret" (2014) 2 mətnin dəmirlə birləşməsiylə arzu, ümid və məqsəd konsepsiyası göstərməyə çalışaraq "Hope and Aim" anlayışından əsaslanaraq müqayisəli fikirləri düşünməyimizə vadar edir. "ALL THAT GLİTTERS İS NOT GOLD" kölgə instalyasiyası ilə "Hər parıldayan qızıl deyil" mətnaltı mənası ilə bir dəmirin incəsənətdə dəyərini təbliğ edir. Müasir konseptual rəssamın spesifik yanaşmasıdır. Rəssam konseptual üslubunu nümayiş etdirməklə yanaşı, beynəlxalq incəsənət festivallarında, simpozium və sərgilərdə ölkəmizi müvəffəqiyyətlə təmsil etmişdir.

Rəssam Faiq Əhməd "Adsız" əsərində ənənəvi xalçanın bir hissəsinin strukturunu pozaraq, klassik elementlərin bir qismini qabartmışdır. Rəssam adi ikiölçülü xalçanı dəyişərək, üçölçülü və həcmli şəkildə təqdim edir. Bu, rəssamın xalçalarla etdiyi konseptual transformasiya və qaydadan kənara çıxmaq ideyasının davamıdır. Anar Hüseynzadə, Adil Yusif, Leyla Nəsibova, Zərnişan Alqayeva, Ramina Saadatxan, Rəşad Babayev, Fərhad Yalquzaq, Elmir Hüseynov, Bütünay Haqverdiyev, Mahmud Rüstəmov, Məmməd Rəşidov, Hüseyn Bağırov, Nazim Şah və Gündüz Ağayev əsərlərində konseptual sənət nümunələri yaratmışlar.Həmin rəssamların yaradıcılıq konsepsiyalarına görə sənətin uca zirvəsi tam şəkildə aydın deyil. Onlar yaradıcılıq axtarışındadırlar. Daima öz üzərilərində işləyirlər, irəliyə gedirlər. Lakin onların çatmaq, dayanıb-durmaq istədikləri nöqtə hələlik əlçatmazdır. Anar Hüseynzadənin "X nöqtəsi" adlı əsəri abstrakt üslubda işlənmişdir. Bu əsərin ümumi mahiyyəti rəssam tərəfindən konseptual baxımdan açıqlanmışdır.

ƏDƏBİYYAT SİYAHISI

1. Azərbaycan.-2014.- 6 may.- S.9.

2. Rosalind E. Krauss, Terminal Iron Works: The Sculpture of David Smith. Cambridge, Massachusetts: MIT Press, 1971.

3. https://az.wikipedia.org/wiki/M%C3%BCasir_inc%C9%99s%C9%99n%C9%99t

4. https://medeniyyet.az/page/news/35061/Konseptual-senet.html

5. https://azertag.az/xeber/Elmlerarasi_inteqrasiyaya_dair_konsepsiya_feza_tefekkuru_ve_incese net-139839

THE MOST WIDESPREAD LANGUAGES IN THE WORLD

DÜNYADA ƏN GENİŞ YAYILMIŞ DİLLƏR

Lecturer MELAHET SHUKUROVA

Odlar Yurdu University, Department of Languages

Baku, Azerbaijan

ORCID NO: 0000-0002-6784-0157

ABSTRACT

The most widespread languages in the world. This article is devoted to the study of the most widespread languages in the world. According to the latest statistics for 2022, Chinese is the most widely spoken language in the world. The number of Chinese-speaking people is higher than the number of people who speak other languages. Turkish is 14th, Korean is 15th, and French and German are 16th-17th on this list. Among the 193 member states, English, French, Russian, Chinese, Arabic and Spanish are currently the official languages. The oldest language in the world was Sumerian, and the Sumerians who spoke this language lived in the lands of ancient Iran and left their mark on history with their ancient writings 3,000 years ago. The most widely spoken languages in the world also differ in the number of people who speak those languages. For example, the number of Chinese speakers is 1.3 billion, the number of English speakers is 600 million, the number of Hindi speakers is 490 million, the number of Spanish speakers is 427 million, the number of Arabic speakers is 267 million, the number of Russian speakers is 260 million, and the number of Portuguese speakers is considered at 240 million. Chinese is the official language of Taiwan and Singapore and is one of the 6 most difficult languages in the world. English is one of the most widely spoken languages in the world. It is spoken in about 106 countries. The country whose official and main language is English is the United Kingdom. Although English is spoken in India, Ireland, New Zealand, Canada and the Philippines, these countries have their own official languages. Hindi is spoken in India, Nepal, Bangladesh and Pakistan. It is supposed that in the near future, Hindi will overcome in number Chinese in terms of population. Spanish is spoken in 31 countries around the world. Spanish is also the official language of the Commonwealth of South America. Arabic is spoken in 58 countries around the world. The majority of the population lives in Saudi Arabia, Iraq, Kuwait, Syria, Jordan, Lebanon and Egypt. The fact that Koran is written in this language is another reason for the widespread use of the language. Russian is spoken in 17 countries around the world. Russian is also one of the six most widely spoken languages in the world, the most widely spoken language in Europe and the most widely spoken Slavic language in the world.

Key words: widespread languages, spoken language around the world

XÜLASƏ

Bu məqalə dünyada ən geniş yayılmış dillərin tədqiqinə həsr olunub. Danışmaq, yazmaq və oxumaq demək olar ki həyatımızın ayrılmayan bir hissəsinə çevrilmişdir. Dil ünsiyyət vasitəsidir. Onu da vurğulamaq lazımdır ki, nəyin ümumi olduğunu zamanla dəyişmə üsullarını dilçilik alimləri kəşf etməyə çalışırlar. Onlar üçün dil mədəni, sosial vasitə kimi qəbul edilir. Dünyada ən çox danışılan dilləarin hansı hesab olunduğunu təyin etmək düşündüyümüzdən də çətin prosesdir. Buna misal olaraq İngilis, İspan, Ərəb dillərini misal çəkə bilərik. Lakin bu tam olaraq belə deyil.

Dil insanın əsas ünsiyyət vasitələrindəndir. İnsan dillərinin yerdəyişmə xüsusiyyəti də vardır ki dünyada dillərin sayı 5000-7000 arası dəyişməkdədir. Bir başqa sözlə ifadə etsək dil ünsiyyət vasitəsinə yiyələnmək və tətbiq etmək və ya bu vasitələri təşkil edən bir sıra qaydaları təsvir etmək üçün ifadələr toplusudur. Dilin elmi yöndən araşdırılması dilçilik adlanır. Dil və mədəniyyət biri digərindən asılı bir deyimdir.

Dünyada ən geniş yayılmış dillər həmin dillərdə danışan əhalinin sayına görə də fərqlənir. Məsələn:

Çin dilində danışanların sayı 1,3 milyard

İngilis dilində danışanların sayı 600 milyon

Hind dilində danışanların sayı 490 milyon

İspan dilində danışanların sayı 427 milyon

Ərəb dilində danışanların sayı 267 milyon

Rus dilində danışanların sayı 260 milyon

Portuqaliya dilində danışanların sayı isə 240 milyon hesab edilir.

Açar sözlər: ən çox işlək dillər, dünyada danışılan dillər

Dünyada ən geniş yayılmış dillər

2022-ci ilin son statistikasına görə dünyada ən geniş yayılmış dil Çin dili hesab olunur. Çin dilində danışan əhalinin sayı digər dillərdə danışan əhalinin sayı ilə müqayisədə daha çoxdur. Çin dilinin danışıq növləri adətən yerli tərəfindən tək dil variantları heasab edilir. Çin dili Tayvan və Sinqapurun rəsmi dili hesab olunur və dünyada ən çətin 6 dildən biridir. Ana dilində danışanların sayı 1,3 milyard nəfər təşkil edir. onlardan təqribən 1.1 milyardı Mandarin dilində danışır. Lakin şübhəsiz ki, bu dil həmçinin ən çox danışılan dillərindən hesab olunur.

Türk dili bu siyahıda 14-cüdür. Türk dili türk oğuz qrupuna aid olunur. Türk dilinin təsnifatı qismən çətindir. Türk dilində təxminən 170 milyon insan danışır. Əsasən Anadolu və Balkanlarda bu dil daha çox istifadə olunur. Koreya dili 15-ci, Fransız və Alman dilləri isə 16-17ci yerləri tutur. Fransız dili Fransanın və bir sıra ölkələrin rəsmi dili və həmçinin Birləşmiş Millətlər Təşkilatında istifadə olunan altı rəsmi dildən biridir. Digər dillərdə yerli olaraq danışan Avropalıların təqribən beşdə biri ikinci dil olaraq Fransızca danışır.Fransız dilində təxminən 76 miliyon danışan olduğu təxmin edilir. Fransız dili beynəlxalq ədəbiyyat və elmi standartların dili kimi uzun tarixi malikdir və Birləşmiş Millətlər Təşkilatı, Avropa İttifaqı, Beynəlxalq Olimpiya Komitəsi, o cümlədən bir çox beynəlxalq təşkilatların əsas və ya ikinci dilidir hesab olunur. Fransız dilində 53 ölkədə danışılır. Bu göstərici dilin dünyanın ən geniş yayılmış dillərindən birinə çevirir. Fransız dili eyni zamanda ərəbdilli Əlcəzair, Tunis və Mərakeşdə əsas ikinci dil hesab olunur. 193 üzv dövlətlər arasında hal-hazırda rəsmi dillər İngilis, Fransız, Rus, Çin, Ərəb və İspan dilləri hesab olunur.

Dünyada ən qədim dil Şumer dili olmuşdur ki, bu dildə danışan Şumerlər qədim İran torpaqlarında yaşamışlar və bizim eradan 3 min il əvvəl öz qədim yazıları ilə tarixdə iz buraxmışdılar. Şumer dilinin təsnifatlaşdırılması geniş elmi müzakirələrə səbəb olmuşdur. Lakin bu dilin hansı xalqın dilinə daha çox oxşaması məsələsi hələ də müzakirə obyektinə çevrilmişdir.

İngilis dili isə dünyada ən geniş yayılmış dillərdən biridir. İngilis dili Təxminən 106 ölkədə bu dildə danışılır. Rəsmi və əsas dili ingilis dili olan ölkə isə Böyük Britaniyadır. İngils dili global ünsiyyətdə hakimlik mövqeyi daşıyır. İngilis dili biznes, səyahət, turizm və beynəlxalq əlaqələrin lingua franca kimi üstünlüyünü və uğurunu göstərir. Hindistan, İrlandiya, Yeni Zellandiya, Kanada və Flippində İngilis dilində danışılmasına baxmayaraq, bu ölkələrin özlərinin rəsmi dilləri var.

Hind dili, Hindistan, Nepal, Banqladeş və Pakistanda danışılır. Belə hesab edilir ki, yaxın gələcəkdə Hind dili əhalisinin sayına görə hətta Çin dilini belə geridə qoyacaq. Hidistan 23 rəsmi dili ilə fərqlənir. Misal olaraq Hindi/Urdu dillərini çəkmək olar. Demək olarkı Hindistanın şimalında və Pakistanın bəzi ərazilərində danışılan Hindi dili devnaqri yazısında, Urdu dilində isə fars ünsürlərindən istifadə olunur.

Yalnız ana dilində danışanları nəzərdə tutsaq təqribən 471 milyon insan İspan dilində danışır.Müasir İspan lüğətinin 75 faizi Latın dilindən götürülmüşdür. İspan dili eyni zamanda İngilis və Fransiz dilləri ilə yanaşı dünyada ən çox tədris olunan xarici dillərdən biridir. İspan dili seçim dili kimi ilk növbədə

gəlir. İspan dili dünyada 31 ölkədə danışılır. İspan dili həmçinin Cənubi Amerika Dövlətlər Birliyinin rəsmi dili hesab olunur. Yazılı İspan və Portuqal dillərinin qarşılıqlı başa düşülməsi nəzərəçarpan dərəcədə yüksəkdir və danışıq formalarının çətinlikləri qrammatik və leksik oxşarlığından daha çox fonologiyaya əsaslanır.

Ərəb dili dünyanın 58 ölkəsində danışılır. Son göatəricilər ərəb dilinin təxminən 315 milyon nəfərdən ibarət olduğunu göstərir. Bu dildə danışan əhalinin çoxu Səudiyyə Ərəbistanı, İraq, Küveyt, Suriyya, İordaniya, Livan və Misirdə yaşayır. Ərəb dili Quranın Klassik Ərəb dili ilə sıx bağlı olan ilk növbədə yazılı formasıdır. Quranın bu dildə yazılması dilin daha geniş yayılmasına digər bir səbəbdir. Ərəb dili bütün dünyada tədris ocaqlarında geniş şəkildə tədri olunur və eyni zamanda iş yerlərində və media sahəsində müxtəlif dərəcələrdə işlədilir. ərəb dilinin təsiri İslam ölkələrində çox əhəmiyyət kəsb edir.

Rus dili dünyanın 17 ölkəsində danışılır. Rus dili də həmçinin dünyada ən geniş yayılmış 6 dildən biridir. Dərin qrammatikası və olduqca zəngin qrafikası ilə məşhur olan bu dil Birləşmiş Millətlər Təşkilatında danışılan işlək dillərdən biri olaraq qalır. Avropada ən geniş yayılmış dil və eyni zamanda dünyada ən geniş yayılmış Slavyan dili hesab olunur.

REFERENCES

1. Languages of the world, Asya Pereltsvaig
2. An introduction to the languages of the world, Anatole V.Lyovin
3. Языковедение, введение в науку о языках, О, С, Широков

XIX ƏSRİN II YARISINDAN SONRA QAFQAZ XALQLARININ OSMANLI İMPERİYASI TORPAQLARINA MİQRASİYASININ SƏBƏBLƏRİ

CAUSES OF MIGRATION OF THE CAUCASIAN PEOPLES TO THE LAND OF THE OTTOMAN EMPIRE AFTER THE SECOND HALF OF THE XIX CENTURY

Dok. Arif ELİZADE

Western Caspian University, Tarih, Kafkasya tarihi, Bakü, Azerbaycan.

ORCID ID: https://orcid.org/my-orcid?orcid=0000-0003-2720-9704

ÖZET

Qafqaz unikal coğrafi məkan kimi, keçmişdə olduğu kimi, müasir dövrdə də dünyanın fövqəl güclərinin daim diqqət mərkəzindədir. Bu regionun əlverişli geostrateji, geosiyasi, geoiqtisadi əhəmiyyətindən əmələ gəlir.

Qafqaz Qərb ilə Şərqin, Şimal və Cənubun, Avropa ilə Asiyanın kəsişdiyi nöqtədə yerləşir. Bu region e.ə. əhəmənilərin, Parfiyanın, Sasanilərin, Ərəb-islamı xilafətinin, Səlcuqların, Monqol türklərin, Səfəvi və Osmanlı imperiyalarının, Teymurilərin, Qızıl Ordanın, Hülakülərin və ən nəhayət XVI əsrdən etibarən Moskva Rus dövlətinin nəzər diqqətini özünə cəlb etmişdir.

Qafqaz uğrunda XVII əsrdən Osmanlı, Səfəvi və Rusiya arasında gedən hərbi, siyasi rəqabət Rusiya imperiyasının zəfəri ilə nəticələndi.

XIX əsrin 60-cı illərində artıq bütün Qafqaz regionu Rusiya imperiyasının bir parçasına çevrildi.

Çarizm regionu ələ keçirdikdən sonra burada möhkəmlənmək üçün bir çox üsullara əl atdı ki, bunlardan biri aborgen Qafqaz xalqlarının öz tarixi yurdlarından kğçürülməsi idi. Köçürülən əhalinin yerinə əsasən kazaklar, ruslar və ermənilər məskunlaşdırıldı.

İmperiyanın digər mürtəce siyasəti yerli xalqların xüsusilə çərkəzlərin, çeçenlərin və inquşların təsərrüfat üçün yararlı torpaq sahələrinin əlindən alınıb gəlmə xristian məzhəbli xalqlara paylanması idi.

Çarizmin yürütdüyü digər bir ənənəvi siyasəti yerli müsəlmanları xristianlaşdırmaq idi.

Yerli əhali çar məmurlarının onlara olan qeyri-insani rəftarına, özbaşınalıqlarına, xüsusilə xristianlaşdırma siyasətinə qarşı çıxaraq öz ata-baba, yurdlarını tərk etmək məcburiyyətində qaldılar.

Qafqaz xalqlarının yerli ruhanilərin məsləhəti ilə müsəlman dövləti olan Osmanlı torpaqlarına köçü başlandı. Təbii ki, Osmanlı dövləti üçün bu köç dalğasının qarşısında durmaq çox çətin idi. Lakin bütün çətinliklərə baxmayaraq Osmanlı dövləti bunun öhtəsindən gələ bildi.

Qafqazın işğalı rus-sovet tarixçiləri tərəfindən imperiya maraqları baxımından təhlil edilir, bu işğalı pərdələmək üçün guya Qafqaz xalqları Osmanlı Türkiyəsi və iranın təcavüzündən xilas olmaq üçün Çar Rusiyasına müraciət etmişlər. Əgər həqiqətən də belədirsə Şeyx Mənsurun başçılığı altında, başlayıb Şeyx Şamilin məğlubiyyətinə qədər davam etmiş milli-azadlıq hərakatını necə adlandıraq.

Ümumiyyətlə bu mövzu həm çar Rusiyasının, həm Sovet Rusiyasının və ən nəhayət Rusiya federasiyasının Qafqaz siyasətini dərindən dərk etmək baxımından çox aktual mövzulardan biri hesab edilir.

Anahtar Kelimeler: miqrasiya,velikorus, çarizm.

ABSTRACT

The migration of the Caucasian peoples to the lands of the Ottoman Empire after the second half of the 19th century and its causes and historical roots is the first step in Azerbaijani Caucasian studies. The

main purpose of addressing this issue is to shed light on the geopolitical and geoeconomic games taking place in the Caucasus today.

The article covers the occupation of the Caucasus by Tsarist Russia, the brutal suppression of the national liberation movement in the mountains, the arbitrariness of tsarist officials against the aboriginal population, the forced expulsion of the local population from their historical lands, the forced settlement of Cossacks, Armenians and Russians in the West and East. , the resistance of the Muslim population to Christianity, the migration of Muslim clerics to the lands of the Ottoman Empire, the assistance of the local population and the Ottoman ruling circles to the peoples of the Caucasus, providing them with housing and so on. devoted to issues.

Also in this article the policy of Russian occupation since the 15th century, especially after the complete occupation of the Caucasus by the Russian Empire, the oppression of the local Caucasian peoples, their deportation to Siberia and the Ottoman lands, and their forced migration are analyzed in detail.

Keywords: geopolitical, tsasrist Russia, aboriginal population,

Müasir dövrdə olduğu kimi keçmişdə də dünyanın unikal bölgələrindən biri hesab edilən Qafqaz geostrateji, geoiqtisadi, geosiyasi mövqe baxımından fövqəl dövlətlərin maraq dairəsində olmuşdur.

XV əsrdən Osmanlı, XVI-XVII əsrlərdən Rusiya, XIX əsrdən etibarən isə Qərb dövlətlərinin Qafqaza olan hərbi, siyasi, iqtisadi maraqları güclənməyə başlamışdır. Qafqazşünas alim İ. Hüseynova qeyd edir ki, Qafqaz xüsusilə, Qara dəniz (Qafqaza aid hissə) uğrunda 3 imperiya arasında (İngiltərə, Osmanlı, Rusiya) gedən rəqabətin nəticəsi olaraq Rus imperiyasının qalib gəlməsini və bundan sonra rusların regionda zorla xristianlaşdırma siyasəti yürütməsi, yerli xalqların var-dövlətinin müsadirə edilməsini, regionun, demoqrafik mənzərəsinin dəyişməsini, köç etmiş, Qafqaz xalqlarının daha səbirli, qeyri-qafqaz xalqlarını məskunlaşdırmaq, ruslaşdırmaq siyasətini, özünün Qafqaz xalqlarının tarixi adlı fundamental əsərində geniş şərh edir **[İ.Hüseynova Qafqaz xalqları Tarixi, Bakı 2018, s. 472-473]** Müəllif bununla haqlı olaraq Qafqazın Rus imperiyasına zorla birləşdirilməsini, rus hakim dairələrinin yerli əhaliyə qarşı münasibətini, bəzi rus dilli, ingilis dilli ədəbiyyatlara istinad edərək elmi baxımdan obyektiv qiymət verir.

Krım və Qafqaz müharibələrindən sonra yerli əhalinin həm imperiya daxilində, həm də imperiyadan kənar ərazilərdə miqrasiyası geniş miqyas aldı. Qafqazlıların öz tarixi, yurdlarından zorla köçürülməsində əsas bəhanələrdən biri guya Krım və Qafqaz müharibələri zamanı yerli əhalinin antiRusiya çıxışları olub. Məhz buna görə də əhali, əsasən Qərbi və Şərqi Sibirə sürgün edilir və onlar rus məmurlarının qeyri-insani rəftarına məruz qalırdılar. Əhalinin zorla köçürülməsi haqqında 10 aprel 1862-ci ildə Qafqaz Komitəsinin "Dağlıların köçürülməsi haqqında" qəbul etdiyi qərarla xüsusi komissiya yaradır.

Əhalinin köçürülməsi zamanı aclıqdan, soyuqdan, xəstəlikdən, ölənlərin sayı günü-gündən artmaqda idi. Bu faktı hətta bu proseslərdə yaxından iştirak edən rus generalı R. Fadaev general-adyutant, A. Timaşev və digərləri də rəsmi sənədlərlə qeyd edilər. Məs. A.Timaşev yazırdı : "Köçürülən 1625 nəfər əhalinin 429 nəfəri qısa bir vaxtda dözməyərək vəfat etdi. Onlardan 118 kişi, 311 nəfəri isə qadın idi" **[R.Fadaev Qafqaz və Rus imperiyası layihələr, ideyalar, xəyal və reallıqlar, Sankt-Peterburq 2005, s. 450]**

Qafqaz xalqlarının zorla köçürülməsi regionun demoqrafik xəritəsinə də ciddi təsir etdi. Belə ki, artıq aborigen əhalinin sayı azalır, rusların, kazakların, ermənilərin xüsusi çəkisi artırdı.

Qafqaz xalqlarının kütləvi surətdə miqrasiya etməsinin əsas səbəblərdən biri də çarizmin müstəmləkəçilik siyasətini həyata keçirən məmurların özbaşınalığı idi. Çar məmurları Kutaysov və Meçnikov Rusiyanın Ədliyyə Nazirliyinə məlumat verərək bildirirdilər ki, müsəlman əyalətlərinin idarə olunmasını nəzərdən keçirdikdə rəislərin azğınlığı və əhalinin çəkdiyi əziyyətdən insan dəhşətə gəlir. Burada artıq insan ləyaqəti taptalanmışdır. Hər cür ədalət unudulmuşdur, qanun yalnız əsarət aləti olmuşdur. Dairə rəisləri komendantlar, pristavlar və digər vəzifəli şəxslərin fəaliyyətində əsas amil, acgözlük və dözülməz özbaşınalıqdan ibarətdir. **[Azərbaycan tarixi II cild s. 82]**

Miqrasiyanın digər səbəblərindən biri də yerli əhalinin torpaqlarının əlindən alınması və bu yerlərə qeyri-qafqazlı xalqların köçürülməsi idi.

"Rus komendantlığı, onların məhsuldar torpaqlarını alıb kazaklara və köçürülmə rus kəndlilərinə verir, dağlıları kütləvi surətdə öz yerlərindən köçürürdü. Çərkəzlər və abxazlar ya düzənlik yerlərə köçməyə, ya da müsəlman ruhanilərinin təsiri ilə Türkiyəyə getməyə məcbur olurdular. Lakin Osmanlı hökümətinin bu qədər (500 min) nəfərədək adamı ərzaq və mənzillə təmin etməyə hazır olmaması, mühacirlərin xeyli hissəsinin qırılmasına səbəb oldu, bir hissəsi isə yenidən Qafqaza qayıtdı. **[ASE, III cild, Bakı 1979 səh. 97 ümumi s. 599]**

Rus məmurlarının Qafqaz xalqlarına, xüsusilə müsəlmanlara qarşı törətdiyi cinayətlərdə və bu xalqların öz tarixi yurdlarından didərgin salınmasında erməni siyasətbazlarından, hərbiçilərindən də geniş istifadə edilirdi.

Maraqlıdır ki, Qafqazdan köç edən xalqlar arasında bir nəfər olsa da erməni ailəsinin adına rast gəlinmir.. Əksinə çarizm öz qeyri-insani əməllərində ermənilərdən məharətlə istifadə edir hətta həm Cənubi, həm də Şimali Qafqazda onlara (ermənilərə), hər cür şərait yaradır, mühüm strateji məntəqələrdə yerləşdirir, gələcəkdə yerli müsəlmanlara və qeyri-müsəlman Qafqaz xalqlarına qarşı bir alət kimi istifadə edirdi.

Türk, Qərb, Azərbaycan Qafqazşünaslarından fərqli olaraq bir çox rus qafqazşünasları imperiya maraqlarından çıxış edərək Qafqazın işğalını ört-bastır etməyə çalışır və bu xalqların könüllü olaraq Çar Rusiyasına birləşmək istədiklərini qeyd edirlər. Əlbəttə, bu Qafqaz xalqlaının tarixinin saxtalaşdırılması və təhrif edilməsindən başqa bir şey deyildir. Rus müəllifləri ayrı-ayrı şəxslərin Rusiyaya meyl etməsini bilərəkdən bütün Qafqaz xalqlarının ünvanına aid edirlər.

Sovet tarixşünaslığında bu ideya bütün qafqaz xalqlarının şüurunda rus təbliğat maşınının gücü ilə hakim bir ideyeya çevrilmişdi. Guya XVI əsrdən etibarən Qafqaz xalqları öz Şimal qonşularına birləşmək üçün rus çarlarına müraciət etmişlər. Yuxarıda qeyd etdiyim kimi ayrı-ayrı şəxslər Rusiyaya meyl edə bilər, amma bu kütləvilik anlamına gəlməməlidir. Əgər belə olsa idi, XVIII əsrin sonlarından XIX əsrin 60-cı illərinə qədər Qafqaz xalqlarının istiqlal uğrunda apardıqları mücadiləni başqa hansı adla qiymətləndirmək olar (hətta bu gün də).

Rus ədəbiyyatlarında yuxarıda qeyd etdiyim kimi Çar Rusiyasının Qafqaza olan münasibəti tamamilə başqa bir aspektdən qiymətləndirilir. Qafqaz xalqlarının xilaskarı kimi. Guya Rusiya Qafqazın sərvətlərini talamamış, xalqlarını istismar etməmiş, yerli əhalini öz tarixi yurdlarından köç etməyə məcbur etməmiş, bu xalqları öz tabeliyinə keçirmək məqsədini qarşıya qoymamışdır. Əksinə Qafqaz xalqlarını İranın, Osmanlı imperiyasının basqınlarından müdafiə etmişdir.

Bəzi tədqiqatçıların fikrincə Qafqaz xalqları və Rusiya arasında mehriban münasibət məhz bu zəmin üzərində yaranıb və formalaşıb, yəni bu xalqlar Rusiyaya onları xarici basqınlardan, təhlükələrdən mühafizə edən, qoruyan bir qüvvə, dövlət kimi baxmış və qiymətləndirmişdir.

Görkəmli tarixçi alim, S. Kərimova isə rus alimlərinin bu qeyri-məntiqi, başdan ayağa qədər təhrif və saxtakarlıqlarla dolu fikirlərini tənqid edərək yazır : göründüyü kimi tarixi həqiqətlətlərin bu cür şərhi Rusiyanın işğalçılıq mənafelərinə tam uyğun idi. Rusiya bir tərəfdən öz sərhədlərinin möhkəmlənməsinə çalışırdısa, digər tərəfdən yeni-yeni ərazilərin zəbt olunmasını, siyasi nüfuz dairəsinin məhz yeni ərazilərdə möhkəmlənməsini işğalçılıq planlarının tərkib hissəsi hesab edirdi. [S. Kərimova " Çarizmin Azərbaycanın işğalında və müstəmləkəçilik siyasətində erməni siyasətbazlarının rolu" Azər-nəşr. 1995. s. 17]

Tarixi faktlar göstərir ki, Qafqaz həm siyasi, həm də iqtisadi mənafe baxımından Çar Rusiyasının diqqət mərkəzində olmuşdur. Qafqaz Avropanı, Asiya ilə Xəzər dənizini, Qara dəniz ilə birləşdirən zəngin bir region kimi Rusiyanın marağını özünə cəlb edirdi. Volqaboyu və Həştərxan vasitəsilə İrana ticarət yolu həm qurudan, həm də dənizdən (Xəzərdən) Qafqazdan keçirdi. Lakin Xəzər sahillərində möhkəmlənməyə çalışan Osmanlı imperiyasını oradan sıxışdırıb çıxarmadan belə bir mühüm missiyanı həyata keçirmək də çətin idi. Buna görə də bu strateji planı həyata keçirmək məqsədi ilə Çar Rusiyası hazırlıq işləri görməyə başladı. Həştərxanda liman tikilməsi, Terek çayı sahilində qalanın əsasının

qoyulması, Xəzər dənizində hərbi donanma yaratmaq cəhdi məhz bu hazırlığın, gələcək strateji planın başlanğıcı idi. **[S. Kərimova Göstərilən əsəri s. 19]**

XIX əsrin II yarısından başlanan köç dalğasının obyektiv, hərtərəfli öyrənilməsi tarixin dərslərindən nəticə çıxarılması nöqteyi-nəzərindən çox aktualdır. Bunun Qafqaz xalqlarının gələcək siyasi həyatının tənzimlənməsi üçün əhəmiyyəti isə yəqin ki, heç kimdə şübhə doğurmur.Köç tarixinin öyrənilməsi Rusiya imperiyasının Qafqaz siyasətinə obyektiv qiymət verilməsi üçün də zəruridir. Köç mövzusu vilikorus şovinizminin mahiyyətini öyrənmək baxımından da zəruridir.

Çarizmin Qafqazdakı köçürmə siyasəti dağlı xalqlarına vurduğu mənəvi, iqtisadi, siyasi zərbələrlə yanaşı bu xalqların azadlıq hərəkatına təkanverici təsir göstərmişdir. **[A. Göyüşov, 1917-1920-ci illərdə Şimali Qafqaz dağlılarının azadlıq uğrunda mübarizəsi Bakı 2000. s. 29]**

Köçürmə siyasəti nəticəsində keçmiş inquş və çeçen torpaqları yerində Assinovsk, Vorontsovsk, Daşkovsk, Voznesensk, Nestorovsk, Sunyansk, Tsarskaya, Karabulakskaya, Feldmarşalskaya, Troitskaya, Sleptsovskaya, Mixaylovskaya və Xator Tsarskaya adlı Kazak Stanits adları (məskənləri) salınmışdı. **[Z.A. Qoyqova. Narodı çeçeno inquşetii v borbe protiv Denikina Qroznıy 1963 s. 10]**

Tarixdə hələ də bir neçə maraqlı, diqqətəlayiq, lakin tarixşünaslıqda obyektiv adekvat qiymətini gözləyən məqamlar mövcuddur. Bu qaranlıq məqamlardan biri də Qafqazın Rusiya imperiyasına birləşdirildikdən sonra yerli əhaliyə qarşı yürütdüyü siyasət və bu siyasətin nəticəsi olaraq Qafqaz xalqlarının öz tarixi yurdlarından Şərqi və Qərbi Sibirə və daha çox Qafqazın ruhani xadimlərinin israrı ilə müsəlman dövləti olan Osmanlı imperiyası torpaqlarına köç etməsidir.

Bu mövzu araşdırılarkən həm rus xalqının özü üçün, həm yerli xalqların baş ağrısına çevrilmiş velikorus şovinizminin də mahiyyəti tam olaraq ortaya çıxır.

Qafqaz xalqlarının zorla öz yurdlarından didərgin salınması Qafqazşünaslıq elminin qarşısında duran araşdırılması vacib olan ən aktual mövzulardan biridir.

KAYNAKÇA

1.İ.Hüseynova Qafqaz xalqları Tarixi, Bakı 2018, s. 1246

2.ASE, III cild, Bakı 1979 s. 599

3.R.Fadaev Qafqaz və Rus imperiyası layihələr, ideyalar, xəyal və reallıqlar, Sankt-Peterburq 2005, s. 450

4.Azərbaycan tarixi II cild s. 82

5.S. Kərimova " Çarizmin Azərbaycanın işğalında və müstəmləkəçilik siyasətində erməni siyasətbazlarının rolu" Azər-nəşr. 1995. s. 192

6.A. Göyüşov, 1917-1920-ci illərdə Şimali Qafqaz dağlılarının azadlıq uğrunda mübarizəsi Bakı 2000. s. 349

7.Z.A. Qoyqova. Narodı çeçeno inquşetii v borbe protiv Denikina Qroznıy 1963 s. 220

İNTERNET RESURSLARI:

8.https://en.wikipedia.org/wiki/Russian_conquest_of_the_Caucasus

9.https://www.britannica.com/topic/history-of-Transcaucasia/Russian-penetration

MİKAYIL MÜŞFİQİN YRADICILIĞINDA PİTORESK

PITORESC IN THE POEMS OF MIKAYIL MUSHFIG'S

Aysel QURBANOVA

AMEA, Ədəbiyyat İnstitutu

ORCID. 0000-0001-5634-6068

ÖZET

Pitoresk – tablo altına yazılan şeirdir. Bədii əsərlərdə, xüsusən poeziyada pitoresk nümunələri bənzətmələr yolu ilə rəsm halında canlandırılır. Bu cür pitoresk təşbehlər Azərbaycan romantizminin nümayəndəsi olan Mikayıl Müşfiqin də şeirlərində kifayət qədərdir. Ümumiyyətlə, pitoresk sözlə çəkilən rəsm mənasını versə də, bütün təsvirlər pitoresk nümunə sayılmır. Əgər müəllif təbiət hadisələrini pitoresk şeiri örnəyi kimi təqdim edirsə, pitoreskin özəlliklərinə uyğun şəkildə həmin əsər yazılmalıdır. Təbiət təsvirlərində Pitoreskə nümunə ola biləcək ədəbi nümunələr günəşin doğarkən yaratdığı gözəl mənzərə deyil, qürubu zamanı təsəvvürə gələn görüntünün təsvirini verməkdir; çəmənlikdə açan gözəl çiçəyin əlvan rəngindən və təravətindən daha çox, solğun, günəşin isti şüaları altında yanaraq can verən gülün təsvirinə çalışırlar; bunlarla yanaşı insanın qarşısında aciz qaldığı və rastalşdığı zaman heyrət, qorxu işərisində qaldığı təbiət hadisələrini qəliblərə salaraq çərçivəyə salmaq pitoresk şeir nümunələrinin mövzusu ola bilər. Təbiət mənzərələrinin ayrılmaz hissəsi kimi Mikayıl müşfiq "Buludlar", "Küləklər" şeirində sözlə rəsm çəkməyə müvəffəq olmuşdur.

Anahtar Kelimeler: Mikayıl Müşfiq, Cənab Şəhabəddin, romantizm, pitoresk.

ABSTRACT

Picturesque - is a poem written under the board. In fictions, especially in poetry, picturesque patterns are animated in the form of drawings by means of imitation. Such picturesque comparisons are enough in the poems of Mikayil Mushfig, a representative of Azerbaijani romanticism. In general, although the word parables means word drawing, not all images are considered picturesque patterns. If the author presents natural phenomena as an example of picturesque poetry, the work should be written in accordance with the characteristics of picturesque. Literary examples that can serve as an example to Picturesque in the depiction of nature are not the beautiful scenes created by the sun at sunrise, but the depiction of an image imagined at sunset; they try to depict a pale, burning flower in the warm rays of the sun, rather than the bright color and freshness of a beautiful flower blooming in the meadow; At the same time, it may be the subject of Picturesque's poetry to frame the natural phenomena in which man is helpless and, when confronted, is amazed and feared. As an integral part of natural landscapes, Mikayil Mushfig was able to draw paintings with words in his poems "Clouds" and "Winds".

Keywords: Mikayil Mushfic, Janab Shabaddin, romanticisim, pitoresc.

GİRİŞ

Bədii əsərlərdə, xüsusən poeziyada pitoresk nümunələri bənzətmələr yolu ilə rəsm halında canlandırılır. Bu cür pitoresk təşbehlər Azərbaycan romantizminin nümayəndəsi olan Mikayıl Müşfiqin də şerilərində kifayət qədərdir. Ümumiyyətlə pitoresk sözlə çəilən rəsm mənasını versə də , bütün təsvirlər pitoresk nümunə sayılmır. Əgər müəllif təbiət hadisələrini pitoresk şeri örnəyi kimi təqdim edirsə, pitoreskin özəlliklərinə uyğun şəkildə həmin əsər yazılmalıdır. Təbiət təsvirlərində Pitoreskə nümunə ola biləcək ədəbi nümunələr günəşin doğarkən yaratdığı gözəl mənzərə deyil, qürubu zamanı təsəvvürə gələn görüntünün təsvirini verməkdir; çəmənlikdə açan gözəl çiçəyin əlvan rəngindən və təravətindən daha çox, solğun, günəşin isti şüaları altında yanaraq can verən gülün təsvirinə çalışırlar; bunlarla yanaşı

insanın qarşısında aciz qaldığı və rastalşdığı zaman heyrət, qorxu işərisində qaldığı təbiət hadisələrini qəliblərə salaraq çərçivəyə salmaq pitoresk şeir nümunələrinin mövzusu ola bilər. "Bizi təəccübləndirən, bütün düşüncə sistemimizi çökdürən, dil bacarığımızı korlaşdırmağa uğradan ulu, böyük olanla qarşılaşmalarımızda, özümüzü sırtı dönük bir figur olaraq xəyal edərək bu qarşılaşmaları xəyalda canlandıra bilir hala gətirir, uca, böyük olanı evcilləşdiririk (evə və insana alışmış – A.Q)" (2). Göründüyü kimi pitoresk əsərlər ya diqqət çəkməyən, ya da həddən artıq güclü, vahiməli olan təbiət hadisələrini süzgəcindən keçirərək bir filtr işi görür. Pitoresk təbiəti, dəhşətli olanı, dilə gətirilməz olanı necə istifadə edəcəyimizi bizə göstərir. Pitoresk gözü və duyğuları tərbiyə edən, fərdi şok təsirindən qoruyan bir filtrə kimi işlər görür"

Əsas hissə / Main Part

Deyilənləri nəzərə alaraq Mikayıl Müşfiqin "Axşamüstü" şeirində təbiət lövhəsi pitoresk təsvirlə tədqim edilir:

Günəş solğun. Üfüq də tutulmuş kimi dərdə,

Orda sarı buludlar sallanır pərdə-pərdə

Və gül rəngli kölgələr çöhrəmizdə sıxlaşır.

...

Aman! Şu qan gölündə günəşi kimdir boğan?!

Sevda yollarımızda nə işıq, nə işılğan,

Əzablı ruhlar kimi hava qaranlıqlaşır. (1, 173)

1936 – cı ildə qələmə alınan "Axşamüstü" şeiri həm də Sovet dövrünün ən çətin və mürəkkəb bir dövründə - repressiya ərəfəsində şairin yaşadığı hissləri, onu gözləyən sonluğu sözlə pitoresk təşbehlərlə təqdim etmişdir. Xüsusən, şeirdə işlədilən "Şu qan gölündə günəşi kimdir boğan?!" misrasında pitoreskə nümunə ola bilən günəşin qürubu Mikayıl Müşfiqin timsalında dövrün sərt rejiminin qurbanı olacaq repressiya nümayəndələrinə, həmin qurbanların məhz "qan gölü" olan Sovet İttifaqında təqib və işgəncələrə məruz qalmalarına işarədir. Bu şeirdə yaradılan pitoresk təsvirlər dövrün siyasi məzmunu ilə tamamlanır.

Pitoreskin sadaladığımız əsas xüsusiyyətləri Mikayıl Müşfiqin "Axşamüstü" şeirində *günəş solğun, əzablı ruhlar kimi* tərzində işlədilən ifadələrlə tam uyğunluq təşkil edir. Hüseyn Cavidin poeziyasında pitoresk şeir örnəklərini təhlil edərkən məzmuna görə belə bir bölgü apardıq: a) alleqorik b) ev içi təsvirləri c) təbiət mənzərələri. Mikayıl Müşfiqin də yuxarıda adı çəkilən şeiri pitoresk şeir nümunəsi kimi təbiət mənzərələri silsiləsinə daxil edilə bilər. Digər təbiət təsvirlərinə uyğun olaraq "Mədəni hücum" adlı şeirində payız fəslinin lövhəsi canlandırılır:

Xəzandır, xəzandır...

Təbiət kişnəyir yüyənsiz at kibi.

Təbiət varlığı əlində oynadır,

Rüzgarlar qudurmuş, səmalar əsəbi...

...

Qanadı olanlar köksünü gərəcək

Aləmi titrədən bu fəslin zülmünə.

Odur, bax, zavallı bir yarpaq, bir çiçək

Sürünür torpaqda ölərək. – Kimə nə!.. (1, 31)

Mikayıl Müşfiqin canlandırdığı mənzərədə "Beynimizdə hazır çərçivələrə oturda bilmədiyimiz, dolayısıyla sərhədlərini ayırd edə bilmədiyimiz bir görünümün qarşısında tapırıq özümüzü (2).

Azərbaycan poeziyasında özünəməxsus yer tutan "Küləklər" şeiri maraqlı pitoresk təşbehlər şəklində rəsm halına salınır:

Hər səhər, hər axşam, hər axşam, hər səhər

Çox zaman sərsəri küləklər bixəbər

Bir yaxın dost kimi qapımı döyərlər,

Küləklər, küləklər, bəstəkar küləklər,

Dünyadə dolaşan bəxtiyar küləklər! (1, 34)

Mikayıl Müşfiqdə də Hüseyn Caviddə olduğu kimi təbiət mənzərələri içərisində "Gecənin" xüsusi təsviri yer alır və həmin təsvir "Gecə düşüncəsi" şeirində təqdim edilir:

Xoşladığım bir gecə, yerlər, göylər işıqlı,

Ay bir sərxoş göz kimi, ulduzlar yaraşıqlı (1, 41)

Şairin "Gecə düşüncəsi" şeirinin davamında ay və ulduzların sözlə təsviri tablo halına salınır və "hər ulduz bir sarı gül", "ay bir sərxoş göz kimi" ifadələrlə verilir.

Göy cisimlərinin sözlə təsvirində əsas yerlərdən birini "Ulduzlar" şeiri tutur:

Bəzən titrəşərək parlayırsınız

Göylər bağçasında lalələr kimi,

Bəzən yaş tökərək ağlayırsınız

Lalələr üstündə jalələr kimi. (1, 178)

Mikayıl Müşfiq nümunədə təzad yaradaraq ulduzları iki fərqli obrazda təqdim etmişdir.

Təbiət mənzərələrinin ayrılmaz hissəsi kimi Mikayıl Müşfiq "Buludlar" şeirində sözlə rəsm çəkməyə müvəffəq olmuşdur:

Tutqunsunuz, qəlbinizdə yoxsa varmı sancınız?

Bu hərcayı gəzişdən nədir ya qazancınız?

Buludlar, buludlar,

Pərişan buludlar,

Başımın üstündə kişnəyib

Yarışan buludlar (1, 63).

Şeirdə buludlarla danışan obrazı görürük və bu obraz buludlarla insanla danışdığı kimi ünsiyyət qurur və onların halları ilə maraqlanır. Cənab Şəhabbədinin şeirlərindəki pitoresk təsvirləri araşdıran Mehmet Kaplan yazır: "Cənab əvvəlcə mövsümləri sadəcə təsviri olaraq ələ alır və onlara antropomorfik bir xarakter verir. Şeirlərinə musiqi və hərəkət ünsürü qarışdıqdan sonra təsvir tərzi də dəyişir" (3). Mikayıl Müşfiqin də "Buludlar" şeirində buludlara antropomorfik, yəni insan biçimi verilir. Eyni zamanda "Poçt qutusu" şeirində də şair cansız qutuya antropomorfik xarakter verir:

İllərdir bu divara sən ey poçta qutusu,

Yorğun bir adam kimi dayamışsın arxanı,

Saqlıdır içərində sirlərin ən quytusu,

Tanımayan bulunmaz sənin açıq yaxanı. (1, 48)

Təbiətin ayrılmaz hissəsi kimi yağışın rəsmi çəkilir:

Çözül, sən ki kölgəli bir yar saçısan

Bağrıyanıq səhraların əlacısan. (1, 182)

"Rəsm edilməyə dəyər, rəsm kimi anlamlar daşıyan pitoresk termini, doğal dünyanın bizi rahatsız edən ünsürlərini incələmədən keçirib yenidən ortaya çıxaran bir yöntemi vurğulayır. Nəticədə olduqca estetik bir təbiət görünümü ortaya çıxır. Təbiət həm bir sənət nümunəsi, həm də bir turistik olarak pitoresk olan sayəsində yenidən ortaya çıxır "(2).

Sözlə təsvir olunan portretlər fiziki və ruhsal ola bilirlər. Mikayıl Müşfiqin adından da göründüyü kimi "Bir lövhə" şeiri oxunmamışdan əvvəl düşüncəmizdə canlanan bir rəsmə işarə edir:

İştə səksən yaşında beli bükük bir qadın

Aylar, illər bilmədən qırmış qolun, qanadın.

Zaman çəkmiş canına gözlərinin nurunu,

Ömrü almış əlindən qəlbinin sürurunu

Vücudunun son bahar yarpağından fərqi yox,

Dodağında bir gülüş, bir qaynayan şərqi yox.

Çöhrəsində pərişan buludların var əksi,

Əllərində sərinlik – bir məzar hədiyyəsi. (1, 19)

Bu şeirdə pitoresk şeir örnəklərinə məxsus solğun, kədərli, yaşlı qadın obrazı yaradılmışdır. Təsvirlər vasitəsilə ömrünün sonlarını yaşayan qadının həm fiziki , həm də ruhsal portreti canlandırılır.

Mikayıl Müşfiqin "Rənanın ölümü", "Gülnaz" şeirləri bədbin ruhda yazılaraq, hər iki gənc qızın kədərli, hüzn dolu həyatını təsvir etmişdir. "Rənanın ölümü" şeirindən:

Uyu ey sevgili, azyaşlı gözəl,

Qəmə kirpikli, qələm qaşlı gözəl,

Uyu ey sinəsi məcra, saçı su,

Uyu nəşənlə, sevincində uyu.(1, 47).

Qeyd etdiyimiz şeirdə Rənanaın ölümünü təsvir edən şair "yerdə cansızdı o solğun yarpaq" deyərək pitoresk təşbeh işlətmişdir.

SONUÇ VE TARTIŞMA

Azərbaycan ədəbiyyatında pitoresk nümunələrinə təkcə Mikayıl Müşfiqin yaradıcılığında deyil, digər romantik sənətkarların da yaradıcılığında rast gəlmək olar. Pitoresk nümunələr sözlə rəsm çəkmək anlamını verməklə yanaşı, müəllifin niyyətini, məqsədini, düşüncələrini, eyni zamanda yaşadığı dövrün siyasi mənzərələrini də işarələrlə əks etdirir.

KAYNAKÇA

1. Mikayıl Müşfiq. Mən şirin ləhcəli bir bülbüləm...Kitab klubu, 2016, 400 səh.

2. Rahmi Öğdül. https://kaosgl.org/gokkusagi-forumu-kose-yazisi/yuce-olani-evcillestirmek-pitoresk 18/08/2011

3. Mehmet Kaplan. Cenab Şehabeddinin şiirlerinde pitoresk. https://dergipark.org.tr/en/download/article-file/157676

4. Pitoresk. https://tr.vvikipedla.com/wiki/Picturesque

QARABAĞ BÖLGƏSİNDƏ FİTONİMLƏRDƏN ƏMƏLƏ GƏLƏN MİKROTOPONİMLƏR

AYŞƏN İSMAYILLI

Nəsimi adına Dilçilik İnstitutu, Filologiya, Müasir Azərbaycan dili şöbəsinin doktorantı, Bakı, Azərbaycan

https://orcid.org/0000-0003-3417-6306

XÜLASƏ

Xalqımızın dil tarixinin öyrənilməsi üçün əvəzolunmaz mənbələrdən biri olan toponimik vahidlərin mənşəyinin araşdırılması qədim zamanlarda məskən salmış tayfalar, xalqlar, nəsillərlə əlaqədar dərin məlumatlar verə bilər. Bu adların çox hissəsi tarixi proseslə bağlı olub xalqımızın keçmişini özündə daşıyır, tayfa, nəsil, tirə, şəxs, bitki, heyvan və s. adları ifadə edir. Bitki adları ilə bağlı olaraq əmələ gələn toponimlərə fitotoponimlər deyilir. Azərbaycan dilinin onomastik sistemində fitonimlərdən əmələ gələn mikrotoponimlər özünəməxsus yer tutur. Fitonim – yunan mənşəli söz olub fitou – bitki, "onim" – ad sözlərinin birləşməsindən yaranmışdır. Belə ki hər bitkinin adı tək olur. Müxtəlif bitki növlərinin yayılması isə ərazinin relyef quruluşundan asılıdır**.** Təbiətin kəşfi olan ağac, bitki, gül, çiçək, ot, meyvə və s. xalqın maddi sərvətlərindəndir. İnsan təfəkkürünün məhsulu isə onların adlarıdır. Ona görə də, dilimizin toponimik layında mühüm əhəmiyyət kəsb edən fitonim mənşəli sözlərdən əmələ gələn mikrotoponimləri araşdırmaq, aşkara çıxarmaq, yaranma yollarını əsas tutaraq bu toponimik vahidləri toponimikanın sahəsi kimi qəbul etmək əsas şərtlərdəndir. Mikrotoponimlər sisteminin öyrənilməsində ağac və bitki adlarının təhlili çox əhəmiyyətlidir. Bildiyimiz kimi xalqımızın iqtisadi və siyasi həyatının inkişafında meyvəçilik daima diqqət mərkəzində olmuşdur. Qədim dövrlərdən əcdadlarımız məskunlaşdıqları ərazilərə ad verərkən coğrafi obyektdə daha çox olan bitki, ağac, gül, çiçək və s. onimləri seçmişlər. Belə el-oba adlarına respublikamızın müxtəlif ərazilərində rast gəlinir. Məqalədə Qarabağ bölgəsində fitonimlərdən əmələ gələn mikrotoponimlər linqvistik aspektdən təhlil olunmuşdur. Dilimizin onomastik sistemində son illərə qədər fitonim mənşəli mikrotoponimlərdən az bəhs edilmişdir. Bu yolla yaranan mikrotoponimlər bitki florası əsasında əmələ gəlir. Torpaq qatı əmələ gələrkən ərazinin relyef quruluşu və iqlimi əsas götürülür. Bəzi bitki, gül, çiçək, ağac növləri vardır ki ancaq respublikamızda mövcuddur. Yəni, yer adı ən çox hansı bitki növü ilə tanınırsa o cür adlanır. Bu o deməkdir ki, həmin ərazidə o bitki çox olur. Belə şəkildə yaranan fitotoponimlər məxsus olduğu ərazinin flora və faunası ilə birbaşa bağlıdır və insanlar yaşayış tərzləri, təbiət qanunauyğunluqları ilə əlaqələndirərək dəyişmişdir.

Açar sözlər: toponim, fitonim, mikrotoponim, onim, bitki, çiçək, ağac

ABSTRACT

The study of the origin of toponymic units, which is one of the invaluable sources for the study of the language history of our people, can provide in-depth information about the tribes, peoples and generations that settled in ancient times. Many of these names are related to the historical process and carry the past of our people, tribe, generation, tribe, person, plant, animal, etc. expresses. Toponyms formed in connection with plant names are called phytotoponyms. Microtoponyms formed from phytonims have a special place in the onomastic system of the Azerbaijani language. Phytonim - a word of Greek origin, formed from the combination of the words fitou - plant, "onim" - the name. Thus, the name of each plant is unique. The distribution of different plant species depends on the relief structure of the area. Trees, plants, flowers, blossoms, grass, fruits, etc., which are the discoveries of nature. is one of the material assets of the people. The product of human thought is their names. Therefore, one of the main conditions is to study and reveal microtoponyms formed from words of phytonym origin, which are important in the toponymic layer of our language, and to accept these toponymic units as a field of toponymy based on the ways of their formation. The analysis of tree and plant names is very important in the study of the system of microtoponyms. As we know, fruit growing has always been in the center

of attention in the development of economic and political life of our people. From ancient times, when naming the areas inhabited by our ancestors, plants, trees, flowers, flowers, etc., which are more in the geographical object. they chose onyms. Such village names are found in different parts of the country. The article analyzes the microtoponyms formed from phytonims in the Karabakh region from a linguistic point of view. Until recently, microtoponyms of phytonymic origin were rarely mentioned in the onomastic system of our language. The microtoponyms formed in this way are formed on the basis of plant flora. The relief structure and climate of the area are taken into account when forming the soil layer. There are some types of plants, flowers, flowers and trees that exist only in our republic. That is, the place name is named after the type of plant that is best known. This means that there are a lot of plants in that area. The phytotoponyms created in this way are directly related to the flora and fauna of the area to which they belong, and people have changed them in connection with their lifestyles and the laws of nature.

Keywords: toponym, phytonym, microtoponym, onym, plant, flower, tree

GİRİŞ

Mikrotoponimlərin spesifik yaranma strukturu və qanunauyğunluğu mövcuddur. Toponimik sistemin zənginləşməsində əsas rola malikdir, leksik-semantik və etimoloji aspektdən diqqət mərkəzindədir. Qarabağ bölgəsində mövcud olan mikrotoponimlər müxtəlif söz qrupları əsasında əmələ gələ bilir. Dilçilik ədəbiyyatlarında coğrafi onimlər leksik-semantik xüsusiyyətlərinə görə müxtəlif bölgülərlə təsnif olunmuşdur.

Nadir Məmmədovanın fikrincə, "Hər bir ölkənin, respublikanın və ya regionun toponimiyasında fitotoponimlər – bitki örtüyünü əks etdirən adlar mühüm yer tutur. Fitotoponimlər əsas etibarilə müsbət və mənfi relyef formaları ilə əlaqədar olduğuna görə bilavasitə oronimiya ilə bağlıdır" (16, 222).

Fitotoponimləri araşdıran İradə Kərimova yazır: "Azərbaycan ərazisindəki yer adlarının bir qismi bitki adlarından əmələ gəlməklə fitonimlər kimi səciyyələndirilir. Bəzən eyni fitotoponimin paralelləri Azərbaycanın digər rayonlarının toponimik sistemində də qeydə alınır" (11, 76).

ƏSAS HİSSƏ

Fitonimlərdən əmələ gələn mikrotoponimlər onomastik leksikanın elmi cəhətdən zənginləşməsində, tədqiqata cəlb olunan Qarabağ bölgəsinin bitki aləminin öyrənilməsində mühüm rola malikdir. Azərbaycan respublikasının bitki örtüyü olduqca zəngindir. Fitonimlərdən əmələ gələn mikrotoponimlərə qeyd etmək olar: Almalı dərə, Alçalı dərə, Armudlu dərə, Arpa gədiyi, Qozlu yeri, Qozluca, Dağdağanlı dərə, Yarpızlıq, Güllü köbər, Güllü tap, Palıdlı yal, Üzərlik təpə və s. (Ağdam rayonu); Güllüdərə, Güllütəpə, Narlı dərə, Nərgiztəpə və s. (Ağcabədi rayonu); Almalıq, Güllücə aşırımı, Güllütəpə, Ərik təpəsi, Qamışlıq, Çiçəkli bulaq, Fındıqlı bulaq, Tut bağı, Arpa düzü, Arpagədik, Armudluq, Balaca zoğallıq, Böyürtkənli dərə, Çəməndağ dağı, Dağdağan ocağı, Əzgillik, Fındıqlıq, Gavalı bağı, Gavallıq, Qarpızlıq, Qozluçay aşırımı, Narlı dərə, Nərgizli bağ, Nərgizlik, Pambıqlı dərə, Söyüdlü çökəklik, Söyüdlük, Söyüdlü dərə, Üzərlik dərə, Yemişcan bostanı, Zoğallıq, Qozlu bulaq, Qozluçay, Noxudlu bulaq və s. (Xocavənd rayonu); Alapalıdlıq, Alçalı yal, Armudlu dərə, Armudluq, Arpa yalı, Arpa yeri, Biçənək yalı, Çinar bulağı, Əvəlikli ərazi, Əzgilli dərə, Əzgillik, Fındıqlıq, Gicitkanlı dərə, Qarağatlı dərə, Qaragiləlik, Qırxbuğumlu yal, Qozlu yer, Silos quyusu, Söyüdlü dərə və s. (Şuşa şəhəri); Armud ağacı yanı, Armudluq, Arpa gədik, Qamışlıq, Qaratikanlı dərə, Qozdibi yeri, Qozlu dərə, Qozluca, Əncildərə, Ərik bağı, Zoğallı bağ, İydəlik, İncildərə, İncilli köbər, Yovşanlıq, Yarpızlıq, Kəklikotulu zəmi, Kələmlik, Kişmişli yer, Gilas bağı, Güllü dərə, Güllü tap, Güllüdərə, Güllütəpə, Narlı keçid, Narlıq, Nərgizli bağ, Taxıllı zəmi, Tut bağı, Tutluq, Qozlu bulaq, Narlı bulaq, Çinar bulağı və s. (Füzuli rayonu); Almalı ərazi, Alçalı bulaq, Alçalıq, Əvəlikli ərazi, Güllü təpə, İncilli qaya, Kələmlik, Qaraağac bulağı, Qozludərə, Noxudlu dərə, Üzərliktəpə, Yonca yeri və s. (Xocalı rayonu).

Qarabağ bölgəsində rast gəlinən mikrotoponimləri 6 növə ayırmaq olar:

1.Ağac adları əsasında əmələ gələn mikrotoponimlər: Qozlu yeri, Qozluca, Dağdağanlı dərə, Palıdlı yal, Fındıqlı bulaq, Dağdağan ocağı, Fındıqlıq, Qozluçay aşırımı, Söyüdlü çökəklik, Söyüdlük, Söyüdlü dərə, Qozlu bulaq, Qozluçay, Çinar bulağı, Qozlu yer, Söyüdlü dərə, Armud ağacı yanı, Armudluq, Qozdibi yeri, Qolzu dərə, Qozluca, İydəlik, Qozlu bulaq, Çinar bulağı, Qozludərə, və s.

2. Meyvə ağacı adları əsasında əmələ gələn mikrotoponimlər: Almalı dərə, Alçalı dərə, Armudlu dərə, Almalıq, Narlı dərə, Ərik təpəsi, Tut bağı, Armudluq, Balaca zoğallıq, Gavallıq, Gavalı bağı, Narlı dərə, Zoğallıq, Əncildərə, Ərik bağı, Zoğallı bağ, İncildərə, İncilli köbər, Kişmişli yer, Gilas yeri, Narlı keçid, Narlıq, Tut bağı, Tutluq, Narlı bulaq, Almalı ərazi, Alçalı bualq, Alçalıq, İncilli qaya və s.

3.Taxıl bitkilərinin adları əsasında əmələ gələn mikrotoponimlər: Arpa gədiyi, Arpa düzü, Arpagədik, Arpa gədik, Noxudlu bulaq, Taxıllı zəmi, Noxudlu dərə, Yonca yeri və s.

4.Ot bitkilərinin adı əsasında əmələ gələn mikrotoponimlər: Yarpızlıq, Güllüdərə, Güllüköbər, Güllü tap, Güllücə aşırımı, Güllütəpə, Nərgiztəpə, Çiçəkli bulaq, Çəməndağ, Nərgizli bağ, Nərgizlik, Pambıqlı dərə, Əvəlikli ərazi, Silos quyusu, Yovşanlıq, Yarpızlıq, Kəklikotu zəmi və s.

5.Yabanı bitki adları əsasında əmələ gələn mikrotoponimlər: Üzərlik təpə, Qamışlıq, Üzərlik dərə, Gicitkanlı dərə, Qırxbuğumlu yal, Qamışlıq, Üzərliktəpə və s.

6.Giləmeyvə adları əsasında əmələ gələn mikrotoponimlər: Böyürtkənli dərə, Qarpızlıq, Əzgillik, Yemişcan bostanı, Əzgilli dərə, Qarağatlı dərə, Qaragiləlik və s.

Armudlu dərə. Ağdam rayonunda mövcud olan dərə xüsusi ad yaratmada əsas rola malikdir. Fitonim mənşəli toponimik vahid əsasında əmələ gələn mikrotoponimdir və toponimyaratmada daha çox rast gəlinir. Armud meyvə ağacının və -lu şəkilçisi isə ərazidə həmin meyvə ağacından bol olduğunu bildirir. Dərə isə mənfi relyef formasıdır.

Armud adı ilə bağlı olaraq respublikamızda Armudlu (Daşkəsən), Armudarx hidronimi (Bərdə), Keşdək kəndində Armudlu düzü (Kəlbəcər), Qaşqaçay kəndində Armudlu düz (Qax), Qubadlıda Başarat inzibati vahidində Armudlu kəndi (Qubadlı), Armudlu düzü (Kəlbəcər, Şəmkir, Xanlar); Armudlu yalı və çalı (Qazax), Armudlu tala (Tovuz), Armudlu bağı (Füzuli) qeydə alınmışdır.

Naxçıvan toponimlərini tədqiq edən Adil Bağırov armud onimi ilə formalaşan el-oba adlarını qeyd edir: "Şahbuzda Armudlu bulaq, Armudlu yer, Qızıl Qışlaq kəndində Şahbuzda Armudlu sahə, Keçili kəndində Şahbuzda Tək Armud yeri, Tək Armudun dibi (Sələsüz kəndi, Şahbuz), Armudlu sahə (Aşağı Buzqov kəndi, Şahbuz), Tək armud məhəlləsi (Naxçıvan şəhəri), Kom Armudlar (Havuş kəndi, Şərur), Armudlu düz (Tivi kəndi, Ordubad), Armudlu dərə (Biləv kəndi, Ordubad; Qızılca kəndi, Culfa), Armudlu çuxur, Armudlu çuxur dərəsi, Armudlu çuxur təpəsi, Armudlu çuxur yolu (Xoşkeşin kəndi, Culfa) toponimlərinə rast gəlinir" (3, 259);

Nadir Məmmədov armud apelyativinin iştirak etdiyi yer adlarını mikrotoponim kimi araşdırır: "Armudlu dağ (Qax, Kəlbəcər, Xanlar və Şəmkir rayonları), Armudlu dərə (Qazax, Ağdərə, Laçın, Cəbrayıl və Şuşa rayonları), Armudlu düz (Oğuz, Qubadlı, Laçın və Cəbrayıl rayonları), Armudlu yal (Qazax rayonu), Armudlu çal (Qazax rayonu Alpout kəndi" (16, 225) qeydə alınmışdır. Armud apelyativinin geniş arealda yayılması təsadüfi xarakter daşıyır.

Budaqov və Qeybullayev Gürcüstan ərazisində qeydə alınan eyniadlı toponimik vahidlərə makro və mikrotoponimləri göstərirlər: "Tiflis quberniyasının Borçalı qəzasında kənd adıdır; Tiflis əyalətinin Pətək nahiyəsində Armudlu kənddir, Armudlu başqa Tiflis əyalətinin Pətək nahiyəsində kənd adıdır; Armudlu Dmanisi rayonunda kənd adıdır; Armudlu Tiflis quberniyasının Borçalı qəzasında çay adıdır" (6, 119).

Armud adı əsasında Qərbi Azərbaycan (indiki Ermənistan) ərazisində el-oba adları qeydə alınmışdır. Budaqov və Qeybullayev yazırlar: "Armudağacı XVIII əsrin əvvəllərində İrəvan əyalətində kənd adı; Armudlu İrəvan xanlığının Vedibasar mahalında kiçik kənd adıdır. XIX əsrin l yarısından sonra adı çəkilmişdir. "Armud (cır, yabanı armud, yaxud meşə armudu) bol olan yer" mənasındadır; İrəvan quberniyasının Eçmiədzin qəzasında kənd adı; Artik rayonunda kənd adı; Yelizavetpol (Gəncə) quberniyasının Zəngəzur qəzasında (indi Ermənistanın Qafan rayonunda) kənd adı; Tiflis quberniyasının Borçalı qəzasında (indi Ermənistanın Quqar rayonunda) kənd adı; 1728-ci ildə İrəvan

əyalətinin Dərəçiçək nahiyəsində Gərniki kəndinə məxsus məzrə adı; Armudluq 1590-cı ildə Rəvan əyalətinin Zebil nahiyəsində kənd adıdır"; "Armudlu dərəsi Yelizavetpol (Gəncə) quberniyasının Zəngəzur qəzasında, indi Qafan rayonunda dərə; Armudlu İrəvan quberniyasının Yeni Bayazid qəzasında, indiki Çəmbərək (Krasnoselo) rayonunda dərədir. Rayondakı Toxluca kəndinin qərbində yerləşir" (4, 37); "Kiçik Armudlu İrəvan quberniyasının Eçmiədzin qəzasında, indiki Sərdarabad (Oktemberyan) rayonunda kənd adıdır" (4, 191).

Türkiyədə "Afyon, Ağrı, Ankara, Antalya, Aydın, Balıkesir, Bolu, Bursa, Diyarbakır, Ərzincan, Ərzurum, Girəsun, Gümüşhanə, İsparta, İzmir, Qars, Qastamonu, Kırşehir, Konya, Malatya, Maraş, Niğde, Ordu, Rizə, Samsun, Siirt, Sivas" da Armudlu kəndinə (13, 45-46); Cənubi Azərbaycanda "Armudlu ada" ya (9, 248) rast gəlinir. Tədqiqat nəticəsində aydın olmuşdur ki, Armudlu toponimik vahidi kənd, düz, bağ, bulaq, sahə, məhəllə, çuxur, dərə, yal, çal, çay və s. yer-yurd adlarının komponenti kimi çıxış edir və çox böyük yayılma arealı vardır. Deyilən fikirləri əsas tutaraq biz mikrotoponimi "armud ağaclarının bol olduğu dərə" kimi izah edə bilərik.

Üzərliktəpə. Dilimizin lüğət tərkibində apelyativ leksikadan toponimik vahidə keçən Üzərliktəpə mikrotoponimdir. Xocalı rayonu ərazisindədir. Eyniadlı təpə Ağdam rayonunda da qeydə alınmışdır. Qafqazda şəhər tipli yaşayış yeridir. "Hələ 1954-cü ildə bu təpə bir çox Azərbaycan və rus alimlərinin diqqətini cəlb etmişdi. Ən maraqlısı o idi ki, bu təpə heç də kurqanlar kimi süni surətdə yaradılmamışdır. Yəni, o təbii təpədir. Digər tərəfdən ya yol çəkənlər tərəfindən bu təpənin dağıdılmış hissəsində 3-4 min il bundan əvvələ aid xeyli maddi mədəniyyət qalıqları toplanmışdır" (10, 13). Bu ərazidə qazıntılar zamanı çiy kərpicdən çəkilən divar qalıqları aşkar olunmuşdur. Həmçinin manqalvari kürəcik, kuzəc, təkqulp, dolça aşkar olunmuşdur. Üzərliktəpədə Qarabağ ərazisində məskunlaşmış qədim sakinlərin əkinçilik mədəniyyətini əks etdirən qalıqlara da rast gəlinmişdir. Yaşayış yerinin belə adlanmasına səbəb ərazidə üzərlik bitkisinin çox olması ilə bağlıdır. Üzərliktəpə toponimik vahidinə Xocalı rayonunda da rast gəlinir. Azərbaycan xalqının inam və etiqadında üzərlik gözdəymənin qarşısını alan bitki kimi tanınmışdır.

Çılpaq ot bitkisi olan üzərlik quru yamaclarda, boş yerlərdə və s. bitə bilir. Tədqiqat nəticəsində belə qənaətə gələ bilərik ki, üzərlik dilimizdə əvvəl apelyativ leksik vahid kimi işlənib, daha sonra isə mikrotoponimə və makrotoponimə çevrilərək el-oba adlarının tərkibində daşlaşmışdır. Onu da qeyd edə bilərik ki, üzərlik tərkibli el-oba adları çox azdır. Hesab edirik ki, mikrotoponimi "üzərliklə bol olan yaşayış yeri" kimi izah etmək olar.

Dağdağan ocağı. Toponim yaratmada geniş areallığa malik olan Dağdağan ocağı Xocavənd rayonundadı. Fitonimdən əmələ gələn mikrotoponimdir. Əsasən, bu bitkilər quru, daş çox olan yamaclarda bitirlər. Adətən, torpağa tələbkarlıqları az olur.

Azərbaycan ərazisində dağdağan ağacı müqəddəs olmuşdur. Bu bitki ilə bağlı olaraq müxtəlif inanclar yaranmışdır. Dialektlərimizdə söz belə işlənir: "Dağdağan (Meğri, Zəngibasar) gözə-nəzərə gəlməmək üçün uşağın və ya heyvanın boynundan asılan bəzəkli kiçik dağdağan ağacı. Eynulla dayısı Şövqiyə bir dağdağan qəyırdı (Meğri)" (2, 111).

Bəşir Əhmədov dağdağan sözünün etimoloji izahını belə verir: "qaqauz dilindəki daalık (dağlıq) sözü ruscaya "песистая мести остьи" kimi tərcümə edilib. "Dağ" anlamını əks etdirən söz Litva dilində "ağac, meşə", alban dilində isə "da" mənasını əks etdirir. Deməli, dağ kəlməsini bir mənası "meşə ağacı" deməkdir. Dağdağan kəlməsində iki sözü var: birinci dağ (qora), ikincisi isə "ağac" anlamını verir. Dağdağan (dağda doğan, bitən) "dağ ağvı" deməkdir. Türkmənlərdə belə bir deyim mövcuddur: daqdan daqda bilir. Ruslar bu ağaca "амен ное дерево" deyirlər, səbəbi isə odur ki, 1) dağdağan ən çox daşlı yerdə bitir. 2) daş kimi bərk olur. (balta ilə zorla kəsir) (7, 73). Bəşir Əhmədovun fikrinə əsaslanaraq belə qənaətə gəlmək olar ki, dağdağan dağlıq ərazilərdə daha çox bitən bitkidir və dağ ağacıdır.

Dağdağan ağacının adı ilə əlaqədar olaraq respublikamız ərazisində toponimlərə rast gəlinir. "Gömür kəndində Şahbuzda Dağdağanlı dağ, Qazançı kəndində, Culfada; Biləv kəndində Ordubadda Dağdağanlı dərə, Dağdağanlı güneyi, Tivi kəndində Ordubadda Dağdağanlıq" (3, 260); Xocalı rayonunda Dağdağan çay, Kəlbəcərdə Dağdağanlı təpəsi, Laçında Dağdağan bulağı, Ağdərədə

Dağdağanı təpə, Cəbrayılda Dağdağanlı düz, Dağdağan ağacı piri, Qazaxda; Qəbələdə, Qubadlıda, Zəngilanda, Oğuzda, Cəlilabadda, Xanlarda, Şahbuzda Dağdağanlı dərə.

Yer-yurd adını makro və mikrotoponimlərin tərkibində olduğunu qeyd edən Nadir Məmmədov yazır: "Dağdağan çayı (Ağcabədi və Ağdam rayonları), Dağdağan kəndi (Xocalı rayonu), Dağdağanlı dərə (Oğuz, Qəbələ, Qubadlı, Zəngilan, Qazax, Cəlilabad rayonları), Dağdağanlı qobu (Şəki rayonu), Dağdağanlı düz (Cəbrayıl rayonu), Dağdağan təpəsi (Ağdərə rayonu)" (16, 223) rast gəlinir.

Dağdağan adı ilə bağlı olaraq Türkiyədə "Bucağı Mərkəz, İlçəsi Araban, İli Gaziantep" (13, 161). Cənubi Azərbaycanda Dağdağan yer adı qeydə alınmışdır. Toponimikada Dağdağanın yer adı kimi işlənməsinə baxmayaraq əslində apelyativ leksikaya aid olan sözdür. Bu hadisəyə çox rast gəlinir. Dağdağan tərkibli onomastik vahidlər istər makro, istərsə də mikrotoponimlərin tərkibində işlənərək dağ, dərə, düz, təpə, pir, qobu adları yaratmışdır. Fikrimizcə, mikrotoponimi "dağdağan ağacı çox bitən dərə" şəklində izah etmək olar.

Yovşanlı təpə yaşayış yeri. Apelyativ leksikaya məxsus olan və onomastikada olduqca məhsuldar hesab olunan mikrotoponim Ağdam rayonunda mövcud olan təpələrdən biridir. Yovşan çöl bitkisidir. Mürəkkəbçiçəklilər fəsiləsinə aid olan bitkidir. "Yaşayış yeri Ağdam rayonu Alıbəyli kəndindən 500 m şərqdə, əkin sahələrinin əhatəsində yerləşir. Şimal-qərb, cənub-şərq uzunluğu 130 m, eni isə 70 m olan təpənin hündürlüyü 1 m-dir. Ehtimal ki, onun səthi sovet dövründə hamarlanmış və ətrafı əkin sahələrinə qatılmışdır. Bütün ətrafı boyunca söyüd ağacları əkilmiş təpənin səthini tamamilə yovşan kolları örtüb. Bu səbəbdən də yaşayış yeri Yovşanlıtəpə adı ilə qeydiyyata alınmışdır" (1, 95). Fikirdən aydın olur ki, həmin ərazidə yovşan çox olmuşdur, ona görə də yaşayış yeri bu şəkildə ad almışdır.

Yovşan sözünün etimologiyası ilə bağlı olaraq Bəşir Əhmədov yazır ki, "Dovşan sözü ilə qohumdur. Dovşan dişlərini bərkitmək üçün yovşanla da qidalanır. Dovşan ən çox yovşan olan yerdə yaşayır. (rəngləri uyğun olduğundan yaxşı masklana bilir). Dovşan elə yovşanyeyən deməkdir. Belə görünür ki, yovşan "dovşan yemi" deməkdir və yemişan sözünün dəyişmiş formasıdır" (7, 280).

Yovşan alaq bitkisidir və daha çox bağlarda, bostanlarda, yol kənarlarında arxlar boyu ərazilərdə rast gəlinir.

Bütün türk dünyasının qiymətli əsəri olan "Kitabi-Dədə Qorqud" dastanında belə işlənir: "Yoşan gibi bərk olmaz" (12, 112)

Yovşan sözü ilə bağlı olaraq Adil Bağırov Naxçıvan ərazisində yer adlarını qeyd edir: "Yovşanlı dərə (Gərməçataq kəndi, Babək), Yovşanlı (Sirab kəndi, Babək), Yovşannı yer (Milax kəndi, Culfa), Yovşannı kövşəni (Camaldın kəndi, Culfa)" (3, 262-263).

Cənubi Azərbaycanda "Yuşanlı (Yaşanlı) yer adı" (9, 121) qeydə alınmışdır. Hesab edirik ki, yovşan sözünün iştirak etdiyi el-oba adları əsasən respublikamız ərazisində yayılmışdır. Ona görə də adın etimologiyasını başqa ərazilərdə axtarmaq doğru fikir deyildir. Mikrotoponimi "yovşan çox olan yer" anlamında izah etmək olar.

Qaratikanlı dərə. Füzuli rayonunda qeydə alınmışdır. Qaratikan toponimik vahidi fitonimdən əmələ gələn mikrotoponimdir. Murdarçakimilər fəsiləsinə aid olan bitkidir. Adından da göründüyü kimi tikanlı koldur. Bu bitki daha çox quru daşlar olan çınqıllı, gilli yamaclarda, düzənliklərdə olur. Dərə isə müsbət relyef formasıdır. Axar sular eroziyaya uğrayır və nəticədə dərələr əmələ gəlir. – i şəkilçisi isə mənsubluq bildirir. Qaratikanla əlaqəli olaraq Cəbrayıl rayonunda düz qeydə alınmışdır. Fikrimizcə, mikrotoponimi "Qaratikan bitkisinin bol olduğu dərə" şəklində mənalandırmaq olar.

Bitki adına "Koroğlu" dastanında da rast gəlinir: "Əzəl bunu, sonra da o birisini min, təzəcə sulanmış şumda səyirt, qaratikanlığa sür, sonra da sıldırım daşlı dağa çap. ("Alı kişi")" (8, 86).

Budaqov və Qeybullayev Karatikan (Qaratikan) yer adının Gürcüstanda qeydə alındığını yazır: "Bolnisi rayonunda kənd adıdır. Qıpçaq mənşəli Tikan tayfasının adını əks etdirir. "Tikan qara camaatı" mənasındadır. İrəvan xanlığının Dərəkənd-Parçeniş mahalında Tikanlı, Türkiyənin Qars əyalətində iki Tikanlı, Azərbaycanda indi Qara Tikanlı (Cəbrayıl rayonunda) Dağlıq Şirvanda Tikanlı-yurd və b. toponimlərlə mənşəcə eynidir" (6, 191). "Qaratikanla bağlı olaraq Zəncan vilayətində yer adı qeydə alınmışdır" (9, 254). Göründüyü kimi qaratikan apelyativ leksikaya daxil olan nomendir. Qərbi

Azərbaycan (indiki Ermənistan), Gürcüstan, Türkiyə, Cənubi Azərbaycan ərazisində geniş şəkildə yayılmışdır.

Yarpızlıq. Füzuli rayonu ərazisindədir və fitonimdən əmələ gələn mikrotoponimdir. Dalamazkimilər fəsiləsinə aiddir. Azərbaycan ərazisində orta dağ qurşağına qədər bütün rayonlarda bitə bilir. Yarpıza daha çox çay, göl, bulaq kənarlarında, həmçinin bağ və bostanlarda rast gəlmək olar. Qarapirimli kəndində olan mikrotoponimin belə adlanmasına səbəb orada yarpız bitkisinin çox olması ilə əlaqədardır. Fidan Qurbanova Yarpız onimini antroponim kimi qeyd edir: "Bu gün məişətimizdə Yarpız qadın adının daşıyıcıları, əsasən, yaşlı nəslin nümayəndələridir" (14, 1043). Bildiyimiz kimi şəxs adları zoonim, fitonim, kosmonimlər əsasında yarana bilir. Bu fikri Fidan Qurbanova da təsdiqləyir.

Orta əsrlər dövrünün milli-mənəvi dəyərlərini əks etdirən Mahmud Kaşğarinin "Divani lüğət it türk" əsərində qeydə alınan yarpız sözü belə işlənir: "yarpız, gözəl rayihəli bir ot, qır nanəsi; ilan yeyən bir heyvan, firon siçanı, manqust. Bu məsəldə də işlənmişdir. Yılan yarpuzdan kaçar, kança barsa, yarpuz utru kəlür= ilan yarpızdan qaçar, hara getsə, qabağma yarpız çıxar. Bu söz sevmədiyi şeydən çəkinən, ancaq yenə də o şeyə yaxalanan adam haqqında deyilir" (15, 41).

Yarpız apelyativi "Koroğlu" dastanında belə işlənir: "Çölnanəsi; su kənarında bitən, ağ və qırmızı çiçəkləri olan ətirli bitkidir.

Gəzdim şəhərlər, obalar,

Keçdi zimistan, yaz gördüm,

Dolandım çöllər, səhralar,

Bulaq üstə yarpız gördüm. ("Eyvazın Çənlibelə gətirilməyi").

Axtararam düşmənləri seçərəm,

Başlarını yarpız kimi biçərəm,

Mərd yolunda başdan, candan keçərəm,

İzin versən, Ərzuruma gedərəm. ("Koroğlunun qocalığı")" (8, 149).

Nadir Məmmədov Azərbaycan ərazisində "Yarpızdağ (Qax rayonu), Yarpızlı çökəyi (Masallı rayonu, Ərkivan kəndi), Yarpızlı dərə (Zaqatala rayonu) və s." (16, 230) yer-yurd adlarını qeyd edir. Bizcə, mikrotoponimi "Yarpız bitkisinin bol olduğu yer kimi" izah etmək olar.

Yarpız bitkisinin adı ilə bağlı Qərbi Azərbaycan (indiki Ermənistan) ərazisində yer adına rast gəlinir. Budaqov və Qeybullayev yazırlar: "İrəvan quberniyasının Novobayazid qəzasında kənd adıdır. Mənbədə Yarpuzlu kimidir. 1948-ci ildə kəndin əhalisi azərbaycana köçürülmüş və ermənilər yerləşdirilmişdir. 1967-ci ildə kənd ermənicə Lçavan adlandırılmışdır. XIX əsrin ortalarında qışlaq əsasında yaranmışdır. Qışlaq və Yarpızlı adlı yerin adı ilə adlanmışdır" (5, 275). Türkiyədə Yarpuz, Yarpuzlu yer adları qeydə alınmışdır. Yarpız apelativi toponimik hüquq qazandıqdan sonra Qərbi Azərbaycan (indiki Ermənistan), Türkiyə ərazisində yayılmışdır.

Qozlu yeri. Onomastik leksikada daha çox işlənən apelyativ vahidlərdən olan Qozlu yeri mikrotoponimi Şuşa şəhərindədir. Qozlu yeri fitonimdən əmələ gələn mikrotoponimdir. Toponimik vahidin belə adlanmasına səbəb həmin ərazidə qoz ağaclarının bol olması ilə əlaqədardır.

Qoz sözünü milli mənşəli hesab etməyən Bəşir Əhmədov öz fikrini belə izah edir: "Əsli kokos kimidir, alınma sözdür. "hind qozu" deməkdir. Göy qozun üstündəki qabığa "gəzəl" deyirlər. Gəzəl mənbələrdə " qabıq" kimi açıqlanıb, amma hər qabığa qəzəl demirik. Görünür, qəz (gəzəl) və qoz eyni kökə malik olub. Bizdə qoz yerinə yağaq kəlməsi işlədilib, görünür "yağlı" demək olub" (7, 170).

Nadir Məmmədov qoz sözünün iştirak etdiyi toponimlər arasında makrotoponimlərlə yanaşı mikrotoponimləri də göstərir: "Qozağacı (Siyəzən), Qozbabalı (Dəvəçi), Qozluçay (Xocavənd, Füzuli, Şamaxı), Qozluçay dağı (Şəki), Qozlukörpü kəndi (Kəlbəcər) qeydə alınmışdır. "Qozağacı kəndi (Siyəzən rayonu), Qozbulaq kəndi (Şəki rayonu), Qozbabalı kəndi (Dəvəçi rayonu), Qozqaralı (Gədəbəy rayonu), Qozdərə kəndi (Tovuz rayonu), Qozlu kəndi (Kəlbəcər və Laçın rayonları), Qozbulaq qəsəbəsi

(Şəki rayonu)" (16, 226) qeydə alınmışdır. Mikrotoponimi "qoz ağacı ilə zəngin olan yer" kimi izah edə bilərik.

Qoz sözü ilə bağlı olaraq el-oba adlarına Qərbi Azərbaycan (indiki Ermənistan) ərazisində rast gəlnir. Budaqov və Qeybullayev qeyd edirlər: "İrəvan xanlığının Qırxbulaq mahalında kənd adıdır. XIX əsrin ortalarından sonra mənbələrdə adı çəkilmiş kəndin adı orada qoz ağacının bolluğu ilə əlaqədar olmuşdur; Qozluca İrəvan xanlığının Dərələyəz mahalında kənd adıdır. 1728-ci ilə aid mənbədə İrəvan əyalətinin Dərələyəz nahiyəsində Qozluca kəndin adı çəkilir. Həmin mənbədə qeyd olunur ki, kənddə adam yaşamır" (5, 211); "Qozlu Tiflis quberniyasının Borçalı qəzasında, indiki Şəmşəddin rayonu ərazisində qışlaqdır. 1930-cu ildə ləğv edilmişdir" (4, 110).

Türkiyədə yer adı ilə bağlı olaraq "Qozlu Balıkesirdə, Bingöldə, Boluda, Çanakkaledə, Ərzurumda, Eskişehirdə, Qarsda, Konyada, Mardində, Samsunda, Sivasda, Tokatda Qozlu; Qozlubağ Gaziantepdə; Qozlubel Eskişehirde; Qozlubucaq Konyada; Qozluca Afyonda, Amasyada, Burdurda, Bursada, Çorumda, Erzincanda, Ispartada, İzmirdə, Qarsda, Kayseridə, Kütahyada, Manisada, Mardində, Nevşehirdə, Niğdedə, Trabzonda, Tuncelidə,Vanda Qozluca; Ispartada, Zonguldakda Qozluçay; Hatay, Maraşda Qozludərə" (13, 376-377). Cənubi Azərbaycanda "Qozlu, Qozluca" (9, 121) qeydə alınmışdır. Qoz apelyativinin iştirak etdiyi toponimlərə Türkiyə, Qərbi Azərbaycan (indiki Ermənistan), Cənubi Azərbaycan ərazisində rast gəlinir və onlar arasında semantik cəhədən eynilik vardır.

NƏTİCƏ

Nəticə olaraq deyə bilərik ki, fitonimlərdən əmələ gələn mikrotoponimlərə Qarabağ ərazisində az təsadüf olunur. Bu mikrotoponimlər ağac, bitki, kol, gül, çiçək adlarından yarana bilir. Fitonimlər təbiətin bizə verdiyi ən böyük sərvətdir. Onları adlandırmaq isə insanların təfəkkürünün nəticəsidir. Hansı ki, hər fitonim növü, sortu, dadı, rəngi, forması etibarilə bir- birindən fərqlidir. Bitki florasına aid edilən mikrotoponimlərin tədqiqata cəlb olunması olduqca gərəklidir. Müasir dövrə qədər Qarabağ bölgəsində fitonimlərdən əmələ gələn mikrotoponimləri az araşdırılmışdır. Ona görə də dilimizin toponimik sistemində xüsusi leksik qatı əhatə edən onimləri linqvistik aspektdən araşdırıb üzə çıxarmaq, yaranma üsullarının müəyyən etmək bu mikrotoponimləri toponimikanın müstəqil bir sahəsi kimi qəbul etmək zəruridir.

ƏDƏBİYYAT SİYAHISI

1. Alməmmədov X. Qarabağın arxeoloji abidələri. Bakı, Çap Art, 2016, 448 s
2. Azərbaycan dilinin dialektoloji lüğəti, Bakı, Şərq-Qərb, 2007, 568 s
3. Bağırov A. Onomalogiya problemləri, II cild. Bakı, Elm və təhsil, 2010, 416
4. Bayramov İ. Qərbi Azərbaycanın türk mənşəli toponimləri. Bakı, Elm, 2002, 696
5. Budaqov B, Qeybullayev Q. Ermənistanda Azərbaycan mənşəli toponimlərin izahlı lüğəti. Bakı, Nafta-Press, 1998, 452 s
6. Budaqov B, Qeybullayev Q. Gürcüstanda türkmənşəli toponimlərin izahlı lüğəti. Bakı, Nurlan, 2008, 312 s
7. Əhmədov B. Etimologiya lüğəti: araşdırmalar, mülahizələr. Bakı, Altun kitab, 2015, 287 s
8. Əhmədova Ş. "Koroğlu" dastanın lüğəti. Bakı, Altun kitab, 2018, 159 s
9. Əliyev V. Azərbaycan toponimiyası. Bakı, , 1999, 278 s
10. Göyüşov R. Qarabağın keçmişinə səyahət. Bakı, Azərnəşr, 1996, 84 s
11. Kərimova İ. Göyçay rayonu toponimlərinin linqvistik təhlili. Filologiya üzrə fəlsəfə doktoru elmi dərəcəsi almaq üçün təqdim olunmuş dissertasiya. Bakı, 2013, 148 s
12. "Kitabi-Dədə Qorqud" dilinin izahlı lüğəti. Bakı, Elm, 1999, 204 s

13. Köylərimiz. Ankara, Başbakanlık Basımevi D.S.İ, 1968, 790 s
14. Qurbanova F. Azərbaycan şəxs adları. İzahlı lüğət. Bakı, 2019, 1328 s
15. Mahmud Kaşğari. III cild, Bakı, Ozan, 2006, 400 s
16. Məmmədov N. Toponimika, Bakı, Bakı Universiteti nəşriyyatı, 2007, 408 s

BAŞQIRD YAZILI ƏDƏBİYYATINDA NƏSRİN FORMALAŞMASI TARİXİNƏ BAXIŞ

A LOOK AT THE HISTORY OF PROSE FORMATION IN BAKHKIR WRITTEN LITERATURE

Aytən Nəriman Qızı Qurbanova

filologiya üzrə fəlsəfə doktoru

AMEA Nizami Gəncəvi adıan Ədədbiyyat İnstitutunun

"Türk xalqları" şöbəsinin doktorantı

https://orcid.org/0000-0001-8020-6508

Keywords: Bashkir literature, Bashkir prose, drama in Bashkir literature, literature of Turkic peoples, etc.

Literature is a manifestation of the national consciousness of each nation, the fruit of its spiritual spirit. Along with aesthetic aspects, literature is an educational and ideological field. The events that take place in the life, life and history of any nation show themselves in their literature as a wonderful means of awakening their spirit and keeping their honor alive.

Historically, the Turks, who set an example to all nations with their courage, love and value for their homeland, people and traditions, have created a perfect literary heritage since ancient times. There were a number of all-Turkic ideas and literary problems that united different Turkic peoples of different heights. Some imperialist nations, aware of the place of literature in the history of the Turks, are well aware that fiction is the main source of enthusiasm for the Turks. In view of this, some nations have seriously hindered the development of literature. The development of the Bashkir people and their literature has been delayed for a long time due to such aggression. Although Bashkir oral folk literature dates back to ancient times, prose in written literature began to take shape in the second half of the 19th century. Enlightenment ideas were initially the subject of Bashkir written literature, as well as prose, which was nourished by the centuries-old spiritual heritage of the Turkic peoples connected with their ideology. M. Akmulla, M. Umetbayev, S. Agish, A. Vali, G. Gumer, H. Dovletshin, M. Gali, R. Bikbayev, G. Ramazanov, B. Rafigov, F. Gumarov, H. Tulyakayev and others. were the first and leading forces in shaping Bashkir literary thought.

At the end of the 19th century, Rizaeddin bin Fakhraddin (religious, political, pedagogical), Mohemsha Burangolov (an intellectual who played an exceptional role in the formation of the Bashkir theater, persecuted and persecuted intellectuals), Majid Gafuri (mostly known as a poet) and fought for the formation and development of the national culture of the Bashkir people until the end of his life) and b. Artists were especially selected in the formation of the Bashkir literary and educational environment.

In the 60s and 80s of the 19th century, Bashkir prose was still dominated by medieval traditions. Therefore, both in poetry and prose, realistic ideas born of tradition were naturally conveyed to readers. Dramaturgy, which was part of the prose, was also a developing field of literature at the same time. Special mention should be made of the play "Free Girl Captured", written in 1898 by an unknown author.

Açar sözlər: başqırd ədəbiyyatı, başqırd nəsri, başqırd ədəbiyyatında drammaturgiya, türk xalqları ədəbiyyatı və s.

Ədəbiyyat hər bir xalqın milli şüurunun təzahürü, mənəvi ruhunun bəhrəsidir. Ədəbiyyat estetik cəhətlərlə yanaşı, tərbiyəvi, ideoloji xarakter daşıyan bir sahədir. Hər hansı bir xalqın həyatında, məişətində və tarixində baş verən hadisələr onun ədəbiyyatında ruhunu oyandıran, namusunu yaşadan gözəl vasitə kimi özünü göstərməkdədir. Bu fikrim, bəlkə də, birmənalı qarşılanmaya bilər. Belə ki, ədəbiyyat bütün xalqlarınmı həyatında bu qədər dərindən kök atıb və önəmli rola malikdir? Bu məsələni

dərindən araşdırmasaq da, tam əminliklə deyə bilərik ki, bədii ədəbiyyat başda Azərbaycan türkləri olmaqla bütün türk xalqlarının həyatında, tarixində çox önəmli yerdədir. Təkcə onu demək kifayətdir ki, ulu ata-babalarımız-qəhrəman türk sərkərdələri düşmən üzərinə də gedəndə qoşunu bir şeirlə motivasiya etməyi, bütün qələbə əzmini ortalığa qoyub zəfər qazanmağı bacarmışlar. Tarixən də bütövlükdə türkləri məğlub etməyin mümkünsüzlüyünü dərk edən yadellilər tarixin yaddaşında kök atmış bir frazanı daim məhz türk toplumunun üzərinə tətbiq etməyə çalışmışlar. "Parçala və hökm sür" ifadəsini rəhbər tutaraq türkləri bacardıqca hissələrə bölən imperialist dövlətlər daima türkün gücünün bir yumruqda birləşməsindən ehtiyat etmişlər . Eyniylə 2020-ci ildə Azərbaycanın haqq savaşında-Vətən müharibəsində olduğu kimi. Şuşa zəfəri son illərdə türkün dünyanın mənəm-mənəm deyən bütün imperialist, separatçı və vandal dövlətlərinə vurduğu sillə idi.

Tarixən dünyada öz igidliyi, vətəninə, xalqına, adət-ənənələrinə sevgi və dəyəri ilə bütün millətlərə örnək olan türklər ən qədim dövrlərdən mükəmməl ədəbi, mədəni irs yaratmışlar. Məsələ də burasındadır ki, irsimiz də,tariximiz də, mədəniyyətimiz də, şəhərlərimiz də və ən nəhayətində ədəbiyyatımız da başıbəlalı olmuş və əsrlərlə təzyiqlərə məruz qalmışdır. Bu baxımdan bir az metaforik səslənsə də, mən türklərin tarixini, türklərin ədəbiyyatını təslim olmayan Şuşaya bənzədirəm. Çox hücumlar oldu, bəzən fəth etmək olsa da, ancaq yenə çiçək açmadı, yağı düşmənlərə boyun əymədi, qucaq açmadı. Bütün türk xalqlarının da ədəbiyyatı bu şəkildə təzyiqlərə, senzuralara, imperializmi vəsf etmək kimi şərtlərə məruz qaldı amma tabe olmadı, ideyasını dəyişmədi türk xalqlarının yaratdığı ədəbiyyat. Daim humanizmi, vətənpərvərliyi, yurd sevgisini, qəhrəmanlığı, sülhü, məhəbbəti təbliğ edərək meydan oxudu "od saçan, qan püskürən kinli krallara, dərəbəklərə" boyundan, soyundan asılı olmayaraq bütün türk ellərinin yaratdığı o möhtəşəm ədəbiyyat.

Müxtəlif boylardan olan ayrı-ayrı türk xalqlarını da birləşdirən bir sıra ümumtürk ideyaları və ədəbi problemlər də olmuşdur. Türklərin tarixində ədəbiyyatın yerini dərk edən bəzi imperialist millətlər bədii ədəbiyyatın türklər üçün ruh yüksəkliyinin əsas qaynağı olmasını yaxşı bilirlər. Bunu nəzərə alaraq bəzi xalqlarda ədəbiyyatın inkişafına ciddi maneələr törətmişlər. Başqırd xalqı və onun ədəbiyyatı da uzun müddət bu cür təcavüzə məruz qaldığından uzun illər inkişafı ləngimişdir. Başqırd şifahi xalq ədəbiyyatının qədim zamanlardan yaranmasına baxmayaraq, yazılı ədəbiyyatda nəsr XIX əsrin II yarısından formalaşmağa başlamışdır. Öz məfkurəsinə bağlı olan türk xalqlarının çoxəsrlik mənəvi irsindən qidalanan başqırd yazılı ədəbiyyatının, eyni zamanda nəsrinin mövzusu da ilkin mərhələdə maarifçilik ideyaları olmuşdur. M. Akmulla, M. Ümetbayev, S. Agiş, A. Vali, Q.Qumər, X. Dövlətşin, M.Qali, R.Bikbayev, Q.Ramazanov, B. Rafiqov, F. Qumərov, X. Tulyakayev və b. başqırd ədəbi fikrini formalaşdıran ilk və aparıcı qüvvələr olmuşlar.

XIX əsrin sonlarında eyni zamanda Rizaəddin bin Fəxrəddin (dini, siyasi, pedaqoji mövzularda), Möhemetşa Buranğolov (başqırd teatrının formalaşmasında müstəsna rolu olmuş, repressiya və ondan sonrakı dövrdə təqib olunmuş ziyalı), Məcid Qafuri (daha çox şair kimi tanınan bu şəxsiyyət yüksək elmi zəkaya malik olmuş və başqırd xalqının milli mədəniyyətinin formalaşması və inkişafı üçün ömrünün sonunadək mübarizə aparmışdır) və b. sənətkarlar başqırd ədəbi, maarifçilik mühitinin formalaşmasında xüsusilə seçilmişlər.

XIX əsrin 60-80-ci illərində Başqırd nəsrində hələ də orta əsrlərdən qalan ənənəvilik hakim idi. Odur ki, istər poeziyada, istərsə də nəsrdə ənənədən doğan realist fikir təbii şəkildə oxuculara çatdırılırdı. Nəsrin bir hissəsini təşkil edən dramaturgiya da eyni dövrdə ədəbiyyatın inkişaf edən bir sahəsi idi. Drammaturgiyada 1898-ci ildə yazılmış müəllifi bəlli olmayan "Azad qız əsir oldu" adlı pyesi xüsusilə qeyd etmək lazımdır.

Maarifçilik ideyaları XIX əsrin ikinci yarısının yazıçı və alimlərinin əsərlərində öz əksini tapmışdır: M. K. Акмолла, M. Уметбаева, M. Bekçurina (Bikchurina, Biksurina) və s. Dini maarifçiliyin özəlliyi sosial problemlərin həlli ilə bağlı idi. Onun fikrincə, mənfi davranışlar zəngin insanlara xasdır.

Məjit Qafuri (1880-1934), Şeyxzadə Babiç (1890-1919), Daut Yultı (1893-1938) cəmiyyətdəki ziddiyyətlərin həllinin əlverişsiz olduğu sosial problemlərin ciddiliyini müəyyən etmişlər.

Başqırd ədəbiyyatında nəsrin publisistika forması da xüsusi şəkildə inkişaf edirdi. Ələlxüsus, publisistik janrlar XVII əsrdən inkişaf etməyə başlamışdı. Bunun əsas səbəbi isə həmin dövrdə bəzi məsələlərlə bağlı başqırdların rus çarlarına ünvanladığı rəsmi məktubların sayının çoxalması idi. Onların arasında

1755-1756-cı illər başqırd üsyanının ideoloqu və başçısı olmuş Batırşanın məktubu publisistik pafosu, ictimai-tarixi məzmunu, sənədli və bədii məzmunu ilə xüsusi seçilirdi.

XX əsrin əvvəllərində (1906) milli tatar Başqırdıstanda, əvvəlcə Orenburqda ("Şura", "Din və meqişət", "Çukeç" jurnalları), sonra isə Ufada ("Tormış" qəzeti, 1913-) peyda oldu. Bir çox başqırd şairləri, nasirləri və dramaturqları öz kitablarını tatar jurnallarında və ölkənin bir çox şəhərlərində çıxan qəzetlərdə, o cümlədən Ufada (Başqırdda dövri mətbuat yox idi), tatar nəşriyyatlarında çap etdirdilər.

ƏDƏBİYYAT

1. Prof.Dr. Saadettin GÖMEÇ. BAŞKURTLARIN TARİHİ, BAŞKURT DESTANLARI VE BUNLARIN ÜZERİNE KISA BİR DEĞERLENDİRME.

2. Хасанов Р.Ф., д.фил.н., профессор кафедры русской и зарубежной филологии Бирского филиала Башкирского государственного университета, г. Бирск;

3. http://adebiportal.kz/upload/iblock/2b7/2b70ff98d35262210b8f9f00fba0af32.pdf

HEYDƏR ƏLIYEV VƏ ŞAMAXININ SOSIAL-IQTISADI,MƏDƏNI INKIŞAFI

HEYDAR ALIYEV AND SOCIAL AND ECONOMIC, CULTURAL DEVELOPMENT OF SHAMAKHI

Zərifə Şamil qızı Cavadova,t.ü.f.d.dosent

ADPU-nun Şamaxı filialı

ORCID ID: 0000-0003-4294-386X

Key words: Azerbaijan, Heydar Aliyev, Shamakhi, social and economic, cultural, development

"Shamakhi has a special place in the history of Azerbaijani culture."

National Leader, Heydar Aliyev

Life, political and state activity of Heydar Aliyev, National Leader with incomparable services in the development of the Azerbaijani people and statehood, architect and founder of our national statehood, have an exceptional place in our history. The period of state-building, economic revival, political consciousness, political life in modern Azerbaijan covering the last forty years is connected with name and concrete work carried out by his practical activity of Heydar Aliyev, a phenomenon known as a political figure and historical personality with deep intellect, encyclopedic knowledge, broad point of view.

The great services rendered by the Great Leader Heydar Aliyev to the state and people of Azerbaijan were immeasurable. With his political skills, abilities and strength, the Great Leader was able to save the country from the threat of civil war, socio-political chaos, and mobilize the native people as a whole.

National Leader of the Azerbaijani people attached great importance to the socio-economic and national cultural development of the regions, including Shamakhi, in order to make the country one of the powerful states. For this purpose, the measures taken by him in connection with our hometown Shamakhi are of great importance and irreplaceable. Thus, as a result of the reforms carried out in Shamakhi, the gross domestic product increased, the economy grew, attention was paid to the social protection of the population, and a lot of work was done in the field of education and culture.

Currently, the policy of socio-economic development founded by the Great Leader is being successfully continued by our honourable President, Ilham Aliyev. As a result of the implementation of the Decrees on approval of the "State Program of socio-economic development of the regions of the Republic of Azerbaijan" signed by President, Ilham Aliyev, the works are also being implemented in Shamakhi o ensure diversification and sustainable development of the economy, cultural progress and further improvement of social services.

Açar sözlər:Azərbaycan, Heydər Əliyev,Şamaxı,sosial-iqtisadi,mədəni,inkişaf

"Şamaxının Azərbaycan mədəniyyəti tarixində xüsusi yeri vardır"

Ümummilli Lider Heydər Əliyev

Azərbaycan xalqının və dövlətçiliyinin inkişafında misilsiz xidmətlıəri olan Ümummilli Lider ,milli dövlətçiliyimizin memarı və qurucusu Heydər Əliyevin həyatı,siyasi və dövlətçilik fəaliyyəti tariximizdə müstəsna yer tutur. Müasir Azərbaycanda dövlət quruculugunun ,iqtisadi dirçəlişin ,siyasi şüurun ,siyasi həyatın son qirx ildən artıq bir dövrünü əhatə edən zaman kəsiyi fenomen siyasi xadim kimi tanınan və dərin zəkaya ,ensklopedik biliyə,geniş dünyagörüşünə malik olan tarixi şəxsiyyətin – Heydər Əliyevin adı,əməli fəaliyyəti ilə ,gerçəkləşdirdiyi konkret işlərlə baglıdır.

Ulu Öndər Heydər Əliyevin Azərbaycan dövləti və xalqı qarşısında göstərdiyi möhtəşəm xidmətləri ölçüyə gəlməzdir. Bu xidmət bütün sahələri əhatə edir.Yaşadıgımız dövr ərzində nəinki

Azərbaycanda,hətta bütün postsovetv məkanında ,eləcə də dünya miqyasında gedən prosesləri Heydər Əliyevin şəxsiyyətindən və fəaliyyətindən kənarda təsəvvür etmək mümkün deyildir. Ulu Öndər özünün siyasi məharəti,bacarığı,gücü ilə ölkəni vətəndaş müharibəsi təhlükəsindən,ictimai-siyasi xaosdan xilas edə ,dogma xalqını vahid tam halında səfərbər edə bilmişdir.

Azərbaycan tarixinin 1969-cu ildən başlanan dövrü Heydər Əliyevin adı ilə sıx baglıdır və tariximizə Heydər Əliyev dövrü kimi daxil olmuşdur.Azərbaycanın müstəqil dövlət quruculuguna aparan yolu da əslində 1969-cu ildən –məhz Ulu Öndərin hakimiyyətə gəlişindən sonra başlanmışdır. Ötən əsrin 70-ci illərində təsərrüfat, sovet və partiya orqanları onun rəhbərliyi altında böyük işlər görmüş,iri miqyaslı layihələr həyata keçirmişlər.

Azərbaycan xalqının milli lideri ölkəni qüdrətli dövlətlər sırasına çıxarmaq üçün regionların,o cümlədən də Şamaxının sosial-iqtisadi ,milli mədəni inkişafına böyük önəm vermişdir. Bu məqsədlə onun dogma şəhərimiz Şamaxı ilə baglı həyata keçirdiyi tədbirlər böyük əhəmiyyət kəsb edir və əvəzedilməzdir.

"Ümummilli Lider Heydər Əliyevin rayona xüsusi diqqəti gözdən yayınmamışdı. Müstəqil Azərbaycanın faktiki yaradıcısı və qurucusu olan Ulu Öndər ölkəyə rəhbərlik etdiyi 1969-82-ci illərdə on dörd dəfə bərəkətli Şamaxı torpagına ayaq basmışdı.Tariximizin unudulmaz səhifələrinə çevrilən ,ata qaygısı kimi dəyərləndirilən səfərlər zamanı əbədiyaşar Heydər Əliyev rayonu bütünlüklə gəzmiş,onların problemlərinin həll olunmasını daimi olaraq nəzərdə saxlamışdı.Əslində müasir Şamaxı məhz onun yüksək qaygısı sayəsində yenidən tikilib qurulmuşdur."[1].

Belə ki, həyata keçirilən islahatlar nəticəsində həm də Şamaxıda ümumi məhsul istehsalı artmış,iqtisadiyyatında yüksəliş yaranmış,əhalinin sosial müdafiəsinə diqqət artmış,təhsil,mədəniyyət sahəsində çox böyük işlər həyata keçirilmişdir. Ölkənin hər yerində oldugu kimi ,Şamaxıda da sosial-iqtisadi sahədə mühüm nailiyyətlər əldə edilmişdir.Ulu Öndərin bu məqsədlə dogma şəhərimiz Şamaxı ilə baglı həyata keçirdiyi tədbirləri,gördüyü işləri sadalamaqla qurtaran deyil.

Ölkəmizin regionlarının inkişafı dövlətimizin iqtisadi siyasətinin prioritet sahələrindın biridir. Bu cəhətdən də dahi rəhbərimiz regionların ,o cümlədən Şamaxı rayonunun da inkişafını daim diqqət mərkəzində saxlamışdır.

Ümummilli Liderimiz Heydər Əliyevin şəhərimizə verdiyi yüksək önəm , dəyər ,onun aşagıdakı bu kəlamında da son dərəcədə müdirikliklə açıqıanmışdır. "Şamaxı Azərbaycanın ən qədim elm və mədəniyyət mərkəzidir. O,Azərbaycanın ictimai fikir tarixində müstəsna rolu olan sənətkarlar yetişdirmişdir."Bununla da qədim mədəniyyət mərkəzi olan Şamaxıya Ümummilli Liderimiz yüksək qiymət vermişdir.

Respublikamızın bütün regionlarına hərtərəfli diqqət və qaygı göstərmiş Ulu Öndərimiz Şamaxının təbiəti,mənəviyyatı,milli ruhu ilə də çox yaxşı tanış olmuşdur. Buna görə də Şamaxının inkişaf tarixində Ulu Öndərin müstəsna xidmətləri olmuşdur.

Dahi rəhbərin Azərbaycana rəhbərliyinin birinci dövründə rayonun sosial-iqtisadi həyatının ugurları, inkişafı istiqamətində mühüm işlər görülmüşdür. Heydər Əliyevin Şamaxıya səfərləri rayonun sosial-iqtisadi,mədəni sahədəki problemlərinin həllində böyük rol oynamışdır. Ulu Öndərin sadə əmək adamları ilə görüşləri,iqtisadiyyatın inkişafı ilə əlaqədar verdiyi göstərişləri daha böyük nailiyyətlıər əldə edilməsinə imkan yaratmışdır.

Ümummilli Liderin Azərbaycana rəhbərlik etməyə başladıgı 1969-cu ildə bütünlüklə Azərbaycan keçmiş SSRİ-də ,demək olar ki, iqtisadiyyatı ən geridə qalmış respublikalardan biri olmuşdur. XX əsrin 60-cı illərində bütün respublikada oldugu kimi Şamaxının iqtisadiyyatı da geridə qalmışdı. O cümlədən rayonun kənd təsərrüfatı, aqrar sahələri bərbad vəziyyətdə olmuşdu. Rayonun taxılçılıq,heyvandarlıq və üzümçülükə məşgul olan kolxoz və sovxozları müəyyən səbəblərdən ziyanla işləmiş,verilən plan və tapşırıqları yerinə yetirə bilməmişdi. Rayonda həmin illərdə üzüm istehsalı da azalmış,böhran vəziyyətinə düşmüşdü. Belə vaxtda istehsalın bütün sahələrində gerilik iqtisadiyyatı iflic halına salmışdı. Həmin dövrün arxiv materialları da bunu bir daha təsdiq edir. "Belə ki,1966-1969-cu illərdə təxminən hər hektardan 5-10 sentner dənli bitkilər,50-100 sentner tərəvəz,25-30 sentner üzüm,10-13 sentner meyvə və s. istehsal olunurdu. Şamaxıda üzümçülük və şərabçılıgın inkişafına əlverişli şərait

olmasına baxmayaraq bu imkandan səmərəli istifadə olunmurdu.Rayonda həmin illərdə vur-tut 25-30 min ton üzüm istehsal edilirdi. İctimai heyvandarlıqda vəziyyət daha acınacaqlı bir şəkil almışdı."[2,11]

Belə bir vaxtda çökmüş iqtisadiyyatın dirçəldilməsi,təsərrüfat sahələrinin inkişaf etdirilməsinə nail olmaq çox çətin idi. Ölkə iqtisqdiyyatında yaranmış durgunlugu aradan qaldırmaq üçün cəsarətli addımlar atnmaq lazım idi. Bütün bunlara baxmayaraq Ulu Öndər Heydər Əliyev hakimiyyətə gəldikdən sonra Azərbaycan ,o cümlədən regionlar,onlardan biri kimi Şamaxı da böyük inkişaf yoluna qədəm qoydu. Respublikada təkcə 1970-82-ci illərdə sənaye istehsalı 2,7 dəfə artmış,on üç il ərzində 101,5 milyard manatlıq məhsul istehsal olunmuşdu. Bu əvvəlki 50 ilin istehsalına bərabər idi. " [3].

Ötən əsrin 70-ci illərindən başlayaraq Dahi rəhbərimizin Şamaxıya olan daim diqqət və qaygısının nəticəsi olaraq iqtisadi,mədəni sahələrdə də irəliləyişlər özünü büruzə vermişdi. Onun şəxsi tapşırıgı və göstərişi ilə 1978-ci il yanvarın 21-də "Şamaxı rayonunun iqtisadiyyatını və mədəniyyətini daha da inkişaf etdirmək tədbirləri haqqında"mühüm dövlət qərarı qəbul edilmişdir.Əslində Şamaxı bu qərardan sonra yenidən tikilib qurulmuş,onun infrastrukturu möhkəmləndirilmiş,iqtisadi və mədəni inkişafı təmin olunmuşdur". Artıq 70-ci illərin əvvəllərində Şamaxının iqtisadi sahədə dirçəlişi nəzərə çarpmaqda idi. Xüsusən də Heydərv Əliyevin təşəbbüsü ilə "Azərbaycan SSR-də üzümçülüyün və şərabçılıgın inkişaf etdirilməsi haqqında 1979-cu ildə qəbul edilən qərardan sonra bütün iqtisadi rayonların ərazisində üzümçülük inkişaf etdirilərək ixtisaslaşdırılmış sahələrdən birinə çevrildi. O cümlədən Şamaxıda da üzümçülükdə,şərabçılıqda istehsal artmışdı. Üzüm plantasiyaları sürətlə genişləndirilməyə ,bagların becərilməsinə qaygının artırılmasına ,rayonda həmin illərdə mövcud kolxozların bazasında 20 ixtisaslaşdırılmış üzümçülük kolxozu yaradılmışdı.

Şamaxı rayonu getsikcə üzümçülük və şərabçılıq sahəsində nəinki respublikada ,eləcə də keçmiş ittifaq səviyyəsində şöhrətlənirdi.1980-cı ildə Şamaxı rayon fəallarının yıgıncagındakı dərin məzmunlu, proqram xarakterli çıxışında Uəu Öndərimiz qeyd etmişdi ki,"Şamaxı həm də üzümçülüyün ən qədim məskənlərindən biridir. Hazırda o respublikada üzümçülüyün inkişafı üzrə mərkəzə çevrilmişdir." Buna görə də1970-82-ci illərdə Şamaxıda 14 yeni şərab emalı zavodu tikilib istifadaəyə verilmişdi. Həmin şərab zavodlarında ildə orta hesabnla 170 min dekalitr şərab,20 min dekalitr konyak istehsal edilirdi. Dəfələrlə də 1980-cı illərdən başlayaraq Şamaxı şərabları dequstasiya sərgisində dəfələrlə qızıl,gümüş medallara və fəxri diplomlara layiq görülmüşdü.

Ümumiyyətlə iqtisadiyyatın ,eləcə də mədəniyyətin bütün sahələırində XX əsrin 70-80-cı illəri böyük yüksəliş və intibah mərhələsi olmuşdur. Keçmiş arxiv materialları və rəqəmləri də bu inkişafı parlaq şəkildə əks etdirir. "Rayon üzrə kapital qoyuluşu 1982-ci ildə 1970-ci ilə nisbətən 14,2 faiz artmışdır. Ümumililkdə Şamaxıda 1982-ci ildə 1970-ci ilə nisbətən taxıl istehsalı 44 faiz,tərəvəz istehsalı 90 faiz,ət istehsalı 19,8 faiz ,süd istehsalı 10,5 faiz ,yun istehsalı 32 faiz,yumurta istehsalı 3,8 faiz çoxalmışdı. Həmin ildə 1969-cu ilə nisbətən Şamaxının üzümçülük təsərrüfatları üzrə məhsul istehsalı dörd dəfədən çox artmışdı. [3]

Ulu Öndərimizin Şamaxı ilə əlaqədar 1978-ci il 21 yanvar tarixli qərarından sonra rayonda 46 təhsil,6 mədəniyyət,8 səhiyyə müəssisələri və yüzlərcə yeni obyektlər tikilib istifadəyə verilmişdir. Həmçinin 70-ci illərdə 80-cı illərin əvvələrində Şamaxıda doqquz mərtəbəli mehmanxana,yag-pendir zavodu, yem zavodu, 5 min yerlik stadion,çörək zavodu, univermaq, avtobaza və s. tikilmişdir.

Ümummilli Liderimizin digər bölgələr kimi Şamaxı rayonu üçün də gördüyü işlər ölçüyə gəlməzdir. Bunlar içərisində Şamaxının Çöl-Göylər kəndinə dəmir yolunun çəkilişinin həyata keçirilməsini də ayrı-ayrı kənd yollarının asvaltlaşdırılması, rayonun işıq, qazla təmin edilməsi işinin yaxşılaşdırılmasını.mədəniyyət ocaqlarının yaradılması,dini abidələrimizin qorunub saxlanması istiqamətində görülən işləri də qeyd etmək olar.

Ulu Öndərimiz bütün bölgələrə,o cümlədən Şamaxıya ,onun iqtisadi və mədəni cəhətdən dirçəldilməsinə təkcə hakimiyyətinin birinci mərhələsində deyil,xalqın təkidli xahişi ilə ikinci dəfə gəlişindən sonra da diqqət və qaygı ilə yanaşmışdı.Onun ikinci dəfə hakimiyyətə qayıdışından əvvəl də ölkəmizdə ,o cümlədən rayonda da mürəkkəb , xaos, özbaşnalıqlar baş alıb gedirdi. Yalnız Ulu Öndərin möhtəşəm qayıdışından sonra ölkənin parçalanmasının qarşısı qətiyyətlı alındı,sabitlik yaradıldı. Yalnız

bundan sonra ölkə ,o cümlədən də rayon iqtisadiyyatı nın dirçəldilməsinə, sosial, mədəni inkişafın sürətli tərəqqisinə nail olmaq mümkün oldu. Respublikada həyata keçirilən islahatlar həm də Şamaxıda da ugurla həyata keçirildi. Dahi rəhbərimizin təşəbbüsü ilə həyata keçirilən aqrar islahatlar nəticəsində kənd təsərrüfatı və digər sahələrdə mühüm nəticələr əldə edildi,cəmiyyət həyatının demək olar ki, bütün sahələrində dönüş yarandı.

Ulu Öndərimizin birinci dəfə hakimiyyətdə oldugu dövrdəki kimi, hakimiyyətinin ikinci mərhələsində də mədəniyyətin ,təhsilin inkişafını vacib bir sahə saymış və bu sahədə də nailiyyətlərin Şamaxıda da yüksəlişinə nail olmunmuşdur. Şamaxı rayonunda da məktəblərin ,uşaq bagçalarının,mədəni maarif müəssisələrinin,kitabxanaların tikintisi, bəzilərinin isə bərpa olunması,rayonda həmin vaxt fəaiyyət göstərən texnikumların və yeganə ali təhsil müəssisəsi olan Azərbaycan Müəllimlər İnstitutunun fəaliyyətinin genişləndirilməsi əhəmiyyətə malik olmuşdur.

Əsası Ulu Öndər tərəfindən qoyulan bu sosial-iqtisadi və mədəni inkişaf siyasəti bu gün Möhtərəm Prezidentimiz İlham Əliyev cənabları tərəfindən ugurla davam etdirilir. İqtisadi yüksəliş,sosial tərəqqi, mədəni intibah son illər qədim Şamaxının tarixi reallıqlarıdır.Ümummilli liderimizin davamçısı cənab Prezidentin diqqət və qaygısı nəticəsində artıq Şamaxı rayonu dinamik inkişaf yoluna çıxmışdır.Regionların sosial-iqtisadi inkişafı Dövlət Proqramında Şamaxı rayonu üzrə nəzərdə tutulmuş bütün tədbirlərin ugurla davam etdirilməsi əsasən təmin edilmişdir.Cənab Prezidentimiz İlham Əliyev qeyd etmişdir ki"Şamaxı dünya miqyasında ən rahat,abad və gözəl təbiətə malik olan şəhərə şevriləcəkdir."[4].Ölkə başçımız İlham Əliyev "Azərbaycan Respublikası regionlarının sosial-iqtisadi inkişafı Dövlət Proqramı "nın təsdiq edilməsi haqqında Fərmanlar imzalamaqla,onun həyata keçirilməsi nəticəsində həm də Şamaxıda da iqtisadiyyatın inkişafının davamlılıgının təmin edilməsi, mədəni tərəqqi və sosial xidmətlərin daha da yaxşılaşdırılması istiqamətində işləri ugurla həyata keçirilməkdədir.

İSTİFADƏ EDİLMİŞ ƏDƏBİYYATLAR

1.Səməd Hüseynoglu."Şamaxının yeniləşən ab-havası".Xalq qəzeti .2mart 2008-ci il,№4.(25814).

2.Heydər Əliyev və Şamaxı.Bakı. Nurlan 2005.(səh 11) 112 səh.

3." Müasir Şamaxı Heydər Əliyev istəklərinin təntənəsidir. "Səs"qəzeti 11 aprel 2008-ci il. №63.(3102).

4.Şamaxı.2003-2013:hədəflər,inkişaf,nəticələr.Bakı2013.

RUSIYANIN AZƏRBAYCAN TORPAQLARINDA ERMƏNI DÖVLƏTI YARATMAQ PLANI (XVIII ƏSRIN II YARISI)

PLAN OF RUSSIA FOR THE ESTABLISHMENT OF ARMENIAN STATE IN AZERBAIJAN (SECONDHALF OF XVIII CENTURY)

Habil İsmiyəli oğlu Həsənov

Tarix üzrə fəlsəfə doktoru,Baş müəllimi

Azərbaycan Dövlət Pedaqoji Universiteti

ÖZET

XVIII əsrin sonlarından başlayaraq Rusiyanın Cənubi Qafqazda yeritdiyi siyasət xristian dövlətinin yaradılmasına yönəlmişdi. Bu məqsədlə xristian xalqlarından, xüsusən də ermənilərdən istifadə edirdilər. Bütün Gürcüstanı II İraklinin hakimiyyəti altında birləşdirərək tarixi Azərbaycan torpaqlarıda erməni dövləti yaratmaq bütün Cənubi Qafqazı zəbt etmək əsas məqsəd hesab olunurdu. Bu sahədəki hərbi-siyasi şərait: Qacarlar dövlətinin zəifliyi, Azərbaycan xanlıqları arasında davamlı çəkişmələr və hərbi uğursuzluqlar Osmanlı Türkiyəsinin Cənubi Qafqaz, Rusiya ilə bağlı planlarının reallaşması üçün əlverişli şərait yaratdı.Rusiyanın işğalçılıq planının əsas tərəfi kimi Cənubi Qafqazda xristian faktorunun gücləndirilməsini xüsusi qeyd etmək lazımdır. Görünür Rusiyanın hakim dairələri Cənubi Qafqazın tamamilə işğal edilməsinin beynəlxalq aləmdə mənfi əks–səda doğuracağından ehtiyat edir və burada Rusiyadan asılı oyuncaq xristian dövlətləri yaratmağı planlaşdırırdılar. Onu da qeyd etmək lazımdır ki, Rusiyanın hakim dairələrində Azərbaycan torpaqları hesabına erməni dövləti yaratmaq planının yaranmasında erməni xadimləri böyük canfəşanlıq göstərmişdilər. Belə ki, yaranmış vəziyyəti öz məkrli planlarını həyata keçirmək üçün çox əlverişli hesab edən erməni siyasətbazları daha da fəallaşmışdılar.

Açar sözlər: xristian dövlətinin yaradılması, Cənubi Qafqaz, Rusiya, Azərbaycan, Gürcüstan

ABSTRACT

Russian policy pursued in the South Caucasus since the end of XVIII century, was aimed at the creation of a Christian state. For this purpose, used the Christian nations, especially the Armenians. Combine all of Georgia Irakli II under the rule and create an Armenian state throught the historical lands of Azerbaijan was considered the main goal the conquest of the entire South Caucasus. Military and political conditions in this area: the weakness of the Gajars state, the constant strife between the Azerbaijani khanates and military failures Ottoman Turkey created favorable conditions for the realiziaton of the plans for the South Caucasus, Russia. It must be noted that the main aspect of Russia's occupation plan was to strengthen Christian factor in South Caucasus. Apparently, Russian authorities bewared that complete occupation of South Caucasus would have negative impact on the international scale and planned to establish proxy christian states dependent on Russia. It should also be mentioned that Armenian figures in Russian ruling circles were trying hard to make a plan of establishing Armenian state at the expense of Azerbaijan lands.Thus, the Armenian politicians, who considered the current situation very favorable for the implementation of their insidious plans, became more active.

Keys word: the creation of a Christian state, the South Caucasus, Russia, Azerbaijan, Georgia.

GİRİŞ

İlham Əliyev

Azərbaycan Respublikasının Prezidenti

Məlumdur ki, XVIII əsrin 70-ci illərinin sonlarından başlayaraq Rusiyanın Qafqaz siyasətində kəskin dəyişikliklər baş verdi. 1774-cü ildə Kiçik Qaynarca sülhü imzalandı. Rusiya ilk dəfə olaraq qalib dövlət kimi Qara dənizdə ticarət donanması saxlamaq hüququ ilə bərabər erməni və gürcü məsələsində Türkiyənin daxili işlərinə qarışmaq imkanı qazandı. Bundan əlavə Cənubi Qafqaz və Xəzər dənizi hövzəsində gedən proseslərə fəal müdaxilə etməyə başladı.

Rus diplomatiyası özünün bu bölgədə yeritdiyi siyasətdə xristian təəssübkeşliyi, xristian həmrəyliyi kimi vasitələrdən geniş istifadə edirdi. Hələ 1722-ci ildə I Pyotr bədbəxt ermənilərə və gürcülərə zalım müsəlmanlara qarşı mübarizədə yardım göstərmək bəhanəsilə Cənubi Qafqaza qoşun yeritmişdi. (1.s.12). I Pyotrun bu siyasətini davam etdirən II Yekaterina hökuməti də Cənubi Qafqazın xristian əhalisindən, ilk növbədə isə ermənilərdən öz məqsədlərinə çatmaq üçün məharətlə istifadə edirdi. Bütün Gürcüstanı Kartli-Kaxetiya çarı II İraklinin hakimiyyəti altında birləşdirərək gücləndirmək və tarixi Azərbaycan torpaqları hesabına erməni çarlığı yaratmaq son məqsədə-bütün Cənubi Qafqaza sahib olmaq Rusiyanın əsas amalı idi. Öyrənilən dövrdə bölgədə yaranmış hərbi-siyasi şərait, ilk növbədə İran dövlətinin zəifliyi, Azərbaycan xanlıqları arasında davam edən çəkişmələr və Osmanlı Türkiyəsinin hərbi uğursuzluqları Rusiyanın Cənubi Qafqaza, və Türkiyəyə dair planlarının həyata keçirilməsi üçün əlverişli şərait yaradırdı.

Əlimizdə olan mənbələrlə yaxından tanışlıq göstərir ki, bu dövrdə II Yekaterina hökuməti çox geniş işğalçılıq planları hazırlamışdı. Bu planların arasında "Yunan layihəsi" adı altında Osmanlı Türkiyəsinə qarşı yönəlmiş plan xüsusi yer tuturdu. Çar Rusiyasının Qafqaza dair də xüsusi planı var idi. Bu dövrdə bu planı həyata keçirmək üçün erməni siyasətbazları daha da fəallaşdılar. Movses Safarov, İvan Lazarev və İosif Arqutinski kimi erməni xadimləri yazıq, başıbəlalı erməni milləti haqqında bütün dünyaya car çəkir, erməni çarlığı yaradılması üçün Qərbi Avropanın aparıcı dövlətlərindən və Rusiyadan kömək göstərilməsini xahiş edirdilər. XVIII əsrin ikinci yarısında erməni çarlığı yaratmaq ideyasında iki mərhələ özünü aydın şəkildə göstərirdi. Birinci mərhələ əsrin 50-60-ci illərini əhatə edir. Bu mərhələdə İosif Emin adlı erməni ideoloqu xüsusilə canfəşanlıq göstərmişdi. O, ermənilərin görünür hələ müstəqil dövlət yaratmağa və onu idarə etməyə qadir olmadıqlarını başa düşdüyündən, Cənubi Qafqazda vahid erməni-gürcü dövləti yaratmaq planını irəli sürmüşdü (3, s. 41). Bu planı gerçəkləşdirmək üçün İngiltərədən fərqli olaraq Rusiyanın hakim dairələri İosif Eminin 1761-ci ildə etdiyi müraciəti rəğbətlə qarşıladı. Osmanlı Türkiyəsinə qarşı müharibə və təxribatlarda erməni faktorundan istifadə etmək məqsəd idi. Bununla belə, bu planın həyata keçirilməsi həm də Kartli-Kaxetiya çarı II İraklidən aslı idi. Həmin dövrdə Osmanlı Türkiyəsi ilə münasibətləri kəskinləşdirməkdən ehtiyat edən II İrakli isə bu planı qəbul etməkdən imtina etdi (2, s.112; 3,s.116).

Rusiyanın Azərbaycan və Türkiyə torpaqlarında erməni dövləti yaratmaq planlarının ikinci mərhələsi 1768-ci ildən sonrakı dövrü əhatə edir. Türkiyə ilə müharibədən qalib çıxan Rusiya, Cənubi Qafqazda və Xəzər dənizi hövzəsində öz mövqelərini möhkəmləndirmək üçün daha fəal siyasət yeritməyə başladı. Çar hökuməti bu siyasəti həyata keçirərkən hərbi-siyasi metodlarla yanaşı xristian faktorundan da geniş istifadə edir, işğalçılıq məqsədlərini "məzlum ermənilər müdafiə etmək" şüarı ilə pərdələyirdi. Bu baxımdan Rusiyanın Qafqaz siyasətində əsas məqsədlərindən biri tarixi Azərbaycan torpaqları hesabına erməni dövlət yaratmaqdan ibarət idi.

Rusiyanın hakimiyyət orqanlarına çatdırılan məlumatlarda ermənilər Qarabağı erməni torpağı, burada yaşayan əhalini isə erməni kimi qələmə verirdilər, Onlar hər vasitə ilə Rusiyanı Cənubi Qafqaza ordu yeritməyə şirnikləndirir, nəinki Qarabağı, eləcə də Dərbənd, Şamaxı və Gəncəni də işğal etməyin mümkünlüyünü onlara inandırmağa çalışırdılar. Cənubi Qafqaza dair onsuz da böyük işğalçılıq planları olan Rusiyanın hakim dairələri ermənilərin bu təkliflərini rəğbətlə qarşılayırdılar. Ermənilərlə daha çox təmasda olan A.V.Suvorov onlara bildirmişdi ki, Rusiya hökuməti bu planların gerçəkləşdirilməsi üçün əlindən gələni əsirgəməyəcək (4, s.52).

Ermənilər rus ordusunun 1782-ci ilə nəzərdə tutulan yürüşünə daha böyük ümidlər bəsləyir və erməni dövlətinin yaradılmasını artıq yaxın gələcəyin işi hesab edirdilər. Onlar hətta bir qədər qabağa gedərək gələcəkdə bu dövlətin təhlükəsizliyinin təmin edilməsinin qayğısına da qalırdılar. İ.Arqutinski bu məqsədlə yeni yaradılacaq erməni dövləti ilə Rusiya arasında müqavilə layihəsi də hazırlamışdı. (5, s.47-48).

Rusiya hökuməti planlaşdırılan yürüş zamanı Cənubi Qafqazda yerinə yetirməli olan dəyişiklikləri getdikcə dəqiqləşdirdi. Yürüşün uğurla nəticələnməsi üçün rus komandanlığı Xəzər dənizinə yiyələnməyi və Cənubi Qafqazın xristian əhalisi ilə ittifaq yaratmağı öz qarşısına birinci dərəcəli vəzifə kimi qoyurdu. Bölgədə nəzərdə tutulan dəyişikliyin əsas məzmununu isə burada erməni dövlətinin yaradılması təşkil edirdi. Rusiyanın Qafqaz siyasətinin əsas müəlliflərindən olan Q.A.Potyomkinin müxtəlif vəzifəli şəxslərlə apardığı yazışmalarında bu dəyişikliklərin həyata keçirilməsi yolları və nəticələri haqqında müəyyən təsəvvür əldə etmək mümkündür. Q.A.Potyomkin Bezborotkaya yazdığı məktubunda göstərirdi ki, Rusiya hökumətinin Qafqaz siyasətində əsas məqsədi Bakıya qədər olan Xəzərsahili əraziləri ələ keçirmək, Qarabağ və Qaradağ xanlıqlarının torpaqları hesabına erməni dövləti yaratmaqdır. (5, s.68) Sonuncu məsələ Q.A.Potyomkinin öz qohumu, Qafqazdakı rus ordusunun baş komandanı P.S.Potyomkinə göndərdiyi məxfi sərəncamda daha aydın şəkildə ifadə olunmuşdur. O, yazırdı ki, qarabağlı İbrahimxəlil xanı təxirəsalınmadan devirmək lazımdır ki, onun torpaqlarında "erməni vilayəti" təşkil edilsin. (6, v.8) Potyomkinin fikrincə Qarabağda Rusiyanın himayəsi altında erməni dövlətinin yaradılması digər yerlərdən ermənilərin buraya kütləvi axınına səbəb olacaqdır. (7,II h,s.142).

Bundan əlavə Q.A.Potyomkinin II Yekaterinaya ünvanladığı raportunda İran hakimi Əlimurad xanın şah kimi tanınacağı təqdirdə Azərbaycan torpaqlarını güzəştə gedəcəyi bildirilirdi. O, bu təklifdən istifadə etməyi, onun güzəştə gedəcəyi ərazilərdə xristian dövlətləri yaratmağı tövsiyyə edirdi. O, həmin raportunda yazırdı: "Bundan böyük xeyir götürmək, erməni diyarını və Albaniyanı təşkil etməli olan hissəni dincliklə qurmaq olar" (6, v.63-64). Rusiyanın hakim dairələri arasında gedən yazışmalardan aydın olur ki, onlar Əlimurad xanın güzəştə gedəcəyi Azərbaycan torpaqlarında iki xristian-erməni dövləti yaratmağı planlaşdırırdılar. Rus diplomatlarından biri bu münasibətlə yazırdı: "İndi İran işləri özünün ən münasib həllinə yaxınlaşır. Müstəqil erməni vilayətinin birini II İraklinin çarlığının sərhəddi yaxınlığında, digərini isə Xəzər dənizi sahillərində, İranla sərhəddə yaratmaq lazımdır" (2, s.175). Bu dövlətlərdən birini "Ermənistan", digərini isən "Albaniya" adı altında yaratmaq nəzərdə tutulurdu.

Mənbələrin təhlili göstərir ki, Rusiyanın hakim dairələrində Azərbaycan torpaqlarında yaradılması nəzərdə tutulan "erməni çarlığı" nın sərhədləri təxminən Dərbənddən Gilana qədər uzanan Xəzərsahili torpaqları əhatə etməli idi. Yeni yaradılacaq "alban çarlığı" ancaq Kür çayından Gilana qədərki Xəzərsahili torpaqları əhatə etməli idi. Kürdən şimaldakı torpaqlar, daha doğrusu Dərbənddən Bakıya qədərki ərazilər bilavasitə Rusiya imperiyasının tərkibinə qatılmalı idi.

Göründüyü kimi, Rusiyanın hakim dairələri Əlimurad xanın təkliflərinin reallaşmasından ciddi nəticələr gözləyirdi. Çar hökuməti Əlimurad xanın köməyilə Osmanlı dövlətini zəiflətmək, Cənubi Qafqaz məsələsini birdəfəlik öz xeyrinə həll etmək və rus tacirləri üçün İranda əlverişli şəraitin yaradılmasına nail olmaq istəyirdi. Rusiyanın bu planları İngiltərə və Fransa dövlətlərini çox narahat edirdi. Fransa, diplomatı Ferryer-Sovbefi 1784-cü ilin martında İrana göndərdi. Onun qarşısına qoyulan məqsəd Əlimurad xanı Rusiya ilə ittifaqdan və ona ərazi güzəştləri etməkdən çəkindirmək idi.

Fransız diplomatının apardığı bu danışıqlar Azərbaycan torpaqlarını öz aralarında bölüşdürməyə çalışan Rusiya ilə İran arasında gedən danışıqlara ciddi təsir göstərdi. Əlimurad xan özünün Rusiya ilə danışıq aparan nümayəndələrinə ərazi güzəştləri haqqında əvvəllər verilmiş vədlərdən imtina etmək haqqında tapşırıq verdi. Bununla da Rusiyanın Azərbaycan torpaqlarını ələ keçirərək burada erməni dövləti yaratmaq üçün nail olmağa çalışdığı hüquqi əsas onun əlindən alındı.

İSTİFADƏ EDİLMİŞ ƏDƏBİYYAT SİYAHISI

1. Dəlili H.A.Urmiyə xanlığının tarixi oçerki (XVIII əsrin II yarısı-XIX əsrin 30-cu illərində). Namizədlik dissertasiyası. Bakı, 1967. Azərb. MEA Tİ EA

2. Nəcəfli G. XVIII əsrdə Azərbaycan ərazisində erməni dövləti yaradılması cəhdləri. Bakı, "Nurlan", 2007

3. Kurat A.N. Türkiye ve Rusiya: XVIII yüzil sonundan kurtuluş savaşlarına kadar Türk-Rus ilişkileri (1798-1919). Ankara, A.İ.Basımevi, 1970

4. Нерсисян М.Г.Из истории армяно-русских отношений, кн. I, Ереван, Издво Ан Арм. ССР, 1956

5. Иоаннисян А.Р. Иосиф Эмин . Ереван. Изд. АН Арм. ССР, 1989.

6. РГВИА, ф.52,оп. 2/203, д.90 .

7. Бутков П.Г. Материалы для новой истории Кавказа с 1722 по 1803 г. т. 11-111. СПб., 1869, т.Н, 601 5., т.Ш, 620 с.

MÜASIR AZƏRBAYCANQADININ SOSIAL VƏ IŞGÜZAR STATUSUNA DÖVLƏT QAYĞISI

STATE CARE FOR THE SOCIAL AND BUSINESS STATUS OF MODERN AZERBAIJANI WOMEN

Samirə Nail Qızı Ramazanova

Azərbaycan Dövlət Pedaqoji Universitetinin baş müəllimi

AMEA-nın "Arxeologiya və Etnoqrafiya İnstitutunun" dissertantı

ÖZET

Uzun illər, əsrlər keçməsinə baxmayaraq, Azərbaycan qadınlarının həyatı və fəaliyyəti yeni nəsillər üçün nümunəyə çevrilmişdir. Azərbaycan qadınları Şərqin ilk demokratik respublikası olan Azərbaycan Xalq Cümhuriyyəti dövründə seçib-seçilmək hüququ qazanaraq ölkəmizin ictimai-siyasi həyatında yaxından iştirak etməyə başlamışlar.Sürətlə maariflənən qadınlarımız yüz illərdən bəri formalaşmış milli dəyərlərə sadiq qalmaqla ana dilimizin, mədəniyyətimizin və mənəviyyatımızın ən etibarlı dayağı olmuşlar. Dövlət müstəqilliyimizin bərpasından sonra Azərbaycan qadını milli dövlət quruculuğu prosesinin fəal iştirakçısına çevrilmiş, ölkəmizin sosial-iqtisadi və mədəni potensialının artırılması üçün dəyərli töhfələr vermişdir.

Azərbaycanın öz dövlət müstəqilliyini bərpa etməsindən sonra isə qadınlar öz ictimai statusları ilə daha mütərəqqi dəyərlər qazanmış oldu və hər sahədə olduğu kimi gender bərabərliyi yolunda da bir çox addımlar atıldı.Xüsusilə də, Ulu öndər Heydər Əliyevin hakimiyyətə qayıdışından sonra qadının cəmiyyətdəki fəallığının artırılması yönündə ciddi addımlar atılması qadın hərəkatına dövlət qayğısının bir təzahürü idi.Məhz bu istiqamətdə də Ümummilli liderin siyasətini layiqli səviyyədə davam etdirən Ölkə başçısı cənab İlham Əliyev gender siyasətinin tələblərinə uyğun olaraq Azərbaycanda qadınlarla kişilərin hüquq bərabərliyinin təmin olunması və bütün dövlət strukturlarında onların dövlət idarəçiliyində rolunun artırılması istiqamətinə böyük önəm verir.Eləcə də, Azərbaycanda yeni qadın hərəkatının formalaşmasında və təbliğində Heydər Əliyev Fondunun prezidenti, YUNESKO və İSESKO-nun xoşməramlı səfiri, Milli Məclisin deputatı, Azərbaycanın birinci vitse-prezidenti Mehriban Əliyevanın xidmətləri əvəzsizdir.

Açar sözlər: Azərbaycan qadını, ailə, cəmiyyət, Mehriban Əliyeva, qadın siyasəti

ABSTRACT

Despite the passing of many years and centuries, life and activities of Azerbaijani women have become an example for new generations.Azerbaijan women gained the election right during the Azerbaijan Democratic Republic- the first democratic republic in the East, and began to take an active part in social-political life of our country. Our educated women have remained faithful to the hundred-year-long national values and have become a reliable support of our native language, culture and spirituality.After the restoration of our state independence, Azerbaijan women became active participants in the nation-buildingprocess, made valuable contributions to increasing the social-economic and cultural potential of our country.

After Azerbaijan restored its independence, women gained more progressive values with their social status, and many steps were taken towards gender equality, as in all spheres.In particular, after the return of the great leader Heydar Aliyev to power, serious steps were taken to increase the activity of women in society, which were a manifestation of the state's care for the women's movement.President Ilham Aliyev continuesthe nation-wide leader's policy in this directionat a decent level and attaches great importance to ensuring equal rights for women and men in Azerbaijan in accordance with the requirements of gender policy and increasing their role in public administration in all government

agencies.The services of Mehriban Aliyeva, President of the Heydar Aliyev Foundation, Goodwill Ambassador of UNESCO and ISESCO, Member of the Milli Majlis, First Vice-President of Azerbaijan in the formation and promotion of the new women movement in Azerbaijanare invaluable.

Key words: Azerbaijan woman, family, society, Mehribal Aliyeva, women policy

GİRİŞ

Bəşər sivilizasiyasının inkişaf edərək müasir səviyyəyə çatmasında kişilərlə bərabər, qadınların da müstəsna rolu olduğuna heç bir şübhə yeri qoymur. İnsan həyatının elə bir fəaliyyət sahəsi yoxdur ki, orada qadınların iştirakı olmadan uğur qazanılmış olsun. Bu ayrı bir məsələ ki, tarixin müxtəlif inkişaf mərhələlərində cəmiyyətin ictimai-sosial və mədəni-siyasi həyatındakı rolu baxımından qadınların statusu fərqli olmuşdur. Qadının statusu məsələsinə münasibət, heç şübhəsiz ayrı-ayrı dövrlərdəki təbii, tarixi, ictimai şəraitdən, insanların dünyagörüşündən, ailə strukturundan və s. asılı olaraq müxtəlif olmuşdur.

Azərbaycanın öz dövlət müstəqilliyini bərpa etməsindən sonra qadınlar öz ictimai statusları ilə daha mütərəqqi dəyərlər qazanmış oldu. Xüsusilə də, Heydər Əliyevin hakimiyyətə qayıdışından sonra qadının cəmiyyətdəki fəallığının artırılması yönündə ciddi addımlar atılması qadın hərəkatına dövlət qayğısının bir təzahürü idi. Qadınların ictimai-siyasi fəallığı mövcud tarixi ənənələrlə yanaşı, Azərbaycanda həyata keçirilən gender siyasətinin mahiyyətin aşkarcasına ortaya qoyurdu.

Bəşəriyyətin ilk tərbiyəçisi və ailənin fədakar qoruyucusu olan qadın Azərbaycan xalqının da simasını müəyyənləşdirdən əsas meyarlardandır. Təsadüfi deyildir ki, Azərbaycan Respublikasının 1995-ci ildə qəbul olunmuş ilk Konstitusiyası qadınların kişilərlə bərabər hüququnu təsdiq etmiş və demokratik dövlət quruculuğu prosesində onların fəal iştirakının hüquqi bazasını yaratmışdır. Bunun sayəsində cəmiyyətdəki demokratikləşmə proseslərində fəal istifadə edərək yeni dövrün tələblərinə uyğun öz təşkilatlarını yaratmış Azərbaycan qadınlarının səsi mötəbər beynəlxalq kürsülərdən gəlir.

Birləşmiş Millətlər Təşkilatının "Qadınlara münasibətdə ayrı-seçkiliyin bütün formalarının ləğv olunması haqqında" konvensiyasına (30 iyun 1995-ci il) qoşulduqdan sonra Azərbaycan Respublikasında qadınların ictimai və siyasi fəallığı daha da artmışdır. Heydər Əliyev tərəfindən imzalanan 14 yanvar 1998-ci il tarixli Fərmanla "Qadın Problemləri üzrə Dövlət Komitəsi"nin yaradılması isə qadınların hüquqlarının qorunması və ölkəmizin sosial-siyasi həyatında onların iştirakının artırılması baxımından yeni üfüqlər açdı. Qadınların ictimai-siyasi fəallığı məsələsini daim diqqətdə saxlayan Heydər Əliyev prosesin dinamikasını nəzərə alaraq və qadınların kişilərlə hüquq bərabərliyini, xüsusilə onların dövlət idarəçiliyi sistemində lazımi səviyyədə təmsil olunmasını əməli surətdə təmin etmək məqsədilə "Azərbaycan Respublikasında dövlət qadın siyasətinin həyata keçirilməsi haqqında" 6 mart 2000-ci il tarixli Fərman imzaladı. Fərmanda Azərbaycan Respublikasının bütün dövlət qurumlarında fəaliyyət növü nəzərə alınmaqla qadınların rəhbərlik səviyyəsində kişilərlə bərabər təmsil olunmasının təminatı ayrıca yer alırdı. 2000-ci ildə həmçinin Azərbaycan Respublikasının Qadın Problemləri üzrə Milli Fəaliyyət Planı (2000-2005-ci illər) təsdiq edildi. Milli Fəaliyyət Planında dövlət tərəfindən qadın probleminə daim diqqət yetirilməsi, qadın problemləri ilə bağlı təxirəsalınmaz konkret tədbirlərin həyata keçirilməsi, dövlət proqramlarının hazırlanması öz əksini tapdı.

Sonrakı illərdə Azərbaycan Respublikası "Qadınların siyasi hüquqları", "Qadınlara qarşı ayrı-seçkiliyin bütün formalarının ləğv olunması haqqında", "Nikaha daxil olma, nikaha daxil olmaq üçün minimal yaş həddi, nikahların qeydə alınması haqqında" beynəlxalq konvensiyalara qoşuldu. 2001-ci ildən isə Avropa Şurasının tamhüquqlu üzvü olan Azərbaycan Respublikası təşkilat çərçivəsində qadınların vəziyyətinin yaxşılaşdırılması ilə məşğul olan qurumlarla fəal əməkdaşlıq münasibətlərini genişləndirdi (1).

Dövlət qadın siyasəti sahəsindəki praktik fəaliyyətləri həmişə diqqət mərkəzində saxlayan Prezident İlham Əliyev isə digər sahələrdə olduğu kimi gender siyasətinin reallaşdırılmasına da prioritetlər səviyyəsində yanaşmışdır. Qadınların statusu ilə bağlı işlərin daha mütəşəkkil və intensiv şəkildə aparılması üçün Prezident İlham Əliyev 2006-cı ildə "Ailə, Qadın və Uşaq Problemləri üzrə Dövlət

Komitəsi"nin yaradılmasına qərar vermişdir ki, bu komitə qadın siyasəti sahəsində səmərəli fəaliyyətlərə rəvac verməsi baxımından bu gün də məqsədyönlü işlərin icrasını həyata keçirməkdədir. İlham Əliyev respublikamızın qazandığı uğurlarda qadınların rolunu həmişə yüksək qiymətləndirmişdir: "Ötən XX əsrdə qadın hüquqlarının qazanılması yolunda misilsiz uğurlar əldə etmiş Azərbaycan qadını bu gün artıq ölkəmizin ictimai-siyasi, iqtisadi, mədəni həyatının fəal iştirakçısıdır. O, taleyüklü milli məsələlərin həllinə sanballı töhfələr verir. Dövlət quruculuğunda onun yüksək ehtirama layiq mövqeyi bu bayramı müstəqillik ideyası ətrafında sıx birləşən xalqımızın və cəmiyyətimizin bayramına çevirmişdir. Elm, təhsil, mədəniyyət, səhiyyə və digər sahələrdə qazandığı nailiyyətlər Azərbaycan qadınının çox böyük potensiala malik olduğunu təsdiq edir. Ümidvaram ki, qadınlarımız xalqa və cəmiyyətə layiqli övladlar yetişdirmək naminə bundan sonra da var qüvvələrini sərf edəcək, gənc nəslin Vətənə, torpağa məhəbbət, milli dövlətçiliyə və azərbaycançılıq məfkurəsinə sədaqət ruhunda tərbiyəsinə xüsusi diqqət yetirəcəklər" (2, s.82).

Məhz belə bir siyasət nəticəsində, gender siyasətinin tələblərinə uyğun olaraq Azərbaycanda qadınlarla kişilərin hüquq bərabərliyi təmin olunması və bütün dövlət strukturlarında qadınların dövlət idarəçiliyində rolunun artırılması istiqamətində ciddi addımlar atılır. Azərbaycan Respublikası Prezidentinin qanunvericilik təşəbbüsü əsasında 2006-cı ilin dekabrında Milli Məclisdə qəbul olunmuş "Gender (kişi və qadınların) bərabərliyinin təminatları haqqında" Azərbaycan Respublikasının Qanunu bu baxımdan xüsusi əhəmiyyət kəsb edir. Gender balansının qorunması ilə bağlı hüquqi tənzimləmə mexanizminin əks olunduğu bu qanunun əsas məqsədi kişi və qadınlar üçün ictimai həyatın siyasi, iqtisadi, sosial, mədəni və digər sahələrində bərabər imkanların təmin edilməsi və cinsi mənsubiyyətə görə ayrı-seçkiliyin bütün formalarının aradan qaldırılmasıdır. Qanunun tələblərinin hərtərəfli həyata keçirilməsi və gender bərabərliyinin təmin olunması ilə bağlı müddəalar Azərbaycan Respublikasının Ailə və Əmək məcəllələrində də təsbit olunmuşdur.

"Məişət zorakılığının qarşısının alınması haqqında" Azərbaycan Respublikasının Qanunu isə qadınların şərəf və ləyaqətlərinə hörmət bəsləmək məqsədi daşıyır, məişət zorakılığı hallarının qarşısının alınması kimi geniş və əhatəli müddəaları, zorakılıq qurbanları üçün sığınacaqlar, məsləhət xidmətləri, reabilitasiya, cinayətkarların cəzalandırılması və s. də daxil olmaqla müdafiə tədbirlərini özündə ehtiva edir.

Ümumiyyətlə isə, cinsi mənsubiyyətə görə ayrı-seçkiliyin bütün formalarının aradan qaldırılması, kişilərlə qadınlara bərabər imkanlar yaradılması, dövlətin idarə olunmasında və qərarlar qəbul edilməsində bir cinsin nümayəndələrinin üstünlüyünə yol verilməməsi, məişət zorakılığının qarşısının alınması, insan alverinə qarşı mübarizə, qadınların ictimai həyatda, xüsusilə qərar qəbul etməklə bağlı sahələrdə rolunun artması, qadınların ailədə hüquqlarının, o cümlədən analıqla bağlı hüquqlarının təmin olunması, çoxuşaqlı, əlil, məcburi köçkün və s. qadınların sosial müdafiəsinin həyata keçirilməsi və s. Azərbaycanda gender bərabərliyinin təmin edilməsi sahəsində dövlət qadın siyasətinin əsas istiqamətlərini təşkil edir.

Dövlət qadın siyasətinin nəticələrini – "Azərbaycan qadını ölkəmizdə sülhün və əmin-amanlığın qorunub saxlanması naminə əzmkarlıq göstərir, vətəndaş həmrəyliyi və dövlətçiliyimizin daha da gücləndirilməsi, milli-mənəvi dəyərlərin daim yaşadılması və mədəniyyətimizin inkişaf etdirilməsi üçün var qüvvəsini səfərbər edir" (2, s.22) – şəklində ifadə edən Prezident İlham Əliyevə bu siyasətin reallaşdırılmasında, ümumilikdə isə XXI əsr Azərbaycan qadın hərəkatının formalaşması və zirvələrə yüksəldilməsində dəstək olan Heydər Əliyev Fondunun prezidenti, YUNESKO və İSESKO-nun xoşməramlı səfiri, Milli Məclisin deputatı, Azərbaycanın birinci vitse-prezidenti Mehriban Əliyevanın xidmətləri xüsusi vurğulanmalıdır. Cəmiyyəti mənəvi aşınmaya məruz qoyan, milli dəyərləri ucuzlaşdıran mənfi meyllərə qarşı barışmaz mövqeyi ilə xalqın dərin rəğbətini qazanmış Mehriban xanım daim ümumbəşəri mahiyyətli fəaliyyəti ilə beynəlxalq ictimaiyyətin də diqqət mərkəzindədir.

Mehriban Əliyeva öz intellektual enerjisini cəmiyyətin inkişafına yönəltməklə Azərbaycan qadınının ictimai fəaliyyətinin yeni səhifəsini açmışdır. O, Azərbaycan mədəni irsini YUNESKO və İSESKO kimi mötəbər beynəlxalq təşkilatların xətti ilə dünya miqyasında təbliğ etmişdir. Xüsusilə də gənclərin "dünya bədii mədəniyyətinə marağının artdığı dövrdə, Mehriban xanım Əliyeva öz fəaliyyətində dünyanın mədəni irsinə, mədəniyyət şedevrlərinə böyük diqqət yetirir" (3, s.9).

Həm ictimai-siyasi fəaliyyəti, həm də elmi-mədəni yaradıcılığı ilə Azərbaycan qadınlarına bir örnək olan Mehriban Əliyevanın müasir Azərbaycan qadın hərəkatının lideri kimi dövlətimizin tərəqqisi naminə geniş fəaliyyətində ənənəviliklə müasirlik, tarixi köklərə bağlılıqla dünyəvilik əsas prinsiplərdəndir. Qadının ailədəki rolu və ailəyə münasibətinə dair Mehriban Əliyeva bu fikirdədir ki, hər bir qadın üçün onun ailəsi, onun uşaqları həyatının ən vacib, ən mühüm hissəsidir. O, eyni zamanda qadını ailədə sülhün, razılığın və məhəbbətin təminatçısı hesab edir: "Hər şey bu və ya digər insanın öz vəzifələrinə nə dərəcədə ciddi yanaşmasından asılıdır. Aydın şəkildə dərk etmək lazımdır ki, müəyyən anda sən fərdi şəxsdən ictimai şəxsiyyətə çevrilirsən. Sən artıq təkcə özünü və ya öz ailəni yox, öz ölkəni təmsil edirsən. Bu barədə özünə hesabat verməli, sözlərində, qərarlarında, hərəkətlərində daha təmkinli olmalısan. Bu, çox məsuliyyətli yükdür..." (4)

Azərbaycan xanımına xas olan bütün nəcib xüsusiyyətləri özündə əks etdirən Mehriban Əliyevanın səyləri nəticəsində bu gün Azərbaycanda qadın hərəkatı keyfiyyətcə yeni səviyyəyə yüksəlmiş, ölkəmizin siyasi sistemində güclü "Birinci Xanım" institutu formalaşmışdır. "Onun maddi və qeyri-maddi irsimizin qorunması, Azərbaycan gerçəkliklərinin, Dağlıq Qarabağ münaqişəsi haqqında həqiqətlərin dünya ictimaiyyətinə çatdırılması, xeyriyyəçilik və humanitar təşəbbüslərin irəli sürülməsi kimi çoxşaxəli fəaliyyət dairəsi Azərbaycan xanımının tükənməz gücünü nümayiş etdirir" (5). Bütün bunlar müasir Azərbaycan xanımının öz tarixi missiyasını ləyaqətlə davam etdirdiyini, milli-mənəvi dəyərlərimizin keşiyində cəsarətlə durduğunu göstərir.

ƏDƏBİYYAT

1. Rəcəbli Hadi. Azərbaycan qadını cəmiyyətdə layiqincə təmsil olunur. "Azərbaycan" qəzeti, 08 mart 2015-ci il.

2. Prezident İlham Əliyev və mədəniyyət. 2 cilddə (II cild), Bakı: "İdeal-Print", 2008, 568 s.

3. Mədəniyyətimizin və mədəni incilərimizin hamisi. Heydər Əliyev Fondunun və Azərbaycan Mədəniyyətinin Dostları Fondunun prezidenti, YUNESKO və İSESKO-nun xoşməramlı səfiri, Milli Məclisin deputatı, Azərbaycanın birinci xanımı Mehriban Əliyevanın mədəniyyət sahəsində fəaliyyəti (Tərtibçi və elmi redaktor: Sevda Məmmədəliyeva). Bakı, "Nurlar" Nəşriyyat-Poliqrafiya Mərkəzi, 2007, 424 s.

4. Hüseynova Hicran. Mehriban xanım Əliyeva müasir Azərbaycan qadın hərəkatının lideri kimi dövlətimizin tərəqqisi naminə geniş fəaliyyət göstərir. 24 avqust 2015-ci il. http://www.yap.org.az/az/view/interview/190/mehriban-xanim-eliyeva-muasir-azerbaycan-qadin-herekatinin-lideri-kimi-dovletimizin-tereqqisi-namine-genish-fealiyyet-gosterir

5. Feyziyev Cavanşir. Müasir Azərbaycan qadının real obrazı: Mehriban Əliyeva. 26 avqust 2016. "Xalq qəzeti", 26 avqust 2016-cı il.

QADINLIĞIN VƏ QADIN İSMƏTİNİN SİMVOLU – KƏLAĞAYI

SYMBOL OF WOMEN AND WOMEN'S NAME - KALAGAI

AYNUR AFƏT qızı QAFARLI

Azərbaycan Dövlət Pedaqoji Universitetinin

"Türk araşdırmaları" bölməsinin kiçik elmi işçisi

Kəlağayı milli geyimlərimizi tamamlayan baş örtüyü kimi əsrlərdən-əsrlərə, nəsillərdən-nəsillərə keçərək günümüzə qədər gəlib çatmışdır. Hal-hazırda da qadınlarımız müxtəlif rəngli, haşiyəli, nazik ipək sapdan toxunmuş dördkünc formalı baş örtüyünü öz üzərilərində sevgi ilə daşıyırlar. Təbriz, Gəncə, Şamaxı, Şəki, Naxçıvan şəhərlərində ta qədimdən yüksək keyfiyyətli kəlağayılar istehsal olunurdu. Tədqiqatlar göstərir ki, Şəkidə ipəkçiliyin tarixi hələ miladdan əvvəlki dövrlərə təsadüf edir. Şəki uzun illər Azərbaycanda, eləcə də Qafqazda ipəkçiliyin mərkəzi olmuşdur. XIX əsrdə dünyada ən böyük ipəksarıma fabriki məhz Şəkidə fəaliyyət göstərmişdi. Şəki ipəyi nəinki Azərbaycanda, həmçinin Şərq ölkələrində, Avropada, Rusiyada da tanınır və yüksək qiymətləndirilirdi.

Kəlağayının üzərində ağac və ya metal qəlib vasitəsilə həkk olunmuş naxışlar qüdrəti və dərin mənası hesabına yüz illərdir ki, dəyişilməz olaraq qalmaqdadır. Hər bölgənin kəlağayısı digərindən əsasən haşiyəsindəki ornamentlərə görə fərqlənir. Kəlağayı istehsalında fərqli bitki növlərindən – zəfəran, qarağat, narınc, cır alma, sumaq, zirinc və başqa bitkilərdən boyaqlar hazırlanır. Kəlağayının haşiyəsi, bəzən isə xonçası (ortası) basmanaxış üsulu ilə həndəsi və nəbati naxışlarla bəzədilirdi. Naxışlar içərisində daha çox butalar üstünlük təşkil edir ki, bu da Buta – Azərbaycan ornament sənətində ən çox yayılmış bəzək elementlərindən biridir. Şəki və Basqal kəlağayıları içərisində "Saya buta", "Şah buta", "Küsülü buta", "Qoşa buta", "Qotazlı buta" və "Xırda buta" çeşnilərindən daha çox istifadə olunur. "Albuxarı", "Abi", "Heyratı", "Soğanı", "İstiotu", "Yeləni" adlı əlvan kəlağayılar da vaxtı ilə Yaxın Şərq və Qafqaz xalqları arasında böyük şöhrət qazanmışdı.

Bir sözlə, qız-gəlinləri həm gün istisindən, həm də soyuqdan qoruyan zərif kəlağayı onlara həmçinin də gözəllik gətirən və ismət simvolu sayılan bir baş örtüyüdür. Bu kəlağayılarda aşıqların və şairlərin iftixarla tərənnüm etdikləri utancaq və ürkək baxışlar, işvəkar təbəssümlər, qadın simasının gözəllik cizgiləri, isməti, həyası gizlənmişdir. Gözümü açandan evimizdə kəlağayı görmüşəm, ağğappaq, bənövşəyi yelənli, ipək kimi yupyumşaq... Kəlağayı naz-qəmzəli, şux yerişli Azərbaycan qadınlarının bənzərsiz gözəlliyinə xüsusi bir sirr, müəmma qatmışdır. Yaşlı və qoca qadınlar kəlağayını dingə, yaxud çalma bağlayır, cavan qız-gəlinlər isə örpək kimi istifadə edirdilər.

Qadınlar yas mərasimində qara, toy mərasimində isə əlvan naxışlı kəlağayılar örtərdilər. Bu ənənə bu gün də davam edir. Kəlağayı qədim adətlərimizin ayrılmaz tərkib hissəsi kimi öz rəngləri ilə səadət, bədbəxtlik xeyir və şər kimi funksiya daşımışlar. Gəlin köçən qızın başına ağ kəlağayı örtmək, gəlin arabasının və ya maşınının qabağına ağ, soğanı, narıncı, zoğalı kəlağayılar bağlamaq, hüzn və matəm günlərində isə evlərin qarşısından qara kəlağayılar asmaq, niyyət baş tutduqda ziyarətgahlara kəlağayı bağışlamaq kimi adətlərimiz buna nümunədir.

Belə ki, UNESCO-nun Qeyri-Maddi Mədəni İrs üzrə Hökumətlərarası Komitəsinin 2014-cü il noyabrın 26-da keçirilən iclasında Azərbaycan kəlağayı sənəti "Kəlağayı simvolizmi və ənənəvi sənəti" adı ilə UNESCO-nun Qeyri-Maddi Mədəni İrsin Reprezentativ Siyahısına daxil edilmişdir.

Açar sözlər: ipək kəlağayı, mədəni irs, baş örtüyü, milli-mənəvi dəyərlər, əl hasilatı.

ABSTRACT

Kalagai were passed down from generation to generation, from generation to generation as a headdress, ending with our national costumes. Even today, our women love to wear a rectangular headdress of different colors, framed, made of thin silk thread. High-quality kalagai has been produced in Tabriz,

Ganja, Shamakhi, Sheki and Nakhchivan since ancient times. Research shows that the history of silkworm breeding in Sheki dates back to BC. For many years, Sheki was the center of silk production in Azerbaijan, as well as in the Caucasus. In the 19th century, the world's largest silk factory operated in Sheki. Sheki silk was known and highly valued not only in Azerbaijan, but also in Eastern countries, Europe and Russia.

The patterns engraved on the kalagai by means of wooden or metal molds have remained unchanged for hundreds of years due to their power and deep meaning. The future of each region differs from the others mainly due to the ornaments on the border. In the production of kalagai, dyes are made from different types of plants - saffron, currant, orange, crab apple, sumac, barberry and other plants. The border of the kalagai and sometimes the khoncha (middle) were decorated with geometric and floral patterns. Butas dominate among the patterns, which is one of the most common decorative elements in Buta - Azerbaijani ornamental art. Among the Sheki and Basgal kalagays, the most widely used varieties are Saya buta, Shah buta, Kusulu buta, Qosha buta, Gotazli buta and Khirda buta. The colorful kalagays called "Albukhari", "Abi", "Heyrati", "Onani", "Istiotu", "Yeleni" also gained great fame among the peoples of the Middle East and the Caucasus.

In short, the delicate veil that protects brides from both the heat of the day and the cold is a headscarf that brings them beauty and is considered a symbol of chastity. The shy and timid looks, the businesslike smiles, the beauty features of the female face, the chastity and the shyness, which are proudly sung by the ashugs and poets, are hidden in these galaxies. When I opened my eyes, I saw a blanket in our house, white, purple, soft as silk... The future has added a special mystery to the unique beauty of the graceful, cheerful Azerbaijani women. Older women tied their kalagai to a ding or a turban, and young brides used it as a blanket.

Women wore black at mourning ceremonies and colorful veils at weddings. This tradition continues today. As an integral part of our ancient traditions, kalagai with their colors have served as happiness, misfortune, good and evil. Examples include covering the bride's head with a white veil, tying white, onion, orange, and cornflower veils in front of the bride's cart or car, and hanging black veils in front of houses on days of mourning and mourning.

Thus, at the meeting of the Intergovernmental Committee for the Intangible Cultural Heritage of UNESCO on November 26, 2014, the art of kalagai of Azerbaijan was included in the Representative List of Intangible Cultural Heritage of UNESCO under the title "Symbolism and traditional art of kalagai".

Keywords: silk kalagai, cultural heritage, head covering, national-moral values, handicrafts.

Kəlağayı – Azərbaycanda qadınlara məxsus müxtəlif rəngli, haşiyəli, nazik ipək sapdan toxunmuş dördkünc formalı baş örtüyüdür. Qərb zonası bu nəfis örtüyü "çarqat" adlandırır. Gözəllik, sədaqət, ehtiram, ismət, ləyaqət rəmzi olan kəlağayı özündə Odlar Yurdu Azərbaycanın qədim tarixini, adət-ənənələrini, mədəniyyətini yaşadır. Kəlağayı milli geyimlərimizi tamamlayan baş örtüyü kimi əsrlərdən-əsrlərə, nəsillərdən-nəsillərə keçərək günümüzə qədər gəlib çatmış, hal-hazırda da qadınlarımız onu üzərində sevgi ilə daşıyır. Təbriz, Gəncə, Şamaxı, Şəki, Naxçıvan şəhərlərində ta qədimdən yüksək keyfiyyətli kəlağayılar istehsal olunurdu. Bir çox bölgələrdə istehsal olunmasına baxmayaraq, kəlağayı şimal qərbdə yerləşən İsmayıllı rayonun Basqal qəsəbəsində və Şəki şəhərində daha geniş yayılmışdır.

Kəlağayının daha çox məhz bu bölgələrdə toxunmasının və kəlağayının hazırlandığı bu unikal parçanın yaranması özü böyük prosesdir, tarixi isə çox qədimdir.

Azərbaycanda ipəkçilik ta qədim zamandan təşəkkül taparaq böyük inkişaf yolu keçmişdir. Tədqiqatlar göstərir ki, Şəkidə ipəkçiliyin tarixi hələ miladdan əvvəlki dövrlərə təsadüf edir. Şəki uzun illər Azərbaycanda, eləcə də Qafqazda ipəkçiliyin mərkəzi olmuşdur. XIX əsrdə dünyada ən böyük ipəksarıma fabriki məhz Şəkidə fəaliyyət göstərmişdi. Şəki ipəyi nəinki Azərbaycanda, həmçinin Şərq ölkələrində, Avropada, Rusiyada da tanınır və yüksək qiymətləndirilirdi.

Kəlağayının üzərinə naxışlar ağac və ya metal qəlib vasitəsilə vurulur. Kəlağayının yeləni (haşiyəsi), bəzən isə xonçası (ortası) basmanaxış üsulu ilə həndəsi və ya nəbati naxışlarla bəzədilir. Kəlağayıda əks

olunan naxışlar özündə böyük məna ehtiva edir. Kəlağayının üzərində həkk olunmuş naxışlar qüdrəti və dərin mənası hesabına yüz illərdir ki, dəyişilməz olaraq qalır. Hər bölgənin kəlağayısı digərindən əsasən haşiyəsindəki ornamentlərə görə fərqlənir. Müxtəlif rəng çalarlarından istifadə olunan həndəsi naxışların gözəlliyi bitki motivləri ilə həmahənglik təşkil edir. Müxtəlif bitki növlərindən – zəfəran, qarağat, narınc, cır alma, sumaq, zirinc və başqa bitkilərdən boyaqlar hazırlanır. Kəlağayının haşiyəsi, bəzən isə xonçası (ortası) basmanaxış üsulu ilə həndəsi və nəbati naxışlarla bəzədilirdi. Bu və ya digər şərbaflıq mərkəzinin kəlağayıları ornamentlərinə görə bir-birindən seçilirdi. Naxışlar içərisində daha çox butalar üstünlük təşkil edir ki, bu da Azərbaycan ornament sənətində ən çox yayılmış bəzək elementlərindən biridir.

Bununla yanaşı, "buta" kəlağayının bəzədilməsində hər zaman əsas element olmuşdur. Şəki və Basqal kəlağayıları içərisində "Saya buta", "Şah buta", "Küsülü buta", "Qoşa buta", "Qotazlı buta" və "Xırda buta" çeşnilərindən daha çox istifadə olunur. "Albuxarı", "Abi", "Heyratı", "Soğanı", "İstiotu", "Yeləni" adlı əlvan kəlağayılar da vaxtı ilə Yaxın Şərq və Qafqaz xalqları arasında böyük şöhrət qazanmışdı.

Hal-hazırda ölkəmizdə kəlağayı toxuculuğu işini davam etdirənlər sənətkarları çoxdur. Həmçinin Azərbaycanda milli dəyərlərimizi yaşadaraq zərif kəlağayı örtən qadınlarımız bu örtükdə daha cazibəli və füsunkar görünür, gözəlliklərinə gözəllik qatırlar. Bir sözlə, zərif kəlağayı qadınlara gözəllik gətirən və ismət simvolu sayılan bir baş örtüyüdür.

Bu kəlağayılarda aşıqların və şairlərin iftixarla tərənnüm etdikləri utancaq və ürkək baxışlar, işvəkar təbəssümlər, qadın simasının gözəllik cizgiləri, isməti, həyası gizlənmişdir. M.P.Vaqifin qoşmasında da kəlağayılı qız-gəlinlər belə vəsf olunmuşdur:

Kəlağayı gülgəz, libası əlvan

Bir güli-rənadır mənim sevdiyim.

Gözümü açandan evimizdə kəlağayı görmüşəm, ağğappaq, bənövşəyi yelənli, ipək kimi yupyumşaq... Kəlağayı naz-qəmzəli, şux yerişli Azərbaycan qadınlarının bənzərsiz gözəlliyinə xüsusi bir sirr, müəmma qatmışdır. Yaşlı və qoca qadınlar kəlağayını dingə, yaxud çalma bağlayır, cavan qız-gəlinlər isə örpək kimi istifadə edirdilər. Qadınlar yas mərasimində qara, toy mərasimində isə əlvan naxışlı kəlağayılar örtərdilər. İpək kəlağayı zərif qız-gəlinləri həm gün istisindən, həm də soyuqdan qoruyur.

Bu ənənə bu gün də davam edir. Kəlağayı qədim adətlərimizin ayrılmaz tərkib hissəsi kimi öz rəngləri ilə səadət, bədbəxtlik xeyir və şər kimi funksiya daşımışlar. Gəlin köçən qızın başına ağ kəlağayı örtmək, gəlin arabasının və ya maşınının qabağına ağ, soğanı, narıncı, zoğalı kəlağayılar bağlamaq, hüzn və matəm günlərində isə evlərin qarşısından qara kəlağayılar asmaq, niyyət baş tutduqda ziyarətgahlara kəlağayı bağışlamaq, şikəstlərə, kasıblara kəlağayı pay vermək kimi adətlərimiz buna nümunədir.

KƏLAĞAYIM

Səni örtüb cavan, qarı,

Ay elimin milli varı.

Şəkimizin yadigarı,

Nənələrdən qalan payım,

Kəlağayım.

Daim sənlə öyünmüşəm,

Mən bəxti çox yeyinmişəm.

Nə vaxt səni geyinmişəm,

Gözəllikdə yoxdur tayım,

Kəlağayım.

Qürurusan ataların,
Yellənirsən narın-narın.
Üstündəki butaların,
Tarix kimi qədim, qayım,
Kəlağayım.

Eşqə mayak, gur işıqsan,
Sən bir sülhsən, barışıqsan.
Qadınlara yaraşıqsan,
Qoy vəsfini elə yayım,
Kəlağayım.

Nur səndədir, ziya səndə,
Abır səndə, həya səndə,
Bəzək səndə, saya səndə,
De, hansını deyim, sayım,
Kəlağayım.

Milli xüsusiyyətlərimizin əsas daşıyıcılarından biri olan kəlağayımızı bir qadın olaraq üzərimizdə daşımaqla daim təbliği ilə məşğul olmalıyıq. Çünki bu sirli örpəyimizdə nənələrimizin nəfəsi, doğmalıq hərarəti hələ də duyulur və kəlağayımız var olduqca bu nəfəs də duyulacaq, ruhumuz bu doğma hərarətdən qidalanacaqdır...

Basma naxış üsulu ilə naxışlanan Şərq motivli haşiyəli kəlağayılar ölkəmizin sərhədlərindən kənarda da şöhrət qazanmışdır. Bu ipək məhsulları yerli sakinlərin, qonaqların və turistlərin zövqünü oxşamış, bu sənət nümunələri sərgilərdə, yarmarkalarda nümayiş etdirilmişdir. Kəlağayı sənətinin Azərbaycan xalqının milli-mənəvi dəyərlər sistemində və adət-ənənələrimizdə ən mühüm mədəniyyət nümunəsi olduğu beynəlxalq səviyyədə öz təsdiqini tapmışdır. Belə ki, UNESCO-nun Qeyri-Maddi Mədəni İrs üzrə Hökumətlərarası Komitəsinin 2014-cü il noyabrın 26-da keçirilən iclasında Azərbaycan kəlağayı sənəti "Kəlağayı simvolizmi və ənənəvi sənəti" adı ilə UNESCO-nun Qeyri-Maddi Mədəni İrsin Reprezentativ Siyahısına daxil edilmişdir.

Açar sözlər: ipək kəlağayı, mədəni irs,baş örtüyü, milli-mənəvi dəyərlər, əl hasilatı.

ƏDƏBİYYAT

1. Aynur Qafarlı. Dənizdir, günəşdir, nəğmədir, mənəm. «Elm və təhsil», Bakı, 2021, s.256

"VƏTƏN MÜHARİBƏSİ" SİNTAKSİSİ KONTEKSTİNDƏ DİL, NİTQ VƏ ÜSLUB MƏSƏLƏLƏRİ

LANGUAGE SPEECH AND STYLISTIC ISSUES IN THE CONTEXT OF THE SYNTAX OF "PATRIOTIC WAR"

Afaq Zeynalova

Azərbaycan Texniki Universiteti, Humanitar fənlər, Dilçilik bölməsi, Azərbaycan, Bakı

XÜLASƏ

Vətən müharibəsinin böyük zəfəri Azərbaycan elminin, o cümlədən dilçiliyin də bir çox sahələrində yeni mərhələ yaratdı. İllərlə hətta əsrlərlə həsrətində olduğumuz qələbə sevinci inciyən ruhumuzu, qırılan ümidlərimizi, köksümüzdə boğmağa çalışdığımız azərbaycançılığımızı özümüzə qaytardı. Vətənin Şuşa zirvəsini fəth edən igidlər dilimizin, nitqimizin də üslubunu dəyişdi. O gün ki, ordumun zəfər səsası bütün dünyaya yayıldı, həsrətdən qovrulan bütün ürəklər vətən dedi, bütün dillər Qarabağ söylədi, gözlər Şuşa zirvəsinə dikildi. El bir olub Vətən dedi.. Elə dedik, elə danışdıq ki, əsrlərlə susduğumuzun acısı çıxdı canımızdan. Bu həyəcanlı nitqimizdə dərin mənalar, müxtəlif hökmlər eyni məqsədə köklənib, özünün ən gözəl ifadə vasitəsinə büründü. Qələbə müjdəli hər fikir, hər cümlə öz emosionallığı, ifadəliliyi ilə seçilirdi. Bu emosionallığı yaradan əsas elementlərdən biri də intonasiyadır.

Sintaksisdə cümlələrin fərqli intonasiyası onların məqsədindən asılıdır. Yəni, "məqsəd intonasiyanın əsasıdır, intonasiya isə öz növbəsində məqsədin göstəricisidir. İntonasiya cümlələrdə o qədər incə emosional münasibətlər yaradır ki, heç bir formal qrammatik vasitə həmin münasibətləri o şəkildə yarada bilməz" Vətən müharibəsində tez-tez igidlərimizin dilindən eşitdiyimiz -*" Bu vətən bizimdir. Bəs vətəni bizdən savayı kim qorumalıdır* ? –kimi sual cümlələri, fikrimizcə, bədii üslubun ən təsirli ritorik cümləsindən daha güclü, daha emosionaldır. Bu qısa nitq vahidində düşmənə nifrət, intiqam hissi, torpağa bağlılıq sevgi, qeyrət və cəsarət duyulur. Cəsur əsgərlərimizin komandirinə müraciətlə söylədiyi –Vur, komandir, vur!- cümləsində isə əmr məzmunu deyil, təkid, xahiş,həyəcan və bir az da sevinc hissi vardır. Bu, hədəfə tuşlanan hər nişanın qələbəyə saldığı izin sevincidir. İgid ogulların dilimizə əzbər etdiyi - *yaşasın müzəffər ordumuz! Yaşasın qəhrəman Azərbaycan əsgəri!*- kimi cümlələr qrammatik cəhətdən əmr məzmunu daşısa da, üslubi semantik cəhətdən sevinc, şadlıq, təntənə hissi daşıyan nida cumlələrinə yaxındır.

Nida cümləsi də nitqin emosionallığına xidmət edən, onun məna üslub keyfiyyətlərini üzə çıxaran, ekspressiv mahiyyəti ən təsirli şəkildə çatdıran sintaktik vahidlərdir. Zəfər tariximizdə qalibiyyət duyğusu ilə söylənən, şadlıq, sevinc, qürur hissi yaşadan yüzlərlə nida cümləsi könüllərimizi oxşadı, ruhumuzu bəzədi.

Qələbə bizimlədir! Şuşa, sən azadsan! Biz gəlmişik, Şuşa ! Şuşa, biz səni dirçəldəcəyik! Qarabağ Azərbaycandır!

Duyğunu daha canlı, daha təsirli çatdıran intonasiya.(3.səh-50) bu cümlələrin üslubi imkanlarının nə qəqdər zəngin olduğunu bir daha təsdiq edir. Bu vahidlərdə fərqli hissləri duyğuları əks etdirən, birləşdirən cümlələrin növünü şərtləndirən məqsəd də demək olar ki, eynidir –vətən sevgisi, zəfər andı, Şuşa zirvəsi!

Açar sözlər: üslub, cümlə, intonasiya, məqsəd, sual, emosional ifadə ;

ABSTRACT

The great victory of the Patriotic War created a new stage in many fields of Azerbaijani science, including linguistics. The joy of victory, which we have longed for for years and even centuries, brought back to us our offended souls, our broken hopes, our Azerbaijaniness, which we tried to stifle in our

hearts. The heroes who conquered the Shusha peak of the country changed the style of our language and speech. On the day when the sound of my army's victory spread all over the world, all longing hearts said homeland, all languages v speaks of Karabakh, eyes were fixed on the summit of Shusha!

The people united and said Homeland.. We said so, we spoke in such a way that the pain of our silence for centuries came out of our souls. In this exciting speech, the deep meanings, the various judgments, were rooted in the same goal and took on their most beautiful means of expression. Every thought, every sentence with the good news of victory was distinguished by its emotionality and expressiveness. One of the main elements that creates this emotion is intonation.

The different intonation of sentences in syntax depends on their purpose. That is, "purpose is the basis of intonation, and intonation in turn is an indicator of purpose. Intonation creates such subtle emotional relationships in sentences that no formal grammatical tool can create those relationships in that way "

In the homeland war, we often hear from our heroes - "*This homeland is ours. But who should protect the homeland except us?* Question sentences like, in our opinion, are stronger and more emotional than the most effective rhetorical sentences of artistic style. In this short speech, hatred of the enemy, revenge, attachment to the land, love, zeal and courage are felt. The sentence of our brave soldiers addressed to the commander - *"Shoot, commander, shoot!"* - is not the content of the order, but the insistence, request, excitement and a little joy. This is the joy of allowing every target to win. Long live our victorious army, memorized by our brave sons! Long live the heroic Azerbaijani soldier! - Although the grammatical command is content, the style is semantically close to the exclamation sentences with a feeling of joy, happiness and solemnity. The exclamatory sentences are also syntactic units that serve the emotionality of speech, reveal its stylistic qualities of meaning, and most effectively convey the expressive essence. Hundreds of exclamation sentences uttered in the history of our victory with a sense of victory, joy, happiness and pride touched our hearts and adorned our souls.

Victory is with us! Shusha, you are free! We have come to Shusha! Shusha, we will revive you! Karabakh is Azerbaijan!

The intonation that conveys the feeling more vividly and more effectively once again confirms how rich the stylistic possibilities of these sentences are. The purpose of these types of sentences, which reflect different feelings in these units, is almost the same - love of country, the oath of victory, the summit of Shusa!

Keywords: style, sentence, intonation, purpose, question, emotional expression;

Vətən müharibəsinin böyük zəfəri Azərbaycan elminin, o cümlədən dilçiliyin də bir çox sahələrində yeni mərhələ yaratdı. İllərlə hətta əsrlərlə həsrətində olduğumuz qələbə sevinci inciyən ruhumuzu, qırılan ümidlərimizi, köksümüzdə boğmağa çalışdığımız azərbaycançılığımızı özümüzə qaytardı. Vətənin Şuşa zirvəsini fəth edən igidlər dilimizin, nitqimizin də üslubunu dəyişdi.

Bu günlər hansı mövzuda tədqiqat aparsaq, hansı məsələdən bəhs etsək, ruhla sevgi ilə yazılan hər yazıda qələm bizi Vətən müharibəsinin səngərlərinə, 44günün ovqatına, zəfərin qürurunu, sevincinə aparır. O sevincə ki, qədim mədəniyyəti, dastan ədəbiyyatı olan xalqımın qəhrəman oğulları yeni dastan yazdı, bütöv Vətən yaratdı. O gün ki, ordumun zəfər səsası bütün dünyaya yayıldı, həsrətdən qovrulan bütün ürəklər vətən dedi, bütün dillər Qarabağ söylədi, gözlər Şuşa zirvəsinə dikildi. Hər kəs əməldə də, dildə də böyük şair Məmməd Araz oldu:

Bu gün gərək
Hər anımız Vətən! – desin! Qılıncımız, qalxanımız Vətən desin!

El bir olub Vətən dedi.. Elə dedik, elə danışdıq ki, əsrlərlə susduğumuzun acısı çıxdı canımızdan. Bu həyəcanlı nitqimizdə dərin mənalar, müxtəlif hökmlər eyni məqsədə köklənib, özünün ən gözəl ifadə vasitəsinə büründü. Qələbə müjdəli hər fikir, hər cümlə öz emosionallığı, ifadəliliyi ilə seçilirdi. Bu emosionallığı yaradan əsas elementlərdən biri də intonasiyadır.

Bildiyimiz kimi, intonasiya mürəkkəb bir hadisədir. Həm fonetik, həm də sintaktik normanın elementi sayılır. Buna səs tonunun alçalıb yüksəlməsi, nitqin sürəti, tələffüzün qüvvətləndirilib zəifləndirilməsi,

cümlə daxilində fasilənin olub-olmaması və s. daxildir. İntonasiya təsdiq cümlələrini sual və nida cümlələrindən, tabesizlik əlaqəsini tabelilik əlaqəsindən fərqləndirmək üçün imkan yaradır, intonasiya mənaya görə cümlənin müəyyən hissəsini ayırmağa da imkan verir. İntonasiya vasitəsi ilə şübhə, təəccüb, təəssüf, kədər, sevinc və s. kimi hisslər ifadə edilir. Sintaksisdə cümlələrin fərqli intonasiyası onların məqsədindən asılıdır. Yəni, "məqsəd intonasiyanın əsasıdır, intonasiya isə öz növbəsində məqsədin göstəricisidir. İntonasiya cümlələrdə o qədər incə emosional münasibətlər yaradır ki, heç bir formal qrammatik vasitə həmin münasibətləri o şəkildə yarada bilməz" (1.səh- 89.)

Vətən müharibəsində tez-tez igidlərimizin dilindən eşitdiyimiz -*" Bu vətən bizimdir. Bəs vətəni bizdən savayı kim qorumalıdır* ? –kimi sual cümlələri, fikrimizcə, bədii üslubun ən təsirli ritorik cümləsindən daha güclü, daha emosionaldır. Bu qısa nitq vahidində düşmənə nifrət, intiqam hissi, torpağa bağlılıq sevgi, qeyrət və cəsarət duyulur.

Əmr, xahiş, təkid, məsləhət məzmunu bildirən əmr cümlələrinin də üslubi imkanları zəngindir. Demək olar ki, dilin bütün funksional üslublarında geniş istifadə olunur. Vətən müharibəsi sələnəməmiz məhz bu hökmlərlə, bu cümlələrlə başlamışdır. Ali baş komandanın söylədiyi *"erməni əsgəri ölmək istəmirsə torpağımızdan rədd olub getsin!* -hökmü qəzəb dolu əsl əmr cümləsidir. Vətənin müdafiəsinə yollanan igid oğulun anasına üz tutaraq,- *Bax, ağlama aa, arxamca ağlarsan məndən incimə...!* –deyib onu təsəlli etməsi, üzülməsinə, ağlamasına qıymayaraq, təmkinli, qürurlu olması üçün ondan söz alması, tapşırıq verməsi bu cümlənin dərin məna yükünü, duyğu selini göstərir. Ana övlad münasibətindəki bütün ülvi hisslər bu sintaktik vahiddə toplanmışdır. "Nida intonasiyalı cümlələrdə dərin hissləri ifadə etmək üçün üç nöqtədən də istifadə olunur." (2.səh- 121) Qrammatik cəhətdən əmr ədatının işlənməsi ona əmr məzmunu versə də, səmimi, məsum hisslərin toplusu və həyəcanı ilə həm də nida cümləsinə yaxınlaşdırır.

Cəsur əsgərlərimizin komandirinə müraciətlə söylədiyi –Vur, komandir, vur!- cümləsində isə əmr məzmunu deyil, təkid, xahiş,həyəcan və bir az da sevinc hissi vardır. Bu, hədəfə tuşlanan hər nişanın qələbəyə saldığı izin sevincidir. İgid oğulların dilimizə əzbər etdiyi - *yaşasın müzəffər ordumuz! Yaşasın qəhrəman Azərbaycan əsgəri!*- kimi cümlələr qrammatik cəhətdən əmr məzmunu daşısa da, üslubi semantik cəhətdən sevinc, şadlıq, təntənə hissi daşıyan nida cumlələrinə yaxındır.

Nida cümləsi də nitqin emosionallığına xidmət edən, onun məna üslub keyfiyyətlərini üzə çıxaran, ekspressiv mahiyyəti ən təsirli şəkildə çatdıran sintaktik vahidlərdir. Zəfər tariximizdə qalibiyyət duyğusu ilə söylənən, şadlıq, sevinc, qürur hissi yaşadan yüzlərlə nida cümləsi könüllərimizi oxşadı, ruhumuzu bəzədi. Xüsusi ilə xitablarla qurulan nida cümlələrinin səsası əsrlərlə qulağımızdan getməyəcək:

"Ayaqları dəyməməli Şuşamıza heç bir yadın!"

Budur sənin ,vətən oğlu, qələbəyə Vətən andın!

Qələbə bizimlədir! Şuşa, sən azadsan! Biz gəlmişik, Şuşa ! Şuşa, biz səni dirçəldəcəyik! Qarabağ Azərbaycandır!

Bu cümlələrdə xitabların bədii təsvir vasitələri ilə-metanomiya ilə ifadə olunması onların poetik gücünü daha da artırır. Məzmun yükü dərin olan, ekspressiv cəhətdən yüksək hiss-həyəcan bildirən bu nida cümləsi şanlı zəfər dastanımızın unudulmayan ifadələri olacaqdır! Duyğunu daha canlı, daha təsirli çatdıran intonasiya.(3.səh-50) bu cümlələrin üslubi imkanlarının nə qəqdər zəngin olduğunu bir daha təsdiq edir. Bu vahidlərdə fərqli hissləri duyğuları əks etdirən, birləşdirən cümlələrin növünü şərtləndirən məqsəd də demək olar ki, eynidir –vətən sevgisi, zəfər andı, Şuşa zirvəsi!

ƏDƏBİYYAT

1. Müasir Azərbaycan dili (sintaksis) Bakı -1985
2. S.Həsənova "Nitq mədəniyyəti və üslubiyyat" bakı -2015
3. N.Məmmədli "Azərbaycan dilində işgüzar və akademik kommunikasiya" Bakı-2021
4. T.Əfəndiyeva "Azərbaycan dilinin leksik üslubiyyatı" Bakı-2012

USING PROGRAMMING LANGUAGE IN EDUCATION OF PRIMARY SCHOOL

Assoc. Prof. Sevinj Jabrayilzadeh

Azerbaijan State Pedagogical University, Faculty of Mathematics, Department of Computer Science, Baku, Azerbaijan

ORCID ID: https://orcid.org/0000-0002-1499-2106

Khuraman Alieva

Azerbaijan State Pedagogical University, Faculty of Mathematics, Department of Computer Science, Baku, Azerbaijan

ORCID ID: https://orcid.org/0000-0001-9015-8802

ABSTRACT

Nowadays the young children rarely learn Python in primary schools. Although from the age of about 6, students are ready to get started with Python coding, in almost all schools, they only learn some basic coding concepts using children's platforms such as Scratch at this age. Scratch is easier to teach than Python and is therefore preferred by primary schools to cover the topics required by the curriculum. Scratch is the world's largest coding community for children and a coding language with a simple visual interface that allows young people to create digital stories, games, and animations. Scratch is designed developed, and moderated by the Scratch Foundation, a nonprofit organization. Scratch promotes computational thinking and problem solving skills; creative teaching and learning; self-expression and collaboration; and equity in computing. Scratch is always free and is available in more than 70 languages. In the process students learn to think creatively reason systematically and work collaboratively – essential skills for everyone in today's society.

In this article we will discuss using program coding in education of informatics in primary education by applying comparison of Python and Scratch .

Kids could be doing more Python coding at school, in theory. However, the reality is that programming in general, and Python in particular, are difficult subjects to teach in a thorough and engaging manner without specialised instructors. This is a challenge that doesn't have any easy solution, and it's unlikely that schools will be able to cover much more Python coding than they already do in the foreseeable future.

Keywords: Python, Scratch Foundation programming languages, program coding

INTRODUCTION. Kids could be doing more Python coding at school, in theory. However, the reality is that programming in general, and Python in particular, are difficult subjects to teach in a thorough and engaging manner without specialised instructors. This is a challenge that doesn't have any easy solution, and it's unlikely that schools will be able to cover much more Python coding than they already do in the foreseeable future. The aim of the study is to develop a coding scheme to evaluate games made by children in primary school using Scratch to show what programming skills they used within the games created during the study. We want to represent creation of the program codding in Scratch.

Processing. As an example, consider the first the lesson of this course, which is called "Introduction to the Scratch 2.0 environment." Type of lesson: Introduction to new material. Lesson Objective: To introduce students with the Scratch environment.

Lesson objectives:

1. Cognitive: introduce students to the possibilities of the Scratch environment.

2. Developing: develop skills in working with various programs and services.

3. Educational: to cultivate a culture of safe work when working for computer .

Məsələn, I don't know what's to become of our fine family by name, after it's been dragged through the mire by a complete outsider

Bundan başqa bu yarım qrupa "over" önlüyünü əlavə etmək olar.

"over" ilə "through" müəyyən mənada bir-birinə yaxın olsada, müəyyən məna çalarlarında bir-birindən fərqlənir."Over" müəyyən maneəni, sərhəddi keçmək, üstündən keçmək, "through" isə çətinliyə maneə baxmadan iş və hərəkəti başa çatdırmaq kimi başa düşülür. (Rustamov I., 1999)

Göstərilən semantik çalarlıq bu önlüklərin rast gəlindiyi istiqamət bildirən frazeolji birləşmələrdə öz əksini tapır.

To jump over barrier = baryerdən aşmaq

To prevail over the enemies = düşmənlərə üstün gəlmək

To turn over a new leaf =yeni səhifə açmaq

Məsələn: it's extremely difficult practically impossible, for exconvicts to turn over a new leaf and go straight

1/ Thackeray W. "Vanity Fair"

2/ Dreiser Th. "Jemrie Gerhardt"

Azərbaycan dilindəki frazeoloji birləşmələrin bir qismi iş və hərəkətin keçdiyi yolu, istiqaməti ifadə edir. Komponentlər arasındakı əlaqərin bu cür təzahür formaları onların birinin təsirlik halda olması ilə bağlıdır, bu isə həmin frazeoloji birləşmələrin istiqamət bildirənlərə aid olduğunu göstərir.

Dünyanı başına fırlatmaq

Dünyanı başına dar etmək

Yerini bərkitmək

Ayağının altını qazımaq

Yolunu kəsmək

Məsələn, Bəzi üzdən iraq insanlar yerini bərkitmək üçün min cür hiyləyə əl atırlar.

II. Hərəkətdə olan əşyanın yerləşdiyi məsafəni bildirmək və müxtəlif məkani münasibətləri ifadə etmək aşağıdakı önlüklərdən istifadə olunur.

Behind, about, within, at, in, on, under, between, after.

Bu önlüklər əsas məkan mənasında işlənən isimlərlə əlaqəyə girir. İş və hərəkətin icra olunduğu yeri, bəzən isə iş və hərəkətin istiqamətini bildirir.

Azərbaycan dilində ifadə vasitələri əsasən yerlik, bəzən isə çıxışlıq və yönlük hallarıdır. Qeyd olunan önlüklərin semantik açılışları və bu açılışların frazeoloji birləşmələrə transformasiyalardan irəli gələn məkani xüsusiyyətləri imkan verir ki, bu cür frazeoloji birləşmələri məkan bildirənlər sırasına daxil edək. (İmanova S., 1980)

Behind

Behind dosed doors = bağlı qapılar arxasında

To be behind (at) the wheel = başında durmaq

Behind smb's back = kiminsə arxasında

The three publishing firms disputing the right to print it are to carry on their argument behind dosed doors

To be out one's element = yerində olmamaq

To one's last breath = son nəfəsə qədər

To be out of one's bearing

Müəyyən artikl ilə işlənən frazeoloji birləşmələr

To drive the center -məqsədə çatmaq

To up to the chin = boğazacan

The end of the chapter = həyatm sonu

At the worlds end = dünyanın o biri ucu

From the cradle to the grave =beşikdən qəbr evinə

To the core = İliyə kimi

To take up the cudges for smb. = kiminsə arxasında dayanmaq

To move to the right direction = məqsədə çatmaq

To go from one extreme to the other = yağışdan çıxıb yağmura düşmək

Son söz kimi qeyd edilməlidir ki, istiqamət bildirən frazeoloji birləşmələrin tədqiqinə bu günə kimi ətraflı şəkildə müraciət olunmamışdır.

SONUÇ VE TARTIŞMA

Ümumiyyətlə, hər hansı bir dilin frazeoloji aləmini aydınlaşdırsaq bu aləmə yol açmaq üçün dillərin frazeoloji təbiyyəti müntəzəm araşdırmalı, bir sıra hallarda keçdiyi inkişaf yolu öyrənilməsi, dil sistemində frazeologiyanın mövqeyi müəyyənləşdirməlidir.

Müxtəlif sistemli iki dilin german dilləri qrupuna mənsub analitik quruluşlu ingilis dilinin, türk dilləri ailəsinin oğuz qrupuna daxil olan aqlütinativ quruluşlu Azərbaycan dilinin müqayisəsi üzrə hər iki dildə istiqamət bildirən frazeoloji birləşmələrin tədqiqi aşağıdakı nəticəni verdi.

İngilis dilində istiqamət bildirən frazeoloji birləşmələrin tərkibindəki -öz qramatik mənalarına komponentlər arasındakı əlaqədə itirən, lakin birləşdirici funksiyasını frazeoloji vahidin işləndiyi cümlədə bir daha göstərən məkan önlüklərinin Azərbaycan dilində ifadə vasitələrini müəyyən etməklə hər iki dildəki istiqamət bildirən frazeoloji birləşmələrin semantik təhlilini vermiş olduq.

Müasir ingilis dilində məkani önlükləri məhz hərəkətin istiqamətini bildirənlərinin istiqamət bildirən frazeoloji birləşmələrin komponentləri arasında yaratdığı əlaqə istiqamət anlayışı verir.

KAYNAKÇA

1. Antrushina B., Afanasyeva O. English Lexicology. Moscow, 1973
2. Arnold I. The English Word. Moscow, 1973
3. Arnold I. The English Word. Moscow, 1986
4. Bayramov H. Azərbycan dili frazeologiyasının əsasları. Bakı, 1978
5. Collins V. A book of English Idioms (with explanations). Leningrad, 1960
6. Ginsburg **R.** A course in Modern English Lexicology. Moscow, 1979
7. İmanova S. İngilis dilində zaman və məkan ölnlükləri (Azərbaycan dili ilə müqayısədə). ADU nəşriyyatı, Bakı, 1980
8. Rayevskaya N. English Lexicology. Kiyev, 1957
9. Rustamov I. I'm the Preposition Use. Bakı, 1999
10. Smith L. English Idioms. London, 1992

RİYAZİYYATIN TƏDRİSİNDƏ MƏTNLİ MƏSƏLƏLƏR VƏ ONLARIN TƏRBİYƏVİ ƏHƏMİYYƏTİ

TEXTUAL PROBLEMS IN TEACHING MATHEMATICS AND THEIR EDUCATIONAL IMPORTANCE

Dos. Dr. Məlahət Abdullayeva

Azərbaycan Dövlət Pedaqoji Universiteti,

Riyaziyyat fakültəsi, Riyaziyyat və onun tədrisi texnologiyası kafedrası,

Bakı, Azərbaycan

ORCID NO: 0000-0002-2228-1224

ÖZET

Riyaziyyatın tədrisində məsələlər və onların həlli mühüm yer tutur. Məsələ elə bir anlayışdır ki, ona tərif verilmir. Geniş mənada hər hansı işi yerinə yetirmək, həll etmək mənasında işlədilir.

Ümumtəhsil məktəblərində riyaziyyatın təlimi prosesində şagirdlərin riyazi təfəkkürünü inkişaf etdirmək məqsədilə onlara riyazi bilikləri aşılamaq üçün «tədris məsələsindən» və ya «didaktik məsələdən» istifadə olunur. Məsələ dedikdə - kəmiyyətlər arasındakı asılılıqlara və kəmiyyətlərin verilmiş qiymətlərinə əsasən, məchul qiymətini tapmaq tələbi başa düşülür. Belə məsələlər əsasən cümlələrlə ifadə olunmuş mətn şəklində olur. Mətnli məsələlərin həlli vasitəsilə şagirdlər nəzəri biliklər qazanırlar. Eyni zamanda mətnli məsələ həllinin praktik və tərbiyəvi əhəmiyyəti vardır.

Məsələ həllindən həm də şagirdləri yeni biliklərlə, anlayışlarla tanış etmək, əvvəlki bilikləri möhkəmləndirmək üçün istifadə olunur. Məsələ həlli şagirdlərinin dünyagörüşünü tərbiyə etməkdə böyük rol oynayır.

Məsələlər öz məzmunu etibarilə şagirdlərə tərbiyəvi təsir göstərir. Mətnli məsələlər həyatdan götürülməklə, elm və texnikanın yeniliklərindən, təhsildəki uğurlardan, əmək qabaqcıllarının fəaliyyətindən, iqtisadi və sosial sahədəki nailiyyətlərdən və s. bəhs edir.

Ümumtəhsil məktəblərin riyaziyyat dərsliklərində məsələ mətnlərinin məzmunu daha çox həyati hadisələrə yaxınlaşdırılır və yeni informasiyaya malik mətnlər seçilir. Məsələlərin mətni ölkəmizin ərazisi, vətənimizi qoruyan və onun uğrunda şəhid olan qəhrəmanları və s. ilə əlaqəli olduqda şagirdlərimiz üçün daha əhəmiyyətli olur. Deməli, məsələ həlli vasitəsilə şagirdlər həm də tərbiyə olunurlar. Məsələnin həll edilməsi - onun riyazi cəhətidir, lakin məzmunun aid olduğu sahə haqqında müəllim müəyyən qədər məlumat verməklə məsələni ən maraqlı bir hadisənin müjdəçisinə çevirir.

Məsələn, «ADPU-nun Riyaziyyat fakültəsinin tələbələri Şuşa şəhər mərkəzi kitabxanasına kitablar hədiyyə etməyi qərara aldılar. Onlar topladıqları kitabları dörd-dörd, beş-beş və ya səkkiz-səkkiz dəstələyib bağladıqda hər dəfə bir kitab artıq qaldı. Həmin kitabları doqquz-doqquz dəstələyib bağladıqda isə artıq kitab qalmadı. Tələbələr ən azı neçə kitab toplamışdı?»

Riyaziyyatın təlimi prosesində mətnli məsələlərin həlli şagirdlərdə:

– riyaziyyata maraq oyatmaqla onlarda bu fənnə qarşı məsuliyyətli münasibət tərbiyə edir;

– riyazi bilik-bacarıqlara yiyələnmək tərbiyəsi formalaşır;

– həyati situasiyaları riyazi dilə çevirmək bacarığı yaranır.

Açar sözlər: riyaziyyat, mətnli məsələ, tərbiyəvi əhəmiyyəti

ABSTRACT

Problems and their solutions play an important role in teaching mathematics. The problem is a concept that is not defined. It is used in the broad sense to do or solve any task.

In order to develop students' mathematical thinking while teaching mathematics in secondary schools, «teaching problem» or «didactic problem» is used to instil mathematical knowledge in them. The problem is the need to find an unknown value based on the dependencies between the quantities and the given values of the quantities. Such problems are mainly expressed in texts, which are composed of sentences. Through the solution of textual problems, students gain theoretical knowledge. At the same time, the solution of the textual problem has practical and educational significance.

Problem solving is also used to familiarise students with new knowledge and concepts as well as to strengthen previous knowledge. Problem solving plays an important role in shaping the worldview of students.

The problems have an educational effect on students in terms of their content. Textual problems are taken from life and they describe the innovations of science and technology, success in education, the activities of labour pioneers, achievements in the economic and social spheres, and so on.

In math textbooks of secondary schools, the content of problem texts is brought closer to real-life events and texts with new information are selected. The text of the problems covers the territory of our country, the heroes who defended our homeland and were martyred for it etc. They become more important to our students. This means that students are also educated through problem solving. Solving a problem is its mathematical aspect, but the fact that students gain some knowledge about the field to which the content belongs makes the problem a harbinger of the most interesting event.

For example, «Students of the Faculty of Mathematics of the Azerbaijan State Pedagogical University decided to donate books to the Shusha city central library. Every time they fastened the books, which they had collected, into bundles of four, five, five, or eight books, there was only one book left. When they fastened them into bundles of nine books, no more book was left. How many books did the students collect?»

Solving textual problems while teaching mathematics results in following:

- it arouses interest in mathematics and cultivates a responsible attitude in students towards this subject.
- it nurtures the acquisition of mathematical knowledge and skills.
- it develops the ability to translate real life situations into mathematical language.

Keywords: mathematics, textual problem, educational significance

GİRİŞ

Riyaziyyatın tədrisində məsələlər və onların həlli mühüm yer tutur. Məsələ elə bir anlayışdır ki, ona tərif verilmir. Geniş mənada hər hansı işi yerinə yetirmək, həll etmək mənasında işlədilir.

Ümumtəhsil məktəblərində riyaziyyatın təlimi prosesində şagirdlərin riyazi təfəkkürünü inkişaf etdirmək məqsədilə onlara riyazi bilikləri aşılamaq üçün «tədris məsələsindən» və ya «didaktik məsələdən» istifadə olunur. Məsələ dedikdə - kəmiyyətlər arasındakı asılılıqlara və kəmiyyətlərin verilmiş qiymətlərinə əsasən, məchul qiymətini tapmaq tələbi başa düşülür. Belə məsələlər əsasən cümlələrlə ifadə olunmuş mətn şəklində olur. Mətnli məsələlərin həlli vasitəsilə şagirdlər nəzəri biliklər qazanırlar. Eyni zamanda mətnli məsələ həllinin praktik və tərbiyəvi əhəmiyyəti vardır.

Məsələ həllindən həm də şagirdləri yeni biliklərlə, anlayışlarla tanış etmək, əvvəlki bilikləri möhkəmləndirmək üçün istifadə olunur. Məsələ həlli şagirdlərinin dünyagörüşünü tərbiyə etməkdə böyük rol oynayır.

Ümumtəhsil məktəblərin riyaziyyat dərsliklərində məsələ mətnlərinin məzmunu daha çox həyati hadisələrə yaxınlaşdırılır və yeni informasiyaya malik mətnlər seçilir. Məsələlərin mətni ölkəmizin ərazisi, vətənimizi qoruyan və onun uğrunda şəhid olan qəhrəmanları və s. ilə əlaqəli olduqda şagirdlərimiz üçün daha əhəmiyyətli olur. Deməli, məsələ həlli vasitəsilə şagirdlər həm də tərbiyə olunurlar. Məsələnin həll edilməsi - onun riyazi cəhətidir, lakin məzmunun aid olduğu sahə haqqında müəllim müəyyən qədər məlumat verməklə məsələni ən maraqlı bir hadisənin müjdəçisinə çevirə bilər.

ARAŞDIRMA

Məktəb riyaziyyat kursunda məsələlər didaktik məqsədlərinə görə üç növə ayrılır:

1. İdraki məsələlər - bunların həlli prosesində şagirdlər yeni biliklər qazanırlar.
2. Məşqedici məsələlər - bunların həlli nəticəsində şagirdlər bacarıq və vərdişlər

qazanırlar.

3. İnkişafetdirici məsələlər - bunların həlli nəticəsində şagirdlərin ümumi dünyagörüşü və

yaradıcı təfəkkürü inkişaf edir. Standart olmayan riyazi məsələlər şagirdlərin riyazi intusiyasını inkişaf etdirir [3].

Ümumtəhsil məktəblərində riyaziyyat təlimi prosesində məsələ həllinin funksiyaları aşağıdakı kimi müəyyənləşdirilmişdir:

– Məsələ həlli elə bir konkret didaktik materialdır ki, onun həlli vasitəsilə şagirdlərdə yeni biliklər formalaşır və əvvəlki biliklər praktikada tətbiq olunur, praktik fəaliyyət üçün zəruri olan bacarıq və vərdişlər qazanırlar. Məsələ həlli - nəzəriyyənin praktika ilə, təlimin həyatla əlaqələndirilməsini təmin edir.

– Həyatdan götürülmüş məsələlərin həlli vasitəsilə şagirdlərin dünyagörüşü genişlənir və inkişaf edir. Məsələnin məzmununa daxil olan faktlar Vətənimizin yerüstü və yeraltı sərvətləri, coğrafiyası, görkəmli tarixi şəxsiyyətləri, Vətən tarixi və s. haqqında məlumatlar şagirdi proqramda nəzərdə tutulmayan, lakin çox faydalı olan informasiya ilə tanış edir.

– Məsələ həlli vasitəsilə şagirdlər həm də tərbiyə olunurlar. Belə ki, məsələnin məzmununda Vətənimizi qoruyan və onun uğrunda şəhid olan qəhrəmanlarımız haqqında məlumat olur. Məsələn, «İki dəfə Sovet İttifaqı Qəhrəmanı Həzi Aslanov 34 yaşında 1944-cü ildə qəhrəmanlıqla cəbhədə həlak olmuşdur. Həzi Aslanov nə vaxt anadan olmuşdur?» Bu kimi məsələlərin dərs zamanı həll edilməsi şagirdlərin vətənpərvərlik hissini, milli hissini gücləndirir.

– Riyaziyyat dərslərində məsələ həlli şagirdlərin təfəkküründün formalaşmasına və əqli inkişafına müsbət təsir göstərir. Həqiqətən, hər hansı məsələnin həlli prosesində şagirdlər təfəkkür əməliyyatlarından istifadə edir: təhlil prosesində məsələdəki verilənləri, məchulu, kəmiyyətlər arasındakı asılılıqları aşkar etməyə çalışır. Həllin planını müəyyən edərkən, onlar sintezdən istifadə edir və konkretləşdirmə vasitəsilə fikrən məsələnin şərtlərini təsəvvür edirlər. Bundan sonra əməllər seçməklə, mücərrədləşdirmədən istifadə edir. Eyni bir üsulla həll olunan çoxlu sayda məsələlər həll etməklə, şagird bu tipli məsələlər haqqında ümumiləşmə aparır, yəni həmin tipli məsələlərdə kəmiyyətlər arasındakı asılılıqları və həll üsulunu anlayaraq yadda saxlayır.

– Mətnli məsələlərin həlli vasitəsilə şagirdlərin riyazi bilikləri inkişaf etdirilir və qeyri standart situasiyalarda həmin biliklər tətbiq edilməklə təkmilləşdirilir.

– Mətnli məsələlərin həlli prosesində şagirdlər kəmiyyətlər arasındakı asılılıqların sözlərlə təsvirindən, ədədlər və əməllərin tətbiqi ilə məsələ məzmununun riyazi dildə (model şəklində) təsvirinə keçməyi öyrənirlər [4].

Ümumtəhsil məktəblərində riyaziyyatdan mətnli məsələlərin tədrisinin böyük tərbiyəvi əhəmiyyəti vardır. Mətnli məsələlərin həlli şagirdləri yalnız riyazi biliklərlə təmin etmir, həm də onların ümumi dünyagörüşünü formalaşdırır. Şagirdlərin qabiliyyət və vərdişlərinə müəyyən məzmun və istiqamət verir. Mətnli məsələlər öz məzmunu etibarı ilə də şagirdlərə tərbiyəvi təsir göstərir. Məsələlərin

məzmununa daxil olan faktlar şagirdlərimizə vətənimizin yerüstü və yeraltı sərvətləri, ölkəmizin tarixi, coğrafiyası, vətən müharibəsi qəhrəmanları, görkəmli tarixi şəxsiyyətləri, elm adamları, əmək qabaqcılları,təhsildəki uğurlar, elm və texnikadakı yeniliklər, sənaye sahəsindəki nailiyyətlər və s. haqqında informasiyalarla tanış edir [3].

Mətnli məsələ həlli nümunələrinə baxaq:

Məsələ 1: Bakı avtovağzalından **Şuşa** istiqamətində 70 *km/saat* sürətlə avtobus yola düşdü. Ondan 30 dəqiqə sonra bu avtovağzaldan həmin istiqamətdə 85 *km/saat* sürətlə taksi yola düşdü. Taksi avtobusa nə qədər vaxtdan sonra çatar?

Məsələni həll etmək üçün əvvəlcə məsələnin şərtini qrafik təsvir edək (Şəkil 1):



Şəkil 1. Məsələnin

Sonra məsələnin şərtinə görə 35 + 70*t* = 85*t* tənlik qurub *t* = 2 *saat* 20 *dəq*. olduğunu alarıq. Deməli, Bakı-Şuşa yolunda taksi avtobusa 2 *saat* 20 *dəq*. sonra çatar.

Məsələ 2. Azərbaycan Dövlət Pedaqoji Universitetin Riyaziyyat fakültəsinin tələbələri **Şuşa şəhər mərkəzi kitabxanasına** (Şəkil 2-də AMEA-nın Mərkəzi Elmi Kitabxanası "Qarabağ müharibəsi qəhrəmanları" fondudur) kitablar hədiyyə etməyi qərara aldılar. Onlar topladıqları kitabları dörd-dörd, beş-beş və ya səkkiz-səkkiz dəstələyib bağladıqda hər dəfə bir kitab artıq qaldı. Həmin kitabları doqquz-doqquz dəstələyib bağladıqda isə artıq kitab qalmadı. Tələbələr ən azı neçə kitab toplamışdı?



Şəkil 2. AMEA-nın Mərkəzi Elmi Kitabxanası-"Qarabağ müharibəsi qəhrəmanları" fondu

Məsələnin həllinə 4, 5 və 8 ədədlərinin ən kiçik ortaq bölünənini tapmaqla başlamaq lazımdır: *ƏKOB*(4; 5; 8) = 40. Kitabları dörd-dörd, beş-beş və ya səkkiz-səkkiz dəstələyib bağladıqda hər dəfə bir kitab artıq qaldığından 40 + 1 = 41 alarıq. Lakin 41 kitabı artıq kitab qalmamaq şərtilə doqquz-doqquz dəstələyib bağlamaq mümkün deyil. Onda ən kiçik ortaq bölünənini 2 dəfə artırıb üzərinə 1 əlavə edərik: 40 · 2 + 1 = 81.

81 kitabı doqquz-doqquz dəstələyib bağladıqda artıq kitab qalmır. Deməli, tələbələr **Şuşa şəhər mərkəzi kitabxanasına** hədiyyə etmək üçün ən azı 81 kitab toplamışdı.

Məsələ 3. Sinif rəhbəri Novruz bayramı münasibətilə şagirdləri **Qız qalasına** (Şəkil 3) Qız qalasına gəzintiyə apardı. Şagirdlər özləri ilə bayraqlar götürdülər və dairəvi qala divarının üzərində çevrə boyunca hər iki metrdən bir qırmızı, hər üç metrdən bir göy bayraq sancdılar. İstənilən iki yanaşı eyni rəngli bayraq arasındakı məsəfələr bərabərdir [5].



Şəkil 3. Qız qalası

Bu mətn əsasında aşağıdakı məsələləri həll edək:

1) Qala divarı üzərində sancılmış qırmızı və göy rəngli bayraqlar 7 dəfə üst-üstə düşür. Qalanın üzərindəki meydançanın çevrəsinin uzunluğunu tapın [5].

Həlli: Əvvəlcə 2 və 3-ün ən kiçik ortaq bölünəni tapılır: *ƏKOB*(2; 3) = 6. Sonra şərtə görə qırmızı və göy rəngli bayraqlar 7 dəfə üst-üstə düşdüyündən Qız qalasının üzərindəki meydançanın çevrəsinin uzunluğu $6 \cdot 7 = 42\,m$-ə bərabərdir.

2) Qala divarı üzərinə sancılmış bayraqlar içərisindən təsadüfi götürülən bir bayrağın qırmızı bayraq olması hadisəsinin ehtimalını tapın [5].

Həlli: Qırmızı bayraqların sayı: $42 : 2 = 21$

Göy bayraqların sayı: $42 : 3 = 14$

Cəmi bayraqların sayı: $21 + 14 = 35$

Qala divarı üzərinə sancılmış bayraqlar içərisindən təsadüfi götürülən bir bayrağın qırmızı bayraq olması hadisəsinin ehtimalı $P(Q.B.) = \frac{{}_{21}C_1}{{}_{35}C_1} = \frac{21}{35} = \frac{3}{5} = 0,6$-ya bərabər olacaqdır.

3) Qalada şagirdlər üçün bir biletin qiyməti 2 manat, böyüklər üçün 5 manatdır. Sinif rəhbərinin 50 manat pulu varsa, o özü ilə qalaya ən çoxu neçə şagird apara bilər?

Həlli: Gəzintidə bir müəllim iştirak etdiyindən şagirdlərin payına düşən pul $50 - 5 = 45\,manat$ olar. Qalada şagirdlər üçün bir biletin qiyməti 2 manat olduğundan $45 : 2 = 22\,(\text{qalıq}\,1\ manat)$. Deməli, müəllim Qız qalasına gəzintiyə ən çoxu 22 şagird apara bilər.

NƏTİCƏ

Riyaziyyat dərslərində mətnli məsələlərin həlli prosesində şagirdlərdə düşünmə, mühakiməyürütmə, müqayisəetmə, analiz və sintez, konkretləşdirmə və ümumiləşdirmə kimi təfəkkür əməliyyatları hərəkətə gətirilir və inkişaf etdirilir.

Mətnli məsələlərin həlli prosesində təlimin təhsil, tərbiyə və inkişaf məqsədləri həyata keçirilir.

Riyaziyyatın təlimi prosesində mətnli məsələlərin həlli şagirdlərdə:

– riyaziyyata maraq oyatmaqla onlarda bu fənnə qarşı məsuliyyətli münasibət tərbiyə edir;

– riyazi bilik-bacarıqlara yiyələnmək tərbiyəsi formalaşır;

– həyati situasiyaları riyazi dilə çevirmək bacarığı yaranır.

Mətnli məsələlərin həlli kurikulumda nəzərdə tutulmuş standartların reallaşdırılması üzrə biliklərin formalaşmasına kömək edir. Mətnli məsələlərin həlli şagirdlərin həyatla bağlı analyışlarını, düşüncələrini dərinləşdirməyə, onların praktiki bacarıqlarını məsələn, hesabları ödəmək, bank əməliyyatları aparmaq, marketdən alış-veriş etmək, evdə təmir işləri aparmaq və s. formalaşdırmağa imkan verir.

Mətnli məsələlərin həlli şagirdləri koqnitiv və tərbiyəvi baxımdan vacib olan faktlarla tanış edir. Şagirdlərdə vətənə və əməyə məhəbbət, zəhmətkeşlik, çalışqanlıq, cəsarət, dözümlülük, düzgünlük, müxtəlif situasiyalarda doğru qərar vermək, problemləri müxtəlif üsullarla həll etmək bacarığı, çətinlikləri aradan qaldırmaq istəyi və s. kimi keyfiyyətlər formalaşır.

ƏDƏBİYYAT

1. Azərbaycan Respublikasının ümumtəhsil məktəbləri üçün riyaziyyat fənni üzrə təhsil proqramı (kurikulumu). Bakı, 2013.

2. Adıgözəlov A.S. Məktəbdə riyaziyyat təliminin nəzəri əsasları. Bakı, «ADPU», 2018.

3. Abdullayeva M. Riyaziyyatın tədrisi metodikası-1. Bakı, «Elm və təhsil», 2020.

4. Həmidov S.S. Məktəbin ibtidai siniflərində riyaziyyatın tədrisi metodikası. Bakı, ADPU, 2016.

5. Riyaziyyat test toplusu. DİM –«Abiturriyent». Bakı, 2019.

6. Əsədov M.X. Orta məktəbin riyaziyyat kursunda məsələ həlli təliminin nəzəri və metodik problemləri (V-IX siniflər). Bakı, «Elm və təhsil», 2018.

7. Cəbrayılov İ. H. Şəxsiyyətyönümlü təhsil və vətəndaş cəmiyyəti. Bakı, «Mütərcim», 2010.

8. https://www.nctm.org/

9. http://math4school.ru

10. https://www.edu.gov.az/

11. http://www.e-derslik.edu.az/site/index.php

QARABAĞ ZƏFƏRI, ŞUŞANI AZAD EDƏN QƏHRƏMANLAR

VICTORY OF KARABAKH, HEROES WHO RELEASED SHUSHA

Filologiya üzrə fəlsəfə doktoru Əpoş İslam oğlu VƏLİYEV

AMEA Folklor İnstitutu "Folklor və yazılı ədəbiyyat şöbəsinin aparıcı elmi işçisi

XÜLASƏ

Otuz ilə yaxın bir zamanda erməni işğalında qalan torpaqlarımız 44 günlük Vətən müharibəsi zamanı qəhrəman Azərbaycan oğullarının igidliyi, xalqımızın birliyi və Azərbaycanın Ali Baş Komandanı İlham Əliyevin qətiyyəti sayəsində işğaldan azad edildi. 44 günlük müharibə bütün dünyaya Azərbaycanın ordusunun sarsılmazlığını, mətinliyini, Azərbaycan xalqının vətənpərvərliyini göstərdi. Qalib xalq, qalib ölkə, qalib Ali Baş Komandanı ilə birlikdə Azərbaycan dünya tarixinə qızıl hərflərlə möhtəşəm zəfərini yazdı. Torpaqlarımız işğaldan azad ediləndən sonra məlum oldu ki, vandal ermənilər işğal etdikləri ərazilərdə bütün tarixi abidələri, dini ziyarətgah və məscidləri, muzeyləri, kitabxanaları, yaşayış yerlərini tamamilə məhv etmişdir. Ermənilərin vəhşi, terrorist, vandal olduqlarını, dini ibadətgah yerlərinə, tarixi abidələrə, yaşayış məskənlərinə vurduğu zərəri, minlərlə şəhidimizi, qazilərimizi yaddan çıxartmaq olmaz.

Şəhid mayor Vəliyev Vüsal İslam oğlu 1988-ci il iyulun 15-də Naxçıvan MR Şərur rayonunun Dizə kəndində ziyalı ailəsində anadan olub. Ailənin dördüncü övladı olan Vüsalın uşaqlığı müharibənin ilk illərinə təsadüf edir. 1988-ci ildən başlayan müharibə Vüsalın və onun kimi yüzlərlə uşağın yaddaşında silinməz iz buraxmış, qisas hissi ilə hərbçiliyə maraq yaratmışdır. Düşmən tərəfindən atılan güllələrin partlaması ilə məktəblərdə tez-tez dərslər yarımçıq qalırdı. Bəlkə də partlayış səsləri Vüsalın gələcəkdə qorxmaz, qəhrəman bir hərbçi olmasına təkan verdi. Vüsal zəhmətkeş idi, heç vaxt çətinlikdən qorxmazdı. Evdə və təsərrüfat işlərində həmişə valideynlərinə kömək etmiş, orta məktəbi yüksək qiymətlərlə oxumuşdur. Dərsdən sonra asudə vaxtlarında taxtadan oyuncaq silahlar düzəldir, həmin silahlarla "dava-dava" (döyüş) oynayırdı. Vüsal cəsur, məğrur, iradəli, qorxmaz xasiyyəti ilə həmyaşıdları arasında seçilirdi və buna görə də həmişə çox sevilirdi.

Azərbaycan Silahlı Qüvvələri tərəfindən 2020-ci il sentyabrın 27-dən Ermənistan tərəfindən işğal olunmuş ərazilərin azad edilməsi istiqamətində başlayan Vətən müharibəsi zamanı həmlə taborunun komandiri vəzifəsində Murov uğrunda gedən döyüşlərdə Azərbaycan Ordusunun mayoru Vüsal Vəliyev də döyüşə başlayıb. O, 2020-ci il noyabrın 9-da Şuşanın azad edilməsi uğrunda gedən döyüşlərdə şəhid olub. Şəhid mayor Vüsal Vəliyev 2020-ci il dekabrın 14-də Naxçıvan MR Şərur rayonundakı Şəhidlər Xiyabanında dəfn edilib.

Açar sözlər: Qarabağ, Şuşa, Şəhid mayor Vüsal Vəliyev

ABSTRACT

Our lands, which have been under Armenian occupation for almost thirty years, were liberated during the 44-day war thanks to the courage of the heroic sons of Azerbaijan, the unity of our people and the determination of the Supreme Commander-in-Chief of Azerbaijan Ilham Aliyev. The 44-day war showed the whole world the inviolability, tenacity and patriotism of the Azerbaijani people.Together with the victorious people, the victorious country, the victorious Supreme Commander-in-Chief, Azerbaijan has written its great victory in the history of the world in golden letters. After the liberation of our lands, it became clear that the vandal Armenians completely destroyed all historical monuments, religious shrines and mosques, museums, libraries and settlements in the occupied territories. We must not forget that Armenians are terrorists and vandals, that they have damaged places of worship, historical monuments and settlements, and thousands of our martyrs. One of the heroes of the 44-day Patriotic

War is my brother, the martyred Major Vusal Valiyev. Martyr Major Valiyev Vusal Islam oglu was born on July 15, 1988 in Diza village of Sharur region of Nakhchivan AR in an intellectual family. The childhood of Vusal, the fourth child of the family was in the beginning years of the war. The war begun since 1988 left an indelible mark in the memory of Vusal and hundreds of children as him, created an interest to military with feeling of revenge. The lessons at schools were interrupted with explosion of bullets thrown by the enemy, were incomplete. Maybe, the explosion sounds stimulated Vusal to be a proudable military man in future. Vusal was a hardworking, and he was never afraid of difficulties. He always helped his parents in house and farm work, and studied secondary school with high mark. After school in leisure time he made model weapons from wood and tin, played "dava-dava" (fighting) with those weapons. He was distinguished among his peers with his brave, proud, strong-willed character and he was always loved very much.

Major of the Azerbaijani Army Vusal Valiyev took part in the battles for Murov during the Patriotic Warbeing the attack battalion commander, which began on September 27, 2020 by the Azerbaijani Armed Forces to liberate the territories occupied by Armenia. On November 9, 2020 he was martyred during the war for the liberation of Shusha. He was buried on December 14, 2020 in the Alley of Martyrs in the Sharur region of Nakhchivan AR.

Keywords: Karabakh, Shusha, Martyr Major Vusal Valiyev

Əzizinəm Qarabağ,
Şəki, Şirvan, Qarabağ.
Aləm cənnətə dönsə,
Yaddan çıxmaz Qarabağ (6).

Qarabağ Azərbaycan xalqının yadından heç vaxt çıxmadı, çıxa da bilməzdi. Çünki Qarabağ Azərbaycandır, Qarabağ azərbaycanlıların dədə-baba yurdudur, vətənidir. Otuz ilə yaxın bir zamanda erməni işğalında qalan torpaqlarımız 44 günlük Vətən müharibəsi zamanı qəhrəman Azərbaycan oğullarının igidliyi, müzəffər Ali Baş Komandan İlham Əliyevin qətiyyəti, xalqımızın birliyi, gücü sayəsində azad edildi. Bu müharibə dünyaya Azərbaycan xalqının, Azərbaycan Ordusunun və Ali Baş Komandan cənab İlham Əliyevin birliyini sübut etdi. Azərbaycan xalqı orduyla birləşib Ali Baş komandanın havaya qalxan dəmir yumruğuna güc verdi və düşmənin başına daha da zərblə enməsinə dəstək oldular. 44 günlük müharibə bütün dünyaya Azərbaycanın ordusunun sarsılmazlığını, mətinliyini, Azərbaycan xalqının mərdliyini, vətənpərvərliyini göstərdi. Qalib xalq, qalib ölkə, qalib Ali Baş Komandanı ilə birlikdə Azərbaycan dünya tarixinə qızıl hərflərlə möhtəşəm zəfərini yazdı.

Torpaqlarımız işğaldan azad ediləndən sonra məlum oldu ki, vandal ermənilər işğal etdikləri ərazilərdə bütün tarixi abidələri, dini ziyarətgah və məscidləri, muzeyləri, kitabxanaları, yaşayış yerlərini tamamilə məhv etmişdir. Ermənilər Xocalı soyqırımı zamanı etdikləri son dərəcə vəhşilik, vandallıqları işğaldakı torpaqlarda da davam etdirmiş, Azərbaycan xalqının izini o torpaqlardan silmək üçün hətta qəbiristanlıqları belə məhv etmiş, məzarları dağıtmışlar. Ermənilər Azərbaycanın görkəmli və məşhur şairlərinin heykəllərini güllələmiş, onların məzarlarını qazaraq yararsız hala salmış, sümüklərini də aparmışlar. Qarabağın ermənilər tərəfindən işğal edilməsindən sonra burda olan İslam memarlıq nümunələrinin hamısı tamamilə və ya qismən dağıdılmışdır.

Hələ paleolit dövründə Qarabağda ilkin insan məskənləri tapılmışdır. Həmin ərazilərdə demək olar ki, butun dövrlərə aid tarixi abidələr mövcud idi. Qarabağda Azıx, Tağlar mağaraları, Xocalı kurqanları, Neolit, Xalkolit və Tunc dövrlərinə aid Günəştəpə, Kültəpə, Xantəpə, Uzuntəpə, Meynətəpə və s. arxeoloji abidələri, Qaraköpəktəpə, Babadərviş yaşayış yerləri və s. qədim abidələr Azərbaycan arxeoloqları tərəfindən uzun illər tədqiq edilmişdir. Şuşa şəhərinin tarixi mərkəzində yerləşən abidələr şəhərin 90-cı illərdə ermənilər tərəfindən bombardıman edilməsi zamanı ciddi zədə almışdır (1).

Qarabağda işğaldan sonra məhv edilmiş dünya əhəmiyyətli tarix-memarlıq abidələri arasında e.ə. II minilliyin sonlarına aid olan və Orta Tunc dövrü insanlarının yaşayış izlərini özündə daşıyan Üzərliktəpə arxeoloji abidəsi də var. 1993-cü ildən ermənilərin işğalı altında olan həmin abidənin ərazisi 2019-cu ilə kimi mütəmmadi olaraq hər il ermənilər tərəfindən yandırılmışdır.

Ağdam rayonu ərazisindəki Qutlu Musa türbəsi baxımsızlıqdan qəzalı vəziyyətə düşmüş, türbənin fasadlarını bəzəyən unikal divar rəsmləri boyanaraq məhv edilmiş, interyerindəki oyma naxışlı daş plitələri isə dağıdılmışdır.

Şuşadakı Saatlı məscidi və Xanlıq Muxtar Karvansarayı 1992-ci ildə ermənilər tərəfindən işğal edildikdən sonra məsciddəki İslam elementləri və ərəb dilindəki yazılar erməni xaçı və yazısı ilə əvəzlənmişdir.

Birinci Qarabağ müharibəsindən sonra Xurşudbanu Natəvanın Ağdamdakı qəbirüstü abidəsi tamamən dağıdılmış, məzar təhqir olunmuş, Xurşudbanu Natavanın sümükləri isə ermənilər tərəfindən çıxarılaraq aparılmışdır (2;3).

Ümid edirəm ki, heç bir Azərbaycan vətəndaşı otuz illik işğal dövründə baş verənləri unutmayacaq, keçmişdən dərs çıxaracaq, növbəti işğalların, soyqırımların yaşanmasına bir daha imkan verməyəcək. Ermənilərin vəhşi, terrorist, vandal olduqlarını, dini ibadətgah yerlərinə, tarixi abidələrə, yaşayış məskənlərinə vurduğu zərəri və Qarabağın azadlığı uğrunda canından keçən minlərlə şəhidimizi, qazilərimizi yaddan çıxartmaq olmaz.

44 günlük Vətən müharibəsinin qəhrəmanlarından biri qardaşım mayor Vüsal İslam oğlu Vəliyevdir. O, 1988-ci il iyulun 15-də Naxçıvan MR Şərur rayonunun Dizə kəndində ziyalı ailəsində anadan olub. Ailənin dördüncü övladı olan Vüsalın uşaqlığı müharibənin ilk illərinə təsadüf edir. 1988-ci ildən başlayan müharibə Vüsalın və onun kimi yüzlərlə uşağın yaddaşında silinməz iz buraxmış, qisas hissi ilə hərbçiliyə maraq yaratmışdır. Düşmən tərəfindən atılan güllələrin partlaması ilə məktəblərdə tez-tez dərslər yarımçıq qalırdı. Bəlkə də partlayış səsləri Vüsalın gələcəkdə qorxmaz, qəhrəman bir hərbçi olmasına təkan verdi. Vüsal zəhmətkeş idi, heç vaxt çətinlikdən qorxmazdı. Evdə və təsərrüfat işlərində həmişə valideynlərinə kömək etmiş, orta məktəbi yüksək qiymətlərlə oxumuşdur. Dərsdən sonra asudə vaxtlarında taxtadan oyuncaq silahlar düzəldir, həmin silahlarla "dava-dava" (döyüş) oynayırdı. Vüsal cəsur, məğrur, iradəli, qorxmaz xasiyyəti ilə həmyaşıdları arasında seçilirdi və buna görə də həmişə çox sevilirdi.

1994-2002-ci illərdə Şərur rayon Dizə kənd orta məktəbində, 2002-2005-ci illərdə Heydər Əliyev adına Hərbi liseydə, 2005-2009-cu illərdə isə Heydər Əliyev adına Ali Hərbi Məktəbdə hərbi təhsilin sirrlərinə yiyələnib. 2012-ci ildə Xüsusi Təyinatlı Qüvvələr təlimini uğurla başa vurub. 2009-cu ildən "leytenant" hərbi rütbəsində Beyləqan rayonunda xidmətə başlayıb. Tank əleyhinə taqımın komandiri, motoatıcı taqım komandiri, motoatıcı taborun qərargah bölüyünün komandiri, motoatıcı bölüyün komandiri, tank əleyhinə bölüyün komandiri, motoatıcı taborun qərargah rəisi, tabor komandirinin müavini, motoatıcı taborun komandiri vəzifələrində Beyləqan, Füzuli, Ağdam, Tərtər, Tovuz, Qazax və Göygöl-Murovdağda xidmət edib, "mayor" hərbi rütbəsinəcən yüksəlib. Xidmət etdiyi müddətdə mayor Vüsal Vəliyevə "Azərbaycan Respublikası Silahlı Qüvvələrinin 95 illiyi (1928-2013) Yubiley medalı", "Azərbaycan Ordusunun 100 illiyi (1918-2018) Yubiley Medalı", "10 il Qüsursuz xidmətlərə görə" 3-cü dərəcəli medalı, Azərbaycan Respublikası Müdafiə Naziri General-Polkovnik Zakir Həsənov tərəfindən təqdim edilmiş xüsusi medalla təltif olunub (4; 5).

Vüsalın ən böyük arzusu Vətənin bütövlüyü idi. O dünyaya göz açdığı il elimizin üstünü qara buludlar almışdı. Uşaqlığı mənfur düşmənin atdığı mərmi səslərini, Vətən uğrundakı döyüşlərdə canından keçən igidlər haqqında hadisələri dinləməklə keçmişdi. Uşaqlıq arzusu idi hərbçi olmaq. Vətən müharibəsi başlayandan bir neçə gün sonra ondan xəbər ala bilmədik. Amma son ana kimi ümidli idim. Onunla son yazışmamızda, "hər şey yaxşıdı, özünüzdən muğayat olun, narahatçılığa ehtiyac yoxdur" yazmışdı. O, həmlə batalyonunun komandiri idi. Polad Həşimov kimi zabitlərdən vaxtı ilə hərb sənətinin sirlərini öyrənmişdi. Həmişə deyirdi ki, mən əsl generalın tələbəsiyəm. İyunda baş verən təxribatda Polad Həşimovun şəhid olması onu çox sarsıtmışdı. Onun qisasını almağa can atırdı. O hərbçi olmağı o qədər sevirdi ki, yaralansa belə ordudan təxris olmadı. Qələbəyə böyük ümid bəsləyirdi. Hər dəfə söhbətləşəndə Ali Baş Komandanın rəhbərliyi ilə qaytaracağıq Qarabağı, – deyirdi. Hərdən ona zarafatla, sanki sən Şuşada dünyaya gəlmisən, o qədər sevirsən ki, Qarabağı, elə bil qarabağlısan, – deyərdim. O, isə həmişə gülümsəyib cavab verərdi: – Vətənin o başı, bu başı olmaz. Naxçıvan da, Şuşa da, Azərbaycan da, Qarabağ da bizimdi. O, şəhidlik şərbətini də elə çox sevdiyi Şuşada içdi (7).

Türkiyə ilə Azərbaycan ordusunun birgə təlimləri zamanı Vüsalın komandirlik etdiyi tabor birinci yerə çıxmışdı, Vüsal fəxri-fərmanla təltif edilmişdi. Türk komandirlər Vüsalın hazırlığını, idarə etməsini, hərbi biliyini çox bəyənmişdilər, təlimdən sonra Vüsalın xidmət etdiyi hərbi hissənin komandanlığına "Vüsalı qoruyun, gələcəyin ən cəsur və bilikli generalı olacaq" demişdilər.

Vüsal Vəliyev 2020-ci il sentyabrın 27-də Azərbaycan Silahlı Qüvvələri tərəfindən Ermənistanın işğalı altında olan ərazilərin azad edilməsi üçün başlanan Vətən müharibəsi zamanı həmlə taborunun komandiri idi. Murovdağdan başlanan döyüş yolu Şuşanın azadlığınadək davam edib. Mayor Vüsal Vəliyev noyabrın 9-da Şuşa döyüşləri zamanı şəhid olub. 14 dekabr 2020-ci il tarixdə Şərur rayonundakı Şəhidlər Xiyabanında dəfn olunub (4; 5).

Vüsalın şəhid olduğu xəbərini eşidən gündən əvvəlki zabit yoldaşları, dost-tanışları, əsgərləri hər gün mənə zəng vurur, yazır onunigidliyindən danışırlar. Qardaşımın cənazəsini görəndə onun düşündüyümdən də igid biri olduğuna şahidlik etdim. Qolunda və ayaqlarında sarğılar var idi, yaralı-yaralı son damla qanınadək döyüşmüş, öz döyüş yoldaşlarını tək qoymamışdı. Vüsalın döyüş yoldaşları yaralı olmasına baxmayaraq, döyüş meydanını tərk etmədiyini hər dəfə qürurla dilə gətirirlər.

Mayor Vüsal Vəliyev nişanlı idi. Xidmət etdiyi bölgələr tez-tez dəyişdiyi, müxtəlif hərbi təlimlərə qatıldığı üçün təyin edilmiş toyun vaxtı bir neçə dəfə təxirə düşmüşdü. 2020-ci il oktyabrın 2-də Vüsal ailəmizlə ilə son dəfə danışdı, vidalaşdı.

Vüsal müharibə başlamamışdan qabaq özü üçün məxfi ad seçibmiş: "QİSAS 44". Bu ad döyüş zamanı məxfiliyi qorumaq üçün rabitədə çağırış adı imiş. Müharibə 44 gün çəkdi, Vüsal söz verdiyi kimi komandiri olan general Polad Həşimovun və şəhid olmuş zabit dostlarının, əsgərlərinin qisasını aldı, Şuşanın işğaldan azad edilməsini gördü.

Hərbi hissə qarşısında qoyulmuş bütün tapşırıqların icrası zamanı vəzifə borcunu şərəflə yerinə yetirdiyi, döyüşdə şücaət və igidlik göstərdiyi üçün mayor Vüsal Vəliyev ölümündən sonra Azərbaycan Respublikasının Prezidenti İlham Əliyevin Sərəncamıyla "Vətən uğrunda" "Kəlbəcərin azad olunmasına görə", "İgidliyə görə" medalları, "Azərbaycan bayrağı" ordeni ilə təltif edilib (4; 5).

Ermənistan tərəfindən işğala məruz qalmış Azərbaycanın ərazilərindəki məhv edilmiş maddi mədəniyyət abidələri tariximizin daş yaddaşı kimi əvəzsiz milli sərvətimizdir. 30 illik işğal dövründə tarixi-memarlıq abidələri dağıdılıb, talan edilib, qədim yaşayış məntəqələrindəki tarix, mədəniyyət və mənəviyyat abidələrimizə ciddi ziyan vurularaq ölkəmizə yüz milyardlarla manat dəyərində zərər dəymişdir. Bura evlər, kənd təsərrüfatı obyektləri, tarixi abidələr, məscidlər, məktəblər, muzeylər, kitabxanalar, Azərbaycanın görkəmli və tanınmış şəxslərinin heykəlləri və s. daxildir. Bununla bağlı beynəlxalq məhkəmələrə müraciət edilməsi vacibdir. Ermənistan təcavüzkar və terror ölkəsi olaraq, Qarabağda etdiklərinə görə Beynəlxalq məhkəmədə cavab verməlidir.

ƏDƏBİYYAT

1. https://az.wikipedia.org/wiki/Qarabağ
2. https://az.wikipedia.org/wiki/Şuşa
3. https://az.wikipedia.org/wiki/Qarabağ_münaqişəsi_zamanı_dağıdılmış_tarix-memarlıq_abidələri_və_muzeylərin_siyahısı #cite_note-1
4. https://az.wikipedia.org/wiki/Vüsal_Vəliyev
5. https://memorial.az/az/qehremanlarimiz/195
6. http://www.folklor.az/862.htm
7. https://ikisahil.az/post/189097-vusalin-vusali-veten-oldu

İRƏVAN QUBERNİYA RUHANİ MƏCLİSİNİN ÜZVLƏRİ

MEMBERS OF THE SPİRİTUAL ASSEMBLY OF THE ERIVAN GOVERNORATE

Əbilova Zəkiyyə Ağababa qızı

AMEA Məhəmməd Füzuli adına Əlyazmalar İnstitutu

"Əlyazmaların və əski çap kitablarının tərcüməsi"

Şöbəsinin baş elmi işçisi, fəlsəfə elmləri doktoru

Açar sözlər: İrəvan, Cənubi Qafqaz, Naxçıvan, Quberniya Ruhani Məclisi

XIX əsr və XX əsrin I yarısı Azərbaycan tarixində maraqlı, həm də ölkənin xalqlarının həyatında köklü iz buraxan dövr olmuşdur. Qara dənizlə Xəzər dənizi arasında yerləşən Qafqaz diyarı XIX əsrin əvvəllərində 6 quberniya, 4 vilayət, 2 mahaldan ibarət idi. O, Rusiya imperiyasının müstəqil bir hissəsi olub, Qafqaz idarəçilik orqanları tərəfindən idarə olunurdu. O zaman Qafqaz diyarı idarəçilik münasibətlərinə görə Şimali Qafqaz və Zaqafqaziya kimi iki inzibati bölgəyə ayrılırdı (1, 818).

Zaqafqaziya (Cənubi Qafqaz) dedikdə, Bakı quberniyasının İranla həmsərhəd olan Lənkəran qəzasında Talış silsilə dağları ilə Xəzər dənizinin cənub sahillərini əhatə edən Elburus dağlarının sonluğu arasında yerləşən ərazi nəzərdə tutulurdu.

Key words: Erivan, South Caucasus, Nakhchivan, Assembly of the Erivan Governorate

The Erivan Governorate was the administrative territorial unit in the South Caucasus of the Russian Empire. The Spiritual Assembly of the Erivan Governorate which was founded in 1829 was situated in the Blue Mosque. Rich materials about the Assembly and its members are preserved in the National Archive Department of Azerbaijan.

1813-cü il, Sentyabrın 27-də Qarabağda Zeyvə çayı sahilindəki Gülüstan kəndində İranla Rusiya arasında başlayan sülh danışıqları Qarabağ, Gəncə, Şəki, Şirvan, Dərbənd, Quba, Bakı və Talış xanlıqları, həmçinin, bütün Dağıstan, Gürcüstan, İmeretiya, Quriya, Minqreliya və Abxaziyanın Rusiyaya məxsus (5,105.), İrəvan və Naxçıvan xanlıqarının isə İranın hakimiyyəti altında olaraq qalması ilə oktyabrın 22-də tamamlandı. Rusiya Xəzərdə qoşunlarını saxlamaq səlahiyyətini qazandı. Rus, eləcə də İran tacirlərinə tam ticarət azadlığı verildi (1, XIIIa, 965).

XIX əsrin 20-ci illərində Rusiya Qarabağ, Şəki və Şirvanda xanlıqlar sistemini ləğv etdi. Xanlar və bir çox bəylər İrana qovuldu. Keçmiş Qarabağ xanlığı – Şusa, Cəbrayıl və Cavanşir Elisavetapol quberniyasının Zəngəzur qəzası kimi tanındı. Talış xanlığı Bakı quberniyasının Lənkəran qəzası, Şirvan xanlığı Bakı quberniyasının Şamaxı, Göyçay və Cavanşir qəzaları, Şəki xanlığı isə Elisavetapol quberniyasının Nuxa və Ərəş qəzaları kimi tanınmağa başladı (1, XIII, 838.) Bu vaxta qədər müsəlman ruhaniliyi çar çinovniklərini lərzəyə salırdı. Elə buna görə də Şiə və Sünni Ruhani İdarələri haqqında Əsasnamə Dövlət Şurasının təqdimatı ilə çar tərəfindən imzalandı və müsəlman ruhaniliyi dövlət inzibati idarə sisteminə daxil edildi. Şiə Ruhani idarəsinin başında Şeyxülislam, Sünni Ruhani İdarəsinin başında isə Müfti dururdu. Zaqafqaziyanın müsəlman əyalətlərinin Rusiyaya birləşdirildiyi uzun və kəşməkeşli müddət ərzində burada demək olar ki, özü yaranmış və müsəlman dünyasında ən ziyalı təbəqə sayılan müsəlman ruhanilərinin başçısı çar hökuməti tərəfindən təyin edilirdi (2, 290; 3, 288; 4, 289).

Yuxarıda qeyd etdiyimiz kimi, Şiə Ruhani İdarəsinin sədri Şeyxülislam idi. Şeyxülislamdan başqa idarənin daha 3 nəfər üzvü var idi. Şeyxülislam Qafqazda mülki hissənin baş komandanının təqdimatı, Daxili İşlər Nazirliyinin tələbi ilə çar tərəfindən təyin edilirdi. Ruhani idarəsinin üzvləri isə, baş komandan tərəfindən təyin edilirdi. İdarənin aşağıdakı səlahiyyətləri var idi: Quberniya məclis idarəsinin

və ruhani fərdlərin şikayətlərinə baxmaq, məlumatların təqdimatı və tərtibatına, hesabatlara, dini məktəblər və dini adların verilməsi üçün imtahan proqramlarının hazırlanması, dini mənsəblərin təyin edilməsi, ruhani fərdlərin təcrübədən keçirilməsinə nəzarət və s. dini adətlərin keçirilməsi, nikah, dini qaydaların və ənənələrin pozulması kimi mübahisəli hallarda həmçinin müsəlmanlar arasında mübahisəli məsələlərin həllində son qərar çıxartmaq da idarənin üzərinə düşürdü. Tiflisdə yerləşən idarənin fəaliyyəti Qafqaz Mülki İdarəsinin Baş Komandanının nəzarəti altında həyata keçirilirdi (2, f. 290).

Ruhani idarəsinin yarandığı tarixdən onun dəftərxanası da yaradıldı. Dəftərxananın işçi tərkibi bir katib, 2 köməkçi və mirzələrdən ibarət idi. Ruhani idarəsinin işlərini şeyxülislam yoxlayırdı. Dəftərxana Bakı, Tiflis və Qazax mahalında doğulanların, vəfat edənlərin və nikahı kəsilənlərin hesabat cədvəllərini hazırlayırdı. Hökumət əleyhinə çıxış edənlər idarədən uzaqlaşdırılırdı.

Hal-hazırda Azərbaycan Respublikası Dövlət Tarix Arxivinin xəzinəsində Şeyxülislam idarəsinin fəaliyyəti ilə bağlı 2 siyahıda verilmiş 3911 sənəd mühafizə olunur. Siyahı ruhani idarəsinin vəzifələri ilə bağlı aşağıdakı məzmunlarda olan sənədləri əhatə edir: müsəlman ruhaniliyinə daxil olan fərdlərin yoxlanılması qaydaları, Bakı və Yelizavetpol quberniyalarında, eləcə də Zaqafqaziyada olan məscidlərin, məscid məktəblərinin, onlarda təhsil alanlar və ruhani titulları alanlar haqqında sənədlər, vəqfnamələr və s. Fonda daxil olan sənədlərdən çoxu Bakı və Yelizavetpol quberniyalarında doğum, ölüm, nikah və talaq haqqında olan şəhadətnamələrdən ibarətdir.

Fondda İrəvan Quberniyası ilə bağlı da tarixi sənədlər vardır. Hər şeydən öncə qeyd edək ki, XX əsrin əvvəllərinə qədər Bakı, Təbriz, Xoy, Naxçıvan və başqa şəhərlər ilə yanaşı İrəvan da Azərbaycanın aparıcı elm və mədəniyyət mərkəzlərindən biri olmuşdur. Belə ki, elm, din və ürfan böyüklərinin Badkubeyi, Gəncəvi, Lənkərani, Tiflisi, Bərdəi, Qarabağı nisbələri kimi İrəvani təxəllüslü ilə seçilən nümayəndələri də olmuşdur. Azərbaycanın elm və incəsənət tarixinə ““İrəvani” təxəllüsü ilə daxil olmuş” (7, 23) xeyli elm adamına rast gəlmək mümkündür ki, onların arasında din xadimlərinin xüsusi yeri vardır. Həzrət Ayətullahlar Əllamə Mirzə Əli İrəvani, Şeyx Məhəmməd Cavad İrəvani, Şeyx Əbdülhöccət İrəvani, Mirzə Yusif İrəvani, Hacı Seyid Əbdülməcid İrəvani, Hacı Şeyx Məhəmməd Təqi İrəvanini və b. göstərmək olar ki, “bəşəriyyət haqqa qovuşmaq üçün” dünya, eləcə də Azərbaycanın digər bölgələrindən olan din alimləri kimi adları sadalananlara da borcludur (9,.20.) . Hər bir cəmiyyətin əslini onun keçmişində axtarmaq lazımdır. Bu baxımdan, elmin bütün sahələrində olduğu kimi, “İrəvani” təxəllüslü alimlərin din tariximizdə də qalması adı çəkilən bölgədə azərçaycanlıların kompakt yaşadığına dəlalət edən faktdır. Bir qədər geriyə nəzər salsaq, fikrimizi təsdiqləyən tarixi olayların şahidi olarıq. Belə ki, İrəvan quberniyası Rusiya imperiyası tərkibində Cənubi Qafqazda inzibati ərazi vahidi olub, mərkəzi İrəvan şəhəri idi. 1849-cu il iyunun 9-da yaradılmış İrəvan quberniyası İrəvan, Aleksandropol, Novobayazet, Naxçıvan və Ordubad kimi beş qəza dan ibarət idi. Bəzi qəzalar sahələrə bölünmüşdü. İrəvan quberniyasında Zəngibasar, Sürməli, Şərur və Sərdarabad sahələri var idi. Naxçıvan qəzası isə Naxçıvan və Dərələyəz sahələrinə bölünmüşdü. Ordubad qəzasında sahələr yox idi. Şərur sahəsinin inzibati mərkəzi Başnoraşen kəndi, Dərələyəz üçün Keşişkənd, Naxçıvan üçün Naxçıvan şəhəri idi. Digər sahə inzibati mərkəzləri iri kəndlərdə (Qəmərli, Qazıqışlaq, Zeyvə və b.) idi. İrəvan quberniyası təşkil edildikdən sonra da onun xarici hüdudları və tərkibi müəyyən dəyişikliklərlə müşahidə edilmişdi. Bu tədbirlərdə məqsəd idarəçilik üsulunu təkmilləşdirməklə yanaşı, azərbaycanlıların əksəriyyət təşkil etdiyi əraziləri ermənilər yaşayan ərazilərlə birləşdirib birincilərin təsir dairəsini azaltmaq, idarə aparatında ikincilərin nümayəndələrini yerləşdirmək, beləliklə, ərazini yavaş-yavaş ermənileşdirmək olmuşdur. Nəticədə, 1917- ci ilin statistikasına görə keçmiş İrəvan quberniyası əhalisinin 38 faizini müsəlmanlar, 60 faizini ermənilər təşkil edirdi: Şərur-Dərələyəz mahalında ümumi əhalinin 66.7 faizi, Sürməlidə 63.6 faizi, Naxçıvanda 59 faizi müsəlmanlar idi. İrəvan şəhərinin özünün əhalisi 43.4 faiz müsəlmanlardan ibarət idi. Ermənistan ərazisində əsrlər boyu yaşamış azərbaycanlılara məxsus zəngin tarixi-mədəni-dini irs nümunələri mövcud olmuşdur. Hələ 1869-cu ildə Qafqaz Rusiya qubernatorluğunun dərc etdiyi “1870-ci il üçün Qafqaz təqvimi” adlı sənəddə verilən statistik məlumatlara görə, təkcə İrəvan quberniyasında 269 məscid olmuşdur. Son zamanlar bu sayın 310 olduğunu da söyləyənlər vardır. Göy məscid, Novruzəlibəy məscidi, Günnüklü məscid, Hüseynəli məscidi, Qala məscidi, Hacıbəyim məscidi, Şəhər məscidi, Zalxan məscidi səhərin mərkəzi küçələrində yerləşirdi. 1829-cu ildə yaranmış İrəvan Quberniya Ruhani Məclisi İrəvan şəhərində Göy məsciddə yerləşirdi. Məclis bir rəis və bir neçə üzvdən ibarət idi.

quberniyanın Aleksandropol, Naxçıvan, Novobayazet, Sürməli, Şərur-Dərələyəz, İrəvan,Eçmiədzin və Ordubad qəzalarının müsəlmanlarına xidmət edirdi. Qəza qazilərini, Şəhər və kənd prixod axundlarını təyin edir, imtahan götürürdü. İrəvan Quberniya Ruhani Məclisi quberniya ərazisində olan vəqf torpaqlarını idarə edir, icarəyə verirdi. İrəvan Quberniya Ruhani Məclisi quberniya ərazisində olan məscid, türbə, zaviyə və digər dini tikiləri inşa və təmir edirdi, İmüsəlmanların doğum və vəfat qeydlərini aparırdı. İrəvan Quberniya Ruhani Məclisi 1918-ci ildə ləğv olunub (11).

Azərbaycan Respublikası Milli Dövlət Arxivində İrəvan Quberniya Ruhani Məclisi və onun üzvləri, səlahiyyət və vəzifələri ilə bağlı tarixi sənədlər mövcuddur. Həmin sənədlərdən biri də Əməkdaşların Formular Xidmət Siyahısıdır. Bu siyshıda İrəvan Quberniya Məclisinin qazisi vəzifəsini icra edən Axund Məmmədbağır Hacı Molla Mehdi oğlu Qazizadə, işlər vəkili İsmayıl Bəy Hacı Mirzə Hüseyn bəy oğlu Mirzə Bağırbəyov, məclisin üzvü Axund Abdulla Axund Qaziyev Xəlil oğlu, məclisin üzvü vəzifəsini icra edən Axund Molla Əli Məşhədi Müzəffər oğlu Əli Nağıyev və başqaları haqqında məlumat vardır.

Axund Məmmədbağır Hacı Molla Mehdi oğlu Qazizadə İrəvan Quberniya Məclisinin sədri vəzifəsini icra edirdi. "Əzimkarlığa görə" gümüş medalı ilə təltif olunmuşdur. Bir ildə qazi vəzifəsinə görə 300 manat, dəftərxana xərclərinə görə 150 manat, Quberniya Məclisinin üzvü olduğuna görə 100 manat, İrəvan Müəllimlər Seminariyasında dərs dediyinə görə 500 manat, xarici dil müəllimi kimi 445 manat, cəmi 1495 manat məvacib alırdı. Təhsilini ali müsəlman təhsil müəssisəsində almışdı. İrəvan Quberniyasının təklifi ilə İrəvan Müsəlman Şəriətinin üzvü təyin edilmişdi. İrəvan şəhərinin sakini Şəhrəbanu Bəyim Ağa Mircəfər qızı ilə evlənmişdir. Bu izdivacdan 1878-ci ildə qızı Rüqəyya xanım dünyaya gəlmişdir. Şəhrəbanu Bəyim Ağa vəfat etdiyindən ikinci dəfə ailə həyatı qurmuş və bu izdivacdan oğlu Musa dünyaya gəlmişdir. Bu xanımla böşandəğından üçüncü dəfə Fizə Bəyim xanım Hacı Mir Həsən qızı ilə evlənmiş və daha bir oğlu dünyaya gəlmişdir (12, 51).

İsmayıl bəy Hacı Mirzə Hüseyn bəy oğlu Mirzə Bağırbəyov bir ildə 294 manat məvacib alır. İrəvan Quberniyasınnın bəy ailəsindəndir. Xüsusi mülki olmayıb. İrəvan Quberniyasında təhsil almışdır, tam kursu bitirmişdir. 1890-cö il, 16 noyabr tarixdən İrəvan Quberniya məclisinin işlər müdiri vəzifəsinə təyin edilmişdir. Statistika məsləhətçisi Qazi İsmayıl bəyin qızı Fatimə xanımla evlənmiş, 18 oktyabr, 1888-ci il tarixdə Ağabəy, 17 dekabr, 1893-cü ildə Əbülfət adlı oğlanları, 8 oktyabar, 1890-cı il tarixdə Həyat xanım adlı qızı dünyaya gəlmişdir (12, 58).

Axund Abdullah Axund Xəlil oğlu Qaziyev 39 yaşında ikən İrəvan Quberniya Məclisinə üzv seçilmişdir. İldə 300 rubl məvacib alırdı. Şiə məzhəbdir. İrəvan zadəgagan ailəsindən çıxmışdır. Şəhər məhəlləsində evi və İrəvan uyezdinin Reyhanlı kəndində bağ yeri vardır. Bunlar miras kimi ona qalan paydır (12, 61).

Axund Molla Əli Məşhədi Müzəffər oğlu Əli Nağıyev İrəvan Quberniya məclisinin üzvi vəzifəsini icra edəndə 44 yaşı var idi. Şiə məzhəblidir. Fərqlənmə nişanları yoxdur. İllik əmək haqqı 300 manatdır. Dini təhsilini Təbrizdə almışdır. İrəvan Quberniyasının qubernatorunun 9 dekabr, 1892-ci il tarixli, 5115 saylı əmrinə əsasən bu vəzifəyə təyin edilmişdir. Sonradan İrəvan Quberniya Məclisinə üzv seçilmişdir. Ruhani ailəsindəndir. İrəvan şəhərinin Seyid Kənar kəndinin sakini Sayalı Əli qızına evlənmiş, 20 yanvar, 1882-ci il tarixdə Rübabə adlı qızı dünyaya gəlmişdir (12, 64).

Aydındır ki, tarixi abidələrin mövcudluğu həmin ərazidə yaşayan xalqların milli mənsubiyyətindən və dinindən xəbər verir. Bu baxımdan, bir qədim şəhərdə 269 (6) və ya 310 məscidin olması, əlbəttə əhalinin əksəriyyətinin müsəlmanlardan ibarət olduğuna dəlalət edir.

İSTİFADƏ OLUNMUŞ ƏDƏBİYYAT

Sandığın, sandıqçanın, eləcə də mücrünün qız-gəlin və qadınlarımızın həyatında, məişətində əhəmiyyətini, rolunu elə Azərbaycan poeziyasında da görmək mümkündür. Bu, Gülhüseyn Hüseynoğlunun "Mücrü" mənsur şeirində daha aydın verilmişdir. Bu şeiri şərti olaraq iki yerə bölmək olar: qızın ər evinə gedib gəlin olması, ana kimi həyatını davam etdirməsi; ikinci hissə isə gəlinin yaşa dolması, müharibə, onun yaratdığı vəziyyət. Bu iki hissə mücrü ilə bağlı işlənmişdir. İndi şeirin birinci hissəsinə baxaq:

O gəlin köçəndə anası mücrü də qoydu cehizin üstə. "Gəlin mücrüsüz olmaz" dedi. Nənə yadigarı idi bu balaca, naxışları solğun mücrü. İndi də onun qisməti oldu.

O, üzük, qızıl saat və sırğalarını qoyardı mücrüyə. Mücrü paltar dolabında ən yuxarı gözə qalxmışdı. Əzizlənirdi mücrü, sevilirdi mücrü.

Bir gün gəlin ana oldu. Əri hədiyyə ilə evə gəldi. Açıldı mücrü, cavan ana qızıl boyunbağını qoydu, ötrüldü mücrü.

İkinci uşaq dünyaya gəldi. Açıldı mücrü, örtüldü mücrü.

Üçüncü... dördüncü... beşinci...

Açıldı mücrü, örtüldü mücrü.

Doldu mücrü.

Mənsur şeirin ikinci hissəsində mücrünün boşalması, eyni zamanda yenidən dolması əks olunur. Müəllif göstərir ki, qadının əri müharibəyə getdiyindən evdə durum, yaşayış ağırlaşır. Bunu şair belə təsvir edir:

Açıldı mücrü, örtüldü mücrü. Nişan şeyləri, ər hədiyyələri bazara ayaq açdı...

Kədərlə açıldı mücrü, kədərlə örtüldü mücrü.

Boşaldı mücrü.

Bundan sonra ananın ilki diplomunu ona gətirir, yenə onu ana mücrüyə qoyur. O bir övladlar da ali təhsil alırlar... Dolur mücrü. Bu mənsur şeirin əhəmiyyəti odur ki, burada adət-ənənələrin el-obada

yaşadılması, onlara riayət olunması təsvir olunmaqla mücrünün gəlinlərin, qızların həyatında mühüm rol oynadığı da göstərilmişdir.

Biz sandığın sadəcə qızlarımızın, gəlinlərimizin, eləcə də ağbirçəklərimizin məişətində, həyatında lazımlı əşya, nəsnə olduğunu göstərdik, amma sandığın mifoloji yönləri də vardır. Bunu nağıllarımızda, dastanlarımızda daha aydın görə bilərik. Bunu bir xalq dastanımızdan parçalarda görmək mümkündür. Əslində "Mahmud-Nigar" və ya "Mahmudla Nigar" adlanın bu məhəbbət dastanında sandıqda olan oğlanla qızın Qaraca oğlan deyilən bir haqq aşığı tərəfindən dirildikləri təsvir olunur. Birinci variantda belə deyilir: "Elə bu zaman Qaraca oğlan adlı bir haqq aşığı gəlib çıxdı" (7, 226). Bu qeyd etdiyimiz dastanın ikinci variantında istər sandıq haqqında, istərsə də Qaraca oğlan barədə məlumat xeyli çoxdur. İndi həmin dastan parçalarına nəzər salaq.

"Paşanın əmri ilə Nigar xanım ilə Mahmudu sandığa qoyub tulladılar dəryaya" (7, 90).

"Sandığı bağa gətirib ağzını açdıqda gördü bu sandıqda iki cavan qol-boyun olub, tər tökə-tökə yatırlar. Bağban Qaraca oğlan sazını götürüb dedi" (7, 92). Bu haqqında danışdığımız dastanda Qaraca oğlan adlı haqq aşığının iki şeiri verilib. Bu şeirlərdən birincisi daha çox diqqətçəkicidir, burada Məryəm ananın beşiyinin, eləcə də Nuh peyğəmbərin gəmisinin ağacdan oldugu xatırladılır. Dastanda Qaraca oğlanın sazını götürüb çalıb-oxuduqdan sonra Mahmudla Nigarın dirilməsi göstərilir (7, 93). Bizə elə gəlir ki, burda dastan qəhrəmanlarının sandığa qoyulması, eləcə də onların bir haqq aşığı tərəfindən dirildilməsi təsadüfi hadisə deyil. Burada sandığın mifoloji cəhəti, daha doğrusu, ağacın qədim inanclarımızda mühüm yer tutması məsələsi əks olunmuşdur. Sandıq el-oba arasında onun sahibinin sirri, dünyası sayıldığından təbii ki, mifoloji anlama da malikdir, axı o ağacdandır. Buna görə şeirdə Məryəm ananın beşiyi, Nuh peyğəmbərin gəmisi xatırladılır. Buradan Qaraca oğlanın möcüzəsinin mənbəyi məlum olur. Bu sazdır, axı o da ağacdan hazırlanmışdır. Deməli, dədə-babalarımızın dini görüşlərində və inanclarında ağac da əhəmiyyət daşımışdır. Mirəli Seyidov yazır: "Dünya ağacının bəlgəsi olan ağac ona tapınanları qoruyur" (9, 257).

Bu qeyd edilənlərdən sandığın qoruyuculuq cəhəti də məlum olur. O, Mahmudla Nigarı dəryada boğulmaqdan qoruyur, bu sevgililər sazın (saz da ağacdandır) sayəsində sağlamlıqlarına qovuşurlar. Bizə elə gəlir ki, beşiklərin də ağacdan hazırlanması, nağıllarımızda rastlanan yeni doğulan uşağın ağacın altına qoyulması ("Simnarın nağılı"da) da dediklərimizin səhihliyini təsdiq edir. Yəni qız-gəlin və nənələrimizin – ağbirçəklərimizin həyatında, məişətində sandıq mühüm yer tutur, onun mifoloji anlamı da vardır.

ƏDƏBİYYAT

1. Söyləyəni: Mahmudova Rəhilə Qara qızı, 1931-ci il təvəllüdlü (Şabran rayonu, Zöhramı kəndi)

2. Söyləyəni: Zülfüqarova Ədilə Baba qızı, 1936-cı il təvəllüdlü (Şabran rayonu, Zöhramı kəndi)

3. Söyləyəni: Zülfüqarova Mömünə Baba qızı, 1938-ci il təvəllüdlü (Şabran rayonu, Zöhramı kəndi)

4. Söyləyəni: Xəlilova Ünbül Baba qızı, 1940-cı il təvəllüdlü (Xaçmaz rayonu)

5. Söyləyəni: Sultan Orucoğlu, 74 yaşında (Bakı şəhəri)

6. Azərbaycan bayatıları (tərtib edənlər: B.Abdulla, Q.Babazadə, E.Məmmədli). Bakı: XXI-Yeni nəşrlər Evi", 2004

7. Azərbaycan dastanları. Beş cilddə, V cild. Bakı: Lider nəşriyyatı, 2005.

8. Məhəbbət dastanları (tərtib edən: R.Rüstəmzadə). Bakı: Gənclik, 1982

9. M.Seyidov. Azərbaycan xalqının soykökünü düşünərkən. Bakı: Yazıçı, 1989

10. İnternet resursları.

ÜNSİYYƏT PROSESİNDƏ QARŞILIQLI ANLAMA VƏ ONUN QURULMASININ MƏRHLƏLƏRİ

MUTUAL CONCEPT IN THE COMMUNICATION PROCESS AND STAGES OF ITS ESTABLISHMENT

Dosent,psixol.ü.f.d. Ülviyyə Akif qızı Əfəndiyeva

Azərbaycan Dövlət Pedaqoji Universiteti

ORCID ID: 0000-0002-3029-2468

ÖZET

Uğurlu ünsiyyətin vacib şərti danışanlar arasıdakı qarşılıqlı anlamadır.Qarşılıqlı anlama ünsiyyət quranların bu və ya digər hadisəni, hərəkətləri, davranışı başa düşməsinə gətirib çıxarır. Qarşılıqlı anlamanın olmaması isə konfliktə səbəb ola bilər.

Qarşılıqlı anlamanın qurulması üçün iki şərtdən biri ən azı olmalıdır:

- situasiyanın qiymətləndirilməsinin üst-üstə düşməsi;
- situasiya və əməllərin başqaları tərəfindən qymətləndirilməsinin anlaşılması və bəraət qazandırılması.

Amma buna nail olmaq və bir-birini anlamaq üçün bir sıra mərhələlərdən keçmək lazımdır:

1. Ünsiyyət partnyoru haqqında ilkin təəssüratın yaranması. Ünsiyyət obyektinin dərk olunması ya onun haqqında başqalarından məlumat toplamaqla, ya da ünsiyyət partnyorunun özünü bilavasitə qavramaqla başlayır. Qabaqcadan rəy formalaşdırmağın təhlükəli tərəfi ondan ibarətdir ki, onları hətta sübut olsa belə dəyişmək çətindir. Obyekt haqqında məlumatın alınmasının II yolu ünsiyyət partrnyoru ilə bilavasitə kontakta girməkdir.

2.Ünsiyyət partnyorunun öyrənilməsi və anlaşılması. Ünsiyyət partnyorları arasında qarşılıqlı anlamanın qurulması yolundakı ikinci mərhələ onun daxili aləminə varmaqdır. Bu iki üsulla həyata keçirilir: partnyorun ayrı-ayrı əməl və psixi halları haqqında operativ-cari informasiyanın təhlili vasitəsi ilə, onun şəxsiyyətinin davamlı xüsusiyyətlərinin əks etdirilməsi vasitəsilə.

3. Başqalari tərəfindən özünün anlaşılmasını təmin etmək. Bu vəzifəni həll edə bilmək üçün tələb olunan partnyorun səni başa düşməsidir. Bunun üçün opponentə görə daha münasib özünüifadə forması tapmaq və özünə məhdudiyyət qoymamaq lazımdır.

4. Mövqelərin yaxınlaşması 2 səviyyədə həyata keçirilir: I səviyyə - bir-birinin məqsədlərini, motivlərini, yönəlişlərini anlama, II səviyyə - yalnız anlama deyil, həm də yuxarıda deyilənləri qəbul etmə, bölüşdürmə. Bu da xüsusu olaraq dostluğun, simpatiyanın məhəbbətin yaranmasına gətirib çıxararır.

5.Qarşılıqlı anlamanın dəstəklənməsi. Qarşılıqlı anlamaya nail olma hələ işin yarısıdır, çalışıb onu saxlamaq lazımdır. Bu zaman bir neçə şərt əsasdır: 1)hər iki ünsiyyət partnyorunun əldə olunmuş qarşılıqlı anlamanı saxlamaq istəyi, 2) onlar tərəfindən müəyyən suallarda fikir ayrılığı yaranan zaman hövsələli, ünsiyyətdə təmkinlilik, güzəştə getmək və takt nümayiş etdirmək.

Açar sözlər: qarşılıqlı anlama, özünütəqdimat, identifikasiya, refleksiya.

ABSTRACT

An important condition for successful communication is the mutual understanding between the speakers. Mutual understanding leads the communicators to understand this or that event, action, behavior. Lack of mutual understanding can lead to conflict.

There must be at least one of the two conditions for establishing mutual understanding:

• overlap in assessment of the situation;

• Understanding and justifying the assessment of situations and actions by others.

But to achieve this and understand each other, you need to go through a number of stages:

1. Giving a first impression of a communication partner. Perception of the object of communication begins either by gathering information about it from others, or by directly perceiving the communication partner himself. The danger of preconceived notions is that they are difficult to change, even if there is evidence. The second way to get information about the object is to contact the communication partner directly.

2. Learning and understanding the communication partner. The second step in building mutual understanding between communication partners is to reach their inner world. This is done in two ways: through the analysis of operational-current information about the individual actions and mental states of the partner, through the reflection of the continuous characteristics of his personality.

3. Ensuring self-understanding by others. What is required to solve this task is that the partner understands you. To do this, it is necessary to find a more appropriate form of self-expression for the opponent and not to limit himself.

4. Convergence of positions is carried out on 2 levels: Level I - understanding of each other's goals, motives, directions, Level II - not only understanding, but also acceptance and sharing of the above. This, in particular, leads to the emergence of friendship, sympathy and love.

5. Supporting mutual understanding. Achieving mutual understanding is still half the battle, it is necessary to work and keep it. In this case, several conditions are essential: 1) the desire of both communication partners to maintain the mutual understanding, 2) to be angry, restrained, compromise and tactful when they disagree on certain issues.

Keywords: mutual understanding, self-presentation, identification, reflection

GİRİŞ

Uğurlu ünsiyyətin vacib şərti danışanlar arasıdakı qarşılıqlı anlamadır. Qarşılıqlı anlama ünsiyyət quranların bu və ya digər hadisəni, hərəkətləri, davranışı başa düşməsinə gətirib çıxarır. Qarşılıqlı anlamanın olmaması isə konfliktə səbəb ola bilər. Məsələn, israrlılıq, inadkarlıq, sözünün üstündə durmaq valideyn və müəllimlər tərəfindən tərslik kimi, təşəbbüskarsızlıq, intizamsızlıq kimi qəbul olunursa, bu zaman onlar uşaqda inkişaf etdirmək istədikləri iradi keyfiyyətləri formalaşdıra bilməyəcəklər. Və ya müəllim və valideynlərin tələbkarlığı uşaq tərəfindən bezdiricilik kimi qəbul olunarsa, tərbiyədə effektivlik artmayacaq.

Qarşılıqlı anlamanın qurulması üçün iki şərtdən biri ən azı olmalıdır:

- situasiyanın qiymətləndirilməsinin üst-üstə düşməsi;
- situasiya və əməllərin başqaları tərəfindən qymətləndirilməsinin anlaşılması və bəraət qazandırılması.

Amma buna nail olmaq və bir-birini anlamaq üçün bir sıra mərhələlərdən keçmək lazımdır:

1) ünsiyyət partnyoru haqqında ilkin təəssüratın yaranması;

2) ünsiyyət partnyorunun öyrənilməsi və anlaşılması;

3) başqalari tərəfindən özünün anlaşılmasını təmin etmək;

4) mövqelərin yaxınlaşması və qarşılıqlı anlamanın dəstəklənməsi.

ARAŞDIRMA

1. Ünsiyyət partnyorunun qavranılması və onun haqqında ilkin təəssüratın yaranması.Ünsiyyət obyektinin dərk olunması ya onun haqqında başqalarından məlumat toplamaqla, ya da ünsiyyət partnyorunun özünü bilavasitə qavramaqla başlayır. Ünsiyyət öncəsi mərhələdə başqalarından məlumat əldə etmə insanda gələcək ünsiyyət obyekti haqqında müəyyən rəy, onun qavranılmasına yönəliş yaradır. Müəyyən səbəblərdən bu, hər zaman obyektiv olmur. Birincisi, hansısa insan haqqında söylənilən məlumatlar hər zaman emosional boyaya malikdir və daha çox informasiya mənbəyi olan insanla gələcək ünsiyyət partnyoru arasındakı münasibəti əks etdirir. Maraqlısı odur ki, neqativ informasiya bizim təəssüratımıza daha güclü təsir göstrərir. İkincisi, formalaşan rəy daha çox insanın ünsiyyət partnyorundan nə gözləməsindən asılıdır. Məsələn, ilk dəfə dərsə gedən müəllimin vəziyyətini nəzərdən keçirək. Başqa müəllimlərin siniflə bağlı rəyi pisdirsə, deməli müəllimin gözləntiləri vəziyyətin mənfi modelinin qurulması ilə əlaqələndirilir. Bu vəziyyət müəllim üçün arzuolunmazdır. O istəsə də, istəməsə də gərgin vəziyyətə uyğun olaraq özünü müdafiəyə hazırlayır. Beləliklə, müəllim şagirdlərlə ilk görüşdən özü haqqında xoşagəlməz təəssürat yaradır və özü də sinif haqqında pis fikirdə olur. Onların bir-birini qarşılıqlı anlaması uzun müddət mümkün olmur.

Qabaqcadan rəy formalaşdırmağın təhlükəli tərəfi ondan ibarətdir ki, onları hətta sübut olsa belə dəyişmək çətindir.

Əks cinsdən olan ünsiyyət partnyorlarına qarşı ilkin formalaşdırılmış (mənfi) rəy hətta məktəbəqədər uşaqlarda belə özünü göstərməkdədir. Bir çox işlərdə göstərilib ki, öz cinsindən olanların qiyməti əks cinsdən olanlarınkına nisbətən daha yüksəkdir. Bu meyl 2-3 yaşdan özünü təzahür etdirir (Jaklin, Maccoby, 1978, La Freniere et al., 1984). Belə cinsi seqreqasiya ildən-ilə artır.

Qruplar çox vaxt digər qrupların üzvlərinin mənfi keyfiyyətlərini vurğulamaqla və xarici düşmən obrazı yaratmaqla daxili həmrəyliklərini gücləndirirlər. Bu, həm kişilər, həm də qadınlar üçün xarakterikdir: hər ikisi həvəslə kəskin zarafat edir,əks cinsin nümayəndələri haqqında aşağılayıcı şərhlər verirlər (4, s. 226).

İlkin təəssüratın yaranmasında cins-rol stereotiplərinin də rolu danılmazdır. Bu məsələdə həm rus, həm də qərb tədqiqatçıları əsasən eyni nəticələrə gəlib çıxırlar.

Gələcək ünsiyyət partnyoru haqqında ilkin adekvat təsəvvürün yaradılması informasiya mənbəyinə inam ya inamsızlıqdan da asılı ola bilər. İnformasiya tam düzgün olsa da, qəbul olunmaya bilər və əksinə, informasiya səhv ola bilər amma qəbul oluna bilər.

Obyekt haqqında məlumatın alınmasının II yolu ünsiyyət partrnyoru ilə bilavasitə kontakta girməkdir. Bu zaman söhbət qavramanın psixo-fiziki deyil, sosial-psixoloji prosesindən gedir. Başqa insanı qavramaq (sosial-persepsiya) onun xarici keyfiyyətlərini şəxsiyyətinin xarakteristikası ilə uyğunlaşdırıb və onun əsasında da davranışını şərh etmək deməkdir. Sosial persepsiyanın əhəmiyyəti ondan ibarətdir ki, tanışlıq zamanı yaranan partnyorun obrazı əsasında biz onunla gələcək ünsiyyətimizi qururuq.

İnsanın fiziki keyfiyyətləri əsasında bizim ilkin təəssüratımız belə ardıcıllıqla əmələ gəlir: irq (milliyyət), cins, yaş, xarici görünüş, üz ifadəsi, göz təması, hərəkətlər, şəxsi məkan və toxunma (Gardenswarts, Rowe, 1998). İlkin təəssürat həm də sosial davranış əsasında formalaşa bilər. Məsələn həmsöhbətin sözünü kəsən insan, nəzakətsiz adam kimi qavranıla bilər.

Bəzi adamlar başqa insanı qavrayarkən fiziki əlamətlərə (xarici görünüş), digərləri isə psixoloji xarakteristikalar (davranış) əsaslanırlar.

Qadın və kişilər başqalarının fərqli xüsusiyyətlərinə diqqət yetirirlər. Kişilər və oğlanlar başqalarını qabiliyyətlər terminində görür və qiymətləndirir ("o yaxşı rəsm çəkir"), qadınlar isə - Mən-konsepsiya terminlərində ("o düşünür ki, yaxşı çəkir"). Kişi təsəvvürləri daha çox ünsiyyətlə əlaqəsi olmayan fəaliyyəti özünə daxil edir, qadınlar isə şəxsiyyətlərarası münasibətləri təsəvvülərinə daxil edirlər.

Qadınlar kişilərdən fərqli olaraq, başqa insanın dah detallı təsvirini verə bilirlər. Bu əsasən A.A.Bodalyovun tədqiqatlarında müəyyən olunmuşdur. Qızlar oğlanlara nisbətən (əməyə münasibətdən başqa) şəxsi keyfiyyətləri daha çox qeyd etmişlər. Bu zaman kommunikativ xüsusiyyətlərin və

intellektual keyfiyyətlərin qeyd olunmasında cinsi fərqlər özünü aydın göstərirdi. Oğlanlar tərəfindən isə şəxsiyyətin bütöv xarakteristikası qızlara nisbətən 2 dəfə artıq verilirdi (5, s.180).

Şamiletmə ünsiyyət partnyorunu qiymətləndirən insanın xarakter xüsusiyyətlərindən də asılıdır. Şamiletmə zamanı insanlar çox hallarda öz xüsusiyyətlərini başqalarına aid edirlər. Şamiletmə informasiyanın azlığından oreol effektinə, yenilik və ilkinlik effektinə, kateqoriyalaşdırma və stereotipləşdirmə effektlərinə əsaslana bilər. Oreol effekti – hal-hazırda müşahidə olunmayan keyfiyyətlərin haqqında yaxşı düşünülən insana şamil edilməsidir: məsələn, şagirdlər idman müəlliminin pencəyində idman ustası nişanını görəndə onun həm də yaxşı professional-pedaqoq olduğunu düşünürlər. Oreol effekti xüsusilə növbəti hallarda yaranır:

1) Qavrayan baş çıxarmadığı əlamətlər haqqında danışır;

2) Əlamətlər mənəviyyatla əlaqələndirilir;

3) Qavrayan adam həmin insanı yaxşı tanımır.

Yenilik və ilkinlik effekti ondan ibarətdir ki, insan haqqında ilkin təəssürat sonrakından daha güclü olur. Ona görə də müəllimin şagirdlər qarşısında ilk dəfə çıxması böyük əhəmiyyəitə malikdir.İnsan haqqında ilk təəssüratı düzəltmək uzunmüddətli bir proses olub çətinliklə yaranır.

Kateqoriyalaşdırma effekti ondan ibarətdi ki, insanlara bu və ya digər xarakteristikalar onun aid olduğu kateqoriyadan asılı olaraq şamil olunur (məsələn, yönəlişdən asılı olaraq, psixoterapevtlər bir halda eyni insanı xəstə kimi, digər halda isə normal kimi dəyərləndirirlər).

Stereotipləşdirmə effekti ondan ibarətdir ki, insan haqqında hökm özünün məhdud keçmiş təcrübəsinə ya başqalarının ünsiyyət subyekti tərəfindən tənqidi qəbul olunmayan sabitləşmiş rəyinə əsaslana bilir. Sterotiplər – müəyyən qrup üzvlərinin xarakteristikalarının yaxud gözlənilən davranışının sadələşmiş və standartlaşmış konsepsiyalarıdır. Stereotipləşmə - insanın məxsusi xüsusiyyətləri ilə müəyyən qrup mənsubu kimi eyniləşdirilməsidir. Stereotiplər həm mənfi, həm də müsbət rol oynaya bilər.

V.N.Panfyorov (1968,1982), A.A.Bodalyov (1970) müəyyən etmişlər ki, şamiletmə effekti qiymətləndirmə stereotipinə uyğun olaraq bunlarda təzahür edir:

1. antropoloji etalon-stereotiplərdə (köklük xoşqəlbliliklə, qamətlilik - əminlik və intellektuallıqla, böyük alın – ağılla, boyük aşağı çənə - banditliklə və s. əlaqələndirilir);

2. etnososial stereotiplərdə (alman –pedant, cənublu – temperamentli, azərbaycanlı – qonaqpərvər və s.);

3. sosial-status stereotiplərində (rəsmi status boyük olduqca insanlar həmin adamı eruditli sayır);

4. sosial-rol stereotiplərində (həkim – mehriban, hərbiçi – cəsur, alim – dalğın, ağıllı və s.);

5. ekspressiv-estetik stereotiplərdə (insanın xarici görünüşü nə qədər cazibədardısa, bir o qədər o, şəxsi keyfiyyətlərlə dolub daşır).

Fiziki cazibədarlıq stereotipi. Pedaqoqlar xarici cazibədar tələbələri daha ağıllı kimi qavrayırlar (Clifford, Walster, 1973). İnsanlar elə düşünürlər ki, yaraşıqlı adamlar bizim arzu etdiyimiz xüsusiyyətlərə malikdirlər: gözəldir deməli yaxşı adamdır. Bunu uşaqlar da mənimsəyirlər: kukla qəşəngdirsə deməli mehribandır. Fiziki cazibədarlıq stereotipində həqiqət də vardır. Belə ki, xarici cəhətdən yaraşıqlı uşaqlar və gənclər daha tarazlı, ünsiyyətlidirlər, özlərini cəmiyyətdə daha yaxşı aparırlar. Qərbdə daha cazibədar olanlar ən yaxşı vəzifələri tutur və daha çox qazanırlar (Umberson, Hughes, 1987).

Ünsiyyət partnyorunu daha realist qavramaq üçün bu məsləhətləri yerinə yetirmək yaxşı olardı (Verderber R., Verderber K., 2007):

1. Öz qavryışınızın dəqiqliyindən əmin olun; Bu zaman öz fikrinizi dəqiqləşdirmək lazımdır:"Mən səhv edə bilərəm, bunu necə aydınlaşdırmaq olar", bu zaman insan informasiyanı dəqiqləşirməyə çalışır.

2. Qavrayışınızın təsdiqi üçün daha çox informasiya axtarın; Çox informasiya almaq üçün insanın özü ilə danışmaq lazımdır. Bəzən biz bundan qaçırıq. Öz inamsızlıq və çəkingənliyimizi aradan götürmək lazımdır.

3. Insanlar haqqında rəyinizi dəyişmək imkanını mümkün və məcburi sayın; Əlbəttə ilk təəssüratı dəyişmək çətin olur.Amma köhnə təəssürata əsaslanmaq bizə baha başa gələr, nəinki yenidən fikrimizə baxmaq.

4. Öz qavrayışınızı çıxarışlarınızın düzgünlüyündən əmin olmaq üçün yoxlayın. Həmin insanı bir qədər vaxt müşahidə etməklə öz lik təəsüratımızı dəyişmək mümkündür.

Özünütəqdimat müəyyən məqsədlərə çatmaq üçün vasitə kimi istifadə olunur. Başqalarında yaxşı təəsssürat oyatmaq üçün sosial persepsiya qanunlarını nəzərə almaq lazımdır.

Özünütəqdimat üslublarının müxtəlif təsnifatları mövcuddur. Məsələn, **E.Cons** (E.Jones, 1964, 1990) bu üslubları ayırd edir:

1) Qorxutma, hədələmə – qeyri-məhsuldar, zəif;

2) Nümunəvi davranış (nümunəyə istiqamətlənmə) – ikiüzlü;

3) İnqrasiasiya (özünü və başqalarını tərifləmə, konformluq və s.) – yaltaq, razı salan conformist;

4) Xahişkarlıq – tənbəl.

Y.S.Krijanskaya və V.P.Tretyakov (1990) bunları fərqləndirir:

1. Üstünlük özünütəqdimi. Məsələn, asılı olmayan manera, kəskin səs tonu, başqalarının iştirakından utanmamaq, imtina etməyi qəbul etməmək və s. kimi özünü göstərir. Və ya bahalı, brend markalı paltarlar geyinmək,və ya müdirin kabinetində böyük, dairəvi stol, böyük arxalı klreslo onun üstün olmasını daha da möhkəmləndidr.

2. Cazibədarlıq özünütəqdimi. Özünün xarici görünüşünə fikir vermək, makiyaj etmək, saçını qaydasına salmaq və s.

3. Münasibətlər özünütəqdimi. Gülümsəmək, başı ilə təsdiq etmək, açıq birbaşa baxış vasitəsilə partnyorla münasibəti qaydayaya salmaq olur.

4. Emosional hal özünütəqdimi. Bu emosinal davranışla bağlıdır: bəzən emosiyalarımızı göstərməyə çalışırıq və ümid edirik ki, insanlar bizi başa düşə, bəzən də onları gizlətməli oluruq.

5. Davranışın səbəbləri özünütəqdimi. Məsələn, bu şəkildə demək olar: "Mən günahkar deyildim ki...", "Vəziyyət belə gətirdi ki,.","Mən məcbur oldum ki,.." və s. Baş vermiş hadisənin səbəblərini göstərmək istəyirik.

2.Ünsiyyət partnyorunun öyrənilməsi və anlaşılması. Ünsiyyət partnyorları arasında qarşılıqlı anlamanın qurulması yolundakı ikinci mərhələ onun daxili aləminə varmaqdır. Bu idrak iki üsulla həyata keçirilir:

1. partnyorun ayrı-ayrı əməl və psixi halları haqqında operativ-cari informasiyanın təhlili vasitəsi ilə;

2. onun şəxsiyyətinin davamlı xüsusiyyətlərinin (emosional, iradi, intelektual) əks etdirilməsi vasitəsilə.

O cumlədən, identifikasiyadan istifadə olunur. İdentifikasiya (lat. eyniləşdirirəm) – insanın xəyali olaraq özünü ünsiyyət partnyorunun yerinə qoymasıdır, onun rolunun xəyali olaraq öz üzərinə götürülməsidir, öz davranışını fikrən onunku kimi qurmaqdır. Özünü başqasının yerinə qoymaq ilk baxışdan göründüyü kimi o qədər da asan deyildir. Bu bəzən gözlənilən nəticəni verməyə bilər, hətta bəzən qarşılıqlı anlamanı çətinləşdirə bilər. Bu onunla bağlıdır ki,başqasının nöqteyi nəzərinə səmimi olaraq müraciət etmək əvəzinə ona kənarda baxmaq illuziyası yarana bilər. Məsələn: ünsiyyət quranlardan birinin başqasına aid etdiyi nöqteyi nəzəri özünkündən heç də fərqlənmirdi. "Mən onun yerinə olsaydım belə etməzdim".

3.Yuxarıdakı vəzifəni həll edə bilmək üçün tələb olunan partnyorunun səni başa düşməsidir. Bunun üçün iki məsələni həll etmək lazımdır:

a) opponent üçün daha münasib özünüifadə forması tapmaq lazımdır,

b) özünə müəyyən məhdudiyyət qoymaq lazımdır.

Birinci vəzifə başqa bir şəxs tərəfindən əsassız və arzuolunmaz reaksiyaya səbəb ola biləcək hərəkətlərdən və ya ifadələrdən çəkinməklə həll olunur. Məsələn, bir insanın ağrılı yerini bilməklə, onun çatışmazlıqlarını vurğulamağa dəyməz. Bununla belə, öz çatışmayan cəhətlərini də nəzərə almaq lazımdır ki, bu da ikinci problemin - özünü məhdudlaşdırmanın həllinə gətirib çıxaracaq. Axı, qarşılıqlı anlaşma əsasən ünsiyyət quranların öz münasibətlərini necə idarə edəcəyini bildiklərindən asılıdır. Emosiyalar, onların ağıl və duyğuları bir-biri ilə necə harmoniya təşkil edir. Bu da tələb edir ki, hadisələri qiymətləndirərkən özünü, reaksiyalarını, insanlara münasibətini və digər insanların hərəkətlərini daim öyrənmək lazımdır. N.Q. Çernişevski yazırdı: "Kim ki, özünün daxilindəki insanı öyrənməyib, o heç vaxt digər insanları da dərindən öyrənə bilməz"

Ünsiyyət zamanı həmişə müsbət tərəflərə diqqət yetirmək lazımdır. Bizi partnyorun necə anladığını bilmək üçün psixologiyada refleksiya adlanan mexanizmdən istifadə olunur. Refleksiya (lat. – arxaya müraciət) – bu özünüdərkdir və insanın öz-özünü və ünsiyyət partnyoru tərəfindən necə qavranılmasını dərk etməsidir, başqa sözlə, özünə başqalarının gözüylə baxmaqdır.

Refleksiya başqa adamların sənə necə münasibət bəslədiyini, necə yanaşdığını, onların səni necə başa düşdüklərini görmək və dərk etməkdir. Sosial persepsiyada refleksiyadan danışarkən biz onun sonuncu mənasını nəzərə alırıq. Başqa adamı başa düşmək, həm də onun sənə münasibətini dərk etmək deməkdir. Özünün bu xüsusiyyətinə görə sosial persepsiyanı eyni vaxtda iki güzgüdə alınan təsvirə bənzətmək olar: insan başqa adamı əks etdirməklə yanaşı özü də onun qavrayış güzgüsündə əks olunur (1, s. 293).

Refleksiya sayəsində insan ünsiyyət prosesində 4 simada sanki çıxış edir:

1. Həqiqətdə o necədir;
2. Özünü necə görür;
3. Partnyor onu necə görür;
4. Öz obrazını partnyorun şüurunda necə təsəvüir edir.

4.Mövqelərin yaxınlaşması və qarşılıqlı anlamanın dəstəklənməsi. İki ünsiyyət subyekti arasında qarşılıqlı anlama iki səviyyədə ola bilər:

- I səviyyə - bir-birinin məqsədlərini, motivlərini, yönəlişlərini anlama,
- II səviyyə - yalnız anlama deyil, həm də yuxarıda deyilənləri qəbul etmə, bölüşdürmə. Bu da xüsusu olaraq dostluğun, simpatiyanın məhəbbətin yaranmasına gətirib çıxarır.

Qarşılıqlı anlamaya mane olan psixoloji baryerlər də mövcuddur:

1. Yadlaşma maneəsi –Həmsöhbətin əhvalına, hisslərinə, baxışlarına və mövqeyinə diqqət yetirmə-dikdə yaranır.
2. Inamsızlıq maneəsi –səmimi olmayanda yaranır.
3. Səbrsizlik maneəsi-bir-birinə güzəşt etmədikdə yaranır.

Qarşılıqlı anlamaya nail olma hələ işin yarısıdır. Çalışıb onu saxlamaq lazımdır. Bu zaman bir neçə şərt əsasdır: 1)hər iki ünsiyyət partnyorunun əldə olunmuş qarşılıqlı anlamanı saxlamaq istəyi, 2)onlar tərəfindən müəyyən suallarda fikir ayrılığı yaranan zaman inadkarlıq, hövsələ göstərmək, ünsiyyətdə təmkinlilik, güzəştə getmək və takt nümayiş etdirmək.

NƏTİCƏ

Özündə qarşlıqlı anlama üçün vacib olan komponentləri necə inkişaf etdirmək olar? Bu sual mübahisəlidir. Başqa insanı dəqiq və bötöv şəkildə qavramağı sosial-psixoloji treninqlərin köməyi ilə aparmaq olar. Ən sadə üsul isə mövcud olan ştampları bilmək və onlardan imtina etməkdir. Məsələn,

kvadrat çənə iradəliliyi, böyük alın ağlı, köklük ürəyiyumşaqlığı, balaçaboyluq hakimiyyəti, gözəllik ağılsızlıq əlamətini göstəriri kimi kimi ştamplar vardır. Treninqlər bu məişət təsəvvürlərini bütünlüklə götürə bilməsə də, onları aşağı sala bilər.

Digər üsul, özünü kənardan görə bilməyi öyrənmək, başqalarının səni necə qavramasını özü haqqında təsəvvürlərlə qarşılaşdırmaqdır. Çox vacibdir ki, bu treninq birgə fəaliyyətdə birləşən real qrupun üzvləri ilə keçirilsin.

ƏDƏBİYYAT

1. Bayramov Ə.S., Əlizadə Ə.Ə. Sosial psixologiya: Ali məktəblər üçün dərslik. Bakı: Qapp-poloqraf, 2003, 354 s.

2. Həmzəyev M.Ə.,Əmiraslanova S.F. Ünsiyyətin psixologiyası. Bakı: Nurlan, 2007, 180 s.

3. Qədirova R.Q., Məmmədli İ. M. Dərs vəsaiti, Bakı: "Ecoprint", 2016, s.152.

4. Берн Ш. Гендерная психология. СПб., 2001, с. 672.

5. Ильин Е.П. Психология общения и межличностных отношений. Издательство: Питер, 2009, с.576.

6. Крысько В.Г. Социальная психология: Курс лекций, М.: Омега-Л. 2006. с.352.

GƏNCLƏRDƏ MƏDƏNİ DAVRANIŞ VƏ ADƏTLƏRİN TƏZAHÜR FORMALARI VƏ İNKİŞAFINA TƏSİR EDƏN SOSİAL-PSİXOLOJİ AMİLLƏR

SOCIO-PSYCHOLOGICAL FACTORS AFFECTING THE MANIFESTATION AND DEVELOPMENT OF CULTURAL BEHAVIOR AND CUSTOMS IN YOUNG PEOPLE

Rəhimova Qəribə Vahid qızı

dosent,psixologiya üzrə fəlsəfə doktoru

Azərbaycan Dövlət Pedaqoji Universiteti

XÜLASƏ

İnsanlar davranış mədəniyyətini həmişə yüksək qiymətləndirmişlər. Davranış mədəniyyəti sözün geniş mənasında bəşəriyyətin inkişafının gedişi ilə ortaya çıxan problemlərə aiddir. Hər bir dövr üçün spesifik olan sosial-iqtisadi və mədəni inkişaf məsələlərinə uyğun olaraq davranış mədəniyyətinin formalaşdırılması zərurətini diktə edir. Müasir cəmiyyətimizdə cərəyan edən sosial-iqtisadi proseslər Azərbaycanın gələcəyi, onun gənclərinin davranış mədəniyyəti haqqında düşünməyə vadar edir. Gənclərin mədəni davranışının formalaşdırılması problemini aktuallaşdıran səbəblər aşağıdakılardır:

Birincisi, cəmiyyətimizin savadlı, mənəviyyatı yüksək olan, bilikli gənclərlə yanaşı, həmçinin gözəl davranış mədəniyyətinə malik olan insanlara da ehtiyacı var. Azərbaycanın dinamik inkişaf etməsi üçün təhsil sistemi yüksək ümumi mədəniyyət səviyyəsinə, seçdikləri sahədə dərin peşə biliklərinə malik mütəxəssis yetişdirməlidir. Amma bu işdə hər şey daha çox onların öz ölkəsinin necə vətəndaşları olacaqlarından, onlar üçün hansı dəyərlərin prioritet təşkil etməsindən asılı olacaqdır. Buna görə də əsas vəzifələrdən biri tələbə gənclərə davranış mədəniyyətinin mahiyyətini, onların məzmununu izah etmək, bunun əsasında da onların mədəni davranışını formalaşdırmaqdır.

İkincisi, müasir dünyada gənclərə təkcə pozitiv deyil, həm də neqativ xarakterli mənbələr də təsir göstərir. Bu mənbələr gənclərin hələ möhkəmlənməmiş intellektinə və hisslərinə, formalaşmaqda olan mədəni davranış sferasına təzyiq göstərir.

Üçüncüsü, öz-özlüyündə təhsil tələbə gənclərin davranış mədəniyyətinin formalaşdırılmasına zəmanət verir, çünki mədəni davranış onları əhatə edən insanların hörmətinə əsaslanan münasibətini şərtləndirir.

Dördüncüsü, davranış mədəniyyəti normaları haqqında biliklərlə silahlanmanın əhəmiyyəti həm də onunla bağlıdır ki, onlar tələbə gənclərə müasir cəmiyyətdə təsdiq olunmuş normalar haqqında məlumat verir, bu normaların pozulmasının nəticələri haqqında müəyyən təsəvvürləri onlara çatdırırlar.

Gənclər mədəni davranışın nədən ibarət olduğunu və necə ifadə olunduğunu bilməli və öz hərəkətlərində ifadə etməlidirlər.Mədəni rəftar və davranışı adət şəklinə salmaq xüsusi əhəmiyyət kəsb edir.

Adətlər insanların gündəlik həyatında çox böyük rol oynayır. Onlar bir növ avtomatik tərzdə yerinə yetirildiyindən, şərti reflekslər əsasında müvafiq şəraitdə hökmən ifadə olunur və beləliklə bizim şüurumuzu həmin hərəkət üzrə ciddi nəzarətdən azad etmiş olur.

Belə adətlər onlarla əlaqədar olan hərəkətlərin müstəsnasız olaraq dönə-dönə təkrar olunması sayəsində yaranır. Bunu nəzərə alaraq, müəyyən mədəni davranışı adət şəklinə salmaqdan ötrü hər bir gənc onu dəfələrlə yerinə yetirməli, bu məsələdə özünə heç bir güzəşt etməməlidir. Bu adamdan qətiyyət və iradə tələb edir. Çünki, bu zaman öz üzərində,öz tənbəlliyinin üzərində qalib gəlmək, bəzən çətinliyə, əziyyətə qatlaşmaq lazım gəlir.

Açar söz: mədəniyyət,davranış,etiket,adət,nəzakət

ABSTRACT

People have always appreciated the culture of behavior. The culture of behavior in the broad sense of the word refers to the problems that arise with the course of the development of mankind. It dictates the need to form a culture of behavior in accordance with the issues of socio-economic and cultural development, specific for each period. The socio-economic processes taking place in our modern society make us think about the future of Azerbaijan and the culture of behavior of its youth. The reasons that actualize the problem of forming the cultural behavior of young people are:

First, our society needs educated, moral and knowledgeable young people, as well as people with a good culture of behavior. In order for Azerbaijan to develop dynamically, the education system should train specialists with high general cultural level and deep professional knowledge in their chosen field. But in this case, everything will depend more on how citizens of their country will be and what values will be a priority for them. Therefore, one of the main tasks is to explain to student youth the essence of the culture of behavior, their content, on the basis of which also form their cultural behavior.

Secondly, in the modern world, young people are affected not only by positive, but also by negative sources. These sources put pressure on the not yet strengthened intellect and feelings of young people, the emerging sphere of cultural behavior.

Thirdly, in itself, education guarantees the formation of a culture of behavior of student youth, since cultural behavior preconditions their attitude based on the respect of the people surrounding them.

Fourth, the importance of arming knowledge about the norms of a culture of behavior is also due to the fact that they provide students with information about the norms enshrined in modern society and convey to them certain ideas about the consequences of violation of these norms.

Young people should know what cultural behavior is and how it is expressed and should be expressed in their actions.Of particular importance is the inclusion of cultural attitude and behavior in the form of Customs.

Customs play a huge role in the daily life of people. As they are performed in a kind of automatic manner, they are expressed in appropriate conditions on the basis of conditional reflexes and thus liberate our consciousness from strict control over that action.

Such customs arise thanks to the repetition of actions related to them, without exception, over and over again. Taking this into account, in order to introduce certain cultural behavior into a habitual form, every young man must fulfill it several times and not make any concessions to himself in this matter. This requires determination and will from the man. Because, in this case, it is necessary to win over oneself, over one's laziness, sometimes to add to difficulties and suffering.

Keywords: culture, behavior, etiquette, manners, courtesy

GİRİŞ

Ulularımız həmişə insan zəkasına, ağlına yükəsk qiymət veriblər.Ağıl, təfəkkür sahibləri sadə və təvəzökar olmaqla yanaşı , baş verən hadisələrə tənqidi münasibət bəsləmək, problemli situsiyalardan baş çıxarmaq , müstəqil olmaq, yüksək mədəniyyət və davranışa sahib olan insanlar olmuşlar. Əcdadlarımız gəncləri ləyaqətəli, təvazökar, xeyirxah, əxlaqi gözəlliyə, hörmət və dostluq hisslərinə, kamil şəxsiyyət anlayışına, milli etnik xüsusiyyətlərin olmasına səsləmişlər.

Mədəni hisslər geniş anlayışıdır. Buraya səmimilik, sadəlik, hörmət, dostluq,yoldaşlıq, xeyirxahlıq, humanizm, vətənə, anaya, ailəyə sonsuz sədaqət, təmiz və pak vicdanı, ləyaqət hissi, milli qürur, torpağa, elə-obaya bağlılığı və s. daxildir.Davranış mədəniyyəti dedikdə -insanların qarşılıqlı anlaşmaları, işgüzar və dostluq əlaqələri başa düşülür.

Ümumiyyətlə, davranış mədəniyyətinin mahiyyəti haqqında fikirlər müxtəlif, rəngarəngdir. Bu, problemin mürəkkəbliyi və çoxaspektliyi ilə bağlıdır. İlk növbədə davranış mədəniyyətinin mahiyyəti asan, hamıya tanış olan görünsə də, bu əslində belə deyil. İnsanlararası münasibətlər sahəsində son

dövrdə aparılan tədqiqatlar sübut etdi ki, problem fəlsəfi, psixoloji, pedaqoji, sosio-loji, linqvistik, etik, estetik, ekoloji və s. baxımdan konkret araşdırmalar tələb edir.

Qeyd etmək lazımdır ki, gənclərdə davranış mədəniyyətinin formalaşmasının psixopedaqoji problemləri ayrı-ayrı elmlərin konkret tədqiqat obyektinə çevriləndə də alimləri müəyyən çətinliklərlə qarşılaşdırdı. Məlum oldu ki, fəlsəfi aspektdən problemin açılmasının psixologiya və digər əlaqədar elmərin köməyinə ciddi ehtiyacı var.

30-cu illərdən başlayaraq psixoloqlardan A.S.Vıqotski davranış mədəniyyətinə fəaliyyət kimi baxırdı. B.Q.Ananyev davranış mədəniyyətini əmək və təfəkkür kimi insan fəaliyyətinin bir növü formasında tədqiq edir, A.N.Leontyev tərəfindən aparılan tədqiqatlar fəlsəfədə davranış mədəniyyəti probleminin açılmasına xeyli kömək etdi. L.P.Bueva, E.Q.Zlobina davranışın psixoloji traktovkasına(izah,şərh) arxalanaraq problemin fəlsəfi nəzəriyyəsini işləməyə girişdilər.

Həyat özü də sübut edir ki, şəxsiyyətlərdən kənar cəmiyyət, insanların həyat fəaliyyətindən və münasibətlərindən kənar isə ictimai münasibətlər yoxdur.Şəxsiyyətlərarası ictimai münasibətlərin inkişaf prosesləri isə emosional əlaqələrsiz mümkün deyildir. Çünki, davranış mədəniyyəti cəmiyyətlə insanlar arasında qarşılıqlı münasibət, təsir və qarşılıqlı dərketmə vəzifələrini yerinə yetirir.

İnsanlararası davranış mədəniyyəti və adətlər ibtidaidən aliyə doğru uzun bir inkişaf yolu keçmişdir.

ARAŞDIRMA

İnsanların davranış mədəniyyəti bəşəriyyətin min illər boyu yaratdığı müəyyən qaydalara əməl edilməsinə əsaslanır. Orta əsrlərin axırlarında etibarən bu qaydalar etiket adlanır.Etiket davranış mədəniyyətinin yalnız formalarını, texniki cəhətlərini-müsahibin hisslərinə toxunmadan necə mübahisə etməyi, necə davranmağı, özünü necə təqdim etməyi və s. məsələləri müəyyənləşdirir. Buna görə də mədəni, tərbiyəli adam sayılmaq üçün etiket qaydalarını sadəcə bilmək kifayət deyildir.Bunun üçün gənclərdə özünü biruzə verən mədəni davranışın təzahür formalarını bilmək lazımdır.

Nəzakətlilik – İnsanın mədəni davranışının əsas əlamətlərindən biri nəzakətlilikdir. Nəzakətlilik mədəni davanışın ayrılmaz hissəsi olub başqa adamlara hörmət və qayğı göstərməkdə ifadə olunur. Nəzakətlilik hər şeydən əvvəl yaşlılara, əlil və xəstələrə, qadın və uşaqlara hörmət etməklə, onlara qayğıkeş münasibət göstərməklə də bağlıdır.

Böyüklərə hörmət zəruri və vacibdir. Gənclərin həyatında yaşlıların mühüm rolu vardır.Gənclərin onlara hörmət etməsi və hörmətlə yanaşması xalqın uzun illik təcrübəsini əks etdirən atalar sözlərində də öz ifadəsini tapmişdır. "Allahsız yerdə otur,böyüksüz yerdə oturma", "Böyüyə hörmət vacibdir", "Böyük olan yerdə kiçik danışmaz", "Qocanın biliyi, cavanın isə biləyi" məsəlləri gənclərin yaşlılara münasibətini göstərir.

Yaşlılarla yanaşı olaraq əlil və xəstə adamlara da hörmət etmək lazımdı. Çünki onlar bu hörmətə, qayğıya, yoldaşlıq və dostluq köməyinə möhtacdırlar. Bu hörmət həm işdə, həm də müxtəlif ictimai yerlərdə, küçədə, metroda,ictimai nəqliyyatda göstərilməlidir.

Uşaqlara da qayğı göstərmək ,hörmətlə yanaşmaq və qayğılarına qalmaq zəruri və vacibdir. Uşaqların da yaşlıların yardımına ehtiyacları var.Onlar bizim gələcəyimizdir. Gələcəkdə bizi əvəz və təmin edəcək gənclərdir.(4)

Nəzakətlilik qadına, qızlara hörmət göstərib, onların qayğısına yanaşmaqda da ifadə olunur. Çünki kişilər adətən fiziki cəhətdən qadınlardan qüvvətli, əziyyətə daha dözümlü olurlar.Qadınlarımız bundan əlavə gənc nəslin tərbiyəçiləridir. Ailənin ən məsul, ən çətin vəzifəsi ailə üzvlərinin qayğısına qalmaq qadının üzərinə düşür. İnsanların davranışında nəzakətliliyin kök salması bizim yaşayışımızı asanlaşdırır, şəxsi, məişətdə və ictimai həyatda bizi ən kiçik incikliklərdən belə azad edir. Doğrudan da hamı bir-birilə nəzakətlə dolansa, bir-birlərinə qayğıkeşlik göstərib, başqalarının suallarına diqqətlə cavab versə, məmnuniyyətlə bir-birlərinə hörmət və kömək etsə, xəstələri və qocaları çətinliklərdən qurtarmağa çalışsa, yaşayış asan və gözəl olar.

Nəzakətli olmaq yoldaşlıq,dostluq münasibətində də ifadə olunmalıdır.Onlara qarşı diqqətli və həssas olmaq və düşdükləri hər bir situasiyada yardım etməkdə və.s. özünü göstərməlidir.Nəzakətli olmaq həmçini özünü işdə və sözdə dəqiq olmaları ilə də ifadə edir. Dəqiqlik insanın nəzakətliliyini, onun başqa adamlara qoyduğunu göstərən əxlaqi keyfiyyətlərdəndir.Dəqiqlik insanın əmək fəaliyyətində, başqa insanlarla münasibətində mühüm rol oynayan mədəni əlaməti, həyatımız üçün mühüm olan əxlaqi bir normadır. Dəqiqliyin olmaması son nəticədə nəzakətsizliyə gətirib çıxarır. Dəqiqlikdə bizim əxlaqımızın əsas prinsipi daim kollektivi düşünmək prinsipi təzahür edir. Dəqiqliyə böyük qiymət verərək onun insanın öz vaxtını və başqasının vaxtını qiymətləndirməyin, başqasına hörmət etməyin ən vacib formalarından biri olduğunu göstərmişlər.

İnsanlar yalnız öz hərəkətlərilə deyil, sözlərilə də başqalarına pis təsir edəbilər. Xalq arasında deyildiyi kimi "Ge¬dər xəncər yarası, getməz söz yarası". Danışdıqda nəzakətlilik insanın öz danışığı zamanı müraciət qaydalarına düzgün riayət etmələr ilə əlaqədardır. Xahiş edirəm, üzr istəyirəm, çox sağolun, minnətdaram və s. kimi ifadələr mədəni adamın ən çox işlətdiyi sözlərdir.Bunlar insanın kefinə, əhvalına, onun rəftar və davranışına böyük təsir edir. Çünki, insanlar bu ifadələrlə başqalarına hörmət etdiklərini, onlara diqqətli münasibət bəslədiklərini bildirirlər.

Təvazökarlıq –Təvazökar insan başqalarına hörmətlə yanaşır,diqqətli və həssas olur, özünə qarşı isə çox tələbkar olur. Təvazökarlıq, digər tərəfdən, insanın öz bilik və bacarıqları ilə qənaətlənməməsində, daim biliyini artırmasında və müvəffəqiyyət qazandıqda arxayınlaşmamasında ifadə olunur. Təvazökar adam başqa adamların bilik və bacarığına hörmət edir, onlardan daim nə isə öyrənməyə cəhd edir. Öz səhvlərini utanmadan etiraf edir və bu səhvləri düzəltmək əsasında yeni bilik, bacarıq və vərdişlərə yiyələnir. (6)

Mehribançılıq– onun əsasında xeyirxahlıq,səmimilik durur. O, gənclərdə qarşılıqlı münasibətlərin formalaşmasının zəruri şərtlərindən biridir.İnsanlara hörmətlə yanaşmanın kökləri buradan gəlir. Mehriban, ünsiyyətcil gənclər özlərini qrupda və kollektivdə daha tez tapa bilir.

Gənclərin hərtərəfli inkişafının zəruri şərtlərindən biri kollektivçilik, yoldaşlıq, qarşılıqlı yardım, təmkinlik kimi əlamətlərin formalaşdığı həmyaşıdlarla bir yerdə olmasıdır. Həmyaşıdları ilə ünsiyyətdə olan gənclər əməyə daha tez alışır, məqsədinə çatmaq bacarığına yiyələnir. Tərbiyəli gənclərdə üç hal daha gözəldir: xeyirxahlıq, təvazökarlıq və nəzakət.

Mədəni davranış zahiri görkəmdə də əks olunur.Xaici görünüşdə,geyimdə, yemək yeyərkən, hərəkətlərdə və.s.Qızlarımızda zəriflik davranışın zahiri cəhətləri olub, ona daha dam gözəllik verir.

Gənclərin mədəni davranışa yiyələnmələri üçün birinci növbədə ümumi mədəniyyətə, yüksək biliyə yiyələnməlidirlər. Lakin bilikli olmaq heç də tam mədəni olmaq demək deyildir. Orta və ali təhsilli olmaq mədənilik üçün mühüm şərtdirsə də, yeganə şərt deyildir. Hətta təhsilli adamlar içərisində də əmək mədəniyyətinə malik olmayan, hərəkət və nitqində nəzakətsizlik göstərən lovğa və təkəbbürlü şəxslərə təsadüf edilir.(6)

Tələbələrlə sorğu apardım,onların fikir və təkliflərini öyrənməyə çalışdım.Müasir gənclər nə istəyir ?

1.Cəmiyyətimizdə yeniliklərin olmasını,təkrarçılığı sevmədiklərini

2.Rahat həyat tərzi sürmək,koryera qurmaq istəyi

3.Gözəl ailəm və hər bir şəraitim olsun

4.Özünə parlaq gələcək istəyi

5.Rahatlıq və heç bir çətinliklə üzləşməmək istəyi

6.İxtisasını daha dərindən öyrənmək istəyi

7.Çəkilən əziyyətin qarşılığını görmək istəyi

8.Ədalətli olmaq istəyi

9.Özlərini inkişaf etdirmək,maddi baxımdan özlərini təmin etmək

10.Gəzmək,əylənmək və dostlarla bir yerdə olmaq

11.Aktiv həyat şəraiti keçirtmək,kurslara getmək,təlimlərdə iştirak

12.Azad və müstəqil olmaq,yüksək maaş

13.Özünü digər ölkə gəncləri ilə müqayisə edir və bəzi məqamlarda onlar kimi olmaq istəyi

14.Valideyn və cəmiyyət tərəfindən təhqir olunmamaq,insanların sərt baxışları altında əzilməmək və.s.

15.Yeniliklərə hazır olmaq,öz üzərində işləmək,özünü təkmilləşdirmək istəyi

16.Təşkiledilmiş tədbirlərdə ,təşkilati işlərdə iştirak etmək,könüllü fəaliyyət göstərmək istəyi

17.Böyüklərə hörmət,kiçiklərə qayğı ilə yanaşmaq

18.Öz işini sevən və sevgi ilə yanaşan gəncləri görmək

19.Gənclərin zərərli vərdişlərdən əl çəkmələrini,həyatlarını məhv etməmələrini,iynə tutan və axtaran gənclər deyil çiçək tutan və çiçək dərən əlləri görmək istəyi və.s.

Bunun üçün gənclər mədəni davranışın nədən ibarət olduğunu və necə ifadə olunduğunu bilməli, öz hərəkətlərində həmin sifətləri müstəsnasız ifadə etməlidir. Bu məsələdə xüsusən mədəni rəftar və davranışı adət şəklinə salmaq çox əhəmiyyətlidir.

Adətlər insanların gündəlik həyatında çox böyük rol oynayır. Onlar bir növ avtomatik tərzdə yerinə yetiril-diyindən şərti reflekslər əsasında müvafiq şəraitdə hökmən ifadə olunur və beləliklə bizim şüurumuzu həmin hərəkət üzrə ciddi nəzarətdən azad etmiş olur.

Belə adətlər onlarla əlaqədar olan hərəkətlərin müstəsnasız olaraq dönə-dönə təkrar olunması sayəsində yaranır. Bunu nəzərə alaraq, müəyyən mədəni davranışı adət şəklinə salmaqdan ötrü hər bir gənc onu dəfələrlə yerinə yetirməli, bu məsələdə özünə heç bir güzəşt etməməlidir. Bu adamdan qətiyyət və iradə tələb edir. Çünki, bu zaman öz üzərində,öz tənbəlliyinin üzərində qalib gəlmək, bəzən çətinliyə, əziyyətə qatlaşmaq lazım gəlir. Bunsuz mədəni vərdişlər ələd etmək mümkün deyildir.

Yüksək mədəni davranış tərbiyəsində nəzarətlə yanaşı insanın öz nöqsanlarını bilməsi və habelə başqa adamlara öz nöqsanlarını aşkara çıxarmaqda kömək etməsi lazımdır. Bu isə tənqid və özünütənqidin geniş tətbiqi sayəsində mümkündür. Gənc yaşlarında mədəni davranış tərbiyə¬sində gəncin özünütərbiyəsi çox mühüm rol oynayır. Özünütərbiyədə birinci əsas şərt insanın öz nöqsanlarını aşkar etməsi və bu nöqsanları özünə aydınlaşdırmasıdır. İnsanın öz davranışındakı mənfi adətlərlə mübarizə etməsi asan iş deyildir. Amma mümkün olan işdir.Bunun üçün insan özünə sahib olmalı, öz hisslərini cilovlamağı bacarmalıdır.

Yüksək əxlaqi simaya və mədəniyyətə malik olan gənclər öz məqsədlərini həyata keçirməyi bacarmalı və bunun uğrunda mübarizə aparmalıdır.

Deyirlər bir dəfə Yunanıstanın böyük filosofu, dünyanın "əxlaq peyğəmbəri" adlandırılan Sokratdan: "İnsanda ən çox nəyi qiymətləndirirsən?" sualına filosof tərəddüd etmədən cavab verir: "İnsaniyyəti", "Bəs insaniyyət dedikdə nə başa düşürsən?" sualına isə mütəfəkkir "insana layiq keyfiyyətləri"-deyə cavab verir.(4)

NƏTİCƏ

Gündəlik müşahidələrdə, tanış olduğumuz ədəbiyyatlarda, aparilan təcrübələr və tədqiqatlara istinad edərək belə nəticəyə gəlmək olar ki, Azərbaycan gəncləri öz mədəni adət və davranışlarında xalqımızın soykökünə, qan yaddaşına çox böyük yer verirlər. Bəzi istisnalar olmaqla, gənclərimizin çoxu bütün davranışlarında elin, obanın, ulularımızın nəsihətlərini, vəsiyyətlərini əsas götürürlər.Gənclərimizi dövlətçiliyimizin inkişafında yaxından iştirak edir və özlərinin elmi ilə, mədəniyyəti ilə, fiziki kamiliyyi ilə ölkəmizin iqtisadiyyatının, mədəniyyətinin inkişafına yaxından köməklik göstərirlər.Qloballaşma ilə əlaqədar olaraq gənclərimizin bəzilərində əxlaq və mədəniyyətmiziə zidd olan bəzi mənfi davanışlara rast gəlirik.Burada televiziya verlişlərinin, internet şəbəkələrinin də çox rol oynadığının və mənfi tərəflərini yaddan çıxarmamalıyıq.Gənclərimizidə müsbət davranış qaydalarının və adətlərin formalaşmasında ailə mühitinin çox böyük rolu vardır. Təcrübə göstərir ki, normal ailələrdə əksər

hallarda gənclərimiz sosial davranış normalarına əməl edir, assosial davranışa meylli hərəkətlərdən əl çəkirlər.Tələbə gənclərlə aparılan sorğulardan, müşahidələrdən məlum olur ki, onlarda asosial davranışlar ən çox düşdüyü qruplarda, mühitlə, ailə mədəniyyəti ilə əlaqədar olur.Ata tərbiyəsi, ana qayğısı olmayan ailələrdə narkomaniya, sərxoşluq, siqaret çəkmək, kobudluq kimi hallar yaranır.Azərbaycan gənclərində mədəni davranış və adətlərin inkişafında, təlim-tərbiyə işləri ilə yanaşı, əlaqədar təşkilatlar, xüsusilə valideynlər məşğul olmalıdırlar.

ƏDƏBİYYAT

1.Bayramov Ə. "Etnik Psixologiyam məsələləri" Bakı, 1996, 205s

2.Quliyev S.M Gənclərin tərbiyəsində aqillərin nəsihət və vəsiyyətləri Bakı, 2011,95.s

3.Ağayev Ş.S. Gənclərin mədəni davranışı, Bakı 1956, 59 səh

4.Göyüşov Z. Daxilə pəncərə. Bakı 1978.198 səh

5.Bayramov Ə. Uşaqlarda əxlaqi hisslərin tərbiyəsi, Bakı, 1963, 30 səh

6.Bayramov Ə. Gənclik və özünütərbiyə haqqında söhbət. 1969. 80 səh

7.Quliyev S.M. Gəncliyin davranış və nəzakət tərbiyəsi. Bakı, 1997

8.Quliyeva M.A. Müasir Gəncliyin əxlaq normaları. Bakı, 2002

9.Tağıyev Ə. Uşaqda mədəni rəftar və nəzakət tərbiyəsi. Bakı, 1956

AZAD QARADƏRƏLİNİN YARADICILIĞINDA QARABAĞ MÖVZUSU

KARABAKH TOPIC IN THE CREATIVITY OF AZAD GARADARELI

Türkan Azad qızı Mehdiyeva

AMEA akad. Z.M.Bünyadov adına Şərqşünaslıq İnstitutu

Ərəb filologiyası şöbəsi, dissertant, Bakı, Azərbaycan

ORCID ID: 0000-0002-4318-6285

XÜLASƏ

Azad Qaradərəli Azərbaycan ədəbiyyatında 80-ci illər nəslinin tanınmış nümayəndələrindəndir. Bakıda, İstanbulda, Polşada, Rusiyada 40-a yaxın kitabı nəşr olunan müəllif, əsasən bir hekayə ustası və romançı kimi tanınır.

Yazıçının hekayə və romanlarında Qarabağ mövzusu, bu müharibənin törətdiyi fəsadlar, insanlarımızın çəkdiyi ağrı-acılar, yurd itkisi həmişə əsərlərinin nüvəsini təşkil edib. Bu, bir tərəfdən nasirin özünün o bölgədən olmasıyla bağlıdırsa, o biri tərəfdən onun vətəndaşlıq mövqeyindən irəli gələn məsələdir.

Yazıçının yaradıcılığında Qarabağ mövzusunu iki hissəyə ayıra bilərik:

1. Birinci Qarabağ Müharibəsi ilə əlaqəli yazılan əsərlər.

2. İkinci Qarabağ Müharibəsi mövzusunda yazılan əsərlər.

Onun sırf Qarabağ mövzusunda onlarla hekayəsi və üç romanı vardır.

Yazıçının yaradıcılığının böyük bir hissəsi işğal altında olan ərazilərdən köçkün düşmüş insanlara həsr olunubsa, onun yaradıcılığının ikinci mərhələsi, yəni İkinci Qarabağ müharibəsindən bəhs edən əsərlər 44 günlük müqəddəs savaşımızdan bəhs edir. Son bir ildə - 2021-si ildə o, 44 günlük Vətən müharibəsinə aid bir roman ("Cəbrayıl əfsanəsi", Bakı, Mücrü nəşriyyatı, 174 s.) və bir hekayələr kitabı ("Sevgilim Vətən", Bakı Mücrü, 2021, 248 s.) qələmə almışdır. Hər iki kitab az müddətdə həm elektron formatda, həm çap formasında yayılaraq oxucuların və ədəbi tənqidin ciddi marağına səbəb olmuşdur. "Sevgilim Vətən" kitabında ayrı-ayrı döyüşçülərin bədii obrazları ümumiləşdirilməklə yanaşı, arxa cəbhədəki insanların da ovqatı, döyüşən orduya dəstək olması öz əksini tapmışdır.

Açar sözlər: I Qarabağ müharibəsi, II Qarabağ müharibəsi, Vətən müharibəsi, roman, hekayə, "Sevgilim Vətən", "Cəbrayıl əfsanəsi"

ABSTRACT

Azad Garadareli is one of the well-known writers of the 80s in Azerbaijani literature. The author`s about 40 books have published in Baku, Istanbul, Poland and Russia. In the stories and novels of the writer, the theme of Karabakh, the consequences of this war, the suffering of our people, the loss of the homeland have always been at the core of his works. This is due, on the one hand, to the fact that the author is from that region, and, on the other hand, to the issue of his citizenship.

We can divide the Karabakh theme into two parts in the writer's work:

1. Works written in connection with the First Karabakh War

2. Works written in connection with the Second Karabakh War.

He has only dozens of stories and three novels on Karabakh.

Much of the author's work is dedicated to people displaced from the occupied territories. The second stage of his work is dedicated for the Second Karabakh War, which tell about our 44-day holy war. In the last year - in 2021, he published a novel about the 44-day Patriotic War ("The Legend of Jabrail",

Baku, Mujru Publishing House, 174 p.) and the book of stories ("Sevgilim Vatan", Baku Mujru, 2021, 248 p). In a short period of time, both books were distributed in both electronic and print form, causing great interest among readers and literary critics. The book "Sevgilim Vatan" summarizes the artistic images of individual warriors, as well as the enthusiasm of the people in the rear and their support for the fighting army.

Key words: I Karabakh war, II Karabakh war, Patriotic war, novel, story, "Sevgilim Vatan", "Legend of Jabrail"

Müəllifin yaradıcılığının birinci mərhələsində qələmə aldığı əsərlərin bir qismi Qarabağ savaşında döyüşən, şəhid və qazi olan gənclərin qəhrəmanlığından bəhs edir. Bu baxımdan onun "Ulartı" kitabına daxil olan hekayələri misal göstərə bilərik. "Ulartı", "Daş", "Ölə bilməyən ana", "Generalın atı" və başqa hekayələrini səciyyəvidir. "Ulartı"da yurd itkisi, "Daş"da bir igidin əfsanəvi qəhrəmanlığı, "Ölə bilməyən ana"da torpağın müqəddəsliyi öz əksini tapırsa, "Generalın atı"nda Azərbaycanın qəhrəman oğlu, igid general Məhəmməd Əsədovun əzəmətli obrazı və məşum vertolyot qəzasının acı nəticələri təsvir edilib. (1, s.3)

"Ulartı"dakı yurd niskili Azad Qaradərəlinin əksər hekayələrinə sirayət edir. Bu hekayəni onun Qarabağ haqqında yazılarının manifesti adlandıra bilərik. "Yurd boş idi. Duyğuya həsrət insan ürəyi kimi bomboş. İt dəyəsi kimi sümüksüz, kəmiksiz. Qurd yuvası kimi zingiltisiz, ulartısız. İnək əmcəyi kimi qısır."

Professor Rəhim Əliyev yazıçının hekayələrindəki yeni ruhu duyaraq oxucunu da bu yeniliyi anlamağa çağırır və yazıçının mətnlərindəki məna qatlarını açmağa çalışır: "...Onun hekayəsində bir də Qarabağ müharibəsi vardır. Sonra bu müharibəni onun əksər yazılarında izlədim. Burada qəzetlərdə verilən nalə və nifrət dolu müharibə yoxdur. Burada hər qəhrəmanın öz müharibəsi ilə üzləşirik, bu isə təzə bir müharibə obrazı yaradır. Azadın hekayəsində də itirilən torpaqlar barədə ümumi sözlər yox, insanın itirdiyi şəxsi evi, məhəlləsi, qohum-qonşusu ilə, qucağında böyüdüyü təbiətlə bağlı intim yaşantıları verilir. Bu bədii idi, təzə idi. Məsələn, "Ulartı" hekayəsi nağıl metamorfozu üzərində qurulub. Bacısı erməni əsirliyində olan gənc xəcalətdən itə çevrilir və sahibsiz, baxımsız itlər kimi ulamağa başlayır."(2, s.6)

"Ulartı", "Kolleksiya", "Son döyüş", "İlgək", "Daş", "Ölə bilməyən ana", "Axın", "Qul bazarı", "Generalın atı", "Girov" kimi hekayələrda müharibənin travmaları və köçkün insanın dözülməz həyatı təsvir edilib. Bu hekayələr müharibənin ilk illərində isti-isti yazıldığından o dövrün xronikasını daha aydın göstərir.

Xüsusilə "Girov" hekayəsini oxuyarkən müəllifin o dövrün ağır günlərini, işğalın insanımızda yaratdığı acınacaqlı ovqatı təsvir edərkən sanki bunları öz daxili aləmindən keçirmiş, özünün doğma obrazlarına, ən yaxın adamlarına çevirərək qələmə almışdır. Səfeh Şamil məcburi köçkün kimi Arazı keçənlərə qoşulanda hələ də dağlarda döyüşən əsgərlərimiz yadına düşür, geri qayıdır. Onların Şəhidlər Xiyabanındakı qəbirlərin üstündən topladıqları şəkilləri yığıb aparır ki, düşmən əlinə keçməsin. (3, s.116-123)

Sözügedən kitabdakı "Son döyüş" adlı hekayədə erməni işğalçılarına qarşı vuruşan döyüşçülərimizin igidliyi, son gülləyəcən müqavimət göstərib şəhid olması öz əksini tapıb. "Murad nə qədər atışdığını bilmirdi. Bir onu bilirdi ki, döyüş yoldaşlarının hamısı həlak olub. Arxa tərəfdə isə Rəhimin pulemyotu şaqqıldayırdı..." (3, s.99)

A.Qaradərəli sonrakı illərdə də bu mövzuya sadiq qlmış, həm hekayələrində, həm də romanlarında odun-alovun içindən sağ çıxmış insanların düşüncələrini, portret cizgilərini əks etdirməyə çalışmışdır. Məsələn, müəllifin "Yuxarıda kim var?" uzun hekayəsi (povesti), "Şəhərcik", "Günəş tutulan yerdə", "Kuma-Manıç çökəkliyi" romanları bilavasitə Qarabağ müharibsinə və o müharibənin Azərbaycan insanının şüurunda, əxlaqında və dünyabaxışında yaratdığı diskriminasiyalara həsr olunub. "Kuma-Manıç çökəkliyi" romanı 80-90-cı il hadisələri və bu hadislərin Azərbaycan gənclərinə təsiri, itirilmiş nəsil olan bu adamların həyatda öz yerlərini tuta bilməmələri və atəşkəsdən sonra belə faciələrlə üzləşdiklərini əks etdirir.

Professor Vaqif Yusifli yazıçının "Günəş tutulan yerdə" romanını təhlilə çəkərkən dövrün və zamanın əsərdə əksinə diqqət yetirir: "Günəş tutulan yerdə" romanında Azad "keçid dövrü" kimi səciyyələndirilən dövrün hadisələrini və insanlarını təsvir edir. Romandakı hadisələrin əksəriyyəti bizə yaxşı tanışdır. İnsanlar da həmçinin. Müəllif həm bir ailənin faciəsini, həm də həmin dövrün özünün faciəsi bilir. Bir ailənin faciəsi də elə dövrün faciəsi kimi anlaşılır və bunlar bir-birindən təcrid olunmur." (2, s.16-17)

Yazıçının yaradıcılığının birinci mərhələsinin son dövründə qələmə aldığı və ayrıca kitab şəklində nəşr etdirdiyi "Müharibə uşaqları" hekayələr silsiləsi onun yaradıcılığında bir önəmli addımdır. Bu hekayələr hüzn və kədərlə doludur. Qəhrəmanlardan hər biri bir xüsusiyyətinə görə travma daşıyır özündə: kimi torpağını itirib, kimi namus-şərəfini, kimi yaddaşını... Müəllif oxuculardan xahiş edir ki, bu kitab uşaqların həyatından bəhs etsə də, uşaqlar üçün deyil, onu uşaqlarınıza oxumayın!..

Yazıçı, demək olar ki, bütün yaradıcılığı boyu torpaq və Vətən həsrətini əsərlərinin ana xəttinə çevirmişdir. Onun qəhrəmanları qaçqın-köçkün kimi respublikanın müxtəlif bölgələrinə, o cümlədən Bakıya səpələndikdən sonra da, yazıçının müşahidəsi davam edir. O, binəsib qəhrəmanlarının yeni həyatını öyrənir, yeni obrazlarını əsərlərində canlandırır. "Morq çiçəkləri" romanı bu baxımdan daha səciyyəvidir. Məcburi köçkünlər Bakıda 6 nömrəli uşaq xəstəxanasının Morq şöbəsində məskunlaşıblar. Bu mistik aləm romanın aurasına elə çökür ki, oxucu belə bu ağırlığın altından çıxa bilmir. Hətta gecələr bu talesiz insanların çoxdan dünyadan köçmüş ata-babalarının ruhları gecələr yığışıb Morq məhəlləsindəki meydana gəlirlər və övladlarının birdən-birə hara yox olduqlarını həyəcanla bir-birindən soruşurlar.

"Cəbrayıl əfsanəsi" romanı müharibənin ilk günləində qəhrəmanlıq göstərərək düşmənin yüksək çinli zabitlərini məhv edən şəhid qəhrəman Cəbrayıl Dövlətzadənin mənalı həyat və döyüş yolundan bəhs edir. Raio-roman janrında yazılan əsərdə vizuallıqdan çox aəhrəmanın səsi, nərəsi və söhbətləri duyulur. "Azad tarixi kecmişlə indini bir-birinə bağlamışdır. Keçmişi Qaçaq Fərzalı, indini Cəbrayıl təmsil edir. 90 ildən artıq zaman fərqi qəhrəmanları ayırır. Onlar yalnız bir-birinin səsini hiss edirlər. (4)

Cəbrayıl cəmi iki günlük döyüş yolu keçir və düşmənin generalını öz əli ilə boğub məhv edir. Bu tarixdə görünməmiş bir qəhrəmanlıqdır. Cəbrayıl bununla generalımız Polad Həşimovun qisasını alır." (5, s.152)

Fəlsəfə elmləri doktoru Rahid Ulusel roman haqqında bəhs edərkən tarixiliklə müasirliyi vəhdətdə görərək ədəbə qəhrəmanla həyati qəhrəmanın üzvi bağlılığına da nəzər yetirir:" Yazıçı Azərbaycan Milli Ordusunun əsgəri, "Azərbaycan Bayrağı" ordenli şəhid Cəbrayıl Dövlətzadəni prototip kimi seçsə də, əsərində onun döyüş yolunu yaxın və uzaq tariximizin məhz Vətən Müharibəsi ilə uzlaşan, sanki onun köklərində dayanan məqam və olaylarına calayır. Sanki qəhrəman şəhid Cəbrayılın çevrəsində torpaq uğrunda savaş tariximiz dolanır. Keçmişini indisinə bağlayan yaddaş gələcəyə də budaqlanır..." (6)

Kitab kimi çap olunmazdan öncə kulis.az portalında hissə-hissə yayımlanan roman az vaxtda çoxlu oxucu toplaya bilmişdi. Əsərə hətta xarici ölkələrdən belə reaksiyalar vardı. Almaniyada yaşayan Orhan Arasın yazısı, bu baxımdan, daha çox diqqəti cəlb edirdi. Təsadüfi deyil ki, əsər tez bir zamanda Türkiyə türjkcəsinə çevrildi və orada çapa hazırlanmaqdadır.

Akademiyanın Müxbir üzvü Teharan Əlişanoğlunun dediyi kimi bu "roman həm də Qarabağ müharibəsi və mübarizəsinin yüz illik tarixi köklərinə işıq salmaqla önəmlidir." (7)

ƏDƏBİYYAT

1. Azad Qaradərəli. "Ulartı", Zeynalov, "Əbilov və oğulları", Bakı, 1999, səh 104.

2. Rəhim Əliyev "Yazıçılıq yolu", "Yazı" dərgisinin əlavəsi, mart, 2014 – Azad Qaradərəlinin 60 illiyinə həsr olunmuş Xüsusi buraxılış, səh. 30, səh.

3. Azad Qaradərəli "Qara ağlığı", Bakı, Şirvannəşr, səh. 144.

4. "Cəbrayıl əfsanəsi", Bakı, Mücrü nəşriyyatı, 174 s.

5. İsmayıl Kazımov. "Azad Qaradərəlinin yaradıcılığında Qarabağ mövzusu", "Ədəbiyyatda Qarabağ mövzusu"- Respublika Elmi Konfransının Materialları, Qərb Universiteti, 24 aprel 2021, səh. 261.

6. Rahid Ulusel "Vətən Müharibəsi və ədəbiyyatda milli özünüdərk problemi", Ədəbiyyat qəzeti.

7. Tehran Əlişanoğlu "Qalibiyyət zamanı "Çağdaş ədəbiyyatda diskursun dəyişməsi", Ədəbiyyat qəzeti.

ŞUŞADA İLK ANA DİLİ MƏKTƏBİ

THE FIRST MOTHER TONGUE SCHOOL IN SHUSHA

Kəmalə Rüstəm qızı Quliyeva

ADPU-nun ümumi pedaqogika

kafedrasının dosenti, p.ü.f.d.

XÜLASƏ

XIX əsr Azərbaycan mədəniyyətinin, maarifinin, pedaqoji fikrinin inkişafında intibah dövrü kimi səciyyələndirilir. Bu dövrdə xalqımızın bir çox görkəmli mütəfəkkirləri və ziyalıları ana dili təlimi ideyası uğrunda mübarizəni qüvvətləndirdilər.

M.F.Axundzadədən, H.Zərdabidən başlayan milli maarifçilik hərəkatının nümayəndələri – F.Köçərli, M.Mahmudbəyov, N.Nərimanov və onlarla digər ziyalılar ana dili təlimi ideyasının həyata keçirilməsində mühüm rol oynadılar.

XIX əsrin 60-cı illərindən sonra başlanan bu hərəkat, nəhayət ki, öz nəticəsini göstərdi. M. İ. Qasir Lənkəranda, M. T. Sidqi Ordubadda, S. Ə. Şirvani Şamaxıda ilk ana dilli məktəbləri yaratdılar.

XIX əsrdə Azərbaycanın mədəniyyət tarixində xüsusi yer tutan şair, maarifçi, rəssam, xəttat, nəqqaş, musiqişünas , astronom kimi şöhrət tapmış Mir Möhsün Seyid Əhməd oğlu Nəvvab Ağamirzadə Qarabağı Şuşa şəhərində ilk ana dili məktəbinin yaradıcısı hesab olunur.

O dövrdə M. M. Nəvvaba qədər Qori Müəllimlər Seminariyasının müəllimi , əslən şuşalı olan Səfərəlibəy Vəlibəyov yay aylarında dığma vətəninə istirahət etmək üçün gələrkən Şuşada ana dilində məktəb açaraq orada müəllimlik edərdi. Lakin bu məktəb qısa müddətdə - yalnız iki-üç ay ərzində fəaliyyət göstərərdi.

Sələflərinin maarifçilik ideyalarına sədaqət nümayiş etdirən M. M. Nəvvabın yeni üsullu ana dili məktəbi təxminən 1895-ci ildə açılmış və pedaqoq alimlərin araşdırmalarına görə 1918-ci ilə qədər fəaliyyət göstərmişdir.

M. M. Nəvvabın məktəbi həm tədrisin məzmununa, həm də quruluşuna görə daha müasir, yeni üsullu məktəb idi. Burada Azərbaycan dili, ədəbiyyat, fars dili, tarix , fəlsəfə, coğrafiya, məntiq, astronomiya kimi fənlər tədris edilirdi. Mövcud dini məktəblərdən fərqli olaraq şagirdlər döşəmədə deyil, skamyalarda əyləşir, yazı lövhəsində yazırdılar. Burada fiziki cəza tətbiq olunmurdu. Müəllim - şagird ünsiyyəti şox yüksək səviyyədə qurulmuşdu. M. M. Nəvvab öz məktəbində istifadə etmək üçün dərsliklər də yazmış və çap etdirmişdir.

M. M. Nəvvabın ana dili məktəbi sonralar da Şuşada yeni üsullu məktəblərin açılmasına güclü təsir göstərmişdir.

Açar sözlər: ana dili məktəbi, dünyəvi məktəb, ilk dərsliklər

ABSTRACT

The 19th century is characterized as a period of renaissance in the development of Azerbaijani culture, education and pedagogical thought. During this period, many prominent thinkers and intellectuals of our people intensified the struggle for the idea of teaching the mother tongue.

Representatives of the national enlightenment movement, starting with M. F.Akhundzade, H. Zardabi - F. Kocharli, M. Mahmudbeyov, N. Narimanov and dozens of other intellectuals played an important role in the implementation of the idea of mother tongue education.

This movement, which began after the 1860 s, has finally paid off. The first mother tongue school was established in Lankaran by M. İ. Qasir, in Ordubad by M.T. Sidgi and in Shamakhi by S.A .Shirvani.

Mir Mohsun Seyid Ahmad oglu Navvab Agamirzadeh, who became famous in the 19th century as a poet, educator, painter, calligrapher, musicologist and astronomer, is considered to be the founder of the first mother tongue school in Shusha, Karabakh.

At that period, before M. M. Navvab, Safaralibey Valibeyov who was a teacher in the Gori Teachers' Seminary opened a mother tongue school in his hometowne Shusa and taugh there in summers when he came to homeland to rest. However, this school operated for a short time - only two or three summer months.

Following the enlightenment ideas of his predecessors M . M. Navvab opened mother tongue school with new methode in about 1895 and according to the research of pedagogical scientists this school operated until 1918.

M. M. Navvab's school was a modern, new school in terms of both the content and the structure of education. Subjects such as Azerbaijani language, literature, Persian, history, philosophy, geography, logic, astronomy were taught here. Unlike existing religious schools, students did not sit on the floor, but on benches, and wrote on the board. There was no corporal punishment. Teacher-student communication was established at a very high level. M. M. Navvab also wrote and published textbooks for use in his school.

M. M. Navvab's mother tongue school later had a strong influence on the opening of new style schools in Shusha.

Key words: mother tongue school, secular school, first textbooks

GİRİŞ

XIX əsr Azərbaycanın ictimai-mədəni həyatında milli özünüdərkin, milli oyanışın, milli ideologiyanın formalaşdığı bir mərhələ hesab olunur.

A.A.Bakıxanov, M.Ş.Vazeh, M.Kazımbəy, M.F.Axundovdan başlayan yeni maarifçilik hərəkatı eyni zamanda ana dili təlimi ideyasının təşəkkülü, bu ideyanın milli elitanın nümayəndələri H.Zərdabi, N.Nərimanov, F.Köçərli və b. mütəfəkkirlər tərəfindən daha da inkişaf etdirilməsi ilə müşayiət olundu.

XIX əsrin II yarısından başlayaraq ana dili təlimi ideyası daha da qüvvətləndi, ana dilində məktəblərin açılması uğrunda gərgin mübarizə başladı.

Bu mübarizənin ön cərgəsində gedən Azərbaycan maarifçilərinin sırasında H.Zərdabi və onun "Əkinçi" qəzetinin müstəsna xidmətləri olmuşdur.

1877-ci ildə "Əkinçi" qəzetinin 2-ci nömrəsində çap etdirdiyi məqaləsində M. F. Axundov H. Zərdabiyə müraciətlə yazırdı: "Bizim əzizimiz və gözümüzün işığı Həsən bəy, sən hər qəzetində bizə elmin fəzilətini və səmarətini (faydasını – K.Q.) zikr edib, bizə hey təklif edirsən: elm öyrənin , elm öyrənin. Çox yaxşı... indi biz hazırıq ki, sənin nəsihətini əmələ gətirək. Bizə de görək, elmi harada öyrənək, kimdən öyrənək və hansı dildə öyrənək" (1, s.196).

M.F.Axundov bu məktubunda o dövr üçün vacib olan üç mühüm məsələyə toxunurdu: ana dilində təlim verən kütləvi xalq məktəblərinin, ana dilində tədris edən müəllimlərin və ana dilində dərs kitablarının olmaması.

Bu məsələlər ana dili təlimi ideyasının həyata keçirilməsi yolunda həlli vacib, ciddi problemlər kimi dayanırdı.

Azərbaycan ziyalılarının ana dili təlimi uğrunda apardığı davamlı mübarizə nəticəsiz qalmadı. Mirzə İsmayıl Qasir Lənkəranda, Seyid Əzim Şirvani Şamaxıda, Məhəmməd Tağı Sidqi Ordubadda və daha sonra Naxçıvanda ilk ana dilli məktəblərin yaradıcısı oldular.

XIX əsrdə Azərbaycanın mədəniyyət tarixində xüsusi yer tutan, şair, rəssam, maarifçi, müəllim, nəqqaş, xəttat, musiqiçi, astronom kimi məşhur olan Mir Möhsün Seyid Əhməd oğlu Nəvvab Ağamirzadə Qarabağı Şuşa şəhərində ilk ana dilli məktəbin əsasını qoydu.

ARAŞDIRMAIAR

Elmi- pedaqoji mənbələr göstərir ki, XIX əsrdə Şuşada məktəb quruculuğu sahəsində bir çox uğurlu addımlar atılmışdı. Belə ki, Azərbaycanda ilk dövlət məktəbləri hesab olunan qəza məktəbi 1830-cu ildə Şuşada açılmışdır.

Şuşa realnı məktəbi o dövrdə çox məşhur idi. "XIX əsrin 60-cı illərində Şuşada 27 məktəb fəaliyyət göstərirdi. 1875-ci ildə sonralar Marinski qadın məktəbinə çevrilən qız məktəbinin əsası qoyuldu" (110, s.4).

Bu dövrdə mədrəsə məktəbləri, dövlət və xalq məktəbləri ilə yanaşı qabaqcıl ziyalılar tərəfindən açılmış məktəblər də fəaliyyət göstərirdi.

O dövrdə Qori Müəllimlər Seminariyasında müəllim kimi fəaliyyət göstərən, əslən şuşalı olan Səfərəlibəy Vəlibəyov yay aylarında Şuşaya istirahətə gələrkən orada ana dilində məktəb açar, özü də qısa müddət ərzində fəaliyyət göstərən bu məktəblərdə müəllimlik edərdi.

Sələflərinin ana dili təlimi ideyasını müdafiə edən M. M. Nəvvab özü mədrəsə təhsili alsa da, yeniliyin tərəfdarı idi. Ərəb, fars, rus, türk dillərini mükəmməl bilən M. M. Nəvvab xalqın tərəqqisində elmin, maarifin, təhsilin aparıcı rolunu görərək bütün həyatı boyu bu tərəqqi uğrunda mübarizə aparmışdır.

XIX əsr Azərbaycan məktəb tarixinin görkəmli tədqiqatçısı, akademik Hüseyn Əhmədov yazırdı: "Şuşada "Məclisi-fəramişan" adlı ədəbi məclisin yaradıcısı olan M.M.Nəvvab ana dilinin təravətinin mühafizə olunmasına kömək etmiş, ana dili məktəbi ideyasını inkişaf etdirmişdir. XIX əsrin 90-cı illərində Şuşada yeni üsullu məktəb açan M.M.Nəvvab orada Azərbaycan dili, ədəbiyyat, fars dili və digər fənləri tədris edirdi. Nəvvabın məktəbində dünyəvi elmlərdən də məlumat verilirdi" (2, s.192).

TAPINTILAR

M.M.Nəvvabın ana dili məktəbinin açılma tarixi ilə bağlı pedaqoji mənbələrdə dəqiq məlumat yoxdur. Böyük maarifçinin pedaqoji irsini araşdıran T.Kərimli bu məktəbin 1895-ci ildə açıldığını və Nəvvabın ömrünün sonunadək – yəni 1918-ci ilə qədər öz fəaliyyətin davam etdirdiyini qeyd edir.. "M.M.Nəvvabın məktəbi özünün quruluşu və məzmununa görə yeni tipli məktəb idi. "Gövhəriyyə" adlanan bu məktəb öz dövründə çox məşhur olmuşdur. Burada klassik ədəbiyyat, tarix, fəlsəfə, məntiq, coğrafiya, astronomiya və s. fənlərə daha çox diqqət yetirilirdi" (3 , s.55).

Bu məktəbdə uşaqlar döşəmədə, həsir üzərində deyil, sıra ilə düzülmüş skamyalarda əyləşir, yazı taxtasından istifadə edirdilər. M.M. Nəvvabın məktəbində mədrəsələrdə olduğu kimi fiziki cəza tətbiq olunmurdu.

Həmçinin təhsilin məzmunu, təlim formaları, əyani vəsaitlərlə təchiz olunması baxımından da əvvəlki məktəblərdən fərqlənirdi.

Geniş dünyagörüşünə, zəngin biliyə, hərtərəfli hazırlığa malik olan M.M.Nəvvab həm də əsl pedaqoq – müəllimə xas olan ən yüksək keyfiyyətlərə sahib idi. Onun məktəbində müəllim-şagird münasibətləri çox yüksək səviyyədə qurulmuşdu. O, şagirdlərinə övladı kimi yanaşar, onların problemləri, ehtiyacları ilə maraqlanardı. Yüksək mədəniyyəti, əsl ziyalı və müəllim etikası, alicənab davranışı, yeniliklərə meyli olması, vətənpərvərliyi, tərəqqipərvərliyi ilə o, şagirdlərin, valideynlərin, xalqın ehtiramını və məhəbbətini qazanmışdı.

Digər ana dilli məktəblərin baniləri kimi Nəvvab da öz məktəbində tədris etmək üçün dərsliklər, tədris vəsaitləri hazırlamışdır. Kitab çapı və naşirlik fəaliyyəti ilə məşğul olan Nəvvab bununla məktəblərin kitaba olan ehtiyaclarını qismən də olsa ödəməyə çalışmışdır.

Yüksək estetik zövqə malik olan Nəvvab çap etdiyi kitabların dekorativ tərtibatını da özü vermiş, səhifələrin kənarında gözəl naxışlar, kitabların içərisində çox maraqlı illüstrasiyalar çəkmişdir.Şuşadakı Gövhər ağa məscidinin minarələri, öz məktəbinin divarları da Nəvvabın çəkdiyi naxışlarla bəzənmişdi.

Akademik H.Əhmədovun fikrincə, M.M.Nəvvab "Kəşf-ul həqiqə", "Kifayət-ül-ətfal", "Yüzuh-ül-ərqam" və "Nəsihətnamə" adlı dörd dərsliyin, ümumilikdə 21 kitabın müəllifidir.

O dövrdə din şəkil çəkməyi qadağan etdiyindən Novruz bayramına 3-4 gün qalmış Nəvvab öz mətbəəsində "kətələr" adlanan, şeirlə yazılan, kənarları şəkillərlə bəzədilən vərəqlər hazırlayır və onlara şagirdlərə paylayırdı. Akademik Z. Səfərova yazır ki , " ... bu vərəqlər təkcə Nəvvabın məktəbinin şagirdlərinə deyil, başqa məktəblərdə oxuyanlara da hədiyyə edilirdi və uşaqlar "kətə" paylanan günü çox böyük həsrətlə gözləyirdilər"(5) .

M M. Nəvvab XIX əsrin sonu XX əsrin əvvəllərində Azərbaycanda kitab çapı ilə məşğul olan ən görkəmli kitabşünas alim kimi tanınmışdı. O dövrdə Bakı və Şuşadan başqa Azərbaycanın heç bir yerində mətbəə olmadığını nəzərə alsaq, Nəvvabın Şuşanın mədəni həyatında, maarifin inkişafındakı rolu bir daha aydın görünər. Onun öz mətbəəsində çap etdiyi tədris vəsaitləri uşaqlara pulsuz paylanırdı və bununla da Nəvvab öz məktəbinə əhalinin kasıb, imkansız təbəqəsindən daha çox uşaq cəlb etməyə çalışırdı.

Nəvvab riyaziyyat, kimya və astronomiya elmləri ilə çox maraqlanırdı. O öz evində iki teleskop quraşdıraraq səma cisimlərini müşahidə etmiş, kiçik rəsədxana və kimya laboratoriyası yaratmışdı. 1899-cu ildə yazdığı "Kifayətül-ətfal" dərsliyinə göy cisimləri, onların səmada düzülüşü , günəş tutulmalarına aid tərtib etdiyi cədvəlləri də daxil etmişdir.

"Onun Vüzuhil-ərqam" kitabı o dövrdə musiqiyə həsr olunmuş ən dəyərli əsər hesab olunurdu. Bu kitabda muğamların adı çəkilir, ilk dəfə olaraq musiqiyə dəstgah termini gətirilir, o dövrdə Qarabağda məşhur olan 6 dəstgahın (Rast, Mahur, Şahnaz, Rahab, Çahargah və Nəva) və Qarabağ musiqiçiləri tərəfindən ifa olunan 82 mahnının adı qeyd edilir.

"Nəsihətnamə" əsəri isə Nəvvabın etik görüşlərini özündə əks etdirir.

M.M.Nəvvab 1905-ci ildə "Qafqaz erməni tayfası ilə müsəlmanların vuruş və iğtişaş tarixi" adlı bu gün üçün də çox əhəmiyyətli bir əsər yazmışdır. Süni olaraq yaradılan Dağlıq Qarabağ probleminin tarixi köklərinin öyrənilməsi baxımından çox qiymətli mənbə olan bu əsər yazıldığı vaxtdan 88 il sonra, 1993-cü ildə çap edilmişdir.

NƏTİCƏ

Beləliklə, XIX əsrdə Qarabağ torpağının yetişdirdiyi ensiklopedik zəka sahibi olan M.M.Nəvvab Azərbaycanın maarif, elm və mədəniyyət tarixində silinməz izlər qoymuşdur. O, dövrünün demək olar ki, bütün sahələrinə aid kitablar yazan, onu əlinin zəhməti ilə öz mətbəəsində çap edən və öz məktəbində bu kitabları tədris edən nadir ziyalılarımızdandır.

Onun ana dili məktəbi sonralar da Şuşada yeni üsullu məktəblərin açılmasına güclü təsir göstərmişdir. Bütün işıqlı həyatını xalqının savadlanmasına, tərəqqisinə maariflənməsinə həsr edən görkəmli mütəfəkkir belə bir kəlamı irəli sürmüşdür: " Çalış ki, elm və əməldə heç kəsə möhtac olmayasan, əksinə, qoy özgələr sənə möhtac olsun. Bilikli ol, qoy xalq sənin biliyindən faydalansın, xeyir götürsün. Elm və hünərdən yadigar qoymaq yaxşıdır, nəinki mal və əmlakdan" (4, s.46).

2018-ci ildə 185 illik yubileyi qeyd edilən M.M.Nəvvabın öz xalqına qoyub getdiyi zəngin mənəvi sərvətin dəyəri isə ölçüyə gəlməzdir.

Bu gün Qarabağ səmasında daha narahat, nigaran ruhlar dolaşmır. Möhtərəm Prezidentimizin, cənab Ali Baş Komandanımızın və igid oğullarımızın şücaəti sayəsində Qarabağ öz əzəli sahiblərinə qovuşdu. Artıq M .M. Nəvvabın da ruhu şaddır. Çünki onun çox sevdiyi Şuşası yenə də Qarabağın üzük qaşı , ən qiymətli incisi , Azərbaycan mədəniyyətinin paytaxtı kimi çiçəklənməkdə davam edir.

İSTİFADƏ OLUNMUŞ ƏDƏBİYYAT

1. Axundov M.F. Əsərləri. 3 cilddə, 3-cü cild, B: Elm, 1988, -386 s.

2. Əhmədov H. Azərbaycan məktəb və pedaqoji fikir tarixi. B: Elm və təhsil, 2014, - 432 s.

3. Kərimli T. Mir Möhsün Nəvvab Qarabağinin pedaqoji görüşləri. ped.elm.nam.al.dər.almaq. üçün təq.ed.dis. B: ADPU, 2005, - 167s.

4. Nəvvab M. M. Nəsihətnamə, B: Yazıçı, 1987, - 136 s.

5. Səfərova Z. XIX əsrin ensiklopedist alimi M.M.Nəvvab. sciense.gov.az/news/open/9003

6. Tağıyev Ə.Azərbaycanda pedaqoji fikrin inkişaf tarixindən.B:Azərtədrisnəşr, 1961,-168 s.

ONE OF WOMEN POETS FROM KARABAKH AGABAYIM AGHA TUTI

QARABAĞIN QADIN ŞAİRLƏRİNDƏN AĞABƏYİM AĞA TUTİ

Nasibova Vusala Roma Gizi

Folklore Institute Of ANAS

Keywords: absence from homeland, sad destiny, literary work, inner world

Agabayim agha Tuti, daughter of Karabakh khan Ibrahimkhalil khan, aunt of the famous Azerbaijani poet Khurshudbanu Natavan, lived between 1801-1832 and wrote poems under the pseudonyms "Tuti", "Maluli", "Agabaji". In 1801, she was sent to the palace of the Shah of Iran Fatali khan, where she lived abroad until the end of her life. Absence from homeland, separation, separation from the country and the folk are expressed in the poet's poems with deep sorrow and sad verses.

In addition to being a poet, she received high education at her father's palace and learned Arabic, Persian, Russian, French and English. Agabayim's sad destiny caused legends about her. Y.V.Chamanzaminli's "Between Two Fires" and Mehriban Vazir's "Agabayim agha Javanshir" historical novels created an artistic image of Agabayim agha Tuti. Although only a small part of the poems of Agabayim agha Tuti have come down to us, these literary works show the richness of the poet's inner world and her delicate literary spirit.

Açar sözlər: vətən həsrəti, kədərli tale, ədəbi nümunələr, daxili aləm

Qarabağ xanı İbrahimxəlil xanın qızı, Azərbaycanın məşhur şairəsi Xurşudbanu Natavanın bibisi Ağabəyim ağa Tuti 1801-1832 -ci illər arasında yaşamış, "Tuti", "Məluli', "Ağabacı" təxəllüsləri ilə şeirlər yazmışdır. 1801-ci ildə İran şahı Fətəli xanın sarayına göndərilmiş, ömrünün sonuna qədər qürbətdə yaşamışdır. Vətən həsrəti, ayrılıq, elindən, obasından ayrı düşməsi şairin şeirlərində dərin kədər, hüznlü misralarla ifadə olunmuşdur.

Ağabəyim ağa şair olmaqla bərabər, atasının sarayında dövrünə görə yüksək təhsil almış, ərəb, fars, rus, fransız, ingilis dillərini öyrənmişdir. Ağabəyim ağanın kədərli taleyi onun haqqında əfsanələrin yaranmasına səbəb olmuşdur. Y. V. Çəmənzəminlinin " İki od arasında ", Mehriban Vəzirin "Ağabəyim ağa Cavanşir " tarixi romanlarında Ağabəyim ağa Tutinin bədii obrazı yaradılmışdır. Ağabəyim ağa Tutinin şeirlərinin az qismi bizə gəlib çatsa da, bu ədəbi nümunələr şairin daxili aləminin zənginliyindən, incə ədəbi ruhundan xəbər verir.

Qədim Azərbaycan tarixinin şanlı səhifələrindən biri olan, bir əsrə qədər böyük dövrü əhatə edən Qarabağ xanlığının, Cavanşirlər nəslinin nümayəndəsi, İbrahimxəlil xanın qızı, Xurşudbanu Natavanın bibisi Ağabəyim ağa Tuti- adı əfsanələrə qarışmış, ömrünü qürbətdə keçirmiş nisgilli xan qızı, qəlbi Vətən həsrəti ilə tutuşmuş Qarabağ şairəsi.

Müqəddəs torpağın, böyük bir nəslin övladı olmaq Ağabəyim ağanın taleyinə ağır bir misiya yüklədi. Müharibələrin, çəkişmələrin, tökülən qanların qarşısını almaq üçün İbrahimxəlil xan öz sevimli, istedadlı, xan sarayında çox yüksək səviyyədə yetişmiş qızı Ağabəyim ağanı Tehrana, Qacarların sarayına Fətəli xana zövcə olaraq girov göndərməli oldu. Bu hadisə bir çox tarixi mənbələrdə öz əksini tapmışdır: " 1215 (1800) -ci ildə Həsən xan Qaragözlü Tehrandan Qarabağa İbrahim xanın yanına gələr. Danışılmış məsləhətə görə xanın səviyyəsi Ağabəyim ağanı şah üçün ərus aparır." (3, səh 26)

Ağabəyim ağanın Qacarlar sarayında yaşaması haqqında məlumatlara ən çox İran tarixçisi Mehdi Bamdadın " İranın görkəmli şəxsiyyətlərinin tərcümeyi-halı", Ceymz Moryerin " İkinci səfər ", Əminə Pakrəvaninin " Abbas Mirzə və Azərbaycan" əsərlərində rast gəlirik. Yusif Vəzir Çəmənzəminlinin

"İki od arasında", Mehriban Vəzirin "Ağabəyim ağa Cavanşir" tarixi romanlarında isə Ağabəyim ağa Tutinin həyatı təsvir olunmuşdur.

Ağabəyim ağa atasının sarayında çox gözəl yetişdirilmiş, dövrünə görə yüksək təhsil almış, fars, rus, fransız dillərini (bəzi mənbələrdə ingilis dilini də öyrənməsi haqqında məlumatlara rast gəlirik) öyrənmiş, İbrahimxəlil xanın vəziri, görkəmli Azərbaycan şairi Molla Pənah Vaqifdən dərs almış, " Tuti", " Məluli" təxəllüsləri ilə şeirlər yazmışdır."Ağabəyim ağanın əfsanə və nağıllarla bərabər şeirə də böyük həvəsi vardı- o bütün türk şairlərini oxumuş, xoşuna gələn gözəl parçaları bəyazına köçürüb əzbərləmişdi. Bu şairlərin içində ən sevdiyi Füzuli ilə Vaqif idi".(2, səh 594) Ağabəyim ağanın İranda şah sarayında yaşayarkən sarayın diplomatik işlərində iştirak etməsi, ingilis və fransız diplomatik nümayəndələri ilə görüşlər keçirməsi, Fətəli xanın sarayında xüsusi nüfuza malik olması haqqında tarixi məlumatlar Ceymz Moryerin " İkinci səfər" kitabında geniş təsvir olunmuşdur. 1812-ci ildə İngiltərə səfiri Ser Qor Quzli İranda səfərdə olarkən səfirin xanımı da Ağabacı ağa ilə görüşmüş, hətta Ağabacı ağaya kraliça adından ənbər- ətir də bağışlamışdır. Qeyd etmək istərdik ki, Ağabəyim aga İran sarayında Ağabacı adı ilə tanınmış, güclü nüfuza malik olmuşdur. Onun bu guclü nüfuzundan sarayda narahat olanlar da çox idi və şahla münasibətlərinə mane olmağa çalışmışlar. Ağabəyim ağanın yarımçıq taleyi ilə bağlı ikifərqli fikir mövcuddur. Bəzi mənbələrdə Ağabəyim ağanın dillərə düşmüş istedadı, ağlı, bacarığından narahat olan saray əhli onun şahla izdivacına mane olmağa çalışmış, bu məqsədlə də, şah onun otağına daxil olmamış, Fətəli şahın anasının paltarını Ağabəyim ağaya geyindirmişlər. Otağa daxil olan şah evləndiyi xanımı anasının paltarında görüb əsəbləşmiş, otaqdan çıxmışdır. Bu hadisədən sonra Ağabəyim ağa ömrünün sonunadək bakirə qalmışdır. Bu haqda məlumatlara həm Mehdi Bamdadın, həm də digər islam tarixçiləri Mirzə Məhəmmədhəsən Şirazi və Məhəmməd Həsən xan Etimadüsün əsərlərində də rast gəlinmişdir. Fətəli xanın İbrahimxəlil xanın qızına münasibəti haqqında da müxtəlif fikirlər vardır.Bəzi mənbələrdə İbrahimxəlil xanın Fətəli şahın əmisi Ağa Məhəmməd xana tabe olmaması, Ağa Məhəmməd xanın Qarabağda öldürülməsi, İbrahimxəlil xanın ittifaq üçün Rusiyaya meyl etməsi idi.Bu səbəbdən Fətəli xan Ağabəyim ağanı sevməmiş, lakin sarayda nüfuzunu qorumuşdur. Yeri gəlmişkən, İbrahimxəlil xan İran sarayına təkcə qızı Ağabəyim ağa Tutini deyil, həm də oğlu Əbülfət xanı və 200 nəfər əyan əşrəfini də göndərmişdi. Əbülfət xan da Fətəli xanın yanında nüfuz qazanmış və şah ona xan titulu vermiş və oğlu Abbas Mirzənin yanında yerləşdirmişdir. O Abbas Mirzə ki, Ağabəyim ağa ilə də, Əbülfət xanla da münasibətləri yaxşı olmuşdur, Əbülfət xanı ordu başçısı təyin etmişdi, qızı və oğlunun vasitəsilə ilə İbrahimxəlil xana xəbər göndərib ittifaqa razı sala bilmişdi. 1806-cı ildə Fətəli xan Əbülfət xanı 5 minlik qoşunla Şuşaya göndərmiş, lakin Əbülfət xan Şuşaya çatanda artıq İbrahimxəlil xan və ailə üzvləri ruslar tərəfindən öldürülmüşdülər: " Xalq arasında deyilirdi ki, Əbülfət xanın qızılbaş qoşunu ilə Qarabağın üzərinə hücum etməsi ancaq İbrahim xanın məsləhəti ilə olmuşdur. Buna görə də 1221 (1806)-cı ildə Dəli mayor adı ilə məşhur olan mayor Lisaneviç 100 əsgər götürüb gecə qaladan çıxdı, dörd tərəfdən məzkur xanın çadırını əhatə etdi. İbrahim xanı öz əyanları ilə oradaca öldürdü". (3, səh 64)

Bəzi mənbələrdə isə Ağabəyim ağanın əmisi oğlu Məhəmməd bəyə olan nakam eşqinə görə Fətəli xandan uzaq durması göstərilir. Hətta Qarabağ sarayındakı çəkişmələrin və intriqaların səbəbini də bu nakam məhəbbətlə əlaqələndirənlər var. Babası Qarabağ sarayında vəzir işləmiş Yusif Vəzir Çəmənzəminli "İki od arasında" tarıxi romanında Ağabəyim ağanın əmisi oğlu Məhəmməd bəyə olan məhəbbətindən, ömrünün sonuna qədər bu nakam məhəbbətə sadiq qalmasından, İran sarayına məcburi göndərilməsindən, orada keçən kədərli həyatından ,ömrünü doğma elindən, ailəsindən, sevdiyindən ayrı başa vurmasından geniş bəhs etmişdir.

Ağabəyim ağa Tutinin seirlərinin çox az qismi bizə gəlib çatmışdir, Ağabəyim ağa şeirlərini azərbaycanca və farsca yazırdı: "Azərbaycanca bir bayatısı, qəzəlindən mətlə beyti qalmışdısa da, farsca şeirlərindəki rəvanlıq, yüksək bədii keyfiyyət ondan qabiliyyətli bir şairə kimi bəhs etməyə imkan verir".(1, səh 20) Yuxarıda da qeyd etdiyimiz kimi Ağabəyim ağa şeirlərini "Tuti" ," Məluli" təxəllüsləri ilə yazmış, İran sarayında isə daha çox "Ağabacı" adı ilə tanınmışdır. "Ağabacı təxəllüsü ilə farsca və azərbaycanca şeirlər yazan şairə Ağabəyim ağa, Qarabağ xanı İbrahimxəlil xanın qızı, şair Xurşudbanu Natavanın bibisidir"(1, səh 20). "Tuti" sözünün mənası Afrikada və Hindistanda yaşayan, bir neçə söz tələffüz edə bilən quş deməkdir. Bədii ədəbiyyatda isə tuti sözü şirindil, xoş danışıqlı mənasında işlənir. "Məluli" isə ərəb dilindən tərcümədə məlallı, qəmgin, məyus mənalarını bildirir, bu

da çox güman ki, Ağabəyim ağanın qəmli taleyi ilə bağlı idi. Bizə gəlib çatan şeirlərinin birində şairənin qəlbindəki nisgil, ağrı aydın duyulur:

Əfsus ki, yarım gecə gəldi,gecə getdi,

Heç bilmədim ömrüm necə gəldi, necə getdi.

Bu beytdən bəhs edərkən, bəzi tədqiqatçılar Ağabəyim ağanın şeirdə yarım deyərkən, Fətəli xana xitab etdiyini söyləyirlər, yuxarıda da toxunduğumuz zifaf gecəsi Fətəli xanı anasının paltarında qarşılaması faktını əsas gətirərək, xanın otağı yarımşıq tərk etməsindən duyduğu məyusluğu dilə gətirdiyini söyləyirlər, əlbəttə, şeirin İran sarayında yazılması şübhə dogurmur, " heç bilmədim ömrüm necə gəldi, necə getdi" misrasından şeiri şairənin cavan yaşında yazmaması bəllidir, lakin beytdə nakam eşqin, yarımçıq qalan sevginin ağrısından doğan nisgil, kədər aydın duyulur və bu fikrimizcə, Agabəyim ağanın əmisi oğluna duyduğu sonsuz sevginin ifadəsi idi.

Ümumiyyətlə, başqa saraya istəmədən gəlin köçmək, ömrünə girovluq yazılan təkcə Ağabəyim ağa olmamışdır, bu acı taleyi bir çox xan qızları yaşamışdır. Bu acı talelərin ağrısını xalq dərindən duymuş, bir çox bayatı, əfsanə, rəvayətlər yaranmışdır. Ağabəyim ağanın Tehran sarayında keçən girov həyatı ilə bağlı yaranan əfsanələrdən biri də Fətəli xanın xan qızı üçün Tehranda saldırdığı bağ haqqındadır. Deyilənə görə, Ağabəyim ağanın sarayda daima qəmli olması, zünün gülməməsi Fətəli xana çatmış və o Ağabəyim ağanın konlünü açmaq üçün Tehranda bir bağ saldırmış, hətta ağacları, gülləri, ustaları, bağbanları belə Qarabağdan gətirtmiş, lakin neynəsələr də Xarı bülbül bu bağda bitməmiş, bağı gəzən Ağabəyim ağa daha da kədərə bürünmüşdür və bu dillər əzbəri olan bayatı yaranmışdır:

Vətən bağı al-əlvandır,

Yox içində Xarı bülbül

Nədən hər yerin əlvandır,

Köksün altı sarı bülbül.

Bayatıda Vətən bağı Fətəli xanın saldırdığı bağdır, son misralarda səslənən bülbülün köksünün(sinəsinin) sarı olması Ağabəyim ağanın qəlbinin həsrətdən saralıb solmasına işarədir. Tehran sarayında nə qədər hər yan gül- çiçək, gülüstan olsa da, Ağabəyim ağanın Vətən həsrəti, ayrılıq acısı bir an da olsa azalmamış, unudulmamışdır:

Əziziyəm Qarabağ

Şəki, Şirvan, Qarabağ

Tehran cənnətə dönsə

Yaddan çıxmaz Qarabağ

Şairənin qəlbi daim Vətən həsrəti ilə döyünmüş, doğma yurdun havasının, gül- çiçəyinin ətrinin həsrəti qəlbini yandırmışdır:

Sənin o gül bağçanın ətirlidir havası,

Mənim də bu könlümün yalnız odür dəvası.

Ağabəyim ağanın qəlbi ömrünün sonuna qədər bu ayrılıqla barışmamış, Vətəndən uzaqda sarayda keçən ömrünü hədər saymış, ayrılıqan xəstə könlü daim doğma yurdla döyünmüşdür, özünün bədbəxtliyini, əlacsızlığını dilə gətirmişdir:

O kəs bəxtəvərdir ki, xoşbəxtdir ki, ey canan,

Özünə mənzil salıb yaxın yerdə bağından.

Ağabəyim ağanın bizə çatan şeirlərinin hamısında nakam məhəbbətdən, həsrətdən, ayrılıqdan doğan könül iztirabları, yaralı qəlbin çırpıntıları təsvir olunmuşdur:

Ey naseh, nəsihətin mənə əbəsdir, əbəs,

Ətəkləyər sözlərin atəşimi, söndürməz.

Ağabəyim ağa ömrünü qürbətdə, qəlbi Vətən həsrəti ilə döyünə-döyünə başa vurmuşdur. Fətəli xana sevgi ilə bağlanmasa da, ömrünün sonuna qədər nakam sevgisinə sadiq qalsa da, Fətəli xan İbrahimxəlil xanın gözəlliyi, istedadı, biliyi, kamalı ilə şöhrət qazanmış qızına, bu Qarabağ incisinə talaq verməmiş, sarayda nüfuzunu, hörmətini qoruyub saxlamışdir. Ağabəyim ağa ömrünün sonuna qeder sarayda nüfuzunu qorumuş, saray xanımları Ağabəyim ağadan çəkinmiş, xanın sevimli zovcəsi Tacüddövlə Ağabəyim ağa otağa daxil olarkən ayağa durarmış. Şahzadə Keykavusun tərbiyyəsi üçün ona övladlığa verilməsi haqqında məlumat da Ağabəyim ağaya olan hörmətin və inamın sübutu idi. Ağabəyim ağa nüfuzunu qoruyub saxlamaq üçün omrünün sonlarında Qarabağdan gətirdiyi, 200 nəfər əyan- əşrəfi ilə birlikdə şahın ona bağışladığı Qum şəhərinə köçmüş, 1248 (1832)-ci ildə Qumda vəfat etmiş və orada dəfn olunmuşdur.

ƏDƏBİYYAT SİYAHISI

1. Əzizə Cəfərzadə, Azərbaycan aşıq və şair qadınları, Bakı, Gənclik, 1974.
2. Yusif Vəzir Çəmənzəminli, Əsərləri, 3 cilddə, III cild, Bakı, 2005 .
3. Yunus Rza oğlu Hüseynov, Qarabağnamələr, Bakı, 2007.

MƏNLİYİMİZİN ƏSASI OLAN ANA DİLİMİZ

Şirinova Nəhayət Məhəmməd

ADPU Quba filialının əməkdaşı. İctimaiyyətçi-yazar

XÜLASƏ

Azərbaycan dili! Milli mənəvi dəyərimiz, mental atributumuzdur!

Azərbaycan dili müxtəlif dövrlərdə rəsmən dövlət dili kimi elan edilib bir müddət fəaliyyət göstərsə də, dövlət dili statusu uzun müddət sürə bilməmişdir. Yalnız xalqımızın ümummilli lideri Heydər Əliyev 1969-cu ildə hakimiyyətə gəldikdən sonra Azərbaycan dilinin xilaskarı kimi tariximizə öz əbədi imzasını atdı. 70-ci illərin ortalarından başlayaraq SSRİ-ni təşkil edən respublikaların ictimai-siyasi həyatında dil məsələsi yenidən gündəmə gətirildi. SSRİ Konstitusiyasının qəbulundan sonra milli dillərin sıxışdırılması prosesi daha da gücləndirildi. Belə bir şəraitdə ana dili məsələsinin təbliği ilə məşğul olmaq cəsarət tələb edirdi. Hətta milli respublikaların rəhbərləri də ana dili məsələsini gündəmə gətirməkdə aciz idilər. Bütün bunlara baxmayaraq, o vaxt Azərbaycan Respublikasının rəhbəri olan Ulu Öndər Heydər Əliyev dil məsələsində öz mövqeyini çox cəsarətlə, qətiyyətlə bildirirdi.

Ulu Öndər Heydər Əliyev öz fikirlərdə deyirdi: *Hər bir millətin dili onun üçün çox əzizdir. Bizim üçün Azərbaycan dili, ana dilimiz həddindən artıq əzizdir. Çünki çox illər ana dilimiz, Azərbaycan dili həyatımızda geniş yer ala bilməmişdir. Amma buna baxmayaraq hər bir azərbaycanlı dilin qorunub saxlanılmasında az da olsa, çox da olsa, xidmətlərini göstərmişdir. Xüsusən bizim yazıçılarımız, ədəbiyyatşünaslarımız, şairlərimiz o ağır dövrdə Azərbaycan dilinin yaşamasında böyük xidmətlər göstərmişlər***.** [*Heydər Əliyev.Bakı.* 2007, səh.151-152.]

Azərbaycan dilində ən dərin duyğuları, ən incə mənaları istədiyin şəkildə çox müxtəlif bədii boyalarla ifadə etmək olur. Bu dil elmi, siyasi, fəlsəfi fikirləri çox aydın ifadə etməyə qadir olduğu kimi, bədii təfəkkürün gözəl nümunələrini yaratmaq üçün də çox yararlıdır.

Açar sözlər: Azərbaycan, dəyər, elm. dil, sərvət

РЕЗЮМЕ

Азербайджанский язык! Это наша национальная нравственная ценность, наш ментальный атрибут!

Хотя азербайджанский язык в разное время официально объявлялся государственным и функционировал некоторое время, статус государственного длился недолго. Только после прихода к власти в 1969 году общенационального лидера нашего народа Гейдара Алиева он оставил вечный след в нашей истории как спаситель азербайджанского языка. С середины 1970-х годов вопрос о языке вновь стал подниматься в общественно-политической жизни республик, входивших в состав СССР. После принятия Конституции СССР процесс подавления национальных языков еще более усилился. В таких условиях требовалось мужество, чтобы продвигать родной язык. Даже руководители национальных республик не смогли поднять вопрос о родном языке. Несмотря на все это, тогдашний руководитель Азербайджанской Республики Великий лидер Гейдар Алиев очень смело и решительно выразил свою позицию по языковому вопросу. Великий лидер Гейдар Алиев сказал, по его мнению: «Ему очень дорог язык каждого народа. Для нас очень дорог азербайджанский язык, наш родной язык. Потому что на протяжении многих лет наш родной язык, азербайджанский язык, не мог занять большого места в нашей жизни. Тем не менее, каждый азербайджанец в большей или меньшей степени способствовал сохранению языка. В частности, наши писатели, литературоведы и поэты внесли большой вклад в сохранение азербайджанского языка в те трудные времена. Гейдар Алиев, Баку. В азербайджанском языке самые глубокие чувства, самые тонкие смыслы могут быть выражены как угодно, разнообразными художественными красками. Этот язык способен очень четко

выражать научные, политические и философские идеи, а также создавать прекрасные образцы художественного мышления.

Ключевые слова: Азербайджан, ценность, наука. язык, богатство

ABSTRACT

Azerbaijani language! It is our national moral value, our mental attribute!

Although the Azerbaijani language was officially declared the state language at various times and functioned for some time, the status of the state language did not last long. Only after the national leader of our people Heydar Aliyev came to power in 1969 did he make his eternal mark on our history as the savior of the Azerbaijani language. Beginning in the mid-1970s, the issue of language was brought up again in the socio-political life of the republics that formed the USSR. After the adoption of the USSR Constitution, the process of suppression of national languages was further intensified. Under such circumstances, it took courage to promote the mother tongue. Even the leaders of the national republics were unable to raise the issue of the mother tongue. Despite all this, the then leader of the Republic of Azerbaijan, Great Leader Heydar Aliyev, expressed his position on the language issue very boldly and decisively. Great Leader Heydar Aliyev said in his opinion: The language of every nation is very dear to him. For us, the Azerbaijani language, our mother tongue, is extremely dear. Because for many years, our native language, the Azerbaijani language, has not been able to take a large place in our lives. Nevertheless, every Azerbaijani has contributed more or less to the preservation of the language. In particular, our writers, literary critics and poets made a great contribution to the survival of the Azerbaijani language in those difficult times. Heydar Aliyev. Baku. In the Azerbaijani language, the deepest feelings, the most subtle meanings can be expressed in any way you want with a variety of artistic colors. This language is able to express scientific, political and philosophical ideas very clearly, as well as to create beautiful examples of artistic thinking.

Keywords: Azerbaijan, value, science. language, wealth

Bizim ana dilimiz olan Azərbaycan dili də minilliklərə söykənən zəngin inkişaf yolu keçmişdir. Lakin bu yol çox da asan olmamış, zaman-zaman sıxışdırılmış, müxtəlif dövrlərdə yad təsirlərə məruz qalmışdır. Bütün bunlarla yanaşı, dilimiz tarixin bu sərt sınaqlarına sinə gərmiş, bütövlüyünü, saflığını qoruyub saxlaya bilmişdir. Qədim Şumer- "Bilqamus", Qədim Şərq-Azərbaycan-"Avesta", antik yunan ədəbiyyatımızdan bizə miras qalmış ən qiymətli mənəvi sərvətdir.

Bu qədər qədim tariximiz, mədəniyyətimiz ola-ola bir əsrdə dörd dəfə əlifba dəyişikliyi oldu. Sonuncu dəfə 1991-ci ilin 25 dekabrında "Latın qrafikalı Azərbaycan əlifbasının bərpası haqqında" qanun qəbul edilməklə ölkəmizdə "Azərbaycan əlifbası və Azərbaycan dili günu" təsis edildi. Yarım əsirdən çox bir müddət ərzində kiril qrafikası ilə Azərbaycan elminin mədəniyyetinin olduqca dəyərli və qiymətli numunələr yaradılmasına baxmayaraq, latın qrafikalı Azərbaycan əlifbasına keçid xalqımız tərəfindən böyük rəqbətlə qarşılandı.

Azərbaycan dilinin gözəlliyi, onun zənginliyi və digər xüsusiyyətləri tarixən bir sıra görkəmli şəxsiyyətlərin də nəzəri-diqqətini özünə cəlb etmişdir.

Rusiyanın ən qüdrətli milli şairlərindən biri olan Mixail Yuryeviç Lermontov Azərbaycana böyük hörmət və məhəbbət bəsləirdi. O, Şamaxıda qaldığı müddətdə bir sıra yerləri gəzmiş, toylarda, el şənliklərində iştirak etmişdi. Yurdumuzun füsunkar təbiətinə, dağlarına, meşələrinə, çaylarına, bulaqlarına valeh olan şair, həvəskar ov (bəzi mənbələrdə laçın və tərlan ovu qeyd edilir - R.Mirzəzadə) mərasimlərinə də qatılmışdı. Şamaxı qəzasının Tircan kəndində ağsaqqalların danışdığı nağıllara qulaq asmış, məscid minarələrindən ucalan azan səsini dinləmişdi.

Lermontov Tiflisdə olarkən böyük Azərbaycan yazıçı, dramaturq və maarifçisi Mirzə Fətəli Axundovla tanış olmuş, və ona Azərbaycan dili haqqında demişdir: *"...mən bir çox dağlar aşdım, Şuşa, Quba və Şamaxı şəhərlərində oldum... Azərbaycanca öyrənməyə başladım; həmin dil burada və*

ümumiyyətlə, Asiyada fransız dilinin Avropada olduğu qədər zəruri bil dildir". [M.Y.Lermontov.Moskva.]

Lermontovun Azərbaycan dilinin gözəlliyi barədə poetik müraciəti də mövcuddur:

Kaşki sizin dildə danışam aydın,

Kaşki müəllimim özün olaydın.

Dilimizə verilən qiymət o qədər ilahi səslənir ki, hamı onun ilahiliyi və müqəddəsliyi qarşısında səcdə etməyə, onu göz bəbəyi kimi qorumağa, dərin məhəbbətlə sevməyə borcludur.

Görkəmli professorumuzun fukrində deyildiyi kimi:-*"Doğma dilim, sən bizim mənəvi varlığmız, həyatımız, canımız, nəfəsimizsən. Anaların laylası sənin şirin əfsunlu sözlərinlə başlayır. Sənin ətrin, rayihən, şirin məhəbbət duyğuların ana südü ilə həzm olunur. Sən bizim ulumuz, şərəfimiz, qeyrətimizsən, babalarımızın, nənələrimizin ağlı zəkası, müdrüklüyi, şirinli-acılı fikir dünyası, poetik aləmi, dünya şöhrətli ədəbiyyatı sənin sözlərinlə ərsəyə yetişib".* [*Professor M.Məmmədov" Ana dili və nitq mədəniyyəti məsələləri" monoqrafiya. Bakı.səhifə 96.*]

1978-ci il aprelin 2-də IX çağırış Azərbaycan SSR Ali Sovetinin Azərbaycan Sovet Sosialist Respublikası Konstitusiyasının layihəsi və onun ümumxalq müzakirəsinin yekunlarına həsr olunmuş VII sessiyasında məruzə ilə çıxış edən Ulu Öndər Heydər Əliyevin təklifi ilə 73-cü maddəni aşağıdakı redaksiyada vermək təklif olunmuşdur: "Azərbaycan Sovet Sosialist Respublikasının dövlət dili Azərbaycan dilidir." Heydər Əliyevin bu təşəbbüsü 1978-ci il 21 aprel tarixində qəbul olunmuş Azərbaycan SSR Konstitusiyasında öz əksini tapmışdır. Azərbaycan dilinə dövlət dili statusunun verilməsi Ümummilli Lider Heydər Əliyevin xalq qarşısında ən böyük tarixi xidmətlərindən biridir. Ulu Öndər bununla gələcək müstəqil dövlətçiliyin milli rəmzlərindən birini məharətlə qorumuşdur.

Dilimizə olan mükəmməl sevgisi Ümummili Liderimiz Böyük Azərbaycanlı Heydən Əliyevin sitatları kimi də yaddaşlarımıza həkk olunmuşdur. Bunun bariz nümunılrindən birini qeyd edək: *"Dilimiz çox zəngin və ahəngdar dildir, dərin tarixi köklərə malikdir. Şəxsən mən öz ana dilimi çox sevir və bu dildə danışmağımla fəxr edirəm"*. [*Heydər Əliyev. Bakı.səh.125.1980-ci il*]

Digər fikirlərindən isə geyd edir ki, *"Hər bir xalqın milliliyini, mənəvi dəyərlərini yaşadan, inkişaf etdirən onun dilidir.* [*Heydər Əliyev. Müstəqillik yolu: seçilmiş fikirlər / H. Əliyev; red. Ə. Həsənov.- B.: Azərbaycan Universiteti nəşriyyatı, 1997.- 136 s]*

Bizim ən böyük sərvətimiz ondan ibarətdir ki, dilimiz yaşayıb və zənginləşibdir. Azərbaycan ədəbi dilinin saflığına daim qayğı göstərilməlidir. Çünki dil xalqın sərvətidir. Ədəbi dilin tərəqqisi olmadan mənəvi mədəniyyətin tərəqqisi mümkün deyildir".

Görkəmli ictimai xadim olan Sultan Məcid Qənizadə Azərbaycan dili haqqında yazmışdır: *"Həqiqətən bu dil öz təbiətinə görə çox elastikdir və asanlıqla zərif üslubi formalara düşmə bacarığına malik olmaqla öz xüsusiyyətləri ilə fəxr edə bilər. Bu xüsusiyyətlər öz mahiyyətinə görə çox maraqlıdır.* [*.Sultan Məcid Qənizadə. Bakı.*]

Dəyərli şairimiz B.Vahabzadənin "Ana dili" yaradıcılığının ən monumental əsərlərindən biridirdə isə dilimizi belə vəsf edir:

Bu dil bizim ruhumuz, eşqimiz, canımızdır,

Bu dil bir-birimizlə əhdi-peymanımızdır.

Bu dil tanıtmış bizə bu dünyada hər şeyi,

Bu dil əcdadımızın bizə miras verdiyi

Qiymətli xəzinədir...onu gözlərimiz tək

Qoruyub, nəsillərə biz də hədiyyə verək.

[Bəztiyar Vahabzadə 21 fevral. 2021-ci il.Zim.az saytı.]

Məşhur şəxsiyyətlərdən Bestujev-Marlinski və başqaları da Azərbaycan dilinin əhəmiyyətindən öz əsərlərində daima bəhs etmişlər.

Digər ekspert qeyd edirdi ki: "*Elm və təhsilin və dilin inkişafı bütün dünyada vətəndaş cəmiyyətinin yaradılmasını təmin edəcək və bizim nəsil var gücü ilə bu prosesi dəstəkləməyə çalışacaqdır ki, bizə də belə bir cəmiyyətdə yaşamaq nəsib olsun*" **[Professor Eden Mamut, Qara dəniz Universitetləri Şəbəkəsi, Rumıniya 2019]**

Dilimizə hər zaman öz diqqəti ilə seçilən Ulu Öndər Heydər Əliyev dövlət dilinin yeni inkişaf dönəmində yaranmış vəziyyəti nəzərə alaraq 2001-ci il iyunun 18-də "Dövlət dilinin tətbiqi işinin təkmilləşdirilməsi haqqında" Fərman imzalamışdır. İlk növbədə müstəqil Azərbaycan dövlətinin dil siyasətinin müəyyənləşməsi, formalaşması və möhkəmləndirilməsi baxımından müstəsna əhəmiyyət daşıyan bu tarixi Fərman dövlət dili ilə bağlı hərtərəfli və geniş məlumatları özündə ehtiva edir. Sözügedən Fərmanla Azərbaycan Prezidenti yanında Dövlət Dil Komissiyası yaradılmışdır.

Bundan əlavə Ulu Öndərin "Azərbaycan əlifbası və Azərbaycan dili gününün təsis edilməsi haqqında" 2001-ci il 9 avqust tarixli Fərmanına əsasən hər il avqustun 1-i ölkəmizdə Azərbaycan əlifbası və Azərbaycan dili günü kimi qeyd edilir. Daima zəngin ol Azərbaycan dili, doğma dilim!

Ana dilimiz heç zaman bizi tərk etməsin !

İSTİFADƏ OLUNAN ƏDƏBİYYAT

1. *"Dilimiz çox zəngin və ahəngdar dildir, dərin tarixi köklərə malikdir. Şəxsən mən öz ana dilimi çox sevir və bu dildə danışmağımla fəxr edirəm".* [*Heydər Əliyev. Bakı.səh.125.1980-ci il*]

2. "*Elm və təhsilin və dilin inkişafı bütün dünyada vətəndaş cəmiyyətinin yaradılmasını təmin edəcək və bizim nəsil var gücü ilə bu prosesi dəstəkləməyə çalışacaqdır ki, bizə də belə bir cəmiyyətdə yaşamaq nəsib olsun*" ***[Professor Eden Mamut, Qara dəniz Universitetləri Şəbəkəsi, Rumıniya 2019].***

3. *"Həqiqətən bu dil öz təbiətinə görə çox elastikdir və asanlıqla zərif üslubi formalara düşmə bacarığına malik olmaqla öz xüsusiyyətləri ilə fəxr edə bilər. Bu xüsusiyyətlər öz mahiyyətinə görə çox maraqlıdır.* [*.Sultan Məcid Qənizadə. Bakı.*]

4. Digər fikirlərindən isə geyd edir ki, *"Hər bir xalqın milliliyini, mənəvi dəyərlərini yaşadan, inkişaf etdirən onun dilidir.* [*Heydər Əliyev Müstəqillik yolu: seçilmiş fikirlər / H. Əliyev; red. Ə. Həsənov.- B.: Azərbaycan Universiteti nəşriyyatı, 1997.- 136 s]*

5. :-"Doğma dilim, sən bizim mənəvi varlığımız, həyatımız, canımız, nəfəsimizsən. Anaların laylası sənin şirin əfsunlu sözlərinlə başlayır. Sənin ətrin, rayihən, şirin məhəbbət duyğuların ana südü ilə həzm olunur. Sən bizim ulumuz, şərəfimiz, qeyrətimizsən, babalarımızın, nənələrimizin ağlı zəkası, müdrüklüyi, şirinli-acılı fikir dünyası, poetik aləmi, dünya şöhrətli ədəbiyyatı sənin sözlərinlə ərsəyə yetişib". [*Professor M.Məmmədov" Ana dili və nitq mədəniyyəti məsələləri" monoqrafiya. Bakı.səhifə 96.*]

6. mən bir çox dağlar aşdım, Şuşa, Quba və Şamaxı şəhərlərində oldum... Azərbaycanca öyrənməyə başladım; həmin dil burada və ümumiyyətlə, Asiyada fransız dilinin Avropada olduğu qədər zəruri bil dildir". [M.Y.Lermontov.Moskva.]

Bu dil bizim ruhumuz, eşqimiz, canımızdır,

Bu dil bir-birimizlə əhdi-peymanımızdır.

Bu dil tanıtmış bizə bu dünyada hər şeyi,

Bu dil əcdadımızın bizə miras verdiyi

Qiymətli xəzinədir...onu gözlərimiz tək

Qoruyub, nəsillərə biz də hədiyyə verək. [Bəztiyar Vahabzadə 21 fevral. 2021-ci il.Zim.az saytı.]

7. Hər bir millətin dili onun üçün çox əzizdir. Bizim üçün Azərbaycan dili, ana dilimiz həddindən artıq əzizdir. Çünki çox illər ana dilimiz, Azərbaycan dili həyatımızda geniş yer ala bilməmişdir. Amma buna baxmayaraq hər bir azərbaycanlı dilin qorunub saxlanılmasında az da olsa, çox da olsa, xidmətlərini göstərmişdir. Xüsusən bizim yazıçılarımız, ədəbiyyatşünaslarımız, şairlərimiz o ağır dövrdə Azərbaycan dilinin yaşamasında böyük xidmətlər göstərmişlər. [*Heydər Əliyev.Bakı.* 2007, səh.151-152]

TÜRKDİLLİ XALQLARDA VƏ SAXURLARDA NİKAH FORMALARI

FORMS OF MARRIAGE OF THE TURKIC-SPEAKING PEOPLES AND TSAKHURS

Sahibə Musayeva

AMEA, Arxeologiya, Etnoqrafiya və Antropologiya İnstitutunun dissertantı

ORCID ID:0000-0001-8091-925X

XÜLASƏ

Dünyada saysız-hesabsız millət, etnik qrup vardır ki, bu da onların sayı qədər psixologiyanın, etnik şüurun olması deməkdir. Hər bir xalqın özünüdərk prosesində milli adət-ənənələr əvəzolunmaz vasitədir. Azsaylı xalqların folkloru onların mənəvi-mədəni dünyasını əks etdirir. Təqdim olunan məqalədə türkdilli xalqlar, Azərbaycanın Şəki-Zaqatala bölgəsində yaşayan saxurlar və digər etnik qruplar arasında mövcud olmuş nikah formaları, qaydaları, adətləri, üsulları və s. müqayisəli şəkildə təhlil edilir. Araşdırma nəticəsində məlum olmuşdur ki, türkdilli xalqlardakı kimi, saxurlarda da nikahın əsas forması təkkəbinlilik idi. Onların arasında əsasən endoqam nikaha üstünlük verilmişdir. Çox güman ki, qohumlar arasında nikahlar sərt qaydadan daha çox əxlaqi və etik norma olmuşdur. Bununla belə, sororat nikah adəti istisna olmaqla, saxurlarda nikahın bütün formalarına müəyyən dərəcədə rast gəlinmişdir. Araşdırma nəticəsində o da bəlli olmuşdur ki, azərbaycanlıların və digər türk xalqlarının, həmçinin də öyrənilən bölgədə yaşayan digər etnik qrupların ailə məişəti, xüsusilə də nikahla bağlı məsələləri saxurlar üçün də səciyyəvi sayılmışdır. Digər xalqlar kimi, müasir dövrdə onların arasında da qarışıq nikahlar mövcuddur. Bü cür qarışıq millətlərarası nikah münasibətləri formalaşması bütövlükdə Qafqaz xalqlarının və türkdilli xalqların mədəniyyətini inkişaf etdirir.

Açar sözlər: etnoqrafiya, türkdilli xalqlar, saxurlar

ABSTRACT

There are countless nations and ethnic groups in the world, which means that there is as much psychology and ethnic self-consciousness in them as their number. National traditions are an invaluable tool in the process of self-consciousness of each nation. The folklore of ethnic minorities reflects their spiritual and cultural world. The article presents the forms, rules, customs, forms of marriage between the Turkic-speaking peoples, Tsakhurs living in the Sheki-Zagatala region of Azerbaijan, and other ethnic groups. analyzed comparatively. As a result of the study, it turned out that the main form of marriage among the Tsakhurs, as well as among the Turkic-speaking peoples, was monogamy. Among them, preference was given to endogamous marriage. Probably, marriages between relatives have become more of a moral and ethical norm. However, with the exception of the sororat marriage, all forms of marriage occurred in the Tsakhurs. As a result of the study, it turned out that the family life of Azerbaijanis and other Turkic peoples, as well as other ethnic groups living in the study area, was considered typical for Tsakhurs, especially in matters of marriage. The formation of such mixed inter-ethnic marital relations develops the culture of the Caucasian and Turkic-speaking peoples as a whole.

Keywords: ethnography, Turkic-Speaking peoples, Tsakhurs

GİRİŞ

XIX-XX əsrin əvvəllərində azərbaycanllar və digər türk-müsəlman xalqları arasında nikahla bağlı məsələlərə xüsusi diqqət yetirilmdir. Sözügedən ərəfədə əsas nikah formaları - təkkəbinlilik (monoqam) və ikiarvadlılıq (poliqam); nikah qaydaları-ekzoqam və endoqam; nikah adətləri-göbəkkəsmə (beşikkərtmə), levirat, sororat və kuzen; nikahagirmə üsulları-qızqaçırma və elçilik yolu ilə olmuşdur (3,s.121). Etnoqrafik materiallar göstərir ki, Azərbaycanın əksər bölgələrində, o cümlədən saxurlarda

təkkəbinlilik, endoqam, krosSkuzen, ortakuzen nikah formaları üstünlük təşkil etmişdir. İslamdan sonra oturaq həyata keçən bir çox Türk xalqlarının evlənmə mərasimlərində qədim "*exogamie*" (ekzoqamiya) ənənələrinin davam etdiyini vurğulayan Abdulqadir İnanın "Türk Toylarında Exogamie İzləri" başlıqlı məqaləsində olduqca mühüm məlumatlar vardır. İnana görə, Türklər həm ekzoqomiya, həm də qızı qaçırmaq yoluyla evlənərdilər. O, ekzoqamiya ənənəsinin islamlaşmadan sonra yumşaldığını, "qaçırlma" üsulunun isə hələ də tətbiq edildiyin (8, s.48) göstərir. Tədqiqatçı qeyd edir ki, qıpçaqlardan törəmiş başqırdların, eyni zamanda Yakut və Altay türklərinin evlilik məsələsində qızqaçırma ənənəsinin qanuni hal alması (8, s.49) müasir dövrdə də öz əhəmiyyətini itirməmişdir.

Hunların "*patriarxal*" və "*ekzoqamiya"*qaydası ilə ailə quran bir tayfa kimi tarix səhnəsinə çıxdığı söylənir. Eyni zamanda, göytürklərdə, uyğurlarda və qırğızlarda da "müəyyən bir boya qız vermə, yəni qarşılıqlı qız dəyişdirmə ənənəsi"nin də əsrlər boyu davam etdirildiyi qeyd olunur. "Hətta Oğuzlar Anadoluya gəldikdən sonra ekzoqamiya qanununa əməl etmişlər" (11, s.100). Yeri gəlmişkən qeyd edək ki, qız dəyişdirmə nikah adəti Azərbaycanın ayrı-ayrı bölgələrində "al dəyişirik etmək", "qız-qıza" və s. adları ilə ifadə edilirdi (2**,** s. 35-36).

Son zamanlara qədər yakutlarda və Altay türklərində öz qanuniliyini qoruyub saxlayan "*qız qaçırma*"nın öz yerini "*elçilik*" üsulu ilə evlənməyə verdiyi, həmçinin "...evliliyin Hunlardan etibarən yayğın hala gəldiyi" (9, s.104) qeyd edilir.

Türkmənlər arasında nikah adətləri müxtəlif şəkildə təzahür edirdi: "Alış-veriş", "beşik kəsmə" ("beşik kərtmə"), "gəlin qaytarmaq", "məsləhətləşmə" və s. Bunlardan ən yayğını "alış-veriş" adı ilə məlum olan nikah adəti idi. Toy xərclərinin sıxıntı yaşatmaması üçün ərə gedən qızın ər evindən ata evinə gəlin olaraq göndərilməsi – qaytarılması türkmənlər arasında adət halını almışdır. Adətə görə, ata evinə dönən gəlin bir müddət burada qalaraq öz cehizini hazırlamaqla məşğul olurdu. Toy sahibinə maddi və mənəvi dəstək vermək məqsədi ilə hər iki tərəfin bir araya gələrək məsləhətləşmələri, yardım göstərmələri türkmənlər arasında ənənəvi xarakter daşıyırdı. Valideyinləri tərəfindən kiçik yaşlı uşaqların bir-birinə ad edilməsi "beşikkəsmə", yaxud, "beşikkərtmə" ilə müşaiyət olunurdu (4).

"Beşikkəsmə"ni, əsasən, erkən evliliklə bağlayan və "qızların belə erkən evləndirilmələrinin səbəbi"ni, "kişilərin kiçik gəlinləri seçmələri, qız tərəfinin başlıq almaq arzusu, erkən evlənmənin qızın bəkarətini qarantiyə alması və başqasına qaçmasının qabağına keçilməsi" ilə bağlayan ingilis yazar Elizabet E.Baco bildirir ki, "Qazaxlarda, ... zəngin ailələrdə oğlanlar, on iki ilə on beş yaşları arasında, qızlarsa həddi-buluğa çatmadan evləndirilərdi" (6, s.40). İngilis yazarı onu da qeyd edir ki, "başlıq o qədər yüksək idi ki, əksər hallarda ödəmə nisyə şəkildə aparılırdı" (6, s.40). Başlığın kreditlə ödənilməsi qaydası əsasən Altaylara məxsus idi. Onların arasındakı mövcud qaydaya görə, "qız qaçıranların qarşısında başlığın nağd olaraq ödənilməsi şərti qoyulmuşdur" (9, s.103). Qıpçaqlarda isə qızını gəlin köçürməyə qərar verən qız anası ("esi") və atası ("chain") yalnız oğlan tərəfindən istədikləri başlıq pulunu ("juluv", "mihir", "kalın") aldıqdan sonra toy ("asar") tədarükünə başlardılar.

Saxurlar və avarlar arasında əmioğlu və əmiqızı arasında nikahlar (endoqam) mövcud olmuşdur. Bu nikah qaydasına avar dilində "riqin" (yəni qohumdan evlənmə), saxurlarda isə "xıdıl" deyilərdi. "Xıdıl"ların evlənməsi hər zaman rəğbətlə qarşılanırdı. Lakin bu zaman, adətə uyğun olaraq nəslin ağsaqqallarının razılığının alınması şərt idi (5,s.134). Maraqlıdır ki, "xıdıl" qədim türk sözü olub "ləqəb" mənasında işlənir (12,c.37).

Qədim patriarxal ənənələrə görə, azərbaycanlı ailələrində olduğu kimi, saxurlarda da əmiuşaqları doğulanda bir-birinə nişanlı, göbəkkəsdi (saxurca-vuxnen dan) edilərdilər. Sözügedən nikah adəti barədə etnoqrafik ədəbiyyatda da məlumat verilir. Orada qeyd olunur ki, "yaxın dostlar və ya qohum ailələr arasında mövcud olan göbəkkəsmə (beşikkərtmə) adəti ilə körpə yaşlı uşaqlarını erkən vaxtlardan etibarən deyikli elan edirdilər və məlum olduğu kimi, burada əsas seçim valideynlərdən asılı olurdu. Bu adət təkcə Azərbaycanda deyil, eyni zamanda başqa türk mənşəli xalqlarda da indiyədək mövcuddur. Eyni vaxtda yaxın dostların birinin qızı, o birinin oğlu olardısa və ya birinin oğluna müvafiq digərinin qızı müəyyən yaş fərqilə uyğun gələrdisə, valideynlər arasındakı sözləşmə ilə onlar deyikli sayılırdılar" (1, s.22).

XIX-XX əsrlərdə beşikkərtimə nikah qaydası avarlar, ləzgilər, rulullar arasında da mövcud idi. Rutullar bu adəti "beşikkirtme" kimi ifadə edirdilər. Saxurlarda da göbəkkəsmə nikah adətinin icrası zamanı

yeni doğulan körpələrin göbəyinin kəsilməsi zamanı molla dua oxuyur və sonra körpələrin bir-birinə ad edildiyini (adaxlandığını) elan edirdi və ya yeni doğulan qız uşağının göbəyini kəsən qadın "köbəyini " filankəsin oğlunun adına kəsirəm" deyərdi. "Evlənmə"də yer alan "*monoqam*" (*tək arvadlılıq*), "*poliqam*" (*çox arvadlılıq*), "*levirant" (qardaş arvadı ilə evlənmə*), "*sororat" (baldızla evlənmə*) və s. kimi eviliklərin içində Türk ailə həyatı üçün ən xarakterik olanı "*monoqam*" nikah formasıdır. Olivierə görə, "qanun, hər nə qədər müsəlmanlara dörd qadınla evlənmə haqqı tanıyırsa da, Türklər arasında bir qadından çoxu ilə evlənənə az rast gəlinir. Bunun bir çox səbəbi vardır: hər şeydən əvvəl, bu çox bahalı bir işdir, eyni hərəmin içində dolana bilməzlər, şikayətləri və ya tələblərilə yoldaşlarını böhrana salarlar. Bundan əlavə, Türk qadınlarının böyük qisimi evlənərkən yoldaşlarına,... başqa qadınlarla evlənməmələrini şərt qoyarlar"(10, s.484). Digər yandan, "Türklərdə məşhur olan "tək qadınla evlənmə, yəni monoqam"ın olduğunu ifadə edən Bahaəddin Ögəl bu vəziyyətin yanında kumalıq sisteminin də olduğunu və hətta bu kumalar arasında şəxsən Çin İmperatorunun qızlarının da olduğunu ifadə etməkdədir" (7, s.8). "*Kuma*", əski Türk ənənəsinə görə ikinci dəfə evlənmək haqqına sahib olan kişinin "*baştaxtı*"ndan sonrakı qadınına verilən addır. Hun və Göytürk ənənəsində əri öldüyü halda kumaların ögey oğlu ilə evlənməsi yasaqlanmamışdır. Ölən qardaşın arvadı ilə evlənmək haqqı da əski dövrün evlilik ənənəsi ilə bağlıdır**.**

Şəriətə görə, dörd arvad almağa icazə verilməsinə baxmayaraq, İlisu sultanlığının əhalisi arasında çoxarvadlılıq geniş yayılmamışdır (14, c. 184). Deyilənlərə əsasən, çox nadir hallarda varlı kişilər eyni vaxtda iki və ya üç arvad almağı bacarırdı. Fikrimizcə, çoxarvadlılığın geniş formada yayılmasına mane olan amil məhz maddi durumun aşağı səviyyədə olması idi. Qohum evliliklərinin çoxluğuna görə saxurlar, mugollar və ingiloylar arasında bəzi fərqlər vardır. Yəni, saxurlar qohum ailə nikahlarına daha çox üstünlük verirdilər. Saxurlar arasında qohum nikah formasının üstünlük təşkil etməsini dağ kəndlərinin təbii-coğrafi mövqeyi, digər ərazilərdən təcrid olunması ilə izah etmək olar (14, c. 180). Onu da deyək ki, bu cür nikah forması saxurlarla müqayisədə moğollar arasında azlıq təşkil edirdi. İngiloylara gəlincə, onlar qohum olmayan ailələrin üzvləri ilə evlənməyə daha çox üstünlük verirdilər. Topladığımız etnoqrafik materiallar göstərir ki, xristian ingiloylardan fərqli olaraq, müsəlman ingiloylarda əmiuşaqları arasındakı nikahlar çox geniş yayılmışdı. Zəğam kəndindən olan məlumatçı Ramazanova Gülsənəm Allahverdi qızı (1905-ci il təvəllüdlü) bu haqda belə deyir: "Bizim kənddə həm qohum, həm də qohum olmayan nikahlar eyni dərəcədə geniş yayılmışdı. Mən özüm əmim oğlu ilə ailə qurmuşdum. Belə nikahlar çox idi, bu da şəriət adətlərinin təsiri ilə izah olunurdu" (18,c.222). Göründüyü kimi, ingiloy əhalisi arasında yaranan dini ayrı-seçkilik müəyyən dərəcədə onların həyatına, ailə məişətinin müxtəlif tərəflərinə öz təsirini göstərmişdir.

İlisu sultanlığının əhalisi arasında az da olsa levirat nikah adətinə - qardaşın dul qadını ilə evlənməsinə rast gəlinmişdir. Qıpçaq kəndindən olan Kərimov Mustafa Məhəmməd oğlunun (1920-ci il təvəllüdlü) dediyinə görə, leviratın yaranmasına və yayılmasına ilk növbədə iqtisadi amil - ailə mülkiyyətinin qorunması (14, c.180-181) səbəb olmuşdur. İqtisadi səbəblə yanaşı, leviratın ortaya çıxmasına mərhum qardaşın övladlarının özlərini öz əmisinin himayəsində daha yaxşı hiss edəcəyi fikri də təsir etmişdir.

Sororat adəti - ölən arvadın bacısı ilə evlilik də sultanlıq əhalisi arasında geniş yayılmamışdır. Saxurlar, moğollar və ingiloylar arasında qızqaçırma adəti də var idi. Bu üsuldan, adətən qızın valideynləri iki gəncin evliliyinə razı olmadığı halda istifadə edilirdi. Əgər qaçırılma qızın razılığı ilə həyata keçirilərdisə, onda müəyyən vaxtdan sonra tərəflər arasında barışıq əldə olunardı. Saxur qocalarının dediyinə görə, qızqaçırma üsuluna, əsasən, yoxsul ailələr əl atardılar. Məhz bu yolla kürəkən artıq xərclərdən sığortalana bilirdi.

Saxurlar arasında qohumla nikahagirmə ənənəsi XX əsrin əvvəllərinə kimi davam etmişdir. Lakin müasir dövrdə təkcə qohumla deyil, saxur gəncləri digər müsəlman qızları ilə də nikaha daxil olurlar.

Saxurlara yaxın olan rutullar arasında XIX əsr və XX əsrin əvvəllərində əmiuşaqları, xalauşaqları, bibi və dayı uşaqları arasında nikah bağlantısı geniş yayılmışdır. Avarlarda və saxurlarda ata, rutullar arasında isə ana xəttindən olan qohumluqlar üstünlük təşkil edirdi. Rutullar isə ekzoqam nikahı (kənar nəsildən evlənmə) daha üstün tuturdular.

Şəki-Zaqatala bölgəsində beşikkərtmə ilə yanaşı, göbəkkəsmə, süd nikahı formaları da mövcud olmuşdur. Beşik nikahları bir çox Orta Asiya türkləri, o cümlədən qıpçaqlar (beşik gətti, beşik-kuda),

kumıklar (beşikkərtə) arasında da yayılmışdır. Hətta qədim türklərdə "uşaqları bir-birinə ad edən zaman köynəklərinin ətəyi kəsilirdi"(15,c.87).

Son dövrlərdə bölgədə yaşayan Azərbaycan türkləri, saxurlar, ləzgilər, avarlar arasında qarışıq nikah forması genişlənməyə başlamışdır.

Müqayisəli şəkildə apardığımız tədqiqatdan bəlli olur ki, Azərbaycan türkləri, eyni zamanda öyrəndiyimiz bölgədəki etnik qrupları arasında olduğu kimi, Gürcüstan azərbaycanlıları içərisində həm endoqam, həm də ekzoqam nikah qaydaları mövcud idi. Etnoqraf-alim Ə.Əliyev yazır ki, bizlərdən fərqli olaraq "bir sıra xalqlarda oğlanlar həm ana, həm də ata soyadından olan qızlarla nikaha girmirlər. Eyni soyadı daşıyan qohum üzvlər arasında nikah bağlanması qəti qadağandır.Tədqiqatçılara görə, ekzoqamiya universal xarakter daşıyaraq bütün dünya xalqları üçün səciyyəvidirsə, endoqamiya nikah qaydası bütün xalqlara şamil edilə bilməz. Endoqamiya nikah qaydasına ən çox Azərbaycanda, Qafqazda və Orta Asiyada, o cümlədən Gürcüstan azərbaycanlıları arasında rast gəlinir" (2,s.28). Qohumlar arasındakı nikahın özündə dörd nikah qaydasını əks etdirdiyini göstərən Ə.Əliyev bunların kroskuzen–dayı oğlu ilə bibi qızı və bibi oğlu ilə dayı qızı; ortokuzen-əmi oğlu ilə əmi qızı və xala oğlu ilə xala qızı arasında olan nikahlar olduğunu qeyd edir: "Etnoqrafik materiallardan aydın olur ki, öyrəndiyimiz bölgələrdə həm kroskuzen, həm də ortokuzen nikah formaları geniş yayılmışdı. Yaşlı adamlarla apardığımız sorğuların təhlili göstərir ki, tədqiq etdiyimiz dövrdə bölgələrimizdə əmi oğlu ilə əmi qızı arasındakı nikah (ortokuzen) üstünlük təşkil edirdi. Bölgələrimizdə xala oğlu ilə xala qızı arasındakı nikah bağlantısı da geniş yayılmışdır. Bu nikahın əsas səbəbkarı bacılar olurdu" (2,s.29). Q.Ə.Qeybullayev əmi oğlu ilə əmi qızı arasındakı nikahdan bəhs edərək yazır ki, "kiçik ailələrdə qızın əmisi oğluna ərə verilməsində rol oynayan iqtisadi amil keçmişdə bacının öz qardaşı ilə birlikdə ata mirasının və torpağın bərabər payçısı, kişi varis olmadıqda isə bu mirasın tam sahibi olması idi. Məhz mirasın başqa nəslə keçməməsi üçün qızı öz qohumuna, birinci növbədə əmisi oğluna ərə verirdilər" (3,s.141). Onu da deyək ki, nikahın endoqomiya forması saxurlarda geniş yayıldığı halda, ekzoqomiya formasına nadir hallarda təsadüf olunurdu. Saxurlarda ata öz qızını bacısı oğlu ilə evləndirirdi.

Materiallar sübut edir ki, bəzi kəndlərdə iki qohum olmayan nəsil nümayəndələri arasında nikah bağlanır, bəzi kəndlərdə isə bu qeyri-mümkün sayılmışdı. S.Ş.Hacıyeva yazır ki: "Qızların başqa cəmiyyətlərə, hətta daha çox başqa etnik qruplara verilməsi nadir hadisə idi. Bu qayda şifahi xalq yaradıcılığında da öz əksini tapmışdır. Bir atalar sözündə deyildiyi kimi: "saf qızıl çayda üzməz, yaxşı qız kənddən getməz" (13,c.147). Ancaq bu, müsəlman nikahlarının qadağan olunması demək deyildi. Burada söhbət kənd endoqamiyasından gedir. Çünki bütövlükdə cəmiyyət endoqamiyalı idi. Nadir hallarda ekzoqam nikahlara da rast gəlinirdi. Çox güman ki, qohumlar arasında nikahlar sərt qaydadan daha çox əxlaqi və etik norma sayılmışdır.

Yuxarıda deyildiyi kimi, saxurlar, həmçinin də onlara qohum olan xalqlar arasında endoqam nikah geniş yayılmışdır. Nəsil, tayfa (tuxum) daxilindəki bu cür nikahlar oğlanın artıq xərc çəkmədən evlənməsinə, ailə qurmasına imkan yaradırdı. Ədəbiyyat materialında deyildiyi kimi: "Belə nikahların bağlanması tuxum üzvlərinin toy zamanı maddi məsrəflərinin əhəmiyyətli dərəcədə azalmasına səbəb olurdu"(17,c.132). M.M. Kovalevski hələ XIX əsrdə qohumlarla evliliyin çox şərəfli hesab edildiyini yazırdı (16,c.171). Onu da deyək ki, keçmişdə qohum qızların seçilməsinə üstünlük verilməsi qadının əldə etdiyi əmlakın şəriət qanunlarına görə bölünməz sayılması və onun qohumlarda və ya həmin nəsildə qalması ilə izah edilirdi. Saxurlar arasında qızlar üçün 18-19, oğlanlar üçün isə 22-24 yaş həddi (17,c.137) nikah yaşı hesab olunurdu. Bəzi hallarda bu şərtlər pozulduqda qızlar 15-16 yaşda ərə verilir, oğlanlar isə 16-18 yaşda evlənirdilər (18,c.214). Saxurlar sosial, iqtisadi və bioloji amilləri nəzərə almaqla, bu məsələyə daha rasional yanaşırdılar.

NƏTİCƏ

Beləliklə, aparılan tarixi-etnoqrafik araşdırma göstərir ki, saxurlar uzun illər boyu məskunlaşdıqları ərazilərdə qonşu xalqlar – azərbaycanlılar, avarlar, rutullar, ləzgilər, gürcülər və ingiloylarla mehribanlıq şəraitində həyat tərzi keçirmişlər. Bu amil onların məişət və mədəniyyətinə öz təsirini göstərmişdir. Araşdırma nəticəsində o da bəlli olmuşdur ki, azərbaycanlıların və digər türk xalqlarının, həmçinin də öyrənilən bölgədə yaşayan digər etnik qrupların ailə məişəti, xüsusilə də nikahla bağlı

məsələləri saxurlar üçün də səciyyəvi sayılmışdır. Belə yaxınlıqlar qarşılıqlı zənginləşməyə gətirib çıxarır və bütövlükdə Qafqaz, eləcə də türkdilli xalqların mədəniyyətinin inkişafına xidmət edir.

İSTİFADƏ EDİLMİŞ ƏDƏBİYYAT

Azərbaycan dilində

1. Bünyadova Ş.Orta əsrlərdə ailə.Bakı: "Elm" nəşriyyatı, 2012, 384 s.

2. Əliyev Ə.XIX-XX əsrin əvvəllərində Gürcüstan azərbaycanlılarının ailə məişəti (*tarixi etnoqrafik tədqiqat*). Bakı: "Elm və təhsil", 2012,s.156 s.

3. Qeybullayev Q.Ə. Azərbaycanlılarda ailə və nikah. 2 hissədə. 1-ci hissə. Bakı: Elm, 1994. 440 s.

4. Məmmədova M. A.Türkdilli xalqlarin toy mərasim ənənəsi // ISPEC International Journal of Social Sciences & Humanities E-ISSN: 2717-7262 Vol: 2, Issue: 1, 2018// http://ispecjournal.org/ 18

5. Paşayeva M. Azərbaycanlıların ailə mərasimlərində etnik ənənələr (XIX-XX əsrin əvvəlləri. Şəki-Zaqatala bölgəsinin materialarlı üzrə). Azər- nəşr. Baki, 2008, 308 s.

Türk dilində

6. Ahmet Turan. Törelerimizde "Kalın" (Başlık). Milli folklor. Uluslararası Kültür Araştırmaları Dergisi. 1989, sayısı 12

7. Erhan Aktaş. Hakas destanlarında evlilik kurumu ve buna bağlı bazı pratikler. Türk Dünyası 38, sayı 11

8. Faruk Çolak. Gerdek Pınarı. Gaziantep efsanesi üzerine bazı degerlendirmeler. TÜBAR-XXXII-/2012-Güz /

9. Feyzullah Karabataş. Rize ve çevresindeki yayğın halk inanışları. Fırat Universitesi Sosyal Bilimler Enstitüsü Felsefe ve Din Bilimleri Anabilim Dalı. Dinler Tarihi Bilim dalı. Elazığ – 2006

10. Serpil Gurer. XVII-XVIII ve XIX. Yüzyıllarda Fransız Seyahetnamelerinde Osmanlı Toplumu. Doktora Tezi. Ankara Universitesi Sosyal Bilimler Enstitüsü Batı Dilleri ve Edebiyatları (Fransız Dili ve Edebiyatı) AnaBilim Dalı. Ankara-2010

11. Uluslararası Türk Dünyası Kültür Araştırmaları Dergisi. Bahar 2015 - 1 (1).

Rus dilində

12. Величко В.Л. Кавказ: русское дело и междуплеменные вопросы. Санкт Петербург.1904 224 с.

13. Гаджиева С.Ш. Семья и брак у народов Дагестана в XIX – нач. XX в.– М., 1985. – 360 С.

14. *Ихилов М.М. Народности лезгинской группы*. Этнографическое исследование прошлого и настоящего лезгин, табасаранцев, рутулов, цахуров, агулов *Махачкала: Типография Дагфилиала АН СССР, 1967* 262 с.

15. Кисляков Н. А. Очерки по истории семьи и брака у народов Средней Азии и Казахстана. Москва, 1969, 241 с.

16. Ковалевский М.М. Закон и обычай на Кавказе. Т. 2. – М., 1890. – 304 С.

17. Курбанов К.Э. Брак и свадебные обряды цахуров в XIX – нач. XX в. //ВМЭД. Вып. 5. – Махачкала, 1974. – С.

18. Летифова Э. Илисуйское султанство.Баку: Издательский дом "Şərq-Qərb", 2010, 400 с.

DİNİ-TARİXİ ŞƏXSİYYƏTLƏRLƏ BAĞLI MƏNQƏBƏLƏR

(Qarabağ folklor materialları əsasında)

MENKIBES ABOUT RELIGIOUS AND HISTORICAL PERSONALITIES

(Based on Karabakh folklore materials)

Sönməz ABBASLI

Dos.Dr.Azərbaycan Milli Elmlər Akademiyası Folklor İnstitutu, Klassik folklor şöbəsi, Bakı, Azərbaycan

ORCID ID: 0000-0003-0309-8640

ÖZƏT

Məqalədə xalqın dini dünyagörüşü, etnoqrafik gələnəyi baxımından pir və ocaqlara tapınmaları elmi şəkildə öyrənilmiş, bölgə əhalisinin pirə, ocaqlara tapınmaları örnəklərlə təqdim olunmuşdur. Qarabağdan qeydə alınmış mətnlərdə dini-tarixi şəxsiyyətlərlə bağlı ocaqlar, pirlər də kifayət qədərdir. Seyid Səfi ocağı, Məşədi Bağdad, Seyid Həmzə Nigari, Hacı Qaraman, Mir Sədi ağa, İmamzada piri, Alı Çələbi, Yasin Çələbi və s. Allaha daha yaxın olmaq üçün insanların böyük inamla getdikləri pirlər, ocaqlardır. Tədqiqat işində bu müqəddəs yerlərin elmi cəhətdən izahı verilmiş, yaranma tarixinə nəzər salınmışdır. Ümumiyyətlə, mənqəbələr uzun illər araşdırmalardan kənarda qalsa da, nəzərdən keçirilən mətnlər onu göstərir ki, Azərbaycanda yaşayan kəramət sahibləri kifayət qədərdir və onlar geniş şəkildə tədqiqata cəlb olunmalıdır. Mənqəbələrin qəhrəmanları həyatda yaşamış, dini baxımdan yüksək mərtəbəyə yüksəlmiş real şəxslərdi.

Açar sözlər: Qarabağ, dini-tarixi şəxsiyyətlər, müqəddəs yerlər, pir

ABSTRACT

The article scientifically studies the worship of people in shrines and hearths in terms of their religious outlook and ethnographic traditions and provides examples of the worship of people in the region in shrines and hearths. In the texts recorded from Karabakh, there are many hearths and shrines associated with religious and historical figures. Seyid Safi hearth, Mashadi Baghdad, Seyid Hamza Nigari, Haji Garaman, Mir Sadi aga, Imamzada piri, Ali Chalabi, Yasin Chalabi and others. These are the shrines and hearths where people go with great faith to be closer to God. The research provides a scientific explanation of these holy places and the history of their creation. In general, although the sources have been left out of research for many years, the texts under consideration show that there are enough saints living in Azerbaijan and they should be widely involved in research. The heroes of the sources were real people who lived their lives and rose to a higher level from a religious point of view.

Keywords: Karabakh, religious-historical figures, holy places, pir

GİRİŞ

Qarabağda dini-tarixi şəxsiyyətlərlə bağlı mənqəbələr, adları ilə bağlı yaranmış ocaqlar, pirlər də kifayət qədərdir. Hz.Əli, Süleyman peyğəmbər, Hacı Qaraman, Seyid Həmzə Nigari, Hacı Qasım Çələbi, Alı Çələbi, Lələ, Aşıq Qurbani, Mir Sədi ağa, Seyid Səfi ocağı və s. adı ilə bağlı dolaşan mətnlərin və yerlərin elmi cəhətdən izahını verməyin, yaranma tarixini açıb göstərməyin böyük əhəmiyyəti var.

Hər şeydən öncə onu deməliyik ki, illər uzunu hökm sürən Sovet rejimi folklorşünaslığımızda mənqəbə, mənkabə, mənaqibnamə kimi adlarla tanınan janrın araşdırmalardan kənarda qalmasına gətirib çıxarmışdır. Etnik-mənəvi dəyərlərimizə baxışın bir yolu da övliya, seyid sandıqlarımızın sahib olduqları məharətə işıq tutan mətnləri üzə çıxarmaq, tədqiq etməkdir. Ərəb kəlməsi olan "mənqəbə"

"lüğətdə bir insanın fəzilət, məziyyət, hünər kimi öyüləcək vəsflərini ifadə edir. İstilahda isə tarixi şəxsiyyətlər, peyğəmbər, məzhəb imamları və sufilərin tərif ediləcək fəzilət və məziyyətlərini ehtiva edən rəvayətlərdir" [https://az.wikipedia.org/wiki/Mənqəbə].

Prof. F.Bayat da mənkabə adlandırdığı bu janra tərif verərkən yazır: "Mənkabə təriqət böyüklərinin, tarixə adını yazmış məşhur təsəvvüf əhlinin həyatları və əfsanəvi işləri və daha çox kəramətləri haqqında yaranan əhvalatlardır" [Bayat 2010: 3-17].

Prof. A.Y.Ocaq müsəlman türkləri arasında övliya mənqabələrinin doğuşunu İslamla birlikdə gələn təsəvvüfdən qaynaqlandığını və bu baxımdan İslam ənənəsinin sözsüz ki, əhəmiyyətli rol oynadığını qeyd edir [Ocak 1992: 31]. O, həmçinin yazır ki, təsəvvüf tarixində "mənkabə" və ya "mənakıb" kəlməsi təxminən IX yüzildən etibarən "Allahın dostluğunu qazanmış vəli deyilən böyük şəxsiyyətlərin göstərdikləri kəramətləri anlatan kiçik hekayələr mənasında işlədilmişdir [Ocak 1992: 27].

Övliyaların göstərdikləri kəramətlər mənqəbələrin əsas ana xəttini təşkil etsə də, sözügedən dövrün siyasi-tarixi olayları da mənqəbə mətnlərində diqqətə çatdırılır.

Qarabağdan toplanmış folklor mətnlərdə də dini-tarixi şəxsiyyətlərlə bağlı mənqəbələr çoxluq təşkil edir. Qeydə alınmış nümunələrdə Hz.Əlinin adına sıx-sıx rastlanır. "Əlinin zəhmi" adlı mətndə deyilir ki, bir hamilə qadın həmişə Əli gələndə ayağa durarmış. Qadınlar ondan nə üçün başqa peyğəmbər gəldikdə ayağa durmadığını, bu vəziyyətdə Əli gələndə ayağa qalxdığını xəbər alırlar. Qadın isə cavabında deyir ki, mənlik deyil. Onun zəhmi məni ayağa qaldırır. Bu hadisədən sonra iki pəhləvan qadının başı üstündə durub əlləri ilə çiyinlərindən basırlar. Amma xeyri olmur, Əli gələndə qadın yenə ayağa qalxır. Mətndə Əlinin qüvvəsinin çox olduğu, ondan qüvvətli birinin olmadığı deyilir [Qarabağ: folklor da bir tarixdir, VII 2014: 46].

"Həzrət Əli və cavan oğlan" adlı mətndə isə deyilir ki, üç nəfər Hz.Əlini dolamaq istəyir. Bir cavan oğlan isə toyu üçün üç qoyun alıb gətirirmiş. Bu üç nəfər Əliyə deyirlər ki, bu qoyunları alsaydın yeyərdik. Əvvəl qara qoyunu aldırıb, dərisini soymaq istədikdə, qumral daha yaxşıdır deyib, sonra digərini təklif edib, bu minvalla üç qoyunu da ona aldırırlar. Hz.Əli bu qoyunların pulunu verib aldıqdan sonra gənc oğlan deyir ki, axı sabah mənim toyundu, siz də bunları kəsdiniz. Üç gənc buna gülür. Əli Əleyhsalam aşağı düşüb, bir ovuc qumu götürüb cavan oğlanın ovcuna tökür və deyir ki, arxaya baxmasın, əli də açmasın. Cavan oğlanın əlindən qum töküldükcə hər bir giləsi bir qoyun olur. Oğlan qabağa, qoyunlar da onun dalınca düşür. Evlərinə çataçatda çönüb geri baxır ki, dalınca bir sürü qoyun gəlir. Bilmədən əli açılır, qum tökülür. Bir sürü qoyunu özünə gətirir. Atası bunu görüb nə baş verdiyini xəbər alır. Oğlan başına gələnləri nəql edir. Səhərisi gün o üç gənc də gəncin toyuna gəlir. Əli Əleyhsalam da deyir ki, mən də sənin toyuna gələcəyəm. Məqam çatıb bəy oynamağa girəndə söz Hz.Əliyə verilir. O, xeyir-duasın verib, zülfüqarı çəkir oğlanı tən ortadan iki bölür. Yarı şaqqa bir tərəfə, digər yarısı də bir tərəfə düşür. Bu zaman Hz.Əli iki rükət namaz qılır, Allaha dua edir. Yarı şaqqa bir oğlan olur, digər yarı şaqqa da bir oğlan. Hz.Əli kişiyə deyir ki, sənin bir oğlun var idi, ikincisini də mən sənə hədiyyə edirəm [Qarabağ: folklor da bir tarixdir, V 2013: 24-25].

"Əli bulağı" başlıqlı mətndə isə Laçın rayonundakı Əli bulağından bəhs edilir. Çox hündür bir dağın başından çıxdığı bu bulağın yanında bir böyük daşın olduğu deyilir. Ehtimala görə, Hz.Əli Şıxlı dağına çıxır, qoşun da susuzluqdan batırmış. Bu zaman o deyir ki, bu daşı atıram, hara düşsə ordan su çıxacaq. Gedib ordan su için. Daş da indiki bulağın olduğu yerə düşübmüş [Qarabağ: folklor da bir tarixdir, III 2012: 86].

Mətnlərdən də göründüyü kimi, Hz.Əlinin göstərdiyi kəramətlər fəqrlidir: daş atmaqla su çıxarmaq, kəsilən quzuları birə on artırmaq, bir oğlandan iki oğlan yaratmaq və s.

Süleyman peyğəmbərlə bağlı mətnlər də diqqət çəkir. Məlum olur ki, o, üç yüz il yaşayıb. O öləndə deyirlər ki, ya peyğəmbər, ölümdən qorxursan? Görürlər rəngi saralıb. Peyğəmbər deyir ki, nalnan mıxın arasında olardım, gözüm işıqlı dünyaya baxardı [Qarabağ: folklor da bir tarixdir, V 2013: 18].

Hz.Süleymanla başla başqa bir mətndə isə aydın olur ki, o, üç yüz hektar sahə götürüb, bura hasar çəkdirir, minarə tikdirir. Onun üç yüzdən artıq fəhləsi olur. Nənəsi ona yeməyin olmadığını deyir. Bir keçisi varmış. Onu gətirib kəsirlər, nənə də yeddi dənə fətir bişirir. Hz.Süleyman deyir ki, nənə, nə çörəyi sanama, nə də qazana bax. Sən çək ver, ödüyəcək. Nənə də elə edir. Fəhlələr yeyib qurtarandan

sonra görür ki, qazanın yarısından yemək qalıb, çörəyin də ikisi qalıb [Qarabağ: folklor da bir tarixdir, V 2013: 19].

Hz.Süleymanla bağlı birinci mətndə peyğəmbərin ölmək istəmədiyi, ölməkdənsə nalla mıx arasında olub işıqlı dünyaya baxmağı üstün tutduğu açıq-aşkar diqqətə çatdırılır. İkinci mətndə isə onun kəraməti nəticəsində qazandakı yemək birə on artır.

Qarabağ folklor mətnlərində adı tez-tez çəkilən şəxsiyyətlərdən biri Hacı Qaramandı. Məlum olduğu kimi, əsl adı Əhməd Çələbi olan Hacı Qaraman Türkiyənin Diyarbəkir vilayətində anadan olmuş, kəramət sahibi şeyxlərdəndir.

İslamı irşad etmək üçün XVI əsrin sonu XVII əsrin əvvəllərində Diyarbəkirdən Azərbaycana gəldiyi deyilən Hacı Qaramanın, əvvəlcə Cəbrayıl rayonunun Niftalılar və Nüsüs kəndləri arasında məskən saldığı, daha sonra isə Çələbilər kəndinə köçdüyü məlum olur. Göstərdiyi kəramətlərə görə ona "Xızır" ləqəbi verilmişdir. Vəfatından sonra şeyxin uyuduğu məkan ziyarətgaha çevrilmişdir.

H.Əfəndiyev Türkiyədən Azərbaycana mühacir edilmiş Hacı Qaraman nəslinin bu gün də yaşayıb fəaliyyət göstərdiyini və Böyük Hacı Alı Çələbi baba, Hacı Qasım Çələbi, Həcər Çələbi, Həvəzə Çələbi, Yahya Çələbi, Alı Çələbi baba, Şahlıq Çələbinin o nəslin gözəl davamçılarından olduqlarını qeyd edir [Əfəndiyev 2006: 6].

"Hacı Qaraman" adlı I mətndə deyilir ki, Hacı Əhməd adlı varlı kişinin qonağı olan Hacı Qaraman qaldığı evdə bir qızın yerdə nə üçün yatılı olduğunu anasından xəbər aldıqda anası qızının xəstə olduğunu, yeriyə bilmədiyini deyir. Bu zaman Hacı Qaraman bir stəkan su istəyir ki, oxuyub qıza versin. Hər zaman qızını çölə çıxardıb, çöldən də evə gətirən ana bu dəfə qızın özünün gəldiyini görüb məəttəl qalır. Qız suyu içdikdən sonra şəfa tapdığını deyir. Atası Hacı Əhməd bu hadisədən sonra Hacı Qaramana qızını ona verəcəyini bildirir və burada qalmağı təklif edir. Hacı Qaraman Yetər adlı qızı alıb özünə dam tikdirir. Damı tikdirəndə görür ki, gündə bu damın bir tərəfində nəsə göyərir, bitir. Arvadı bunu daşıyıb çölə tökür və bildirir ki, bu nədirsə mən daşıyıb çölə tökürəm, yenə də bitir. Hacı Qaraman isə deyir ki, tökmə, görək bitən nədir. Həmin yerdə yekə bir ardıc ağacı bitir. Hacı Qaraman damını sökür, ayrı yerdən tikir, sonra varlanır, özünə pəyə tikir, ondan sonra məscid tikir, hər şəraitini düzəldir. İbrahim Çələbi, Məhəmməd Çələbi, Mustafa Çələbi adlı üçü oğlu, Mərziyə adlı bir qızı olur [Qarabağ: folklor da bir tarixdir, III 2012: 54].

Mifoloq-alim M.Seyidov da ardıc ağacının azərbaycanlılar üçün müqəddəs hesab edildiyini vurğulayaraq yazır ki, bu ağacın qol-budağını sındırmağı böyük bir günah, qəbahət sayırdılar. Guya ona toxunanı Tanrı cəzalandır [Seyidov 1983: 37].

"Hacı Qaraman ocağı" adlı digər mətndə isə Hacı Qaramanın əsl adının Əhməd Çələbi olduğu, Diyarbəkirdən gəldiyi, qara xalı olduğu üçün adına Qaraman deyildiyi, Diyarbəkirdən çəliyini atıb "harda dursa orda məskən salacağam" dediyi və Əhməd adlı kişinin evində gecələdiyi məlum olur. Bu mətndə ev yiyəsinin qızı anadangəlmə kor olur və Hacı Qaramanın kəraməti nəticəsində işıqlı dünyaya baxa bilir. Bu hadisədən sonra Əhməd kişi qızını Hacı Qaramana verir [Qarabağ: folklor da bir tarixdir, VI 2013: 63-64].

Qarabağdan toplanmış mətnlərin birində deyilir ki, Hacı Qaramana İrandan qırx atlı gəlir. O, arvadına çul-örkən gətirməsini tapşırır. Yoldaşı onun dediklərini gətirib bunun qırx ata necə çatacağını xəbər alır. Hacı Qaraman "sənin işin yoxdur" deyib, dağarcığın dibindən bir tas arpa gətirməyi xahiş edir. Arvadı "Bu bir atın normasıdır"─ dedikdə o, yenə də "sənin işin yoxdur" deyir. Belə ki, qırx atın hamısına həmin çul-örkən, arpa yetir. Götürdükcə yerinə gəlir [Qarabağ: folklor da bir tarixdir, III 2012: 57].

Digər bir mətndə isə quraqlıq vaxtı taxılın bitmədiyi bir zamanda Hacı Qaramanın ordan keçdiyi məlum olur. Taxıl əkənin "bu il bizə nə edəcəyik, balalarımız qırılacaq" sözünü eşidən şeyx oradaca iki rükət namaz qılır, Allaha yalvarıb, dua edir. İki dəqiqə keçməmiş leysanın gəlib taxılı bərpa etdiyi, yağış kəsildikdən sonra taxılın bitdiyi deyilir [Qarabağ: folklor da bir tarixdir, III 2012: 57].

Qarabağdan toplanmış mətnlərdən məlum olur ki, "Çələbi babama bir dənə kasada süd veriflər. Barmağın salıf, mayalandırıf, qatığ oluf. Eləjə çeçələ barmağın salırmış" [Qarabağ: folklor da bir tarixdir, VI 2014: 65].

Hacı Qaraman nəslindən olan, Hacı Qaramanın 7-ci törəməsi sayılan və onun irşad işlərini uğurla davam etdirən Hacı Qasım Çələbinin də adı folklor mətnlərindən tez-tez keçir. Hacı Qaraman müsəlmanların sünnü-şiəyə bölünmələrinə hər zaman kəskin etirazını bildirirmiş. Təsadüfi deyil ki, Şıx Hacı Qasım Çələbinin və onun müridlərinin"müaviyəyə lənət" şüarı altında sünnü-şiəliyə qarşı apardığı təbliğat kompaniyası sonda öz nəticəsini verdi. Hacı Qasım Çələbi və onun müridlərinin əhatə dairəsində yerləşən Qubadlı, Cəbrayıl, Zəngilan və Laçın rayonlarında, demək olar ki, məzhəb ayrıseçkiliyi aradan götürülmüş, sünnülər də, şiələr də bir bayraq altında birləşmişlər [Bəşiroğlu 2006: 21].

Nəqşibəndi təriqətinə mənsub olan Hacı Qasım Çələbini mətnlərin birində fırıldaqçı zənn edib sınamaq qərarına gəlirlər. Meşədə onun qabağını kəsib "ya bizə möcüzə göstər, ya da səni öldürəcəyik" deyirlər. Dağlarda kəkliklər oxuyurmuş. Çətin vəziyyətə düşən Qasım Çələbi üzünü Allahın heyvanına tutub, ondan kömək istəyir. Bu an kəkliyin biri onun bir çiyninə, digəri isə digər çiyninə qonur. Beləliklə, ondan əl çəkirlər [Qarabağ: folklor da bir tarixdir, I 2012: 86].

Hacı Qasım Çələbinin adı ilə bağlı dolaşan mətnlərin birində isə deyilir ki, o hər zaman çəliyi ilə gəzirmiş. Bilgə dağının qabağında çəliyini atıb, adamlar çox olduğundan burada qala bilmədiyini arvadına bildirir və başqa bir dağın ətəyində məskən salır. Ər-arvad kasıb gün-güzəran keçirib yavan çörək yeyirmişlər. Bir gün kişi dağın ətəyinə çıxıb, Allahın heyvanlarına üz tutub tökülüb gəlmələrini rica edir. Çox keçmir ki, marallar tökülüb gəlir, onlar da maralları sağır, balalarını bir tərəfə, nənələrini də bir tərəfə ötürürmüşlər [Qarabağ: folklor da bir tarixdir, I 2012: 91].

Digər bir mətndən isə bəlli olur ki, Sovet hökumətinin yeni qurulduğu bir vaxtda yaşlı adamlar yığılıb Hacı Qasım Çələbindən bunun nə olduğunu xəbər alırlar. O bir az fikirləşdikdən sonra deyir ki, "balam, bı, kasıf-kusuf hökumətidi, kasıflara yaxşı olajaxdı. Bı bir dəfə dizin qoyajax yerə, sora də davam eliyəjəhdi, ama dağılajaxdı. Özü öz içinnən dağılajaxdı. Yaz qarı kimi bir gün səhər duruf görəjəhlər ki, Savet hökuməti yoxdu. Ağacı içinnən qurt yeyən kimi" [Qarabağ: folklor da bir tarixdir, VI 2013: 65-66].

Hacı Qaraman nəslinin davamçılarından biri də Alı Çələbi olmuşdur. Mətnlərdə onun də kəramət sahibi olduğu üzə çıxır. Belə ki, o, türmədə yatan zaman türmənin ağzını qıfıllayırlar, qıfıl açılıb yerə düşür. Neçə dənə qıfıl dəyişsələr də, hamısı açılır yerə düşür. Söyləyicinin daha sonra dedikləri də təəccüb doğurur: "Alı Çələbi türmədə Molla Qüdrətnən, bir də mənim atamnan bir yerdə oluflar. Türmədən çıxırmışdar çölə, gedif yamacda gəzirmişdər. Heş bir gözətçi oları saxlamırmış. Elə bil ki, görmürmüşdər. Bılar gəldihcə qapılar öz-özünə açılırmış. Deyiflər ki, bəs üç dusdax, başda da filankəs olmaxnan qapıları bağlanmır. Türmənin rəisi çağırır yanına, bunnan söhbət edir. Deyif ki, o qıfılın orda dayanmamağı mənnih dəyil, qapıların açılmağı mənnih deyil. O, Allahın hökmüdü. İnanmırsan, düş mənnən gedəh. Yoxluyuflar. Deyif ki, sən isdəsən axı bağlı qalar. Deyif: ─Yox, ona mənim güjüm çatmaz. Şuşa türməsində oluf. Belə şeylər çox oluf" [Qarabağ: folklor da bir tarixdir, I 2012: 96].

Alı Çələbinin adı keçən digər bir mətndə isə onun sünnü-şiəliyi aradan qaldırmağa çalışması aydın görünür. Məlum olur ki, bir dəfə sünnü mollalarla şiə mollalar birləşib onu məhkəməyə verirlər. Çimən yaylağında baş tutan məhkəmədə qazıya deyirlər ki, bunun məqsədi, hansı dinə xidmət etdiyi bilinmir. Alı Çələbi Quranı gətirdir və deyir ki, ikinci bir Quran gətirin ki, ya sünnünün olsun, ya da şiənin. Ona Quranın bir olduğunu deyirlər. Alı Çələbi də öz növbəsində "Allah birdi, peyğəmbər birdi, bəs bu sünnü-şiə haradan çıxdı" deyərək haqlı olduğunu isbat edir [Qarabağ: folklor da bir tarixdir, I 2012: 97].

Qarabağdan qeydə alınmış mətnlərdə Mir Sədi ağanın da adı tez-tez hallanır. Nəqşibəndi təriqətinin mürşidlərindən sayılan və xalq arasında böyük nüfuza malik olan Mir Sədi ağa ilə bağlı bir mətndə deyilir ki, biri qoz ağacından yıxılıb ağır zərbə alır, dili tutulur. Yıxılan şəxsin atası cibinə üç manat pul qoyub, bir balaca kisə də qoz yığıb Mir Sədi ağanın yanına getmək istəyir. Az pulla getməyə utanan kişi yolda nəziri və qozu bir daşın altına qoyur. Mir Sədi ağanın yaşadığı həyətə girərkən ağa "nəzirin azı, çoxu olmaz deyib" nə üçün onları daşın altında gizlətdiyini xəbər alır. Daha sonra kişinin oğluna dua yazır. Kişi evə gəlib oğlunu əvvəlki vəziyyətində, ailə-uşaqla danışan görüb məəttəl qalır [Qarabağ: folklor da bir tarixdir, I 2012: 100].

Başqa bir mətndə isə deyilir ki, Qubadlının Mirrər kəndində Mir Sədi ağanın adına ocaq var. Ağzı əyilən ora gedərdi. Repressiya dövründə Mir Sədi ağanı tuturlar. Zəngilan rayonunda Akara stansiyasından gedən qatara onu mindirdikdə qatar hərəkət etmir. Hamı bu işə təəccüb edir. Axırda Mir Sədi ağa "indi

gedəcək" deyir. Bu sözü deyib qurtardıqdan sonra qatar tərpənir [Qarabağ: folklor da bir tarixdir, III 2012: 69].

El arasında Şıx Əfəndi deyə tanınan Mir Həmzə Nigari təkkə-təsəvvüf ədəbiyyatının tanınan nümayəndəsi, Qarabağ nəqşibəndlərindəndir. Xarputda vəfat etmiş şeyx öz vəsiyyəti ilə Türkiyənin Amasiya şəhərində dəfn edilmişdir. "Nə gözəl nemət imiş söhbəti-yari-Qarabağ" ─ deyən ruhu Qarabağda dolaşan nəqşibəndi şeyxi, tasəvvüf ədəbiyyatının təmsilçisi Seyid Mir Həmzə Nigarinin, ustadının ve oğlunun uyuduqları Amasiyadakı Şirvanlı Camisi şəhər dünyanın dör bir tərəfindən gələnlərin ziyarətgahına, ümid yerinə çevrilib.

Adı ilə dolaşan mətnlərdə onun Cəbrayıl rayonunun Çələbilər kəndindəki məktəbdə dərs aldığı, sonralar bu məktəbdə də işlədiyi məlum olur. Nəqşibəndi təriqətinin başçısı olan Mir Həmzə Nigarinin o vaxtın mollalarına, qazılarına həcvlər yazdığı deyilir [Qarabağ: folklor da bir tarixdir, I 2012: 102].

Mir Həmzə Nigarinin adı keçən digər bir mətndə isə məlum olur ki, o, Laçının Cicimli kəndində doğulub, onun doğulduğu yerə tağbənd deyirdilər. Şeyx Şamillə əlaqələrinin olduğu, əvvəlcə asan, vuran olduğu, daha sonra anasının təkidi ilə bu yoldan qayıtdığı, Kürdəmirdə İsmayıl əfəndidən təhsil aldığı, Qazax rayonunda olduğu, orda da çoxlu müridlərinin olduğu deyilir. Mətnə əsasən, onu Qubadlıda Hərtiz deyilən bir dağda gizlədiblər. Çələbi və Polatdı camaatı ona xidmət edirmişlər. Həmin yer ziyarətgahdı və orda bulaq var. Hüseynalı bəy onu gecə ilə Arazdan İrana keçirəndə bəyə deyib ki, get, allah sənin ruzuna bərəkət versin. Cicimli camaatına da ruzunuz çox olsun, amma sözünüz keçməsin deyib. Çünki bu kəndin onu yaxşı qorumadığı söylənilir. Ətraf kəndlərə dolu vurduqda bu kəndin aclıq vaxtı korluq çəkmədiyi, bol məhsulunun olduğu deyilir. Hüseynalı bəy ona ağa, səni necə keçirim dedikdə, ağ atın üstündə adamın o tərəfə adladığını görüb [Qarabağ: folklor da bir tarixdir, IV 2013: 45-46].

Başqa bir mətndə İran şahının Mir Həmzəni çağırdığı və onun kəramətini yoxlamaq istədiyi məlum olur. Şah baxışlarına görə Mir Həmzəni qəbul etmir, seyiddirsə möcüzə göstərməsini tələb edir. Mir Həmzə şaha deyir ki, əvvəlcə bu adamları çölə çıxart, sonra isə barmağımın arasından bax. Şah baxdıqda görür ki, bir qabanın gəldiyini, başının atasının başı olduğunu, bədəninin isə qaban bədəni olduğunu görüb heyrətlənir, ona hücum edəndə isə özündən gedir. Şah ayıldıqda Mir Həmzədən nə istədiyini soruşur. Mir Həmzə isə cavabında onu sağ-salamat Türkiyəyə keçirtməsini xahiş edir [Qarabağ: folklor da bir tarixdir, IV 2013: 46-47].

Bu mətndə həm də Mir Həmzənin cüssəli, gözəl xanımı Nigarın adı çəkilir və ona hər zaman dayaq durduğu qeyd edilir. Nigara ana, bacı kimi sevgi bəsləyən Mir Həmzənin Nigarın adını özünə ləqəb götürdüyü, Nigar nənənin qəbrinin Ağdamda Qara Pirim qəbiristanlığında olduğu söylənilir [Qarabağ: folklor da bir tarixdir, IV 2013: 46-47].

Qarabağdan qeydə alınmış mənqəbə mətnlərində el şairi Lələnin də adı keçir. Mətnlərin birində Cocuq Mərcanlı kəndinin yuxarısında yerləşən Lələ dağı deyilən yerdə Lələnin neçə yüz il tək yaşadığı, bostan əkib-becərdiyi və heç kəsə əli ilə heç nə vermədiyi, istəyənə gəl, yığ apar dediyi məlum olur. Bir dəfə əlindəki çürük yemişi yemək istədiyi vaxt yoldan yenə bir adamın keçdiyi və Lələnin bu yemişi ona verdiyi deyilir. Lələ ölən zaman cənazəsində həmin yemişin göründüyü, beləcə, əlilə verdiyi çürük yemişin ofsanata keçdiyi söylənilir [Qarabağ: folklor da bir tarixdir, III 2012: 68].

Lələnin adı ilə bağlı digər mətndə isə Lələdən nə üçün özünə ev tikmədiyini xəbər alırlar. Lələ isə axırı ölümdür, öləcəyəm, istəmirəm deyə cavab verir. Allah ona altı yüzə yaxın ömür versə də Lələ yenə də özünə ev tikməyib [Qarabağ: folklor da bir tarixdir, III 2012: 69].

Başqa bir mətndə isə Lələnin çəliyini atdığı, hara düşsə orda qaldığı deyilir. Rəvayətə görə, Lələnin çəliyini atdığı yer hal-hazırda uyuduğu qəbiristanlıqdı. Həmin yer ocaq sayılır və insanlar onun qəbrini ziyarət edib, nəzir qoyur, çıraq yandırırlar [Qarabağ: folklor da bir tarixdir, V 2013: 27].

Aşıq Qurbaninin adı ilə bağlı yaranmış pir Cəbrayıl rayon mərkəzindən 48 km aralıda el arasında Diri dağı kəndi deyilən Stansiya Xələflidə yerləşir. Diri dağının döşündəki təpədə yerləşən pir qəbiristanlığın ucunda yerləşir, ətrafında isə iki-üç kiçik qarağac var. Mətnə əsasən, "Aşıq Qurbani gəncəli Ziyad xanın qızı Pəri xanımı alıb geri qayıdarkən indi pir olan yerdə yatıb. Bu vaxt bir ilan onu yatdığı yerdə vurub. Aşıq Qurbani ölür, orda da basdırırlar. Qurbani haqq aşığı olduğu üçün onun məzarı ziyarətgaha çevrilir.

Pirə, adətən, qoç, dana, xoruz qurban deyilir. Pirə ziyarətə gedərkən əvvəlcə çöl tərəfdən saat istiqamətində üç dəfə fırlanırsan, fırlanan vaxt müəyyən istək deyilir, pirin daşlarından öpülür. Üç dəfə fırlandıqdan sonra pirin içərisinə daxil olursan. İçəridəki məzarın başına üç dəfə dövrə vurursan. Məzarı fırlanan vaxt pirə müəyyən nəzirlər qoyulur. Səndən əvvəl ora kimsə nəzir qoyubsa, onu götürmək də olar, götürməmək də. Adətən, götürülür. Pirdən götürülən şey müqəddəs tutulur. Pirdən götürülən nəzir daim evdə saxlanılırsa, o evdən xeyir-bərəkət əskik olmaz. Pirə gətirilən qurbanı pirdə kəsmək daha məqbul hesab olunur. Ziyarəti başa vurub pirdən çıxarkən, gərək üzü pirə tərəf çıxasan. Bu pirin arxa tərəfində, lap pirin yaxınlığında bir dağdağan ağacı var. Ziyarətdən sonra o ağaca parça bağlanır" [Qarabağ: folklor da bir tarixdir, I 2012: 128].

Seyid Səfi ocağı da Qarabağda inanılmış ocaqlardandır. Ocağın kəraməti çox böyük idi. Övladı olmayan, işi düzəlməyən hamısı ora gedib niyyət edirdilər. Adı ilə bağlı söylənilən mətndə deyilir ki, Seyid Səfi İrana getmişdi. Yollar da o dönəm bağlı imiş. Seyid Səfi çuxasını çıxarıb, paltarını-zadını, hər şeyini çuxasının içinə yığıb, boynundan asır və Arazın qırağında dayanıb bu tərəfə necə keçəcəyini düşünür. Bu an çaydan bir balığın çıxdığını görür. Böyük balıq quyruğunu çalıb çayın qırağında durur. Balıq üç dəfə sudan çıxıb özünü yenə suya vurduqdan sonra Seyid Səfi anlayır ki, bu elə-belə şey deyil. Bunu Allah göndərib. Balıq yenə gəlib orda duranda o, "Allah, Məhəmməd, ya Əli" deyib balığın belinə oturur və bu tərəfə adlayır. Balıq onu yerə qoyduqdan sonra yenə quyruğunu çalıb özünü Araza vurub. Mətndə Seyid Səfinin ağır seyid olması və balığın da bunu hiss edib onu çətinlikdən qurtarması diqqətə çatdırılır. O vaxtdan Seyid Səfi tapşırıb ki, yeddi arxası balıq yeməsin. Hətta onlardan balıq yeyənin həmin anda qaytardığı söylənilir [Qarabağ: folklor da bir tarixdir, IV 2013: 60-61].

NƏTİCƏ

Ümumiyyətlə, mənqəbələr uzun illər araşdırmalardan kənarda qalsa da, nəzərdən keçirilən mətnlər onu göstərir ki, Azərbaycanda yaşayan kəramət sahibləri kifayət qədərdir və onlar geniş şəkildə tədqiqata cəlb olunmalıdır. Mənqəbələrin qəhrəmanları həyatda yaşamış, dini baxımdan yüksək mərtəbəyə yüksəlmiş real şəxslərdi. Təsadüfi deyil ki, prof. F.Bayat yazır: "Azərbaycan bir zamanlar təsəvvüfi axınların, təriqətlərin məkanı olmuş, böyük təriqət şeyxlərinin, alimlərinin, şairlərinin və səxavəti ilə seçilən imam övladlarının məskəni olmuşdur" [Bayat 2013: 9].

Şükürlər olsun ki, doğma Qarabağ və ətraf ərazilərimizin bu gün işğaldan azad olunması ilə əsir abidələrimiz, pir-ocaqlarımız da düşmən tapdağından qurtarmış oldu. Bu gün o müqəddəs ocaq sahiblərinin də ruhu şaddır və sınanmış ziyarətgahlar yenə də ona pənah gətirənlərin üzünə açıqdır.

QAYNAQLAR

1. Bayat, F. 2010. İslami anlayış içində mənkıbə// Azərbaycan şifahi xalq ədəbiyyatına dair tədqiqlər, XXXII, Bakı, Nurlan, səh.3-17

2. Bayat, F. 2013. Övliya mənkabələri və ya türk dərvişlərinin kəramətləri, Bakı, Elm və təhsil, 212 səh

3. Bəşiroğlu, Ə. 2006. İşıqlı şəxsiyyətlər unudulmur (sənədlər və xatirələr), Bakı, Memar-Nəşriyyat-Poliqrafiya MMC, 137 səh.

4. Əfəndiyev, H.H. 2006. Müqəddəs Həcc yollarında, Bakı, Hərbi Nəşriyyat, 72 səh.

5. Qarabağ: folklor da bir tarixdir, I kitab (Ağdam, Füzuli, Ağcabədi, Cəbrayıl, Zəngilan, Qubadlı, Laçın və Kəlbəcər rayonlarından toplanmış folklor örnəkləri), Toplayanı və tərtib edəni: fil.ü.f.d. İlkin Rüstəmzadə və Zəfər Fərhadov. 2012. Bakı: Elm və təhsil, 464 səh.

6. Qarabağ: folklor da bir tarixdir, III kitab (Ağdam, Füzuli, Cəbrayıl, Tərtər, Qubadlı, Zəngilan, Kəlbəcər, Laçın və Şuşa rayonlarından toplanmış folklor örnəkləri), tərtib edəni: fil.ü.f.d. İlkin Rüstəmzadə. 2012. Bakı: Elm və təhsil, 468 səh.

7. Qarabağ: folklor da bir tarixdir, IV kitab (Laçın, Qubadlı və Zəngilan rayonlarından toplanmış folklor örnəkləri), Toplayanlar: fil.ü.f.d. İlkin Rüstəmzadə, Sevinc Bağdadova. 2013. Bakı: Elm və təhsil, 460 səh.

8. Qarabağ: folklor da bir tarixdir, V kitab (Bərdə, Füzuli, Ağdam, Şuşa və Zəngilan rayonlarından toplanmış folklor örnəkləri), Toplayanlar: fil.ü.f.d. İlkin Rüstəmzadə, Zəfər Fərhadov. 2013. Bakı: Zərdabi LTD MMC, 452 səh.

9. Qarabağ: folklor da bir tarixdir, VI kitab (Cəbrayıl, Kəlbəcər, Tərtər rayonlarından toplanmış folklor örnəkləri), toplayıb, tərtib edən: fil.ü.f.d. Ləman Vaqifqızı (Süleymanova). 2013. Bakı: Zərdabi LTD MMC, 468 səh.

10. Qarabağ: folklor da bir tarixidir, VII kitab (Xocavənd rayonundan toplanmış folklor örnəkləri). Toplayıb tərtib edən: fil.ü.f.d., dos. Ləman Vaqifqızı (Süleymanova). 2014. Bakı: Zərdabi LTD MMC, 444 səh

11. Ocak, A.Y. 1992. Kültür Tarihi Kaynağı Olarak Menâkıbnâmeler (Metodolojik Bir Yaklaşım), Ankara, TTK. Basımevi, 176 say.

12. Seyidov, M. 1983. Azərbaycan mifik təfəkküründün qaynaqları. Bakı, Yazıçı, 326 səh.

13. https://az.wikipedia.org/wiki/Mənqəbə